AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

Nəcəfli Tofiq Hümbət oğlu

# AZƏRBAYCAN
# QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİ

ÇAŞIOĞLU
2012

Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.

Elmi redaktor: **Yaqub Mahmudov**
*Əməkdar elm xadimi,*
*AMEA-nın müxbir üzvü.*

Rəyçilər: *t.e.d., prof.* **Ş.F.Fərzəliyev**
*t.ü.f.d.* **X.S.Qasımov**

**Nəcəfli T.H.** Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri
*(Müasir Türkiyə tarixşünaslığında)*.
Bakı, Çaşıoğlu, 2012. - 604 səh.

Monaqrafiyada XV əsr Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin müasir Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsi öyrənilmişdir. Əsərdə Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi problemi, eyni zamanda Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi və siyasi tarixi, dövlət quruluşu, hərbi və idarə sistemi, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Teymuri, Osmanlı və Misir Məmlük dövlətləri ilə qarşılıqlı əlaqələrinin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsi araşdırılmış və dövrün mənbələrindən istifadə edilərək təhlil edilmişdir. Əsərdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə dair zəngin faktik material verilir.

Monaqrafiya tarixçilər, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixini öyrənən tələbələr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-27-358-8

© Tarix İnstitutu, 2012

## MÜNDƏRİCAT

**TÜRK XALQLARININ QARDAŞLIQ TARİXİ YENİDƏN YAZILMALIDIR**
Ön söz ........................................................ 5
GİRİŞ ........................................................ 10

**I FƏSİL**
**AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİNİN İCTİMAİ-SİYASİ TARİXİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA**
I. 1. Qaraqoyunluların mənşəyi ........................................................ 21
I. 2. Azərbaycan Qaraqoyunlu dövlətinin siyasi tarixi ........................ 39
I. 3. Azərbaycan hökmdarı Qara Yusifin siyasi fəaliyyəti və şəxsiyyəti ........................................................ 57
I. 4. Azərbaycan Qaraqoyunlu dövlətinin quruluşu ........................ 69

**II FƏSİL**
**AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA**
II. 1. Qaraqoyunlu-Ağqoyunlu münasibətləri ........................ 106
II. 2. Qaraqoyunlu-Teymuri münasibətləri ........................ 126
II. 3. Qaraqoyunlu-Gürcüstan münasibətləri ........................ 151
II. 4. Azərbaycan Qaraqoyunlu dövlətinin Osmanlı dövlətilə qarşılıqlı əlaqələri ........................................................ 153
II. 5. Azərbaycan Qaraqoyunlu dövlətinin Misir Məmlük dövləti ilə münasibətləri ........................................................ 168

**III FƏSİL**
**AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN İCTİMAİ-SİYASİ TARİXİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA**
III. 1. Ağqoyunluların mənşəyi ........................................................ 185
III. 2. Azərbaycan Ağqoyunlu dövlətinin siyasi tarixi ........................ 194

III. 3. Azərbaycan hökmdarı Uzun Həsənin şəxsiyyəti ................216
III. 4. Şərqin ilk diplomat qadını Saray Xatun..............................220
III. 5. Azərbaycan Ağqoyunlu dövlətlərinin quruluşu.................231

**IV FƏSİL**
**AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ MÜASİR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA**

IV. 1. Ağqoyunlu-Səfəvi münasibətləri.......................................261
IV. 2. Ağqoyunlu-Teymuri münasibətləri ...................................281
IV. 3. Ağqoyunlu-Gürcüstan münasibətləri.................................292
IV. 4. Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı dövləti ilə qarşılıqlı əlaqələri .......................................................................304
IV. 5. Azərbaycan Ağqoyunlu dövlətinin Misir Məmlük dövlətilə qarşılıqlı əlaqələri ..............................................................352
IV. 6. Azərbaycan Ağqoyunlu dövlətinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri .........................................................384

**V FƏSİL**
**AZƏRBAYCAN QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİNDƏ İCTİMAİ-İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT**

V. 1. Kənd təsərrüfatı və aqrar münasibətlər...............................405
V. 2. Uzun Həsən və varislərinin islahatları................................419
V. 3. Ticarətin inkişafı................................................................429
V. 4. Maarif və elm......................................................................442
V. 5. Memarlıq və incəsənət........................................................461
NƏTİCƏ ......................................................................................475
SUMMARY...................................................................................482
РЕЗЮМЕ .....................................................................................492
MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT .............................................503
ƏLAVƏLƏR ................................................................................533
GÖSTƏRİCİLƏR.........................................................................561

## TÜRK XALQLARININ QARDAŞLIQ TARİXİ YENİDƏN YAZILMALIDIR

### «Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir Türkiyə tarixşünaslığında» monoqrafiyasına

### ÖN SÖZ

Müasir tarixi şərait qardaş türk xalqlarının tarixçilərindən ötrü ümumtürk tarixini yenidən yazmaq üçün geniş imkanlar açmışdır.

Məlum həqiqətdir ki, yaxın keçmişdə Sovet İttifaqının dağılmasına qədər nə Azərbaycanın, nə Mərkəzi Asiyanın türk tarixçiləri, nə də bütövlükdə sovet türkoloqları obyektiv türk tarixi yaza bilməzdilər. Bu tarix hökmən mərkəzin – Moskvanın diktə etdiyi konsepsiyalar əsasında saxtalaşdırılmalı və təhrif olunmalı idi. Sovet rejiminin yalançı xalqlar dostluğu ruhunda yazılan əsərlərdə türk xalqları bir-birinin yağı düşmənləri kimi təqdim olunurdu. Daha doğrusu əsl qardaşlar bir-birinə düşmən, düşmənlər isə qardaş kimi təqdim edilirdi. Sovet türkoloqlarına, o cümlədən Azərbaycan tarixçilərinə türk mənbələrindən və tarixçilərinin əsərlərindən faydalanmaq yasaq idi. Sovet İttifaqının sərhədlərindən xaricdə əsər nəşr etmək isə mümkün olan iş deyildi.

Beləliklə, Azərbaycan tarixinin bir çox problemləri, o cümlədən də orta əsrlər tariximiz, əlbəttə, təhriflərdən təmizlənməlidir.

Nə qədər acı təəssüflər doğursa da qardaş türk tarixçiləri də, bir çox hallarda, ümumtürk tarixinə, o cümlədən Azərbaycanın orta əsrlər tarixi sahəsindəki tədqiqatlarına yenidən baxmalıdırlar. Hər bir türk xalqının tarixinə, onun tarixi şəxsiy-

yətlərinə, dünya tarixindəki roluna həssaslıqla, ehtiramla yanaşılmalıdır. Bir sözlə, doğru-düzgün, həqiqəti olduğu kimi əks etdirən tarix yazılmalıdır. Hər bir tarix əsəri qardaş türk xalqlarını bir-birinə daha da yaxınlaşdırmalıdır.

Bunun üçün türk xalqlarının qardaş qanı ilə yoğrulmuş və nəsillərə əmanət edilmiş tarixi üzə çıxarılmalıdır. Əmir Teymura, Uzun Həsənə, Şah İsmayıl Xətaiyə, Sultan Səlimə, Sultan Süleymana və digər tarixi simalara ümumtürk tarixinin görkəmli şəxsiyyətləri kimi eyni mövqedən, həssaslıqla, həmin tarixi şəxsiyyətlərin mənsub olduqları qardaş türk xalqlarının tarixi mənafeyi baxımından yanaşılmalıdır. Bir sözlə türkün elə bir tarixi yazılmalıdır ki, bu tarix bütün türk xalqları üçün doğma olsun, gələcək nəsilləri birləşdirən tarix olsun…

Bu baxımdan artıq tanınmış ortaəsrşünas alimimiz olan Tofiq Nəcəfli olduqca gərəkli bir addım atmışdır. O, müasir Türkiyə tarixşünaslığında Azərbaycanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə dair aparılmış tədqiqatları təhlil və tənqid süzgəcindən keçirmişdir. Daha doğrusu bu Azərbaycan dövlətlərinin tarixinə qardaş türk tarixçilərinin baxışını nəzərdən keçirmişdir.

Tofiq Nəcəfli yuxarıdakı mövzunu qələmə almaqla doğru yol seçmişdir. Əslində bütün qardaş türk ölkələrinin tarixçiləri bir-birinin tədqiqatları ilə tanış olmalı, gələcək axtarışlar üçün ümumi məxrəcə gəlməyi bacarmalıdırlar.

Tofiq Nəcəflinin tədqiqatında qaldırılan məsələlərlə yaxından tanışam. Hələ ötən əsrin 60-cı illərində bu məsələlərə baş vurduğum üçün çəkdiyim «cəzalar» da yadımdan çıxmayıb. Müəllif çox düzgün olaraq bu mövzunu qələmə alıb. Çünki qardaş ölkənin tarixçiləri – İ.H.Uzunçarşılı, H.İnalcık, F.Sümer, Y.Yucel, İ.Aka, S.Ərşahin, İ.Erdem və başqaları ümumtürk tarixini, o cümlədən Osmanlı tarixini araşdırarkən Azərbaycan tarixinə dair çox qiymətli faktlar üzə çıxarmışlar. Ayrıca olaraq Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi tarixinə dair çox sanballı tədqiqatlar ortalığa qoymuşlar. Bütün müsbət cəhətlərlə yanaşı bəzi türk tarixçiləri milli tariximizdə çox mühüm rol oynamış Qara-

qoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərini «İran dövlətləri» kimi qələmə verir, Azərbaycanın Uzun Həsən və Şah İsmayıl kimi böyük dövlət xadimlərinə nifrətlərini gizlətmirlər. Bəzi türk tarixçiləri Şah İsmayıl Xətaini hətta «İranın şiə şairi», qaraqoyunluları və ağqoyunluları isə «türkmən» elatları kimi qələmə verirlər. Biz bütün bu elmi problemlərə öz prinsipial münasibətimizi bildirməli və qardaş ölkə tarixçilərinin gələcək tədqiqatlarda bütün bu məsələlərdə obyektiv elmi mövqe tutmasına nail olmalıyıq.

Tofiq Nəcəflinin oxuculara təqdim olunan əsərinin ən mühüm uğuru bundan ibarətdir ki, həmin tədqiqat Qaraqoyunlu və Ağqoyunlu tarixini yeni faktlar və elmi nəticələrlə zənginləşdirir. Çünki Türkiyə tarixçiləri, yaxın keçmişdə SSRİ-nin «dəmir sərhədləri» içərisindən xaricə çıxa bilməyən Azərbaycan sovet tarixçilərindən fərqli olaraq, dünyanın müxtəlif ölkələrində toplanmış mənbələrdən, həmin ölkələrdə nəşr olunmuş tarix ədəbiyyatından, ilk növbədə fakt materiallarından geniş istifadə edə bilmişlər. Müəllif Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixindən bu və ya digər dərəcədə bəhs etmiş müasir Türkiyə tarixçilərinin əsərləri ilə tanış olmuş, ən zəruri mənbələri nəzərdən keçirmişdir. T.H.Nəcəfli əldə etdiyi fakt materiallarını müxtəlif mənbələr və ədəbiyyatla tutuşduraraq elmi təhlil süzgəcindən keçirmiş, müqayisəli təhlil metodundan geniş istifadə edərək ümumiləşdirmələr aparmışdır.

Müəllif həm tarixi ardıcıllığı, həm də elmi əlaqə baxımdan öz tədqiqatının ayrı-ayrı fəsilləri arasında müvafiq əlaqə yarada bilmiş, Türkiyə tarixçilərinin araşdırmaları əsasında Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi, ictimai-iqtisadi, siyasi və mədəni həyatı, Azərbaycanın siyasi tarixində onların yeri, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qonşu Gürcüstan, Teymuri, Osmanlı, Məmlük və Avropa ölkələri ilə münasibətləri barədə bitkin təsəvvür yarada bilmişdir.

«Ön söz» yazdığımız əsərin müəllifi müasir türk tarixçilərinin əsərlərində rast gəlinən bütün elmi çatışmazlıqlara və təhriflərə konkret mənbələr və faktlar əsasında öz münasibətini bildirir.

Ötən əsrin 30-cu illərindən başlayaraq Türkiyə tarixşünaslığında İ.H.Uzunçarşılının "Anadolu bəylikləri və Ağqoyunlu, Qaraqoyunlu dövlətləri" monoqrafiyasının nəşr olunması ilə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tədqiqinə başlanıldı. Bu dövrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı M.X.Yınancın iri həcmli məqalələri ilə yanaşı, Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsəri də məhz onun tərəfindən ilk dəfə elmi dövriyyəyə daxil edildi. XX əsrin 50-ci illərində Türkiyə tarixçilərindən A.S.Ərzinin, B.S.Baykalın, F.Sümerin, Ş.Turanın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin müxtəlif məsələləri ilə bağlı əsərləri işıq üzü gördü. F.Sümer və Necati Luğal tərəfindən Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərinin çap olunması Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin tarixini daha dərindən tədqiq etmək üçün tarixçilər qarşısında geniş imkanlar yaratdı.

Zaman keçdikcə bu dövrə aid yeni mənbələrin işıq üzü görməsi ilə Türkiyə tədqiqatçılarının da XV əsr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə maraqları artmış, bu tarixi yenidən nəzərdən keçirmək və dəyərləndirmək ehtiyacı ortaya çıxmışdır. Bunun nəticəsində Qaraqoyunlu və Ağqoyunlu dövlətinin tarixinə aid yeni önəmli akademik tədqiqatlar – İ.Akanın, S.Ərşahinin, İ.Erdemin, K.Paydaşın əsərləri nəşr edilmişdir. Bu əsərlərdən faydalanan T.Nəcəflinin Əmir Teymurun yürüşləri dövründə və onun bölgəni tərk etməsindən sonra Azərbaycanda yaranmış siyasi vəziyyət, Teymuri-Qaraqoyunlu münasibətləri, o cümlədən Sultan Şahruxun Azərbaycana yürüşləri, Qaraqoyunlu dövlətinin Cahanşah dövrünün siyasi tarixi, Ağqoyunluların mənşəyi, Ağqoyunlu ulusuna daxil olan tayfalar, onların tarix səhnəsinə çıxması və Şərqi Anadoluya gəlməsi məsələləri, Ağqoyunlu bəyliyinin və dövlətin siyasi, ictimai-iqtisadi və mədəni tarixi və digər məsələlərlə bağlı qiymətli materialın tarixşünaslığımıza gətirilməsinin mühüm əhəmiyyəti vardır.

Tofiq Nəcəfli təqdim etdiyi monoqrafiyasında həmçinin Ağqoyunlu dövlətinin tarixi ilə bağlı Türkiyə tarixşünaslığında son dövrlərə kimi yazılmış tədqiqat əsərlərindən yararlanmaqla

Ağqoyunlu dövlətininin siyasi tarixinin ətraflı şərhini vermiş, onun dövlət quruluşu, idarə sistemi, iqtisadi və mənəvi həyatı, Uzun Həsənin Quranı türk dilinə tərcümə etdirməsi, Ağqoyunlular dövründə Azərbaycanda xəttatlıq və miniatür sənətinin inkişafı və onun görkəmli nümayəndələri ilə bağlı məsələlərin tədqiqinə xüsusi diqqət yetirmişdir.

***«Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir Türkiyə tarixşünaslığında»*** monoqrafiyasında müasir Türkiyə tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin tədqiqi səviyyəsi öyrənilmiş, bizim üçün əlçatmaz olan qiymətli ilk mənbələrdən, arxiv sənədlərindən, xüsusən də Türkiyə arxivlərində və kitabxanalarında saxlanılan əlyazma nüsxələrindən, Məmlük tarixçilərinin əsərlərindən hərtərəfli və tənqidi şəkildə istifadə edilməklə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı sanballı bir elmi tədqiqat əsəri ortaya qoyulmuşdur.

Müəllifin **«Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir Türkiyə tarixşünaslığında»** adlı əsəri tarix elmimizdə mühüm bir istiqamətin sanballı uğurudur. Bu əsər sübut edir ki, t.ü.f.d., dosent Tofiq Nəcəfli Azərbaycan tarix elmində yetkin bir ortaəsrşünasdır. Müəllifə yeni elmi uğurlar arzulayır və onun bu əsərinin mütəxəsisslər və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacağına şübhə etmirəm.

**YAQUB MAHMUDOV**
**AMEA-nın müxbir üzvü,**
**Əməkdar elm xadimi**

# GİRİŞ

Xalqımızın orta çağlar tarixinin öyrənilməsi baxımından tarix elminin qarşısında bir sıra mühüm problemlər durmaqdadır. Vaxtı ilə pantürkizm, panislamizm və paniranizm öldürücü yarlıqları ilə yasaq olunmuş şərəfli keçmişimiz elə araşdırılmalı, bu günkü gənclərə və gələcək nəsillərə elə çatdırılmalıdır ki, onlar basılmaz qeyrət ruhu, sarsılmaz əqidə və milli qürur duyğusu ilə minillik üçün silahlanmış olsunlar, tariximizi şərəflə yaşada bilsinlər. Bu şərəfli borcu həyata keçirmək üçün Vətənimizin keçmişinin hərtərəfli və dərindən araşdırılması böyük əhəmiyyətə malikdir [112, 6, 7].

Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu dövrü kimi tanınan XV yüzillik öz tarixi-fəlsəfi mahiyyətinə görə tariximizin dönüş mərhələsi hesab edilə bilər. Azərbaycan türklərinin milli inkişaf tarixində bu dövrün xüsusi yeri vardır. Məhz XV yüzilliyin başlanğıcında Azərbaycanda yadelli ağalığına son qoyuldu və Oğuz-türk dövlətçilik ənənəsi bərpa edildi. Qaraqoyunlu və onu əvəz edən Ağqoyunlu dövlətlərinin bərqarar olması ilə Azərbaycan ərazisində Oğuzlar (türkmanlar) artıq yalnız etnik cəhətdən deyil, həm də siyasi baxımdan hakim mövqe qazandılar. Bu dönəmdə Dərbənddən Diyarbəkrə və Ərdəbildən Ərzincana qədər uzanan ərazi, yəni Azərbaycan və Şərqi Anadolu torpaqları Yaxın Şərq xalqlarının şüurunda «Türkman eli», Təbriz isə «dar-ül-mülkü Türkman» kimi qəbul edilməyə başlanmışdır [437, 112-118; 116, 163]. Uzun müddət Qərb medievistikasında Qaraqoyunlu-Ağqoyunlu dövrü, «mərkəzi müsəlman əraziləri» tarixində iki böyük dövr – Elxani-monqol və Səfəvi-Qızılbaş dönəmləri arasında sadəcə bir keçid və ya aralıq dövrü kimi qəbul edilirdi. Bu konsepsiya tərəfdarlarının fikrinə görə, Səfəvi dövləti XVI əsrdə İran milli dövlətçiliyinin bərpası dövrü idi. Beləliklə, Ağqoyunlu dövrü də sadəcə İran milli döv-

lətçiliyinin bərpası ərəfəsində bir hazırlıq dövrü hesab edilirdi [Bax: 231, 1; 182, 645-657; 116, 163]. Təbii ki, bu konsepsiya çərçivəsində Azərbaycanın XV əsr tarixinin gerçək mahiyyətini dərk etmək mümkün deyil.

Zaman keçdikcə bu dövrə aid yeni mənbələrin işıq üzü görməsi ilə tədqiqatçıların da XV əsr Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətinin tarixinə maraqları artmış, bu tarixi yenidən nəzərdən keçirmək və dəyərləndirmək ehtiyacı ortaya çıxmışdır. Bunun nəticəsində yeni önəmli akademik tədqiqatlar nəşr edilməyə başlamışdır.

Vətən tarixşünaslğında Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi, ictimai-iqtisadi tarixi ətraflı tədqiq olunmuşdur. Lakin Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi problemi, onların Azərbaycan tarixində yeri, qarşılıqlı münasibətləri, həmçinin Qaraqoyunlu-Ağqoyunlu-Osmanlı-Teymuri-Məmlük qarşılıqlı əlaqələri hərtərəfli tədqiq edilməmişdir. Uzun illər ərzində Türkiyə tarixçilərinin elmi araşdırmalarından tarixçilərimiz hərtərəfli faydalanmamışlar. Azərbaycan tarixinin müxtəlif dövrlərinin tədqiqi ilə məşğul olan türk tarıxçiləri uzun müddət ərzində «ideoloji düşmən» hesab edilmiş, onların əsərlərinə elmi baxımdan qiymət verilməmiş, müəlliflər isə «burjua tarixçisi» adı ilə tənqidlərə məruz qalmışlar. Buna görə də, XV əsr Azərbaycan dövlətlərinin tarixinin Türkiyə tarixşünaslığında tədqiqinə ətraflı baxış obyektiv zərurətdir. Sovet-Türkiyə münasibətlərinin qeyri-qənaətbəxş olması nəticəsində tarixçilərimizin Türkiyə tarixşünaslığına lazımi səviyyədə müraciət etməməsi problemin aktuallığını şərtləndirən amillərin başlıcasıdır. Nadir əlyazmalar və ilk mənbələrdən yararlanan Türkiyə tarixçilərinin əsərlərinin hərtərəfli araşdırılması tarixşünaslığımızda problemlə bağlı olan boşluğu bərpa etməyə imkan yaradır.

Azərbaycan tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixi ilə bağlı olan məsələlərin əsasən tədqiq olunduğunu nəzərə alaraq monoqrafiyada daha çox bu dövlətlərin tədqiqata cəlb olunmamış və lazımi səviyyədə araşdırılmamış məsələlərinə başlıca diqqət yetirilmişdir.

Müasir Türkiyə tarixşünaslığında Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin tədqiqi və təhlili zamanı dövrün türk, fars və ərəb mənbələrindən istifadə edilmişdir. XIV əsrin sonunda Qaraqoyunlu tayfalarının Azərbaycanda baş vermiş siyasi mübarizədə iştirakı, Qaraqoyunlu-Teymuri münasibətləri Zeynəddin bin Həmdullah Qəzvininin əsərində [5] öz əksini tapmışdır. Qaraqoyunlularla bağlı mühüm məlumata Nizaməddin Şaminin «Zəfərnamə"sində [46; 12] rast gəlmək olur. Burada Qaraqoyunlu Qara Yusifin Cəlairi Sultan Əhmədlə münasibətləri, Qaraqoyunlu-Osmanlı, Qaraqoyunlu-Teymuri münasibətləri müəllif müşahidələri əsasında yazıldığından əsər ilkin mənbə kimi daha qiymətlidir. Dövrün fars dilli qaynaqları arasında Şərəfəddin Yəzdinin «Zəfərnamə» əsəri [15; 16] mühüm yer tutur. Əsərdə Əlincə qalasının 14 il davam edən mühasirəsi, Sultan Əhməd Cəlairi və Qara Yusifin «Rum sultanı» İldırım Bayəzidə sığınmaları, Əmir Teymurun təhdidi ilə Türkiyədən çıxıb Şama getmələri və nəhayət Teymur ordusunun «Rum diyarına» hücumunun əsas səbəbi izah edilir. Müəllif Nizaməddin Şami kimi Əmir Teymurun Türkiyəyə hücumunun səbəbini «fıtnə fəsad sahibi» Qara Yusiflə bağlı olduğunu göstərir. Əsərdə Qaraqoyunlu-Teymuri münasibətlərinə aydınlıq gətirən müəllif Əmir Teymurla Qaraqoyunlu Qara Yusif arasındakı düşmənçiliyin səbəbi kimi Qara Yusifin Toxtamış xana yardım göstərməsini bildirir.

Tarixi Azərbaycan torpaqlarında Qaraqoyunlu dövlətinin yaranması, Qaraqoyunlu-Ağqoyunlu, Qaraqoyunlu-Teymuri, Qaraqoyunlu-Osmanlı münasibətləri Fəsih Xavafinin əsərində [67] öz əksini tapmışdır. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması, Qaraqoyunlu-Ağqoyunlu-Teymuri, Qaraqoyunlu-Ağqoyunlu-Osmanlı münasibətləri Əbdürrəzzaq Səmərqəndinin «Mətləüs-sədeyn və məcməül-bahreyn» adlı əsərində ətraflı verilmişdir [11].

Əbubəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» adlı əsəri Qaraqoyunlular və Ağqoyunlular haqqında geniş məlumat verən qiymətli mənbədir [50; 13; 50]. Əsərdə Ağqoyunlu sülaləsinin

mənşəyi, Ağqoyunlu-Qaraqoyunlu, Qaraqoyunlu-Osmanlı-Teymuri, Ağqoyunlu-Osmanlı-Teymuri münasibətləri daha ətraflı əks olunmuşdur. Fəzlullah ibn Rüzbehan Xuncinin «Tarixi aləmarayi-Əmini» əsəri [68] xronoloji baxımdan Əbu-Bəkr Tehraninin qeyd etdiyimiz kitabının birbaşa davamıdır. «Tarixi aləmarayi-Əmini» əsərində Ağqoyunlu dövlətinin siyasi tarixi, Ağqoyunlu-Teymuri, Ağqoyunlu-Osmanlı münasibətləri ilə bağlı mühüm məlumatlar verilmişdir.

Tacəddin əs-Səlmaninin «Tarixnamə» əsərində [66] Qaraqoyunlu-Teymuri münasibətlərilə bağlı mühüm məlumat öz əksini tapmışdır. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixinin öyrənilməsində XVI əsr müəllifləri Həsən bəy Rumlunun [10; 43; 45] və Şərəfxan Bidlisinin [59; 59] əsərlərinin mühüm əhəmiyyəti vardır. Həsən bəy Rumlunun «Əhsənüt-təvarix» əsərində Qaraqoyunlu-Osmanlı, Qaraqoyunlu-Ağqoyunlu-Teymuri münasibətləri haqqında ətraflı məlumat verilmişdir.

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələri tədqiq olunarkən Firudin bəyin və Əbdül Hüseyn Nəvayinin nəşr etdirdikləri sənədlər və məktublar toplusundan geniş istifadə edilmişdir [Bax: 34; 9].

XV əsr Azərbaycan dövlətlərinin Osmanlı dövləti ilə qarşılıqlı əlaqələrinin öyrənilməsində Osmanlı tarixçilərinin əsərləri önəmli yer tutur. Narrativ Osmanlı mənbələrində Azərbaycan tarixi barədə sistemli məlumat yoxdur. Azərbaycan Osmanlı salnaməçilərinin diqqətini yalnız XV əsrdən başlayaraq Osmanlı sultanlarının şərq yürüşləri zamanı özünə cəlb etmişdir. Bəlkə də elə buna görə tədqiqatçılarımız fars mənbələrinə nisbətən Osmanlı mənbələrindən az istifadə etmişlər. Müasir Türkiyə tarixşünaslığını tədqiq etdiyimiz üçün Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin Türkiyə tarixşünaslığında tədqiqinə obyektiv qiymət vermək məqsədilə yeri gəldikcə epistolyar* Osmanlı irsinə xüsusi diqqət yetirmişik.

* Dövlətlərarası münasibətlərin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən yazışma sənədləri.

XV əsrin Osmanlı tarixçilərindən Dursun bəy özünün «Tarixe-Əbulfəth» [52] əsərində Ağqoyunlu-Osmanlı münasibətlərinə xüsusi yer vermişdir. Burada Sultan II Mehmedin Trabzonu fəth etməsi ilə bağlı olaraq gərginləşən Osmanlı-Ağqoyunlu münasibətləri və Ağqoyunlu-Qaraqoyunlu-Teymuri əlaqələrinə xüsusi diqqət yetirilmişdir. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixi, Ağqoyunlu-Qaraqoyunlu-Osmanlı münasibətləri Şükrüllahın [49], Məhəmməd Nəşrinin [41; 42], Aşıq Paşazadənin [22; 23] əsərlərində öz əksini tapmışdır. Ağqoyuniu-Osmanlı münasibətləri, xüsusən də 1473-cü il Ağqoyunlu-Osmanlı müharibəsi «Fateh Sultan Mehmedin yarlığında» [21] ətraflı şəkildə verilmişdir. Burada Ağqoyunlu-Osmanlı münasibətlərinin pisləşməsinin səbəbi, Otluqbeli döyüşü və onun nəticələri geniş təsvir olunmuşdur.

Tədqiq olunan problemin araşdırılmasında XVI əsr Osmanlı tarixçisi İbn Kamalın «Təvarixi-ali-Osman» əsərinin VII dəftəri [38] mühüm yer tutur. Müəllif Ağqoyunlu-Osmanlı münasibətlərinə xüsusi diqqət yetirərək Sultan II Mehmedin Ağqoyunlu dövlətinə («Türkman elinə») hücumunun səbəblərini, 1473-cü il savaşını, Uzun Həsənin məğlubiyyətini, Uğurlu Məhəmmədlə Uzun Həsənin ixtilafı, həmçinin başqa əlaqədar hadisələri təfərrüatı ilə təsvir etmişdir.

Osmanlı tarixçilərinden Xoca Sadəddin Əfəndi «Tacüttəvarix» [36; 37] əsərində Qaraqoyunlu dövlətinin yaranması, Qaraqoyunlu-Ağqoyunlu-Teymuri, Qaraqoyunlu-Ağqoyunlu-Osmanlı münasibətləri haqqında ətraflı məlumat vermişdir. Əsərdə Sultan Mehmed Fatehin Uzun Həsənə məktubu verilmiş, Otluqbeli döyüşü daha ətraflı şərh olunmuşdur.

Osmanlı tarixçilərindən Hüseyn Əfəndinin «Bədai ulvəqai» [69] adlı əsərində XV əsr Azərbaycan dövlətlərinin Osmanlı dövlətilə münasibətləri, o cümlədən Cəlairi-Qaraqoyunlu-Teymuri-Osmanlı əlaqələri, Qara Yusifin Osmanlı sultanı I Mehmedlə dinc münasibətləri, II Sultan Murad və Qaraqoyunlu İsgəndər arasındakı ziddiyyət, Ağqoyunlu-Osmanlı münasibətləri (Osmanlı müəlliflərinə xas olmayan cəhətdir ki, müəllif ağ-

qoyunlularla ziddiyyətin başlanmasında əsasən II Sultan Mehmedi təqsirləndirir), məşhur Otluqbeli döyüşünün təfsilatı və dəqiq tarixi, ağqoyunlulara qarşı Osmanlı qoşununda Qaraqoyunlu əmirlərinin də döyüşməsi haqqında məlumat vermişdir.

Mövzunun araşdırılması zamanı Türkiyədə cap olunmuş sənədlər toplusundan [41] və Övliya Çələbinin "Səyahətnamə"-sindən [30; 31; 2] də istifadə olunmuşdur. XVII əsrdə yaşamış Övliya Çələbi Səfəvi dövlətinə dəfələrlə səyahət etmişdi. O, XV əsrdə mövcud olmuş Qaraqoyunlu və Ağqoyunlu dövlətlərini Azərbaycan dövlətçiliyinin tərkib hissəsi kimi təqdim edərək, onların məşhur hökmdarları olan Qara Yusif və Uzun Həsəni Azərbaycan şahları adlandırmışdır [31, 199, 217, 220, 243; 118, 225]. XV əsr Osmanlı müəlliflərindən fərqli olaraq, Övliya Çələbinin Azərbaycan şahlarından bəhs etməsi, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərini faktiki olaraq Azərbaycan dövlətləri kimi təqdim etməsi dövlətçilik tariximiz baxımından olduqca önəmlidir.

Müasir türk tarixşünaslığında problemin tədqiqi səviyyəsinin öyrənilməsi və təhlili zamanı T.Metsopskinin [7], R.T.Klavixonun [61], İ.Şiltbergerin [70, K.Zenonun, İ.Barbaronun, A.Kontarininin, C.M.Anciolello və Venesiyalı tacirin səyahətnamələrindən [26; 45; 57; 58] də faydalanılmışdır.

Azərbaycan tarixşünaslığında Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin tədqiqi işinə 40-cı illərdə İ.P.Petruşevski tərəfindən başlanmışdır. Onun XV əsr Azərbaycan dövlətlərinin tarixinə dair araşdırmaları 1949-cu ildə nəşr olunmuşdur [Bax: 414, 144-213]. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi və siyasi tarixi C.İbrahimovun [Bax: 96; 97; 394], M.Abidovanın [364], Y.Mahmudovun [Bax: 109; 110; 111; 112; 407], Ş.Fərzəliyevin [Bax: 91; 92; 93], M.Seyfəddininin [Bax: 430], O.Əfəndiyevin [435], S.Məmmədovun [406] və başqalarının monoqrafiyalarında öz əksini tapmışdır. Lakin bu əsərlərdə Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi problemi, bu tayfaların Azərbaycanın siyasi tarixində oynadığı rol, Qaraqoyunlu-Ağqoyunlu-Osmanlı müna-

sibətləri və digər məsələlər geniş şəkildə tədqiq olunmamışdır.

Respublika dövründə (1923-cü ildən etibarən) Türkiyənin həyatının bütün sahələrində – habelə maarif və elmin inkişafında böyük dönüş baş verdi. Bu dövrün milli maarif nazirliyi maarif məsələlərində M.K.Atatürkün fikirlərindən faydalanmış, onun elmin bütün sahələrində, o cümlədən tarix elmində «millətçi, xalqçı, inqilabçı, dünyəvi, respublikaçı vətəndaşlar yetişdirmək» [Bax: 343, 1077-1078] prinsipini 1924-cü ilin 3 mart fərmanı ilə qanuniləşdirmişdir. Lakin tarix elminin hərtərəfli inkişafı prosesi bir qədər sonra, 1931-ci ildə M.K.Atatürkün təşəbbüsü ilə «Türk Tarixi Qürumu» (TTQ) təsis edildikdən sonra başlandı. Cəmiyyət aprelin 15-də Yusif Akçuranın sədrliyi ilə fəaliyyətə başladı. Onun yaradılması işində Ə.Cəfəroğlu, A.Kurat və Z.V.Toğan yaxından iştirak etmişdilər [345, 4].

TTQ yarandığı ildən etibarən türk və dünya tarixinin müxtəlif problemləri ilə əsaslı surətdə məşğul olmuş, elmi konfranslar təşkil etmiş, nəşr işini nizamlamışdı. Onun strukturu və gördüyü işlər Gökər Fəxrinin 1983-cü ildə nəşr etdirdiyi əsərdə [219] özünün geniş əksini tapmışdır. Türkiyədə tarixi tədqiqat işi yalnız TTQ ilə məhdudlaşmır. Respublika dövründə yenidən qurulmuş İstanbul Universitetində, 1935-ci ildə yaradılmış Ankara Universitetində tarix həm tədris, həm də tədqiq edilir.

Avropa və ABŞ tarix elmindən fərqli olaraq Türkiyə tarixşünaslığında məktəblərə və ya cərəyanlara ayrılma kəskin şəkildə sezilmir. Burada hər bir tarixçi məşğul olduğu problemə M.K.Atatürkün «xalqçı, inqilabçı, dünyəvi, respublikaçı və millətçi» olmaq prinsiplərindən yanaşır [243, 163-164]. Lakin bu o demək deyildir ki, eyni bir problemlə məşğul olan tarixçilərin hamısı məsələlərə vahid mövqedən yanaşmış, ümumi nəticələrə gəlmişlər. Z.V.Toğan yazır: «Zatən, insanın hadisələrə qiymət vermək barəsində daima işinə yarayacaq sabit və qərarlaşmış bir meyarı yoxdur. «Əbədi həqiqətlər» deyilən şeylər də hər cəmiyyətin, hər zamanın, hətta bir cəmiyyət daxilində müxtəlif qrupların və şəxslərin dərk etməsinə görə başqa-başqa şəkillər alır» [337, 114]. Məhz bu mənada Türkiyə tarixçilərinin Azərbayca-

nın tədqiq olunan dövrünün müxtəlif problemləri haqqındakı fikirləri fərqlənir.

Türkiyə tarixşünaslığında mövzu ilə bağlı fikir ayrılıqları isə tarixçilərin o dövrün Türkiyə tarixində həlledici rol oynamış siyasi dairələrə münasibəti və onların ictimai həyatda tutduqları mövqeyi ilə müəyyən olunur.

TTQ-nun yaradılmasından sonra Azərbaycan tarixinin tədqiqinə maraq artmağa başladı. 1932-ci ildə Azərbaycan tədqiqatçısı Ə.Cəfəroğlunun rəhbərliyi ilə «Azərbaycan Yurd Bilgisi» jurnalı nəşr olunmağa başlandı. Bu jurnalda F.Köprülünün [260], Z.V.Toğanın [333], Ə.Cəfəroğlunun [184] Azərbaycanın orta əsrlər taprixinə dair məqalələri çap edildi.

Problemin Türkiyə tarixşünaslığında tədqiqi əsrimizin 20-cı illərində yox dərəcəsində idi. Yalnız Rza Nurun 12 cildlik əsəri istisna təşkil edir. O, əsərinin 4-cü cildində Qaraqoyunlularla Ağqoyunlular haqqında müxtəsər məlumat verməklə kifayətlənmişdir [297]. 30-cu illərin əvvəllərində Əli Kəmalinin [245], sonra isə Əbdürrəhim Şərif bəyin [322] əsərlərində Qaraqoyunlu və Aftqoyunlu dövlətlərinin tarixinin bəzi məsələləri tədqiq olunmuşdu. Türkiyə tarixşünaslığında problem ilk dəfə İ.H.Uzunçarşılının monoqrafiyasında [347; 124, 40] xüsusi tədqiqat obyekti kimi araşdırılmışdır. İ.H.Uzunçarşılı ilkin qaynaqlara istinad cdərək Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-sıyasi tarixinin canlı mənzərəsini yaratmışdır. İ.H.Uzunçarşılının bu əsəri problemin Türkiyə tarixşünaslığında tədqiqi sahəsində ilk nümunə olmuş və sonrakı araşdırmalar üçün mühüm rol oynamışdır.

40-cı illərin əvvəllərində M.X.Yınançın problemlə bağlı olan əsərləri nəşr olundu [357; 358]. M.X.Yınanç Ağqoyunlulara həsr edilmiş tədqiqatında ilkin qaynaqlara əsaslanaraq Ağqoyunluların mənşəyi problemi, onların Azərbaycanda və Şərqi Anadoluda məskunlaşması tarixi, dövlətin yaranması, onun qonşu dövlətlərlə münasibətləri haqqında dəyərli fikirlər irəli sürmüşdür. M.X.Yınanç Qaraqoyunlu dövlətinin Cahanşah dövrünü də geniş şəkildə tədqiq etmişdir [358]. O, bu əsərlə-

rində ilk dəfə olaraq Qaraqoyunlu və Ağqoyunlu dövrünün mənbəyi olan Əbubəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsərindən geniş surətdə istifadə etmişdir. Bu mənbəyə əsaslanan müəllif bir çox tarixi gerçəklikləri aydınlaşdırmışdır [124, 40-41].

Z.V.Toğan 1946-cı ildə nəşr olunmuş «Ümumi türk tarixinə giriş» [335] aldı əsərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixinə xüsusi diqqət yetirmişdir. 40-cı illərin sonunda və 50-ci illərdə F.Sumerin problemlə bağlı olan elmi məqalələri çap olunmağa başladı [309; 307]. Bu əsərlərdə əsas diqqət Qaraqoyunlulara və ümumiyyətlə Oğuz tayfalarına verilmişdir. 50-ci illərin əvvəllərində F.Kırzıoğlunun nəşr etdirdiyi əsərlərdə [249; 250] də Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi, onların Azərbaycanda məskunlaşması, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixinin bəzi məsələləri tədqiq olunmuşdur.

Ötən əsrin 50-60-cı illərinin Türkiyə tarixşünaslığı problemin işıqlandırılması baxımından çox zəngindir. Bu illərdə tədqiq olunan dövrün müxtəlif məsələləri haqqında S.Tanselin [326], A.S.Ərzinin [218], Y.Öztunanın [282; 283], Ş.Turanın [342], F.Sumerin [313; 314], O.Turanın [340] və B.S.Baykalın [179; 180] əsərləri çap olundu. Bu əsərlərin əksəriyyətində Ağqoyunlu-Osmanlı münasibətlərinə daha geniş yer verilmişdir. Səlahəddin Tansel Fateh Sultan Mehmedin siyasi və hərbi fəaliyyətinə həsr edilmiş monoqrafiyasında [326] Osmanlı mənbələrinə istinad edərək Ağqoyunlu-Osmanlı münasibətlərini birtərəfli qaydada şərh etmiş və Osmanlıların Şərqdə yeritdiyi istilaçılıq siyasətinə haqq qazandırmışdır. F.Sümer Qaraqoyunlulara dair əsərində Qaraqoyunlu dövlətinin yaranmasında əsas rol oynamış Qaraqoyunlu tayfalarının mənşəyi, onların Azərbaycanın və Şərqi Anadolunun siyasi tarixində oynadığı rolu və dövlətin siyasi tarixinin Cahanşahın hakimiyyətinə qədərki dövrünü ətraflı şəkildə işıqlandırmışdır [Bax: 313].

XX əsrin 70-80-cı illərində Türkiyədə öyrənilən problemin müxtəlif tərəfləri ilə bağlı əsərlərin nəşr işi davam etdirildi. O.Turanın [341], M.Ərəndilin [212], F.Sumerin [317; 318],

Y.Yücelin [363], İ.Barmaqsızoğlunun [285; 286], İ.Akanın [161; 162; 164], Ə.Çayın [191], K.Gürünün [228] əsərlərində tədqiq olunan dövrün müxtəlif məsələləri öz əksini tapmışdır. F.Sümer yenidən Ağqoyunlularla bağlı mövzuya qayıtmış və buna dair bir neçə məqaləsini nəşr etdirmişdir [318; 319; 320]. İsmayıl Akanın Qaraqoyunlu-Teymuri münasibətlərinə aid olan araşdırmaları da xüsusi maraq doğurur. Yuxarıda adları qeyd olunan bütün tarixçilərin problemlə bağlı olan başlıca fikirləri monoqrafiyanın fəsillərində ətraflı şəkildə təqdim olunur.

Keçən əsrin sonlarında Türkiyə tarixşünaslığında problemin müxtəlif tərəflərilə bağlı əsərlər nəşr edilmişdir [165; 166; 171; 244; 252; 301; 302].

Türkiyə tarixşünaslığında XXI əsrin əvvəllərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı yeni əsərlər çap olunmuşdur [169; 204; 215; 274; 174[b]].

Belə əsərlərdən biri İsmayıl Akanın "İranda Türkmən hakimiyyəti (Qaraqoyunlu dövrü)" adlı monaqrafiyasıdır [Bax: 169]. Əsərdə əsas diqqət Qaraqoyunlu dövlətinin Cahanşah dövrünün siyasi hadisələrinə, xüsusən də Qaraqoyunlu – Teymuri münasibətlərinə yönəldilmişdir. Bununla yanaşı, Qaraqoyunlu hökmdarı Cahanşah dövrünün ictimai-iqtisadi, siyasi və mədəni tarixi məsələləri A.A.Arayancanın əsərində hərtərəfli tədqiq olunmuşdur [174[b]].

Belə nəşrlərdən biri də Seyfəddin Ərşahinin «Ağqoyunlular. Siyasi, kültürəl, iqtisadi və sosial tarix» adlı monaqrafiyasıdır [215]. S.Ərşahinin monaqrafiyasında Ağqoyunluların siyasi tarixi ilə yanaşı, onların iqtisadi, sosial və mədəni tarixi də araşdırılmışdır. Məhz bu əsərdə Ağqoyunlu dövlətinin tarixinin bir tam halında tədqiqinə təşəbbüs göstərilmişdir. Müəllif ilk dəfə olaraq Qara Yülük Osman bəyin «Öyüdnaməsi»ni tədqiqata cəlb edərək Ağqoyunlularda hakimiyyət anlayışının izahını vermişdir. Burada həmçinin, Uzun Həsəndən etibarən hakimiyyət məfkurəsindəki dəyişiklik və eləcə də Ağqoyunluların ictimai və hərbi idarə quruluşu ətraflı şəkildə öz əksini tapmışdır. Əsərdə diqqəti cəlb edən mühüm cəhət, Ağqoyunluların hakimiyyəti

gücləndirmək məqsədi ilə Səfəviyyə, Xəlvətiyyə, Nurbəxşiyyə və Bayramiyyə təriqətləri ilə əlaqələrinin tədqiq edilməsi və onların dini görüşlərinin araşdırılmasıdır [Bax: 215, 162-177; 134, 60-68].

S.Ərşahin əsərində «Ağqoyunlu tarixini öz milli tarixlərinin bir parçası kimi görən Azərbaycanlılar …» [Bax: 215, 22], ifadəsini oxucuya çatdırmaqla kifayətlənərək bu məsələyə öz münasibətini bildirmir. Əsərin başqa səhifələrində müəllif bizim üçün prinsipial olan bu məsələyə, yəni Ağqoyunluların milli mənsubiyyətinə dair aydın fikir söyləmir.

Son dövrlərdə Türkiyə tarixşünaslığında Ağqoyunlu dövlətinin tarixi ilə bağlı yeni əsərlər işıq üzü görmüşdür. Belə əsərlərdən biri də Türkiyə tarixçiləri İlhan Erdem və Kazım Paydaşın «Ağqoyunlu dövləti tarixi. Siyasət- təşkilat- kültür» adlı monaqrafiyasıdır [204].

İ.Erdem və K.Paydaşın monoqrafiyasını Ağqoyunlu dövlətinin tarixinə aid yazılmış digər əsərlərdən fərqləndirən mühüm cəhətlərdən biri budur ki, burada dövrün qaynaqlarından və son dövrlərə kimi yazılmış elmi tədqiqat əsərlərindən yararlanmaqla Ağqoyunlu dövlətininin siyasi tarixinin ətraflı şərhi verilmiş, dövlət quruluşu, idarə sistemi və mənəvi həyatla bağlı məsələlərin tədqiqinə xüsusi diqqət yetirilmişdir [128, 35-42].

# I FƏSİL
# AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİNİN İCTİMAİ-SİYASİ TARİXİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

## *I. 1. Qaraqoyunluların mənşəyi*

Azərbaycan xalqı ziddiyyətli, çoxəsrlik inkişaf yolu keçmiş və bəşər mədəniyyəti sistemində, insanlıq tarixində mühüm mövqe qazanmışdır. Bu obyektiv tarixi həqiqəti bir sıra qədim mötəbər mənbələr, aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş mədəniyyət nümunələri təsdiq etməkdədir.

Xalqımızın təşəkkülündə iştirak etmiş qədim tayfa birliklərindən biri də Qaraqoyunlulardır. Qaraqoyunlu tayfasının mənşəyi məsələsi uzun illər ərzində tarixşünaslığımızda tədqiqat obyekti olmamış, bu tayfa birliyini təşkil etmiş tayfaların və boyların Azərbaycanın, Şərqi Anadolunun həm türkləşməsində, həm də siyasi, ictimai-iqtisadi və etnik tarixində oynadığı rol lazımi səviyyədə öyrənilməmişdir. Tarixi qaynaqlardan məlum olur ki, bu tayfa birləşməsi «türkman» adlanan etnik qrupa mənsub idi. Müasir dövrdə türkmən /türkman şəklinə düşmüş bu ad tarixi mənbələrdə öz əksini hansı fonetik variantlarda tapmışdır? Bir Xalac rəvayətində deyilir ki, Makedoniyalı İsgəndər şərqdə Xalac tayfaları ilə qarşılaşarkən onların türklərə oxşadığını qeyd edir və bu səbəbdən də xalacları «türk manənd» (türkə bənzər) adlandırır. Beləliklə, ilk dəfə «türkmən/türkman» ifadəsi meydana çıxmışdır [Bax: 40, 411-415]. V.V.Bartold yazır: «Türkmənlər»... bu ad XI əsrdə ilk əvvəl İran tarixçiləri Qardizi və Əbül Fəzl Beyhəqi tərəfindən fars dilinin cəmində - «türkmanan», türklərdə «oğuz», ərəblərdə isə «quzz» formasında işlənmişdir [378, 572; 122, 50].

«Türkmən» istilahı ilk dəfə ərəb coğrafyaşünası əl-Müqəddəsinin əsərində «ət-türkman» və yaxud «türkmaniyyun» şəklin-

də xatırlanmışdır [376, 525; 377, 72; 379, 585]. V.V.Bartold F.Xirtin verdiyi məlumatlara istinad edərək türkmən ifadəsinin hələ VIII əsr Çin ensiklopediyası «Tundyan»da «teqomen» formasında işləndiyini göstərmişdir [Bax: 379, 572, 585; 122, 50].

«Türk manənd» - əsil məkanı və mənşəyi çox da aydın olmayan bu sözü Mahmud Qaşğari fars etimologiyasına əsasən «türkə bənzər», «türkə oxşar» şəklində təqdim etmişdir [40, 415].

Tədqiqatçıların fikrinə görə, X əsrdə oğuzlar islam dinini qəbul etdikdən sonra onlara «türkmən/türkman» deyilmişdir. V.V.Baritold yazır: « . müsəlman - ğuzlar həmçinin «türkman» (türkmənlər) adlandırılmağa başlandılar [378, 525]. Eyni fikri V.İ.Jirmunski də müdafiə etmişdir. V.İ.Jirmunski yazır: "Türkmən" etnik istilahına ərəb mənbələrində X əsrin II yarısından etibarən təsadüf olunur. İlk əvvəl, görünür o bu dövrə yaxın müsəlmanlığı qəbul etmiş oğüz qrupunu ifadə etmişdir» [396, 524]. Türk tədqiqatçısı F.Köprülü də Mahmud Qaşğarinin məlumatlarına əsaslanaraq «türkman» adının müsəlman əqidəli oğuzlara verildiyini göstərmişdir [262, 152]. Bu fıkri Orxan Şaiq də müdafiə edir [258, XXXVI]. Faruq Sümer də Biruninin verdiyi məlumatlara əsaslanaraq islamı qəbul etmiş oğuzlara «türkman» deyildiyini qəbul edir [314, 51]. Lakin türk tarixçilərindən İ.Kafəsoğlu belə qənaətdədir ki, türkman terminini islamı qəbul etmiş oğuzlara şamil edilməsini qəbul etmək olmaz. Çünki qaynaqlarda oğuzlardan öncə islamı qəbul etmiş türk tayfalarında öz adını dəyişdirməsi haqqında qeydlər yoxdur. Onun fikrincə, «türkman» sözü siyasi termin kimi hələ IX əsrdən etibarən işlənilməyə başlamış və «əsil», «böyük türk» mənasını ifadə etmişdir [Bax: 242, 121-133].

Bu dəlillər bir daha göstərir ki, etnik məna kəsb edən «türkman» istilahı tarixən daha geniş anlamlı olmuşdur. Həmin istilah islam dinini qəbul etmiş bütün oğuz tayfalarına şamil olunmuş bir ad idi. Orta əsr müəllifləri də bu fikrin gerçəklıyini təsdiq etmişlər. Mahmud Qaşğari yalnız oğuzları deyil, hətta qarluqların özünü də «türkman» adlandırmışdır [39, 351].

Beləliklə, orta əsr mənbələrində etnik səciyyə daşıyan «türkmən» istilahını hər yerdə istisnasız olaraq müasir mənada anlamaq elmi cəhətdən düzgün deyildir. Təsadüfı dəyildir ki, tarixən istər Mahmud Qaşğari (XI əsr) və istərsə də F.Rəşidəddin (XIV əsr) türkmanları tayfa kimi təqdim etməmiş və onların yayıldığı ərazilər haqqında dəqiq bir məlumat vərməmişlər [377, 273; 122, 50]. Çünki hər iki müəllif «türkman» sözünü islam dinini qəbul etmiş oğuzlara verilmiş bir ad kimi işlətmişdir.

Məlumdur ki, XI əsrdə Azərbaycana və Kiçik Asiyaya gəlmiş türk-səlcuq tayfalarının əsas hissəsini oğuzlar və türkmanlar təşkil etmişdir [395, 74]. Türk alimi Z.V.Toğana görə, oğuzların «oğuz» və «türkmən» adları ilə iki qismə bölünməsi də məhz səlcüqların hökmranlığı dövründə meydana gəlmişdir [335, 187].

Tarixən «türkman» istilahı həm də oğuzların daha çox köçəri həyat keçirən hissəsinə şamil edilmişdir. V.V.Bartold və V.M.Jirmunski də «türkmən» istilahını oğuz tayfalarının köçəri həyat tərzi keçirən hissəsinə verilmiş bir ad kimi işlətmişdir [378, 572-575; 396, 524]. «Bir çox məxəzlərdə türkmanların yalnız Türkmənistanın indiki ərazisində deyil, eləcə də Qafqaz, Cənubi Azərbaycan, Kiçik Asiya və müasir İran ərazisində də yaşadıqlarını və onların oturaq azərbaycanlılardan fərqləndiyini qeyd edirlər. Bundan belə nəticə çıxarmaq olar ki, türkmənlər qədim oğuzların daha çox köçəri həyat tərzi keçirən hissəsinə deyilir və bunun izləri müasir Azərbaycan dilində «tərəkəmə» kəlməsində qalır» [76, 154]. Maraqlıdır ki, orta əsrlərin Bizans müəllifləri də Kiçik Asiyadakı köçəri oğuzları «türkmən» adı ilə təqdim etmişdir [258, XXXVI; 396, 524; 122, 51].

Z.M.Bünyadov və O.Ə.Əfəndiyev yazırlar ki, XIV-XV əsrlərdə «Qaraqoyunlu» və «Ağqoyunlu» adlarını almış tayfalar və qəbilələr özlərini vahid türkman xalqının hissələri hesab edirdilər. Onlar özlərini Kiçik Asiyanın (Osmanlı, Rumlu) və Orta Asiyanın (Cığatay) türkmənlərindən fərqləndirirdilər. Həmin dövrdə Azərbaycan türkmanları Orta Asiyadan köçmüş uzaq əcdadlarından dilinə, mədəniyyətinə görə güclü şəkildə

fərqlənirdilər və yerli əhali ilə qaynayıb-qarışmışdılar [68, 5].

Oaraqoyunlu tayfasının adı və mənşəyi məsələsilə əlaqədar olaraq Türkiyə tarixşünaslığında müxtəlif mülahizələr irəli sürülmüşdür. Faruq Sümer yazır: «Qaraqoyunlu tayfasının adı bu gün hakım olan ümumi qənaətə görə, totemlərinin qoyun olması ilə əlaqəli sayılsa da, qədim türklərdə digər tayfalarda olduğu kimi totem olan heyvanların ətinin yeyilməsi qəbul olunmadığına görə bu adın onlara aid sürülərinin rəngi ilə bağlı verilmiş olması mümkündür» [307, 292; 313, 13; 122, 51]. Əbdülxaluq Çay Faruq Sumerin bu fikrini müdafiə edir və başlıca məşğuliyyəti heyvandarlıq olan Qaraqoyunlulara bu adın bəslədikləri heyvanların rənginə görə verildiyini əsaslandırmağa çalışır [191, 125]. Türklərdə qoyunun totem mahiyyətində olmasına dair Türkiyə tarixçiləri arasında fikir ayrılığı vardır. Məsələn O.Turan [339, 85], E.Esin [219, 10] və H.Z.Koşay [257, 257] qoyunun (qoçun) əski türklərdə başlıca totemlərdən biri olması fikrindədirlər.

Yurdumuzda qoyunun (qoçun) əski zamanlarda əhali arasında totem səciyyəsi daşıdığını R.Əfəndiyev [85, 21, 24] və M.Seyidov [151, 29] da qeyd edirlər. Bu adın qaraqoyunlulara verilməsi ilə əlaqədar olaraq M.Seyidov yazır: «Qaraqoyunların adları onların fəlsəfi mifoloji görüşləri, inamları, ictimai quruluşları ilə sıxı bağlıdır. Qaraqoyunların adlarının qoyulması ibtidai qəbilə quruluşundan qabaqkı dual təşkilatın qanunları ilə səsləşir» [429, 23].

Qoyunun «onqon» olduğunu türklərin qədim dastanı olan «Oğuznamə» də aydın göstərir. Dastanda qeyd edilir ki, «Oğuz xaqan böyük ordugah, ... sağ tərəfdə qırx qulac ucalığında ağac dikəltdi: onun başına bir qızıl toyuq qoydu, ayağına bir ağ qoyun bağladı. Sol tərəfdə qırx qulac ağac dikəltdi. Onun başına bir gümüş toyuq qoydu, ayağına bir qara qoyun bağladı. Sağda Bozoqlar oturdıı. Solda Üçoqlar oturdu» [25, 14; 71, 64; 151, 137, 138]. Dastandan məlum olur ki, Oğuz Xaqan oğlanlarını iki soya - Bozoqa və Üçoqa bölmüş və hərəsinə də ayrıca onqon - ağqoyun və qaroqoyun, qızıl toyuq, gümüş toyuq vermişdi.

M.Seyidovun fikrincə, ağ və qara qoyuna tapınmış Bozoq, Üçoq qəbilələrində toyuq zoomorfiq onqonu zəifləmiş və tədricən sıradan çıxmışdır. Hər iki tayfa birləşməsi sonralar yalnız ağ və qara qoyuna tapındıqları üçün Ağqoyunlu və Qaraqoyunlu adlanmışlar [151, 139].

Arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisindən eradan əvvəl X-III əsrlərə aid olan qoç təsvirlərinin və fıqurlarının tapılması, qəbir daşlarına qoyun (qoç) təsvirlərinin qoyulması bir daha sübut edir ki, qoyun yurdumuzun əhalisinin qədim totemlərindən biri olmuşdur.

Fransız şərqşünası J.Dögininin fıkrincə, Qaraqoyunlu türkmənləri bayraqlarındakı qara qoyun (qoç-T.H.N.) rəsminə görə Qaraqoyunlu adlanmışlar [197, 1766]. XVIII əsrin ortalarında irəli sürülmüş bu fikir Türkiyə, Azərbaycan və Sovət tarixşünaslığında qəbul olunmuşdur [298, 237; 159, 73; 155, 79; 97, 75; 431, 179; 101, 133; 397, 143]. Lakin onların fıkri ilə razılaşmaq çətindir. Çünki tayfa və sülalənin öz adını bayraqdakı qara qoyun rəsminə görə alması fikri həqiqətdən uzaqdır. Belə nəticəyə gəlmək olar ki, Qaraqoyunlu tayfa birləşməsində qoyun artımla bağlı olan zoomorfık onqon imiş və ona görə də tayfa bayraqlarında bu onqonun (qoç) şəkli çəkilirmiş. F.Kırzıoğlu da belə qənaətə gəlir ki, qaraqoyunlular bayraqlarına qoç başı təsvirləri qoyaraq qədim onqonlarının xatirəsini yaşatmışlar [248, 23; 122, 52]. Ş.Q.Səfəroğlu və Ə.Müdarrisoğlu da belə hesab edirlər ki, Qaraqoyunlu adı türklərin islamaqədərki dövrdə inandıqları qoyun toteminə əsaslanır [303, 138].

Faruq Sümer yazır ki, bayraqlarında qoyun rəsmi olduğu üçün Qaraqoyunların bu adı almasına aid Qərb müəlliflərinin iddialarının heç bir əsası yoxdur. O, öz fikrini orta əsr qaynaqlarında bununla bağlı heç bir məlumatın olmaması ilə əlaqələndirir [313, 13].

Qaraqoyunlu tayfasının mənşəyi məsələsi, onların Azərbaycanda və Şərqi Anadoluda məskunlaşması ilə bağlı Türkiyə tarixçiləri arasında müxtəlif fıkirlər mövcuddur. Azərbaycanda və Şərqi Anadoluda monqol hakimiyyətinin zəifləməyə başla-

ması ilə fəallaşan türkmanların ən məşhur qolu olan Qaraqoyunluların Oğuz və ya türkman elini təşkil edən 24 boydan hansına mənsub olması haqqında mənbələrdə müəyyən bir məlumata rast gəlmirik. Yalnız, XV əsrin Osmanlı tarixçilərindən Mövlana Şükrullah Qaraqoyunlu tayfasının mənşəyini Oğuz xanın oğlu Dəniz xanla əlaqələndirmişdir. Şükrullah yazırdı: «852/1449 - cu ildə Sultan II Murad bu binəvanı elçiliklə Mirzə Cahanşahın yanına göndərmişdi. Söhbət əsnasında buyurdu ki, Sultan Murad mənim axirət qardaşımdır. Bu qardaşlıqdan başqa həm də qohumumdur. Bu qohumluğun səbəbi soruşuldu. Buyurdu ki, tarixi oxuyan Mövlana İsmayılı çağırsınlar və Oğuz tarixini də gətirsinlər. Mövlana İsmayıl gəldi və Monqol yazısı (uyğur əlifbası) ilə yazılmış bir kitab gətirdi. O kitabdan anlaşıldı ki, Sultan Muradın soyu Oğuz oğlu Göyalpa, Qara Yusifin ki, isə 41-ci nəsildən Dənizalpa bağlanır» [48, 51; 122, 52].

Faruq Sumer yazır ki, Şükrullahın bu qeydinə əsasən, Qaraqoyunlular Oğuz nəslindən Dəniz xanın oğulları olan İğdir, Büğduz, Yıvə və Kınık boylanndan birinə mənsub olmuşdur. Bunlardan Yıvə boyu ilə Qaraqoyunlular arasında nəsli qohumluq əlaqələrinin ola biləcəyinə dair bəzi izlər görünür [313,14]. Bu fikri Ə.Çay da müdafiə edir [191, 126]. F.Sümer Yıvə türklərinin Səlcuq yürüşləri dövründən etibarən Azərbaycanda məskunlaşdıqlarını və XII əsrin II yansında Həmədan bölgəsində öz bəyliklərini yaradaraq onu Monqol yürüşlərinə qədər qoruyub saxladıqlarını qeyd edir [305, 155-156].

Monqol istilasından əvvəl Berçəm adlı bir bəyin rəhbərliyi altında olan Yıvələrin yaşadığı Həmədan ətrafında Qaraqoyunlu dövlətinin dayağı olan və hökmdar ailəsi ilə qohum olan Baharlu tayfası yurd salmışdı [313, 14; 191, 129]. V.F.Minorskinin fikrincə, bu tayfanın daşıdığı adın Həmədan yaxınlığındakı Bahar qalası ilə əlaqəsi olması ehtimalı vardır [268, 292]. V.F.Minorski Qaraqoyunlu sikkələrində olan damğaların da Oğuz damğalarından daha çox Yıvə damğasına bənzədiyinə əsaslanaraq Qaraqoyunların Yıvə boyundan olduğunu göstərir [267, 155; 268, 295]. F.Sümer isə buna az əhəmiyyət verir. Qaraqoyunlu sikkə-

lərində görünən damğaların bir naxış olduğunu bildirir. Onun qənaətinə görə, Qaraqoyunluların Monqol istilası nəticəsində Türküstandan İran və Şərqi Anadoluya gəldikləri haqqında rəvayət də bu qohumluq münasibətinə daha zəif bir ehtimal verdirməkdədir [306, 293; 313, 15]. Ə.Çay yazır ki, baxmayaraq ki, F.Sümer Qaraqoyunlu sikkələrində görünən damğanı naxış kimi qəbul edir, bu həqiqətən Yıvələrin qoç başı rəsminin piktoqramı şəklində olan damğasıdır [191, 127].

Qeyd etmək lazımdır ki, F.Sümer «Oğuzlar» adlı əsərində Qaraqoyunların Yıvə boyundan olduğunu göstərmiş, Minorskinin fıkrini müdafiə etmişdir [314, 147]. C.A.Boyl belə qənaətə gəlir ki, Qaraqoyunluların mənşəyi məsələsi hələlik tamamilə aydınlaşdırılmamışdır. Lakin o da, V.Minorskinin fıkrinə şərik çıxaraq bildirir ki, qaraqoyunlular Səlcuqlularla birlikdə gəlmiş Yıvə türklərinin nəsilləridir. Onların varlığı XIII əsrdə monqol işğallarından sonra «Fatehlərin yeni təbəqəsi tərəfindən müvəqqəti olaraq maskalanmışdır» [182, 652]. Ə.Çay belə hesab edir ki, Baharlı-Yıvə münasibəti Qaraqoyunluların oğuzların Yıvə boyundan olduğunu təsdiq edir [191, 129].

Osman Turan Qara Yusiflə oğlu Pirbudağın Ərzincanda birgə zərb etdirdiyi sikkələr üzərindəki işarənin Rəşidəddinin Oğuz boyları cədvəlindəki Yazır boyunun damğasına oxşadığını əsas tutaraq Qaraqoyunluların Oğuzların Yazır boyundan olduğunu güman edir [340, 43]. F.Sümerin fikrincə, bunu təyin edəcək heç bir dəlil yoxdur və Qaraqoyunlu hökmdarlarının zərb etdikləri digər sikkələr üzərində həmin işarəyə təsadüf olunmamışdır [307, 293].

M.X.Yınanç Qaraqoyunluların mənşəyi məsələsi ilə əlaqədar olaraq maraqlı mülahizə irəli sürür. Onun təbirincə, «əskidən bəri qoyun toteminə bağlı olan və müsəlman olduqdan sonra da bu totemi tərk etməyən Qaraqoyunlular ilk çağ ilə orta çağın bir qismində böyük rol oynadığını bildiyimiz qon (yəni «qoyun») türk elindən qalmışdır və əski adları olan Qoyun adını mühafizə etmişlər. Azərbaycanda və Anadoluda məskunlaşmış Qaraqoyunlular buradakı Oğuzların Baranlu boyuna daxil olmuşlar»

[357, 252; 122, 52]. F.Kırzıoğlu isə qaraqoyunluların mənşəyini erməni mənbələrinə və «Dədə Qorqud Oğuznamə»lərinə əsaslanaraq III əsrdə Şərqi Anadoluya Türküstandan gəlmiş Mamik və Qonaq adlı türk bəyləri sülaləsi ilə əlaqələndirir [248, 38, 42-44; 249, 171, 466].

Qaraqoyunluların Azərbaycana və Şərqi Anadoluya gəlişi ilə bağlı Türkiyə tarixçiləri arasında fərqli fikirlər vardır. M.X.Yınanç yazır ki, orta əsr Osmanlı tarixçiləri Alinin və Cənnabinin verdiyi məlumata görə, Qaraqoyunlular Elxanilərdən Arğun xanın (1284-1291) dövründə Azərbaycana və Şərqi Anadoluya gəlmişlər. Bu məlumat sonralar Hammer və başqa tarixçilər tərəfindən də qəbul olunmuşdur. M.X.Yınanç XV əsrin fars mənbələrinin məlumatlarına əsaslanaraq Osmanlı tarixçilərinin «Oğuzu» «Arğun» oxumaqla səhvə yol verdiklərini təsdiq etmişdir [357, 251]. F.Sümer də qeyd olunmuş rəvayətin həqiqətlə əlaqəsi olmadığını göstərmiş və M.X.Yınançın fikrini müdafiə etmişdir [307, 294]. Kamıran Kürün belə hesab edir ki, Azərbaycana və Anadoluya hakim olmuş Elxanilərin geniş yaylaqlara, qışlaqlara ehtiyacı olduqları halda Türkistandan çoxsaylı türkmanların buraya köçürülməsinə icazə verməyəcəkləri düşünülərsə, bu rəvayətin doğru olmadığı aşkar olur» [228, 484].

Dövlətşah Səmərqəndi öz təzkirəsində Qaraqoyunlulara dair məlumat vermişdir. O, Qaraqoyunlu hökmdarı İsgəndər haqqında yazmışdı: «İsgəndərin soyuna gəlincə o, Qara Yusifin, Qara Yusif də Qara Məhəmmədin oğludur. Bunların əsli uzaq Türküstanda Qazqurd dağlarındadır. Əski zamanlarda Azərbaycan və Bitlisə gəlmişlər. Köçəridirlər» [32, 256-257].

Hindistanda yazılmış və Qaraqoyunluların tarixindən bəhs edən «Tarixi-Türkməniyyə» və «Tarixi sultan Qütbşahi» əsərlərində Qaraqoyunluların 599 (1202-1203) cu ildə Qara Yusifin 7-ci ulu babası Oğuz nəslindən olan Törə bəyin rəhbərliyi altında 30 min çadırdan ibarət kütlə halında Türküstandan İrana və Şərqi Anadoluya gəlməsi və onların burada daim gürcülərə və tatarlara qarşı mübarizə aparması göstərilir [357, 252; 312, 35;

248, 38]. Faruq Sümer bu məlumatın doğru olduğunu güman edir. O, öz fikrini Monqol istilasına qədərki dövrdə Qaraqoyunlulara aid heç bir məlumatın olmaması ilə əsaslandırır [313, 35-36]. F.Kırzıoğlu isə bu məlumatdakı 599 rəqəminin hicri tarixi olmadığı qənaətinə gəlir. O, belə güman edir ki, bu tarix həmin dövrdə Ön Asiyada geniş yayılmış «İsgəndər təqviminə» əsaslanmışdır. Çünki 1202-1203-cü illərdən az sonra Anadoluda «Gürcülərə qarşı savaşa» və «tatarlara qarşı müqavimətə» imkan və lüzum yox idi [248, 38].

Türkiyə tarixçilərindən İ.H.Uzunçarşılı [346, 180], F.Köprülü [261, 43], C.Zeynaloğlu [159, 45], Z.V.Toğan [335, 253] və H.N.Orkun [277, 228] qaraqoyunluların Azərbaycana və Şərqi Anadoluya Arğun xanın (1284-1291) dövründə gəldiklərini qeyd edirlər. Bu fikir türk tarixşünaslığında sonralar da təkrar edilməkdədir [Bax: 192, 456; 203, 14; 214, 15; 245]. Bu fikir Azərbaycan tarixşünaslığında da qəbul olunmuşdur. Vaxtilə A.A.Bakıxanov Qaraqoyunluların Arğun xanın dövründə Orta Asiyadan Azərbaycana gəldiyini qeyd etmişdi [374, 85]. Sonralar M.H.Baharlı və Ə.S.Sumbatzadə həmin müddəanı qəbul etmişlər [Bax: 156, 78; 430, 179].

C.İbrahimov [398, 26] qaraqoyunluların Azərbaycana gəlişini XII - XIII əsrlərə, M.Seyfəddini [431, 160] XI - XIII əsrlərə, K.E.Bosvort, D.Y.Yeremeyev, M.İsmayılov və Q.Qeybullayev isə XIII əsrin əvvəllərinə aid etmişlər [Bax: 381, 221; 394, 58; 101, 133; 384, 57]. Z.Bünyadov və O.Əfəndiyev bununla bağlı yazırlar ki, «ehtimal etməyə əsas var ki, sonralar qaraqoyunlu tayfalarının tərkibinə daxil olmuş tayfaların və qəbilələrin bir hissəsi artıq VIII-IX əsrlərdə Azərbaycanda məskunlaşmış və monqol istilası zamanı onlar bu torpaqlardan sıxışdırılıb çıxarılmışlar» [68, 6]. Onların mülahizəsində obyektiv həqiqət vardır. Çünki faktlar göstərir ki, yerli, oturaq əhali ilə türkman tayfalarının qaynayıb-qarışma prosesi XIII əsrdən xeyli əvvəllərə təsadüf edir. Məhz bunun nəticəsi idi ki, qərbi türkmanlar Orta Asiya türkmənlərinin birbaşa xələfləri olsalar da Azərbaycan etnosunun mühüm hissəsini təşkil edirlər [403, 105].

Azərbaycan türkmanları tədricən Şərqdə, Orta Asiyada məskunlaşmış həmqəbilələrindən əhəmiyyətli dərəcədə fərqlənməyə başlamışdılar. Yeni keyfıyyətlərin qazanılması, fərqli xüsusiyyətlərin təşəkkülü prosesində ilkin vətəndən uzunmüddətli uzaqlaşma mühüm rol oynamışdır.

Bəzi tarixçilər Qaraqoyunluların ***Barani/Baranlu*** sülaləsindən olduğunu qeyd edirlər [335, 363; 249, 465; 374, 241]. Bu adın mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Z.V.Toğanın fikrincə, Təbərinin əsərində Barani türklərindən bəhs edilmişdir. X əsr müəllifi Beyhəqi Xarəzm türklərindən - «Barani»lərdən Əli oğlu Şah Məlik adlı bir hökmdar haqqında məlumat vermişdir. Yaqut Həməvi Buxaradan 5 fərsəx məsafədə Barani kəndinin olduğunu göstərir [Bax: 335, 181]. S.Q.Ağacanov da qeyd edir ki, baranilər mənşəcə Oğuz tayfalarından olmuş və X əsrin II yarısında bu sülalədən olan Əli xan Yenikənd oğuzlarının başına keçmişdir. Onun fikrincə, rus səlnamələrində XI əsrin ortalarında Şərqi Avropanın içərilərinə daxil olduğu qeyd olunan «berendə» tayfasının adı ilə «barani» etnonimini eyniləşdirmək mümkündür. Bu terminlərin semantikası hər şeydən əvvəl totem mənşəlidir [370, 137, 138].

Orta əsr müəllifləri Qaraqoyunlu hökmdarlarının Baranilərdən olduğunu göstərirlər. Əbubəkr Tehraninin əsərində Qara Yusif Barani [50, 31], Məhəmməd Nəşri və Aşiq Paşazadənin əsərində də Cahanşah Baranlu kimi göstərilmişdir [42, 821; 22, 225]. Babur öz xatirələrində Cahanşahı Barani kimi təqdim edir [24, 9]. Ə.Ə.Dehxuda öz «Lüğətnamə»sində «Barani»ni qədim türk tayfası kimi təqdim edir [82, 282]. «Bürhan-e qati» lüğətində də «Barani» qədim türkman qəbiləsi kimi qeyd edilir [14, 215]. Gətirilən tarixi faktlar Barani Oğuz tayfasının qaraqoyunlularla sıx əlaqəsinin olduğu qənaətinə gəlməyə imkan verir.

Barani adının mənşəyi qoyunun sülalənin və ya tayfanın totemi, himayəçisi olması ilə bağlı olmuşdur. V.Minorski «Barani» adının şəxs və tayfa adı deyil, yer adı olduğunu qeyd etmişdir. O, öz fıkrini Qaraqoyunlu sikkələrində göstərilən «Baran» adlı zərb yerinin, Mərv və Buxara yaxınlığında da Barani

kəndlərinin olması ilə əsaslandırır [268, 292, 295]. Faruq Sümer Qaraqoyunlu xanədanının daşıdığı ailə adının Şərqi Anadoluda vaxtilə pul kəsdikləri «Baran» adlı yerdən aldığını qeyd edərək V.Minorskinin fıkrini müdafiə edir [313, 18-19]. Ə.Çay bu adın şəxs adından yaranması qənaətindədir [191, 127]. Osman Turan İbn Tanrıberdinin verdiyi məlumatlara əsaslanaraq Şərqi Anadoluda və Şimali Suriyada 1260-cı ildə Baranlu adlanan türk tayfasının yaşadığını göstərir [341, 194.]. Ş.S.Zabit onların Monqol yürüşləri zamanı Azərbaycandan buraya köçdüklərini bildirir [157, 127]. F.Sümerin fikrincə, Barani/Baranlu tayfası ilə bağlı olan etnonimlər, yalnız Şərqi Anadoluda qalmışdır [313, 18 ]. Lakin qeyd etmək lazımdır ki, bu tayfa ilə bağlı olan etnonimlər Azərbaycanın həm şimal, həm də cənub bölgələrində və eləcə də İran ərazisində hələ də öz varlığını yaşatmaqdadır.

Azərbaycanın Salyan bölgəsində Baranikənd, Goranboyda Baranbet dağı, Təbriz-Üskü baş yolunun 2 km-də Baranlu kəndi və İranda Barani kənd, Barani kord kəndləri mövcuddur [82, 281-182; 88, 57]. «Baran» sözü qədim türklərdə daha çox «qoç» mənasında işlənmişdir. Başqırdlarda və tatarlarda bu istilah indi də həmin mənada işlənməkdədir. Şərqi Anadoluda da həmin söz «qoç» anlamında qalmaqdadır [249, 466]. Türk dillərinin müxtəlif dialektlərində «baran» - «güc», «qüvvət» və «qoç» mənasındadır [424, 1477-2025]. F.Kırzıoğlu belə güman edir ki, Şərqi Anadoluda, Arsaqlılar dövründə qeyd olunan Duru-Baran əyaləti məhz burada Qaraqoyunluların məskunlaşmasından sonra bu adı almışdır. Çünki III əsrdən öncə heç bir mənbədə bu ada rast gəlinmir [249, 466]. Bu bir daha göstərir ki, Qaraqoyunlu tayfa birliyini təşkil edən boyların və tayfaların Azərbaycanda məskunlaşması daha erkən dövrlərdən başlanmışdır.

Türkiyə tarixçilərinin tədqiqatlarında bu tayfa birliyinə daxil olan müxtəlif tayfalar və boylar qaynaqlara əsasən araşdırılmışdır. Qaraqoyunlu tayfa birliyini öz ətrafında birləşdirən və bu birliyin özəyini təşkil edən Qaraqoyunlu tayfasıdır. Faruq Sümer belə güman edir ki, bu tayfa idarəçi, rəhbər rol oynadığına görə özünün qəbiləvi mahiyyətini itirmişdir [313, 19].

Qaraqoyunlu tayfası ilə bağlı olan etnonimlər Azərbaycanda, Şərqi Anadoluda və İranda son dövrlərə qədər mövcuddur. M.H.Baharlının tədqiqatlarında Azərbaycanın Cavanşir, Göyçay, Gəncə, Zəngəzur və Şəki qəzalarında Qaraqoyunlu oykonimləri aşkar edilmişdir [157, 89]. Son araşdırmalar da Azərbaycanın Ağsu, Bərdə, Qubadlı, Tərtər və Goranboy bölgələrində Qaraqoyunlu oykoniminin saxlanıldığını sübut etmişdir [83, 88]. İran ərazisində də Qaraqoyunlu oykonimi qalmaqdadır [322, 82; 425, 102]. Faruq Sümer Azərbaycanda və Şərqi Anadoluda izləri son dövrlərə qədər yaşayan bu tayfalarla Qaraqoyunlu tayfası arasında siyasi əlaqənin olduğunu göstərir [313, 20].

Qaraqoyunlu tayfa birliyində ***Sədlu*** tayfasının böyük rolu var idi. Bu tayfa öz adını XIV əsrdə Səəd adlı bəyin adından almışdır. Hafiz Əbru və Əbdirrəzzaq Səmərqəndi Naxçıvanda və Sürməli bölgəsində qədim dövrlərdən Qaraqoyunluların əsas tayfalarından olan ***Sədlu*** tayfasının yaşadığını qeyd edirlər [313, 20; 441, 112]. Foma Metsopski də XIV əsrin sonunda Səəd adlı igid türkman bəyi haqqında məlumat vermişdir [7, 12].

XIV əsrin sonu, XV əsrin başlanğıcında Naxçıvan və Sürməli bölgəsi Əmir Səəd başda olmaqla səədluların hakimiyyəti altında olmuşdur. Əmir Səəd 1411-ci ilə qədər Çuxursəd bölgəsini idarə etmişdir. O, həmin ildə ölmüş və İrəvan yaxınlığında Gəfərabad kəndində dəfn olunmuşdur. Oğlu Pir Hüseyn 1413-cü il oktyabrın 11-də onun qəbri üzərində məqbərə ucaltmış və ərəbcə mətn yazdırmışdır. Pir Hüseynin dövründə Sədluların inzibati mərkəzi İrəvan olmuşdur [Bax: 414, 68-75; 406, 138-139]. XV əsrdən etibarən adı mənbələrdə tez-tez təkrar olunan «Çuxursəd» bu tayfanın adı ilə bağlı olmuşdur.

Q.Qeybulayev heç bir əsas olmadan belə hesab edir ki, guya XIV əsrin sonunda Qaraqoyunlular Sədluların yaratmış olduğu əmirliyə son qoymuş və Sədlu tayfası dağılmış, onların bir hissəsi ayrumlara birləşmiş, digər hissəsi isə Azərbaycana gəlmişdir [384, 76]. Lakin müəllif unudur ki, Sədlu tayfası Qaraqoyunli tayfa birliyinin aparıcı tayfalarından biri kimi

Azərbaycanın qərb torpaqlarında yaşamışdılar. Azərbaycan Qaraqoyunlu dövlətinin yaranmasında mühüm rol oynayan bu tayfa tarixən yaşadıqları Çuxursəd bölgəsinin idarə olunmasını uzun müddət öz əllərində saxlamışdılar.

***Sədlu*** tayfası Qaraqoyunluların aparıcı sülaləsi olan Baranilərlə yaxın qohum olduğu barədə fikirlər vardır. F.Sümer yazır ki, qaynaqlar Əmir Səədin övladlarının Qaraqoyunlu hökmdarları ilə əmiuşağı olduğunu göstərir [313, 20]. Sədlu tayfası Qaraqoyunlu dövlətinin yaranmasında mühüm rol oynayan əsas qüvvələrdən biri olmuşdur. Sədlu tayfası Qaraqoyunlu dövlətinin hərbi və siyasi cəhətdən möhkəmlənməsində önəmli rol oynamışdır. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Teymuri sultanı Şahruxla Qaraqoyunlu İsgəndər arasında baş verən Aləşgərd döyüşündə Qaraqoyunlu ordusunun sağ cinahında yer almışdır. Onlara Pir Məhəmməd xan Sədlu rəhbərlik etmişdir. Döyüşdə Pir Məhəmməd xan və oğlanları Pir Qeyblə Pir Üveys əsir düşmüşdülər [13, 69, 70]. Cahanşah dövründə Hüseyn Sədlu Astrabad hakimi, Sarı Pir Əli də Bağdad hakimi olmuşdur [174[b], 56].

Qaraqoyunluların əsas dayağını təşkil edən ikinci aparıcı tayfa ***Baharlı*** idi. V.Minorskinin fıkrincə, bu tayfa öz adını Həmədan yaxınlığında yerləşən Bahar adlı qaladan almışdır. Qaraqoyunlularla Həmədan bölgəsi arasında mühüm əlaqə olmalı idi. Çünki Cahanşahın oğlu Həsənəli sonuncu dəfə oraya sığınmış, Ağqoyunluların hakimiyyəti zamanı Qaraqoyunlu sülaləsinin əksər hissəsi bu bölgədə yaşamışlar [268, 292]. F.Sümer V.Minorskinin bu fıkrini müdafiə etmişdir. Bəzi tarixçilər Baharlu tayfasının adının Kürdüstandakı Bahar adlı yerdən aldığını güman etməkdədirlər [410, 72; 384, 167]. M.H.Baharlı ***Baharlı*** tayfasının öncə Xorasanda yaşadığını və sonralar Azərbaycana gəldiyini, Marağa ətrafında yerləşdiyini qeyd edir [156, 74]. Baharlı bəyləri Qaraqoyunlu xanədanı ilə qohumluq əlaqələri yaratmış və bu dövlətin ən böyük əmirləri olmuşlar. F.Sümerin qənaətinə görə, Münəccimbaşı «Baharlu» adı ilə «Baranlu» adını bir-biri ilə qarışdırdığı üçün Qaraqoyunlu əmirlərinin bu tayfadan çıxdığını göstərmişdir [313, 24].

Həmdüllah Qəzvini «Nüzhət-ül qülub» əsərində Bahar qalasının XIII əsrin əvvəllərində Yıvə əmiri Süleyman Şahın paytaxtı olduğunu qeyd edir [4, 153]. Bu, baharlıların oğuzların Yıvə boyundan olduğunu güman etməyə imkan verir. ***Baharlı*** tayfası öz adını heç də V.Minorskinin qeyd etdiyi kimi, Bahar qalasının adından almamışdır. Güman etmək olar ki, ***Baharlı*** tayfası öz adını tanınmış əmirlərindən birinin adından almış, sonralar bu ad həmin nəslin və ya sülalənin adına çevrilmiş və hakim olduqları bölgə də onların adı ilə adlanmağa başlanmışdı. ***Baharlı*** tayfası ilə bağlı olan oykonimlər Azərbaycanın Şuşa və Zəngəzur bölgələrində indi də qalmaqdadır [370, 148].

Qaraqoyunluların başlıca tayfalarından biri də ***Qaramanlı*** idi. Bu tayfa ilə bağlı Azərbaycan sovet tarixşünaslığında belə bir fikir mövcuddur ki, guya bu tayfa öz adını Kiçik Qaramanlı bəyliyinin adından almış və 1471-ci ildə Osmanlı Türkiyəsinin bu bəyliyi işğal etməsindən sonra Qaramanlılar köçüb Azərbaycana gəlmişlər [370, 148; 156, 68-69]. Bu fikrin heç bir elmi əsası yoxdur. Çünki məsələ bu cür qoyularsa, ***Qaramanlı*** tayfasının Qaraqoyunlularla əlaqəsinə ehtiyac qalmır.

Ş.Təkindağ belə hesab edir ki, Qaramanlılar XIII əsrin I yarısında, monqol yürüşləri zamanı digər türkman tayfaları kimi Azərbaycana gəlmiş və Şirvan bölgəsində məskunlaşmışlar [329, 316]. Təhsin Ünal isə qaynaqlara əsaslanaraq Qaramanlı tayfasının hələ XI əsrin əvvəllərində Səlcuq yürüşlərindən də öncə Azərbaycanın Aran və Şirvan bölgələrində yaşadığını qeyd edir [353, 51; 356, 234]. Qaynaqların verdiyi məlumata görə, Oğuzların Əfşar boyundan olan Qaramanlı tayfasının bir hissəsi monqol yürüşləri zamanı Azərbaycanın Aran və Şirvan bölgəsindən köçərək Kiçik Asiyanın cənubunda – Kilikiyada məskunlaşdı [48, 13-14]. F.Sümer, F.Kırzıoğlu, T.Ünal və Ş.Təkindağ da Qaramanlıların Kiçik Asiyaya monqol işğalları dövründə Azərbaycandan köçdüyünü göstərirlər [316, 50; 249, 346; 355, 234; 329, 316]. Azərbaycanda qalan Qaramanlılar dövrün siyasi hadisələrində yaxından iştirak etmişdilər. Fərhad xan Qaramanlı Məhəmməd Olcaytunun, Əli Əhməd Qaramanlı isə Cəlairilərin

tanınmış əmirlərindən biri olmuşdu [329, 316]. Bərdə və Gəncə hakimi əmir Qaraman da Qara Yusifin tanınmış əmirlərindən idi. O, Qara Yusifin hakimiyyətinin son dövrlərində bəylərbəyi vəzifəsini həyata keçirmişdir [204, 58]. Vaxtilə Cavanşir, Göyçay, Şamaxı, Cavad qəzalarındakı, hazırda isə Gəncə, Göycay, Neftçala, Yevlax və Bərdə bölgəsindəki Qaraman və Qaramanlı kəndləri bu tayfanın nişanələridir [259, 194; 75, 38, 56, 62, 72].

Qaraqoyunluların aparıcı tayfalarından biri də ***Alpaut*** tayfası olmuşdu. ***Alpaut*** tayfasının adı «düşmənə təkbaşına hücum edən» [39, c. 1, 144; c. 3, 422] mənasını verir. O, Qaraqoyunluların ən mühüm tayfalarından biri omuşdur. Bu tayfanın adı VIII əsr mənbələrində qeyd olunmuşdur [401, 33]. F.Sümerin fikrincə, Alpaut tayfası Həmədan bölgəsində yerləşmişdi. Qaraqoyunlu İsgəndərin hakimiyyəti dövründə Alpautlara Yaqub bəy başçılıq edirdi [313, 27]. Əbubəkr Tehrani "Kitabi-Diyarbəkriyyədə" Qara Yusifın hakimiyyətinin son dövrlərində Qorqan Alpautun Həmədanda hakim, Sorqan Alpautun isə onun müavini olduğunu qeyd edir [13, 63]. Qaraqoyunlu İsgəndər Mirzənin Sultan Şahruxla əsaslı döyüşündə Qorqan Alpautla Sorqan Alpaut onun ordusunun sol cinahında yer almışdı [13, 68]. Alpaut tayfası sonralar Çuxursəd, Qarabağ və Şirvan bölgələrində məskunlaşmışdı. Bu tayfa ilə bağlı olan oykonimlər hazırda Bərdə, Qazax, Göyçay, Laçın və Ucar bölgələrində qalmışdır [83, 86]. Cənubi Azərbaycanda və İran Kürdüstanında da Alpaut etnonimi saxlanılmışdır [425, 23].

***Cagirli*** tayfası da Qaraqoyunluların əsas aparıcı tayfalarından biri olmuşdu. Bu tayfanın öz adını Cəlairilər dövründə Əmir Cagirdən aldığı güman edilir [313, 28]. Əmir Cagir Teymurun Azərbaycana yürüşləri zamanı onun hakimiyyətini tanımalı olmuşdu. Əmir Cagirin ölümündən sonra tayfaya onun oğlu Bəstam Cagir rəhbərlik etmişdi. Ərdəbil bölgəsinin ***Cagirli*** tayfasının qədim yurdu olduğu qeyd olunur [286, 31; 344, 29]. F.Sümer ibn Ərəbşaha istinad edərək cagirlilərin kürd mənşəli olduğunu göstərir [313, 29]. Lakin Z.V.Toğan onların Qıpçaq türklərindən olduğunu bildirir [333, 102-103]. Q.Qeybullayev

***Cagirli*** tayfasının bolqar tayfası olan ***Çaxar*** tayfasından olduğunu qeyd edir. Onun fıkrincə, bu tayfa ilə bağlı olan oykonimlər İmişli, Göyçay, Cəbrayıl və Masallı bölgələrində ***«Çaxırlı»*** şəklində saxlanılmışdır [384, 135]. Lakin ***Cagirli*** tayfası ilə bağlı oykonimlərə vaxtı ilə Göyçay, Cavanşir, Nuxa, Şamaxı və Yelizavetpol qəzalarında Cagirli [Bax: 413, 79], hazırda isə Bərdə, Şəki, Göyçay, Şəmkir və Şamaxı bölgələrində ***Cəyirli*** formasında rast gəlinir [Bax: 75, 29, 62, 91, 92, 94].

Qaraqoyunluların əsas tayfalarından olan ***Hacılı*** tayfasının adı «Kitabi Diyarbəkriyyə» əsərində qeyd olunur. Qara Yusifın Ərzincan valisi Pir Ömərə yardıma göndərilən əmirlər arasında Əmir İlyas Hacılının adı çəkilir. ***Hacılı*** tay-fasının Oğuzların Döğər boyundan olduğu göstərilir [309, 148-149; 313, 30; 191, 132]. F.Sümer ***Hacılı*** tayfasının öncə Kərkük-Ərbil bölgəsində yaşadığını göstərsə də, F.Kırzıoğlu bu tayfanın Qarabağda məskunlaşdığını qeyd edir [313, 30; 249, 467]. ***Hacılı*** tayfası ilə bağlı oykonimlər XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın Zəngəzur, Qaryagin, Ərəş, Cavanşir, Yelizavetpol, Qazax və Sürməli qəzalarında saxlanılmışdır [413, 54, 115, 132].

Qaraqoyunlu tayfa birliyinə daxil olan ***Ağacəri*** tayfasının mənşəyi elmi ədəbiyyatda müxtəlif cür izah edilmişdir. Azərbaycan xalqının təşəkkülündə və etnik təkamülündə müəyyən rolu olmuş ***ağxəzərlərdən*** mənbələrdə müxtəlif adlar altında (***ağacərilər*** və s.) bəhs edilmişdir. Rza Nurun fikrincə, «əski türklər xəzərlərə ağacəri, qədim yunanlar isə ağatsir adı vermişlər» [296, 225]. ***Ağacəri*** türk tayfası ***ağatsir*** adı ilə Heradotun və antik müəlliflərin əsərlərində qeyd edilmişdir. F.Rəşidəddin ***Ağacəri*** adını «meşə adamı» kimi təqdim etmişdir [65, 85]. İ.Markvart düzgün olaraq onu «meşə adamı» kimi izah etmişdir [385, 294]. İ.M.Artamanov bu etnonimi «ağa» və «çəri» kimi izah edir [374, 156]. V.A.Qukasyan onun fikri ilə razılaşmayaraq güman edir ki, o türk etnonimlərinin «ağ» və «qara» sözləri ilə başladığını nəzərdən qaçırmışdır [389, 24].

Mənbələrdə göstərilir ki, xəzər tayfalarının bir qolunu təşkil etmiş ağacərilər 465-ci ildə Qafqazın şimalından Azərbay-

cana daxil olmuşlar. Artıq 488-ci ildə ağacərilər saraqurlarla birlikdə sasanilərə qarşı çıxmış və onlar arasında tez-tez toqquşmalar baş vermişdi [334, 98]. Oğuz dastanlarında, türkman rəvayətlərində qeyd edilir ki, ağacərilər Qafqaza əfsanəvi Oğuz xanla birlikdə gəlmişlər və onların oğuzlarla qohumluğu dəfələrlə xatırlanılmışdır. Təsadüfi deyildir ki, həmin mənbələrdə ağacərilərin adı oğuzların «Üçok» boyu ilə birgə çəkilir [334, 98]. Səlcuqlarla bağlı olan 1195-ci il hadisələrindən aydın olur ki, ***ağacərilər*** əsasən Suriyada, Maraş və Əlbistan mahallarında məskunlaşmışdılar. Səciyyəvidir ki, onlar 1246-cı ildə məhz bu yerlərdə - Maraş dağlarında ***bayat*** və ***əfşar*** tayfaları ilə birlikdə Bayqu Noyana qarşı mübarizə aparmışdılar [334, 98].

Tarixi mənbələr göstərir ki, ***ağacərilərin*** mühüm bir hissəsi monqol yürüşləri ərəfəsində Təbrizdən Qəzvinə gedən yolun şərqindəki Xalxal bölgəsinə hakim olmuşlar [335, 171]. Maraqlıdır ki, bu gün də İranda (Kirman, Zəncan, Xuzistan və s.) ***«ağacəri»*** oykoniminə və hidroniminə rast gəlmək mümkündür [425, 20; 426, 149; 387, 16].

XIV əsrin ikinci yarısında Ağacərilər Həsən bəyin rəhbərliyi altında Qaraqoyunlu tayfa birliyinə qoşulmuşdur. Qaraqoyunlu İsgəndərin əmirləri arasında Ağacərilərdən Hüseyn və Savalan bəy olmuşdur [204, 44]. F.Sümer ağacərilərin mənşəyini V əsrdə Azərbaycanda məskunlaşmış ağatsir tayfası ilə bağlamağın əleyhinə çıxır və öz fikrini, ağacərilərlə çağdaş olmuş tarixçilərin onları «türkman» adlandırması ilə əsaslandırır [312, 521.

Qaraqoyunlu Qara Məhəmmədin bacısı Tatar Xatunun Ağacəri rəisinə ərə verilməsi nəticəsində onlar arasında yaxın qohumluq əlaqələri yaradılmışdır [313, 30; 284, 295]. Əli bəy Ağacəri Qaraqoyunlu hökmdarı Cahanşah dövründə böyük əmirlərdən biri idi [Bax: 6, 6] .

Qaraqoyunlu tayfa birliyinə daxil olan ***Bayramlı*** tayfası öz adını Xoy hakimi Bayram bəydən almışdır. Bayram bəy Qaraqoyunlu hökmdarı Qara Yusifın əmirlərindən olmuş, oğlu Şahsuvar bəy də Cahanşahın divan bəyi olmuşdu [313, 31; 204,

48]. Əbubəkr Tehrani öz əsərində Bayram bəyin Qara Yusifin divan əmiri olduğunu qeyd edir [13, 63]. "Qızılbaşlar tarixi"nin müəllifi Şahəli bəy Bayramlının Qaraqoyunlu Cahanşah dövründə, Şahsuvar bəy Bayramlının da Ağqoyunlu Sultan Yaqub dövründə böyük əmirlərdən biri olduğunu göstərir [Bax: 6, 6].

F.Sümer Qaraqoyunlu tayfa birliyində ***Düharlu, Döğər, Ayinlu*** tayfasının da olduğunu göstərir. ***Düharlu*** tayfasının Ərzurum-Bayburd bölgəsində, ***Ayinluların*** Şərqi Anadoluda, ***Döğərlərin*** isə Suriyada yaşadıqları qeyd olunur [313, 26, 29, 31]. Əbubəkr Tehrani «Kitabi - Diyarbəkriyyə»də Qara Yusifin Ərzincana Pir Ömərin yardımına göndərdiyi əmirlər arasında Bayəzid Ayinlunun olduğunu göstərir [13, 63]. Bayramlı və Döğər tayfası ilə bağlı oykonimlər vaxtı ilə Yelizavetpol, Qazax və Cavanşir qəzalarında Bayramlı və Dügərli formasında qalmışdır [Bax: 411, 29, 90].

Qaraqoyunlu tayfa birliyinə ***Süleymani, Zırki*** və ***Mahmudi*** kürd tayfaları da daxil olmuşdur [313, 32; 191,132].

Oğuz - türkman mənşəli Qaraqoyunlu tayfa birliyinə daxil olan müxtəlif boyların və tayfaların qədim dövrdən etibarən Azərbaycanda məskunlaşması, bu tayfa birliyinin təkamülündə əsasən yerli tayfaların iştirak etdiyini göstərir. Oğuzların erkən dövrlərdən Azərbaycan ərazisində məskunlaşması, bu torpağın əzəli və köklü əhalisi olması elmi ədəbiyyatda sübuta yetirilmişdir. Qaraqoyunlu tayfa birliyinə daxil olan bəzi boyların V əsrdən Azərbaycanda yaşadığını nəzərə alsaq, Qaraqoyunluların daha erkən dövrlərdən bu ərazidə yaşadıqlarını güman etmək olar.

F.Sümer belə hesab edir ki, Qaraqoyunluların ilk vətəni Şərqi Anadolu olmuşdur və onlar Azerbaycana, İrana məhz oradan – Şərqi Anadoludan köçmüşlər [312, 8; 314, 147]. Z.Bünyadov və O.Əfəndiyev haqlı olaraq F.Sümerin bu fıkrinə qarşı çıxmışlar: «F.Sümerin bu müddəası ilə razılaşmaq çətindir. Çünki Azərbaycan türkdilli tayfaların Kiçik Asiyaya köçetmə yolu üzərində yerləşir və buranın türkləşməsi də daha əvvəl baş vermişdir. Bu məsələ hələlik özünün tam həllini tapmamışdır. Lakin

ehtimal etməyə əsas var ki, sonralar Qaraqoyunlu tayfalarının tərkibinə daxil olan tayfaların və qəbilələrin bir hissəsi artıq VIII-IX əsrlərdə Azərbaycanda məskunlaşmış və Monqol istilası zamanı onlar bu torpaqlardan sıxışdırılıb çıxarılmışlar» [68, 6].

Türkiyə tarixçilərinin araşdırmalarında da monqol yürüşləri dövründə onların hakimiyyətini qəbul etməmiş türkmanların böyük bir hissəsinin Azərbaycandan Şərqi Anadoluya köçdüyü qeyd olunur [314, 139]. Güman etmək olar ki, sonralar onlar da Qaraqoyunlu tayfalarına birləşmiş və Azərbaycan Qaraqoyunlu dövlətinin yaranmasında iştirak etmişlər.

### *I. 2. Azərbaycan Qaraqoyunlu dövlətinin siyasi tarixi*

Türkiyə tarixçilərindən İ.H.Uzunçarşılı, M.X.Yınanç, Z.V.Toğan, F.Sümer, İ.Aka, K.Gürün və başqaları Qaraqoyunlu dövlətinin ictimai-siyasi tarixi haqqında müəyyən fikirlər irəli sürmüşlər. Tarixən məlumdur ki, Əmir Teymurun daxilən möhkəm olmayan imperiyası onun ölümündən sonra parçalanmağa başlamış, atası tərəfindən hakimiyyətdən məhrum edilmiş Miranşah oğlu Əbubəkr və Mirzə Ömərlə birlikdə Azərbaycanda və İranın qərb torpaqlarında səltənətə çıxmaq uğrunda qanlı mübarizəyə başlamışdılar. Azərbaycanda Teymurun varisləri arasında hakimiyyət uğrunda davam edən mübarizə, yerli hökmdarların nüfuzunun möhkəmlənməsinə və genişlənməsinə imkan yaratdı. Şirvanşah I İbrahim yaranmış siyasi vəziyyətdən istifadə edərək Azərbaycan torpaqlarını Şirvanşahlar dövləti ətrafında birləşdirmək uğrunda mübarizəyə başladı. O, bu məqsədlə Gəncə hakimi Yarəhməd Qaraman, Şəki hakimi Seydi Əhməd, Ərdəbil hakimi Bəstam Cagir və gürcü çarı Konstantin ilə əlaqə yaratdı. Şirvanşah I İbrahim 1406-cı il mayın sonunda Təbriz şəhərini ələ keçirdi. Lakin o, burada möhkəmlənə bilmədi. Şirvanşah Sultan Əhməd Cəlairinin Bağdaddan Təbriz üzərinə yürüşə çıxdığından xəbər tutaraq Cənubi Azərbaycanı tərk etdi. 1406-cı ildə Azərbaycanda siyasi hakimiyyət uğrunda başlanan mübarizəyə Qara Yusif Qaraqoyunlu da qoşuldu.

XV əsrin əvvəllərində Azərbaycandakı siyasi vəziyyət, ha-

kimiyyət uğrunda Teymurun varisləri, Sultan Əhməd Cəlairi, Şirvanşah I İbrahim, Qara Yusif Qaraqoyunlu və ayrı-ayrı feodal hakimlərin apardığı mübarizə Türkiyə tarixçilərinin əsərlərində geniş şəkildə tədqiq olunmuşdur [Bax: 313, 70-78; 161, 49-66; 165, 40-47; 290, 119-120]. Qara Yusif 1406-cı ilin oktyabrında Naxçıvan yaxınlığında və 1408-ci il aprelin 21-də isə Təbriz yaxınlığındakı Sərdrud düzündə Teymuri Əbubəkr üzərində qələbə qazandı.

Qara Yusifin teymurilər üzərindəki qələbəsindən sonra Azərbaycanın cənub torpaqlarında teymurilərin hakimiyyətinə son qoyuldu və hakimiyyət Qaraqoyunluların əlinə keçdi. İ.H.Uzunçarşılı, Z.V.Toğan, F.Kırzıoğlu və İ.Aka Qaraqoyunlu dövlətinin 1408-ci ildə yarandığını qeyd edirlər [346, 181; 347, 286; 335, 364; 249, 485; 165, 45; 136, 4]. Qaynaqların verdiyi məlumata görə, Qara Yusif Əbubəkri ikinci dəfə (1408-ci ildə) məğlub etdikdən sonra oğlu Pirbudağı padşahlıq taxtına oturtmuş və elçi göndərərək Sultan Əhmədi xəbərdar etmişdir. O, bu xəbəri müsbət qarşılamış və Pirbudaq üçün hakimiyyət simvolu olan taxt-rəvan göndərmişdi [Bax: 8, 197-198; 312, 88]. Faruq Sümer Mirxondun bu məlumatının doğru olmadığını qeyd edir. Onun fikrincə, Pirbudaq Sultan Əhmədin ölümündən sonra hakimiyyətə gəlmişdir. O, öz fikrini Qara Yusifin Pirbudaqla müştərək olaraq zərb etdirdiyi mis və gümüş sikkələrin ən qədiminin 1411-ci il tarixli olması ilə əlaqələndirir [313, 88]. Azərbaycan tədqiqatçılarının əsərlərində də Qaraqoyunlu dövlətinin 1410-cu ildə yarandığı qeyd olunur [73, 221; 415, 159; 99, 48: 398, 29]. Lakin M.Seyfəddini həm qaynaqlara, həm də numizmatik materiallara istinad edərək Qaraqoyunlu dövlətinin təşəkkül tarixinin, məhz 1408-ci il olduğunu əsaslandırır. O, üzərində Qara Yusifin oğlu Pirbudağın adı həkk olunmuş sikkələrin 1408-ci ildən başlayaraq kəsildiyini göstərir [428, 163, 172].

Azərbaycanda siyasi hakimiyyətin 1408-ci ildən başlayaraq Qaraqoyunluların əlinə keçdiyini həmin dövrün qaynaqları da təsdiq edir [Bax: 67, 147; 43, 65]. Azərbaycan tarixçisi Həsən by Rumlu da Qara Yusifin Sərdrud döyüşündə Tey-

muri Əbubəkr üzərində qələbə qazandıqdan sonra elçilərini çoxsaylı hədiyyələrlə Sultan Əhməd Cəlairinin yanına göndərdiyini yazır. Sultan onları çox yaxşı qarşıladı, Pirbudaq və Qara Yusif üçün padşahlıq simvolları göndərdi. Həsən bəy Rumluya görə, Qara Yusif Pirbudağı səltənətə çıxardı. Sikkələri və xutbəni onun adıyla süslədi. Hökmlərdə "Pirbudaq xan yarlığından Əbu Nəsr Yusif Bahadur sözümüz" ifadəsinin yazılmasını bildirdi [Bax: 43, 65]. Bu bir daha göstərir ki, Qara Yusif Teymurilər üzərində ikinci parlaq qələbədən sonra Azərbaycan Qaraqoyunlu dövlətini yaratmış və oğlu Pirbudağı hakimiyyətə gətirmişdir.

Qara Yusif Azərbaycanda Teymurilərin hakimiyyətinə son qoyduqdan sonra öz hakimiyyətini möhkəmləndirmək üçün mühüm tədbirlər gördü. Qaynaqların verdiyi məlumata görə, Qara Yusif 1409-cu ilin noyabr ayında Pir Ömər və İlyas Döğərin başçılığı altında Şirvan üzərinə qoşun gördərdi. Lakin Şəki hakimi Seydi Əhmədin döyüşə ciddi hazırlaşdığını duyan Qaraqoyunlu sərkərdələri döyüşə girməyərək Şirvanın bəzi yerlərini talan edərək Təbrizə qayıtdılar [11, 147; 313, 81-82; 91, 89]. Şirvan və Şəki ərazilərini ələ keçirib mərkəzləşdirilmiş dövlət yaratmaq Qara Yusifin hərbi siyasətinin başlıca məzmununu təşkil edirdi. Faruq Sümerin fıkrincə, Qara Yusif 1409-cu il dekabrın sonunda Şirvana yeni bir ordu göndərmək istədi, lakin Van hakimi Məlik İzzəddin Şir siyasi vəziyyəti nəzərə alaraq ona mane oldu və Qara Yusiflə Şirvanşah Şeyx İbrahimi barışdırdı [43, 78; 313, 82].

Teymurilər üzərində qələbədən sonra Qara Yusifın Azərbaycanın cənub torpaqlarında getdikcə möhkəmlənməsi Bağdad hökmdarı Sultan Əhməd Cəlairini narahat edirdi. İ.H.Uzunçarşılı və F.Sümerin qeyd etdiklərinə görə, 1409-cu il dekabrın 18-də Sultan Əhmədin elçisi Təbrizə gələrək Qara Yusifdən Həmədan yaylağının ona verilməsini tələb etdi. Qara Yusif bu tələbi rədd etdi və elçini geri qaytardı [Bax: 43, 78; 348, 182; 313, 82; 320, 195]. Onların fikrincə, Sultan Əhmədlə Qara Yusif arasında 1410-cu il avqustun 30-da Təbriz yaxınlığındakı Əsəd kəndində baş vermiş döyüşün mühüm səbəbi Qara Yusifin Həmədan yay-

lağını Sultan Əhmədə verməməsi olmuşdu [348, 182; 313, 83; 320, 196]. Qara Yusif bu döyüşdə qələbə çalaraq İraqı da Azərbaycan Qaraqoyunlu dövlətinə birləşdirdi.

Türkiyə tarixçilərinin əsərlərində Qaraqoyunlu dövlətinin Şirvanşahlar dövləti ilə münasibətlərinə xüsusi diqqət yetirilmişdir. Şirvanşah I İbrahim Qaraqoyunluların getdikcə qüvvətlənməsinin Şirvanı təhlükə altına alacağını bilir və Cəlairilərin tərəfində dururdu [146, 55; 374, 241; 398, 29]. Türkiyə tarixçiləri Şirvanşahın bu mövqeyini izah etmirlər. Lakin İ.P.Petruşevski, C.İbrahimov və S.Aşurbəyli Şirvanşahın Cəlairilərə tərəfdar olmasının səbəbini o zaman Cəlairilər dövlətinin çox «zəif olmasında» görürlər [146, 55; 374, 241; 398, 29]. Ş.Fərzəliyevin fikrincə, I İbrahimin Sultan Əhmədə tərəfdar olmasının səbəbini heç də Cəlairilərin zəifləməsi və Şirvanşaha qarşı təhlükə yaratmaması ilə deyil, Şirvanşahın müdrük uzaqgörənliyi ilə izah etmək lazımdır. O, bilirdi ki, artıq bir dəfə Şirvanı tutmağa çalışan Qara Yusif qüvvətləndikdən sonra hökmən öz niyyətini həyata keçirməyə çalışacaqdır. Əgər o, qaraqoyunlulara tərəfdar olsaydı, Qara Yusifin şəxsində bir dost, Cəlairilərin və həmçinin Qara Yusiflə düşmənçilik münasibətində olan teymurilərin şəxsində iki düşmən qazanırdı. Çünki Teymuri hökmdarı Şahruhla Şirvanşahlar dövləti arasında hələlik yaxşı münasibət vardı [91, 89-90]. Məhz bu uzaqgörənlik nəticəsində Şirvan döyüşçüləri Sultan Əhmədi müdafiə etməklə Azərbaycanın cənub vilayətlərində möhkəmlənə bilərdilər.

Qaynaqların verdiyi məlumata görə, Sultan Əhməd Təbriz üzərinə yürüş etdiyi zaman Şirvanşah Şeyx İbrahimdən yardım istəmiş və o da oğlu Kəyumərsin başçılığı ilə bir ordu göndərmişdi [67, 159; 11, 160]. Azərbaycan tədqiqatçıları belə hesab edirlər ki, Qara Yusif Qaraqoyunlulara əsir düşmüş Kəyumərsə atası I İbrahimə məktub yazdıraraq Qaraqoyunlu dövlətinə tabe olmağı təklif edir və onu azad edir [146, 56; 99, 48; 429, 241-242]. Faruq Sümer Hafız Əbrunun və Əbdürrəzzaq Səmərqəndinin verdiyi məlumatlara istinad edərək yazır ki, Qara Yusif Kəyumərsi Ərciş qalasında həbs etdirmişdi. Şeyx İbrahim

oğlunu azad etmək üçün çox böyük məbləğdə pul təklif etmiş, lakin Qara Yusif bu təklifi rədd etmişdi [313, 86]. Dövrün digər qaynaqları da Farüq Sümerin bu mövqeyini təsdiq edir [Bax: 67, 159; 439, 225].

Türkiyə tarixçilərindən K.Paydaş yazır ki, Qara Yusifin Cəlairi Sultan Əhməd üzərində qələbəsindən sonra Azərbaycan və Ərəb İraqının bütün əmirləri ona itaət etdilər. Lakin Qara Yusifə etibar etməyən və ona boyun əyməyən Şirvanşah Şeyx İbrahim Qaraqoyunlu hökmdarına itaət göstərməkdən imtina edərək ona qarşı savaşmaq üçün hazırlaşmağa başladı [290, 121]. Qara Yusif 1412-ci ilin sentyabrında Sultaniyyəyə yürüş zamanı Şirvanşah Şeyx İbrahimin Şəki hakimi Seydi Əhməd və gürcü çarı Konstantin ilə ittifaq yaratdğını və ona qarşı döyüşə ciddi hazırlaşdığından xəbərdar oldu. Faruq Sümerin fıkrincə, Qara Yusif bu hadisədən xəbər tutaraq oktyabrın 26-da Təbrizə döndü. O, qoşununu toplayaraq noyabrın 17-də Qarabağa gəldi. O, buradan Şeyx İbrahimə elçi gondərdi və ona barışıq təklif etdi. Qara Yusifin bu təklifi Şeyx İbrahim və müttəfiqləri tərəfindən qəbul olunmadı. Buna qəzəblənən Qara Yusif 1412-ci ilin 19 dekabrında Kür çayını keçərək Şeyx İbrahimi və müttəfiqlərini ağır məğlubiyyətə uğratdı [313, 91-92; 290, 121]. Bu döyüşdən bəhs edən Azərbaycan tədqiqatçıları hadisənin 1412-ci il noyabrın 6-dan dekabrın 4-dək davam etdiyini göstərirlər [146, 57; 373, 242; 398, 29]. Lakin dövrün digər qaynaqları da Faruq Sümerin fıkrini təsdiq edir [Bax: 67, 164-165; 439, 225].

Beləliklə, Şeyx İbrahimin həmişə qorxduğu hadisə baş verdi və müstəqil Şirvanşahlar dövləti Azərbaycan Qaraqoyunlu hökmdarından asılı vəziyyətə düşdü. Lakin bu asılılıq nominal səciyyə daşıyırdı. Şirvanşah Kür çayından cənubda olan torpaqlardan məhrum olsa da, Azərbaycanın şimal torpaqları onun hakimiyyəti altında qalırdı [146, 58; 91, 92].

Türkiyə tarixçilərinin əsərlərində Qaraqoyunlu dövlətinin sərhədləri haqqında müəyyən qeydlərə rast gəlmək mükündür. Faruq Sümerin fikrincə, Qara Yusifın yaratdığı Qaraqoyunlu dövləti Qəzvindən Ərzincana, Bağdaddan Şirvana qədər uzanan

torpaqları əhatə edirdi [313, 112]. İ.P.Petruşevski də qeyd edir ki, 1413-cü il ərəfəsində Azərbaycanın Kür çayına qədər olan cənub hissəsi, Gürcüstan və Ərəb İraqı Qaraqoyunlu dövlətinin əpazisinə daxil olmuşdu [146, 55]. Cahanşahın hakimiyyəti dövründə Azərbaycan, Arran, Ərəb İraqı, Əcəm İraqı, Fars və Kirman Azərbaycan Qaraqoyunlu dövlətinin tərkibinə daxil edilmiş, Şirvanşahlar, Ağqoyunlular, Gilan və Mazandaran hakimləri onun hakimiyyətini tanımalı olmuşdular [358, 185; 165, 90]. İ.Erdem və K.Paydaşın fikrincə, Uzun Həsən Ağqoyunluların başına keçən zaman (XV əsrin ortalarında – T.N.) Qaraqoyunlular ən parlaq dövrlərini yaşayırdılar. Qaraqoyunlu dövlətinin sərhədləri şərqdə Xorasandan Anadoluya, cənubda Bəsrə körfəzindən Qafqaz dağlarına kimi uzanırdı [204, 88].

Qaraqoyunlu dövləti Azərbaycan zəminində yaranmışdı. Dövlətin təşəkkülündə əsasən Azərbaycanda məskunlaşmış və Qaraqoyunlu tayfa birliyinə daxil olan tayfalar iştirak etmişdilər. Buna görə də Faruq Sümerin qaraqoyunluların vətəninin Şərqi Anadolu olduğunu qeyd etməsindən heç də belə nəticə çıxarılmamalıdır ki, Azərbaycanda Qaraqoyunlu dövlətinin təşəkkül prosesində əsas rolu kənardan gələn qüvvələr oynamışlar. Məlumdur ki, Qaraqoyunlu tayfa birliyinə Şərqi Anadoluda məskunlaşmış tayfalar da daxil idi və dövlətin yaranması prosesində onlar da iştirak etmişdilər. Lakin onların tarixi rolunu mütləqləşdirməyə heç bir əsas yoxdur.

Azərbaycan və Sovet tədqiqatçılarının elmi nəticələrinə görə, XV əsrdə ardıcıl olaraq Azərbaycan və İranın böyük hissəsində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərini yaradanlar dil və mənşə etibarilə azərbaycanlı tayfalar olmuşlar [408, 224; 436, 134]. İ.P.Petruşevski də Qaraqoyunlu dövlətinin məhz Azərbaycan zəminində yarandığını qeyd etmiş və Qaraqoyunluların dilinin həqiqətən Azərbaycan (türk) dili olduğunu göstərmişdir [421, 366]. Faruq Sümer yazır ki, Avropa alimlərinin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin İran tarixində bir keçid dövrü olduğunu göstərmək cəhdləri qətiyyən doğru deyildir [313, X]. Onun fıkrincə, Qaraqoyunluların danışıq dili Azəri

türkcəsi olmuşdur [313, XIII].

Türkiyə tarixçilərinin araşdırmalarında Qaraqoyunlu dövlətinin xarakteri məsələsinə aid fikirlər öz əksini tapmamışdır. Bu məsələ ilə bağlı başlıca fikir ilk dəfə İ.P.Petruşevski tərəfindən irəli sürülmüşdür. Onun fikrincə, Qaraqoyunlu dövləti öz xarakterinə görə müxtəlif tayfaların və xalqların məcmusundan ibarət olmuşdur [418, 65]. Bu fikri C.İbrahimov da müdafiə etmişdir [398,18]. Qeyd olunan fikirlərdə böyük həqiqət vardır. Qaraqoyunlu dövləti müxtəlif xalqların yaşadığı geniş əraziləri özündə birləşdirmişdi. Lakin dövlətin Azərbaycanda yaranması, Təbriz şəhərinin paytaxt olması, dövlətin idarə olunmasında yerli əmirlərin əsas rol oynaması obyektiv gerçəklik idi. Qara Yusifin bütün cəhdlərinə baxmayaraq güclü, mərkəzləşdirilmiş dövlət aparatı yaratmaq mümkün olmadı. Bunun başlıca səbəbi, Teymurun Azərbaycanı işğal etməsi dövründə dövlətçilik ənənələrinə güclü zərbə vurulması, onun varisləri dövründə Azərbaycanda ayrı-ayrı şəhər və vilayət hakimlərində müstəqillik meylinin güclü olması və teymurilərlə uzunmüddətli müharibələr olmuşdur.

Qara Yusifin dövründə Azərbaycan Qaraqoyunlu dövləti daha da möhkəmləndirildi. Onun sərhədləri xeyli genişləndirildi. 1419-cu ildə Qara Yusif böyük ticarət əhəmiyyəti olan Sultaniyyə və Qəzvini ələ keçirərək Əcəm İraqının mühüm hissəsini nəzarət altına aldı. Qaraqoyunluların şərqə doğru irəliləməsi Qaraqoyunlu-Teymuri münasibətlərini daha da gərginləşdirdi. Teymuri hökmdarı Şahruxu qəti tədbirlərə əl atmağa sövq etdi. O, 1420-ci ilin yayında 200 minlik ordu ilə Azərbaycana yürşə başladı. Qaraqoyunlu-Teymuri münasibətləri barədə III fəsildə bəhs olunduğu üçün burada geniş məlumat verməyə ehtiyac duymadıq.

Qara Yusif düşməni qarşılamaq üçün Təbrizdən Ucana hərəkət etsə də, onun ağır xəstələnərək yolda ölməsi Şahruxa ciddi müqavimətə rast gəlmədən Azərbaycanı işğal etməyə imkan yaratdı. Lakin Şahrux Təbrizi tərk etdikdən sonra Qara Yusifin oğlu İsgəndər hakimiyyəti ələ alaraq mərkəzi hakimiyyəti

möhkəmləndirə bildi. Azərbaycan Qaraqoyunlu dövlətinin keçmiş əzəmətini bərpa etməsi Teymuri hökmdarı Şahruxun Azərbaycana növbəti yürüşlərinə səbəb oldu. O, 1436-cı ilin mayında Qarabağı tərk edərək Ucana gələn zaman vassallığı qəbul etmək şərti ilə Azərbaycan hökmdarlığını Cahanşaha verdi [169, 25; 74, 82].

Teymuri sultanının Azərbaycanı tərk etməsi ilə İsgəndər sığınmış olduğu Osmanlı torpağından Azərbaycana qayıtdı. Bununla da İsgəndərlə qardaşı Cahanşah arasında kəskin mübarizə başladı. Əbubəkr Tehrani yazır ki, «İsgəndərin orduya və əhaliyə etdiyi zülm nəticəsində ona nifrət edən Azərbaycan qalalarının başçıları Əlincə qalasından başqa bütün digər qalaları Cahanşah Mirzəyə verdilər» [13,93]. Amma o zaman Əlincə qalası və Naxçıvan İsgəndərə sadiq qüvvələrin nəzarətində qalmışdı. 1438-cı il baharın əvvəllərində «İsgəndər əzəmətli əmirləri ilə Çuxursəd və Sürməli qışlaqlarından çıxıb Təbriz istiqamətində hərəkət etdi. Onun qardaşı Cahanşah da Qızılağac qışlaqlarından ayrılıb Ərdəbilə yollandı. O, Əmir Bayəzid Bistami və bəzi Şirvan əmirlərilə birlikdə Təbrizə yollandı, Mərənd yaxınlığında dayandı. Mirzə İsgəndər də onunla döyüşmək üçün hərəkət edib Sufiyanın Həft Çeşmə adlı yerində dayandı». Döyüş ərəfəsində «İsgəndərin yolunda çox zəhmətlər çəkən və heç bir mükafat görməyən nökərlər ondan naümüd oldular. Onun dövlətinin ulduzunu sönmüş, Cahanşah Mirzənin cah-cəlalını artmış gördülər. Döyüş səfləri bir-birilə qarşılaşanda İsgəndərin qoşunu Cahanşaha qoşulmağı qərara aldı. Onun əyanlarından Piri bəy Qaramanlı bu vaxt ondan üz döndərib Cahanşahın dərgahına üz tutdu. İsgəndər bundan çox həyəcanlandı və bu zaman ona necə bədbəxtlik üz verdiyini anladı, atını minib Əlincə qalasına gəldi. Xəzinəsi, arvadları, övladlarından bəziləri bu qalada idilər. Qardaşı Cahanşah Mirzənin qoşunu isə səmanın qəzavü-qədəri və amansız bəla kimi o qalanı mühasirəyə aldı» [13, 90-91; 43, 227]. İsgəndər Əlincə qalasında olduğu vaxt oğlu Şah Qubad atasını öldürmək fikrinə düşüb qırx nəfərlə birlikdə İsgəndərin yataq otağına soxuldu və onu qətlə yetirdi, xəzinəni

ələ keçirərək bir qismini qoşuna payladı və əhvalatı əmisi Cahanşaha bildirdi. Xəzinənin yarısı, Avnik qalası və Pasin vilayəti Cahanşah tərəfindən ona verildi [13, 94; 43, 228; 169, 26]. Bununla da Əlincə qalası Cahanşahın ixtiyarına keçdi. Qalada baş verənləri öyrəndikdən sonra Cahanşah ata qatili Şah Qubadı və bu işdə əli olan bəzi əmirləri öldürtdü [169, 26].

İsmayıl Aka yazır ki, Cahanşah qısa müddət ərzində Qaraqoyunlu ölkəsinə hakim oldu. Yalnız Ərəb İraqı onun nəzarətindən kənarda qaldı. O, 1440-1444-cü illərdə Gürcüstana uğurlu yürüş təşkil etdi. 1445-ci ildə Bağdad hakimi Qaraqoyunlu İspənd Mirzənin ölümü və oğlu Fulad azyaşlı olduğu üçün İsgəndərin oğlu Əlvəndi varis təyin etməsi vəziyyəti xeyli gərginləşdirdi. Əlvənd Mirzənin Bağdada yürüşünün uğursuz olması Cahanşahı Bağdadı fəth etməyə vadar etdi. 1446-cı il iyunun 9-da yeddi aylıq müqavimətdən sonra Bağdad ələ keçirildi [169, 26]. Beləliklə, Ərəb İraqı da Azərbaycan Qaraqoyunlu dövlətinə birləşdirildi.

Teymuri sultanı Şahruxun ölümü (1447), Teymurilər dövləti ərazisinin şahzadələr arasında mübarizə meydanına çevrilməsi Cahanşahın əl-qolunu açdı. O, özünü müstəqil hökmdar kimi aparmağa başladı. Cahanşah öz adına xütbə oxutdurmağa, sikkə zərb etdirməyə başladı. Qaraqoyunlu ordusu Əcəm İraqına göndərildi və Şahruxun dövründən münaqişələrə səbəb olan sərhəd şəhərlərini – Sultaniyyə və Qəzvini ələ keçirməyə çalışdı. Şahruxun nəvəsi Sultan Məhəmməd müqavimət göstərmək istədi. Lakin Şahruxun Cahanşahı "oğulluğa götürmüş" arvadı Gövhərşad bəyimin vasitəçiliyi nəticəsində düşmənçilik münasibətlərinə son qoyuldu. O, Mövlana Yaqubu Cahanşahın yanına elçi göndərərək onu barışığa dəvət etdi. Curbadakanda tərəflər arasında razılıq əldə olundu. Cahanşah öz qızını Sultan Məhəmmədə ərə verdi və süd haqqı kimi Sultaniyyə, Qəzvin və Həmədan bölgəsini aldı [169, 33; 358, 176; 74, 83]. Bundan sonra Cahanşah Azərbaycana, Sultan Məhəmməd isə Farsa geri döndü.

Teymurilər dövləti ərazisinin şahzadələr arasında mübarizə meydanına çevrilməsi Cahanşaha öz dövlətinin sərhədlərini

genişləndirməyə imkan yaratdı. İ.Aka yazır ki, Cahanşah Cığatayların siyasi vəziyyətinin zəiflədiyini nəzərə alaraq oğlu Pirbudağı, Bayəzid Bistam, Şahsuvar, Şah Əli Bayramlı və Əli Şəkər kimi tanınmış əmirləri ilə birlikdə Əcəm İraqı bölgələrinin işğalına göndərdi. Əcəm İraqının açarı sayılan Savə ələ keçirildi. İki aylıq müqavimətdən sonra Qum şəhəri Pirbudaq tərəfindən tutuldu [169, 40-41]. Pirbudağın rəhbərliyi altında Qaraqoyunlu ordusu 1453-cü ilin sonuna kimi İsfahan və Şirazı, 1454-cü ildə isə Kirman və Yəzdi nəzarət altına aldı. 1457-ci ildə Xorasan hakimi Babur Mirzənin ölümündən sonra Teymuri taxt-tacı uğrunda mübarizədən istifadə edən Cahanşah Qaraqoyunlu dövlətinin sərhədlərini şərqə doğru daha da genişləndirdi. O, Xəzər sahili ilə irəliləyərək Mazandaran və Astrabadda möhkəmləndi. Qaraqoyunlu hökmdarı Məşhəd və Nişapuru ələ keçirərək Teymurilərin paytaxtı Herat şəhərinə daxil oldu. 1458-ci il iyunun 28-də Cahanşah Teymuri hökmdarı Şahruxun taxtında əyləşdi. Lakin həmin ilin sonlarında o, Əbu Səidlə sülh bağlayaraq Heratı tərk etməli oldu [74, 83; 169, 26].

Qaraqoyunlu hökmdarının Teymuri sultanı ilə tələsik sülh bağlayaraq Xorasanı tərk etməsinə səbəb 15 il Maku qalasında həbsdə saxlanılan oğlu Həsənəlinin qiyam qaldıraraq Təbrizdə hakimiyyəti ələ keçirməsi idi. Əbubəkr Tehrani bu barədə yazır: "Cahanşah Mirzə Xorasanı fəth edib hakimiyyətini bütün insanlar üzərinə yayanda, övladları onun üzünə ağ oldular. Azərbaycanda Həsənəli qiyam bayrağını ucaltdı. Cahanşah Mirzə onun qiyamının tonqalını söndürmək üçün Azərbaycana qayıtmaq istədi və buna görə Sultan Əbu Səidlə sülh əhvalatı baş verdi" [13, 191; 169, 59-60].

Cahanşah hər gün 10-12 fərsəx yol qət edərər Nişapura gəldi. Bu zaman oğlanlarından Pirbudaq Şiraza, Əbu Yusif Mirzə də Kirmana getmək üçün atasından ayrıldı. Türkiyə tarixçilərinin qənaətinə görə, bu dövrdə Pirbudaqla Cahanşah arasında müəyyən narazılıq yaranmışdı. Pirbudaq atasının qardaşı Məhəmmədi Mirzəni daim yanından ayırmamasını, rəsmi tədbirlərdə belə bir arada olduqları vaxt kiçik olmasına baxma-

yaraq onu üstün tutmasını xöş qarşılamırdı. O, həmçinin atasının Sultan Əbu Səidə qarşı yürüşə razılıq verməməsini də pis niyyətlə bağlayırdı. Pirbudaq dövlətin genişlənərək imperiyaya çevrilməsində, müzəffər ordunun yaradılmasındakı xidmətləri, bəylər və əsgərlər arasında qəhrəmanlığına və bahadırlığına mühüm qiymət verilməsinə baxmayaraq qardaşı Məhəmmədi Mirzənin ondan üstün tutularaq vəliəhd seçiləcəyini düşünürdü [358, 181; 169, 60-61]. Buna görə də o, Yəzddə gələn zaman qiyam qaldıraraq şəhəri qarət etməyə başladı. Əbubəkr Tehrani yazır ki, "Cahanşah Mirzə Həsənəlinin özbaşınalığından qorxduğu üçün, Pirbudaq bilirdi ki, atasının Azərbaycandan çıxmaq imkanı olmayacaq, ona görə itaət yolundan çıxdı, beynində təkəbbürlü fikirlər yarandı, yanlış istəklərin küləyi ağlının çırağını söndürdü" [13, 190].

İ.Aka Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Maku qalasından azad olan Həsənəli qalada saxlanılan Ağqoyunlu Qara Osmanın oğlu Mahmud bəyi və Əmir Ərəbşahı azad edərək Təbrizə gəldi və ətrafına müəyyən adamları toplayaraq özünü hökmdar elan etdi. O, Ağqoyunlu Mahmud bəyi, Qılınc Arslanı və Ərəbşahı Ərdəbili ələ keçirməyə göndərdi. Lakin onlar Cahanşahdan qorxduqları üçün Həsənəlidən üz döndərərək Cahanşahın ordusuna qoşuldular [169, 61]. Cahanşah Reydə olarkən, Şahsuvar bəy, Solan bəy, Pir Əli bəy başda olmaqla bir dəstəni Təbrizə göndərdi. Həsənəli Qılınc Arslan ilə Ərəbşahın ondan üz döndərdiyini eşidəndə Təbrizdən qaçdı. Cahanşahın əmirləri Təbrizə daxil oldular. Həsənəli Cahanşahın hələ Azərbaycan hüdudlarına gəlmədiyni bilib Həsənoğlunun başçılığı ilə bir dəstəni Təbrizə göndərsə də, Acı-su çayının sahilində baş verən döyüşdə Həsənoğlu məğlub olaraq öldürüldü. Bu xəbəri alan Həsənəli qaçaraq Maku qalasında gizləndi [13, 192; 169, 61].

İ.Aka yazır ki, Cahanşah Həsənəlinin bacısını göndərərək oğlunu Səhənd yaylağına gətirtdi. Ov zamanı onu öldürtmək istəsə də, yaralanan Həsənəli analığı Can Bəyimə sığınaraq xilas oldu. Qaraqoyunlu hökmdarı Şirazda üsyan qaldıraraq əlaqəni

tamamilə kəsmiş olan oğlu Pirbudağın Bağdada hücumlarının qarşısını almaq və onun vəziyyətini çətinləşdirmək məqsədi ilə Həsənəlini Ərəb İraqına hakim təyin edərək Can Bəyimlə birlikdə Bağdada göndərdi. Lakin Pirbudağın adamları onlara Bağdada daxil olmağa imkan vermədi. Bu, Pirbudaqla Cahanşah arasındakı gərginliyi daha da artırdi [169, 61-62]. İ.Aka yuxarıda qeyd olunan məlumatı Əbubəkr Tehranidən aldığını qeyd etsə də, həmin məlumatda müəyyən dəqiqləşdirmələrə ehtiyac vardır. İ.Aka Cahanşahın Həsənəlinin Ərəb İraqına hakim təyin edildiyini göstərir. Lakin biz mənbədə bu məlumatın olmadığını görürük. Əbubəkr Tehrani yazır: " ...Pir Məhəmməd Təvaçinin oxla yaraladığı Həsənəli atasının hərəmxanasına pənah apardı və Cahanşah Mirzənin o biri oğlanlarının anası olan, son nəticədə Həsənəli tərəfindən öldürülən Can Bəyimdən nicat istədi. Bir neçə gün onun yarasını müalicə etdilər və sonra atası əmr etdi ki, onu ölkəsindən çıxarsınlar. Pirbudaq Mirzə Xorasandan qayıdarkən itaətsizlik yoluna qədəm qoyduğu və İraqın malınamülkünə əl uzatdığı üçün atası istədi ki, Bağdadı onun əlindən alsın və Pirbudağın sığınmağa yeri qalmasın. Cahanşah Həsənəlini Can Bəyimə tapşırdı və əmr etdi ki, onu Bağdad yolu ilə Şama aparsın və bu zaman Bağdadı Pirbudağın təyin etdiyi adamlardan təmizləsin. Bağdadlılar bu xəbəri eşidib yolu bağladılar və Can Bəyimin Bağdada girməsinə imkan vermədilər. Həsənəlini Bağdadın yanından keçirib Şama yola saldılar. Bu da ədavətə səbəb oldu" [13, 191-192]. Dövrün qaynağının qeyd etdiyi kimi, Azərbaycan Qaraqoyunlu hökmdarı oğlu Həsənəlini ölkəsindən çıxarmaq və Şama göndərməyə qərar vermiş və bunu həyata keçirmişdi.

1463-cü ilin yazında Cahanşah oğlu Pirbudağın üsyanını yatırmaq üçün İsfahandan Şiraza qoşun yeritdi. Pirbudağın göndərdiyi min beş yüz nəfərlik qoşun Cahanşahın qüvvələri tərəfindən məğlub edildi. Pirbudağın tanınmış əmirlərindən Şadi bəy və Əli Şəkər bəyin oğlu Məhəmməd bəylə birlikdə 300 nəfər əsir alındı [169, 63]. Əbubəkr Tehrani yazır ki, "Bir neçə gün keçdikdən sonra Pirbudağın pərvanəçisi və ən yaxın adamların-

dan olan Şadi bəyin oğlu İbrahimşah bəy peşmanlıq yoluna qədəm qoyub onun yanından qaçdı və ona tapşırılan darvazanı baxımsız buraxıb Cahanşah Mirzənin düşərgəsinə gəldi. Padşah onunla görüşüb ona hər cür nəvaziş və iltifat göstərdi. Onun qaçmağı Pirbudağın süqutunu yaxınlaşdırdı və eyni zamanda Cahanşahın adamlarında Şirazın fəth olunacağına ümid yaratdı. Onun qaçışından sonra sülh söhbəti ortaya çıxdı. Pirbudağın anası oğlunun xahişi ilə sülh danışıqlarında vasitəçi oldu" [13, 195]. Aparılan danışıqlar nəticəsində Pirbudaq Şirazı tərk edərək Şüştərə çəkildi. O, düşünürdü ki, bir müddət burada qalacaq və ara sakitləşdikdən, atası ilə münasibətlər normallaşdıqdan sonra yenidən Şiraza qayıdacaqdı. Lakin Cahanşah onu Şirazdan ayıraraq Bağdada hakim göndərdi. Digər oğlu Əbu Yusif Mirzəni Şiraza hakim təyin etdi [169, 64-65].

İ.Aka yazır ki, Bağdada göndərilən Pirbudaq əhali üzərinə ağır vergi qoyaraq hər vasitə ilə onu toplamağa çalışdı, hətta bu zaman onlara işgəncə verməkdən də çəkinmədi. Bir müddət sonra Ərəb İraqında və Suriyada dolaşan hətta, müəyyən müddət Ağqoyunlu Uzun Həsənin yanında olan Həsənəli də Bağdada gəldi və Pirbudaq tərəfindən yaxşı qarşılandı. İki qardaşın bir araya gəlməsi Cahanşahın Pirbudaqla bağlı şübhələrini daha da artırdı və onu yeni tədbirlər görməyə vadar etdi [169, 65]. Əbubəkr Tehrani yazır: "Cahanşah Mirzəyə xəbər gəlirdi ki, Pirbudaq yenidən qiyam və itaətsizlik nümayiş etdirməyə başlayıb. Həsənəlini Bağdada buraxaraq ona böyük hörmət göstərib. Özü də vilayətlərdən taxıl və ərzaq toplayıb Bağdada daşımaqla məşğuldur" [13, 198]. Bu xəbərlər 1464-cü ilin qışını Savədə keçirən Cahanşahı oğlu Məhəmmədi Mirzəni İsfahandan çağıraraq böyük ordu toplamağa və Bağdada yürüş etməyə vadar etdi. Əbubəkr Tehrani bu barədə yazır: "Cahanşah Mirzə Savə qışlağından çıxıb Pirbudağı məhv etmək üçün Bağdada yollandı, bütün yazı və yayı İraq yaylaqları ilə ağır-ağır irəlilədi. Qışlaq vaxtı gələndə Bağdad ətrafına çatdı" [13, 197]. İ.Akanın fikrincə, 1465-ci ilin fevralında Bağdad ətrafına gələn Cahanşah şəhərin mühasirəsinə başladı. Şəhərin uzun sürən mühasirəsi

Bağdadda qıtlığa yol açdı və Pirbudağın tərəfdarlarının dağılaraq Cahanşahın tərəfinə keçməsinə səbəb oldu. Pirbudaq acizliyini boynuna alıb atasından aman diləməyə məcbur oldu. O, Cahanşahın divanbəyi Pirzad bəyin qardaşı Əbdürrəhman Buxarini elçi kimi atasının yanına göndərdi. Elçi onun atası Cahanşahla, qardaşı Məhəmmədi Mirzə və əmirlərlə görüşüb aman verilməsini istədi. Cahanşah şəhərin təslim edilməsi şərti ilə Pirbudağın yaxınları və yüzə qədər adamı ilə şəhərdən çıxmasına razılıq verdi. Buna görə Pirbudaq xəzinəsini atasına göndərdikdən sonra Bağdadı Cahanşahın əmirlərinə təslim edərək şəhəri tərk etməyə hazırlaşdı. O, Zülqədəroğlu Şahsuvar bəyin yanına getmək niyyətində idi. Lakin Pirbudağın yanından qaçaraq Cahanşahın hüzuruna gələn Dündar bəy şahzadənin verdiyi sözə əməl etməyərək müqavimət göstərməyə hazırlaşdığını xəbər verdi. Bu xəbər Cahanşahı qəzəbləndirdi və Pirbudağın öldürülməsinə qərar verməsinə səbəb oldu. 1566-cı il iyunun 15-də Cahanşahın qüvvələri şəhərə daxil oldu, Məhəmmədi Mirzə ilə Pir Məhəmməd Təvaçi baş verən hadisələrdən xəbərsiz olan Pirbudağı öldürdülər [169, 66-67].

Beləliklə, Bağdadı nəzarət altına alan Cahanşah Ərəb İraqını Əcəm İraqı və Fars vilayəti ilə birlikdə oğlu Məhəmmədi Mirzəyə verdi, alpaut tayfasından olan Pir Məhəmməd Təvaçini Bağdad valisi təyin edərək oğlu Həsənəli ilə birlikdə Təbrizə döndü. O, az sonra Həsənəlini Maku qalasında həbs etdirdi, Bağdadın fəthi ilə bağlı Teymuri Əbu Səidə, Ağqoyunlu Uzun Həsənə elçilər göndərdi. 1467-ci ildə Qaraqoyunlu hökmdarı Şirvanşah Xəlilüllahın ölümündən sonra ona itaət etməyən oğlu Fərrux Yəsarı cəzalandırmaq üçün Şirvana yürüş təşkil etdi. O, eyni zamanda gürcülər üzərinə uğurlu yürüş etdiyi üçün Ağqoyunlu Uzun Həsənə Aynal adlı elçisi ilə qızıl kəmər, qılınc və qumaş yolladı [13, 200; 258, 184; 169, 67].

1467-ci il noyabrın 10-da Cahanşahın Uzun Həsən tərəfindən öldürülməsi xəbəri yayılan kimi “məmləkətin vəziyyəti pozuldu, fitnə-fəsad qapıları camaatın üzünə açıldı. Təbrizdə əvvəlcə İsgəndərin övladları, sonra isə Cahanşah Mirzənin oğlu

Həsənəli baş qaldırdı. Sultaniyyədə Şahsuvar bəyin oğlu Şah Mənsur, Taromda Gilan əmirlərinin yardımı ilə Şeyx Hacı İraqinin oğlu Zeynalabdin, Qəzvində Sultan Məhəmməd Lahicinin əmirləri, Rey və Xarda Rüstəmdar əmirləri və Cəlavilər, Qumda şəhər darğası olan Şahvəli Quz qiyam qaldırdılar. Kirmandan Cahanşah Mirzənin oğlu Əbülqasım Mirzə İraq və Azərbaycanı tutmaq üçün qoşun çəkdi. Xorasandan Sultan Əbu Səid Türküstan və Mavəraənnəhr hüdudlarından Xorasan, Sistan və Təbəristana qədər qoşun toplayıb cahangirlik fikrinə düşdü" [13, 230-231; 169, 73-74].

İ.Aka Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşahın Səncək adlı yerdə öldürülməsindən sonra Sarbanqulu məğlub olan qoşunun bir dəstəsi ilə Təbrizə gəldi. O, ətrafına topladığı adamlarla şəhəri ələ keçirməyə başladı. Lakin bu zaman İsgəndərin qızları Arayiş Bəyim və Şah Şaray Bəyim Təbrizdə dağılmış əsgərləri toplayaraq Sarbanqulunu öldürdülər. Onlar şəhərdəki xəzinəni əsgərlər arasında payladılar. Arayiş Bəyim qadın bəzəklərini döyüş ləvazimatı ilə əvəz etdi. Meydanda kişilərin olmadığını görüb hökmranlıq etməyə başladı. Əmir Şahməhəmməd Qavrudini və Əmir Əlaəddin Siddiq Keçəçini divan əmiri və vəzir təyin etdi. Daim vaxtını eyş-işrətlə keçirən qardaşı Həsənəlini əbədi həyat geyimi olan dərvişlik libasından çıxararaq adına sikkələr vuruldu, xütbələr oxudularaq səltənət taxtında oturtdular [13, 232; 169, 74]. Onlar Teymuri hökmdarı Əbu Səidin yardımını və himayəsini əldə etmək üçün hələ Cahanşahın sağlığında Əbu Səid tərəfindən dostluq, sədaqət və qardaşlığı təsdiq etmək üçün elçi kimi Təbrizə göndərilmiş, lakin qarşısına qoyulmuş vəzifəni yerinə yetirə bilməyən Əli bəy Cığatayın burda olmasından istifadə edərək ona böyük ehtiram göstərdilər, xütbələrdə Sultan Əbu Səidə dua edilməsi barədə əmr verdilər [13, 232; 169, 74].

İsgəndərin övladlarının Təbrizdə qiyam qaldırması xəbəri Xoyda qızları ilə qışlayan Cahanşahın arvadı Can Bəyim Xatuna çatan zaman o, Marağa və Cövşən qalasına tələsdi. Həmin qalada onların şəxsi xəzinələri yerləşirdi və qardaşları Həmzə bəy

və Qasım bəy tərəfindən qorunurdu. Cahanşahın arvadı İsgəndərin qızı Arayiş Bəyimin və digər övladlarının qiyamından xəbər tutduqda, onların qarşısını almaq üçün qızlarından birini qardaşı Həmzə ilə Təbrizə göndərdi [13, 232-233; 169, 74-75]. Əbubəkr Tehrani bu barədə yazır: “Həmzə bəy bacısı qızı ilə hərəkət etdikdə şəhərə səs düşdü ki, bir dəstə şəhərin üstünə gəlir; deyəsən, bu Həsənəlidir ki, Maku qalasından çıxaraq, ona irs qalmış məmləkəti almaq üçün “kəpənək kimi ətrafa səpələnən” qoşun toplayıb. İsgəndərin övladları bu xəbərdən bərk narahat oldular, mənsəb və məvacib verdikləri əmirlərin bir dəstəsini özləri ilə götürüb şəhərdən çıxdılar və belə qərara gəldilər ki, əgər gələn başqası olsa onunla döyüşəcəklər, əgər Həsənəli olsa dostluq və qardaşlıq əsasında onun himayəsinə sığınacaqlar. İki dəstə üz-üzə gələndə Həmzə bəy döyüşə başladı. Onun nökərləri Həsənəlinin adına dualar etdilər, İsgəndərin övladları özlərini itirib müqavimət göstərə bilmədilər. Hüseynəli Cahanşahın iqamətgahı olan Sahibabad sarayı yaxınlığında öldürüldü, bacıları əsir düşdü, bir çox süvarilər və piyadalar həyat atından ölüm torpağına yıxıldılar. Həmzə şəhərdə qarət və talanla məşğul oldu, puldan və maldan nə qədər bacardısa, toplayıb özü ilə apardı. O, Həsənəlinin gəlişindən ehtiyatlanaraq, Təbrizdə qalmağa cəsarət etmədi və köç edib bacısının yanına qayıtdı” [13, 233; 169, 75].

İ.Aka yazır ki, atasının üzünə ağ olduğu üçün Maku qalasında həbsdə olan Həsənəli Cahanşahın öldüyünü, İsgəndərin övladlarının baş qaldırdığını, qarmaqarışıqlıq yarandığını eşidəndə, Səncək döyüşündə xilas olan Şah Əli və İbrahim Şah tərəfindən qaladan çıxarıldı. Atasına qarşı çıxdığı vaxtlarda bir müddət çöllü-biyabanda onunla olan və buna görə də onun “çöllü” adlandırdığı əmirlər, əmirzadələr və nökərlər də ona qoşuldular. Həsənəli bir neçə gün qalanın ətrafında dayandı və iki-üç min adam onun ətrafına toplaşdı. Sonra oradan hərəkət edib Təbrizə daxil oldular. Bu zaman Ərdəbil yolu üzərində dayanıb kimin padşah olacağını gözləyən Şah Hacı bəy Qavrudi İsgəndərin övladlarından üz döndərmiş qardaşı Şah Məhəmməd

ilə birlikdə ona qoşuldu. Eləcə də Qılınc Aslanın öğlu Seydi Qasım və Ağacəri Hacı Həsən kimi Qaraqoyunlu əyanları onunla birləşdilər [13, 233-134; 169, 75].

Əbubəkr Tehraninin verdiyi məlumata görə, "Həsənəli hər tərəfə dəvətlər göndərməyə və atasının vilayətlərdə olan əmirlərini yanına çağırmağa başladı. Onun qoşununun sayı iyirmi minə çatmışdı və hər gün yeni-yeni dəstələr ona qoşulur, rütbələrinə uyğun ənam və hədiyyələr alırdılar, xəzinələrin qapısı hamının üzünə açıq idi, çoxlu pul və mal əmirlərə, "çöllülərə", əsgərlərə paylanırdı. O ətrafın camaatından təqribən iki yüz min nəfər kişi onun ordusundan maaş alırdı. Həsənəli Mahmud bəy Ağqoyunlunu divan əmiri, Əmir Seyid Aşur ilə Əmir Əlaəddin Siddiqi vəzir təyin etdi. Sonra Pirbudaq Mirzənin vəziri olmuş Əmir Məcdəddin İsmayıl Şirazini də onlara bərabər özünə vəzir etdi. Urəntu və Əlincə qalalarının xəzinədarları xəzinələri ona təhvil verdilər. Əlincə qalasının sahibi Yaqut Çöhrə onun hüzuruna gəldi və atasının illərlə topladığı, onun sağlığında məmləkətin zəruri işlərini həll etmək və yeni torpaqlar tutmaq kimi məqsədlərə sərf olunan xəzinəsini Həsənəliyə çatdırdı. O da "səxavət" göstərib bunu layiq olana və layiq olmayana payladı. Məğlub edilmiş yerlərdən toplanmış qənimət sayəsində və məzlum camaatın ürək qanı bahasına yığılmış pulları etibar və etimadının çəkisi və əyarı məlum olmayan adamlara verdi" [13, 234].

Həsənəli dövlət əmirləri və çoxdan onun xidmətində olan "çöllü"lərlə müşavirə keçirdi. Ərəb İraqında özbaşınalığa son qoymaq üçün Hacı bəy Qavrudinin oğlu Şah Hacı bəyi bütün İraq vilayətlərinin başçısı təyin etdi. Onu əmirlərdən Cəmşid bəy Ağqoyunlu, Hacı Həsən Ağacəri, Lələ Səfərşahın oğlu Şahqulu, Məhəmmədi Mirzənin sərkərdələrindən Dini bəy Cığatay və Cahangirlə birlikdə beş min süvari ilə İraqa tərəf göndərdi. O, hər şəhəri bir əmirə verdi: Həmədan və Qumu Şah Hacı bəyə, Qəzvini Hacı Həsənə, Nətənz və Cərbadeqanı Şahquluya, Sultaniyyəni Şah Mənsura tapşırdı [13, 235; 169, 76].

İ.Aka yazır ki, 1468-ci ildə Uzun Həsən Bağdad şəhərini

40 gün mühasirədə saxlasa da, Azərbaycanda baş verən hadisələr – Həsənəlidən aldığı məktubla bağlı mühasirəni dayandıraraq Muş düzünə gəldi. Bu zaman Həsənəli Miyanədə yaylaqda idi. O, Uzun Həsənin gəlişini xəbər alaraq ona meyl göstərdi və Mərəndə gəldi. Əbu Səidin Azərbaycanda olan əmiri Arqun Məzid bəy Həsənəlinin Uzun Həsənə meyl etdiyini xəbər alaraq Miyanəyə irəlilədi. Uzun Həsən Həsənəlinin vəziyyəti və gücü barədə dəqiq məlumat əldə etmək üçün onunla yaxın dost olan Hacılı Sultan Mahmudu onun yanına elçi göndərdi. Lakin o, ələ keçirilərək öldürüldü. Bu zaman Uzun Həsənin Bağdaddan Həsənəlinin yanına göndərdiyi Əmir adlı elçisi gəlib çıxdı və bildirdi ki, Həsənəli itaət yolundadır, öz əhdinə sadiqdir, atasının xəzinəsi və məmləkətindən bir hissəsini ona verəcək [169, 77-78]. Buna görə, Uzun Həsən öz elçisini Həsənəliyə göndərdi və tələb etdi ki, vəd edilən məbləği versin, eləcə də Avnik və Adilcəvaz vilayətlərini təyin etdiyi şəxslərə təslim etsin. Həsnəlinin elçini həbs etdirməsi Uzun Həsənin sürətlə Xoya irəliləməsinə səbəb oldu. Həsənəli Mərəndə gələrək ordusunu dərin xəndək qazdıraraq gizlətdi. Ağqoyunlu satılmış Miraxur Həsənəlinin xəndəyinə basqın etdi və Qaraqoyunluluların bir dəstəsini qətlə yetirdi. Həsənəlinin əmirlərindən Əmir Şahəli Bayrami qardaşı Şahsuvar bəyin oğlu Şah Mənsur və Əmir İbrahimşah ilə birlikdə qaçıb Uzun Həsənə sığındı. Bu Həsənəlinin mövqeyini zəiflətdi və topladığı qoşunun dağılmasına səbəb oldu. “Həsənəli naxələf bir övlad kimi atasının mal-dövlətini qumara qoydu, lüt-üryan, rüsvay və pərişan halda qaçdı, arvad-uşağından ayrı düşüb mülkünü və malını itirdi” [13, 247-249; 169, 78].

Həsənəli Bərdəyə qaçsa da, bölgənin hakimi Piri Qaramaninin övladları onu tutub Uzun Həsənin hüzuruna göndərmək istədilər, lakin sonra bu fikirdən daşınıb ona imkan verdilər ki, Ərdəbilə getsin və Səfəvi Şeyxinin hüzuruna pənah aparsın. İki aydan sonra o, möminliyin pənahı olan Şeyx Cəfərlə birlikdə Sultan Əbu Səidin hüzuruna getdi. 1469-cu ilin əvvəllərində Uzun Həsən tərəfindən Sultan Əbu Səidin məğlub edilməsi və fevralın 5-də öldürülməsindən sonra Həsənəli Həmədan tərəflə-

rinə qaçaraq ətrafına altı minlik qüvvə topladı. Bu zaman Uzun Həsən tərəfindən Həmədan hakimi təyin olunan Şah Veys Hacı Piri qardaşı Şah Məhəmməd və Cahangir Şah Hacı, Əhməd bəy Əhmədli ilə birlikdə şəhərədən çıxaraq Həsənəlini qarşıladı. 1469-cu ilin aprel ayında tərəflər arasında baş verən döyüş Həsənəlinin qələbəsi ilə nəticələndi. Şah Veys bəylə Əhməd bəy Əhmədli öldürüldü, Cahangir isə qaçaraq Həmədan qalasına sığındı. Lakin bu zaman özünü yetirən Ağqoyunlu Uğurlu Məhəmməd Həsənəlini məğlub edərək ələ keçirdi və öldürdü. Həmin ilin oktyabrında Şirazdan Kirmana doğru yürüş edən Əbülqasım Mirzə də Uğurlu Məhəmməd tərəfindən ələ keçirilərək öldürüldü [13, 272; 169, 83-84]. Bununla da Azərbaycan Qaraqoyunlu dövləti süqut etdi. Mərkəzi Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövləti yarandı.

### *I. 3. Azərbaycan hökmdarı Qara Yusifin siyasi fəaliyyəti və şəxsiyyəti*

XV yüzilliyin başlarında Azərbaycanda Teymuri ağalığına son qoyulması və dövlətçiliyimizin bərpa olunmasında Qaraqoyunlu Qara Yusifin tarixi xidmətləri əvəzsizdir. Məhz bu dövrdə ölkəmizdə qədim milli ənənələrə söykənən Azərbaycan Qaraqoyunlu dövləti yaradılmış oldu. Şübhəsiz ki, bu dövlətin yaradılması və möhkəmləndirilməsi Qara Yusifin adı ilə bağlıdır.

Cəmaləddin Qara Yusif Barani Azərbaycan tarixində böyük iz qoymuş tarixi simalardan biridir. O, Qaraqoyunlu sülaləsinin üçüncü hökmdarı və Azərbaycan Qaraqoyunlu dövlətinin yaradıcısıdır. 1389-cu ildə atası Qara Məhəmmədin öldürülməsindən sonra mərkəzi Ərciş qalası olan Qaraqoyunlu tayfa birliyinə rəhbərlik edən Qara Yusif, bu birliyi daha da gücləndirdi. Möhkəm iradə sahibi olan Qara Yusif rəqiblərinin müqavimətini qıraraq qaraqoyunluların nüfuzunu daha da artırdı və bölgədə yaranmış əlverişli vəziyyətdən faydalanaraq 1391-ci ildə Təbriz şəhərini ələ keçirdi. Qara Yusif Şənbi-Qazanda yerləşdi və bir neçə gündən sonra əmirlərindən Satılmış və Xəlili şəhərin mü-

hafizəsində qoyaraq, yayı keçirmək üçün Aladağa çəkildi. Bir müddət sonra Qara Yusifin yenidən Təbrizi tutduğunu görürük. O, bir ay şəhərdə qaldıqdan sonra Təbrizi yenə tərk etdi. Əmir Teymurun yeni yürüş xəbərini alan qaraqoyunlular da Təbriz şəhərini tərk etdilər [5, 58; 132, 66 ].

Əmir Teymurun Azərbaycana yürüşü zamanı Cəlairi hökmdarı Sultan Əhmədlə Qara Yusif arasında düşmənə qarşı ittifaq yarandı. Əmir Teymur ordusu Azərbaycanı fəth edən zaman (Əlincə qalasından savayı-T.N.) ona itaətsizlik göstərən başlıca qüvvə məhz qaraqoyunlular oldu. Bu zaman Cəlairi hökmdarı Bağdada çəkildi. Qara Yusif isə Əmir Teymurun Qızıl Orda xanı Toxtamışa qarşı yürüşə başlamasından istifadə edərək doğma yurdunu düşməndən azad etmək üçün mübarizə apardı. O, öncə Ərciş qalasını azad etdi, az sonra isə Avnik qalasında Teymuri qüvvələrini məğlub edərək əmir Atlamışı əsir aldı. Dövrün mənbələri Əmir Teymurun Hindistan səfərində olmasından faydalanan Qara Yusif və Sultan Əhmədin itirilmiş torpaqlarını geri almağa səy göstərdiklərini yazırlar. Lakin 1399-cu ildə Əmir Teymurun «yeddi illik» səfərə çıxması onların bu cəhdini boşa çıxardı. Azərbaycana gələn Əmir Teymurun Bağdad üzərinə qoşun göndərməsi Qara Yusiflə Sultan Əhmədin vəziyyətini daha da pisləşdirdi. 1400-cü ilin ortalarında onlar Bağdadı tərk etməyə məcbur qaldılar. Onlar Məmlük Sultanı Fərəcə elçi göndərərək sığnacaq verməsini xahiş etdilər. Lakin 1400-cü il iyunun 19-da Hələb yaxınlığında baş verən döyüşdə Hələb naibi Dəmirtaşın məğlub edilməsi onların Suriyaya keçməsinə və Misir sultanına sığınmasına imkan vermədi. Belə bir vəziyyətdə, Qara Yusif və Sultan Əhməd Osmanlı sultanı Bayəzidə sığınmağa qərar verdilər [313, 62]. Əmir Teymurun Suriyaya hücum etməsi Qara Yusifin Osmanlı sultanına sığınmasını qətiləşdirdi. Osmanlı sultanı İldırım Bayəzid onu Ağsaray bölgəsində yerləşdirdi. Osmanlı tarixçilərinin yazdığına görə, Qara Yusif 8 ay Osmanlı sultanına qonaq olmuşdur [Bax: 41, 62].

Qara Yusifin Türkiyəyə sığınması Osmanlı-Teymuri mü-

nasibətlərini daha da kəskinləşdirdi. Əmir Teymurun Qarabağdan Osmanlı sultanınıa göndərmiş olduğu məktublarda «yol kəsən quldur» adlandırdığı Qara Yusifin öldürülməsi, təslim edilməsi, yaxud da ölkədən çıxarılması tələb edilirdi. Osmanlı sultanı İldırım Bayəzid cavab məktubunda Teymurun bu tələblərini rədd edərək ona sığınmış bir qonağın qovulmasını amansızlıq və imansızlıq kimi qiymətləndirmişdi. Sultan Əmir Teymurun «qovğa yaratmaq üçün» bəhanə axtardığını açıqca bildirmişdi [92, 45-46; 132, 67].

1402-ci ilin əvvəllərində Qara Yusif Türkiyəni tərk edərək Ərəb İraqına gəlmiş və sadiq silahdaşlarını ətrafına toplamışdı. O, Sultan Əhmədin Bağdadı ələ keçirməsinə yardım etmiş və Hillədə möhkəmlənmişdi. 1403-cü il iyulun sonunda Qara Yusif Hillə yaxınlığında teymuri Əbu Bəkrlə döyüşdə böyük qəhrəmanlıq göstərməsinə baxmayaraq məğlub oldu və Suriyaya çəkildi. Qara Yusif bu döyüşdə qardaşı Yar Əlini itirdi [13, 58]. F.Sümer yazır ki, dövrün ərəb tarixçiləri İbn Hacər və Məqrizi Qara Yusifin Əmir Teymurun göndərdiyi birinci orduya qalib gəldiyini, lakin 100 minlik ikinci orduya məğlub olduğunu qeyd edirlər [313, 65]. Qara Yusif Dəməşqə gələrkən şəhərin naibi Şeyx Mahmudi tərəfindən yaxşı qarşılandı. Az sonra Sultan Əhməd də Dəməşqə sığındı. Bir müddət sonra Əmir Teymurun tələbi ilə Misir sultanı Fərəc Şam naibindən onların həbsə alınmasını tələb etdi. Qara Yusif Dəməşq qalasının Burcul-Hammam hissəsində həbsə alındı. Fevral ayında Qahirədən gələn yeni bir fərmanda Qara Yusifin öldürülməsi tələb edilsə də, Şeyx Mahmudi bu əmri yerinə yetirmədi. Qara Yusif və Sultan Əhməd Dəməşqdə bir il həbsdə qaldılar. Həbs həyatı onlar arasındakı dostluğu daha da möhkəmləndirdi. Bu zaman Qara Yusifin yeni doğulan oğlu Pirbudaq Sultan Əhməd tərəfindən mənəvi oğulluğa götürüldü. Məhbuslar azad olunduqdan sonra bir-birinə daim dost olacaqlarına and içdilər. Onlar arasındakı anlaşmaya görə, Sultan Əhməd Ərəb İraqında, Qara Yusif isə doğma yurdu Azərbaycanda möhkəmlənməyə qərar verdilər [313, 67; 132, 68].

F.Sümer Məmlük tarixçilərinə əsaslanaraq yazır ki, Qara Yusif Şeyx Mahmudi tərəfindən 1405-ci ilin yanvarında həbsdən azad edilərək Misir sultanı Fərəcə qarşı təşkil olunan yürüşə qatıldı. Qara Yusif və Şeyx Mahmudi ilk döyüşdə qalib gəlsə də, Qahirə yaxınlığında baş verən növbəti döyüşdə məğlub olaraq geri döndülər [313, 68]. 1405-ci ilin iyulunda Qara Yusif ətrafındakı silahdaşları ilə doğma yurduna doğru hərəkət etdi. Dövrün farsdilli qaynaqlarına görə, Qara Yusif Dəməşqdən Mardinə gələnə kimi ayrı-ayrı əmirlərlə 180 dəfə döyüşə girmiş və qalib gəlmişdi [8, 557; 43, 54; 132, 68].

Qışı Mosulda keçirən Qara Yusif 1406-cı ilin yzında Mardinlə Hısn-Keyfə arasındakı Təqi adlı yerdə Ağqoyunlu Qara Osmanla qarşılaşdı. Əbubəkr Tehraninin yazdığına görə, Qara Yusif ağqoyunlularla döyüşə girməyə tələsmədi və Qara Yülük Osmana məktub göndərərək sülh bağlamağı təklif etdi. Bu müraciətin ən önəmli tərəfi ondan ibarətdir ki, Qara Yusif barışın zərurətini məhz onların ortaq etnik mənsubiyyəti – türkmanlığı ilə əsaslandırırdı: «Biz hər ikimiz türkman xalqındanıq. Bundan sonra bir-birimizə qarşı vuruşmamalıyıq, bundan artıq bir-birimizi əzməməliyik. Bizlərdən hər birimiz düşmənlərimiz olan Rum və Cığataylarla vuruşmalıyıq. Sənin Şam və Ruma hücum etməyin, mənim də Cığatayların üstünə getməyim daha düzgün və daha məqsədəuyğundur» [50, 58-59; 118, 230; 132, 68]. Qara Yusifin bu çağırışı daha çox deklarativ xarakter daşısa da, iki cəhətdən önəmlidir. Bir tərəfdən, bu fakt Şərqi Anadolu və Azərbaycan türklərinin vahid türkman şüuruna sahib olub özlərini Osmanlı və Orta Asiya türklərindən fərqləndirdiklərini göstərir. Digər tərəfdən, Qara Yülük Osmana Şam və Ruma hücum etməyi, yəni genişlənmə istiqamətini qərbə doğru yönəltməyi tövsiyə edən Qara Yusif gələcəkdə Ağqoyunlu tarixinin ana xəttini təşkil edən və Ağqoyunlu-Osmanlı və Ağqoyunlu-Məmlük qarşıdurması və müharibələri ilə nəticələnən inkişaf meylini sanki öncədən sezmişdir [118, 230].

Qara Yusifin bu xəbərdarlığına baxmayaraq, tərəflər arasında döyüş baş vermiş, lakin bir nəticə əldə olunmadığı üçün

barışıq imzalanmışdır. Bu hadisədən sonra Qara Yusif Bidlisə gəlmiş və Avnik hakimi Doladayı məğlub edərək qalanı ələ keçirmişdir. Bununla da o, Şərqi Anadoludakı qədim mülklərinə sahib olmuşdur [132, 68].

1406-cı ilin yazında Teymur sarayından vətəninə dönən İspaniya elçisi Klavixo Qara Yusifin 10 minlik qüvvə ilə Xoy ətrafını talan etdiyini və Ərzincan şəhərini mühasirəyə aldığını yazır [61, 157]. Qara Yusif Azərbaycana hakim olmaq üçün Əmir Teymurun nəvəsi Əbu Bəkrin qüvvələrini məğlub edərək teymurilərin Azərbaycandakı ağalığına son qoymalı idi. Qara Yusif Qaraqoyunlu əmirlərinin mövqeyini öyrənmək üçün yayı Aladağda, qışı isə Diyarbəkr və Fərat sahillərində keçirməyi, Cığataylarla münasibətləri gərginləşdirməməyi təklif etmişdi. Qaraqoyunlu əmirləri onun bu təklifinə belə cavab vermişdi: «Əgər Teymurun Azərbaycana təyin etdiyi əmirlər olsaydı savaşmazdıq, lakin Əbu Bəkr onları öldürərək yerlərinə cahil və rəzil adamları təyin etmişdir. Bunlardan isə qorxulacaq bir şey yoxdur». Qara Yusif əmirlərin bu cavabından razı qalmışdır [43, 55; 313, 72-73; 132, 68-69].

1406-cı ilin oktyabrın 14-də Naxçıvanın qərbində Araz çayı sahilində Qaraqoyunlu və Teymuri qoşunları qarşı-qarşıya gəldi. Qara Yusiflə Əbu Bəkr arasındakı döyüşün birinci günü tərəflərin bir-birinə ox atması ilə başa çatdı. Döyüşün ikinci günü Əbu Bəkr Araz çayını keçərək Qaraqoyunlular üzərinə hücum etsə də, geri qovulmuşdu. Bu zaman Qara Yusif: «Bizim şəxsi düşmənçiliyimiz üzündən bu qədər adam tələf olur, igidlik və bahadırlıq ikimizin qarşı-qarşıya gələrək vuruşmasındadır» - deyərək Əbu Bəkri açıq döyüşə çağırmışdı. Lakin o, bu döyüşdən imtina etmişdi. Döyüşün sonunda Teymuri ordusu məğlub olmuş və Əbu Bəkr döyüş meydanından qaçmışdır [8, 196; 43, 56; 67, 138; 312, 73; 132, 69; 136, 4]. Qara Yusif qazandığı bu qələbəsilə Hillə məğlubiyyətinin əvəzini çıxmışdır. Qazanılan bu zəfər onun nüfuzunu və şöhrətini daha da artırdı. Qaraqoyunlular külli miqdarda qənimətə sahib olduqları üçün Əbu Bəkri təqib etməkdən imtina etdilər. Qara Yusif öz qüvvələri ilə

Naxçıvana gəldi. Bu zaman Təbrizdən Xoca Seyyid Məhəmməd Keçəçi onun hüzuruna gələrək Əbu Bəkrin Təbrizdə törətdiyi talanlarla bağlı məlumat verdi və ondan Təbriz üzərinə yürüş etməyi xahiş etdi. Qışı Mərənddə keçirən Qara Yusif 1407-ci ilin yazında Təbrizə gəldi. O, az sonra Sultaniyyəni də ələ keçirdiyi üçün Əbu Bəkr Dəmavənd dağına qaçmağa məcbur oldu [43, 57; 67, 80].

Həsən bəy Rumlunun verdiyi məlumata görə, 1408-ci il aprelin 15-də Qara Yusif Təbrizdə Şənbi-Qazanda yerləşdi və ordugahın ətrafına xəndək qazdıraraq müdafiə tədbirləri gördü. İraq əmirlərini çağıraraq “Mən türkman qəbiləsindənəm. Mənim yaylağım Aladağ, qışlağım isə Diyarbəkr və Fərat sahilləridir. Səltənət işləri məni maraqlandırmır. İndi Mirzə Əbu Bəkr ər meydanına gəlməkdədir. Əgər onun tərəfinə getsəniz mən əsla sizə qızmaram” dedi [Bax: 43, 62]. İraq əmirləri onun önündə başlarını yerə qoyaraq: “Bu xanədanın düşmənlərini yox etmək üçün sadiqlik kəmərini canımızın belinə bağladıq. Bu dövlətin düşmənlərini iti qılıncımızla məhv edəcəyik dedilər”. Qara Yusif İraq əmirlərinin mövqeyini öyrəndikdən sonra 20 minlik süvarisi ilə Əbu Bəkri qarşılamaq üçün Sərdruda yaxınlaşdı [43, 62-63]. Azərbaycan tarixçisi Həsən bəy Rumlunun dövrün aslanı adlandırdığı Qara Yusif 1408-ci ilin aprelin 21-də Təbriz yaxınlığında Sərdrud döyüşündə Teymuri Əbu Bəkri ikinci dəfə ağır məğlub edərək onun atası Miranşahı öldürdü [Bax: 43, 61-65; 161, 63; 132, 69; 136, 4].

Qara Yusifin qazandığı bu zəfərin mühüm tarixi əhəmiyyəti vardı. Bununla da Teymurilərin Azərbaycandakı ağalığına son qoyuldu. Bu zaman Azərbaycandakı real hakimiyyət tamamilə qaraqoyunluların əlinə keçdi. F.Sümer Qara Yusifin əldə etdiyi bu qələbə münasibətilə bağlı yazır: «Qara Yusifin Əbu Bəkrə qarşı qazandığı bu ikinci zəfər mühüm tarixi hadisədir. Bununla da, Teymurun qurmuş olduğu imperiyanın əhəmiyyətli bir parçası ilk dəfə kəskin şəkildə əldən çıxmış və burada Qaraqoyunlu dövləti qurulmuşdur [313, 76]. Bunu Qara Yusifin oğlu Pirbudağın adından zərb olunmuş sikkələr də təsdiq edir.

Dövrün qaynaqlarının verdiyi məlumata görə, Qara Yusif Əbu Bəkri ikinci dəfə məğlub etdikdən sonra (1408-ci ildə) oğlu Pir Budağı padşahlıq taxtına oturtmuş və elçi göndərərək Sultan Əhmədi xəbardar etmişdir. O, bu xəbəri müsbət qarşılamış və Pirbudaq üçün hakimiyyət simvolu olan taxt-rəvan göndərmişdi [8, 560; 313, 88]. F.Sümer Pirbudağın adından zərb edilmiş pulların 1411-ci ildən bəlli olduğunu əsas gətirərək Mirxondun verdiyi bu məlumatı qəbul etməmişdir. Lakin yuxarıda qeyd etdiyimiz kimi belə pullar hələ 1408-ci ildən zərb edilmişdir [132, 69].

Qara Yusif 1409-cu ilin əvvəllərində Əlincə qalasını ələ keçirdi və həmin ilin payızında Pir Ömərin başçılığı altında Qaraqoyunlu ordusunu Şəki hakimi Seydi Əhməd üzərinə göndərdi. Qaraqoyunlular Şirvanın xeyli hissəsini talan edərək Təbrizə döndülər. Bu zaman Sultan Əhmədin elçisi Təbrizə gələrək Həmədan yaylağını Qara Yusifdən istədi. Lakin, Qara Yusif rədd cavabı verərək elçini geri qaytardı. Bu zaman Van hakimi İzzəddin Şir Qara Yusifi Şirvana növbəti yürüşdən çəkindirdi və onu Şirvanşah İbrahimlə barışdırdı [313, 88; 132, 69-70].

Qara Yusif 1410-cu ilin yayını keçirmək üçün yenə də Aladağa getdi və yerli əhalinin Ərzincan hakimindən şikayətləri onu Ərzincan şəhərini mühasirəyə almağa vadar etdi. 45 günlük müqavimətdən sonra şəhər ələ keçirildi. Bu zaman Həmədan yaylağının verilməməsindən qəzəblənən və Azərbaycan Qaraqoyunlu dövlətinin getdikcə güclənməsindən narahat olan Sultan Əhməd Qara Yusifin Ərzincan şəhərini mühasirəyə almasından istifadə edərək vaxtı ilə bağladığı əhdi pozaraq Təbriz üzərinə hücum etdi. Qara Yusif bu xəbəri alaraq Azərbaycana hərəkət etdi. Vaxtı ilə acı günlər keçirmiş olan iki əski dost son dəfə qarşı-qarşıya gəldi. Şübhəsiz ki, qəbahət Sultan Əhməddə olmuşdu. O, nəinki Qara Yusiflə bağladığı əhdi pozmuş, həmçinin onun Ərəb İraqında möhkəmlənməsində də dostu Qara Yusifin göstərmiş olduğu yardımı lazımi səviyyədə qiymətləndirməyi bacarmamışdı [132, 70].

1410-cu il avqustun 30-da Təbrizin 2 fərsəxliyində Əsəd kəndində tərəflər arasında baş verən döyüşdə Qara Yusif tam

qələbə qazanaraq Sultan Əhmədi əsir aldı. Qara Yusif Sultan Əhməddən Azərbaycanı oğlu Pirbudağa, Ərəb İraqını isə digər oğlu Şah Məhəmmədə verilməsi haqda yarlıq aldıqdan sonra Cəlairi əmirlərinin təkidi ilə onun öldürülməsinə razılıq verdi. Həsən bəy Rumlu bununla bağlı yazır ki, Qara Yusif Sultan Əhmədə "sözündə durmadığına və məni öldürməyə gəlməyinə baxmayaraq, səni öldürməyəcəyəm" söylədi. Əmir Bəstam Sultana "Sultan Üveysin xanədanını yıxdın. Ondan qalanları və dövlət ərkanını öldürdün. Səndən dövlətə yararlı heç bir şey olmadı və olmayacaqdır" dedikdən sonra qılıncını qınından çıxarıb Qara Yusifin önünə atdı: "Bu kişinin həyatı şər və pislik ehtiva etməklə, fitnə və fəsada səbəb olmaqdadır. Əgər o, ölümün pəncəsindən xilas olarsa, ondan böyük bir fitnə gözləmək olur" dedi. İraq əmirləri hamılıqla "Sultan Əhmədi bağışlamaq doğru olmaz" deyincə, Qara Yusif "ordumda onun kimi min kişi daha olsa, yenə də heç bir əndişəm olmaz. Mən onu öldürməməyə and içdim" [43, 85]. İraq əmirlərinin təkidli tələblərindən sonra Qara Yusif onun öldürülməsinə razılıq verdi [320, 196]. Beləliklə, 1410-cu ildə mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövlətinin yaradılması rəsmiləşdirilmiş oldu [132, 70].

Qara Yusif Təbrizdə Azərbaycanın tanınmış adamlarından və əmirlərindən topladığı məclisdə oğlu Pirbudağı qızıl taxtda oturdaraq başına qızıl tac qoydu, belinə qızıl kəmər bağlatdı. Qara Yusif özünü oğlunun vəkili elan etdi və Qaraqoyunlu əmirləri ilə birlikdə onun qarşısında təzimdə dayandı. Qaraqoyunlu dövlətinin rəsmi məktublarında və zərb olunmuş sikkələrində «Sultan Pirbudaq xan yarlığından! Əbunəsr Yusif noyan sözümüz!» ifadəsi yazılmağa başlandı [320, 88; 416, 159; 132, 70].

1412-ci il dekabrın 19-da Qara Yusif Kür çayı sahilində Şirvanşah İbrahimin və müttəfiqləri olan Şəki hakimi Seydi Əhməd və gürcü çarı Konstantinin birləşmiş qüvvələri ilə döyüşə girdi. Vuruşma zamanı müttəfiq qüvvələrinin mərdliklə vuruşmasına baxmayaraq, üstünlük Qara Yusifin tərəfində oldu. Şirvanşahın qoşunları məğlubiyyətə uğrayıb qaçdı. Gürcü

hökmdarı öz aznaurları ilə döyüşü davam etdirirdi. Tezliklə müttəfiqlərin birləşmiş qoşunu Qara Yusifin qoşunları tərəfindən mühasirəyə alınaraq əsir götürüldü. Bu zaman Şirvanşah İbrahim atla xəndəyin üstündən sıçrayıb keçməyə cəhd göstərdi, lakin duruş gətirə bilməyərək yıxıldı və qolu sındı. Qaraqoyunlu döyüşçüsü onun paltarını çıxarıb atını əlindən alaraq öldürmək istəyirdi. İbrahim özünü nişan verməli oldu. Onda döyüşçü onun böynunu qurşaqla bağlayıb Qara Yusifin yanına gətirdi. Gürcü hökmdarı Konstantin, İbrahimin oğlanları Qəzənfər, Əsədullah, Xəlilüllah, Mənuçöhr, Əbdürrəhman, Nəsrətullah və Haşım, qardaşı Şeyx Bəhlul, Şirvanın adlı-sanlı adamları – qazı Bayəzid, əmir Hüşəng və oğulları, qazı Mövlana Zahirəddin və digər əyanlar əsir alındılar. Onların hamısı qandallarda Qara Yusifin hüzuruna gətirildi. Qara Yusif sıravi Şirvan döyüşçülərini azad etdi, gürcü əsirlərinin edam olunmasını əmr etdi. Üç yüz aznaur, eləcə də gürcü hökmdarının qardaşı qılıncdan keçirildi. Özünü məğrur aparan Konstantin də edam edildi. Şirvanşah İbrahimi və onun oğlanlarını məiyyəti ilə birlikdə zəncirlənmiş halda Təbrizə göndərib zindana saldılar. Qara Yusif Şamaxını və Şirvanın digər yerlərini talan edib Təbrizə yollandı. O, əsirlərin bac ödəyərək azad olunmasına razılıq verdi. Şirvanşah İbrahimin qardaşı Şeyx Bəhlul 200 tümən, Şirvan qazisi Mövlanə Zahirəddin 100 tümən pul ödəyərək martın 30-da azad oldular. Qara Yusif Şirvanşah İbrahimdən 1200 tümən bac ödəməyi tələb etdi. Şirvanşah İbrahimin Təbriz sənətkarları arasında böyük nüfuzu olduğundan Şeyx Qəssab Əxinin başçılığı altında Təbrizin tacir və sənətkarları həmin pulun dəyərində mal ödəyərək Şirvanşahın azad edilməsinə nail oldular. 1413-cü ilin aprelində Şirvanşah İbrahim Qara Yusifə itaət etmək şərti ilə Şirvanı idarə etmək hüququnu alaraq Şirvana qayıtdı. Beləliklə, Şirvanşahlar dövləti Qara Yusifin asılılığına düşdü [313, 91-92; 290, 121-122; 132, 70-71].

Qara Yusifin əldə etdiyi qələbələr içərisində 1418-ci ildə Ağqoyunlu Qara Osmanı üçüncü dəfə məğlub etməsi mühüm yer tutur. Qara Yusifin mövqeyinin getdikcə güclənməsi və

Əcəm İraqının onun nəzarətinə keçməsi Teymuri hökmdarı Sultan Şahruxu narahat edirdi. 1420-ci ilin avqustun 25-də Sultan Şahrux Azərbaycanı, Ərəb İraqını və Əcəm İraqını Qara Yusifin əlindən almaq və onu asılı bir hökmdar halına salmaq məqsədi ilə 200 minlik ordu ilə Heratdan Azərbaycana yürüşə başladı [165, 61; 167, 117]. Sultan Şahruxun qaraqoyunlularla qarşıdakı döyüşdə qələbə naminə Quranın Fəth surəsini 12 min dəfə hafizlərinə oxutdurması faktı Qara Yusifin təhlükəli, daha ciddi bir rəqib olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Sultan Şahruxun əmirləri və saray adamları «Azərbaycan qoşununun tüğyanını yalnız bahadırların həmləsi yatıra bilər» demişdilər [43, 123; 91, 94; 132, 71].

Teymuri hökmdarı Şahruxla savaşa qərar verən Qara Yusif xəstə olmasına baxmayaraq ordusunu Təbrizdə toplamışdı. Hafiz Əbruya görə, düşmənə qarşı mümkün olduğu qədər qüvvə çıxarmaq üçün Qara Yusif Təbriz əhalisindən piyada qoşun da topladı [43, 127]. F.Sümerin fikrincə, o zamana qədər ölkədə belə bir ənənə olmadığı və bu bidət hesab edildiyi üçün ona uğur gətirmədi [313, 109]. Lakin bu fakt Qara Yusifin hərbi təşkilatçılıq qabiliyyətini öyrənmək üçün daha mühümdür. Dövrün mənbələri bu piyada qoşunun hansı məqsədlə toplanması barədə lazımi məlumat verməsə də, Qara Yusifin gözlənilən döyüşdə müəyyən hərbi taktiki planları olması haqda düşünməyə imkan yaradır. Qara Yusif Təbrizdən ayrılarkən xəzinəsindəki bütün qızıllarını əsgərlərinə payladı. Qaraqoyunlu qoşunu Təbrizdən cənubda Ucanın şimal-qərbində yerləşən Saidabad kəndinə gələn zaman Qara Yusifin xəstəliyi daha da ağırlaşdı. O, burada 1420-ci il noyabrın 13-də 65 yaşında vəfat etdi. Beləliklə, Sultan Şahruxla gözlənilən döyüş baş tutmadı. Qara Yusifin cəsədi oğlu Cahanşah tərəfindən Ərcişə aparılaraq atasının yanında dəfn olundu [132, 71].

Azərbaycan Qaraqoyunlu dövlətinin qurucusu olan Qara Yusif tarixdə az rast gəlinən bir mübarizə həyatı yaşamışdır. O, dövrünün görkəmli sərkərdələrindən və tanınmış simalarından biri olmuşdur. Onun mükəmməl bir hərb adamı olmasını, igidli-

yini yalnız öz əsgərləri deyil, başda teymurilər olmaqla bütün düşmənləri də etiraf etməli olmuşdu. Qara Yusif düşmən ordusunun zəif tərəflərini diqqətlə öyrənər və bundan döyüş zamanı məharətlə istifadə edərdi. O, 200 minlik ordunun başında üzərinə gələn Teymuri hökmdarı Şahruxa qarşı döyüşə gedərkən oğlanlarına yazdığı məktublarda Teymuri ordusundan çəkiniləcək bir şeyin olmadığını göstərmişdir. Şübhəsiz ki, onun qədər teymurilərin hərb üsullarını, döyüş qaydalarını, güclü və zəif tərəflərini bilən olmamışdır. O, döyüş zamanı xəndək qazdıraraq ordusunu daim qorumağa çalışmışdır. Son döyüşə təbrizlilərdən piyada qoşun toplaması onun Şahruxa qarşı yeni bir döyüş üsulunu tətbiq etmək istədiyini söyləməyə imkan verir [313, 109; 200, 461; 132, 71-72].

Şübhəsiz ki, dövrünün şücaətli sərkərdəsi olan Qara Yusif ordusunu daha yaxşı təşkil və təchiz etmişdir. Zəmanəsinin heç bir hökmdarının qoşunu Qara Yusifin ordusu qədər yaxşı silahlanmamış və ərzaqla təmin olunmamışdır. Hafiz Əbruya görə, dövrünün heç bir sərkərdəsi Qara Yusif qədər əsgərinə hərbi təlim keçməmiş və onu silahla, ərzaqla təmin etməmişdir. Onun əsgərləri at çapmaqda və ox atmaqda ad-san qazanmışdılar [Bax: 313, 112-113].

Qara Yusif hərbi təşkilatçılıq bacarığını və orduya qayğı göstərmək keyfiyyətlərini atası Qara Məhəmməddən öyrənmişdir. Qaraqoyunlu hökmdarları, o cümlədən Qara Yusif mükəmməl hərbiçi idilər və qazandıqları qələbələrdə bu keyfiyyət mühüm əhəmiyyət daşıyırdı. Əmir Teymurun ərazilərini fəth etdiyi hökmdarlar içərisində yalnız Qara Yusifin qələbə qazanması və torpaqlarını teymurilərdən azad etməsi onun həqiqətən böyük bir sərkərdə və tarixi şəxsiyyət olduğunu söyləməyə imkan verir [132, 72].

Qara Yusif gerçəkdən dövrünün qabiliyyətli və şərafətli bir hökmdarı olmuşdur. Qara Yusif hərbdən savayı ölkəsində quruculuq işlərinə xüsusi diqqət yetirmiş, kəndliyə xoş münasibət göstərərək onları daim diqqətdə saxlamışdır. O, seçdiyi təcrübəli vali və məmurlarla xalqı idarəsindən razı salmağa çalışmışdır.

Hətta zülmə meyilli olan oğlanları atalarından qorxduqları üçün daim xalqa yaxşı görünməyə, onlarla xoş münasibət saxlamağa məcbur olmuşdular [132, 72].

F.Sümerin fikrincə, Qara Yusif savadsız olsa da, ləyaqətli insanları lazımi səviyyədə qiymətləndirməyi bacarmış və onlara xidmətlərinə görə etibar etmişdir. O, döyüşlərdə ələ keçirilən qənimətlərdən heç nə götürməz, onları əmirləri və əsgərləri arasında paylayardı. Məhz bu comərdliyinə görə xəzinəsində pul olmazdı [313, 109; 199, 461].

XV əsr Məmlük tarixçilərindən Ayni Qara Yusifin qan tökməyə və zülm etməyə meyilli bir insan olmadığını göstərir. O, qətiyyəti, inadkarlığı və təmkinliliyi ilə dövrünün digər hökmdarlarından fərqlənmişdi. Konkret hadisələrlə bağlı hökmdara xas olan qəddarlıq göstərsə də, həmişə öz rəhm və mərhəmətini qoruyub saxlamışdır [313, 109]. Hətta o, əhdinə əməl etməyərək onu arxadan vurmağa çalışan Sultan Əhmədi də bağışlamaq istəmişdir. O, həmçinin inadkarlıq göstərən Şirvanşah İbrahimi də öldürməyərək azad etmişdir [132, 72].

Dövrün qaynaqları Qara Yusifin əxlaq və din barəsində bilikli bir şəxsiyyət olduğunu göstərir. İ.Aka H.Rittenin əsərində Qara Yusifin Quranı türkcə rəvan oxutması barədə verdiyi məlumata əsaslanaraq Uzun Həsəndən əlli il öncə Qara Yusifin belə bir təşəbbüsdə olmasını, onun da Quranı türkcəyə tərcümə etdirərək hüzurunda oxutması fikrini söyləmişdir [169, 15, qeyd 52; 230, 29; 132, 72-73]. İ.Akanın bu fikrini S.Şıxıyevanın araşdırmaları da təsdiq edir. O, yazır: "Hürufi mənbələrində bu təriqətin müttəfiqi kimi mədh olunan Qaraqoyunlu Qara Yusifin hürufiliyə bağlılığı yalnız onun siyasi və hərbi fəaliyyətində deyil, Quranı tərcümə etməsində də özünü göstərir. Qara Yusif Əliyul-Əlanın "Kürsinamə"sində hərbi uğurları ilə yanaşı, hürufi təliminə " uyğun olaraq, Quranı türkcəyə çevirməsinə görə də öyülür: *Vəfalı Yusif, uğurlu şah / Quranı türkcədə axıcı (bir dillə) oxudu.* Quranın türkcəyə tərcüməsi din tarixi baxımından da əhəmiyyət kəsb edir [153, 563; 174, 244].

Azərbaycan tarixçisi Həsən bəy Rumlu onun haqqında

yazırdı: «Qara Yusif müharibə meydanında qaniçən bir aslan, əyləncə məclisində isə cövhər saçan bir bulud idi. Ədalət və mərhəməti ilə tanınmış, əxlaq yolunda hər kəsdən üstün idi. Zalımları cəzalandırmış, məzlumların rifahına çalışmış, təsərrüfatın inkişafına fikir vermiş, ölkənin qüdrətinin artmasına yardım göstərmiş, əsgərlərinin maaş və ərzağını müntəzəm olaraq ödəmişdir. Onun üzüyünün qaşında yazılmışdı: Ədalətlə iş görən hökmdar, zülm edən isə həlak olur» [Bax: 43, 132-133; 348, 185-186; 416, 159; 132, 73].

XV yüzilliyin əvvəllərində Azərbaycanda siyasi vəziyyətin mürəkkəb və gərgin olmasına baxmayaraq, rəqiblərini bir-birinin ardınca məğləb edən və ölkəni yadelli əsarətindən azad edərək dövlətçilik ənənəsini bərpa edən Qara Yusifin tanınmış bir hərbçi, böyük sərkərdə və dövlət adamı olduğunu bir daha sübut edir.

Qara Yusifin bədən quruluşu igidliyi ilə tam bir ahəng təşkil etmişdi. Hafiz Əbrunun verdiyi məlumata görə, Ərcişə gələn Cığatay əsgərləri maraq göstərərək Qara Yusifin məzarını açmış və onun həqiqətən uzunboylu və iri cüssəli bir insan olduğunu görmüşdülər [313, 115; 132, 73].

XV yüzilliyin əvvəllərində Azərbaycanın yadelli əsarətindən azad edilməsində və yerli dövlətçiliyimizin bərpa edilməsində böyük əzmkarlıq və hünər göstərmiş Qara Yusifin fəaliyyəti hərb işimiz üçün mühüm bir örnəkdir.

### *I. 4. Azərbaycan Qaraqoyunlu dövlətinin quruluşu*

Qaraqoyunlu dövlətlərinin ictimai-siyasi tarixi ilə bağlı məsələlər Türkiyə tarixşünaslığında xüsusi tədqiqat mövzusuna çevrilmişdir. Türkiyə tarixçilərinin araşdırmalarında bu dövlətlərin siyasi quruluşu, inzibati idarə sistemi, saray və hərbi təşkilatlarına aid müəyyən fıkirlər mövcuddur [215; 287; 346; 347; 357].

İ.H. Uzunçarşılı Qaraqoyunlu dövlətlərinin idarə, hərbi və saray təşkilatının Anadolu bəyliklərinin idarə sistemindən daha geniş, mükəmməl olduğunu göstərir [346, 205; 347, 286]. Lakin

Z.V.Toğan Elxanilərlə Teymurilərin [335, 369], M.X.Yınanç Cəlairilərlə Teymurilərin [357, 263], F.Sümer isə Elxanilərlə Cəlairilərin [307, 304; 317, 35] siyasi quruluşunun oxşarı olduğunu qeyd edirlər. H.R.Roemerə görə, Qaraqoyunlu dövlətlərinin siyasi strukturu bir çox cəhətinə görə monqol dövrünün bünövrəsinə əsaslanırdı və Cəlairilər burada sanki vasitəçi rolunu oynamışdılar [332, 184; 118, 150].

Azərbaycan Qaraqoyunlu dövlətindəki saray, divan, qoşun təşkilatı, ayrı-ayrı əyalətlərin və şəhərlərin idarə quruluşu Elxanilər dövründə mövcud olan siyasi strukturun inkişaf etmiş forması idi.

Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşah mərkəzləşmiş dövlət yaratmağa səy göstərmişdi. Lakin müstəqilliyə can atan yerli feodallar və hərbi-köçəri əyanlar bu işə hər vasitə ilə maneçilik törətmişdilər. Ölkənin iqtisadi və siyasi cəhətdən dağınıqlığı da dövlətin mərkəzləşdirilməsi prosesinə ciddi mane olurdu. Əmirlər dövlətin işinə nəzarət edir, hətta hökmdarlara qarşı çıxırdılar. Məhz buna görə də, dövrün hökmdarları əmirlərlə hesablaşmalı olurdular. Bəzən əmirlərin və tayfa rəislərinin məşvərəti əsasında Azərbaycan Qaraqoyunlu sülaləsindən bu və ya digər bir şəxs hakimiyyətə keçirdi [144, 35]. Azərbaycan Qaraqoyunlu dövlətində istər idarə sistemi, istərsə də ordu quruculuğunda daha çox köçəri elatlara istinad edilirdi. Bu dövlətdə siyasi mərkəzləşmə prosesi istər-istəməz türk-monqol hərbi-köçəri elitasının, tayfaların zəifləməsi və qüvvələr balansının dəyişməsi ilə müşaiyət olunurdu [118, 150-151].

Azərbaycan Qaraqoyunlu dövlətində hökmdarın hökmran olduğunu göstərən mühüm əlamətlər mövcud idi. Türkiyə tarixçilərinin qeyd etdikləri kimi, ***taxt*** hökmdarlığın ən önəmli simvolu kimi başda dururdu. Qaraqoyunlu hökmdarları çox zaman elçiləri taxtına oturaraq qəbul edirdilər. A.A.Arayancanın fikrincə, sarayda görülən bütün işlərdə, sultanın hüzurunda kimin harda duracağı taxtın yerinə görə müəyyən edilirdi. Qara Yusif oğlu Pirbudağı sultan elan edərək qızıl taxtda oturtmuş, başına qızıl tac, belinə qızıl kəmər bağlatmışdı [174[b], 244]. Həsən bəy

Rumlu yazır ki, Qara Yusif Pirbudağı səltənətə çıxardı. Onun adından sikkə kəsdirdi və xütbə oxutdurdu. Hökmlərdə belə yazılmasını buyurdu: "Pirbudaq xan yarlığından Əbu Nəsr Yusif Bahadur sözümüz". Bundan sonra Pirbudaq atasının yanına gəldiyi zaman Qara Yusif onun əlindən tutaraq taxtını ona verdi, özü isə taxtın aşağısında hörmət əlaməti olaraq iki dizinin üstündə oturdu [43, 65; 174[b], 244]. Bu, hökmdar taxtının protokol qaydası üçün mühüm önəm daşıdığını bir daha təsdiq edir.

Hökmdarlara məxsus əlamətlərdən biri də zərb edilən ***sikkədir***. Taxta çıxan hökmdar müstəqilliklərini elan etmək üçün üzərində adının, ləqəbinin olduğu sikkələr zərb edirdilər. Qaraqoyunlu dövlətində hakimiyyət simvollarından biri də ***xütbədir***. Hökmdarın adına xütbə oxunması onun gücünü göstərdiyi kimi, xütbənin oxunduğu ölkələr vassallıq simvolu daşıyırdı. Şübhəsiz ki, tabe hökmdarlar oxunan xütbələrdə vassal asılılığına düşdüyü hökmdarın adını öz adından öncə çəkmək məcburiyyətində idi. Cahanşah 1458-ci ildə böyük təmtəraqla Herat şəhərinə girdikdən dərhal sonra öz adından sikkə zərb etdirmiş və xütbə oxutmuşdur [174[b], 244-245]. Qaraqoyunlularda öz adına ilk dəfə sikkə zərb etdirən Bayram Xoca olmuşdur. Onun zərb etdirdiyi sikkələr üzərində "Allahdan başqa Allah yoxdur, Məhəmməd Allahın elçisidir" ifadəsi ilə yanaşı, xəlifələrdən Əbubəkr, Ömər, Osman və Əlinin adları yazılmışdır [174[b], 245].

Hökmdarın maddi hakimiyyət əlamətlərindən biri də ***bayraq və sancaqdır***. Müharibələrdə bayraqların tutduğu yer çox böyükdür. Çünki ordu müharibə zamanı ancaq bayraqların altında toplanırdı. Qaraqoyunlular döyüşlərdə bayraqlarını dövlətin başlıca atributlarından biri kimi daşıyırdılar. Əbubəkr Tehrani bayrağı döyüş vasitəsi və qələbə nişanəsi kimi təsvir etmişdir [13, 202; 204, 171]. Digər dövlətlərdə olduğu kimi, Qaraqoyunlularda da bayraq güc və qələbə rəmzi olmuşdu. Həsən bəy Rumlu yazır: "Türkmanlar döyüşə gedərkən rəngli bayraqlardan istifadə edirdilər. Türklər təxminən 5 min süvari ilə əyri gedən fələyin çarxına oxşayan arabalar ilə dağlıq bölgədən çıxdılar. Rəngarəng bayraqların parlaqlığından ətraf ərazi gül və

lalə bağçasına dönmüşdü" [43, 378]. İ.H.Uzunçarşılının qənaətinə görə, Topqapı Sarayında xəzinə kitabxanasında 2756 nömrədə saxlanılan və 1428-ci ildə ispan J.Villadestes tərəfindən perqament üzərində çəkilmiş xəritədə Qaraqoyunluların bayrağı sarı fonun ortasında qırmızı dördkünc formada təsvir edilmişdır [347, 289].

Qaraqoyunlu dövlətində hökmdarlıq əlamətlərindən biri də ***səltənət çadırıdır*** (Humayın otağı). Hökmdar səfərə çıxdıqda, döyüşə getdikdə səltənət çadırı hökmdarın gedəcəyi yerə öncədən göndərilirdi [204,172]. Hökmdarlıq əlamətləri arasında ***tuğ*** mühüm yer tutur. Həm hökmdarın, həm də tanınmış əmirlərin tuğları olurdu. Divan əmirləri tuğ və nağara sahibi idilər. Döyüşlərdə şücaət göstərən əmirlərə qələbə ödülü kimi tuğ verilirdi. Əbubəkr Tehrani yazır ki, Cahanşahın ölümündən sonra Maku qalasından azad olaraq taxt-taca yiyələnməyə çalışan Həsənəli Pir Hacı bəy Qavrudinin oğlu Şah Hacı bəyi bütün İraq vilayətinin başçısı təyin etdi, ona tuğ, nağara, layiqli hədiyyələr və iri həcmdə məvacib verərək təntənə ilə bir neçə əmirlə İraqa tərəf göndərdi [49, 267; 174[b], 248].

Azərbaycan Qaraqoyunlu dövlətində hökmdarlıq əlamətlərindən biri də ***tuğra*** idi. Hökmdarın ***Münşi divanında*** hazırlanan fərman, hökm, məktub, fəthnamə və sülh müqaviləsinin mətnlərinin üst tərəfinə hökmdarlıq əlaməti kimi içərisində sultanın adı, ləqəbi, Quran ayələri, möhür və imzasından ibarət tuğrası vurulurdu. A.A.Arayancanın fikrincə, Cahanşah dövründə bəzi fərmanların üzərindəki tuğralar qızıl su ilə yazılmışdır. 1462-ci ildə Qumda olan Hz. Fatimənın vəkflərinin Nizaməddin Əhməd Rezəviyə verilməsini nəzərdə tutan, üzərində Cahanşahın imzası olan fərmanda başlıq və tuğra qızıl su ilə yazılmışdır [174[b], 246].

Azərbaycan Qaraqoyunlu dövlətində dövlətin mühüm atributlarından biri də ***möhürlər*** idi. Qaraqoyunlu hökmdarı Cahanşahın 1458-ci ildə verdiyi bir hökmün sərlövhəsində «Məğlubedilməz Cahanşah hökmümüz» sözləri yazılmış möhür vardır [347, 294-295]. İ.H.Uzunçarşılının fikrincə, hökmdarın

möhürü fərmanın sonuna vurulur, onun arxasına divanın və vəzirlərin möhürünün vurulması fərmanın divanın nəzarəti və məsuliyyəti altında olduğunu göstərir [347, 294-295; 144, 43]. Divan möhürünün yuxarıda, vəzirlərin möhürünün aşağıda olması sübut edir ki, vəzirlər divan rəisinə tabe olmuşlar. Bu məsələyə biz «Tüzukati-Teymuri»də rast gəlirik. Orada göstərilir: «Əmr etdim vəzirlər Divanbəyiyə tabe olsunlar ki, mühüm maliyyə işlərini onlarla birlikdə həll etsinlər» [3, 82].

İ.H.Uzunçarşılnın fikrincə, Qaraqoyunlularda vəzirlərin sənədlərin arxasına möhür vurmalarına təsadüf edilmir. Onlar sənədin altında və sağ kənarında, yalnız sənədi yazmış pərvanəçinin adını yazmaqla kifayətlənirdilər [347, 294-295; 144, 43].

Rəsmi sənədlərdən, fərmanlardan və hətta zərb edilmiş sikkələrin oxunuşundan məlum olur ki, Qaraqoyunlu hökmdarları ***«sultan»*** və ya ***«padşah»*** titulu daşımışlar. Qaraqoyunlu hökmdarlarının adlarının əvvəlinə «sultan», sonuna isə «padşah, bahadır, xan» titulları artırılır, onların ölkə başçısı olması həmin titullarla öz hüquqi səlahiyyətlərini alırdı [93, 20; 135, 122]. İ.H.Uzunçarşılıya görə, Qara Yusif üzərində «Noyani Əzəm Cəlaləddin Yusif» ibarəsi yazılmış gümüş sikkələri Bağdadda, Hillədə və Təbrizdə zərb etdirmiş, oğlu Pirbudaqla müştərək kəsdirdiyi sikkələrdə də «Əs-Sultani aləm Pirbudaq xan Şah Yusif Noyan» sözləri yazdırtmışdır [346, 290].

Mənbələrin verdiyi məlumata görə, XV əsrdə hökmranlıq etmiş ən yüksək təbəqəyə «sultanlar, əmirlər, vəzirlər, sədrlər və saraya yaxın adamlar» daxil olmuşlar [91, 43].

Azərbaycan Qaraqoyunlu dövlətində Təbriz şəhəri hökumət mərkəzi – paytaxt idi və ən mühüm vilayətlər Fars, Yəzd, İsfahan, Bağdad, Diyarbəkr, Ərzincan, Şərqi Qarahisar idi [347, 300]. İ.H.Uzunçarşılıya görə, əyalət və ya vilayətlər, özlərinə iqta edilmiş ***bəylərbəyilər*** tərəfindən idarə olunurdu [346, 205]. V.Minorski «bəylərbəyi» istilahının ilk dəfə I Şah Abbas (1587-1629) dövründə işlədildiyini qeyd edir. Lakin İ.P.Petruşevski və O.Əfəndiyev bu istilahın nə vaxt meydana gəldiyini göstərməsə

də, onun I Şah Abbasa qədərki dövrdə mövcud olduğunu qeyd edirlər [417, 118; 434, 271]. «Əmir Teymurun vəsiyyətləri» əsərində deyilir: «313 adamdan 4 nəfərini bəylərbəyi, bir nəfərini əmirül-üməra təyin eləmələrini buyurdum» [3, 73]. Bu məlumatdan aydın olur ki, Əmir Teymurun və xələflərinin dövründə «bəylərbəyi» istilahı işlənmişdir. Lakin bu istilahın Azərbaycan Qaraqoyunlu dövlətində işlənməsi haqqında qəti fikir söyləmək çətindir.

Azərbaycan Qaraqoyunlu dövlətində siyasi aparatın idarə olunmasında sultandan və ya padşahdan sonra birinci yerdə ***əmirül-üməra*** (əmirlər əmiri) dururdu. M.X.Yınanç belə hesab edir ki, Divanın ən nüfuzlu üzvü olan əmirül-ümərə hökmdarın iştirak etmədiyi səfərlərdə ordunun baş komandanı olurdu. Onun fikrincə, XV əsrdə bəylərin ən böyüyü məhz əmiri-əzəm idi [357, 263; 135, 122]. Mənbələrdən məlum olur ki, əmirül-üməranın hökmü yürüşlərdə, döyüşlərdə əmirlər və bütün hərbçilər tərəfindən sözsüz yerinə yetirilirdi [3, 73]. Əmirül-ümara titulu dövrün hökmdarı tərəfindən şəxsən verilirdi. Hökmdar hər hansı səbəbdən ölkədən çıxdıqda əmirül-ümara onu əvəz edirdi. Əmir Teymurun vəsiyyətində deyilirdi: "Əmirül-ümara o adam ola bilərdi ki, məclisdə və vuruşmada mənim müavinim olsun və bacarıqla qoşunu idarə edə bilsin, dikbaşlıq edənləri cəzalandırmağı bacarsın. Əmirül-ümaranın hökmü yürüşlərdə, döyüşlərdə əmirlər və bütün hərbçilər tərəfindən sözsüz yerinə yetirilməli idi. O, mən olanda yoldaşım, olmayanda isə müavinim idi [3, 73; 93, 32]. Azərbaycan Qaraqoyunlu dövlətinin ilk vaxtlarında Qara Yusifin əmirül-ümərası Bəstam Cagirli və Əmir Qaraman olmuşdu. Onlar müxtəlif vaxtlarda bu vəzifəni icra etmişdilər [91, 46].

Mərkəzi dövlət idarəsində mühüm yerlərdən biri də ***baş vəzirə*** məxsus olmuşdur. O, dövlətin gəlirlərinə nəzarəti həyata keçirir və maliyyə aparatını idarə edirdi. Baş vəzir, həmçinin ölkənin xarici işləri ilə məşğul olur və mülki-inzibati idarələrə başçılıq edirdi [91, 47-48]. Mənbələrin çoxunda baş vəzirə "etimadüd-dövlə" ("dövlətin etimadı") deyildiyi göstərilmişdir.

Bununla da vəzirin böyük etimada layiq olduğu nəzərə çatdırılır. Baş vəzir ali divana rəhbərlik etdiyinə görə, «sahib-divan» da adlanırdı [Bax: 74, 105]. Divanın möhürü ona etibar edilirdi. Hökmdarların verdikləri fərmanın və ya hökmün sərlövhəsində sultanın adı və ləqəbi, sonunda isə möhürləri vurulurdu [135, 122].

Həsən bəy Rumlu da dövlətin bütün maliyyə və mülki işlərinə rəhbərliyin baş vəzir tərəfindən həyata keşirildiyini bildirir [43, 553; 91, 53-54; 93, 37]. Ş.Fərzəliyev Xandəmirin verdiyi məlumata əsaslanaraq yazır ki, vəzirin vəzifəsinə həmçinin "divan gəlirlərinin artırılması, dövlət tapşırıqlarının yerinə yetirilməsi, inşaat və əkinçiliyin həcmcə artırılması, döyüşçülərə və rəiyyətə diqqət göstərilməsi, vilayətin abadlaşdırılması" da daxil idi. Maliyyə divanının bütün sənədləri onun möhürü ilə möhürlənirdi [91, 54; 93, 37]. Dövlətin maliyyə və mülki işlərinin idarə edilməsində baş vəzirin üzərinə böyük yük düşürdü. Dövrün mənbəyi dövlətin idarə edilməsində vəzirin fəaliyyətinə böyük önəm verir: "Aqil vəzir o kəsdir ki, səltənət karxanasının işlərindən yaxşı baş çıxardar, işini ən doğru çarə qılmaq, tədbir tökməklə aşırar, dövləti-nizama salar. Səltənətə aid məsələləri yerinə düşəndə sərtlik, yerinə düşəndə də mülayimliklə həll eləyər. Bu cürə vəziri dövlətin ortağı hesab eləmək lazımdır, çünki dövlət və səltənət üç şeylə: padşahla, xəzinə ilə, qoşunla ayaq üstə dayanır. Bilgin vəzir tədbirli davranaraq bunların hər üçünün xətrini xoş eləyər . Ağıllı vəzir bir əli ilə rəiyyəti, o biri əli ilə də hərbçiləri saxlayır... Təcrübəli, işgüzar vəzir daim məmləkətin abadlığını, rəiyyətin və hərbçilərin dincliyini, firavanlığını, zənginliyini nəzərində saxlayır. Dövlətə, səltənətə fayda gətirəcək işləri yerinə yetirmək üçün əlindən gələni eləyər" [3, 71]. Qaraqoyunlu dövlətinin baş vəzirləri arasında Cahanşahın baş vəziri olmuş Seyyid Mahmud xüsusilə seçilmişdi [43, 220; 174$^{b}$, 267].

Dövrün mənbələrinin qeyd etdiyinə görə, ayrı-ayrı şahzadələrin də ***vəzirləri*** olmuşdur. Şahzadə Qara İsgəndərin vəziri Seyid Mahmud, Həsənəli Qaraqoyunlunun vəziri isə Xacə Şəm-

səddin olmuşdur. 1458-ci ildə Həsənəli atası Cahanşahın Heratda olmasından istifadə edərək Təbrizdə hakimiyyəti ələ almışdı. Oğlunun xəyanətini bağışlamayan Cahanşah onun üzərinə qoşun çəkərək Təbrizi yenidən geri almış, Həsənəli qaçmışdı. Həsən bəy Rumlu yazır ki, Cahanşah oğlunun təqsirinin bağışlanmasından ötrü ilk növbədə onu bu fitnəyə sövq edən vəziri Xacə Şəmsəddini və əmirlərini öldürməyi tapşırdı. Həsənəli əmri yerinə yetirdi [Bax: 43, 388-389; 93, 38]. Bu bir daha göstərir ki, vəzirlər şahzadələr üzərində mühüm təsirə malik olmuşdular.

Vəzir məşhur əmirlərdən təyin edilirdi. Vəzirlər hərbi yürüşlərdə də iştirak edir, onların xidmətləri yalnız mülki və maliyyə işləri ilə məhdudlaşmırdı. Baş vəzirin ixtiyarında bir neçə min silahlı əsgər olurdu [93, 38].

Əmir Teymurun vəsiyyətlərindən aydın olur ki, qüdrətli bir dövlət başçısı kimi onu vəzir vəzifəsini tutan şəxsin şəxsiyyəti daim düşündürmüşdür. O, övladlarına məsləhət verərək yazır: “Vəzir öz vəzifəsini saflıq, düzgünlüklə görməyə başlayarsa, dövlətin maliyyə, mülkiyyət işlərini dəyanətlə, savab ilə, nəfsinin qulu olmadan, əmanətə xəyanət etmədən yerinə yetirərsə, bu cür vəziri ən yüksək mərhələlərə yüksəltmək lazımdır. Hansı vəzir nəfsi pozuqluq eləyərək məmləkət işlərini yaman yola qoyarsa, çox keçməz ki, həmin məmləkətdən xeyir-bərəkət göyə çəkilər. Tədbir və qılınc gücünə hər hansı məmləkəti zəbt eləyən, ona hörmət-izzət göstərmək lazımdır. Onun rütbəsini artırmaq, onu “qılınc və qələm” sahibi” adlandırmaq lazımdır [3, 70-71; 93, 38-39].

Maliyyə işlərinin həll edilməsində vəzirlər divanbəyiyə tabe idilər. Əgər divanbəyinin icazəsi olmasaydı əmirül-üməra və əmirlər xəzinədən öz maaşlarını ala bilməzdilər. Dövlət tərəfindən ödənilən maaşların hesabatını divanbəyi hökmdara təqdim edirdi [Bax: 3, 65; 93, 33].

İ.H.Uzunçarşılı Qaraqoyunlularda ***divan əmiri*** vəzifəsinin olduğunu göstərir. Onların hökmdardan sonra səltənət naibi kimi böyük ixtiyara malik olduğu, digər əmirlərdən üstün olduğu qeyd olunur [347, 295-296; 215, 204; 287, 216].

İ.H.Uzunçarşılıya görə, divan ayrı-ayrı sahələr üzrə üç yerə bölünürdü: divani təvaçi, divani mal, divani sədr. Bunların hər biri üçün ayrıca pərvanəçi, ya da hər üçünə bir pərvanəçi təyin olunurdu [347, 303, 305; 144, 44; 357, 263]. A.A.Arayancanın fikrincə, Qaraqoyunlu dövlətində Böyük divanın nəzarəti altında münşi divanı (divan-ı inşa), vergi divanı (divan-ı istifa), ərazi divanı (divan-ı arz), nəzarət divanı (divan-ı işraf), vəzirlər divanı (divan-ı vəzarət) fəaliyyət göstərmişdir [174[b], 259-262]. O.Ə.Əfəndiyev də Qaraqoyunlu dövlətində fəaliyyət göstərən divanlar içərisində 5 divanın olduğunu qeyd edir: Divani-əmarət, divani-vəzarət, divani-təvaçı, divani-pərvanəçi, divani-ləşkər. Təbii ki, bu divanların hamısına ümumi nəzarət divanbəyi tərəfindən icra edilirdi [93, 33].

Azərbaycan Qaraqoyunlu dövlətində dövlət işlərinin icra edildiyi yer baş vəzirin bilavasitə rəhbərlik etdiyi Böyük divandır. İ.H.Uzunçarşılı yazır ki, Böyük divanın başçısına Sahibi-divan deyilirdi. Onun ixtiyarında Sahibi-əzəm adlanan rəislər var idi [346, 74; 174[b], 258]. Böyük və ya Ali divan dövlətin ən önəmli qurumu idi. Dövlət əhəmiyyəti daşıyan ən mühüm qərarlar burada qəbul olunurdu. Ən mühüm məsələlər, yüksək vəzifələrə təyinatlar, eləcə də ayrı-ayrı əyalətlərin gəlirləri müzakirə olunur və qərarlar qəbul edilirdi. Əyalətlərin bütün gəlirlərinin toplanmasına nəzarəti də o həyata keçirirdi. Qəbul olunan qərarlar baş vəzirin möhürü ilə təsdiq olunaraq rəsmiləşdirilirdi [204, 185; 201, 436-437].

Azərbaycan Qaraqoyunlu hökmdarları ədalətə böyük önəm verirdi. Onlar xalqın birliyini saxlamaq üçün ədalətli olmağa çalışırdılar. A.A.Arayancan yazır ki, Cahanşahın fərmanlarındakı möhürü onun ədalətli olmağa nə qədər önəm verdiyini göstərir. 1462-ci ildə onun Hz. Fatimənın məzar vəkfi üçün verdiyi "Əbül Müzəffər Bahadur sözümüz" ifadəsi ilə başlayan fərmanının sonundakı möhüründə "Ədalətli olan padşahlıq edər, zülm edən kəs həlak olar" ifadəsinin olması onun ədalətli olmağa xüsusi diqqət yetirdiyini göstərir [174[b], 272-273].

Qaraqoyunlu Qara Yusifin əmirül-ümərası olan Əmir Bəs-

tam Cagirlinin oğlu Əmir Bayandur Cahanşahın divan əmiri olmuş, onun vəfatındn sonra bu böyük vəzifə, onun qardaşı Əbülfət bəyə verilmişdi [6, 23; 93, 34]. Həsən bəy Rumlu XV əsrin 60-cı illərində Pirzad bəyin Cahanşahın divan əmiri olduğunu qeyd edir [Bax: 43, 428]. 1467-ci ildə Uzun Həsən tərəfindən Cahanşahın öldürülməsindən sonra Təbrizdə taxta çıxıb, bir müddət hakimiyyəti ələ alan Qara İsgəndərin qızı Arayiş Bəyim Əmir Şahməhəmməd Qavrudini divan əmiri təyin etmişdi [13, 232; 43, 443].

Əbubəkr Tehrani yazır ki, Cahanşah Həsənəlinin üsyanını yatıraraq Təbrizə gəldi və Əmir Ərəbşahı yenidən divan əmiri təyin etdi. Bu zaman Əmir Bayəzid Bəstam vəfat etdi və qardaşı Əbülfəth divanda onun yerinə təyin olundu. Əmir Pirzad Buxari və Solan bəy də divan əmirləri oldular [Bax: 13, 192].

Dövrün mənbələrinin verdiyi məlumatlar bir daha göstərir ki, Qaraqoyunlu dövlətində divan əmirlərindən başqa ayrı-ayrı vilayət, şəhər və qalaların da ***divan əmirləri*** olmuşdur. Əlincə qalasının hakimi olan Qara İsgəndər Əmir Şəhriyarı divan əmiri təyin etmişdi. Digər Qaraqoyunlu şahzadəsi Pirbudağın Bağdaddakı divan əmiri Mir Əli Şükür olmuşdur [93, 34].

Azərbaycan Qaraqoyunlu dövlətində Böyük divanda fərmanları yazanlar ***pərvanəçi*** adlanırdı. Pərvanəçi *münşi əl-məmalik* də adlanırdı. Hər bir divanın bir və ya bir neçə münşisi olurdu. Pərvanəçilər başlarına xüsusi kəkil taxırdılar [347, 280; 215, 205]. Dövlətin daxili və xarici ölkələrlə yazışması ***"İnşa divanın"da*** aparılırdı. Onun başında dövlətin baş münşisi – münşi əl-məmalik dururdu. Münşi əl-məmalik "dövlət sirlərinin mühafizi" sayılırdı. Odur ki, münşi vəzifəsinə savadlı, layiqli, yaxşı xəttə malik etibarlı adamlar təyin olunurdular. Münşi-əl məmalikin vəzifəsinə mühüm dövlət sənədlərini – qonşu dövlət başçılarına, əmir və vəzirlərinə məktub, fəthnamə, zəfərnamə, hökmdara məxsus fərmanları, divan yarlıqlarını yazmaq və bütün sənədlərin düzgün tərtibinə nəzarət etmək daxil idi [148[A], 335-336; 174[b], 259].

Münşi-əl məmalik eyni zamanda dövlətin xarici işlər naziri

vəzifəsini yerinə yetirirdi. O, Qaraqoyunlu hökmdarlarının müxtəlif dövlət başçılarının söhbətlərində iştirak edir, ikitərəfli yazışmaları aparır, müraciətnamələri tərtib edirdi. Beləliklə, onlar dövlətin bütün sirlərindən xəbərdar olurdular. Buna görə də onlar hökmdarın "gözü, qulağı və dili" hesab olunurdular [148^A, 326]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Teymuri sultanı Şahruxun ölümündən sonra o, Cahanşahın və Məhəmmədi Mirzənin divanında çalışmış və dövlət həyatına dair ən önəmli fərmanların yazılması ona həvalə edilmişdir [154, 17; 174^b, 272-273]. Cahanşahla Teymuri sultanı Əbu Səid arasında imzalanmış sülhün şərtlərini Əbubəkr Tehraninin yazdığını nəzərə alsaq, onun münşi vəzifəsini daşıdığı aydın olur [43, 380; 218, 180-181; 174^b, 259].

Dövlətin ümumi gəlirlərinin müəyyənləşdirilməsi, maliyyə işlərinin düzgün və dəqiq aparılması mühüm əhəmiyyət kəsb edirdi. Qaraqoyunlu dövlətində maliyyə işləri ilə Böyük divana bağlı olan ***vergi divanı*** (divan-ı istifa) məşğul olurdu. Ona mustofi-məmalik adlanan maliyyə məmuru rəhbərlik edirdi. Mustofi-məmalik vilayətlərin xəzinədarı kimi fəaliyyət göstərirdi. Dövlət büdcəsinin tərtib olunması, vilayət hakimlərinin, vəzirlərin, mustofilərin və kələntərlərin maaşları onun razılığı və möhürü olmadan verilmirdi [174^b, 259-260]. Hökmdarın xüsusi fərmanı ilə təyin olunan mustofi əl-məmalik ölkənin bütün maliyyə fəaliyyətinə nəzarət, dövlət əmlakının və gəlirlərini müəyyənləşdirmək, gəlirlərin toplanması və məsrəfi üçün münasib tədbirlər görmək, mədaxilin artırılması, xəzinənin və gərəkyaraq əmlakının çoxaldılması, hərbi işçilərə, dövlət məmurlarına məvaciblərin və s. dövlət xərclərinin ödənilməsi onun əsas vəzifəsi hesab olunurdu [148^A, 334].

Əbubəkr Tehraninin verdiyi məlumatlardan aydın olur ki, Qaraqoyunlu dövlətində ***İstifa divanı*** fəaliyyət göstərmişdir..." . Şiraz Cahanşahın əlinə keçdikdən sonra bu ərazini özündə saxlamaq fikrinə düşdü və oğlu ilə bağladığı əhdini pozub ona xəbər göndərdi ki, oradan Bağdada getsin və Şirazdan gözünü çəksin. Sonra divandan Xacə Rəşid Qəzvini maliyyə işlərini

sahmana salmaq üçün təyin olundu və Şiraza getdi" [13, 195; 174b, 260].

Azərbaycan Qaraqoyunlu dövlətində digər maliyyə idarəsi kimi ***hassa divanı*** da fəaliyyət göstərirdi. Hassa divanı da mustofi əl-məmalikin nəzarəti altında vergi və gəlir məsələlərinə baxırdı. Əbubəkr Tehrani yazır ki, Cahanşah oğlu Pirbudağın Şirazdakı qiyamını yatırmaq üçün İsfahandan Şiraza yollandı. Cahanşah Mirzə İsfahandan çıxdıqda, Şirazı oğlu Pirbudaq Mirzədən alıb başqa oğlu Məhəmmədi Mirzəyə vermək, İsfahanı isə birbaşa öz hassa divanına tabe etmək barədə göstəriş verdi [13, 193; 174b, 260].

A.A.Arayancanın fikrincə, Qaraqoyunlu dövlətində Böyük divana bağlı olan ***ərazi divanı*** (divan-ı arz) əsgərlərin maaş və ləvazimatları ilə məşğul olurdu. Ordunun sayı və ona nəzarət edilməsi, əsgərlərin maaşı, iqtaların idarə edilməsi, ordunun hərbi ləvazimatla təmin edilməsi bu divanın ixtiyarında idi. Görünür bu vəzifələr vergi divanı ilə birgə yerinə yetirilirdi [174b, 261].

Qaraqoyunlu dövlətində maliyyə və idarə məsələlərinə nəzarəti Böyük divana bağlı olan ***Müşrif divanı*** (divan-ı işraf) həyata keçirirdi. Onun başında duran şəxs Müşrif əl-məmalik adlanırdı. Müşrif divanının başçısı müşrif əl-məmalikin vəzifəsi Böyük divana aid gəlirlərin və xəzinə vəsaitlərinin toplanması da daxil idi. A.A.Arayancan yazır ki, dövlətin maliyyə sisteminə cavabdeh olan müşriflər dövlətə çəkilən xərclərə nəzarət edərək onlarla bağlı maliyyə dəftərləri tərtib edirdilər. Onlar lazım gəldikdə ehtiyac duyulan bölgələrə nəzarətedici məmurlar göndərirdilər. Dövlətin idarəetmə və maliyyə mexanizmlərinin düzgün işləməsinə cavabdeh olan müşriflər lazımi təftişi həyata keçirirdilər [174b, 261-262].

Azərbaycan Qaraqoyunlu dövlətində bütün mülki işlər Böyük divana bağlı olan ***vəzarət divanında*** baxılırdı. Vəzirlər dövlətin iqtisadi və təsərrüfat həyatına dair bütün məsələlərin həllinə çalışırdılar. Onlar ölkənin iqtisadi vəziyyətini öyrənməli, inkişaf və tənəzzülün səbəblərini araşdırmalı, maliyyə işlərini

nizamlamalı, hərbi xərcləri ödəməli, dini işlərin düzgün aparılmasını təmin etməli, dövlətin xarici siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsinə çalışmalı idi. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah tanınmış əmirlərini Firuzkuhun fəthinə göndərən zaman Souxbulaq yaylağında Xacə Şəmsəddin Hüseyn Təbrizini divan vəzirliyinə təyin etdi. Hər ikisi vəzir olan Əmir Əlaəddin Siddiq Keçəçi və Xacə Səlimini cəzalandırdı [13, 141; 174$^{b}$, 262].

Azərbaycan Qaraqoyunlu dövlətində ***Böyük divanla*** yanaşı, ***Kənqaş*** və ya ***Məşvərət divanı*** (Məşvərət məclisi) da fəaliyyət göstərirdi. Hökmdar qardaşları, oğlanları, xanımları, tayfa və ordu başçılarını dövlətin mühüm məsələlərinin müzakirəsi ilə bağlı Məşvərət divanı çağırardı. Dövlətin müharibə, sülh və taxta varislik kimi mühüm siyasi məsələləri burada müzakirə olunurdu [204, 185; 174$^{b}$, 262; 74, 105]. Qaraqoyunlu hökmdarları bəzən Məşvərət divanında qəbul edilən qərarı yerinə yetirməyə bilirdi. Həsən bəy Rumlu yazır ki, Cahanşah Uzun Həsənə qarşı mübarizədə ön qüvvələrin məğlub olmasını nəzərə alaraq ordugahda olan əmirləri və bəyləri Antur adlı yerdə məşvərət məclisinə toplayaraq vəziyyəti müzakirə etmişdi. Məşvərət divanı qış mövsümü ilə bağlı havaların soyumasını nəzərə alaraq qışlamaq üçün Azərbaycana qayıtmağı və yazda Uzun Həsənə qarşı mübarizəni davam etdirməyə qərar vermişdi [43, 440; 265, 70; 174$^{b}$, 263]. Lakin Cahanşah Məşvərət məclisinin qərarına əməl etməyərək sentyabr ayını Muş düzündə keçirmişdir. A.A.Arayancan yazır ki, Cahanşah Şeyx Cüneydi Ərdəbildən uzaqlaşdıran zaman Məşvərət divanını toplamış, əmirlərin və münəccimlərin fikirlərini öyrənmişdir [174$^{b}$, 263]. Hökmdarın Məşvərət divanında qəbul edilən qərarlara uyğun hərəkət etməsi gözlənisə də, bəzən daxili ixtişaşlar zamanı sultan iradəsini divanın üzvlərinə qəbul etdirə bilirdi. Beləliklə, o, həm etibar, həm də hörmət qazanmış olurdu.

Qaraqoyunlu dövlətində hökm və yarlıqlar ***Pərvanəçi divanında*** hazırlanırdı. A.A.Arayancan yazır ki, Qaraqoyunlu fərmanlarının üzərində hökmdarın möhürü, yanında da vəzirlərin

adı yazılırdı. Fərmanın altında və sağ tərəfində pərvanəçilərin adının qeyd olunması onun pərvanəçi divanında hazırlandığını göstərir. Həsənəli dövründə, 1467-ci ildə Göyçə və Erut vilayətləri üçün verilmiş fərmanın kənarında "Saray qulu Mir Əli Pərvanəçinin" adı qeyd edilmişdir [174[b], 263-264]. Bu dövrdə pərvanəçilər fərman yazmaqla yanaşı hərbi yürüşlərə də qatılırdılar. Uzun Həsən Cahanşah üzərində qazandığı qələbə ilə bağlı Osmanlı sultanı II Mehmedə göndərdiyi məktubunda yazırdı: "Cahanşah ordusunu və oğlanlarını toplayaraq Ağqoyunlular üzərinə hərəkət etdi. O, Muş yolundan keçərək mənim nəzarətimdə olan Çəpaxcura gəldi. Mən yeddi gündən sonra ona doğru gəldim. Onunla mənim aramda iki fərsəx yol qaldıqda mən yolu bağladım. Böyük oğlum Xəlil üç minlik süvari ilə həmin gün Cahanşahın ən böyük əmirlərindən olan Əmir Qasım Pərvanəçi də otuz nəfərlik məşhur əmirlərdən və beç minlik nəfərlik dəstə ilə qaravulluğa gəlmişdilər" [174[b], 264]. Məktubdan göründüyü kimi Cahanşah dövründə pərvanəçilər lazım gəldikdə öz vəzifələrindən savayı hərbi yürüşlərdə iştirak edirdilər. Əbubəkr Tehrani yazır ki, Cahanşah oğlu Pirbudağın üsyanını yatırmaq üçün Şiraza gedən zaman Ucanda Pirbudağın dəstəsinin hücum xəbərini almış, oğlu Məhəmmədi Mirzə, Əmir Şahəli, Əmir Əlişəkər və Əmir Qasım Pərvanəçini böyük əmirlərlə min beş yüz atlı ilə hücuma göndərdi. Baş verən döyüşdə Pirbudağın kəşfiyyat dəstəsi məğlub oldu. Pirbudağın pərvanəçisi və ən yaxın adamlarından olan Şadı bəyin oğlu İbrahimşah bəy peşmanlıq yoluna qədəm qoyub onun yanından qaçdı və Cahanşahın düşərgəsinə gəldi [13, 195; 174[b], 264].

Qaraqoyunlu dövlətində başlıca olaraq hərbi işlərlə ***Əmarət divanı*** məşğul olurdu. Burada bir neçə divan əmiri olurdu. A.A.Arayancanın fikrincə, Cahanşahın hakimiyyətinin sonlarında dörd əmir-i divanı var idi. Divan əmirləri böyük bəylərdən təyin olunurdu. Yarlıqlarda onların imzaları yer aldığı kimi, tuğ və nağaraya sahib idilər. Həsənəlinin üsyanı zamanı Cahanşah Təbrizə daxil olmuş və Əmir Ərəbşahı divan əmiri təyin etmişdir [174[b], 264]. Əbubəkr Tehrani yazır ki, Cahanşah Həsənəli

üzərinə hərəkət edərək Təbrizə gəldiyi zaman Əmir Ərəbşahı yenidən divan əmiri təyin etdi. Həmin vaxt Əmir Bayəzid Bistam vəfat etdiyi üçün qardaşı Əmir Əbülfəth divanda onun yerinə təyin olundu. Əmir Pirzad Buxari və Solan bəy də divan əmirləri təyin olundular [13, 192; 174[b], 264-265]. 1467-ci ildə Cahanşah Səncəkdə Uzun Həsən tərəfindən öldürülən zaman ələ keçirilən əmirlər arasında divan əmiri Pirzad bəy də var idi [13, 227; 174[b], 265].

Azərbaycan Qaraqoyunlu dövlətində müharibə zamanı əsgərlərin toplanması ***Təvaçı divanı*** tərəfindən həyata keçirilirdi [346, 206; 347, 305-306; 91, 70]. Cahanşah dövründə təvaçı divanında Pir Məhəmməd bəy Təvaçı, Seyid Əhməd Təvaçı, Əbülfəth bəy Təvaçı, Rüstəm bəy Alpaut Təvaçı və Lələ Səfərşah kimi tanınmış əmirlər fəaliyyət göstərmişdir [13, 185, 195, 227; 313, 27; 174[b], 265]. İsmayıl Akanın verdiyi məlumata görə, Uzun Həsən Çəpaxcurda Cahanşah Qaraqoyunlunu öldürən zaman onun tanınmış əmirlərindən – Divanbəyi Pirzad bəyi və Təvaçi divanbəyi Rüstəm bəy Alpautu da ələ keçirərək edam etdirmiş və başları Osmanlı sultanı II Mehmed Fatehə göndərilmişdir [169, 72].

İ.H.Uzunçarşılı Qaraqoyunlu divanında maliyyə işləri ilə məşğul olan və ***«mustofi»*** adlanan vəzifəli şəxsin olduğunu göstərir[347, 297; 144, 44].

İ.H.Uzunçarşılı qeyd edir ki, Qaraqoyunlu dövlətində məhkəmə və dini işlərə ***qazılar*** baxırdılar. Ən yüksək dini vəzifə ***«sədr*** və ya ***«sədarət»*** adlanırdı. Sədrin nəzarəti altında məhkəmə və şəriət işlərinə baxan Sədarət divanı adlanan məclis fəaliyyət göstərirdi. Vilayətlərdə məhkəmə işlərinə qazılar, dini işlərə müftilər baxırdı. Sədarət divanı mədrəsələrə nəzarət edir və onların təftişini həyata keçirirdi [347, 302-303]. Vəqf torpaqlarının bütün məsələləri, qazı, müdərris və ruhani idarələrinin ixtiyarı baş sədrə məxsus idi. Baş sədr həm də seyidlərin, qazıların, möhtəsiblərin, müdərrislərin, daimi xütbə oxuyanların və mütəvəllilərin işlərinə nəzarət edirdi [144, 40].

I.H.Uzunçarşılı baş sədrin nəzarəti altında məhkəmə və

dini işlərə baxan ***Sədarət divanının*** olduğunu qeyd edir. Mədrəsələrin nəzarət və təftişi də Sədarət divanının ixtiyarında idi [347, 303]. Bəzi tədqiqatçılar Azərbaycan Qaraqoyunlu dövlətində tutduğu mövqeyə görə, əmirül-üməradan sonrakı yerin Sədrə məxsus olduğunu göstərirlər [146, 94; 397, 77; 144, 40]. Qaraqoyunlu dövlətində vilayət hakimlərinin yanında sədrlər fəaliyyət göstərirdi. Vilayət sədrləri bilavasitə hökmdar tərəfindən təyin edilirdi. "Tarixi aləmarayi-Əmini"nin müəllifi Fəzlüllah ibn Ruzbehan Xuncinin dayısı Xoca İsmail Sədi Bağdadda Pirbudağın sədri olmuşdur [174[b], 269].

Qazıların başçılıq etdikləri məhkəmələr qəza məhkəmələri adlanırdı. Şəriət və dünyəvi məhkəmələr bir-birini tamamlamış, xalqın şüurunda bilavasitə dinlə bağlı olan nigah, ibadət, ailə, miras, boşanma hüququ üzrə münasibətlər – şəriət məhkəmələri, digər məsələlər isə dövlət məhkəmələri tərəfindən həyata keçirilirdi [93, 69].

Azərbaycan Qaraqoyunlu dövlətində məhkəmə (dünyəvi və şəri) qazılar tərəfindən aparılır, müqəssirlər "Yasa" qanununun müvafiq maddələri əsasında cəzalandırılırdılar. Bununla bağlı dövrün mənbəyində deyilirdi: "Oğrular haqqında buyurdum ki, harada olur-olsun, kim onları tutub gətirsə, oğrular Yasanın tələblərinə müvafiq cəzalandırılsınlar" [3, 69; 93, 70].

Qazılar dövrün məhkəmə sisteminin tətbiqində fiqh qanunlarını əldə əsas tutur və yalnız onlara istinad edirdilər. Qazılar fəaliyyətlərini "Qazılıq qanunları kitabı" ("Kitab ədəd əl-qada") ilə tənzimləyirdi və bütün maddi və prosessual normalar bu kitabda toplanmışdı [80, 344, 348; 93, 70].

Hökmdar tərəfindən təyin olunan qazı iman əhli olub xalqı ədalətlə mühakimə etməli, qanunsuzluğun qarşısını almalı, kimsənin haqqının mənimsənilməsinə, hüququnun tapdanmasına yol verməməlidir. O, öz vəzifəsini şəriətin tələbləri səviyyəsində apara bilmirsə tutduğu vəzifədən azad edilirdi. Qazı işi şahidlərin, iddiaçı və cavabdehlərin, məhkəmə üzvlərinin, məhkəmə xidmətçilərinin iştirakı ilə araşdırır və hökm çıxarırdı [80, 348; 93, 71].

Qazılığın yüksək bilik və peşə vərdişini tələb etməsinin nəticəsidir ki, qazı vəzifəsinə fiqhə yaxından bələd olan, ailəliklə qazılıqla məşğul olanlar təyin edilirdilər [80, 350; 93, 71]. Sədrin təklifi və sultanın razılığı ilə seçilən qazılar yalnız rüşvət almaqda günahlandırılan zaman vəzifədən uzaqlaşdırılırdılar. Müstəqillik statusuna sahib olan qazılar məhkəmə işləri ilə yanaşı, vilayətlərdəki vəzifəli şəxslərin məsləhətçisi, vəqflərə rəhbərlik etmək, fəqirlərə, zəif və yetim varislərə qəyyumluq etmək kimi vəzifələri də yerinə yetirirdilər [215, 212].

Məhkəmə işlərini həyata keçirən qazı haqqında mülahizə yürüdərkən iki qazıdan danışmaq lazımdır. 1. Dövlət və mülki işlərə baxan şəriət qazısı; 2. Hərbi işlərdə qayda-qanun yaradılmasına çalışan qoşun qazısı (qaziyi-ləşkər). Şəriət qazısı yerlərdə mübahisəli məsələlərin həllinə çalışır, qoşun qazısı isə orduda dini iş və təbliğat aparır, günahkar hərbiçiləri mühakimə edirdi [93, 71].

Azərbaycan Qaraqoyunlu dövlətində böyük yaşayış məntəqələrində ***möhtəsiblik qurumu*** fəaliyyət göstərirdi. Bu idarə öz nümayəndələrini – möhtəsibləri müxtəlif şəhərlərə və yerlərə təyin edir və onlar şəriət qanunlarına əməl olunmasına nəzarət edirdilər. Türkiyə tarixçilərinin fikrincə, möhtəsib xalqın şikayətini dinləmək, dövlət intizamını və ictimai vəziyyəti pozmağa çalışan şəriətdən kənar hərəkətlərin qarşısını almaq, məscidlərdə, məhkəmələrdə şəriət qanunlarına düzgün əməl edilməsinə nəzarət edir, müəzzinləri vəzifəyə təyin etmək və yolları düzəltmək kimi vəzifələri həyata keçirirdilər. Onlar həmçinin, bazarlarda ölçü, çəki və pul vahidlərindən düzgün istifadə olunmasına, qeyri-qanuni və nəzakətsiz hərəkətlə məşğul olanları, alverçiləri, sələmçiləri məsuliyyətə cəlb etməyə, borcluların borcunu vaxtında ödəmələrinə və qonşular arasındakı ixtilafı həll etməyə çalışırdılar [Bax: 215, 213; 204, 190; 174[b], 275]. Əbubəkr Tehrani yazır ki, Cahanşah Herat şəhərinə daxil olan zaman Mövlana Cəlaləddin Qaininin oğlu Mövlana Əbdülcabbarı şəhərin qazısı və möhtəsibi təyin etdi [13, 188; 174[b], 275].

Azərbaycan Qaraqoyunlu dövlətində orduya rəhbərliyi

hökmdar və şahzadələrdən sonra əmirlər həyata keçirirdi. Əmirlərin əksəriyyəti qoşun başçıları olurdu [210, 87; 204, 187; 174[b], 277]. Əmirlər müharibə zamanı valisi olduqları vilayətin qoşunu ilə hökmdarın ordusuna qatılırdılar. Onlar döyüş vaxtı hökmdarın və ya şahzadələrin əmri altında olurdular. Əbubəkr Tehraninin yazdığına görə, əmirlər arasından ***böyük əmir*** *(əmiri-Bozorq, əmiri-Kəbir)* ayrılmışdır [50, 75].

Dövrün mənbəyində Azərbaycan Qaraqoyunlu dövlətinin böyük əmirləri arasında Qara Yusifin əmirül-ümərası Əmir Bistam Cagirli, onun oğlu Cahanşahın divan əmiri Bayəzid bəy Cagirli, Bağdad hakimi Pir Məhəmməd Alpaut, Pir Hüseyn bəy Sədlu, Əmir Qaraman, Cahanşah dövründə Həmədan hakimi olan Əlişəkər bəy Baharlı və başqaları olmuşdur [Bax: 6, 12-13, 22-24; 174[b], 277]. A.A.Arayancan yazır ki, Qaraqoyunlu əmirləri əmir, böyük əmir, qoşun əmiri, tuğ və nağara əmirinə ayrılırdı. Qaraqoyunlu əmirlərinin çoxu mənsub olduğu tayfadan toplanmış qoşunun başında döyüşə qatılırdılar [174[b], 278]. İ.H.Uzunçarşılının fikrincə, əmirlərin qılıncı da hökmdarın və şahzadələrin qılıncı kimi qızıldan olurdu [346, 76]. Qaraqoyunlu dövlətində əmirlər böyük nüfuza sahib idi. Onlar hətta, hökmdarın seçilməsinə də təsir göstərə bilirdi. Qara Yusifin ölümündən sonra xanımı Qədəm Paşa və Əmir Qaraman onun oğlanlarından birini hakimiyyətə gətirməyə çalışsa da, bacarmadılar. Cahanşahın öldürülməsindən sonra Baharlı tayfasına məxsus əmirlər şahzadələrdən Əbu Yusif Mirzəni taxta çıxararaq Ağqoyunlulara qarşı ciddi müqavimət göstərdilər [13, 264-265; 313, 24-25; 174[b], 278].

A.A.Arayancanın fikrincə, Cahanşah əmirlərə çox böyük dəyər vermişdi. O, əmirlərindən Əmir Cəlaləddin Tərxana böyük və kəramətli əmir, zamanın əmirlərinin xeyirlisi və bağışlayan məliyin lütfünə məxsus olan şəklində müraciət etmişdir [9, 28; 174[b], 278]. Qaraqoyunlu dövlətində əmir vəzifəsi nəsildən-nəslə keçirdi. Cahanşah dövründə əmirlərdən Bayəzid Cagirli vəfat etdiyi üçün qardaşı Əbülfəth bəy onun yerinə təyin edilmişdi. Əmirlər hökmdarın əmri olmadan hərəkət edə bilməzdi.

Bir qayda olaraq hökmdarın əmrini yerinə yetirdikdən sonra öz torpaqlarına dönürdülər. Xəyanət edən, əmrləri yerinə yetirməyən əmirlər cəzalandırılır, böyük qələbələrdə payı olanlar isə mükafatlandırılırdı. Əbubəkr Tehrani yazır ki, Cahanşah Pirbudağın qiyamını yatıraraq onu qətlə yetirdikdən sonra Təbrizə gəldi. Əmirül-üməra və sahib-divan olan Şahəli Bayramini bir neçə xəyanətdə ittiham edib həbsə aldırdı və qalaya göndərdi [13, 312; 174[b], 279-280].

Azərbaycan Qaraqoyunlu dövlətində ***hakimin*** də özünəməxsus yeri və fəaliyyəti olmuşdur. Hökmdarın tabeçiliyində olan olkə, vilayət və şəhərlər hakimlər tərəfindən idarə olunurdu. Onlar xüsusi fərmanla məşhur əmirlərdən təyin edilirdi. Əbubəkr Tehrani bu barədə yazır: "Cahanşah Mirzə Azərbaycan hüdudlarından İraqa yaxınlaşdı və Xacə Mahmud Heydərin İsfahan hakimi təyin olunması barədə fərman göndərdi. Xacə Mahmud hakimlik vəzifəsinin icrasına başladı. Qış ötüb keçdikdən sonra Cahanşah İsfahanı öz oğlu Məhəmmədi Mirzəyə verdi" [13, 175]. "Kitabi-Diyarbəkriyyə" müəllifinin qeyd etdiyinə görə, Cahanşah Şirazda öğlu Pirbudağın üsyanını yatıraraq onu Bağdada göndərən zaman Əbu Yusif Mirzəni Şiraz hakimi təyin etdi, Kazerun, Xibr və dörd hissədən ibarət olan Sərdsiri Məhəmmədi Mirzəyə, Kirmanı Buanatla birlikdə Əbülqasım Mirzəyə, qalan vilayətləri də Şahəli bəy, Şahsuvar bəy, Lələ Səfərşah və başqa bu kimi böyük əmirlərə verdi [Bax: 13, 195-196].

Hakimlər xəzinəyə hər il müəyyən miqdar vergi verir, hökmdara vaxtaşırı hədiyyə göndərir və müharibə vaxtı əsgəri qüvvə ilə kömək edirdilər. Hakimlərin ən mühüm xüsusiyyəti onların hərbi qüvvələrə başçılıq etmələrində idi. Hakim bəzən əlindən çıxarılan əyaləti "böyük xərclə" geri alırdı ki, bu da hakimin hakimiyyəti əlindən verməmək ehtirasını göstərir [93, 43]. Dövrün mənbələrində inzibati cəhətdən tutduqları yerə görə hakimlər – vilayət, şəhər və qala hakimlərinə bölünürdülər. Sonunculara "kutval" da deyilirdi. Bəzən kutval və darğa eyni şəxs ola bilirdi [215, 207; 216, 208]. Kutvalların vəzifəsi

nəzarəti altında olan qalanı qorumaq idi. Onlar əmrləri bilavasitə hökmdardan alırdılar. Həsən bəy Rumlu yazır ki, Cahanşah Pirbudağın üzərinə Şiraza hərəkət üdən zaman Yəzd-i Hasn ətrafına gəlmişdi. Qala kutvalları özlərinə zərər gələcəyindən çəkinərək "padşahın keçəcəyi yerlərdəki qalaları kimə istəsə təslim edərik" sifarişini yollamışdılar [43, 412; 174[b], 283].

Təyin olunduğu yerə gedən hakim özü ilə sultanın təsdiq edib ona verdiyi hökm sənədini – "nişan"ı aparırdı. Nişanda adı göstərilən yerin ona çatdığı yazılır, əhalidən hakimi peşkəşlə qarşılaması, qala və xəzinə açarlarının təqdim edilməsi və ona sözsüz itaət olunması yazılırdı [93, 43].

Ş.Fərzəliyevin qeyd etdiyi kimi, hakimə "darğa" da deyilmişdir ki, işləndiyi məna baxımından hakim və darğa sözləri bir-biri ilə qarışdırılmamalıdır. XV əsr Azərbaycan dövlətlərində hər iki istilah təqribən eyni şəxsə mənsub olmuşdur, yəni o zaman doğrudan da müəyyən inzibati ərazini idarə edən şəxsə həm hakim, həm də darğa deyilmişdir [93, 44]. Azərbaycan Qaraqoyunlu hökmdarları ələ keçirdikləri vilayətlərin idarəsini, maliyyə və idarə işlərinə nəzarət etmək üçün darğalar təyin edirdilər. Həsən bəy Rumlu yazır ki, Qara Yusif Araz çayı yaxınlığında Teymuri Əbu Bəkrlə döyüşdə qələbə qazandıqdan sonra Naxçıvana gəldi və Təbrizə darğa göndərdi [43, 61; 174[b], 270]. A.A.Arayancanın fikrincə, Uzun Həsən Cahanşahı məğlub etdikdən sonra Qaraqoyunlu vilayətlərini ələ keçirmək üçün Qaraqoyunlu darğalarına elçilər göndərib onları itaət göstərməyə çağırmışdır [174[b], 270-271]. Bu hadisə bir daha göstərir ki, darğalar vilayətlərin idarə edilməsində önəmli şəxslərdən olmuşdur. Siyasi təsirləri güclü olan darğalar çox zaman hökmdarlara təsir etmək gücündə olmuşlar. Mirzə Məhəmməd tərəfindən İsfahan darğası təyin edilən Əmir Hüseyn Tarumi Cahanşahın hüzuruna gedərək onu Əcəm İraqının fəthinə təhrik etmişdi [174[b], 271]. Cahanşahın dövründə darğaların digər vəzifələrindən biri də şəhərlərin giriş və çıxışına nəzarət etmək idi. Əbubəkr Tehrani yazır ki, Uzun Həsən Əbu Səidə qarşı döyüşə hazırlaşdığı zaman Qazi Əlini onun yanına elçi göndərərək "Sizin qanuni tor-

paqlarınızı Cahanşah Mirzə tutmuşdu. Əgər Yəzddə bir xarvar yük vurmaq istəyirdilərsə, Yəzd darğaları on dəfə müraciət etməyincə icazə ala bilmirdilər" söyləmişdi [13, 256; 174[b], 270-271]. Bu bir daha göstərir ki, darğalar şəhərin giriş və çıxışına nəzarət etmişdilər. Darğalar lazım olanda şəhərin idarəsini buraxaraq orduya qatılır və hərbi yürüş zamanı ordu içərisində nizam-intizamı saxlamağa çalışırdılar. Əbubəkr Tehrani yazır ki, Pirbudaq atasına qarşı üsyan qaldırdığı dövrdə Cahanşah Simnana çatan zaman Damğan darğası şəhəri atıb onun yanına gəldi [13, 190; 174[b], 271]. A.A.Arayancanın fikrincə, darğaların vəzifələrinə vilayətlərdə baş verən qarışıqlığı yatırmaq, xalqa qarşı haqsızlıq edilməsinin qarşısını almaq, islam hüququna zidd olan zina, içki içmək və qumar oynanılmasına mane olmaq da daxil idi [174[b], 272].

Qaraqoyunlu dövlətində Həccə gedən zəvvarları güvənli şəkildə ziyarətə getməsini hökmdar tərəfindən təyin edilən ***əmirül-həcc*** müşayiət edirdi. Şəriətin beş mühüm amillərindən olan həccə ziyarət çox hallarda quldur basqınları nəticəsində baş tutmurdu. Bunun qarşısını almaq məsədilə Qaraqoyunlu hökmdarları zəvvar karvanını qorumaq üçün xüsusi dəstələr ayırırdı. Onların vəzifəsi zəvvarları təhlükəli bölgələrdən güvənli şəkildə keçirmək idi. Cahanşah Ərəb İraqını fəth etdikdən sonra saray əmirlərindən Nizaməddin Əbdülhaqı əmirül-həcc təyin edərək ona ərəbcəsi qızıl, farscası qurğuşun qələmlə yazılmış fərman vermiş və Həcc karvanını Məkkəyə aparmasını tapşırmışdır [9, 44; 174[b], 283]. Bu dəstələrin təşkili barədə fərman verilirdi və əlaqədar şəxslər xəbərdar edilirdi. Əmirül-həccin məvacibi karvan iştirakçılarının hesabından ödənilirdi. Bu haqda əvvəlcədən müqavilə bağlanılır və bir nüsxəsi əmirə verilirdi [148[A], 355].

Elxanilər və Teymurilər dövlətində olduğu kimi, Azərbaycan Qaraqoyunlu dövlətində də ***«dərgah»*** və ya ***«dövlətxana»*** adlanan saray təşkilatı var idi. İ.H. Uzunçarşılıya görə, Elxanilər dövründə mövcud olan *«inak», «rikabdar», «bukavul», «əmir-axur», «ayaqçı»* və sair istilahlarına Qaraqoyunlu dövlətində də təsadüf edilir [347, 293-294; 287, 214; 144, 38].

Qaraqoyunlu dövlətində ***yasavullar*** sultanın buyruğunu yerinə yetirən məmur kimi mühafizə xidmətini həyata keçirirdi. O, həmçinin sarayın mühafizəsini, divanbəyi məhkəmə kürsüsündə olan zaman səssizliyi təmin edir və malların müsadirəsini həyata keçirirdi [204, 180]. Qaraqoyunlu hökmdarları ovda olan zaman onun yanında ov itləri və quşlara xidmət göstərən ***quşçu*** və ***parsçılar*** olurdu. Saray xidmətçiləri olan ***fərraşlar*** saray otaqlarının döşənməsini və eləcə də ziyafət tədbirlərinin keçirilməsi zamanı çadırların döşənməsini həyata keçirirdilər [347, 274; 174[b], 255].

Hərbi və eləcə də, dövlət işlərində yaxından iştirak edən ***inaqlar*** mənbələrdə əmirlər və vəzirlərlə bir sırada xatırlanırlar. İ.H.Uzunçarşılı yazır ki, əsl türk uşaqlardan seçilən və hökmdarın etimad göstərdiyi adamlardan olan inaqlar lazımı yerlərə ən önəmli və gizli əmrləri çatdırırdı. Baş inaq nüfuzlu bəylərdən seçilirdi [347, 274]. A.A.Arayancanın fikrincə, hökmdarın yanında olduğu üçün hərbi savad alan inaqlar mühüm xəbərlərin onlara çatdırılmasını həyata keçiridilər [174[b], 254]. İnaqlar hərbi səfərlərdə də iştirak edirdilər. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah Xorasana Teymurilərə qarşı yürüşə çıxan zaman kəşfiyyat dəstəsi xəbər gətirdi ki, Əlaüddövlənin oğlu Sultan İbrahim Astrabad meşəsinə daxil olub. Bu xəbəri eşidən Cahanşah Məhəmmədi Mirzəni və Əbülfəth bəyi qabaqda hücuma göndərdi və özü də onların ardınca hərəkət etdi. Onun yanındakı əmirlər, inaqlar və boy nökərləri dördnala çapırdılar. Elə sürətlə getdilər ki, iki günə səhər günəş çıxanda Astrabad şəhərinin darvazasına çatdılar [49, 310; 174[b], 255].

K.Paydaşın fikrincə, hökmdarın saray mətbəxində çalışan, yeməklərin dadına baxan və onlara zərərli şeylərin qatılmamasına nəzarət edən məmur ***bukavul*** və ya ***çaşnigir*** adlanırdı. Qaraqoyunlu dövlətində bukavullar bu vəzifələrindən başqa digər mühüm vəzifələri də yerinə yetirirdilər. Qaraqoyunlu hökmdarı Cahanşahın Uzun Həsənin yanına göndərdiyi elçilərdən biri Aynal adlı Bukavul olmuşdu. Bununla yanaşı, 1456-cı ildə Cahanşah Xorasan üzərinə yürüşə qərar verərək Reyə

gəlmiş, qoşun toplamaq üçün vilayətlərə elçilər və bukavullar göndərmişdi [287, 214-215; 174[b], 253-254]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah oğlu Pirbudağın üsyanını yatırmaq üçün Bağdad üzərinə yürüşə qərar verərək ordu toplamaq üçün ölkənin hər tərəfinə bukavullar göndərmişdi [49, 224; 174[b], 254]. Qaraqoyunlu dövlətində bukavullar elçi vəzifəsini də yerinə yetirmişdilər. Əbubəkr Tehraninin verdiyi məlumata görə, 1466-cı ildə Cahanşahın ordusunun Əxlətə hücumu ilə bağlı xəbər Uzun Həsənə çatmışdı. Bu zaman Cahanşah Aynal adlı bukavulunu Uzun Həsənin yanına göndərmişdi [49, 232; 174[b], 254].

Qaraqoyunlu hökmdarının yaylaq, qışlaq dövrlərində, ov mərasimlərində tədbir iştirakçıları üçün əvvəlcədən məskənlər müəyyənləşirdi. Əmirlər, vəzirlər, inaqlar, bitikçilər, qazılar, seyidlər, imamlar, hərbi hissələr öz məskənlərini dəqiq bilməli və həmin yerdə qalmalı idilər. Bu məqsədlə münasib yerin seçilməsi və tədbir iştirakçılarının yerləşdirilməsi ***yurtçinin*** əsas vəzifəsi sayılırdı [148[A], 325; 174[b], 255]. Ordunun baş yurtçisi hökmdarın fərmanı ilə təyin olunurdu. Yurtçi ilk növbədə hökmdar çadırı üçün yer ayırır, sonra şahzadələr, əmirlər, vəzirlər, digər dövlət əyanları və əsgrlər üçün ərazi müəyyənləşdirirdi. Şahzadələr və əmirlər hökmdar çadırının sağ cinahında, vəzir və divan sahibləri sol cinahda yerləşdirilirdi. Yurtçi hərbi vəzifə hesab edilirdi [148[A], 325].

Azərbaycanın Muğan ərazisi "yurt" üçün ən münasib yerlərdən biri idi. Kür çayının sahilinə gələn Teymurun əmri ilə yurtçi qışlaq üçün ərazi axtarır və coğrafi şəraiti nəzərdən keçirdikdən sonra Mahmudabadda fatehin qışlaması üçün yurt təşkil edir [16, 44; 148[A], 326]. Hərbi yürüşlər məqsədilə salınmış yurtlar bəzən geniş ərazini əhatə edirdilər. Vəziyyət dəyişdikdə, ilk növbədə oylaqlarda ələf qıtlığı yarandıqda yurtçilər yeni ərazilər axtarmalı və yeni yurtlar salmalı idilər [148[A], 326]. Yurtçilər hərbi yürüşlərdə də iştirak edirdilər. Əbubəkr Tehraninin verdiyi məlumata görə, 1457-ci ildə Cahanşahın Teymuri Sultan İbrahimlə Astrabadda baş verən döyüşündə yurtçilərin

həmləsi əsaslı rol oynamışdır [13,185-186; 174b, 255].

A.A.Arayancanın fikrincə, Qaraqoyunlu dövlətində vilayətlərdə vergi və taxılın toplanması və şəhərdə asayişin qorunmasında ***bəratdarlar*** önəmli rol oynayırdı [174b, 256]. Əbubəkr Tehrani yazır: "Cahanşah Mirzə Savə qışlağından çıxıb Pirbudağı məhv etmək üçün Bağdada yollandı və bütün yazı və yayı İraq yaylaqları ilə ağır-ağır irəlilədi. Qışlaq vaxtı gələndə, Bağdad ətrafına çatdı. Reydən taxılı ərəblərin dəvələrinə yükləyib Həmədana gətirirdilər, oradan isə *baratdarlar* öz ulaqları ilə onu Cahanşahın düşərgəsinə çatdırırdılar" [13, 197; 174b, 256]. A.A.Arayancan Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşah Heratdan geri dönərkən Nişapurda düşərgədən ayrılan oğlu Pirbudaq Yəzdə gəldiyi zaman vilayət və şəhər əhalisi üzərinə vergi qoydu və xərac topladı. İsfahanın Ruydəşt, Natanz və Ardistan vilayətlərinin bazarlarına darğa və bəratdar göndərdi [174b, 256].

Azərbaycan Qaraqoyunlu dövlətində tanınmış saray nümayəndələrindən biri də ***möhürdar*** olmuşdur. Möhürdar hökmdarın və əyalətlərdə də valinin möhürlərini qoruyan şəxsə deyilirdi. Onun sənədlərə vurduğu möhür hökmdarın imzası demək idi. Zərurət olduqda möhürdar hərbi səfərlərdə də iştirak edir, şəxsən döyüşürdü [216, 206; 93, 45]. Ş.Fərzəliyev Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, möhürdarın möhürü "böyük möhür" adlanırdı [91, 63; 93, 45].

Azərbaycan Qaraqoyunlu dövlətində ***ordu*** sarayın ixtiyarındakı qoşundan və ayrı-ayrı vilayətlərdən toplanan döyüşçü dəstələrindən *(çərik)* ibarət idi ki, onlara əsasən mənsub olduqları tayfaların başçıları rəhbərlik edirdilər. ***"Xassə əsgərlər"*** deyilən döyüşçü dəstələrinə (şahın tabeliyindəki əsgərlərə) illik maaş verildiyi halda, çəriklərə yalnız onlar döyüşə çağırıldıqdan sonra pul ödənilirdi [357, 266; 93, 51].

Azərbaycan Qaraqoyunlu dövlətində ordunun əsasını tanınmış Qaraqoyunlu tayfalarından toplanan əsgərlər təşkil edirdi. Bunlar arasında Baranilərlə yanaşı Sədlu, Baharlı, Bayramlı, Alpaut və Cagirli tayfaları xüsusi yer tuturdu. Bununla yanaşı,

Düharlı, Qaramanlı, Hacılı, Ağəcəri və Döğər tayfaları da Qaraqoyunlu ordusunun təşkilində mühüm rol oynayırdı [210, 72]. İ.Erdəmin qeyd etdiyi kimi, Qaraqoyunlularda ordunun təşkilati cəhətdən formalaşması və döyüş taktikasının yaradılması Qara Məhəmmədin dövründə (1380-1389) həyata keçirilmişdir. 1382-ci ildə onun Naxçıvan yaxınlığında Cəlairi Şeyx Əli ilə döyüşdə tətbiq etdiyi taktika Qaraqoyunlu ordusunun nə qədər yüksək qabiliyyətə malik olduğunu ortaya qoydu. Qara Məhəmməd döyüş qabağı 5 minlik qoşununu hər biri 300 nəfər olmaqla 30 dəstəyə ayırdı. 16 dəstədən biri öndə gedərək Cəlairilərə ox atmağa başladı və düşmən hücum etdikdə geri çəkilməyə çalışdı. Bu zaman digər dəstələr geri çəkilən Qaraqoyunlu əsgərlərini təqib edən düşmənə ox zərbəsi endirərək onların sıralarını pozdular. Ardınca da əsas qüvvələr hücuma keçərək düşməni məğlub etdilər. Döyüş planı mükəmməl təşkil olunduğu üçün 20 minlik Cəlairi ordusu qısa müddət ərzində məğlub edildi. Şeyx Əli və ordu komandanı Pir Əli döyüşdə öldürüldü. Bu qələbə Qaraqoyunluların nüfuzunu və gücünü xeyli artırdı [313, 47; 210, 73].

Mənbələrdə ordu sözü *«ləşgər», «qoşun»,* ordunu təşkil edən əsgərlər isə *«mülazim, əsgər, qulluqçu, nökər, dilavər»* adlanmışlar [91, 68]. İ.H.Uzunçarşılının fikrincə, Qaraqoyunlu ordu quruculuğu və hərbi istilahlar tamamilə Elxanilərdə olduğu kimi idi [347, 305].

Qaraqoyunlu hökmdarlarının bilavasitə mühafizəsini ***qorçilər*** *(qoruyucular)* və ya hassa əsgərləri adlanan nökərlər həyata keçirirdi [347, 304]. Həsən bəy Rumlu 1410-cu ildə Sultan Əhməd Cəlairinin Təbrizə hücumu zamanı qorçilərin zərli paltar geyinərək əllərində müxtəlif silahlar tutduqlarını göstərir [43, 80; 91, 65-66]. Ş.F.Fərzəliyevin qeyd etdiyi kimi, bu hələ XV əsrin əvvəllərində qorçilərin xüsusi geyimləri olduğunu bir daha təsdiq edir [91, 66].

Qorçi dəstələri hökmdarı qoruyan və daim onun keşiyini çəkən etibarlı alaylar olmuşdur ki, onun üzvləri əsasən əmirzadələrdən seçilirdi. V.F.Minorskinin yazdığına görə, qorçilər

başqa döyüşçülərdən fərqlənməkdən ötrü uzun bığ saxlayırdılar. Müharibə vaxtı qorçi dəstələri çox vaxt ehtiyatda qalır, yalnız ən çətin anlarda döyüşə çıxarılırdılar [Bax: 210, 61; 91, 66].

Qaraqoyunlu hökmdarlarının, şahzadələrinin boy nökərləri türkmanlardan, hökmdarın yanındakı nökərlər isə tanınmış əmirlərin uşaqlarından seçilirdi. Hökmdarın hassa nökərləri maaşı divandan alırdı. Əbubəkr Tehrani yazır ki, Cahanşah Şirazın mühasirəsinin uzandığını, taxılın bahalaşdığını nəzərə alaraq, əmirlərə və qoşun əhlinə yardım üçün Tarem qalasında toplanan İraq xəzinəsindən dörd min Təbriz tüməni gətizdirdi və borc kimi əmirlərə verdi ki, məvaciblərinə uyğun şəkildə öz nökərləri arasında bölüşdürsünlər [13, 193; 174[b], 281]. Boy nökərləri hər zaman hökmdara hərbi dayaq olmuşdur. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah Uzun Həsən üzərinə yürüşə boy nökərlərini də aparmışdı. Uzun Həsənin göndərdiyi "kəşfiyyat xəbər gətirdi ki, Cahanşah Mirzə öz köçünü göndərib və xüsusi qoşunu, əmirləri, boy nökərləri və övladları ilə birlikdə düşərgədə qalıb" [13, 225]. Bu fakt bir daha təsdiq edir ki, boy nökərləri bilavasitə döyüşə qatılmışdılar.

Nökərlər xidmətlərinə uyğun şəkildə daim mükafatlandırılırdı. İ.Aka yazır ki, 1436-cı ildə Teymuri sultanı Şahrux Qarabağdan hərəkət edərək Ucana gəlmiş və Azərbaycanın idarəsini Cahanşaha vermişdi. Cahanşah xüsusi ziyafətlər təşkil etmiş, yanındakı nökərlərinə at, qızıl yəhərlər, köynəklər və kəmərlər paylamışdır [169, 25; 174[b], 281-182]. Qaraqoyunlularda nökərlər etibar və sədaqətlərinə görə seçilirdilər. A.A.Arayancan Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşah Əlincə qalasını mühasirəyə aldığı zaman Şah Qubad əmisinə atası İsgəndəri öldürdüyünü xəbər verdi. Cahanşah bu xəbərə inanmadığından buyurdu ki, əgər doğru deyirsənsə, qardaşımın ən inanılmış nökəri olan Həlavəri öldür, başını hüzuruma göndər. Əmisinin bu fərmanı gələn kimi Şah Qubad Həlavəri öldürdü və başını əmisinin yanına göndərdi [174[b], 282]. Bu, bir daha göstərir ki, nökərlərin öldürülməsi hökmdarın öldürülməsi kimi mühüm önəm daşıyırdı. Çünki nökərlər hökmdarların ən

yaxın adamları idilər. Əbubəkr Tehrani yazır: "Padşahın nökəri gərək padşahına göz qoya ki, ona bir sədəmə yetişməsin və yəqin bilməlidir ki, onun həyatı padşahın həyatı ilə bağlıdır. Əgər padşaha bir zaval yetişsə, onun sadiq nökəri necə can qutara bilər? Odur ki, padşahın yaxınları, istər qohumları, istərsə də nökərləri, daim onu qorumalıdırlar" [13, 94]. Dövrün mənbəyinin verdiyi məlumata görə, Cahanşahın bəzən nökərlərindən şübhələnərək onları qətlə yetirmişdi. Əbubəkr Tehrani yazır ki, Cahanşah Məhəmməd Süfrəçini Uzun Həsənin yanına elçi göndərmişdi. Onun verdiyi məlumatlar Uzun Həsəni təmin etmədi. Uzun Həsən elçiyə demişdi: "Mən onun xidmətində olan Şah Əli Bayraminin və digər əmirlərin tayı deyiləm ki, onun hüzuruna gələm. Həm də Cahanşah xoflu bir adamdır. O dərəcədə ki, hətta öz nökərlərindən biri olan Məhvəkdən xoflanmış və axırda onu qətlə yetirmişdir" [13, 219].

Müharibə gözlənilən vaxt yerlərə cəlbedici məktublar göndərilib, ənam vəd edilir və beləliklə, qoşun toplanılışı sürətləndirilirdi. Müharibə baş tutmadıqda, tərəflər arasında müəyyən razılıq əldə edildikdə sülhnamə tərtib olunurdu. Həsən bəy Rumlu 1458-ci ildə Heratda Qaraqoyunlu Cahanşahla Sultan Əbu Səid arasında sülhnamənin tərtib edildiyini qeyd edir [Bax: 43, 380].

Bir qayda olaraq, döyüşə gedən ordunun başında hökmdarın özü dururdu. Azərbaycan Qaraqoyunlu dövlətində ordunun ən yuxarı zümrəsini hökmdarla bir tayfadan olan əmirlər təşkil edirdi. Qaraqoyunlularda – Baranilər yüksək toxunulmazlıq hüququna və müstəsna səlahiyyətlərə malik idilər [93, 45].

Dövrün mənbələrində dövlətin əsas qüvvəsi olan əmirlər zümrəsinin tutduğu mövqe ***"əmarət"*** adlanmış, əmirlər isə ***"əzəmətli"*** əmirlər adlanmışdır. Əmirlər dinc dövrdə hökmdarın adından təyin olunduğu əyalətin idarə olunmasını həyata keçirirdi. Müharibə zamanı isə onlar valisi olduğu bölgənin ordusu ilə hökmdarın qüvvələrinə birləşirdilər [205, 25]. Əmirlər əllərində soyurqal və böyük imtiyaza malik olan böyük əmirlər və kiçik əmirlərə bölünürdü. "Qızılbaşlar tarixi"nin verdiyi məlu-

mata görə, Əli bəy Ağacəri Qaraqoyunlu hökmdarı Cahanşahın hakimiyyəti dövründə böyük əmir *("əmiri-bozorq")* olmuşdur [6, 6; 93, 62].

Ş.Fərzəliyevin qeyd etdiyi kimi *"kiçik əmirlər"* zümrəsinə daxil olan əmirlər *"ordu əmirləri"* də adlanırdı. Onlar müxtəlif qoşun dəstələrinə başçılıq edən əmirlər olmuşlar. Sərhədləri qoruyan əmirlər də "kiçik əmirlər" zümrəsinə daxil idilər. Müharibələr zamanı ələ keçirilən qənimətlər çox hallarda əmirlər arasında bölüşdürülürdü ki, hökmdar bununla da onları özündən razı salmaq və gələcək döyüşlərə rəğbətləndirmək istəyirdi. Elə hal da olurdu ki, döyüşdə əmirlərin ələ keçirdiyi hər hansı bir yer elə onun özünə bağışlanırdı [93, 63].

Müharibə gözlənilən təqdirdə tabeliyindəki vilayətlərə gedərək hərbi qüvvə toplayan və ayrı-ayrı hərbi dəstələr arasında əlaqə yaradan əmirlər ***təvaçi*** adlanırdı. Onlar döyüşçüləri səfərbər edir, ordunun yerini bildirir, döyüşçülərin sayını özünün *«təvaçi dəftərinə»* qeyd edirdi. Təvaçilərin mühüm vəzifələrindən biri də orduda təftiş və yoxlama aparmaq idi [346, 206; 347, 305-306; 205, 26; 91, 70]. A.A.Arayancan Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, 1457-ci ildə Curcan valisi Əmir Baba Həsən Karqın Mazandarana aramsız hücumlar etdiyi üçün Cahanşah Xorasana səfərə çıxmalı oldu. O, Reyə gələrək ölkənin hər tərəfinə təvaçılar göndərib əsgərlərin toplanmasına əmr verdi. Həmçinin, Cahanşah İsfahanı ələ keçirərkən ordunun təvaçısı Seyyid Əhməd Təvaçını qala divarlarını dağıtmaq üçün İsfahana göndərdi [174[b], 280].

Qaraqoyunlu ordularında minik heyvanlarına nəzarət və nəqliyyat məsələlərinə rəhbərlik etmək ***əmiraxurun*** öhdəsinə düşürdü. Qoşunun əsas minik vasitəsi olan at ilxılarının ümumi sayı haqqında hökmən əmiraxurun məlumatı olmalı idi. Sultan Əhməd Cəlairinin məğlub olub qaçmasından sonra əsir alınmış düşmən əmiraxurlarına Qara Yusifin verdiyi suallar bu fikrin təsdiqi üçün səciyyəvidir: "Sultanın neçə atı vardı? O, özü ilə neçə at aparmış olar? Ordumuzun əlinə daha neçə at keçə bilər?" [91, 148; 93, 68].

Azərbaycan Qaraqoyunlu dövlətində ordu süvari və piyada dəstələrdən təşkil olunurdu. A.A.Arayancanın fikrincə, Qaraqoyunlu süvari dəstələri ordunun əsas hissəsini təşkil edirdi. Onlar son dərəcə sürətli hərəkət etmək və manevr qabiliyyətinə sahib idi. Belə bir ordu üçün bir bölgədən digərinə hərəkət etmək daha asan idi. Süvari qüvvələr sayəsində yürüş və basqınlarda böyük qələbələr qazana bilirdilər [174[b], 284]. Qaraqoyunlular süvari ordunun hazırlanmasına xüsusi önəm verirdilər. Onlar döyüşə getmədən öncə vəziyyətə, mövsümə və düşmən qüvvələrini nəzərə alaraq hazırlaşırdılar. İsmayıl Akanın yazdığı kimi, Sultan Şahruxun Azərbaycana yürüşü zamanı onun ordusunda döyüş fillərinin olduğunu nəzərə alan Qaraqoyunlu İsgəndər atları heç fil görmədiyi üçün sığırlara saman çualları bağlamış və palçıqdan fil fiqurları yaradaraq onlar üzərində xüsusi məşqlər keçirmişdi ki, döyüşdə atlar fillərdən qorxmasınlar [165, 63; 174[b], 285].

Qaraqoyunlu dövlətinin hərb sistemində piyada ordulardan da istifadə olunmuşdur. 1420-ci ildə Teymuri Sultan Şahruxun Azərbaycana yürüşü zamanı Qara Yusif Təbriz əhalisindən piyada qoşun toplamışdı. Faruq Sümer Qara Yusifin bu piyada qoşunun hansı məqsədlə topladığı sualına cavab verməsə də, Osmanlı ordusunda fəaliyyət göstərən azablar kimi istifadə olunacağını qeyd etmişdir. Onun fikrincə, bu dövrdə toplanan piyada əsgərlərin daha əvvəllər heç əsgərlik etmədiklərini nəzərə alsaq, onların xəndək qazmaq vəzifəsini də yerinə yetirəcəklərini düşünmüşdü. Bununla yanaşı, Qara Yusifin piyada qoşundan istifadə etməsi yeni döyüş taktikasından istifadə edəcəyini göstərir [313, 109-110, 113; 174[b], 285-286]. Cahanşah dövründə də döyüşlərdə piyada qoşundan istifadə edilmişdir. Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanan A.A.Arayancan yazır ki, Kirman vilayətində Teymuri valisi Seyid Şirvani ilə Yar Əhməd arasında baş verən münaqişədən istifadə edən Qaraqoyunlu Pirbudaq Kirmana yürüş etmişdi. Lavər keçidində Teymuri Səncər Mirzə ilə çətin bir döyüşdə Pirbudaq müvazinətini itirib geri çəkilməyə və qaçmağa meyl etdi. Lakin Pirqulu Kukeltaş onu

sakitləşdirib dayanmağa çağırdı. İgid cavanlardan və Pirbudağa məhrəm adamlardan biri olan Əli Çəkkak İsfahani bir dəstə piyadanı hazırlayıb cığatayların sığındığı dağın arxasından onların yaxınlarının və yüklərinin saxlandığı evlərinə hücum etdi. Əsgərlərin arasına hay-küy və qarışıqlıq düşdü və onlar öz ailələrini qorumaq üçün geri döndülər. Türkmanlar onlara üstün gəlib onları pərən-pərən saldılar [13, 181; 174[b], 286].

Qaraqoyunlu dövlətində ordunun əsas özəyini vilayətlərdən yığılan çərik qoşunu təşkil edirdi. Onlara tayfa əmirləri rəhbərlik edirdi. Teymuri Sultanı Şahruxla Aləşgərd döyüşündə Qaraqoyunlu İsgəndərin ordusunun sağ cinahında Sədlu Pir Məhəmməd bəy, sol cinahında isə qardaşı İsfahan Mirzənin rəhbərliyi altında Sorqan və Qorqan Alpaut, Bayram bəy və oğlu Şahsuvar bəy yer almışdı [Bax: 13, 68; 313, 121; 174[b], 287]. A.A.Arayancanın fikrincə, Cahanşah dövründə Qaraqoyunlu ordusunda tanınmış əmirlərdən biri olan Əli Şəkər bəy Baharlı, Rüstəm Tərxan Cagirli, Bədrəddin Ruhullaq Ayinli və Ərəbşah Ayinli önəmli rol oynamışdır [174[b], 287-288].

İ.H.Uzunçarşılı Qaraqoyunlu dövlətində ordunun sağ cinahının - *«bərənğar»,* sol cinahının - *«cəvanğar»* və mərkəz hissəsinin - *«uluğ»* adlandığını və müharibə zamanı mərkəz hissədən önə göndərilən qoşuna *«mənqəlay»* deyildiyini qeyd edir [347, 307; 210, 62]. Lakin Fəzlullah ibn Ruzbihan Xunci öz əsərində ordunun mərkəz hissəsinin həm də *«qul»* adlandığını göstərir [68, 54].

Qaraqoyunlularda hassa ordusunun əsgəri hissəsi: ***puşandarlardan*** *– ağır silahlanmış zirehli süvarilərdən*, ***tirkəşbəndlərdən*** *– ox atanlardan və qulluqçulardan* ibarət olurdu [205, 28]. Puşandarlar dövrəsi gümüş və ya qızıl suyuna çəkilmiş xırda lövhəciklərdən qayrılmış zirehli paltarlar geyirdilər. Tirkəşbəndlər isə möhkəm dəri paltarlar geyirdilər ki, bunları nə qılınc zərbəsi kəsə bilir, nə də ox deşə bilirdi [146, 95; 398, 79-80].

İ.H.Uzunçarşılı Qaraqoyunlu ordusunun ***zireh, nizə, qılınc, şeşbər (altı dilimli toppuz), xəncər, ox, kaman və kürzlə*** silahlandığını qeyd edir [346, 309; 205, 60]. Həsən bəy Rumlu

bununla yanaşı Qara Yusif və Cahanşah dövründə Qaraqoyunlu döyüşçülərinin əksəriyyətinin zirehli olduğunu və ***kəcim*** adlanan xüsusi döyüş libaslarından istifadə etdiklərini qeyd edir [68, 53, 67, 103; 347, 308; 93, 68]. Əbubəkr Tehrani Qaraqoyunlu ordusunun yaraq-yasağını təsvir edərək yazır: “Mardin ətrafında olan Uzun Həsənə xəbər yetişdi ki, belə bir nəhəng və güclü, yaraq-yasaqlı, qılınclı-qalxanlı, polad və dəmir dənizi kimi olan ordu İraqdan Diyarbəkrə doğru hərəkət etməkdədir” [13, 143; 174[b], 296].

Hərbi yürüşlər zamanı ordu mükəmməl taktikaya əsasən fəaliyyət göstərirdi. Belə hallarda döyüşən hissələr mərkəz, sağ, sol cinahlar və həmçinin ön və arxa dəstələr olmaqla beş yerə ayrılırdılar. Döyüş zamanı düşmənin mühasirəyə alınmasına və ciddi zərbələr endirilməsinə daha çox üstünlük verilirdi. Hərbi hissələr bayraq, təbil, nağara, gəranay və s. ilə təchiz olunurdular [148[A], 328].

Azərbaycan Qaraqoyunlu orduları döyüşə başlamazdan əvvəl ordunun ***“qarovul”*** adlanan müəyyən dəstəsi kəşfiyyata çıxır və bu dəstəyə məşhur əmirlər rəhbərlik edirdi. Qaravulun vəzifəsi düşmənin hərbi qüdrət və vəziyyətini öyrənmək və mümkün olduqda əsir ələ keçirib geri qayıtmaq idi ki, bu əməliyyat mənbələrdə “dil tutmaq” adlanmışdır [165, 111; 91, 70; 93, 55]. Şərəfəddin Əli Yəzdi yazır ki, Qara Yusif Türkman yenidən topladığı türkmanlarla Aladağ ətrafına gəlmişdi, Xoya yürüş etmək istəyirdi. Şahzadə Miranşahın Təbrizdə olan əmirləri və Seyid Əhməd Təzok və Caliq qoşuna birləşdilər. Qoşun müxalifləri darmadağın etməyə üz tutdu. Xoya çatdıqları vaxt xəbər gəldi ki, Qara Yusifin qaravulu Qaradərədədir. Cavanbəxt əmirzadə irəli getdi və elə ki, fateh ordunun kölgəsi Qaradərə üzərinə düşdü, Qara Yusif Türkmanın qaravulu qaçdı [16, 48]. Göründüyü kimi Qaraqoyunlu qaravulları düşmən barədə məlumat toplamaq, lazım gəldikdə “dil tutmaq” məqsədilə yürüş ediləcək bölgəyə göndərilirdi.

Əbubəkr Tehrani qarovulun vəzifəsi haqqında yazır: “Nəhayət qarovul xəbər gətirdi ki, Rüstəm bəy öz yerində dayanıb

və hərəkət etməyə hazırlaşmır. Rüstəm bəyin qarovulunun sayı nəzərdə tutulduğundan artıq olduğu üçün Sahibqranın qarovulu cilovları çəkib geri döndü və vəziyyəti ərz etdi. Onların (Qaraqoyunluların – T.N.) qarovulu isə təpənin üstünə çıxıb Ağqoyunlu ulusunu müşahidə etmək imkanı qazandı və onların kəmiyyət və keyfiyyəti barədə tam məlumat əldə edə bildi" [13, 148; 93, 61]. A.A.Arayancan Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşah Astrabad yaxınlığında baş verən döyüşdə Məhəmmədi Mirzə ilə Əbülfəth bəyi ön qüvvələrin başında göndərmişdir [43, 366; 174[b], 286].

Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Qaraqoyunlu dövləti hərbi istilahları və müəyyən döyüş qaydalarını Teymurilərdən əxz etmişdi. Öz fəaliyyəti dövründə rəqiblərinə qarşı apardığı bütün döyüşləri qələbə ilə başa vuran Əmir Teymurun ordunun quruluşu, döyüş qaydası və qələbəni təmin edən başlıça amillərlə bağlı fikirləri mühüm əhəmiyyət daşıyır. O, yazırdı: "Əsl sərdar odur ki, qırx min atlı hərbçini on dörd bölüyə ayırıb düzə bisin. Əvvəl özünə tabe olan cərgələri nizama düzüb onu qol adlandırsın. Sonra sağ cinahın üç bölüyünü nizamlayıb onların birinə bərangar hiravulu (sağ cinahın ön dəstəsi) adlandırsın. Həmçinin sol cinahın üç hərbi bölüyünü nizama gətirib, onlardan birinin adını cəvangar hiravulu (sol cinahın ön dəstəsi) qoysun. Bu qayda üzrə sağ cinah bölüklərinin yanına daha üç hərbi bölük qoyub onları çapavul adlandırsın, həmin üç bölükdən birini isə çapavulun hiravulu adlandırsın. Bu qayda ilə daha üç hərbi bölüyü nizamla gətirib, onları sol cinah bölüklərinin qarşısında yerləşdirsin və şiqavul adlandırsın. Bu üç bölükdən birini şiqavulun hiravulu təyin eləsin. Bundan sonra qol bölüyünün qarşısında sınanılmış, təcrübəli oxatanlardan, qılıncoynadanlardan, nizətullayanlardan və bahadırlardan ibarət böyük bir ön dəstə düzsünlər. Çünki hiravulun məhz bu bölükləri güclü suran çalıb (urra çəkib) düşmənin qoşununu sındıracaqlar .

Sərdar əvvəlcə böyük hiravul dəstələrini düşmənlə üz-üzə gətirməli və döyüşə buraxmalıdırlar. Bunun da arxasınca böyük hiravula kömək məqsədilə çapavul və şigavul ön bölüklərini

tədricən döyüşə buraxmaq lazımdır. Onların arxasından isə çapavulun birinci bölüyünü və şigavulun ikinci bölüyünü, onların da arxasınca çapavulun ikinci bölüyü ilə şiqavulun birinci bölüyünü döyüşə buraxmaq lazımdır. Əgər düşmənə endirilən bu yeddi zərbədən sonra da qələbə əldə olunmasa, onda sağ və sol cinahların ön dəstələri döyüşə göndərməlidirlər. Bununla düşmənə doqquz zərbə vurulmuş olacaq. Əgər doqquz zərbədən sonra da fəth və zəfər müyəssər olmasa, sağ cinahın birinci bölüyü ilə sol cinahın ikinci bölüyünü döyüşə yeritmək lazımdır. Əgər bu on bir zərbədən sonra da qələbədən səs-soraq çıxmasa, sağ cinahın ikinci bölüyü ilə sol cinahın birinci bölüyü döyüşə buraxılmalıdır. Bu on üç zərbədən sonra düşmənin hərbi bölüklərinin yeniləcəyinə və qələbə çalınacağına ümid bəsləməyə dəyər. Əgər on üç zərbə ilə də fəth və zəfər hasil olmasa, sərdar mərkəzi əsgər bölüklərini döyüşə hazırlayaraq özü də onlarla bərabər düşmən üzərinə yeriməli və mərkəz bölüyü düşmənin gözünə özünü dağ kimi göstərməli, ağır-ağır, bir-birindən aralanmadan hərəkət etməlidir. Döyüş bahadırlarına buyurulmalıdır ki, qılınclarını qından sıyırıb hücüma keçsinlər, oxatanlar isə yaylarından vızıltıyla ox yağdırsınlar. Bu zaman da fəth və qələbəyə qovuşulmasa, sərdarın özü döyüş meydanına çıxmalıdırlar" [3, 104-106; 93, 59-60].

Göründüyü kimi Əmir Teymur tərəfindən müəyyənləşdirilən bu döyüş taktikası ordunun hiravul, şigavul, cəvanğar, bərangar, çapavul və qol hissələrinin iştirakı ilə həyata keçməli, qələbə əldə olunmalı idi. Şübhəsiz ki, Azərbaycan Qaraqoyunlu hökmdarları da ordularına xas döyüş planları və taktikaları hazırlamışlar. Lakin bununla yanaşı onların ordularında da Teymuri hərbi istilahları işlənmiş və ordunun döyüş qabağı düzülüşü yuxarıda göstərildiyi kimi olmuşdur.

Azərbaycan Qaraqoyunlu dövlətində ordu quruculuğuna xüsusi diqqət yetirilirdi. Döyüşdən əvvəl ordunun rəsmi keçidi təşkil olunurdu. F.Sümerin qeyd etdiyi kimi, Qara Yusif Teymuri Şahruxa qarşı döyüşə hazırlaşarkən Təbrizdə orduya rəsmi baxış keçirmişdi. Teymuri tarixçisi Əbdürrəzaq Səmərqəndi bu

ordunun günəşin zərrələri qədər çox və buludun damlaları qədər saysız olduğunu qeyd etsə də, Qaraqoyunlu ordusu əlli min nəfərdən çox olmamışdır [313, 110; 174[b], 291]. A.A.Arayancanın fikrincə, Cahanşah Xorasana yürüş zamanı Reydə dayanmış, ölkənin hər yerindən əsgər toplamaq üçün bukavullar göndərmiş, Əmir Bayəzidlə Məhəmmədi Mirzəyə Reyə dönmələri və orduya baxışı həyata keçirmələri üçün xəbər göndərmişdi. Bu, onun da atası kimi ordunun təşkilinə və təftişinə xüsusi önəm verdiyini göstərir [174[b], 291].

1382-ci ildə Qara Məhəmmədin Naxçıvanda Pir Ömər Naxçivaninin məzarı yaxınlığında 5 minlik qüvvə ilə Cəlairi şahzadəsi Şeyx Əlinin 15-20 minlik qüvvəsini məğlub etdiyi zaman tətbiq etdiyi döyüş taktikası maraq döğurur. Faruq Sümer yazır ki, Qara Məhəmməd beş minliq qoğununu hər birində 300 nəfər olan 30 manqaya ayırmışdı. O, bir manqanı ox ataraq bağlı olduğu dəstənin önündə getmələrini və düşmən hücum edən zaman qaçmalarını təlim etdirmişdi. Bu zaman birliyə məxsus olan digər on nəfər qaçanlara yardım edərək onları qovalayanları ox atəşinə tutaraq düşmənin döyüş nizamını pozacaq, digər birliklər hücuma keçərək düşməni məğlub edəcəkdi. Bu döyüş taktikası Cəlairi şahzadəsinin məğlub olmasına, özü ilə birlikdə ordu başçısı Pir Əlinin və iki minə yaxın əsgərinin öldürülməsi ilə başa çatdı [313, 47].

Qaraqoyunlular döyüş zamanı düşməni çətin vəziyyətə salmaq üçün digər döyüş taktikasından da istifadə edirdilər. F.Sümerin fikrincə, bunlar arasında ən çox xəndək qazmaqla ordunu mühafizə etmək və dairə formasında düzülüşdən istifadə edilirdi [313, 113]. Bununla yanaşı, Qaraqoyunlu hökmdarları döyüşdə düşmənlə qarşı-qarşıya dayanıb atəş açmaq, pusqu qurmaq və yer altında gizlənmək kimi döyüş taktikasını tətbiq edirdilər. A.A.Arayancan yazır ki, Cahanşah Pirbudaq üzərinə yürüş zamanı Bağdadın qala divarlarını mühasirəyə almış, hava isti olduğu üçün əsgərlər torpağı qazaraq yeraltı qazmalara girmişdilər [174[b], 292]. Əbubəkr Tehrani bu barədə yazır: "Cahanşah Mirzə... Xərrəqan və Sultaniyyə yaylaqlarından hərəkət edib

Bağdadı ada kimi mühasirəyə aldı. Çayın üzərində körpü saldı, Məhəmmədi Mirzə və bir sıra əmirlər çayı keçib Bağdadı əhatəyə aldılar. Cahanşah iki il Bağdadın kənarında dayandı. Bu müddətdə orada evlər tikdilər. Bağdadın havası isti olduğu üçün evləri qazma şəklində tikir, günün isti vaxtında həmin yeraltı qazmalara girirdilər" [13, 198].

Qara Yusifin Teymuri sultanı Şahruxun Azərbaycana yürüşü ilə bağlı Osmanlı sultanı I Mehmedə yazdığı məktubunda " ... Əziz oğlum Cahanşahı Sultaniyyəni qoruması üçün yolladım. Güvəndiyim övladlarım Əmir Şah Məhəmməd Bahaduru İsfahan Bahadurla birlikdə bir mənzillik qaravula yolladım, özümdə əlli minlik mükəmməl süvari ilə Təbrizdən Ucana getməkdəyəm. Oğlum Qara İsgəndər 20 min nəfərlə arxada pusquda dayanmışdır" ifadəsini işlətməsi Qaraqoyunluların döyüşdə pusqu qurmaq taktikasından da istifadə etdiyini göstərir [34, 158; 9, 195; 174[b], 292].

Türkiyə tarixçilərinin araşdırmalarında Qaraqoyunlu ordusunun sayı ilə bağlı müəyyən fikirlər vardır. Faruq Sümerin qeyd etdiyi kimi, 1382-ci ildə Qara Məhəmmədin 5 minlik qüvvəsi vardısa, 1383-cü ildə artıq 12 minə çatmışdı [313, 47-48; 210, 73; 174[b], 288-289]. İlhan Erdəmin fikrincə, 1405-ci ildə Dəməşq zindanından azad olan Qara Yusif Mosula və Van gölü bölgəsini nəzarət altına aldığı zaman onun ətrafında 10 minlik qüvvə toplanmışdır [210, 74; 174[b], 289]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Qara Yusif Ərzincana Qara Yülük Osmana qarşı mübarizədə Pir Ömərin yardımına divan əmiri Bayram bəyi, Baba Haçı bəyi, Bayəzid Ayinlunu və Əmir İlyas Hacılını 20 min atlı ilə göndərmişdi [13, 63]. Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Qara Yusif Şahruxa qarşı döyüşə Təbrizdən 50 minlik süvari ilə hərəkət etdiyi kimi, oğlu İsgəndərin rəhbərliyi altında 20 minlik süvarini pusquda yerləşdirmişdi [313, 47; 174[b], 289].

Qaraqoyunlu İsgəndər dövründə də Qaraqoyunlu süvari ordusu 50 min nəfər idi. 1429-cu ildə Salmas döyüşündə Teymuri sultanı Şahruxun 200 minlik ordusuna qarşı İsgəndərin 50

minlik süvari ordusu vuruşmuşdur [313, 128; 169, 19; 174[b], 289]. Cahanşah dövründə Qaraqoyunlu ordusu sayca daha da artmışdı. Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanan A.A.Arayancan yazır ki, 1459-cu ildə Cahanşah oğlu Həsənəli üsyan qaldırdığı üçün Heratı tərk edərək Damğan və Simnan üzərindən sürətlə Azərbaycana hərəkət etdiyi üçün orduda olan 20 min dəvə, 10 min at və qatır tələf olmuşdu [13, 190; 174[b], 289]. M.X.Yınancın ffikrincə, Cahanşah dövründə Qaraqoyunlu ordusu sayca artıq 100 minə çatmışdı. Bağdad səfərindən Təbrizə qayıdan Cahanşah Heratdan Nişapura gələn Teymuri Sultan Məhəmmədi yola gətirmək üçün ona qiymətli hədiyyələrlə elçi göndərdi, əvvəlcə tək bir atlı olduğu halda, bugün 100 min atlıya komandanlıq etdiyini bildirmişdir [358, 175; 174[b], 290].

Azərbaycan Qaraqoyunlu ordusunda yardımçı qüvvələr də iştirak edirdi. Bunlar arasında ordunun təchizatını, yardımçı işləri həyata keçirən quşçu, parsçı, dəvəçi, qazmaçı, yamçı, mətbəx xidmətçiləri, ordu içərisində yüksək zümrəyə mənsub qadınlar və qadın xidmətçilər var idi [43, 319; 346, 75, 79; 174[b], 290]. Əbubəkr Tehrani yazır ki, Cahanşah Padşah qoşununun təvaçisi və böyük əmirlərdən biri olan Seyid Əhməd Tuqçini İsfahanın divarlarını uçurmaq üçün ora yolladı. O, vilayətdən bel və külüng ilə təmin olunmuş əlli minə yaxın adam topladı və İsfahan divarlarını dağıtdı [13, 176]. Bu bir daha göstərir ki, ehtiyac yarandıqda Qaraqoyunlu hökmdarı orduya kifayət qədər xidmətçiləri cəlb edə bilmişdi.

İ.H.Uzunçarşılı orduda ***təbil, nağara, böyük nağara, nəfir, zurnadan ibarət təbilxana və nağaraçılar heyətinin*** olduğunu da qeyd edir. Hücum vaxtı ***kərənay*** *(uzun zurna),* qələbə qazanılanda isə ***nağara*** səsləndirilirdi [347, 309]. Həsən bəy Rumlunun verdiyi məlumata görə, döyüş zamanı təbilçilər dəstəsi ordunun ruh yüksəkliyini qaldırmağa çalışırdı. Qaraqoyunlu İsgəndərlə Şahrux arasında baş verən Aləşgərd döyüşündə 50 minlik Qaraqoyunlu ordusu 200 minlik Cığatay ordusunu məğlub etməyə yaxınlaşdığı bir dövrdə Əmir Şah Məliyin əmri

ilə Qaraqoyunlu İsfahan Mirzənin əsir alındığı xəbərinin yayılması ilə bağlı nağaraçılar güclü təbillər çalmışdılar. Bu xəbəri eşidən Qaraqoyunlu ordusunun qələbə əzmi qırılmış və pərişan olmuşdu. Bu, döyüşü uduzmaq ərəfəsində olan Sultan Şahruxun qələbə qazanmasına şərait yaratmışdır [43, 144; 174[b], 298].

# II FƏSIL
# AZƏRBAYCAN QARAQOYUNLU DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

## *II. 1. Qaraqoyunlu - Ağqoyunlu münasibətləri*

Qaraqoyunlu-Ağqoyunlu münasibətləri tarixinin dərindən araşdırılmasının tarixşünaslığımız üçün əhəmiyyəti böyükdür. Bu məsələyə Vətən tarixşünaslığında geniş toxunulmasa da, Türkiyə tarixçilərinin tədqiqatlarında xüsusi olaraq araşdırmışdır. Hər iki tayfa birliyi «türkman» adlanan etnik qrupa mənsub olmuşdur. XV əsrdə onlar Azərbaycanda bir-birini əvəz edən müstəqil dövlətlərin əsasını qoymuşdular. Bu tayfa birlikləri arasında qədim dövrlərdən yaranmış münasibətlər XV əsrdə daha yüksək siyasi məcrədə davam etmişdir.

Qaraqoyunlu və Ağqoyunlularla əlaqədar olaraq tədqiqat aparmış Türkiyə tarixçiləri həmin tayfalar arasındakı qarşılıqlı əlaqələri də araşdırmışlar. Faruq Sümer yazır ki, qaynaqların çoxunda bu iki türkman tayfası arasında qədim ədavətin olduğu göstərilirsə də, bunun səbəbi aydınlaşdırılmır. Dəfələrlə onlar arasında baş verən bu əski düşmənçiliyə səbəb ərazi ixtilafları və ya üstünlük uğrunda mübarizə olmuşdur [314, 49; 138, 100]. Bu fikri müəyyən mənada İ.P.Petruşevski də müdafiə edir. O, qeyd edir ki, XIV əsrin sonunda bu iki tayfa birliyi arasında baş verən münaqişələrə səbəb yeni torpaqlara, otlaqlara və hərbi qənimətə yiyələnmək istəyi olmuşdur [419, 236]. Türkiyə tarixçisi M.X.Yınanç Ağqoyunlularla Qaraqoyunlular arasında mübarizənin başlanması tarixini daha əvvələ aparır. Onun fikrincə, bu «iki tayfa arasındakı düşmənçilik XIV əsrin 30-cu illərində başlanmışdır. Süqut etmiş Elxanilər dövlətinin xarabalıqları üzərində bir-biri ilə mübarizəyə başlayan Cəlairi, Çobani və Sutay xənadanlarının qovğalarında iştirak edən bu iki tayfadan

Qaraqoyunlular İraqdakı Cəlairi ailəsinin, Ağqoyunlular isə bu ailəyə düşmən kəsilən və Mosul-Diyarbəkr bölgəsinə hakim olan Sutayoğullarının xidmətinə girərək bir-birinə qarşı mübarizə aparmışlar [359, 258; 190, 76; 138, 100]. Sutayoğullarının Cəlairilərə qarşı uzunmüddətli mübarizəsi bu iki düşmən tərəfin yanında xidmətdə olan, eyni kökdən və soydan yaranmış qaraqoyunluların və ağqoyunluların bir-birinə düşmən kəsilən iki zümrə halına düşməsinə səbəb olmuşdur [228, 489]. Diyarbəkr valisi olan Sutayın (1332-ci ildə vəfat etmişdir) oğlu Hacı Tuğay ilə nəvəsi İbrahimşah arasında Mosuldan Ərzuruma qədər geniş əyaləti ələ keçirmək uğrunda mübarizə zamanı Qaraqoyunlular Hacı Tuğayı, Ağqoyunlular isə İbrahimşahı müdafiə etdiyi üçün Mosul-Ərzurum bölgəsi Qaraqoyunluların, Diyarbəkr vilayəti Ağqoyunluların nəzarətində qalmışdı [163, 40-41; 344, 24; 191, 132 ]. Faruq Sümer belə nəticəyə gəlir ki, bu iki qardaş türkman tayfası arasındakı «qədim ədavətin» əsası Hacı Tuğayla İbrahimşah arasındakı qanlı düşmənçilikdən başlanmışdır [313, 49].

İ.H.Uzunçarşılının fikrincə, Qaraqoyunlularla Ağqoyunlular arasındakı qədim düşməşçiliyin səbəblərindən biri də aralarındakı məzhəb fərqidir. Qaraqoyunluların şiə məzhəbində olması Ağqoyunluları və digər sünni məzhəbli dövlətləri onların düşməni etmişdir [346, 186; 350, 359]. Həmin fikri V.A.Qordlevski [386, 9], İ.P.Petruşevski [416, 107] və Ş.F.Fərzəliyev [91, 89] də müdafiə edir. Ancaq Faruq Sümer qeyd edir ki, XV-XVI əsrin fars, ərəb və türkdilli mənbələrində Qaraqoyunluların şiə təriqətində olması haqqında heç bir qeydə rast gəlinmir. Buna görə də onları şiə təriqətli hesab etmək doğru deyildir [307, 304]. V.Minorskinin qənaətinə görə, Qaraqoyunlularla Ağqoyunlular arasındakı düşmənçiliyin Qaraqoyunluların şiə və Ağqoyunluların isə sünni olmasından yarandığını göstərməyin heç bir əsası yoxdur [265, 91; 138, 101]. Bunu, Qaraqoyunluların Osmanlı dövləti ilə dost münasibətdə olması faktı da sübut edir.

XIV əsrin 70-ci illərinin sonunda Bayram Xocanın rəhbərliyi altında Qaraqoyunlular Azərbaycanın cənub-qərb torpaqlarını – Xoy, Naxçıvan və Sürməli bölgəsini ələ keçirdi və Cəlairi

hökmdarına vergi ödəməkdən imtina etdilər [313, 41; 314, 146; 246, 51; 372, 338 ]. 1380-ci ildən Qaraqoyunlu tayfa birliyinə Bayram Xocanın qardaşı oğlu Qara Məhəmməd (1380-1389) rəhbərlik etməyə başladı. Qara Məhəmməd bacarıqlı şəxs idi. O, Qaraqoyunlu tayfa ittifaqının həm daxili, həm də xarici vəziyyətində ciddi dönüş yarada bildi. O, Cəlairi hökmdarı Sultan Hüseynin (1374-1382) ölümündən sonra dövlətin daxilində getdikcə kəskinləşən mübarizədən məharətlə istifadə edərək Qaraqoyunlu tayfa ittifaqını daha da möhkəmləndirdi. Qara Məhəmməd Sultan Əhmədin Cəlairi taxt-tacına yiyələnməsinə yardım etdi. O, Cəlairi dövləti ilə Qaraqoyunlu tayfa birliyi arasındakı gərginliyi aradan qadırdı. Sultan Əhməd Qara Məhəmmədi Qaraqoyunlu tayfa ittifaqının başçısı kimi tanıdı və onun həyata keçirdiyi tədbirlərə mane olmadı [197, 1766; 138, 101].

Ağqoyunlu hakimləri Qaraqoyunlu tayfa birliyinin getdikcə güclənməsi ilə heç cür razılaşa bilmirdilər. Onlar rəqibin mövqeyini zəiflətmək üçün qonşu ərazilərə vaxtaşırı hücumlar edirdilər. XIV əsrin sonlarında Ərzincana sahib olmaq uğrunda iki tayfa birliyi arasında şiddətli mübarizə gedirdi. F.Sümer və Y.Yücel belə hesab edirlər ki, Ağqoyunlulara məğlub olan Ərzincan hakimi Mütahərtən kömək üçün Qara Məhəmmədə müraciət etdi. O, Qaraqoyunlular və Ağqoyunlular arasında əski düşmənçiliyə sadiq qalaraq Mütəhərtənin təklifinə razılıq verdi [313, 49; 364, 195, 272]. Mütahərtən ilə birləşən Qara Məhəmməd Ağqoyunlu Əhmədi ağır məğlubiyyətə uğratdı. F.Sümer qeyd edir ki, bu qələbə o qədər təsirli idi ki, ağır itkilər verən Ağqoyunlular Sivas-Kayseri hökmdarı Qazi Bürhanəddinin himayəsinə sığınmağa məcbur oldular [313, 49; 138, 101].

1389-cu ildə Ağqoyunlu hökmdarı Bayandur tayfasının başçısı Qutluq bəyin ölümündən sonra onun üç oğlu - Əhməd, Pir Əli və Qara Yülük Osman arasında səltənət uğrunda mübarizə başlandı. İlk mərhələdə üstünlük qazanan Əhməd və Pir Əli qorxulu hesab etdikləri Qara Yülük Osmanı məğlub etdilər və onu zindana saldılar. Lakin tezliklə Qaraqoyunlu Qara Yusif böyük qüvvə ilə Ağqoyunlu torpaqlarına hücum etdi və Qara

Yülük Osman həbsdən azad edildi. O, Qaraqoyunlular əleyhinə təşkil olunan qoşunun başında durdu. Qara Osmanın Qaraqoyunlular üzərində qələbə qazanması onun Ağqoyunlu tayfa ittifaqının başçısı kimi Diyarbəkrdə öz mövqeyini möhkəmləndirməsinə şərait yaratdı [364, 194; 138, 101-102].

XIV əsrin II yarısında Azərbaycanın cənub-qərb torpaqlarında yaranan Qaraqoyunlu tayfa ittifaqını xeyli möhkmələndirən Qara Məhəmməd öz ərazisini genişləndirmək, ilk növbədə Azərbaycan torpaqlarında möhkəmlənmək üçün tədbirlər hazırlamağa başladı. Dövrün mənbələrinin verdiyi məlumata görə, Qaraqoyunlular Əmir Teymurun Azərbaycanı işğal etməsindən sonra yaranmış vəziyyətdən istifadə edərək 1388-ci il mayın 25-də Təbriz şəhərini ələ keçirdilər. Lakin onlar burada möhkəmlənə bilmədilər və tezliklə şəhəri tərk etməli oldular [5, 58-59].

Əmir Teymurun Azərbaycanı işğal etməsi dövründə Qaraqoyunlularla Ağqoyunlular arasındakı münasibətlər daha da kəskinləşdi. Əmir Teymur Azərbaycan uğrunda mübarizədə Qara Məhəmmədin ciddi müqaviməti ilə qarşılaşdı. Şərəfxan Bidlisi qeyd edir ki, «Qara Məhəmmədin fəsadını yatırmaq üçün» Azərbaycanın cənub torpaqlannda Teymurla Qaraqoyunlular arasında dəfələrlə böyük toqquşmalar baş verdi» [59, 91; 138, 102]. Ağqoyunlu hökmdarı Qara Yülük Osman həm Osmanlı dövləti ilə, həm də Qaraqoyunlularla düşmən münasibətdə idi və buna görə də Əmir Teymurla yaxınlaşmağa üstünlük verdi [364, 76]. Qara Yülük Osman Sivaş uğrunda döyüşdə Osmanlılara məğlub oldu və Ərzincan hakimi Mütahərtən vasitəsi ilə Əmir Teymurun hüzuruna gedərək Cığatay hökmdarının hakimiyyətini qəbul etdi [317, 9; 364, 194; 190, 83]. Əmir Teymur itaətsizlik göstərən Qaraqoyunlulara qarşı mübarizədə Ağqoyunlulardan istifadə etdi və onlar arasında qədim düşmənçiliyi daha da qızışdırdı. Qaraqoyunlularla Ağqoyunlular arasındakı düşmənçilik Teymurun hərbi səfərləri dövründən başlayaraq müxtəlif təmayüldə zahirə çıxdı. Qaraqoyunlular Əmir Teymurun düşməni, Ağqoyunlular isə onun müttəfiqi oldu [146, 64; 138, 102].

M.Seyfəddininin fikrincə, Qara Məhəmməd əmir Pir Hüseyn tərəfindən öldürüldükdən sonra iki tayfa arasındakı mübarizə daha da kəskinləşdi [430, 127]. Ancaq M.X.Yınanç bu barədə yazır: «Əbubəkr Tehrani Qara Məhəmmədin Pir Həsən tərəfindən öldürüldüyünü, Qara Məhəmmədin oğlu Qara Yusifin atasının intiqamını almaq üçün Qara Yülük Osmandan yardım istədiyini, Qara Osmanın öz oğlu İbrahim bəyi bir qədər qüvvə ilə Qara Yusifə yardıma göndərdiyini bildirir» [357, 255]. Bu fakt bir daha sübut edir ki, aralarındakı düşmənçiliyə baxmayaraq, müəyyən məqamlarda tərəflər bir-birinə yardım göstərməkdən də imtina etməmişlər. Lakin nəzərə almaq lazımdar ki, bu hadisə 1389-cu ildə Ağqoyunlu tayfa ittifaqında Qara Yülük Osmanın qardaşları ilə rəhbərliyi ələ keçirmək uğrunda gərgin mübarizə apardığı dövrə təsadüf edir [138, 102].

Əmir Teymurun Azərbaycanı tərk etməsindən istifadə edən Qara Yusif yenidən Azərbaycanda möhkəmlənməyə təşəbbüs göstərdi. Dövrün mənbəsinin təsdiq etdiyinə görə, Qaraqoyunlu Qara Yusif 1390-1392-ci illərdə bir neçə dəfə Təbriz şəhərini ələ keçirmişdi. Lakin o, Əmir Teymurun Azərbaycana yeni yürüş xəbərini alaraq oranı tərk etməli olmuşdu [Bax: 5, 56-58; 138, 102].

Qara Yusif Cəlairi Sultan Əhmədlə birgə Əmir Teymurun qoşunlarına qarşı mübarizə apardı, lakin heç bir nəticə əldə edə bilmədi. Onlar Teymurun zərbələri altında məğlub oldular və Osmanlı Sultanı İldırım Bayəzidin himayəsinə sığındılar [313, 62]. Osmanlı Sultanı Teymurun hücum təhlükəsi qarşısında Qara Yusiflə Sultan Əhmədin yardımından faydalanmaq məqsədilə onları himayə etdi. Lakin Teymurun Kiçik Asiyaya hücumu ərəfəsində Qara Yusif Osmanlı Türkiyəsini tərk etdi [138, 102-103].

Əmir Teymur İldırım Bayəzidə qarşı hərbi yürüşlərində iştirak edən Qara Yülük Osmanın Osmanlı qoşunları əleyhinə mübarizədə göstərdiyi yaxşı döyüş nümunələrini nəzərə alaraq Diyarbəkr vilayətinin hakimliyini ona verdi [79, 136; 364, 284]. Teymurun Azərbaycanı tərk etməsindən sonra Qara Yülük Os-

man Diyarbəkr ətrafındakı şəhərləri, qalaları ələ keçirdi və öz dövlətini möhkəmləndirməyə başladı. Mənbələrin qeyd etdiyinə görə Ərzincan hakimi Mütahərtənin ölümündən (1403) sonra Ərzincan və Bayburta sahib olmaq uğrunda Qaraqoyunlu Qara Yusiflə Ağqoyunlu Qara Osman arasında şiddətli mübarizə başlandı [36, 95].

1405-ci ilin yanvar ayında Dəməşqdə Şam naibi Şeyx Mahmudi tərəfindən həbsdən azad edilən Qara Yusif ətrafındakı Qaraqoyunlularla Şeyx Mahmudinin Misir sultanı Fərəcə qarşı mübarizəsində iştirak etdi. Lakin o, məğlubiyyətə uğrayaraq vətəninə qayıtmalı oldu [313, 67; 167, 2]. Teymur artıq ölmüşdü və Azərbaycanda onun xələfləri arasında şiddətli mübarizə başlamışdı. 1405-ci ilin qışını Mosulda keçirən Qara Yusif baharda Mardin ətrafına gəldi. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Qara Yusif Ağqoyunlu Qara Osmanla yenidən qarşılaşmamaq, aralarında mövcud olan ədavəti unutmaq, münasibətləri qaydaya salmaq məqsədilə ona məktub göndərdi. Qara Yusif yazırdı: «Bizim hər ikimiz türkmanıq. Gəl bundan sonra bir-birimizin üzərinə hücum etməyək, bir-birimizi qırmayaq. Yaxşı olar ki, bizim hər birimiz Rumdan və Cığataydan olan düşmənlərimizə qarşı döyüşsün» [50, 58-59; 190, 85]. Güman etmək olar ki, Qara Osman Qara Yusifin bu təklifi ilə razılaşmamışdı. Çünki, Faruq Sümer və Osman Turan qeyd edirlər ki, Qara Yusif 1406-cı ilin baharında Mardin ilə Hısn-Keyfə arasındakı Takı adlanan yerdə Ağqoyunlu Qara Yülük Osmanla qarşılaşmış və baş verən nəticəsiz döyüşdən sonra tərəflər arasında sülh bağlanmışdı [341, 198; 138, 103].

Qara Yusif Şərqi Anadoluya qayıdaraq Van və Bidlis hakimlərinə öz hakimiyyətini qəbul etdirdi, sonra isə Ərzurum yaxınlığındakı Avnikə doğru hərəkət etdi. O, Azərbaycandan ayrılarkən Teymurdan «Türkman Qara Yusifə qarşı durmaq» tapşırığını alan Avnik hakimi Əmir Doladaydan qalanı almağa müvəffəq oldu [161, 61].

1408-ci il aprelin 21-də Qara Yusif Sərdrudda Əbubəkr üzərində qələbə qazandı və Təbriz şəhəri paytaxt olmaqla Azər-

baycan Qaraqoyunlu dövlətinin əsasını qoydu. Azərbaycanın cənub torpaqlarında möhkəmlənə bilən Azərbaycan Qaraqoyunlu hökmdarı Ağqoyunlu bəyliyinin getdikcə güclənməsini böyük təhlükə hesab edirdi. O, bu bəyliyi zəiflətməyə çalışırdı. Mardin şəhərinə yiyələnmək uğrundakı mübarizənin gedişində Qaraqoyunlu-Ağqoyunlu münasibətləri yenidən kəskinləşdi. Qara Yusifin Teymuri şahzadəsi Əbu Bəkrə qarşı mübarizə aparmasından istifadə edən Ağqoyunlu Qara Osman öz qüvvələrini Mardin üzərinə yönəltdi. O, zəifləmiş olan Artukoğullarının nəzarətindəki Mardin şəhərini ələ keçirmək fikrində idi. Mardin hakimi Məlik Saleh şəhərin Ağqoyunlular tərəfindən mühasirəyə alındığını görərək Qara Yusifdən yardım istədi. 1409-cu ilin baharında Muş düzündə bu xəbəri alan Qara Yusif Amid şəhəri ətrafına gələrək Ağqoyunlu Qara Osmanı məğlubiyyətə uğratdı və onu qaçmağa məcbur etdi [357, 258; 362, 622; 313, 79; 165, 46; 341, 198; 190, 85-86].

Beləliklə, tərəflər arasındakı növbəti münaqişə də Qaraqoyunluların qələbəsi ilə başa çatdı. Türkiyə tarixçiləri Qaraqoyunlu-Ağqoyunlu münasibətlərini araşdırarkən daha çox tərəflər arasındakı hərbi toqquşmalara geniş yer vermişlər. Lakin onlar bu toqquşmaların səbəblərini izah etməkdən çəkinirlər. 1411-ci ildə ikinci dəfə Amid şəhəri önünə gələn Qara Yusif şəhərin ətrafını talan etdi və Ərqani qalası ətrafında Qara Osmanla şiddətli döyüşə girdi. Bu döyüşdə də Ağqoyunlu hökmdarı məğlub oldu [357, 258; 313, 90; 138, 104]. Faruq Sümer qeyd edir ki, Ağqoyunlu hökmdarı növbəti dəfə məğlub olmasına baxmayaraq, özünü Qaraqoyunlu hökmdarı qarşısında qorxudulmuş kimi göstərmədi [317, 11]. Bu onunla bağlı idi ki, Ağqoyunlu hakimini yalnız Cığatay hökmdarı Şahrux deyil, habelə Məmlük sultanı da müdafiə edirdi.

Bununla belə, Qara Yusif başlıca rəqibləri olan Teymuri hakimlərini, ardınca isə Cəlairi Sultan Əhmədi məğlubiyyətə uğradaraq Azərbaycanda siyasi hakimiyyəti ələ aldı. Azərbaycan Qaraqoyunlu dövlətinin yaranması ilə Teymurilər onu daha təhlükəli qonşu kimi dəyərləndirdilər. Bu dövrdə Sultan Şahrux da

hökmdarı olduğu Teymurilər dövlətinin hüdudlarını qonşu ölkələr hesabına genişləndirməyə cəhd edirdi [91, 92; 138, 104].

Əcəm İraqının Teymurilər dövlətinə birləşdirilməsi Qaraqoyunlu dövləti üçün təhlükə törədirdi. Ağqoyunlu hökmdarı Qara Osman da Qaraqoyunlu dövlətinin torpaqlarını ələ keçirmək iddiasından əl çəkməmişdi. O, hər vasitə ilə Qaraqoyunluların vəziyyətini gərginləşdirməyə çalışırdı. O, Teymurilərlə ənənəvi dostluq əlaqələrini bərpa etdi. Qara Osman qatı düşməni olan Qara Yusifə qarşı mübarizədə Şahruxun yardımından istifadə etmək istəyirdi [430, 170]. Şahruxu Qara Yusifə və Osmanlı sultanı I Mehmedə qarşı müharibəyə təhrik etmək üçün onun göndərdiyi məktubu da bunu sübut edir. Məktubda deyilirdi: «Biz özümüzün az miqdarda olan qoşunumuzla Azərbaycan və Rum hakimlərindən qorxub çəkinmirik. Sizin gəlişinizi gözləyirik. Qara Yusif Türkmanın qüdrət və taqəti onun sizin qulamlarınızın birinə qarşı (yəni Qara Osmana-T.N.) çıxması üçün kifayət qədər deyildir. Təkcə Qara Yusif deyil, həmçinin Rum və Şam da sizin hücumunuzla alınar. Bütün Anadolu bəyləri ilə Bizans, Trabzon Rum imperatorları, gürcü məlikləri, Şirvan, Gilan, Luristan hakimləri sizin fərmanınıza baş əyməyə hazırdır» [9, 180-184]. Ağqoyunlu Qara Osmanın Şahruxa göndərdiyi məktub Qara Yusif tərəfindən ələ keçirildi. Bununla da o, Ağqoyunlu hökmdarının gizli niyyətindən xəbər tutdu və ona qarşı qəti tədbirlər görməyə qərar verdi. 1417-ci ildə Qara Yusif Ağqoyunlu Qara Osman üzərində yeni qələbə qazandı. Tərəflər arasında sülh bağlandı. Sülh müqaviləsinə görə, Qara Osman Mardinin şimal-şərqindəki Sağur qalasını Qara Yusifə təslim etdi və əvəzində 1 mln dirhəm pul, 100 at və dəvə aldı [313, 97; 138, 104]. Lakin tərəflər arasındakı sabit münasibətlər uzun çəkmədi. 1418-ci ilin may ayında Qara Osman Şahruxun təhriki ilə sülh müqaviləsini pozdu və Mardin üzərinə hücuma keçdi. Bu xəbəri eşidən Qara Yusif Qara Osman üzərinə yürüş etdi və onu Amid ətrafında məğlub edə bildi. Qara Osman Hələb torpaqlarına qaçdı. Onu təqib edən Qara Yusif Ağqoyunlu hökmdarını 1418-ci il sentyabrın 20-də Fərat çayının sağ sahilində

Mərcidabıkda ağır məğlubiyyətə uğratdı. Qara Osman Hələb şəhərinə qaçmaqla xilas ola bildi [362, 622; 313, 99; 190, 87]. Ağqoyunlu hakiminin Məmlük sultanının torpaqlarında sığınacaq tapması Qara Yusifi qəzəbləndirdi və Qaraqoyunlular tərəfindən Antəp və Birəciyin qarət olunmasına səbəb oldu.

Bundan sonra Qaraqoyunlularla Ağqoyunlular arasındakı münasibətlər daha gərgin məcrada davam etdi. 1420-ci ildə Qara Yusifin Ərzincandakı əmiri Pir Ömər Qara Osmanın oğlu, Kəmax qalasının hakimi Yaqubun üzərinə hücum etdi. Yaqub məğlub edildi və əsir alınaraq Təbrizə göndərildi [313, 101-102; 317, 12]. M.Seyfəddini eyni qaynaqdan istifadə etməsinə baxmayaraq, bu hadisənin 1418-ci ildə baş verdiyini qeyd edir [313, 101-102; 317, 12; 322, 79]. Lakin tezliklə Ağqoyunlu hökmdarı Qara Osman bütün qüvvələrini topladı. Ərzincan əmiri Pir Ömərdən intiqam almaq və onun Qara Yusifin göndərdiyi qüvvələrlə birləşməsinə imkan vərməmək üçün Topğan vadisində düşmənə hücum etdi. Baş vermiş döyüşdə Pir Ömər məğlub oldu. Onun oğlanları, yaxınlarından 24 nəfər əsir düşdü və o, Qara Osman tərəfindən öldürüldü [430, 171; 138, 105].

Qara Yusif Şahruxun Azərbaycana yürüş xəbərini aldığı üçün düşmən üzərinə nəzərdə tutduğu yürüşü təxirə saldı. Şahruxun Azərbaycana yürüşünü və Qara Yusifin ölüm xəbərini eşidən Ağqoyunlu Qara Osman yaranmış vəziyyətdən faydalanaraq öz ərazilərini genişləndirmək qərarına gəldi. O, Mardin şəhəri üzərinə hücum etdi, lakin öz məqsədini gerçəkləşdirə bilmədi. 1421-ci ilin mart-aprel* aylarında Qaraqoyunlu İsgəndərlə Ağqoyunlu Qara Osman arasında Nusaybin ətrafında Şeyx kəndi yaxınlığında baş verən şiddətli döyüşdə Qara Osman ağır məğlubiyyətə uğradı və döyüş mövqeyindən qaçmaq məcburiyyətində qaldı [313, 101-102; 317, 12; 314, 250; 190, 89]. Qaraqoyunlu İsgəndər bu döyüş haqqında Osmanlı sultanı I Mehmedə məktubunda yazırdı: «...Gözlənilmədən Özbək əmir-

---

* İ.P.Petruşevski bu döyüşün 1421-ci ilin mayında baş verdiyini göstərir [Bax: 146, 60].

lərinin yazdığı məktubu aparan casusu ələ keçirtdim. Məlum oldu ki, Qara Osman əski ədavəti təzələyərək özbəklərlə ittifaqa girərək bizə pusqu qurmaq, zərər yetirməklə məşğuldur... mən də bir casus yollayıb öyrəndim ki, Osman ... bizə tərəf gəlməkdədir . Biz on min süvari ilə gecə ona basqın etdik. Düşmənin ... 20 mindən çox adamı qırıldı. Onun Təvaçisi Əhməd bəyin başını Cəmşid Ağa Əfşarla sizə göndərdim ki, qədim dostluğumuzu və səmimi məhəbbətimizi unutmayasınız» [9, 216; 138, 105].

Aldığı ağır məğlubiyyətdən sonra çətin vəziyyətə düşən Ağqoyunlu Qara Osmanın yardımına Teymuri sultanı Şahrux gəldi. Ağqoyunlu hakimi öz düşmənindən intiqam almaq məqsədi ilə Van gölü ətrafında olan Şahruxun yanına elçi göndərərək onun yardımından faydalanmaq üçün onu Qaraqoyunlularla qəti döyüşə sövq etməyə çalışdı. İsmayıl Aka qeyd edir ki, Qara Osman hər iki türkman tayfası (Qaraqoyunlular və Ağqoyunlular nəzərdə tutulur - T.N.) arasındakı düşmənçiliyi davam etdirmək, onu məğlub etmiş İsgəndərdən intiqam almaq məqsədilə Şahruxu Qaraqoyunlulara qarşı qızışdırdı və qeyd etdi ki, «Qara Yusifin tərəfdarları tamam məhv edilməsələr, ölkədə qayda-qanun bərpa olunmayacaq və əhalinin vəziyyəti yaxşılaşmayacaq» [167, 14; 138, 105]. Bu fikrə şərik çıxan Şahrux Qaraqoyunlu mirzələrinin dəfələrlə etdikləri sülh təklifini qəbul etmədi və onlarla döyüşə girməyə qərar verdi. 1421-ci il iyulun 30-dan avqustun 1-nə kimi Aləşkərd düzündə Sultan Şahruxla İsgəndər arasında baş verən döyüşdə Qaraqoyunlular qəhrəmançа vuruşmalarına baxmayaraq sayca üstün olan Cığatay ordusunun təzyiqi altında döyüş mövqeyini tərk etməli oldular [167, 14; 313, 121-122; 190, 90]. Ağqoyunlu Qara Osmanın bu döyüşdən sonra ən mühüm qələbəsi Ərzincanı ələ keçirməsi olmuşdu [317, 12; 138, 105].

Şahrux Azərbaycan hakimliyini Qaraqoyunlulara düşmən olan Qara Osmanın oğlu Əli bəyə verdikdən sonra ölkəni tərk edib Xorasana qayıtdı [313, 124; 165, 63; 190, 90; 91, 95-96]. Qara Osmanın Osmanlı sultanı II Murada göndərdiyi məktub da Şahruxun Azərbaycan hakimliyini Ağqoyunlulara verməsini

sübut edir [Bax: 9, 226-227]. Azərbaycanın idarəsinin düşmən tayfa nümayəndəsinə verilməsi Qaraqoyunlularla Ağqoyunlular arasında mövcud olan gərgin münasibətləri daha da qızışdırdı [91, 96; 138, 105]. Şahruxun Azərbaycanı tərk etməsindən xəbər tutan Qaraqoyunlu İsfahan Mirzə Təbriz üzərinə hərəkət etdi. Ağqoyunlu Əli bəy Diyarbəkrə qaçdı. Təbriz İsfahan Mirzənin əlinə keçdi. Lakin qardaşı İsgəndərin Təbrizə hücum xəbərini alan İsfahan Mirzə şəhəri tərk etməyə məcbur oldu və İsgəndər Azərbaycan taxtına əyləşdi [138, 106].

Qaraqoyunlularla Ağqoyunlular arasındakı münasıbətlər Şahruxun Azərbaycana növbəti yürüşləri zamanı daha da gərginləşdi. Mənbələrin qeyd etdiyinə görə, Şahruxun Azərbaycana yürüşündə Ağqoyunlu Qara Osmanın xidməti az olmamışdı [42, 611]. Göründüyü kimi, Qara Osman bir tərəfdən Teymuri sultanını Qaraqoyunlulara qarşı mübarizəyə sövq etdi, digər tərəfdən də, Qaraqoyunlu hökmdarının başının Teymurilərə qarşı mübarizəyə qarışmasından istifadə edərək Şərqi Anadoluda öz mövqeyini daha da möhkəmləndirdi. M.Ə.Çaxmaq yazır ki, Qara Osman Aləşkərd döyüşündən sonra Ərzincanı Mütahərtənin oğlu Yar Əlidən almış, Urfanı Döğər Yağmur bəydən alaraq Nur Əli bəyə vermiş, Bayburd və Tərcan bölgəsini də ələ keçirərək yaxın adamlarına tapşırmışdır. O, uzun mühasirədən sonra Xarputu da ələ keçirdi. Bu, Məmlüklərin Hələb valisi Tağrıvermişin Urfa üzərinə yürüşünə yol açdı, şəhər qarət olundu və Qara Osmanın oğlu Habil əsir alınaraq Qahirəyə göndərildi. 1432-ci ildə Qara Osman uzun müddət Qaraqoyunlularla münaqişə obyekti olan Mardini Qaraqoyunlu valisi Nurəddindən aldı. O, 1434-cü ildə İsgəndərin Şirvana yürüşündən istifadə edərək Ərzurumu da ələ keçirərək oğlu Şeyx Həsənə verdi [190, 91]. Şirvanşah Xəlilüllahın və Ağqoyunlu Qara Osmanın təkidli tələbləri Teymuri sultanının Azərbaycana növbəti yürüşünə səbəb oldu.

1435-ci ildə Şahruxun Azərbaycana yürüş edərək Təbrizə yaxınlaşdığını görən İsgəndər Anadoluya çəkildi. Şahrux Qara Osmanın yanına qasid göndərmiş və rəqibin yolunu kəsməyi

təklif etmişdi. Türk tarixçilərinin fikrincə, Ərzurumda olan Qara Osman İsgəndərə yol vermədiyi üçün 1435-ci ilin avqustunda iki tərəf arasında şiddətli döyüş baş verdi. Bu döyüşdə də Ağqoyunlular məğlub oldular [313, 135; 317, 14-15; 165, 71-72; 227, 244; 190, 92 ]. Döyüşdə ağır yaralanan Qara Osman Ərzurumda vəfat etdi. Qaynaqlardan məlum olur ki, Qaraqoyunlularla Ağqoyunluların döyüşdüyü yerə gələn Cığatay əsgərləri gördükləri mənzərədən dəhşətə gəldilər. Buna görə də Cığataylar Qaraqoyunluları təqib etməkdən imtina etmək istədilər [7, 33; 138, 106].

Ağqoyunlu hökmdarı Qara Osmanın varisi Əli bəyin (1435-1438) hakimiyyəti illərində də iki tayfa arasında düşmənçilik münasibətləri davam etdi. Ağqoyunlu Qara Osmanın ölümündən sonra hakimiyyət uğrunda onun varisləri arasında gərgin mübarizəyə baxmayaraq, tərəflər arasında ədavət zəifləmədi. Cahanşah Qaraqoyunlu dövlətinin başçısı kimi öz hakimiyyətini möhkəmləndirdi. O, Ağqoyunlu bəyliyi ilə münasibətləri yaxşılaşdırmağa çalışdı. Lakin onun bu təşəbbüsü həyata keçmədi və nəticədə Qaraqoyunlu-Ağqoyunlu münasibəti yenidən gərginləşdi [91, 99; 138, 106].

Türkiyə tarixçilərinin qeyd etdiyinə görə, münasibətlərin belə kəskinləşməsinə səbəb Qaraqoyunlu İsgəndərin oğlu Əlvənd Mirzənin Cahanşaha qarşı üsyan qaldıraraq Ağqoyunlu Cahangirə sığınması, Qaraqoyunlu hökmdarının tələblərinə baxmayaraq Əlvəndin qaytarılmaması idi [313, 18; 307, 303; 358, 176]. M.Ə.Çaxmaq bu hadisəni daha geniş izah edərək yazır ki, Ağqoyunlularla Qaraqoyunlular arasında mübarizə Cahangir və Cahanşah dövründə yenidən qızışdı. 1445-ci ildə Cahanşah Qaraqoyunluların Bağdad valisi İsfahanın ölümündən sonra şəhəri öz nəzarətinə aldı, Mosul və ətrafını da İsgəndərin oğlanlarının idarəsinə verərək geri döndü. 1448-ci ildə Əlvənd Mirzə Cahanşaha qarşı üsyan qaldırdı, lakin əmisinin qüvvələri qarşısında dayana bilməyərək Ağqoyunlu hakimi Cahangirə sığındı. Cahanşahın üsyankar Əlvəndi tələb etməsinə baxmayaraq, Cahangir onu verməkdən boyun qaçırdı. Bu, Qaraqoyunlularla

Ağqoyunlular arasındakı münasibəti gərginləşdirərək müharibə vəziyyətinə gətirdi. 1450-ci ilin oktyabrında Cahanşah Ərzincan üzərinə yürüş edərkən Cahangirə qarşı müxalifətdə olan qardaşı Şeyx Həsənin oğlu Bayəzid, Piltənin oğlu Xəlil və İsgəndər onu müdafiə etdilər. Buna görə də, Qaraqoyunlu ordusu Ərzincanı asanlıqla ələ keçirdi [190, 93].

1450-ci ildə Qaraqoyunlularla Ağqoyunlular arasında başlanan qanlı mübarizə iki ilə qədər davam etdi. 1452-ci ilin baharında Xorasan hakimi Sultan Baburun Qaraqoyunlu ərazisinə hücum etmək üçün Reyə gəldiyini xəbər alan Cahanşah Ağqoyunlularla mübarizəni dayandırdı və Cahangirə barışıq haqqında xəbər göndərdi. O, Cahangirdən hakimiyyətini tanımasını da tələb etdi. Cahanşah Cahangiri bütünlüklə özünə bağlamaq, şərqə hərəkət edərkən qərb cəbhəsindən tamamilə əmin olmaq üçün onun qızını öz oğlu Məhəmmədi Mirzəyə istədi. Cahangir onun bu təklifini qəbul etdi [165, 85; 317, 19; 358, 177; 190, 94].

Bununla da bir əsrə yaxın müddət ərzində türkmanların iki qardaş ulusu, iki xanədanı arasında ardıcıl davam edən və getdikcə şiddətlənən düşmənçilik müvəqqəti olaraq müəyyən vaxt üçün dayandırıldı [165, 85; 317, 19; 358, 177; 190, 94]. Lakin Uzun Həsən qardaşının bu hərəkətindən razı qalmadı, ona qarşı mübarizəyə başlayaraq Diyarbəkri ələ keçirdi və Ağqoyunlu taxtacını zəbt etdi [319, 18]. Qardaşının hücumları qarşısında dayana bilməyən Cahangir Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşaha sığındı. Əbubəkr Tehranı bu haqda yazırdı: "Cahangir Mirzə hər gün qələbələrə nail olan Sahibqranın (Uzun Həsənin – T.N.) üstünlüyünə dözməyib Cahanşah Mirzənin sarayına üz tutdu. Uzun Həsən onu niyyətindən çəkindirmək üçün Kürd Osmanı onun yanına elçi göndərib bu sözləri çatdırdı: "Biz atabir, anabir qardaşıq. Vəzifəmiz budur ki, bir-birimizlə əhd bağlayıb and içək ki, bundan sonra qardaşlıq və səmimiyyət yolu ilə gedib, ədavət və düşmənçilikdən çəkinəcəyik. Bizimlə qaraqoyunlular arasında köhnə ədavət olduğu üçün ona (Cahanşaha) qoşulmaq yaramaz!" [13, 137; 50, 250; 138, 106-107]. Mənbənin verdiyi mə'lumatdan aydın olur ki, Uzun Həsən

Qaraqoyunlulara qarşı olan əski ədavəti qardaşına xatırlatmaqla onu tutduğu yoldan çəkindirmək istədi, lakin buna nail ola bilmədi. Orta əsr feodal şüuru ata-oğul, qohum-qardaş münasibətlərini kəskinləşdirdiyi üçün şahzadələr atalarına, yaxud bir-birinə qarşı çox vaxt mübarizə aparır, hər vasitə ilə hakimiyyətə doğru can atırdılar [91, 101; 138, 107].

Qaraqoyunlu və Ağqoyunlu türkmanlarının daim bir-biri ilə rəqabət aparmalarına baxmayaraq, vahid etnik şüura sahib idilər. Onlar arasında rəqabət hissi özünü daha çox bu iki ulusun sıravi üzvləri arasında deyil, sülalə və yüksək təbəqə arasında göstərirdi. Sıravi insanlar isə özlərini vahid etnomədəni və sosial topluluğun bir parçası kimi hiss edirdilər. Uzun Həsənin öz anası Saray Xatuna dediyi sözlər bu baxımdan səciyyəvi xarakter daşıyır: "Ağqoyunlu və Qaraqoyunlu döyüşçüləri bir-birinə gedib-gəlirlər, bir-birinə kömək edirlər, onların münasibətləri həmişə belə olub. Lakin bizim xanədanın böyük əmirləri Qaraqoyunluların yanına getməyiblər" [13, 138; 118, 230].

Cahangirin Cahanşaha sığınması və ondan yardım istəməsi Qaraqoyunlu-Ağqoyunlu münasibətlərini daha da kəskinləşdirdi və Uzun Həsənlə Cahanşah arasındakı düşməkçilik daimi bir şəkil aldı.

Qaraqoyunlular ilə Ağqoyunlular arasında kəskinləşən mübarizənin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin dövləti daxilindəki feodal çəkişmələrindən fəal surətdə istifadə etməyə çalışırdı. Onlar rəqib tərəfdəki daxili ziddiyyətləri kəskinləşdirməyə, bir-birini zəiflətməyə cəhd edirdilər. Cahanşah Uzun Həsənə qarşı apardığı mübarizədə Ağqoyunlu taxt-tacını geri almağa çalışan Cahangir Mirzəyə yardım göstərirdi. Uzun Həsən də Cahanşahın üsyan etmiş oğlanlarına köməklik göstərirdi [146, 65; 98, 75; 398, 35]. Faruq Sümer yazır ki, Cahanşah Ağqoyunlu padşahlığını Cahangirə verdi, Ərzincanı da ona iqta etdi və onu Azərbaycan ordusu ilə Ərzincana göndərdi [317, 20-21]. Cahanşah 1457-ci ilin baharında Tərxan oğlu Rüstəmi 20 minlik qoşunla Cahangirə yardıma göndərdi. İyun ayında Diyarbəkr yaxınlığında Uzun Həsənlə

döyüşdə Cahangir və Qaraqoyunlu qüvvələri məğlub oldu, Rüstəm əsir düşərək öldürüldü [317, 20-21; 358, 179-180; 190, 95]. Uzun Həsən əldə edilən bu qələbə barədə Osmanlı sultanı II Mehmedə göndərdiyi məktubda ətraflı məlumat verdi [Bax: 9, 716-717]. M.X.Yınanç qeyd edir ki, Cahanşah bir il sonra Uzun Həsənlə barışdı və əsirlərin xeyli hissəsini geri ala bildi [358, 180]. Bu faktı dövrün qaynağı da təsdiq edir. Əbubəkr Tehrani bu haqda yazır: «Uzun Həsən Rakka qışlağında olarkən Cahanşahın elçisi gəldi və iki tərəf arasında sülh yenidən möhkəmləndirildi» [50, c.2, 309]. Bu qələbə Uzun Həsənin mövqeyini daha da gücləndirdi və ona böyük hökmdarlarla eyni sırada durmağa imkan verdi.

Azərbaycan Qaraqoyunlu dövlətinin daxilində ziddiyyətlərin getdikcə artması və köçəri əyanlar arasındakı ixtişaşlar Uzun Həsənə öz mövqeyini daha da möhkəmləndirməyə əlverişli şərait yaratdı. XV əsrin 50-ci illərinin sonu, 60-cı illərin əvvəllərində Qaraqoyunluların Anadoludakı əksər şəhər və qalaları, o cümlədən İspirdən Urfaya, Şəbinqarahisardan Siirtə kimi uzanan bölgələr Ağqoyunlular tərəfindən ələ keçirildi. Şübhəsiz ki, Ağqoyunluların getdikcə güclənməsi Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşahı narahat etməyə bilməzdi [190, 96]. Uzun Həsən Cahanşahın oğlu Pirbudağın atasına qarşı üsyanından faydalanmağa çalışdı, lakin buna nail ola bilmədi. Çünki Cahanşah Uzun Həsənə məktub göndərib bildirdi ki, əgər Ağqoyunlu hökmdarı onun oğluna yardım etməzsə, Sincar, Mosul və Ərbil şəhərlərini ona verəcəkdir. Buna görə də Pirbudaq Uzun Həsəndən heç bir yardım ala bilmədi [358, 183; 138, 107].

Oğlunun üsyanını yatıran Cahanşah Uzun Həsəni Gürcüstana etdiyi uğurlu yürüş münasibətilə təbrik etdi. Cahanşah elçisi vasitəsilə ona bir qılınc da göndərdi. Uzun Həsən təşkil etdiyi xüsusi mərasimdə bu qılıncı qurşandı, elçiyə bunun bir hökmdarlıq nişanəsi olduğunu söylədi və böyük hökmdara daim sadiq qalacağına söz verdi [358, 185]. Lakin o dövrün bir çox hökmdarları arasında olan dostluq və ittifaq, yalnız siyasi məqsəd güdürdü, müvəqqəti səciyyə daşıyırdı. Uzun Həsənin

qatı düşməninə qarşı bu mövqeyı, yalnız uzaqgörən siyasi xadimin zahiri bir hərəkəti idi. O, yaxşı bilirdi ki, Cahanşah oğlu Pirbudağın üsyarını yatırtdıqdan sonra onun üzərinə gələcəkdir. M.X.Yınanç yazır ki, Uzun Həsən Misir sultanı Xoşqədəmə elçilər göndərmiş, Cahanşahın oğlunun üsyanını yatırdıqdan sonra onun üzərinə hücum edəcəyini sultana bildirmişdi [358, 184].

Türkiyə tarixçilərinin fıkrincə, bu dövrdə Qaraqoyunlu dövləti İslam dünyasının ən böyük dövlətlərindən birinə çevrildi. Cahanşah özünü əski Elxani hökmdarının xələfı sayır və vaxtilə onların hakim olduqları əraziləri bütünlüklə ələ keçirməyə çalışırdı. O, Qaraqoyunluların düşməni – mərkəzi Diyarbəkr şəhəri olmaqla Şərqi və Cənub-Şərqi Anadolunun bəzi bölgələrinə hakim olan Ağqoyunluları əzmək, Uzun Həsəni məhv etmək və intiqam almaq istəyirdi [358, 185; 165, 90; 346, 191]. Cahanşah Ağqoyunluların dövlət sərhədlərinin getdikcə genişlənməsi ilə heç cür hesablaşmaq istəmirdi. O, Osmanlı sultanını xəbərdar edərək ondan yardım istədi və 1467-ci il mayın 15-də Təbrizdən Diyarbəkrə doğru hərəkətə başladı [231, 41; 267, 163; 415, 168; 138, 108].

Öz əsərlərində Qaraqoyunlu-Ağqoyunlu münasibətlərinə toxunan Türkiyə tarixçiləri (F.Sümer, M.X.Yınanç, İ.H.Uzunçarşılı və b.) Qaraqoyunlu Cahanşahın bu yürüş ərəfəsində Osmanlı sultanı II Mehmedi xəbərdar etməsi və hətta ondan yardım istəməsi faktına nəinki toxunmamış, hətta bu faktın üzərindən sükutla keçmişlər. T.Bıyıqlıoğlu isə belə bir nəticəyə gəlir ki, Qaraqoyunlular Osmanlılarla müttəfiq idilər, lakin Osmanlı dövləti Ağqoyunlulara qarşı mübarizədə Qaraqoyunlularla əlaqəyə girmək haqqında düşünməmiş, Uzun Həsənin Qaraqoyunlu dövlətinə son qoymasına biganə qalmışdı [231, 49]. Türkiyə tarixçilərinin bu mövqeyi şübhəsiz ki, onların siyasi baxışları və Osmanlı dövlətinin yeritdiyi xarici siyasətə birtərəfli mövqedən yanaşması ilə bilasavitə bağlıdır. Çünki dövrün qaynağı onların bu mövqeyini təkzib edir. Qaraqoyunlu Cahanşah Uzun Həsən üzərinə yürüşdən öncə Osmanlı sultanı II Mehmedə məktub göndərərək ondan yardım istəmişdi. Göndərilən məktubda

yazılmışdı: «O, büləndhimmət həzrət ... onun dəfi və cəzalanması üçün cəhd etsinlər ... Sizdən sədaqətlə rica olunur ki, bu məsələdə iradə, istək və inadınız qırılmasın və həqiqi dostların məqsəd və istəkləri həyata keçsin» [34, 274; 9, 552]. Qaynaqlar bir daha təsdiq edir ki, 1467-ci ildə Qaraqoyunlu Cahanşah sultan II Mehmedin təhriki ilə Diyarbəkr üzərinə hərəkət etmişdi. Qaynaqların məlumatına görə, «Amasya valisi Bayəzid sultan II Mehmedin əmri ilə Uzun Həsənə qarşı döyüşdə Cahanşaha hərbi yardım etməli idi» [29, 100; 407, 58].

Ərcişə doğru irəliləyən Cahanşah yolda Uzun Həsənin elçisi Xızır bəy Tərxanla görüşdü. Elçi Uzun Həsənin padşaha sadiq və tabe qaldığını, hökmdarın Xarputda, yaylaqda olduğunu bildirdi. Lakin Cahanşah buna qəzəblənərək onu geri qaytardı [358, 186]. Azərbaycan Qaraqoyunlu hökmdarı Məhəmməd Süfrəçini Uzun Həsənin yanına göndərdi və tələb etdi ki, əgər o həqiqətən itaət və sədaqətdən bəhs edirsə, ya bilavasitə özü, ya da oğlu onun hüzuruna gəlməlidir. Əks təqdirdə onun üzərinə qoşun göndərəcəkdir. Uzun Həsən onun bu tələblərini rədd etsə də, Qazı Rüknəddin Əlini itaətkarcasına yazılmış məktub və hədiyyələrlə Cahanşahın düşərgəsinə göndərdi. Cahanşah hədiyyələri qəbul etmədi və elçini geri qaytardı [358, 185; 190, 98; 138, 108]. Əbubəkr Tehrani Cahanşahın elçisinə Uzun Həsənin cavabı barədə yazır: "Cahanşah deyib ki, Məhəmmədi Mirzəni qoşunla sizin üstünüzə göndərərəm. Məgər bizə məlum deyil ki, Məhəmmədi Mirzə çörəkbişirən oğludur?! Onun nə hünəri ola bilər ki, Cahanşah bizi onunla qorxudur?! Və bir də əvvəllər bizim aramızda bağlanmış sülh qorxuya əsaslanmırdı. Biz kiminsə qoşununun çoxluğundan qorxub çəkinmirik. Həmin sülh insanların təhlükəsizliyi naminə bağlanmışdı. Bütün aləm bilir ki, bizim ata-babalarımız heç kəsə heç zaman bir uzunqulaq belə olsa, vergi (xərac) verməyiblər. Sülh bağlamaqda məqsəd o idi ki, xalq ayaq altında qalmasın və axirətdə bunun günahı boynumuza düşməsin. Yoxsa biz meydandan qaçmırıq, mərdliklə dayanmışıq və deyirik: Neçə dəfə olub ki, az bir dəstə Allahın izni ilə çox bir dəstəyə qalib gəlib. Bundan sonra Sahibqran

müzəffər əsgərlərini toplamaq üçün hər tərəfə adamlar göndərdi" [13, 221].

Bu zaman Uzun Həsən Qaraqoyunlu Cahanşah tərəfindən gözlənilən hərbi toqquşmanın qarşını almaq üçün daha bir təşəbbüs göstərdi. Əbubəkr Tehrani bu barədə yazır: "Uzun Həsən "seyidlərin qaymağı, qazıların iftixarı, sağlam düşüncə sahibi, kəskin fikirlər yiyəsi, aydın nitqi və güclü məntiqi, zəngin biliyi və təmiz mənəviyyatı sahəsində elçilikdə mahir olan və bu işdə islamın xeyrinə çalışan Qazi Əlaəddin Əlini layiqli hədiyyələrlə Cahanşah Mirzənin yanına göndərdi. Cahanşah Mirzə onun gəlişindən xəbər tutub, yanına çatmasına macal vermədi, onun qarşısına adam göndərib, onu geri qaytardı və hədiyələri də qəbul etmədi. Eyni zamanda xəbər göndərdi ki, sülh məsələsi ya Həsən bəyin özünün, ya da onun oğlanlarından birinin gəlişinə bağlıdır. Qazi Əli qayıdıb vəziyyəti ərz etdikdə, Sahibqran döyüşə hazırlaşmağa başladı" [13, 221]. Beləliklə, Qaraqoyunlularla-Ağqoyunlular arasındakı müharibə qaçınılmaz oldu.

Ağqoyunlular üzərinə hərəkət edən Cahanşah Ərciş, Adilcavaz və Əhlət üzərindən Bidlisə, oradan da Murad çayını keçərək Muş düzünə gəldi. Xarputdan hərəkət edən Uzun Həsən Çapaxcura irəliləyərək dağlar arasındakı keçidləri və yolları nəzarət altına aldı, ön qüvvələri də Çapaxcur qalasına göndərdi. O, Qaraqoyunluların qüvvələrinin sayca üstün olduğunu düşünərək onlarla əsaslı döyüşə girməkdən çəkindi və onları taqətdən salaraq məğlub etməyə üstünlük verdi. Sentyabrın ortalarında Pərvanəçi Qasım bəylə Cahangir bəyin 5 minlik qüvvəsi Ağqoyunlu Xəlil Mirzənin 3 minlik qüvvəsi tərəfindən məğlub edildi [358, 187; 317, 23; 146, 90; 190, 99]. Əbubəkr Tehrani bu hadisə ilə bağlı yazır: "Onlardan (Qaraqoyunlulardan) səksən nəfəri öldürüldü, altmış nəfəri əsir düşdü, bir çoxları da çayda böğuldu. Qasım Pərvanəçi kor-peşman və xəcalətli bir halda Cahanşah Mirzənin düşərgəsinə qayıtdı. Cahanşah Mirzə bu xəbərdən qorxuya düşdü. Təkəbbürün təhlükəli sonluğu aşkar oldu, böyüklük iddiası alçaqlıqla nəticələndi" [13, 221].

Uzun Həsən Çapaxcur ətrafına hakim olaraq qüvvələrini Muş düzünün qərbini əhatəyə alan dağlarda yerləşdirdi və Qaraqoyunlular üzərinə hücum etməyə başladı. Ağqoyunluların basqınlarını dəf etməyə çalışan Qaraqoyunlu hökmdarı, sərt keçidləri nəzarət altında saxlayan düşmənə qarşı hücumlar təşkil etsə də, uğur qazana bilmədi. Qaraqoyunlu ordusunun müəyyən itkilər verməsi Cahanşahı əmirləri toplayaraq yaranmış vəziyyəti müzakirə etməyə vadar etdi. Əbubəkr Tehrani bu barədə yazır: " ... Cahanşah bu qərara gəlmişdi ki, qış çox sərt olduğu, hər yanı qar bürüdüyü, hərəkət etməyə heç bir imkan olmadığı üçün o hüdudlardan geri dönsünlər və Azərbaycan vilayətinin qışlaqlarında məskən salsınlar. Və demişdi ki, bahar gəlib ağaclara və otlara yenidən can verəndə, çölün süfrəsini lalə və nəsrinlə bəzəyəndə, biz də qışlaqlardan çıxıb yeni qayda və saysız qoşunla Diyarbəkrə yollanarıq" [13, 221]. Beləliklə, qış yaxınlaşdığı üçün Cahanşah hərbi yürüşü təxirə salmağa qərar verdi. O, qoşunun çox hissəsini qışlağa göndərdi, özü isə yaxın adamları və az qüvvə ilə 1467-ci ilin noyabrın 10-da Səncəqdə gecələdiyi zaman Uzun Həsənin 6 minlik qüvvəsinin qəfil hücumuna məruz qaldı və öldürüldü [358, 187; 317, 23; 146, 90; 190, 99].

Cahanşahın şəxsiyyəti ilə bağlı mənbələrdə fərqli fikirlər vardır. Dövlətşah Səmərqəndi onun haqqında yazır: "Əmir Cahanşah bin Qara Yusif qüdrətli bir padşah idi. Ona etibar edilməzdi. Tanınmış əmirlərini adi bəhanə ilə öldürürdü. O, əmirlərini və dövlət adamlarını sadə bir şübhə üstündə yeraltı zindanlara atdırırdı. Onun ən sadə cəzası ömürlük həpsə almaq idi" [146, 63; 174[b], 235-236]. V.Minorski Cahanşahı "cəsur bir döyüşçü və mahir siyasətçi kimi tanınan Türkman hökmdarı" adlandırmışdır [267, 154; 174[b], 237]. İ.P.Petruşevski Cahanşah haqqında yazırdı: "Cahanşah Qaraqoyunlu hökmdarlarından ən qüdrətlisi idi. O, atasının və qardaşının tam əksi olan gözəl əxlaqa sahib, köçərilərin adət və ənənələrindən uzaqlaşmış bir şəxs idi. Ancaq müsəlman müəlliflər onu mənfi bir şəxsiyyət kimi təsvir etmişlər" [146, 63; 174[b], 237]. Cavad Heyətin fikrincə, Cahanşah "cəsur bir savaşçı və mahir bir siyasət adamı

olmaqla yanaşı, yaxşı bir şairdir” [79, 57; 174b, 238].

M.X.Yınanç yazır ki, XIII əsrin ortalarından başlayaraq dini, əxlaqi və hüquqi nəzarətin yüksəldiyi, hər tərəfdə idarəçiliyin boy və oymaq rəhbərlərinin nəzarəti altına keçdiyi və vali təyin edilən bu rəislərin etdikləri zülmlər göz önünə alındığında, Cahanşaha öz dövrünün hökmdarları ilə müqayisədə daha yüngül hökm verilməlidir [358, 188; 174b, 239]. A.A.Arayancan Cahanşahın siyasi fəaliyyətini və tarixi xidmətlərini təhlil edərək belə nətcəyə gəlir ki, o, həm güclü bir hökmdar, həm də yaxşı sərkərdə kimi Qaraqoyunlu dövlətinə parlaq və güclü həyat yaşatmışdır. O, ticarəti, elm və mədəniyyəti inkişaf etdirmişdir. Qaraqoyunlu dövlətinin ən böyük hökmdarlarından biri olan Cahanşah Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı və Fars bölgələrini nəzarəti altına almışdır. Hakimiyyəti əlində saxlamaq və ölkəsinin bütünlüyünü qoruyub saxlamaq məqsədilə qarşısına çıxan bütün əngəlləri ortadan qaldırmaq üçün mübarizə apardığı kimi, öz qanından olan və böyük zəfərlər qazanmasına mühüm yardım göstərən öğlunu gözünü qırpmadan öldürməyə hazır olan bir sultan olmuşdur [174b, 239].

Qeyd etmək lazımdır ki, Uzun Həsənlə Cahanşah arasında baş verən əsaslı döyüşün tarixi tədqiqatçılar tərəfindən müxtəlif cür yazılmışdır. C.İbrahimov [99, 72-73] bu hadisənin 1467-ci ilin mayında, V.Minorski [267, 161] və Ş.Fərzəliyev [91, 102] oktyabrm 4-də, M.Seyfəddini [430, 193] isə 1468-ci ilin aprelində baş verdiyini qeyd edirlər. Yalnız İ.P.Petruşevski və S.Məmmədov düzgün olaraq bu hadisənin 1467-ci il noyabrın 10-da baş verdiyini qeyd edirlər [416, 168; 406, 153]. Uzun Həsən Cahanşah üzərində qələbə münasibətilə Osmanlı Sultanı II Mehmedə göndərdiyi məkubunda bu hadisə ilə əlaqədar olaraq ətraflı məlumat vermiş və hadisənin 872-ci il hicri rəbbüsani ayının 13-də (10 noyabr, 1467) baş verdiyini göstərmişdir [9, 555-556; 34, 274-275].

Uzun Həsənin bu qələbəsi ilə Azərbaycan Qaraqoyunlu dövlətinə uzun illər başçılıq etmiş Cahanşahın hakimiyyəti başa çatdı. 1468-ci ildə Həsənəlinin qüvvələrinə də qalib gələn Uzun

Həsən Azərbaycan Qaraqoyunlu dövlətinin varlığına son qoydu və paytaxtı Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövlətini yaratdı.

Beləliklə, Qaraqoyunlu-Ağqoyunlu qarşılıqlı əlaqələrinin Türkiyə tarixçiləri tərəfindən tədqiqini araşdırarkən məlum olur ki, onların əksəriyyəti bu problemi xüsusi tədqiqat obyekti seçməmiş, iki tayfa ittifaqının, eləcə də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixini öyrəndikləri üçün onlar arasındakı münasibətləri də araşdırmalı olmuşlar. Qaraqoyunlu-Ağqoyunlu münasibətlərindən bəhs edən Türkiyə tarixçiləri öz tədqiqatlarında XIV əsrin II yarısında Elxanilər dövlətinin süqutundan sonra Şərqi Anadoluda bu iki tayfa birliyi arasında başlanan mübarizənin yüz ildən artıq bir müddət ərzində davam etdiyini, gah bu, gah da digər tərəfin üstünlüyü ilə nəticələndiyini xüsusi vurğulamışlar. Onlar öz tədqiqatlarında Ağqoyunlularla Qaraqoyunlar arasındakı siyasi hadisələrə daha çox yer versələr də, çox zaman onların izahından çəkinmişlər. Lakin bütün bunlara baxmayaraq, Qaraqoyunlu-Ağqoyunlu münasibətlərinin öyrənilməsində Türkiyə tarixçilərinin araşdırmalarının əhəmiyyəti böyükdür.

### *II. 2. Qaraqoyunlu-Teymuri münasibətləri.*

Türkiyə tarixçilərinin araşdırmalarında Qaraqoyunlu-Teymuri münasibətləri haqqında müəyyən fikirlər mövcuddur. Azərbaycan tarixşünaslığında problemin tədqiqi İ.P.Petruşevskinin, C.İbrahimovun, Ş.F.Fərzəliyevin, M.Ə.Seyfəddininin, S.Ə.Məmmədovun, T.H.Nəcəflinin, R.Ə.Ağayevin əsərlərində [Bax: 416, 156-159, 161-167; 99, 37-56, 61-64; 91, 88-89; 92, 43-54; 429, 143-147, 156-157, 161-163, 178-183, 190-192; 406, 129-134, 143-151; 133, 75-86; 72, 46-70], həmçinin «Azərbaycan tarixi»ndə [Bax: 74, 78-83] öz əksini tapmışdır.

Türkiyə tarixşünaslığında Qaraqoyunlu-Teymuri münasibətlərinin tədqiqinə XX əsrin 30-cu illərində başlanmışdır. Tarixçilərdən Əbdürrəhim Şərif bəy «Ərzurum tarixi» əsərində [322, 76-80] Qaraqoyunluların siyasi tarixinin qısa icmalını

vermişdir. Burada XIV yüzillin sonlarında Qaraqoyunlu-Teymuri münasibətlərinə də toxunulmuşdur. Müəllif XIV əsrin 80-ci illərində Ərzurum, Van, Əhlət və Muş bölgələrini öz nəzarəti altında saxlayan Qaraqoyunlu Qara Məhəmmədlə Əmir Teymur arasındakı münasibətlərin kəskinləşməsinin səbəbini Qara Məhəmmədin Teymuri ordusuna hücum etmək cürətində görmüşdü [322, 76; 133, 75]. Dövrün qaynaqları Əmir Teymurun Qaraqoyunlu Qara Yusiflə barışmaz düşmən olması səbəblərinə tam aydınlıq gətirmirlər. Yalnız Şərəfəddin Əli Yəzdinin «Zəfərnamə» sində Qara Yusifin Toxtamışa yardım etdiyi vaxtdan etibarən Əmir Teymurun onunla düşmənçiliyə başlamasından bəhs olunur [92, 9]. Ə.Şərif bəy əsərində XIV əsrin sonu – XV əsrin I yarısında Qaraqoyunlu-Teymuri münasibətlərinin qısa xülasəsini verməklə kifayətlənmişdir [133, 76].

Qaraqoyunlu-Teymuri münasibətlərinə İ.H.Uzunçarşılının «Anadolu bəylikləri və Ağqoyunlu Qaraqoyunlu dövlətləri» adlı əsərində [346] də toxunulmuşdur. Müəllif burada XIV yüzillin sonunda Qaraqoyunlu Qara Məhəmmədin Əmir Teymurla münasibətinə qısaca toxunmuş, Qara Yusifin teymurilərə qarşı apardığı mübarizəyə, xüsusən də Əmir Teymurun ölümündən sonra Azərbaycanda möhkəmlənmək uğrunda Qara Yusiflə Əbu Bəkr arasında baş verən döyüşlərə, eləcə də Qaraqoyunlu İsgəndərin və Cahanşahın Teymuri sultanı Şaxruhla münasibətlərinə də toxunmuşdur [346, 180-185; 133, 76].

Qaraqoyunlu-Teymuri münasibətlərinə M.X.Yınançın «Cahanşah» adlı məqaləsində xüsusi diqqət yetirilmişdir [346, 182-184]. Müəllif dövrün fars, ərəb və türkdilli qaynaqlarından faydalanaraq Cahanşahın dövründə Qaraqoyunlu dövlətinin siyasi tarixini ətraflı işıqlandırmışdır. M.X.Yınanç Teymuri sultanı Şaxruxun Azərbaycana hərbi yürüşlərinə və Qaraqoyulu Qara İsgəndər arasında baş verən Aləşkərd və Salmas döyüşlərinin nəticələrinə aydınlıq gətirmişdir [358, 173-189]. Müəllifin qənaətinə görə, Sultan Şahrux Qaraqoyunlular üzərində qazandığı qələbələrə baxmayaraq, Qaraqoyunlu dövlətini, eləcə də Qaraqoyunlu şahzadələrini ortadan qaldıra bilməyəcəyini

dərk edərək onlar arasındakı mübarizədən istifadə etməklə öz nüfuzunu qoruyub saxlamağa çalışmışdır [358, 173-174]. M.X.Yınanç öz əsərində Cahanşah dövründə Qaraqoyunlu-Teymuri münasibətlərinin inkişafına geniş yer vermişdir. Məlum olduğu kimi, Sultan Şahrux Azərbaycana 1435-ci ildə III yürüşü zamanı Qaraqoyunlu taxt-tacında Cahanşahı oturdaraq onu asılı hala salmışdı. Cahanşah Sultan Şahruxun ölümünə qədər bu asılılığa riayət etmişdir. M.X.Yınanç yazır ki, 1447-ci ilin əvvəllərində Cahanşah böyük əmirlərindən Əlişükür bəyi hədiyyələrlə Reydə qışlayan Şahruxun yanına göndərmişdi. Ancaq onlar Sultaniyyəyə gələn zaman Teymuri hökmdarının 13 martda ölməsi xəbərini alaraq geri dönmüşdür. Bundan sonra Cahanşah tamamilə müstəqil olmuş və Teymuri şahzadələri arasında hakimiyyət uğrunda gedən mübarizədən istifadə edərək Sultaniyyə və Qəzvin şəhərlərini, ardınca isə Əcəm İraqını ələ keçirmşdi [358, 174; 133, 76].

XV əsrin 50-ci illərində Teymuri taxt-tacı uğrunda mübarizə Qaraqoyunlu Cahanşaha Xorasanı işğal etməyə şərait yaratdı. Bu məsələlərə toxunan M.X.Yınanç qeyd edir ki, 1458-ci ilin baharında Cahanşah öz qüvvələrini Reydə toplayaraq Cürcanın fəthinə qərar verdi. Az sonra Qaraqoyunlu ordusu Məşhəd, Nişapur və Qərbi Xorasanı ələ keçirdi. Cahanşah iyunun 28-də təntənəli şəkildə Herata daxil oldu və adına xütbə oxutdu. Bununla da Xorasan əyaləti Qaraqoyunluların hakimiyyəti altına keçdi. Bu zaman Cahanşah fəthnamə göndərdiyi hökmdarların hamısından və hətta Mirzə Səncər daxil olmaqla bəzi Teymuri şahzadələrindən də təbrik məktubu aldı [358, 175-176; 133, 76-77]. Lakin, Cahanşah Xorasanda uzunmüddət möhkəmlənə bilmədi.

Azərbaycan Qaraqoyunlu dövləti ilə Teymurilər arasındakı münasibətlərə Z.V.Toğanın monaqrafiyasında qısa da olsa toxunulmuşdur [358, 181]. Müəllif Qara Yusifin Teymuri Əbu Bəkr üzərində qazandığı qələbədən sonra Azərbaycanda siyasi hakimiyytə yiyələnməsini və Sultan Şahruxun Azərbaycana yürüşləri haqqında məlumat vermişdir [335, 363-365].

Qaraqoyunlu-Teymuri münasibətlərinə Y.Z.Özərin Əmir Teymurun yürüşlərindən bəhs edən məqaləsində də toxunulmuşdur [Bax: 281]. Müəllif XIV əsrin sonunda Əmir Teymurun Azərbaycana yürüşləri zamanı qaraqoyunluların güclü müqaviməti ilə qarşılaşdığını və tərəflər arasında ciddi döyüşlərin baş verdiyini göstərir. O, belə hesab edir ki, Əmir Teymurun Azərbaycan Qaraqoyunlu hakimi Qara Yusiflə apardığı müharibə o qədər çətin olmuş və Qaraqoyunlular elə qəhrəmancasına savaşmışdılar ki, Teymurun ordusunun tezliklə məğlub olacağına şübhə qalmamışdı [281, 455; 133, 77].

Türkiyə tarixşünaslığında Qaraqoyunlu-Teymuri münasibətləri F.Sümerin tədqiqatlalında daha geniş işıqlandırılmışdır. O, hələ 50-ci illərdə yazdığı «Qaraqoyunlular» adlı məqaləsində Əmir Teymurun Azərbaycana yürüşləri zamanı Qaraqoyunlu Qara Məhəmməd və Qara Yusiflə apardığı döyüşlərdən, qaraqoyunlulara məxsus şəhər və qalaların ələ keçirilməsindən, Əmir Teymurun ölümündən sonra Qara Yusifin Teymurilərə qarşı apardığı mübarizədən, xüsusilə də Əbu Bəkri məğlub edərək Azərbaycan və Şərqi Anadoluda siyasi hakimiyyətə yiyələnməsindən, Teymuri sultanı Şahruxla qarşılıqlı münasibətindən, eləcə də Qara İsgəndər və Cahanşah dövründə qaraqoyunlularla teymurilər arasındakı münasibətlərə dair müfəssəl məlumat vermişdir [Bax: 307, 292-305]. F.Sümer «Qaraqoyunlular» adlı monoqrafiyasında Qaraqoyunlu-Teymuri münasibətlərini daha geniş işıqlandırmışdır [Bax: 313]. Əsərdə Teymur ordusunun 1387-ci ildə Çapaxcur dərəsində Qara Məhəmməd tərəfindən məğlub edilməsindən, Qara Yusifin Əmir Teymurun hücumları qarşısında dayana bilməyərək Cəlairi Sultan Əhmədlə doğma torpaqlarını tərk etmək məcburiyyətində qalaraq Ərəb İraqına çəkildiyini, sonra isə Osmanlı və Məmlük sultanlarına sığınmağa məcbur qaldığını, Əmir Teymurun ölümündən sonra Qara Yusifin doğma vətəninə qayıdaraq Teymuri şahzadələrini məğlub edərək Azərbaycan və Şərqi Anadoluda Teymuri ağalığına son qoyaraq Qaraqoyunlu dövlətini yaratmasını dövrün qaynaqlarına əsaslanaraq ətraflı şəkildə işıqlandırmışdır [Bax:

313, 49-51, 57-77, 92-98, 104-112, 116-137]. F.Sümer Qara Yusifin Azərbaycanda Teymuri Əbu Bəkr üzərində qələbə qazanaraq teymurilərin ağalığına son qoyduğuna diqqəti yönəldərək yazır: «Qara Yusifin Əbu Bəkrə qarşı qazandığı bu ikinci zəfər mühüm bir tarixi hadisədir. Bununla da Teymurun yaratmış olduğu imperatorluğun əhəmiyyətli bir hissəsi ilk dəfə tamamilə əldən çıxmış və burada Qaraqoyunlu dövləti qurulmuşdur. Bu dövlət atasının imperatorluğunu bərpa etmək istəyən Şahruxa qarşı dayanaraq Azərbaycanı əlində saxlamış və ona öz arzusunu gerçəkləşdirməyə mane olmuşdur» [313, 76; 133, 78]. Müəllif əsərdə Sultan Şahrux dövründə Qaraqoyunlu-Teymuri münasibətlərinin kəskinləşməsinin səbəbləri və Teymuri hökmdarının Azərbaycana hərbi yürüşlərinin nəticələri haqqında da ətraflı məlumat vermişdir [313, 94-96, 104-112].

Türkiyə tarixşünaslığında Qaraqoyunlu-Teymuri münasibətlərinə xüsusi tədqiqatlarla yanaşı, ötən əsrin 50-60-cı illərində yazılmış ümumi tədqiqat əsərlərində də toxunulmuşdur. İ.H.Uzunçarşılı «Osmanlı tarixi» adlı əsərində Əmir Teymurun Azərbaycana yürüşü zamanı onun qarşısında dayana bilməyən Qara Yusifin Osmanlı sultanı İldırım Bayəzidə sığındığını, Əmir Teymurla Osmanlı sultanı arasında münasibətlərinin pisləşməsinin səbəbləri haqqda məlumat vermişdir [351, 302-307]. Y.Öztunanın «Başlanğıcından zamanımıza qədər Türkiyə tarixi» adlı əsərində də Qaraqoyunlu-Teymuri münasibətlərinə xüsusi diqqət yetirilmişdir. Müəllif əsas diqqəti Əmir Teymurun yürüşləri zamanı Qaraqoyunlu Qara Yusifin ona qarşı apardığı mübarizəyə, Qaraqoyunlu dövlətinin yaranmasından sonra Teymuri sultanı Şahruxun Azərbaycana yürüşlərinə yönəltmişdir [282, 101-105, 159-161; 133, 78].

Qaraqoyunlu-Teymuri münasibətlərinə 70-ci illərdə Ə.Ə.Xamneyinin «Ağqoyunlu-Qaraqoyunlu əlaqələri və Səfəvi hökumətinin qurulması» adlı əsərində də toxunulmuşdur [Bax: 230, 13-21, 25-42, 95-98]. Müəllif Qara Yusifin Əmir Teymurla münasibətlərinin gərgin məcrada davam etməsini onların arasındakı dini məzhəb fərqində görərək yazır: «Qara Yusif bir tərəf-

dən atasının siyasətini davam etdirmiş, digər tərəfdən də Teymurla olan məzhəb çəkişmələrini göz önünə alaraq onun tələblərinə cavab verməmiş və biət etməmişdir» [230, 13]. Müəllif Əmir Teymurla Qara Yusif arasındakı münasibətlərin düşmənçilik səviyyəsinə çatmasının səbəbini onların islamın sünni və şiə məzhəbində olması ilə bağlayır. Ə.Ə.Xamneyi əsərinin digər yerində yenidən bu məsələyə qayıdaraq yazır: «Qaraqoyunlular və Cəlairilər arasındakı qohumluq, siyasi birlik və Teymurilərlə olan məzhəb ayrılıqları Qaraqoyunluların Teymurun himayəsi altında olmaq istəyinə rədd cavabı verməsinə səbəb olmuşdu» [230, 96]. Müəllif burada Qaraqoyulularla Teymurilər arasındakı münasibətlərin pisləşməsinin səbəbi kimi onların dini məzhəb ayrılıqları ilə yanaşı, qaraqoyunluların cəlairilərlə qohum olmasında görmüşdür. Nəzərə almaq lazımdır ki, dövrün heç bir qaynağında XIV əsrin sonu - XV əsrin əvvəlində Qaraqoyunluların islamın şiə məzhəbində olması haqqında məlumata rast gəlinmir. Bunu Qara Yusifin və varislərinin zərb etdirdikləri pullar da təsdiq edir. Bu pulların üzərində şiəliyin heç bir əlaməti özünü büruzə verməmişdir [Bax: 429, 172-189]. Ə.Ə.Xamneyinin əsərində Qara Yusifin Teymuri şahzadəsi Əbu Bəkr üzərində qazandığı qələbələrə və onun Sultan Şahruxla münasibətlərini nizama salmaq üçün göstərdiyi təşəbbüsə, eləcə də Sultan Şahruxun Azərbaycana yürüşləri və onun nəticələrinə də toxunulmuşdur [230, 13-21, 25-42; 133, 79].

Keçən əsrin 80-ci illərində Türkiyə tarixşünaslığında Qaraqoyunlu-Teymuri münasibətləri İsmayıl Akanın əsas tədqiqat obyekti olmuşdur. O, bu mövzu ilə bağlı yazmış olduğu məqalələrində [161, 59-66; 162, 1-20] XV əsrin başlanğıcında Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizəyə Qaraqoyunlu Qara Yusifin qoşulmasını və Teymuri Əbu Bəkr üzərində qazandığı qələbə nəticəsində Şərqi Anadolu, Azərbaycan və Əcəm İraqında siyasi hakimiyyəti öz əlinə alaraq Qaraqoyunlu dövlətini yaratmasını dövrün qaynaqları əsasında işıqlandırmışdır [161, 63-66; 133, 79]. İsmayıl Aka «Teymur və dövləti» adlı monoqrafiyasında XIV əsrin sonlarında Əmir Teymurun Azər-

baycana yürüşlərini, Qaraqoyunlularla qarşılıqlı münasibətlərini, XV əsrin başlanğıcında Azərbaycanda hakimiyyət uğrunda siyasi mübarizədə Qara Yusifin yaxından iştirakını və teymurilər üzərində qazandığı qələbələri, eləcə də Sultan Şahruxun Azərbaycana hərbi yürüşləri və onun nticələri haqqında ətraflı məlumat vermişdir [Geniş məlumat üçün bax: 165, 14-15, 24-27, 59-63, 67-72].

Son illərdə Türkiyə tarixşünaslığında Qaraqoyunlu-Teymuri münasibətləri İsmayıl Akanın «İranda Türkmən hakimiyyəti» (Qaraqoyunlular dövrü)» adlı monoqrafiyasında tədqiq edilmişdir [Bax: 169]. Müəllifin qeyd etdiyi kimi, əsərdə əsas diqqət teymurilərin qaraqoyunlularla siyasi əlaqələrinə, həmçinin Cahanşah dövrünün siyasi hadisələrinin tədqiqinə yönəlmişdir [169, VIII]. Monoqrafiyanın birinci bölümündə XV əsrin başlanğıcında Azərbaycanda Qara Yusiflə Teymuri Əbu Bəkr arasında baş verən döyüşlərin nəticəsi, eləcə də Sultan Şahruxun Azərbaycana hərbi yürüşlərinin nəticəsi qısa şərh olunmuşdur [169, 5-6, 13-25]. Müəllif əsərin II bölümündə Cahanşaha qədər baş vermiş siyasi hadisələrin qısa şərhindən sonra Qaraqoyunlu dövlətinin siyasi tarixinin tədqiqinə geniş yer ayırmışdır. Burada Cahanşahın Teymurilərlə münasibətləri, xüsusən də, Sultan Şahruxun ölümündən sonra Azərbaycan Qaraqoyunlu hökmdarının Xorasana hərbi səfərləri və onun nəticələri ətraflı işıqlandırılmışdır [Bax: 169, 32-59; 133, 79].

XIV əsrin sonunda Azərbaycana yürüşləri zamanı Əmir Teymur Qaraqoyunluların güclü müqaviməti ilə qarşılaşmışdı. Mustafa Qafalının qeyd etdiyi kimi, Teymur qaraqoyunluları Həcc ziyarətinə gedən zəvvarlara və ticarət karvanlarına hücum etməkdə günahlandırmış, lakin əsas səbəb onların Əmir Teymura itaət etməməsi olmuşdu [241, 341].

Yusif Ziya Özər yazır ki, Əmir Teymurun Azərbaycan Qaraqoyunlu hakimi Qara Yusiflə apardığı müharibə çox çətin olmuş və qaraqoyunlular elə qəhrəmancasına savaşmışdılar ki, Teymur ordusunun tezliklə məğlub olacağına şübhə qalmamışdı [281, 455]. A.A.Arayancan Mirxondun verdiyi məlumata əsasla-

naraq yazır ki, 1387-ci ildə Əmir Teymur Qara Məhəmmədi ticarət karvanlarına və Həcc ziyarətinə gedən zəvvarlara hücum etməkdə günahlandıraraq Naxçıvandan Qaraqoyunlular üzərinə yürüş etdi. Qara Məhəmmədin oğlu Misir Xocanın nəzarət etdiyi Avnik qalasının mühasirəsi bir nəticə vermədiyi üçün Ərzurum ələ keçirildi. Əmir Teymur Çapaxçur çayının kənarında düşərgə salaraq oğlu Miranşahın, Məhəmməd Mir, Şeyx Əli, İqbal Şah Yarqucu və Tilək Qavçini üç böyük dəstə ilə Qara Məhəmmədə qarşı göndərdi. Qara Məhəmməd çətin dağ keçidlərində müdafiə mövqeyi tutaraq Teymur ordusunu ağır məğlubiyyətə uğratdı. Dar keçidlərdə və dağlarda mövqe tutan Qara Məhəmmədə qarşı mübarizədən imtina edən Əmir Temur Muş düzünə döndü, Əhlət və Adicavazı ələ keçirərək Aladağa gəldi. Bir müddət burada qaldıqdan sonra Van şəhərini ələ keçirdi [174$^{b}$, 69].

Əmir Teymur Azərbaycana ikinci yürüşü zamanı Qara Yusifin rəhbərliyi altında Qaraqoyunluların cidi müqaviməti ilə qarşılaşdı. Teymur ordusu 1395-ci ildə Qara Yusifin qardaşı Misir Xocanın müdafiə etdiyi Avnik qalasını mühasirəyə aldı. Qala müdafiəçiləri düşmənə ciddi müqavimət göstərdi. Avnik qalasının mühasirəsi 43 gün davam etdi. Misir Xoca Əmir Teymur tərəfindən əsir alınaraq Səmərqəndə göndərildi və öldürüldü [174$^{b}$, 72]. Qeyd etmək lazımdır ki, Əmir Teymur Azərbaycana yürüşləri zamanı qaraqoyunluların ciddi müqaviməti ilə qarşılaşdı. Teymurun zərbələri altında onlar məğlub olsa da, ona itaət göstərməkdən imtina etdilər.

Əmir Teymurun ölümündən sonra Azərbaycanda onun varisləri arasında səltənət uğrunda gedən mübarizədən bacarıqla istifadə edən Qara Yusif Teymuri şahzadələri üzərində parlaq qələbə qazandı. 1408-ci ildə o, Şərqi Anadolu, Azərbaycan və İraqi Əcəm bölgələrini teymurilərdən təmizlədi və bu bölgələr tamamilə Qaraqoyunluların əlinə keçdi [161, 66]. Bu vaxtdan etibarən Qaraqoyunlu-Teymuri münasibətlərinin yeni dövrü başladı.

İsmayıl Aka belə hesab edir ki, Azərbaycanda Qaraqoyunlu dövlətinin yaranmasından sonra bu dövlət Teymurilərin

təhlükəli qonşusuna çevrildi [165, 59]. Müəllifin bu fikri ilə razılaşmaq mümkündür. Çünki Azərbaycan Qaraqoyunlu dövləti yenicə yaransa da, dövrünün ən güclü dövlətlərindən biri olan Teymurilər dövləti üçün ciddi təhlükəyə çevrilmişdi. Az bir müddət ərzində Teymurilər dövlətində öz hakimiyyətini möhkəmləndirmiş olan Sultan Şahrux Qaraqoyunlu dövlətinin qüdrətinin artmasından və İranın şərq torpaqlarının onun nəzarəti altına keçməsindən çox narahat idi. Çünki Teymuri sultanı da həmin torpaqlarda möhkəmlənmək və başçılıq etdiyi Xorasan dövlətinin hüdudlanı qonşu ölkələr hesabına genişləndirmək niyyətində idi [91, 59; 133, 80]. İsmayıl Aka qeyd edir ki, qaynaqlar 1414-cü ildə Qara Yusifin elçisinin Herata bir məktub gətirdiyi haqda məhımat verir, lakin elçinin hansı məqsədlə gəldiyi bilinmir [Bax: 67, 170; 11, 210; 165, 60;166, 104].

Qaynaqların məlumatına görə, 1415-ci il martın 26-da Şahruxun Qara Yusifın yanına göndərdiyi elçi Həsənək Herata qayıtmış və ona xəbər gətirmişdi [67, 171; 11, 210]. Qaynaqlar bu dəfə də elçinin hansı məqsədlə göndərildiyi haqda məlumat vermirlər. İsmayıl Aka yazır ki, 1415-ci il aprelin 11-də Qaraqoyunlu hökmdarı gözəl natiqliyi ilə tanınan adamlarından Mərdanşahı elçi sifəti ilə Herata göndərdi. Hökmdar «əgər Şahrux Sultaniyyə vilayətini mənə vermiş olarsa, onun hakimiyyətini qəbul edəcəyinə və göstərdiyi kimi hərəkət edəcəyinə» söz verdiyini bildirmişdi [165, 60; 164, 14; 166, 104-105]. «Herat hakimi isə bu sədaqət və əhdi-ilqarın, elçilərin gedib-gəlməsini, oğlanlarından birini Herata – onun sarayına göndərməsi ilə sübut olunacağını və bütün bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə Sultaniyyəyə qədər olan ərazini Təbriz hakiminə tərk edəcəyini bildirmiş və elçiyə geri qayıtmaq izni vermişdi» [11, 218; 313, 95; 165, 60; 91, 92].

Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanan Ş.F.Fərzəliyev yazır ki, Qara Yusif Sultan Şahruxun bu təklifinə razı olmadı. Çünki o, oğlunu Xorasan sarayına göndərməklə hökmən Şahruxdan asılı vəziyyətə düşəcək və tam müstəqil hərəkət edə bilməyəcəkdi. Digər tərəfdən isə Azərbaycan hökm-

darına oğlunu girov göndərməsini tələb etməsi qaraqoyunluların qüdrətinin get-gedə artmasından Şahruxun narahat olduğunu, həyacan keçirdiyini bir daha təsdiq edir [91, 92]. Faruq Sümerin fikrincə, Qara Yusifın Şahrux qarşısında qoyduğu tələbində məqsədi, teymurilərdən gələcək təhlükənin qarşısını almaqdan daha çox, beynəlxalq ticarət mərkəzi olan Sultaniyyə şəhərinə asanlıqla yiyələnmək niyyəti olmuşdu [313, 95].

Şübhəsiz ki, Qara Yusif Şahruxun verdiyi cavabdan çox qəzəblənmiş və qoşun yeridərək Sultaniyyə şəhərini, az sonra isə Həmədanı, Taromu və Qəzvini ələ keçirmişdi. Qara Yusifin bu tədbirləri onun Şahruxla münasibətlərinə öz mənfi təsirini göstərməyə bilməzdi. Qaraqoyunlu-Teymuri münasibətləri get-dikcə pisləşmiş və labüd müharibə vəziyyətinə çatmışdı [133, 80-81].

1420-ci ildə başlıca məqsədinə sülh yolu ilə çatmaq istəyən Teymuri hökmdarı yaxın adamlarından Sadıq adlı bir nəfəri məktubla Azərbaycana göndərdi və Qaraqoyunlu hökm-darını itaətə çağırdı [Bax: 43, 122; 164, 16; 313, 105; 91, 93]. Qara Yusif Şahruxun elçisinə rədd cavabı verərək onu geri qay-tardı. Həsən bəy Rumlu bununla bağlı yazır ki, Herata dönən Sadıq Sultan Şahruxa Qara Yusifin o diyarda özünü müstəqil bir padşah kimi apardığını, ətraf hakimlərin və sərdarların ona tabe olduğunu, qalaları möhkəmləndirib müxalifət bayrağını açdığını, heç zaman sultanın gücündən və ordusunun qüvvəsindən qorxub çəkinmədiyini, çoxsaylı əsgərlərinin olduğunu bildirmişdi [43, 122-123].

Elçinin bu məlumatı Teymuri hökmdarının Azərbaycana yürüşə qərar verməsinə səbəb oldu. Həsən bəy Rumlunun qeyd etdiyi kimi, Teymuri ordusunun ön qüvvələrinin komandanı Xarəzm valisi Əmir Şah Məlik Payəndə adlı mülazimini Qara Yusifin yanına göndərərərk: "Şahrux şanslı, məqsədinə çata bilən, Teymur taxtında oturan bir padşahdır. Əlini Sultaniyyə qalasından və Qəzvindən çək. O zaman, o həzrətdən Azərbaycan və İraqi Ərəb məmləkətlərindən Rum və Şam sərhədlərinə kimi uzanan yerləri sənə tərk edərək dönməsi üçün yalvarıram" təkli-

fini vermişdi. O, qəti şəkildə bu təklifə boyun əymədi və elçini həbs etdirdi [Bax: 43, 126; 313, 107; 167, 118]. Qara Yusifin Teymuri elçisi qarşısında söylədiyi fikirlər onun düşmən qarşısından qorxub çəkinmədiyini bir daha nümayiş etdirir. "Mən bu ölkəni zirehi dəlib keçən qılıncımla aldım. Məndən də qılıncla alına bilər. Asan alına bilər deyənə təəccüb edərəm. Bir kimsənin təhdidindən qorxacaq və boş səs-küydən çəkinəcək uşaq deyiləm. Mən nə filosof sözüylə qorxudulacaq hər şeydən xəbərsiz bir dəli, nə də savaşda ayağım daşa çarpacaq deyə qorxan bir əclafam. Mən Padşaham. Mən aslanam, arxadan gedəcək köpək deyiləm" [43, 126-127].

Göründüyü kimi Heratdan Azərbaycan üzərinə yürüşə qərar verən Sultan Şahrux Qara Yusifin nə qədər təhlükəli bir rəqib olduğunu yaxşı bilirdi. Buna görə də, qardaşı Miranşahın qisasını almaq arzusu, Azərbaycan və İraqi Ərəb üzərindəki qanuni hüququ ilə bağlı heç bir tələb irəli sürməyərək, yalnız Qara Yusifdən hakimiyyətini tanımasını tələb etmişdi [313, 107]. F.Sümer düzgün olaraq qeyd edir ki, şübhəsiz ki, bunu yalnız Sultan Şaxruxun barışdırıcı mövqeyi deyil, Qaraqoyunlu hökmdarının qüvvətli olması şərtləndirmişdi. Qara Yusifin son hərəkəti hər kəsdən çox Şahruxa mənəvi təsir göstərərək onu Allahdan yardım istəməyə vadar etmişdi. Qələbə qazanmaq üçün Allaha yalvaran Şahrux yanındakı hafizlərinə Quranın Fəth surəsini 12 min dəfə oxutmuşdu. Bütün bunlar böyük bir imperiyanın başında dayanan Şahruxun Azərbaycan hökmdarı Qara Yusifi nə qədər təhlükəli bir rəqib olduğunu qəbul etdiyini göstərər [313, 107-108].

Sultan Şahruxun Azərbaycana yürüşünün başlıca məqsədləri haqqında türk tarixçiləri müxtəlif fıkirlər irəli sürmüşlər. Z.V.Toğan belə hesab edir ki, Şahruxun bu yürüşdə əsas məqsədi Qaraqoyunlu dövlətinin varlığına son qoymaq idi [335, 364]. F.Sümerin fıkrincə, Şahruxun məqsədi Azərbaycan və İraqi-Ərəbi, qismən də İraqi-Əcəmi Qara Yusifın əlindən almaq və ya onu tabe hökmdar vəziyyətinə salmaq olmuşdu [313, 104; 133, 81].

Ismayal Akaya görə, Şahruxun Qaraqoyunlular tərəfindən ələ keçirilmiş Qəzvin və Sultaniyyə şəhərləri ilə İraqi-Əcəm bölgəsini geri almaq istəyi bu yürüşə səbəb olmuşdu. Onun təbirincə, Əmir Teymurun ölümündən sonra bölgədə qüdrətli bir qüvvə kimi meydana çıxan və Miranşahı öldürərək teymurilərin hakimiyyətinə son qoyan Qaraqoyunlu türklərinə qarşı Cığatayların intiqam hissini də buraya əlavə etmək lazımdır [162, 16; 167, 116]. İ.P.Petruşevskinin fıkrincə, Şahrux Azərbaycanı bilavasitə qəsb etmək fıkrində deyildi. O, yalnız Şərqə doğru, yəni İranın içərilərinə tərəf öz sərhədlərini genişləndirməyə çalışan Qaraqoyunlu dövlətinin getdikcə artmaqda olan qüdrətini sarsıtmaq istəyirdi [145, 59; 133, 81].

M.Seyfəddini Şahruxun Azərbaycana yürüşü ərəfəsində Qaraqoyunlu dövlətinin iqtisadi və siyasi vəziyyətinin möhkəm olmadığını, oğlanları – Şahməhəmədin Bağdadda, İsgəndərin Korqutda, Əbu Səidin Ərzincanda möhkəmlənərək atasına heç bir yardım göstərmədiyini qeyd edir [430, 178]. Lakin onun fıkrini ilk qaynaqlar təsdiq etmir. Qara Yusifin öz qoşunu ilə Şahruxa qarşı irəlilədiyi zaman Osmanlı Sultanı I Mehmedə göndərdiyi məktubda oğlanlarından Cahanşahın Sultaniyyədə, Şahməhəmmədlə bir mənzillik qaravulliyə göndərildiyini və Qara İsgəndərin 20 minlik süvari ilə arxada pusquda dayandığı barədə məlumat verilir [Bax: 9, 195-196; 34, 158-159].

Şahruxun və Qara İsgəndərin Sutan I Mehmedə məktubunda Qara Yusifın ölümündən sonra oğlanlarından Şahməhəmmədin və İsfahanın öncə Bərdə və Gəncə, sonra isə Naxçıvan dağlarına qaçdığı, Cahanşahın Ərcişə, Qara İsgəndərin isə Mirzə Baysunqura məğlub olaraq Çapaxcura – Qara Osmanla savaşa getdikləri qeyd olunmaqdadır [Bax: 9, 203-205; 34, 160-163]. Göstərilən faktlar bir daha sübut edir ki, Şahruxla döyüş ərəfəsində Qara Yusifin oğlanları onun yanında olmuşlar.

Qara Yusifin Ucanda ölümündən (1420-ci il noyabrın 13) sonra Şahrux heç bir müqavimətə rast gəlmədən Azərbaycanı ələ keçirdi. F.Sümer Hafiz Əbrunun verdiyi məlumatlara əsaslanaraq yazır ki, Qara Yusifin oğlanları Qara İsgəndər və

İsfahan bir neçə dəfə elçi göndərərək barışıq təklif etsə də, Şahrux qəbul etmədi. Ağqoyunlu Qara Osmanın təhriki ilə Şahrux Qara İsgəndərə qarşı döyüşə girməyə qərar vermişdi. Türkiyə tarixçilərindən F.Sümer və İ.Akanın əsərlərində bu döyüşlə bağlı geniş məlumat verilmişdir. 1421-ci il iyulun 30-da Ələşkərddə Şahruxun 200 minlik ordusu Qaraqoyunluların 30-40 minlik ordusu ilə döyüşə girmişdi. Teymuri ordusunda döyüş fillərinin olması Qara İsgəndəri narahat etmişdi. Çünki Qaraqoyunlu süvariləri tamamilə fil görməmişdi. Buna görə, atlarını fillərə qarşı alışdırmaq üçün tarixdə ilk dəfə olaraq o, iri gövdəli öküzlərin belinə saman çuvalları yükləyərək onları döyüş fillərinə bənzətməyə çalışmışdılar. Həmçinin palçıqdan fil heykəlləri hazırladaraq üstündə silahlı adamlar oturdaraq atlarını onların üzərinə sürərək onların hürkməsinin qarşısını almağa çalışmışdı [313, 121; 167, 123].

1421-ci il iyulun 30-da Aləşkərddə Şahruxun ordusu Qaraqoyunlu qoşunu ilə döyüşə girdi. Qaraqoyunlu ordusunun sağ cinahına Pir Hüseyn Sədlu rəhbərlik edirdi. Onun qardaşı Pir Məhəmməd ilə Qorqan və Sorqan Alpaud da bu cinahda yer almışdı. Ordunun sol cinahına İsfahan Mirzə rəhbərlik edirdi. Onun yanında Bayram bəy və oğlu Şahsuvar bəy yer almışdı. İsgəndər öz qüvvələri ilə mərkəzdə yerləşmişdi.

Teymuri ordusunun sağ cinahında Fars valisi Şahruxun oğlu İbrahim Sultan, onun əmisi oğlu, İsfahan valisi Rüstəm Mirzə, Əmir İbrahim Caku, Əmir Şeyx Loğman Bərlas, Əmir Mihrab Tərhan, sol cinahda isə Əmir İbrahim, Əmir Cahanşah, Əmir Ələəddin Aligə, Əmir Fərman Şeyx, Əmir Cəlaləddin Firuzşah və Qara Yülük Osman yer almışdı. Şahrux mərkəzdə yerləşmişdi. Mazandarandan gətirilmiş fillər mərkəzdəki qüvvələrin qarşısında düzülmüşdü. Onların arxasında da oxçular yer almışdı [Bax: 13, 68; 313, 122; 167, 123-124].

F.Sümer yazır ki, mərhum Qara Yusifin komandanlığı altında daim hücum etməyə alışmış olan Qaraqoyunlular bu döyüşdə də həmin üsuldan istifadə etdilər [313, 122]. İyulun 30-da çərşənbə günü döyüşün birinci günü İsgəndərin sağ cinahı

Cığatayların sol cinahı üzərinə hücuma keçdi. Əbubəkr Tehrani yazır ki, İsgəndər Mirzə qılıncını çəkib dəryaların nəhəngi kimi cövlana gəldi. Hər tərəfdən qan arxları Araz çayı kimi axırdı. Əmir Firuzşahın qüvvələrindən ibarət Həzrət xaqanın col cinahı aşiqlərin ürəyi, məşuqların zülfü kimi pərişan olub dağıldı. Həmin gün hicran gecəsi və ayrılıq dəmi kimi Cığataylar üçün qara və puç oldu [13, 69]. Qaraqoyunlularla döyüşün çətin olacağını anlayan Şahrux gecə hücumundan qorunmaq üçün ordunun önündə xəndək qazdırdı və gecə növbəsi təşkil etdirdi. Döyüşün ikinci günü sübhdən tərəflər arasında döyüş yenidən qızışdı. Pir Hüseyn bəyin rəhbərlik altında Qaraqoyunluların sağ cinahı Şahrux ordusunun sol cinahına şiddətli zərbə vuraraq onu ağır məğlubiyyətə uğratdı. Lakin axşama doğru Şahrux ordusunun sol qolu bərpa olundu və hətta Pir Hüseyn bəyi əsir aldı. Bu zaman mərkəzdən hücuma keçən İsgəndər böyük igidliklər göstərdi. Lakin döyüşün bu günü də nəticəsiz başa çatdı. Teymuri hökmdarı bu gecə də ordunun qarşısında xəndək qazdırdı və gecə növbəsi təşkil etdirdi. Avqustun 1-də döyüşün üçüncü günü sübh açılanda Cığatay ordusunun sağ cinahı Qaraqoyunluların sol cinahına – İsfahan Mirzə üzərinə hücuma keçərək onu məğlub etdi. Bunu görən İsgəndər vəziyyəti düzəltmək üçün Şahruxun mərkəzi qüvvələri üzərinə hücum etdi. Baysunqur Mirzə, Əmir Şahməlik və Əmir Şeyx Loğman Bərlas onun igidliyi qarşısında dayana bilməyərək qaçmağa məcbur oldular. İsgəndər hücumu davam etdirərək qarşısına keçən fillərin hortumlarını kəsərək onların arxasında olan oxçu dəstəsini də dağıtdı. İsgəndərin bu hücumundan Cığataylar ciddi təlafat verdi. Qaraqoyunlu ordusunun sağ cinahı komandanlarının əsir düşməsinə baxmayaraq hücumu davam etdirərək Şahruxun sol cinahına ciddi zərbə vurdu. Bəzi əmirlər öldürüldü. Onlar arasında Müşrif Xoca Məhəmməd də var idi. Şahruxun qərargahına kimi irəliləyən qaraqoyunlular onun ərzaq və sursat daşıyan dəvə karvanını ələ keçirməyə başladılar [313, 122; 167, 124].

F.Sümer yazır ki, Teymuri tarixçilərinin etiraf etdiyi kimi zəfər Qaraqoyunlular tərəfindən qazanılmaq üzrə idi. Bunu

görən Şahrux səccadə sərdirərək Allaha yalvarmağa başladı. Qaraqoyunlular daha bir həmlə vursaydılar qələbəni qəti olaraq təmin edəcəkdilər. Lakin Şahrux ordusunun sayca üstün olması buna imkan vermədi. Bu zaman Şahruxun yanında olan Əmir Şah Məlik təbillər çaldıraraq İsfahan Mirzənin əsir alındığını elan etdi. Həmin vaxt mərkəzdə yer alan Baysunqur beş minlik qüvvə ilə sol cinahın yardımına yetişərək onu çətin vəziyyətdən qurtarmış oldu. Şahrux əsas qüvvələrlə hücuma başladı. Qaraqoyunlular qüvvələrinin azlığı üzündən pozulmuş olan döyüş nizamını bərpa edə bilmədikləri üçün döyüş mövqeyini tərk etməyə məcbur oldular [313, 122-123; 167, 124].

Beləliklə, Aləşkərd düzündə baş verən döyüşdə Sultan Şahrux Qaraqoyunlulardan sayca dəfələrlə üstün olan qüvvələri və döyüş fillərindən istifadə edərək böyük çətinliklə qələbə qazandı. Teymuri hökmdarı əldə etdiyi bu qələbə ilə bağlı ətrafa zəfərnamələr göndərərək döyüş mövqeyini tərk edərək Səmərqəndə dönməyə qərar verdi.

Faruq Sümer və İsmayıl Aka Teymuri tarixçilərinin verdiyi məlumata əsaslanaraq qeyd edirlər ki, Şahrux Azərbaycan hakimliyini oğlanlarına və böyük əmirlərinə təklif etdi, lakin onların heç biri «İsgəndərdən qorxduqlarına görə» bu təklifi qəbul etmədi. 1421-ci ilin oktyabrında o, hakimiyyəti Ağqoyunlu Qara Osmanın böyük oğlu Əli bəyə vərərək Xorasana qayıtdı [313, 123-124; 167, 125; 133, 82]. Bu zaman İsgəndər Kərkükə çəkilmiş, qardaşı İsfahan Mirzə isə Şərqi Anadoluda qalmışdı. O, Şahruxun Azərbaycanı tərk etdiyini xəbər alaraq topladığı qoşunla Ağqoyunlu Əli bəyin üzərinə hərəkət etdi. Əli bəy ona müqavimət göstərə bilməyərək Diyarbəkrə çəkildi. İsfahan Mirzə Əlincə qalasında möhkəmləndi, sonra isə Təbrizə gəldi. Əbubəkr Tehrani bununla bağlı yazır: "İsgəndər İsfahan bəyin Azərbaycanda şöhrətinin günbəgün artdığını görəndə, üzünü Təbrizə tutdu və Təbrizi, Əlincək qalasını İsfahan bəyin əlindən alıb onu Azərbaycandan çıxarmaq istədi. İsfahan bəy qaçıb Avnikə və Ərzruma getdi" [13, 73].

Türkiyə tarixçilərinin qənaətinə görə, Qaraqoyunlu hökm-

darı bir neçə il ərzində Şahruxun yürüşü zamanı Qarabağa gələrərək ona itaət göstərmiş olan Bidlis hakimi Əmir Şəmsəddini, Van hakimi İzzəddin Şiri və onun oğlu Hakkari hakimi Məlik Əhmədi öldürtmüş və Van bölgəsini oğlu Yar Əliyə vermişdi. 1428-ci ildə İsgəndər Sultaniyyəyə yürüş edərək şəhəri ələ keçirdi. Rey hakimi İlyas Xocanın oğlu Əbhər, Qəzvin və Zəncanı idarə edən Yusif Xocanı məğlub edərək əsir aldı və bu bölgələrin idarəsini Dəli Əhmədlə Əbdül bəyə tapşıraraq Təbrizə döndü [313, 127-128; 167, 140-141].

İsmayıl Akanın fikrincə, Cığatay hökmdarının bu olanları qəbul etməsi mümkün deyildi. O, Qaraqoyunlu hökmdarı İsgəndəri cəzalandırmaq və müttəfiqi olan Ağqoyunlular üzərinə yürüş edərək Ərzincanı mühasirəyə alan Məmlükləri qorxutmaq üçün Azərbaycana ikinci yürüşə hazırlıq gördü. Mirzə Baysunqur, Əmir Alikə Kükəldaş və Şeyx Loğman Bərlasın rəhbərliyi altında ön qüvvələri göndərdi. 1429-cu il aprelin 10-da o, Heratdan hərəkətə başladı [167, 141].

Teymuri sultanı iyunun 7-də Reyə gələrək burada bütün qüvvələrini topladı və 100 minlik süvari ilə Azərbaycana hərəkət etdi. Avqustun 2-də Şahrux Şəmbi-Qazan səmtindən Təbrizə daxil oldu. Bu zaman İsgəndər öz ordusunu Salmasda toplayaraq Şahruxu gözləyirdi. F.Sümer yazır ki, Qaraqoyunlu hökmdarının ordusunun yerləşdiyi ərazinin bir tərəfini dağ, digər tərəfini isə çay əhatə edirdi. İsgəndər təbii maneələrdən istifadə edərək düşmənin Qaraqoyunlu ordusunu mühasirəyə almasına imkan verməməyə çalışırdı [313, 128].

Həsən bəy Rumlunun verdiyi məlumata görə, İsgəndərin 50 minlik ordusunda piyada əsgərlər də yer alırdı. Görünür o, vaxtı ilə atasının həyata keçirə bilmədiyi döyüş taktikasını tətbiq etməyi düşünürdü. İsgəndər özü ordunun mərkəzində, qardaşı Əbu Səid sağ cinaha, Cahanşah da sol cinaha rəhbərlik edirdi. Cığatay ordusunda isə mərkəzdə Şahrux, sağ cinaha İbrahim Sultan, sol cinaha Baysunqur Mirzə, ehtiyat qüvvələrə də Cuki Mirzə rəhbərlik edirdi. Ağqoyunlu Qara Osman, Şirvanşah Xəlilüllah və Gavərud hakimi Baba Hacının qüvvələri də Şah-

ruxun yanında yer alırdı [Bax: 43, 197; 313, 128-129; 167, 141]. Şahrux ordusunda döyüş filləri də vardı. Həsən bəy Rumlu yazır: " ... Onlar döyüş meydanında bulud və külək kimi dolaşmağa və coşmağa başladılar" [43, 197].

1429-cu il sentyabrın 17-də sübh çağı Teymuri İbrahim Sultanın Qaraqoyunlu ordusunun sol cinahına – Cahanşahın üzərinə hücumu ilə tərəflər arasında döyüş başladı. F.Sümer Əbdürrəzzaq Səmərqəndinin verdiyi məlumata əsaslanaraq yazır ki, Cığatay ordusunun mərkəz və sol cinahından heç kim İsgəndərlə döyüşə girməyə cəsarət etmədi. İbrahim Sultanın Cahanşah üzərində üstünlük qazandığını görən İsgəndər ona qarşı hücuma keçdi və "ağılın təsəvvür etmədiyi bir qəhrəmanlıq göstərərək hər kəsi heyrətlər içərisində buraxdı". Bununla da İsgəndər ordusunun pozulmuş nizamını bərpa edərək üstünlüyə yiyələndi [313, 129; 147, 142]. Tərəflər gecəni keçirərək sentyabrın 18-də bazar günü sübhdən yenidən döyüşə başladı. İsgəndərin göstərdiyi igidliklər Qaraqoyunlu ordusunun mərkəz və sol cinahda üstünlüyə yiyələnməsinə səbəb oldu. Bu vəziyyət Mirzə Baysunqurun sol cinahdan hücuma keçməsinə səbəb olsa da, Qaraqoyunlu ordusunun sağ cinahı bu hücumu müvəffəqiyyətlə dayandıra bildi. Hətta digər cinahlardan aldığı yardım hesabına hücuma keçərək düşməni geri oturtdu. Döyüşün heç də istədiyi kimi getmədiyini görən Şahrux bütün ehtiyat ordusunu oğlu Məhəmməd Cuki Mirzənin rəhbərliyi altında döyüşə daxil etdi. Teymuri ordusunun ehtiyat hissələrinin döyüşə daxil olması onun gedişinə öz təsirini göstərdi. İki gün ərzində çoxsaylı düşmən ordusuna qarşı qəhramancasına vuruşan, lakin heç yerdən əlavə kömək almayan yorğun Qaraqoyunlu ordusu Şahruxun hücuma göndərdiyi əlavə qüvvələr qarşısında dayana bilməyərək döyüş meydanını tərk etdi [313, 129; 147, 142].

Teymuri hökmdarı Cuki Mirzəni 20 minlik qüvvə ilə İsgəndəri təqib etmək üçün göndərsə də, Ərciş yaxınlığında Qaraqoyunlu hökmdarının Cığataylara vurduğu zərbə onların təqibdən əl çəkərək geri dönməsinə səbəb oldu.

Beləliklə, Teymuri hökmdarı Qaraqoyunlu İsgəndər üzə-

rində Salmas döyüşündə çətin qələbə qazandı. O, noyabrın 17-də qışı keçirmək üçün Qarabağa gəldi. F.Sümer yazır ki, Şahrux qazandığı qələbəyə baxmayaraq, Azərbaycanda Qaraqoyunluların hakimiyyətini aradan qaldırmağa qadir olmadığını anladı. Buna görə də o, Qara Yusifin oğlanları arasında gedən rəqabət və düşmənçilikdən istifadə etməyi münasib bildi. O, yaranmış vəziyyətdə İsgəndərin qardaşlarına hakimiyyətini tanıtmaq şərti ilə nəzarətlərində olan bölgələrdə hakim qalacaqlarını bildirdi [313, 130; 74, 82; 130, 10].

Şübhəsiz ki, Qara Yusifin oğlanları arasında birliyin olmaması Teymuri hökmdarına Qaraqoyunlu ordusu üzərində qələbə qazanmağa imkan yaratdı. Bu zaman İsgəndərin qardaşları ilə münasibəti hələ də gərgin olaraq qalırdı. Beş qardaşdan ən böyüyü olan Şah Məhəmməd Bağdad hakimi olduqdan sonra demək olar ki, ailəsi ilə əlaqəni kəsmişdi. İsfahan Mirzə atasının ölümündən sonra Sədlu əmirlərinin yardımı ilə hakimiyyətdə möhkəmlənməyə çalışsa da, İsgəndərə qarşı dayana bilməyərək Ərəb İraqına çəkildi və yüngül həyat keçirən qardaşı Şah Məhəmməddən Bağdad hakimliyini aldı. İsgəndərin digər qardaşı Cahanşah Van gölü ətrafındakı qalaları idarə etsə də, istədiyi əraziləri vermədiyi üçün qardaşına qəzəblənərək Bağdada çəkilsə də, bir müddət sonra İsgəndərlə barışaraq ona sədaqətlə xidmət etdi. Qara Yusifin ən kiçik oğlu Əbu Səid isə Ərzincanı idarə etsə də, atasının ölümündən sonra buranı tərk etmişdi. Onun Azərbaycanın və ya Şərqi Anadolunun harasında yaşaması barədə mənbələr dəqiq məlumat vermirlər. F.Sümerin fikrincə, Əbu Səidin qardaşı İsgəndərlə münasibəti yaxşı olmadığı üçün 1430-cu ilin qışını Qarabağda keçirən Şahruxun hüzuruna gəldi. Əbu Səid Cığatay hökmdarından ümid etdiyi iltifatı gördüyü üçün ona Azərbaycan hakimliyi həvalə edildi. [313, 130-131; 167, 143].

1430-cu il mayın 9-da Teymuri hökmdarı Qarabağı tərk edərək Xorasana qayıtdı. Sultan Şahrux tərəfindən Qaraqoyunlu taxt-tacında oturdulan Əbu Səid altı aya yaxın hakimiyyətdə qala bildi. Azərbaycana dönən İsgəndər onu öldürərək hakimiy-

yəti öz əlinə aldı. Bu zaman Van şəhəri və ətrafı İsgəndərin oğlu Yar Əlinin idarəsində idi. Onun əhali üzərinə əlavə vergilər qoyması xalqın narazılığına və İsgəndərə şikayət etməsinə səbəb oldu. Azərbaycan Qaraqoyunlu hökmdarı oğlunu hüzuruna çağırsa da, o, qorxduğu üçün atasının yanına gəlməkdən imtina etdi və Şirvanşah Xəlilüllaha sığındı*. Şirvanşahın Teymuri hökmdarı Şahruxla münasibətləri qohumluq əlaqəsi ilə daha da möhkəmlənmişdi. Xəlilüllah Şahruxun Azərbaycana birinci yürüşü zamanı onun qardaşı Əbu Bəkrin qızı ilə evlənmişdi. Şirvanşah İsgəndərin tələbini rədd edərək onun oğlu Yar Əlini dəniz yolu ilə Herata göndərdi. Buna görə, 1434-cü ilin ortalarında Qaraqoyunlu hökmdarı Şirvana yürüş edərək onu talan etdi. Xəlilüllah Mahmudabad qalasına sığınaraq sentyabrın 12-də Xalıqverdi adlı nümayəndəsini Herata göndərdi və ölkənin görünməmiş şəkildə viran və qarət edildiyini Şahruxa xəbər verdi. Xəlilüllah eyni zamanda Ağqoyunlu Qara Osmandan da yardım istədi. Ağqoyunlu hakimi dərhal böyük qoşunla Diyarbəkrdən hərəkət etdi və Ərzurum şəhərini mühasirəyə aldı. Şəhəri idarə edən Qaraqoyunlu hakimi Düharlı Pir Əhməd bəy ciddi müqavimət göstərsə də, son nəticədə şəhəri Qara Osmana təslim etdi [313, 133; 167, 150]. Əbubəkr Tehrani yazır ki, Ağqoyunlu Qara Osman Ərzurumu ələ keçirdikdən sonra Mehtər Bayəzidi Xəlilülahın elçisi ilə birlikdə Gilan yolu ilə Şahrux Mirzənin yanına yola saldı. Artıq Xalıqverdi onlardan əvvəl gəlmiş və əhvalatı şərh etmişdi. Elə ki, Mehtər Bayəzid Ərzurumun fəthi, Azərbaycanın bəzi vilayətlərinin qarət olunması, Osman bəyin Şirvan əmirinə yardımı barədə xəbəri çatdırdı, həzrət xaqanın İsgəndərə qarşı qəzəbi şiddətləndi. Sonra həzrət xaqan

* İsmayıl Aka Məmlük tarixçisi Məqrizinin verdiyi məlumata əsaslanaraq yazır ki, İsgəndər Şirvana yürüş edərək Şirvanşah Xəlilüllahla vuruşdu, lakin ova çıxdığı zaman Xəlilüllah onun qərargahına hücum edərək oğlunu, qızını və xanımını əsir apardı. O, İsgəndərin oğlunu Herata göndərdi, qızını və xanımını yanında saxladı. Buna qəzəblənən Qaraqoyunlu hökmdarı Şirvanın hər tərəfini qarət edərək dağıtdı, Xəlilüllahın xanımını və qızını əsir apardı [Bax: 167, 149 qeyd 278].

Şirvana kömək etmək və İsgəndəri dəf etmək üçün Azərbaycana tərəf hərəkət etdi [13, 78].

Dövrün qaynağının təsdiq etdiyi kimi, Azərbaycanda baş verən hadisələr Qaraqoyunlu-Teymuri münasibətlərinə mühüm təsir göstərərək onu daha da gərginləşdirdi. Şirvanşah Xəlilüllahın yardım üçün müraciət etməsi, Məmlük ordusunun Diyarbəkri mühasirəyə alması və Qaraqoyunlu şahzadələri arasındakı münasibət Teymuri hökmdarını Azərbaycana üçüncü yürüşə çıxmağa vadar etdi. Lakin Teymuri əmirlərinin heç də hamısı Şahruxun bu qərarına müsbət yanaşmadı. Onlar Mirzə Baysunqurun ölümü ilə bağlı ordunun döyüş qabiliyyətinin zəiflədiyini əsas gətirərək öz etirazlarını bildirdilər. Teymuri əmirləri əvvəllər həyata keçirilən yürüşlərin bir fayda vermədiyini bildirərək bu yürüşə heç bir lüzum olmadığını hökmdara çatdırdılar. Lakin Əmir Firuzşahın təşviqedici sözləri Şahruxun yürüşə qərar verməsinə öz təsirini göstərdi [8, 243; 313, 133; 167, 151].

1434-cü il noyabrın 5-də Teymuri hökmdarı qışın yaxınlaşmasına baxmayaraq Heratdan Azərbaycana üçüncü yürüşünə başladı. Fevral ayında Reyə çatan Şahrux şiddətli soyuqlar düşdüyü üçün əmirlərin tövsiyyəsi ilə burada dayanmalı oldu. F.Sümer yazır ki, Şahrux Reydə olan zaman Qaraqoyunlu əmirlərindən Aslan qalasının hakimi Türkman Əbdüləziz, ardından da Bayəzid bəy Cagirli, Ağa Piri, Seyid Əhməd Dizək, Yaqub bəy Alpaut onun hüzuruna gələrək itaət etdiklərini bildirdilər. Şahrux Ağa Pirinin yanına əmirlərindən Çaxmaq və Kanaşirini qoşaraq daha öncə hakimiyyətini tanımış olan və İsgəndərlə münasibətləri yaxşı olmayan Van hakimi Cahanşahın yanına göndərdi və onu mükafatlandırmaq üçün yanına çağırdı [313, 133-134; 167, 152]. İ.Aka Teymuri tarixçisi Cəfərinin “Böyük tarix” əsərində bu hadisənin Şahrux Reydə olduğu zaman yox, Xoya gəldiyi zaman baş verdiyini yazır. Onun fikrincə, Şahrux Xoya gəldiyi zaman Əmir Çaxmaq və Kanaşirini Vanda olan Cahanşahın yanına göndərdi. Onlar Fərağan kəndinə çatan zaman bundan xəbər tutan Cahanşah Pir Əhməd bəyi itaət etdiyini bildirmək üçün onların yanına göndərdi. Pir Əhməd Cığatayları

Van qalası ətrafına gətirdiyi zaman, Cahanşah öncə Əmir Bayəzidi onların hüzuruna göndərdi, daha sonra isə özü qaladan çıxaraq Cığatayların şərəfinə ziyafət təşkil etdi, lakin Şahruxun hüzuruna getməyə üzü olmadığını bildirdi. Teymuri əmirləri Şahruxun onu bağışladığını söylədiyi üçün Cahanşah onlarla birlikdə Teymuri hökmdarının hüzuruna gəldi [Bax: 167, 152 qeyd 291].

İ.Aka yazır ki, iyulun 18-də Şirvanşah Xəlilüllah və qardaşı Fərruxzad, onlardan üç-dörd gün sonra da Cahanşah Şahruxun hüzuruna gəldi. Teymuri hökmdarı Cahanşaha hakimiyyət rəmzi olan kəmər və qiymətli daşlarla bəzədilmiş qılınc bağışladı. Şahrux Qaraqoyunlu əmirlərini də Cahanşaha qoşaraq İsgəndərin nəzarət etdiyi əraziləri ələ keçirməyə göndərdi. O, oğlu Cuki Mirzə ilə Şirvanşah Xəlilüllahı da İsgəndərin üzərinə göndərdi [313, 134; 167, 152].

Teymuri hökmdarının Azərbaycana irəlilədiyini görən İsgəndər Təbrizi tərk edərək Əlincə qalasına gəldi. Şahrux Təbrizi ələ keçirərək Xoy istiqamətində hərəkət etdi. Qaraqoyunlu hökmdarı İsgəndər isə Bayram bəyin qızı olan xanımı Şahımı oğlu və xidmətçiləri ilə Əlincə qalasında qoyaraq Ərzuruma doğru hərəkət etdi. Şahrux Ağqoyunlu Qara Osmana xəbər göndərərək İsgəndərin Şərqi Anadoluya keçməsinə imkan verməməyi tələb etdi. O, eyni zamanda oğlu Cuki Mirzəni 60 minlik ordu ilə Qaraqoyunlu hökmdarını təqib etməyə göndərdi [313, 134-135; 167, 152].

Əbubəkr Tehrani yazır ki, Qara Osman yaşının çoxluğu, bədəninin zəifləməsi, oğlanlarının və əsgərlərinin gəlib çıxmamsı, bəzi nökərlərinin ölümü səbəbindən pərişan olmuşdu. Onun adamlarının ölümünə səbəb Gürcüstan sərhəddində Döşqaya adlı yerdə ehtiyatsızlıq edib hücum etmələri və İsgəndər Mirzənin evinə və yurduna soxulmaları olmuşdu. Başçılarının olmaması üzündən onların əksəriyyəti həlak olmuşdu [13, 78; 227, 244].

Faruq Sümer və İsmayıl Aka Qaraqoyunlu-Teymuri münasibətlərini, xüsusən də Şahruxun Azərbaycana yürüşlərini ətraflı

şərh etmiş, lakin onun Azərbaycanda yeritdiyi siyasətin mahiyyətini qabarıq şəkildə göstərməmişlər. İsmayıl Aka belə qənaətdədir ki, Şahrux böyük ümidlərlə çıxdığı Azərbaycan səfərlərindən heç bir şey əldə etmədən dönmüş, Şərqi Anadolu, Azərbaycan, İraqi-Ərəb və İraqi-Əcəm bölgələrində Qaraqoyunlu dövləti öz varlığını qoruyub saxlamışdır [165, 72]. M.X.Yınaç və F.Sümerin fıkrincə, Şahrux qazandığı qələbələrə baxmayaraq, Qaraqoyunlu dövlətini aradan qaldıra bilmədi. Buna görə də o, Qara Yusifın oğlanları arasındakı rəqabətdən istifadə edərək, hakimiyyətini tanımaq şərtilə İsgəndərin qardaşlarının Qaraqoyunlu dövlətinin başında qalması ilə kifayətlənməli oldu [358, 174; 313, 130].

Təbiidir ki, Şahruxun Azərbaycanda yeritdiyi siyasət Əmir Teymurun siyasətindən xeyli fərqlənirdi. Şahrux Azərbaycanda böyük hərbi qüvvə saxlaya bilmədiyi üçün dövrün tələbləri ilə hesablaşmış, Azərbaycanı bilavasitə ixtiyarındakı torpaqlara qatmaq fıkrindən çəkinmişdir. Bununla yanaşı o, Azərbaycanda Oara Yusifın başçılığı ilə qüdrətli bir dövlətin təşkil edilməsinə yol verməməyə və Azərbaycanın feodal hakimlərini öz itaətində saxlamağa çalışırdı.

1436-cı ilin yazında Sultan Şahrux Azərbaycan Qaraqoyunlu dövlətinin idarəsini Qara Yusifin kiçik oğlu Cahanşaha tapşıraraq Xorasana qayıtdı. M.X.Yınanç belə hesab edir ki, Şahrux heç bir halda itaət altına alınması mümkün olmayan, yalnız Əhlət, Azərbaycan və İraqi-Ərəb bölgələrini almaqla kifayətlənməyərək tez-tez Əcəm İraqını da ələ keçirməyə çalışan Qaraqoyunluları razı sala bildi. O, Qara Yusifin oğlanlarını öz adından bu bölgələri idarə etməyə vadar edərək imperatorluğunun zahiri birliyini mühafizə etdi. Bununla da o, yarım əsrə qədər Orta Asiya türkləri ilə Anadolu, Azərbaycan, İraqi-Ərəb bölgəsinin türkləri arasında mütəmadi davam edən qanlı müharibələrə son qoymuş oldu [358, 174].

Qaraqoyunlularla Teymurilər arasındakı münasibətlərdə Şahruxun ölümünə qədər (1447) ciddi bir hadisə baş vermədi. Cahanşah Şahruxun ölümündən sonra Teymuri şahzadələri

arasında səltənət uğrunda baş verən mübarizədən istifadə edərək öncə Sultaniyyə və Qəzvini, sonra isə Fars və İraqi-Əcəm bölgələrini tamamilə ələ keçirdi [358, 175-178; 249, 489; 307, 303; 146, 64].

1457-ci ildə Teymuri sultanı Baburun ölümündən istifadə edən Cahanşah şərqə doğru yürüşləri daha da fəallaşdıraraq Mazandaranı ələ keçirdi və Xorasana doğru irəlilədi. Teymuri İbrahim Mirzə məğlub edildi. Qaraqoyunlu hökmdarı Herata daxil olaraq Baği-Zağanda dayandı. Bu zaman Səmərqənddə möhkəmlənən Teymuri Əbu Səidin elçisi Mövlana Nəcmədddin Ömər onun hüzuruna gələrək sülh təklif etdi. Azərbaycan Qaraqoyunlu hökmdarı sülh danışıqlarına razı olaraq öz elçisi Əmir Nizaməddini Teymuri elçiləri ilə birlikdə Əbu Səidin yanına göndərdi. Əmir Nizaməddin ölkəsinin genişliyi Suriya və Rum sərhədlərindən Xorasana kimi uzanan güclü və şöhrətli padşah Cahanşahın bu diyara gəldiyini Əbu Səidə catdırdı. O, məni sizinlə görüşmək və münasibətləri dostcasına möhkəmləndirmək üçün göndərdi. Əbu Səid də sülhə razı olduğunu bidirərək öz elçisini Əmir Nizaməddinlə Cahanşahın yanına göndərdi. Cahanşah sülhə razı oldu. Lakin tezliklə Əbu Səidin elçisinin ardınca onun qoşunla yola çıxdığı xəbəri Cahanşaha çatdırıldı [Bax: 43, 376-378; 72, 62]. Əbubəkr Tehrani yazır ki, bu zaman Pirbudaq Sultan Əbu Səid üzərinə yürüşə getmək üçün atasından icazə istəyərək qərargahdan ayrılsa da, bir fərsəx getməmiş Cahanşah Əbülfəth bəy Cagirlini onun ardınca göndərərək onu bu hərəkətindən çəkindirdi. O, Pirbudağa belə bir sifariş göndərdi: “Onunla döyüşmək bizə münasib deyil, çünki Həsənəli qiyam edib Azərbaycanı öz əlinə keçirib. Buna görə bizim Xorasanda qalmağımız məsləhət deyil. Xəzinəni və məmləkəti onun əlində qoyub Sultan Əbu Səidlə vuruşmaq ağla və düşüncəyə uyğun deyil. Əgər Əbu Səidlə döyüşsək, qələbə ya bizimlə olacaq, ya da onunla. Biz ona qalib gələcəyimiz təqdirdə, Xorasanı əldə saxlaya bilməyəcəyik, çünki düşməni arxada qoyub İraq və Azərbaycana getməli olacağıq. Əgər o, qalib gəlsə, biabırçılıqdan, ləyaqətsizlikdən, cəhalət və qürur odu ilə öz evini

yandırmaqdan başqa bir şey əldə etməyəcəyik. Bu da ağılın göstərişinə ziddir. Yaxşısı budur ki, onunla sülh bağlayıb Azərbaycana yollanaq" [13, 189; 43, 379-380]. Buna görə də, sülh danışıqlarını davam etdirməyə üstünlük verildi. Cahanşah Qazi Abdullahı Sultan Əbu Səidin yanına göndərdi və məsələni sülh yolu ilə həll etmək arzusunda olduğunu bildirdi. Əbu Səid iki tərəf arasında möhkəm sülhün təməli kimi Cahanşahın Azərbaycanla qane olaraq Xorasandan əl çəkməsini bildirdi [Bax: 43, 380; 72, 62]. Tərəflər arasında davam edən sülh danışıqlarının iştirakçısı olan Əbubəkr Tehrani bu barədə yazır: "Hər iki tərəf sülh danışıqlarına başladı. Cahanşah Mirzə tərəfdən Qazi Abdullah getdi və sülh barədə razılıq əldə olundu. Sülh müqaviləsinin mətnini bu bəndə (yəni Əbubəkr Tehrani – T.N.) yazdı. Məzmunu belə idi: Abi-Rövşən sərhəd və Əlaüddövlə Mirzəyə məxsus Astrabadı ayıran nöqtə oldu. Digər Xorasan və Qohestan torpaqları Sultan Əbu Səidə məxsus oldu" [13, 189; 72, 62-63].

Beləliklə, 1458-ci ilin iyulunda Cahanşah Xorasanın baş şəhəri Heratı ələ keçirsə də, burada möhkəmlənə bilmədi. İ.Akanın fikrincə, Cahanşahın Teymuri sultanı Əbu Səidlə bağladığı sülh müqaviləsinə görə, İraqi-Əcəm, Fars və Kirman bölgələri Qaraqoyunlu dövlətinin tərkibində qaldı [165, 83-89].

Qaraqoyunlu Cahanşahla Teymuri Əbu Səid arasında bağlanmış sülhə görə Xorasan bölgəsi Teymurilərə qaytarıldı. Vaxtı ilə Teymurilər dövlətinin tərkibində olan Əcəm İraqi, Fars və Kirman bölgələri Azərbaycan Qaraqoyunlu dövlətinin tərkibində qaldı. Cahanşahın hakimiyyətinin son dövrlərində, əsasən oğlanlarının üsyanlarını yatırmaqla məşğul olduğu və Ağqoyunlularla mübarizəyə cəlb olunduğu üçün Qaraqoyunlu-Teymuri münasibətlərində ciddi bir dəyişiklik baş vermədi. Şübhəsiz ki, Qaraqoyunlu-Teymuri münasibətlərinin bu axarda inkişafına Teymuri taxt-tacı uğrunda Teymurilər dövləti daxilində baş vəren siyasi hadisələr də öz təsirini göstərdi.

XV əsrin 60-cı illərində Qaraqoyunlu-Temuri münasibətlərində yaxınlaşma hiss edilməyə başlayır. Cahanşahla Əbu Səid arasında dostluq əlaqələrinin olduğunu tərəflərin baş verən mü-

hüm siyasi hadisələrlə bağlı bir-birinə elçilər göndərməsi təsdiq edir. A.A.Arayancan yazır ki. 1464/5-ci ildə Cahanşahın göndərdiyi 40 nəfərlik elçi heyətini Sultan Əbu Səid Mərv yaxınlığında qəbul etdi və onların Herata dönmələrinə icazə verdi [174[b], 214]. Azərbaycan Qaraqoyunlu hökmdarı bölgədə baş verən hadisələr barədə Teymuri sultanına məlumat verməklə yanaşı, tərəflər bir-birinə hədiyyələr və məktublar yollamışdır. Cahanşah Pirbudağın üsyanının yatırılması və Bağdadın fəthi ilə bağlı məlumatı elçisi vasitəsilə Sultan Əbu Səidə çatdırmışdı [60, 130-131; 174[b], 214]. Teymuri sultanı da əldə etdiyi qələbələr barədə Cahanşahı məlumatlandırırdı. O, Cahanşaha göndərdiyi məktubunda Hüseyn Bayqaranın Herata uğursuz yürüşü barədə ətraflı məlumat vermişdi [9, 302; 174[b], 214].

Cahanşahın ölümündən sonra Qaraqoyunlu-Teymuri əlaqələri davam etmişdi. Teymuri sultanı Əbu Səid Qaraqoyunlu Həsənəli Mirzəni müdafiə adı altında Azərbaycan uğrunda Ağqoyunlu Uzun Həsənə qarşı mübarizəyə başlasa da, məğlub olaraq başlıca niyyətini həyata keçirməyə müvəffəq olmamışdır. A.A.Arayancan haqlı olaraq yazır ki, Qaraqoyunlu-Teymuri münasibətlərində Ərəb İraqı və Azərbaycana yiyələnmək uğrunda mübarizə mühüm yer tuturdu. Teymurilərin bölgədəki mövqeyinə ciddi zərbə vuran Cahanşah Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Fars və Kirmana hakim olmaqla gürcü kralları, Şirvanşahlar, Gilan və Mazandaran bölgəsinin hökmdarlarına hakimiyyətini qəbul etdirərək Teymurilərin hakimiyyətini sarsıtmağı bacarmışdır [174[b], 214-215].

Qaraqoyunlu Həsənəli ilə Teymuri sultanı Əbu Səid arasında Ağqoyunlu Uzun Həsənə qarşı mübarizə aparmaq istəyi Qaraqoyunlularla Teymurilər arasında siyasi əlaqələri daha da möhkəmləndirdi. Lakin Uzun Həsənin öncə Əbu Səid və sonra da Həsənəlini məğlub edərək öldürməsi Qaraqoyunlu-Teymuri münasibətlərinə ağır zərbə vurdu. Bununla yanaşı, Ağqoyunlu hökmdarı Uzun Həsənin Azərbaycandakı hakimiyyətini qəbul etməyən Baharlı tayfa əmirləri Teymurilərin himayəsinə sığındı.

## *II. 3. Qaraqoyunlu Gürcüstan münasibətləri*

XV əsrin başlanğıcında Əmir Teymurun ölümü ilə onun varisləri arasında Azərbaycanda hakimiyyət uğrunda mübarizənin başlanmasından istifadə edən Qaraqoyunlu Qara Yusif Azərbaycanda Teymuri ağalığına son qoymaq uğrunda mübarizəyə başladı. Azərbaycanda Qaraqoyunluların Teymurilərə qarşı apardığı mübarizə Gürcüstana da təsir göstərdi [162, 3-4]. Bu dövrdə Gürcüstanda da gürcülərlə Teymuri əsgərləri arasında mübarizə kəskin hal aldı. 1407-ci ildə Somxetidə baş verən döyüşdə gürcü çarı VII Georgi öldürüldü. Hakimiyyətə onun kiçik qardaşı I Konstantin (1407-1412) keçdi. O, yaranmış vəziyyətdən istifadə edərək öz hakimiyyətini xeyli möhkəmləndirdi.

Qara Yusifin rəhbərliyi altında Azərbaycan Qaraqoyunlu dövlətinin getdukcə möhkəmlənməsi Şirvanşah I İbrahimlə qarşılıqlı münasibətlərə öz təsirini göstərdi. 1411-ci ildə Qara Yusif xeyli vaxtdan bəri müstəqil hərəkət edən Əcəm İraqının valisi Bistam Cagiri cəzalandırmaq üçün Sultaniyyə üzərinə yürüş etdi. Bu zaman Şirvanşah Şeyx İbrahim, Şəki hakimi Seydi Əhməd və gürcü çarı Konstantin Qara Yusifə qarşı ittifaq yaratdılar. Bundan xəbər tutan Qara Yusif 1412-ci il oktyabrın 26-da Təbrizə dönərək ordusunu topladı və noyabrın 17-də Qarabağa gəldi. O, Şirvanşaha elçi göndərərək sülh təklif etsə də, Şeyx İbrahim və müttəfiqləri tərəfindən bu təklif qəbul olunmadı. Onlar bunu Qaraqoyunlu hökmdarının zəifliyi hesab edərək daha da cürətləndilər. Buna qəzəblənən Qara Yusif dekabrın 19-da tərəddüd etmədən Kür çayını keçdi və müttəfiq ordusuna hücum etdi [313, 91-92]. Qara Yusif müttəfiq ordusunu ağır məğlubiyyətə uğratdı. Şeyx İbrahim döyüş mövqeyindən qaçarkən atdan yıxıldı və qolu sındı. Qaraqoyunlu əsgərləri onu ələ keçirərək Qara Yusifin yanına gətirdi. Döyüş zamanı Şirvanşahla yanaşı, yeddi oğlu, qardaşı Bəhlul, Şirvan qazısı Mövlana Zahirəddin, gürcü carı Konstantin və 300 nəfər gürcü aznauru əsir alındı. Gürcü çarı I Konstantin və aznaurlar edam edildi.

Gürcü çarı I Konstantinin yerinə hakimiyyətə oğlu I Aleksandr (1412-1442) keçdi. O, çar hakimiyyətini möhkəmləndir-

mək və separatçı meyilli feodalları tabe etməyə çalışdı. Bu dövrdə Samsxe atabəyi İvane gürcü çarının təsirindən xilas olmaq uğrunda ciddi mübarizə aparırdı. Lakin I Aleksandr Qərbi Gürcüstana yürüş edərək Samsxe atabəyini əsir aldı və itaət göstərməyən yerli knyazları özünə tabe etdi. Bu zaman gürcü çarı I Aleksandr və həmçinin onun təsiri altında olan Samsxe hakimi atabəy İvane Azərbaycan Qaraqoyunlu dövlətindən asılılığı qəbul etdi və illik bac verməyə məcbur oldu [249, 485]. Beləliklə, XV əsrin başlanğıcında Qaraqoyunlu Gürcüstan münasibətləri Qara Yusifin üstünlük qazanması və gürcü çarını bac ödəməyə vadar etməsi ilə nəticələndi.

Qara Yusif dövründə gürcü çarlarının Qaraqoyunlu dövlətindən asılılığı davam edirdi. Dövrün mənbəyinin təsdiq etdiyinə görə, Qara Yusif 1416-cı ildə Gürcüstana yürüş edərək Axıskanı ələ keçirdi. Yürüş zamanı kişilərin əksəriyyəti öldürüldü, qadın və uşaqlar əsir alındı. Qara Yusif bu yürüş nəticəsində Gürcüstanın bəzi bölgələrini nəzarət altına aldı [20, 101; 292, 181]. Qara Yusifin ölümündən sonra onun oğlanları tərəfindən Gürcüstan üzərinə yürüşlər müntəzəm olaraq davam etmişdi. Həsən bəy Rumlunun verdiyi məlumata görə, 1431-ci ildə Qaraqoyunlu hökmdarı Qara İsgəndər Gürcüstana yürüş etdi və böyük qənimətlə geri döndü [292, 181].

K.Paydaş yazır ki, 1435-ci ildə Teymuri sultanı Şahruxun Azərbaycana III yürüşü zamanı gürcü çarı I Aleksandr Qara İsgəndərlə ittifaq yaratdı. Lakin bir müddət sonra vəziyyət dəyişdi. Qaraqoyunlu taxt-tacı uğrunda İsgəndərlə qardaşı Cahanşah arasında baş verən mübarizədən istifadə edən gürcü çarı I Aleksandr Qaraqoyunlulara verilən illik xəracı dayandırdı və Cahanşaha qarşı düşmən mövqe tutdu. Gürcü çarının bu hərəkəti 1440-cı ildə Qaraqoyunlu hökmdarının Gürcüstana yürüşünə səbəb oldu [169, 26; 292, 182]. M.X.Yınanç Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşah yürüşə qatılan tanınmış alim və üləmalarla Qarsa gəldi və burada üç gün qaldıqdan sonra yürüşü davam etdirdi. Bundan xəbər tutan gürcülər Abxaziyaya qaçdılar. Gürcüstana daxil olan Cahanşah mü-

qavimət göstərənləri öldürtdü və xeyli insanı əsir aldı. Samşvilde şəhəri ələ keçirildi, müqavimət göstərən 4 min nəfər zərərsizləşdirildi. Cahanşah Gürcüstanın müxtəlif bölgələrinə dəstələr göndərərək onları qarət etdirdi. Tiflis şəhərini ələ keçirən Qaraqoyunlu hökmdarı Səfəvi şeyxinin tövsiyyəsi ilə burada əhalinin dinini dəyişəcəyinə ümid bəsləyərək onlar üzərinə ağır vergi qoydu. Xristianlar üzərinə ağır vergi qoyduqdan sonra otuz minlik əsirlə Azərbyacana dönən Cahanşah oğlu Həsənəlini Arran və Gürcüstana vali təyin etdi [43, 239; 358, 175; 292, 182].

K.Paydaşın fikrincə, 1444-cü ildə Qaraqoyunlu hökmdarı Cahanşah Gürcüstana ikinci dəfə yürüş etdi. Bu yürüş nəticəsində Axıska və Samsxe bölgəsi atabəylərdən alındı, çar IV Vaxtanq (1442-1446) illik bac verməyə məcbur oldu. Gürcüstanı qarət erən Qaraqoyunlu hökmdarı ələ keçirdiyi əsirlərlə geri döndü [292, 182; 169, 26]. Gürcü qaynaqları Cahanşahın Axıska və Samsxeyə hücum etməsi və IV Vaxtanq ilə apardığı müharibənin nəticəsinin bəlli olmadığını göstərir. Buna görə də, Qaraqoyunlu Cahanşahın Gürcüstandan geri çəkildiyini bəyan edirlər [358, 175; 292, 182]. Beləliklə, Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşahın Gürcüstana yürüşü nəticəsində mühüm qənimət ələ keçirildi və gürcü çarları asılılğı qəbul edərək illik bac ödəməli oldular.

### *II. 4. Azərbaycan Qaraqoyunlu dövlətinin Osmanlı dövlətilə qarşılıqlı əlaqələri*

XIV əsrin sonunda Qaraqoyunlu tayfa birliyi Mosulda, Ərzurumda, Xoyda, Naxçıvanda və Göycə gölünün cənub sahillərində möhkəmlənmişdilər [5, 46, 56, 58; 311, 442; 246, 51, 55; 249, 460]. Bu tayfa birliyinin tədricən güclənməsi qonşu dövlətlərin rəhbərlərini narahat edirdi. Teymurun Azərbaycana hücumları dövründə Qaraqoyunlular onlara qarşı güclü müqavimət göstərdi. Bu qonşu dövlətlərin, xüsusilə işğal təhlükəsindən xilas olmaq üçün yollar arayan Şərqi Anadolu bəyliklərinin, Osmanlı sultanlığının onlara olan rəğbətini artırdı. Qaraqoyunlu-Osmanlı münasibətləri məsələsi indiyədək Türkiyə

tarixçiləri üçün xüsusi tədqiqat obyekti olmamış və buna görə də həmin problemə səthi yanaşılmışdır. Qaraqoyunlu dövlətinin siyasi tarixini tədqiq etmiş İ.H. Uzunçarşılı, M.X. Yınanç və F.Sümer Qaraqoyunlu hökmdarının (Qara Yusifin və Qara İsgəndərin) Osmanlı sultanlarına sığınması hadisəsini qeyd etsə də, iki dövlət arasındakı münasibətlərin inkişaf səviyyəsini araşdırmamışlar.

XIV əsrin sonlarında – Qaraqoyunluların Ağqoyunlulara qarşı mübarizəsinin kəskinləşdiyi bir dövrdə siyasi rəqiblərin Əmir Teymurun himayəsinə sığınması Qaraqoyunluların Osmanlı sultanlarına olan meylini xeyli gücləndirdi. Lakin Qaraqoyunlu tayfa birliyinin yüksəlişi öz növbəsində Osmanlı dövlətini də narahat edirdi. Mənbələrdən məlum olur ki, «Osmanlı əmirləri Qara Məhəmmədin Malatiya qalasını ələ keçirməsindən qorxur, buna qarşı lazımi tədbirlər görməyə başlayırdılar. Şeyx Həsən adlı bir şəxs Osmanlı Sultanı Bayəzidə müraciətində deyirdi: «Məntaş Malatiya qalasını saxlamaqda acizdir. Onu başqası ilə əvəz etmək lazımdır. Əgər mənim təklifim qəbul olunmazsa və yaxud təxirə salınarsa, qala Qara Məhəmmədə və ya başqasına təslim olacaq və məhv ediləcəkdir» [33, 345]. Sonralar Osmanlı sultanı ilə Ərzincan əmirliyi arasında kəskin ziddiyyətlərin olduğu aşkara çıxdı. Buna görə də, Əmir Mütahərtən Osmanlı sultanına qarşı mübarizədə «Qara Məhəmmədlə ittifaq bağladı» və bu ittifaqa arxalanalaraq öz qüvvələrini yenidən təşkil etdi [33, 383]. Lakin tezliklə Ərzincan əmirinin Ağqoyunlu Qara Osmanla müttəfiq olması və Teymura sığınması Qaraqoyunlu-Osmanlı münasibətlərinə öz təsirini göstərdi. Qaraqoyunlu-Osmanlı münasibətlərinə Osmanlı qaynaqlannın gözü ilə baxılarsa, Osmanlıların Qaraqoyunlulara ehtiyatla və şübhə ilə yanaşdıqları aydın olur. V.Minorski bunu Qaraqoyunluların yaşayış tərzində, inanclarında rafizilik əlamətlərinin olması ilə izah edir [267, 156].

Azərbaycan Qaraqoyunlu hökmdarı Qara Yusif Teymura qarşı mübarizə aparmaq məqsədilə İldırım Bayəziddən yardım istəmişdi. Qara Yusifin ona ünvanlanan məktubunda deyilirdi:

«Teymur indi Azərbaycana hücum etməkdədir. Sənin bu həvaxahın (yəni Qara Yusifin – T.N.) onunla müqavilə və mütailə edə bilməyəcək və canını islam əhlinə qurban edəcəkdir. Ümidvaram ki, o, həzrət də (yəni Sultan Bayəzid – T.N.) bundan (Teymurun yürüşündən – T.N.) xəbərdardır. Gərək sərhəd əmirlərinə fərman verilsin ki, onlar hazır olsunlar və ehtiyac olduqda fürsəti fövtə verməsinlər. O, nabenarın (münasibətsizin – T.N.) dəfi kafırlər üzərinə hücumdan daha zəruridir. Başqa vəziyyət haqqında bu ittihad risaləsini gətirən... Əmir Murad məlumat vərəcəkdir» [9, 25-26]. Sultan İldırım Bayəzid Qara Yusifə cavabında bildirirdi: «Fərman edib buyurdum ki, ... əgər Teymur o vilayətə yaxınlaşsa, bizim müzəffər əsgərlər Allahın köməyi ilə ... cahanı yandıran o atəşi qara torpağa bərabər edib... aləmi zülm tüstüsündən təmizləsinlər. Onun məhv edilməsi bütün başqa işlərdən daha vacibdir. Gərək o cənab da (yəni - Qara Yusif - T.N.) Şirvan, Gilan, Gürcüstan və Luristan hakimləri ilə birləşib qəflət etmədən onlarla müharibəyə başlayalar» [9, 37-38; 34, 119]. Məktubdan aydın olur ki, Sultan İldırım Bayəzid təhlükəli düşmənə qarşı mübarizədə Qara Yusifə yardım edəcəyini bildirmiş, lakin ona qonşu hakimlərlə ittifaq bağlamağı, birgə mübarizə aparmağı məsləhət görmüşdü. Teymurun işğal təhlukəsi qarşısında Qaraqoyunlu-Osmanlı əlaqələri möhkəmlənməyə başladı. Faruq Sümerin fikrincə, Qara Yusif müttəfiqi olan Sultan Əhməd Cəlairi ilə birlikdə Teymurun qüvvələri qarşısında dayana bilmədi, Osmanlı sultanı İldırım Bayəzidə sığınmağa qərar verdi [313, 62; 307, 297]. Osmanlı sultanı Qara Yusifi yaxşı qarşıladı və Ağsaray bölgəsinin idarəsini ona tapşırdı. Türk tarixçiləri qeyd edirlər ki, 1401-ci ildə yayın ortalarında Qara Yusif Sultan Əhmədlə birlikdə İldırım Bayəzidin Ərzincan üzərinə hərbi yürüşündə iştirak etdi. Şəhər ələ keçirildi və idarəsi Qara Yusifə tapşırıldı [313, 63; 364, 136].

Qara Yusiflə Sultan Əhmədin Osmanlı sultanına sığınması Əmir Teymurla İldırım Bayəzid arasındakı münasibətlərə öz təsirini göstərməyə bilməzdi. «Sultan Bayəzidin Qaraqoyunlu xənadanı ilə müttəfiq olması Teymuru daim huzursuz edirdi ... və

Qaraqoyunluların Osmanlı sultanı ilə ittifaq bağlaması onu qəzəbləndirdi» [94, 38]. Teymur Qara Yusifin Kiçik Asiyada qüvvə toplayıb yeni mübarizəyə başlayacağından ehtiyat edirdi. «Teymur elə zənn edirdi ki, Qara Yusif və Sultan Əhməd Osmanlı Türkiyəsinə getməklə İldırım Bayəzidi ona qarşı müharibəyə qaldıracaqlar» [41, 345]. Türkiyə tarixçilərinin fikrincə, Teymur Osmanlı hökmdarına göndərdiyi məktubunda, aradakı sülhün saxlanılmasını arzuladığını bildirmişdi. Lakin möhkəm dostluğun yaradılması naminə müsəlman məmləkətlərinə ziyan verən, yolkəsən, quldur kimi tanınan Qara Yusiflə əlaqədar olaraq üç şərt irəli sürmüşdü: Onu ya öldürmək; ya mühakimə olunmaq üçün təslim etmək; ya da Osmanlı ərazisindən qovmaq [367, 294-295; 313, 63]. Yaşar Yücel yazır ki, Sultan Bayəzid Teymurun istəklərinə qarşı mənfi cavab verdi. Qara Yusifin artıq Anadolunu tərk etdiyini bildirdi, təkrar gəlişində onu qəbul etməkdə tərəddüd etməyəcəyini bildirdi [367, 295].

Türkiyə tarixçiləri İldırım Bayəzidin Qara Yusifı və Sultan Əhmədi müdafiə etməkdə nə kimi məqsədlər güddüyünü müəyyən qədər aydınlaşdırmağa çalışmışlar. Z.V.Toğanın fikrincə, Bayəzid Teymurdan qaçıb özünə sığınan Əhməd Cəlairi ilə Qara Yusifi himayə etmək bəhanəsilə Elxanilərə tabe olan əraziləri ələ keçirmək niyyətində idi. O, bu məqsədlə Qara Yusifın Şərqi Anadoluda və Azərbaycandakı qüvvələrindən faydalanmaq istəyirdi [335, 347, 349]. Y.Öztunaya görə isə Osmanlı sultanının başlıca məqsədi tədricən dövlətin sərhədələrinə yaxınlaşan Əmir Teymur ordusuna qarşı mübarizədə Qara Yusifin və Sultan Əhmədin qüvvələrindən faydalanmaq idi. Beləliklə, obyektiv zərurətin təsiri ilə Qaraqoyunlu–Osmanlı əlaqələrində dostluq meyli gücləndi və bu, münasibətlərin gələcək inkişafına müsbət təsir göstərdi. Qaraqoyunlular İldırım Bayəzid dövründən başlayan dostluq əlaqələrini sonadək davam etdirmişdilər [283, 277].

Əmir Teymurun ölümündən (1405) sonra Azərbaycanda onun varisləri arasında səltənət uğrunda başlanan mübarizə Qaraqoyunlu Qara Yusifin Azərbaycandakı hadisələrə müdaxilə

etməsinə əlverişli imkan yaratdı. O, 1406 və 1408-ci illərdə Teymuri şahzadələrini ağır məğlubiyyətə uğratdı və teymurilərin Azərbaycandakı ağalığına son qoydu. Azərbaycanda siyasi hakimiyyət Qaraqoyunluların nəzarətinə keçdi. Ardınca da mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövləti yaradıldı. Şübhəsiz ki, Azərbaycan Qaraqoyunlu dövlətinin getdikcə güclənməsi və öz sərhədlərini Əcəm İraqında genişləndirməsi Teymuri hökmdarı Şahruxu narahat edirdi. Şahruxun 1415-ci ildə Əcəm İraqını Teymuri dövlətinə birləşdirməsi Qaraqoyunlu dövləti üçün xeyli təhlükə yaratdı. Ağqoyunlu Qara Osmanın Şahruxu qaraqoyunlulara qarşı müharibəyə təhrik etməsi bu təhlükəni daha da artırdı [42, 611]. Şahrux kimi qüdrətli bir hökmdarla sabit münasibətlər yaratmağın zəruriliyini yaxşı anlayan Qara Yusif dövlətlərarası münasibətləri nizama salmaq üçün iki dəfə cəhd göstərdi. Bunun üçün mühüm vəsilə kimi Sultaniyyə şəhərini dostcasına Teymuri hökmdarından tələb etdi. Həsən bəy Rumlu bu haqda yazır: «Bu xahiş müqabilində Xorasan şahı bildirdi ki, əgər Qara Yusif bir oğlunu girov kimi bizim yanımıza göndərərsə Sultaniyyəni ona verə bilərik. Qara Yusif bu təklifə razı olmadı» [91, 92]. Çünki o, oğlunu Xorasan sarayına göndərməklə Şahruxdan asılı vəziyyətə düşəcək və müstəqil hərəkət edə bilməyəcəkdi.

Şirvanşah İbrahimin ölümündən (1417) sonra oğlu Xəlilullahın Şirvanın müstəqilliyinə can atması, onun Qara Yusifın hakimiyyətini tanımaqdan imtina etməsi və Şahruxla dostuq əlaqələrini möhkəmləndirməyə çalışması vəziyyəti daha da ağırlaşdırdı. Belə bir şəraitdə Qara Yusif Osmanlı sultanı I Mehmedlə ittifaq yaratmağı vacib hesab etdi. Qara Yusif Sultan I Mehmedə göndərdiyi məktubda yazırdı: «Bu günlərdə... Şahrux Bahadırdan yarlıq aldım. (O yazır ki,) gərək Azərbaycanı onun vəkillərinə təslim edəm. Eşitdim ki, (o) bu tərəfə qoşun çəkərək Qəzvinə yaxınlaşmışdır. Biz də öz ləşgərimizi oradakı bir dağ ətəyinə yığmışıq və gözləyirik ... Əgər qəddar rüzgar ona kömək edərsə, o, tatar qoşunu ilə Konstantinopol sahilindən Kəfəyə çatacaq, qıpçaq çölündən Dərbəndə gələcək, oradansa Azərbay-

cana yetişəcəkdir ... Sizə deyiləsi xəbərlər ... çoxdur. Bu barədə ... məlumat vermək üçün Xacə Bəhram Naxçivanini sizin tərəfə göndərdik. Nə fərman buyurarsınız, ona da əməl edəcəyik» [9, 174-175; 34, 151-152].

Sultan I Mehmed cavab məktubunda məsləhət bilirdi ki, onlar «səy etsinlər ki, ... fitnə atəşi şöləlænməsin» [9, 176; 34,152]. Osmanlı sultanının Qara Yusifin oğlu Qara İsgəndərə məktubunda deyilirdi: « ...Bizi (məsələdən) agah etdiyinə görə xoşbəxt olun. Əgər bir təşviş və hücum olarsa, xəbər veriniz ki, Allahın köməyi ilə imkan daxilində onu dəf edə bilək» [9, 182; 34, 154]. Osmanlı sultanının məktublarından məlum olur ki, o məsələni diplomatik yolla həll etməyə üstünlük verirdi. İsmayıl Aka yazır ki, Əmir Teymurun hakimiyyətini tanımış Osmanlı padşahı I Mehmedin fəaliyyəti Heratda narazılıq doğurmuşdu. Osmanlıların Əmir Teymurun bərpa etdiyi Anadolu bəyliklərinə qarşı hərəkəti də xoş qarşılanmamışdı. Onlar əvvəl Əmir Teymura, indi isə Şahruxa Anadoluya gəlməsi üçün dəvət məktubları göndərməyə başlamışdı. Osmanlı Sultanı ikinci bir Teymur təhlükəsi ilə qarşı-qarşıya gəlmək istəmir və bu baxımdan kafirlər ilə məşğul olmağı teymurilər ilə anlaşılmazlıq yaratmaqdan üstün hesab edirdi [165, 59-60; 166, 15].

Şahrux hələ 1416-cı ilin fevral ayında Burunduq Bahadur vasitəsilə Sultan I Mehmedə göndərdiyi məktubda yazırdı: «Qara Yusifin və onun övladlarının ... qovğasından başqa düşmənlərimiz yoxdur. Onlar o tərəflərə (Ruma-T.N.) gələrlərsə, tutub bizə versinlər və fitnə atəşini söndürməyə çalışsınlar» [9, 164; 34, 150]. Sultan I Mehmed ehtiyatla hərəkət edərək Şahruxun tələblərindən imtana etmək üçün müxtəlif vasitələrə əl atmağa çalışmışdı. O, yazırdı: «Biz əgər, Qara Yusifın üzrxahlığını o dərgahdan (Teymuri dövlətindən - T.N.)» xahiş etsək ola bilsin ki, qəbul edilməyəcək. Əgər ona vilayətimizə gəlmək icazəsi versək (o), məcburiyyət üzündən ... qonşu hakimlər olan Qaramanlılar, Həmidilər, İsfəndiyarlar, Zülqədərlilərlə birləşərlər. Qara Yusif Misir sultanları ilə də ittifaq yarada bilər» [9, 166; 34, 151].

Türkiyə tarixçilərinin fıkrincə, Şahruxun Azərbaycana yürüşü ərəfəsində Osmanlı-Qaraqoyunlu münasibətlərində müəyyən anlaşılmazlıq mövcud idi. Qara Yusifın Ərzincan hakimi Pir Ömərin Qarahisarı mühasirəyə alması buna səbəb olmuşdu. Şəhərin hakimi Məlik Əhməd oğlu Həsənə yardım üçün Amasya valisi şahzadə Murada və sultan I Mehmed Çələbiyə müraciət etmişdi [42, 537-538; 18, 60; 194, 223; 348, 502; 160, 353 ]. O zaman sultan I Mehmed Çələbi Həsənə yardım göstərə bilməmiş və şəhər Pir Ömər tərəfindən ələ keçirilmişdi. Tezliklə Azərbaycanda Qara Yusifin ölümündən sonra taxt-tac qovğası qarşılığından faydalanan sultan I Mehmed itirilmiş torpaqları geri qaytarmışdı [160, 345].

Savaşa girmədən mühüm məqsədini gerçəkləşdirmək istəyən Cığatay hökmdarı elçi göndərərək Qaraqoyunlu Qara Yusifdən tabe olmasını tələb etdi. Həsən bəy Rumlu bu barədə yazır: «Qara Yusifın yanına, Təbrizə göndərilmiş elçi qayıdaraq (Şahruxa) bildirdi ki, Qara Yusif orada özünü müstəqil bir şah hesab edir. Ətraf yerlərin bütün hakimləri və sərdarları ona tabedirlər. Padşahın şövkətindən və qoşunun qələbələrindən qorxmayan Qara Yusifın çoxlu döyüşçü dəstələri vardır» [91, 94]. Şahruxun Qaraqoyunlulara qarşı göndərdiyi qoşun başçısı Əmir Şah Məlik də Qara Yusifə elçi göndərmiş, sülh istədiyini təkrar tələb etmişdi. O, Sultaniyyəni və Qəzvini Teymurilərə qaytaracağı təqdirdə Suriya və Ruma qədərki əraziləri, Azərbaycan ilə Ərəb İraqını ona verəcəyini bildirdi. Qara Yusif onun bu təklifinə razı olmadı. O, Şah Məlikin elçisini həbs etdirdi və savaşa hazırlaşmağa başladı [Bax: 91, 94; 165, 61].

Sultan I Mehmedin Qaramanlı Mehmed üzərindəki qələbəsi münasibətilə Qara Yusifə göndərdiyi fəthnaməyə [9, 192-193; 34, 157-158] cavabında Qaraqoyunlu hökmdarı da onu təbrik edərək sultana yazmışdı: «Elxani məlikləri barədə onu deyə bilərəm ki, onların hamısı Amu suyunu (Amurdərya – T.N.) keçərək, İsfahan yaxınlığında toplaşmışlar. Əziz oğlum Cahanşahı Sultaniyyənin mühafizəsi üçün yolladım. Səadətmənd övladlarım Əmir Şahməhəmməd Bahadırı, İsfahan Ba-

hadırla birmənzillik qaravulliyə göndərib, özüm əlli min mükəmməl süvari ilə Təbriz yaxınlığındayam və (indi) Ucana getməkdəyəm. İgid oğlum Qara İsgəndər iyirmi min nəfər ... süvari ilə arxada pusquda dayanmışdır» [9, 195-196; 34, 158-159]. Məktubdan aydın olur ki, Qara Yusif Şahruxun Azərbaycana yürüşə başladığı və bu savaşa necə hazır olduğu haqda Osmanlı sultanına ətraflı şəkildə məlumat vermişdi. Sultan I Mehmed Qara Yusifə cavab məktubunda Şahruxun hücum xəbərini çatdırmasına baxmayaraq, ona yardım haqqında aydın cavab verməkdən çəkinmişdi [9, 197; 34, 159].

Türkiyə tarixçiləri etiraf edirlər ki, aralarında dostluq əlaqələri olmasına baxmayraq, Osmanlı sultanının Şahruxa qarşı müharibədə Qara Yusifə yardım göstərməməsinin səbəbi, Sultan I Mehmedin teymurilərlə yeni toqquşmadan çəkinməsi olmuşdu. 1420-ci il noyabrın 13-də Qara Yusifın Ücan yaylağında vəfat etməsi ilə bağlı Şahruxun Sultan I Mehmedə göndərdiyi məktubunda [9, 203-204; 34, 160-161] onun yanına təşrif gətirən elçilər arasında Osmanlı nümayəndəsi Bəhram bəyin olması da bunu bir daha təsdiq edir. Şahrux həmin məktubda yazırdı: «Eşitdim ki, Qara Yusifın oğlu Şahməhəmməd Qara İsgəndərlə Ərzincanın Çapaxçuruna qaçmış ... Qara Osmanla döyüşmüşdür. Biz hal-hazırda onun dəfi ilə məşğuluq. Əgər sizin tərəfə (Ruma – T.N.) pənah gətirərsə onu tutub bizim dərgahımıza yollayın» [Bax: 9, 203-205; 34, 160-161]. Sultan I Mehmed Şahruxa cavabında yazırdı: «...Azərbaycanın zəbtindən və diyarın başqa əhvalından xəbərdar olduq... (Və bunlar) bizim keyfimizi çoxaltdı. (Amma) Qara İsgəndərin Rum tərəfə qaçmağından pərişan olduq və o tərəflərin adamlarına fərman verdik ki, əgər ondan xəbər tutsalar vaxtlı-vaxtında ona hücum etsinlər» [9, 203-205; 34, 160-161]. Görünür Osmanlı sultanının belə tərzdə cavab yazması Teymuri təhlükəsi ilə yenidən qarşılaşmaq istəməməsi ilə bağlı idi.

Osmanlı Sultanı II Murad (1421-1451) da Azərbaycan Qaraqoyunlu dövləti ilə münasibətində dostluq əlaqələrinə üstünlük vermişdi. Türkiyə tarixçiləri II Muradın Qaraqoyunlu

dövləti ilə dostluq əlaqəsini davam etdirdıyini qeyd edirlər [350, 360; 249, 489; 313, 138]. Lakin Osmanlı sultanları Şahruxun Azərbaycana yürüşləri zamanı Azərbaycan Qaraqoyunlu dövlətinə fəal yardım göstərməmişlər. Xəlil İnalcığın fıkrincə, II Muradın ikinci bır Teymurla qarşılaşmaq istəməməsi buna səbəb olmuşdu [165, 69; 233, 603]. Yalnız Yılmaz Öztuna belə hesab edir ki, Sultan II Murad Məmluklər və Qaraqoyunlular kimi Teymurilərə baş əyməmək haqqında heç bir zaman düşünməmişdi. O, Teymur istilasından dərs almışdı. II Murad babası Bayəzid kimi Temurilərlə munasıbəti pisləşdirmək fikrində olmamışdı. Buna görə də Sultan II Murad Qaraqoyunluların Şahrux tərəfindən bır neçə dəfə əzılməsinə seyrçi münasibət bəsləmişdi [282, 159].

Lakin bəzi vaxtlarda Osmanlı Sultanı II Muradın Qaraqoyunlularla dostluq münasibətində olduğunu qaynaqlar təsdıq edır [50, c. 1, 125]. 1434-cü ildə Oaraqoyunlu İsgəndər Şirvana yürüş edərək vilayəti dagıtmağa və talan etməyə başlamışdı. Qaraqoyunlularla bacarmayacağını düzgün qiymətləndirən Şirvanşah Xəlilüllah dərhal Şahruxdan və Qara Osmandan kömək istədi [374, 248]. Həsən bəy Rumlu yazır ki, Şirvanşahın xahişi müqabilində Şahrux 1434-cü ilin noyabrında Azərbaycana üçüncü dəfə yüruş etmışdi [Bax: 91, 99; 165, 71]. Şahruxun hücumu qarşısında dayana bılməyən İsgəndər Təbriz döyüşündə məğlub olaraq Anadoluya doğru çəkilməyə məcbur oldu. O, Teymuri hökmdarının tələbi ilə Ərzurum keçidini bağlamış olan Ağqoyunlu hokmdarı Qara Osmanı məğlub edərək Toqat istiqamətində hərəkət etmişdi. Faruq Sümer yazır ki, İsgəndər İldırım Bayəzıd ilə atası Qara Yusifdən etibarən Osmanlı və Qaraqoyunlu xanədanları arasında yaranmış dostluğu, II Muradla xoş münasibətin oldugunu nəzərə alaraq Osmanlı sərhədlərini keçərək Toqata gəldı və Qaz obası qışlağında yerləşdi [313, 137-138]. Qaynaqlardan məlum olur kı, İsgəndər II Muraddan qışı Toqatda keçirməsinə icazə verməsini istədi. II Murad Amasya valisi Yürküc Paşaya İsgəndəri layıq oldugu tərzdə qarşılamağı əmr etdi və ona hədiyyələr göndərdı [36, 137; 67, 213].

Bütün tədbirlərinə baxmayaraq, İsgəndərin Osmanlı ölkəsinə daxil olmağa müvəffəq olduğunu görən Şahrux Şeyx Nurəddin Məhəmmədi Osmanlı hökmdarı II Muradın yanına göndərdi. O, bildirdi ki, əgər İsgəndər Osmanlı ölkəsinə gələrsə, onu geri göndərsinlər [67, 213; 313, 137; 165, 72]. Yılmaz Öztuna qeyd edir ki, Sultan II Murad İsgəndər bəyi rədd etməyi hökmdarlıq şərəfinə münasib görmədi və teymurilərdən asılı olduğu üçün Qaraqoyunlu hökmdarından xilas olmağın çarəsini axtardı [282, 161]. Z.V.Toğanın fikrincə, II Murad Şahruxun İsgəndəri ölkəsindən qovmaq tələbinə razılıq verdi. Umur bəylə Yürkünc Paşanı bir ordu ilə onun üzərinə göndərərək Osmanlı ölkəsindən çıxardı [335, 365; 336, 521-522]. Qaynaqlardan məlum olur ki, qışı Toqatda keçirən Qaraqoyunlu İsgəndər baharda «qüruru və nadanlığı üzündən... Rum vilayətini dağıtmağa, xalqın malını qarət etməyə və camaata əzab-əziyyət verməyə başladı» [50, I, 125; 7, 33; 36, 179]. Məhz buna görə də, Qaraqoyunlu-Osmanlı münasibətləri kəskinləşməyə başladı. Faruq Sümer yazır ki, Yürküc Paşa vəziyyəti II Murada bildirdi. Bu hadisədən pərişan olan II Murad Anadolu bəylərbəyi Umur bəyi İsgəndərin üzərinə göndərdi [312, 138]. Mənbələr qeyd edir ki, Umur bəy İsgəndərə göndərdiyi məktubunda yazırdı: «...Sizi məğlubiyyətə uğradan Şahrux Mirzə Xorasan tərəfə getmişdir və sizlərin ata yurdunuz olan Azərbaycan tərəfə yollanmanız daha münasibdir. Getməyiniz dostluğun davam etməsi üçün bir vəsilədir» [36, 137; 346, 184]. Bu məktubu alan İsgəndər Osmanlı ölkəsini tərk etdi. Tezliklə geri qayıdan İsgəndər Təbrizi yenidən ələ keçirə bildi. Lakin o, qardaşı Cahanşah tərəfindən məğlub edildi və Əlincə qalasına qaçaraq orada 1438-ci il aprelin 21-də öldürüldü.

Beləliklə, Cahanşah Azərbaycan hökmdarına çevrildi. Cahanşahın hakimiyyəti dövründə Azərbaycan Qaraqoyunlu dövləti müstəqil bir dövlət kimi möhkəmləndi və onun həyata keçirdiyi tədbirlər sayəsində tabe olmayan əyanların müqaviməti qırıldı və mərkəzi hakimiyyət möhkəmləndirildi. Türkiyə tarixçiləri Cahanşahla II Murad arasında dostluq əlaqələrinin daha

sıx olduğunu qeyd edirlər [249, 489; 346, 184].

İ.H.Uzunçarşılı yazır ki, Osmanlı hökmdarı II Murad ilə Cahanşah arasında çox səmimi məktublar mübadiləsi edilmiş və məşhur tarixçi Şükrullah elçi kimi onun yanına göndərilmişdi [350, 360, 439]. Cahanşah II Murada göndərdiyi məktubunda iki dövlət arasında əskidən mövcud olan dostluq əlaqələrini xüsusilə qeyd etmiş, II Murad isə cavab məktubunda aralarındakı qədim məhəbbətin pozulmasına heç bir bəhanə olmadığını bildirmiş, bu vəziyyətin heç bir dəyişikliyə uğramadan davam edəcəyini göstərmişdi [9, 480, 483-484; 34, 160-168]. Hər iki hökmdar qazanılmış uğurlar münasibətilə bir-birinə fəthnamələr və məhəbbətnamələr göndərməkdə davam etmişdilər [9, 485-487; 34, 170-175]. A.A.Arayancan yazır ki, Cahanşah Sultan II Murada göndərdiyi məktublarda "Qazilər və mücahidlər sultanı, islam sərhədlərinin qoruyucusu, dövlət və din yardımçısı" adı ilə müraciət etdiyi kimi, Sultan II Muradın Cahanşaha göndərdiyi cavab məktublarında ona "Ən böyük padşah, Əcəm ölkələrinin sultanlarının sultanı, dövranının noyanı, zamanının xaqanı olan Əbül Müzəffər Mirzə Cahanşah" adı ilə müraciət etmişdi. Sultan II Murad Macarıstanın fəth olunması münasibətilə Şükrüllah vasitəsilə Cahanşaha göndərdiyi məktubunda onu "O, böyük sultan, ümmətlər boyunun sahibi, Tanrının dünyada kölgəsi, Türk, Ərəb və Əcəm sultanlarının sultanı" adlandıraraq bölgədə getdikcə güclənməsindən məmnun olduğunu qeyd etmişdir [174$^{b}$, 203]. Cahanşah Xacə Ziyaəddin Yusif vasitəsilə Sultan II Murada göndərdiyi məktubunda yazırdı: "Bizim dostluq münasibətlərimiz və əlaqələrimiz qədim və əzəlidir. Tanrının köməyi ilə məzara qədər davam edəcəkdir. Atalarımızın məhəbbəti və övladların yaxınlığının günəşi şərqdən qərbə saçacaqdır" [9, 478; 34, 166; 174$^{b}$, 203]. Osmanlı sultanı cavab məktubunda yazırdı: "Bizimlə sizin aranızda olan xoş münasibəti açıqlamağa ehtiyac olmasa da, bəlkə zahirdə qısqanclıq yaradanların gözündə bu birliyimizin olmadığını düşünürlər. Ancaq həqiqətdə bizim sizinlə varlığımız bir ruhun iki cisimdə, iki gövdədə olduğu kimidir. Və buna heç bir şübhə yoxdur. Tanrı bilir ki, bu

birlik əzəli və sürəklidir" [9, 482; 174b, 203-204]. Bu, iki dövlət arasında dostluq əlaqələrinin mövcud olduğunu bir daha təsdiq edir.

XV əsrin birinci yarısında qarşılıqlı siyasi rəqabətdən uzaq olan Qaraqoyunlu-Osmanlı münasibətləri dinc məcrada inkişaf edirdi. Bu dövrdə sülalələrarası əlaqələrin də hörmət və dostluq üzərində qurulduğunu görürük. Hər iki tərəf özlərinin vahid oğuz-türk etnik köklərinə mənsub olduğunu dərk edirdi. Cahanşahın Təbrizdə uyğur əlifbası ilə yazılmış "Oğuznamə" oxutması, hər iki sülalənin Oğuz xan nəslindən gəldiyini qeyd etməsi, hətta osmanlıların daha ulu soy xəttinin törəmələri olduqlarını söyləməsi bunu təsdiqləyən örnəklərdən biridir [118, 230; 174b, 202].

Qaraqoyunlularla Ağqoyunlular arasındakı əski düşmənçilik Ağqoyunluların Osmanlı sultanlarının rəqibləri olması, Cahanşahı Osmanlılarla müştərək mənfəətə əsaslanan dostluq münasibətləri yaratmağa vadar etmişdi [267, 163]. Təbiidir ki, belə bir məqsədə Osmanlı sultanı da xidmət edirdi.

Qaraqoyunlu-Osmanlı münasibətləri II Mehmed dövründə (1451-1481) daha da inkişaf etmişdi. M.X.Yınanç yazır ki, Cahanşah Fateh II Mehmedə hər zaman «oğlum» deyə məktublar yazmış və ondan «atam» ünvanı ilə hörmətli cavablar almışdır [358, 185]. Cahanşahla II Mehmed arasındakı yazışmalarla tanışlıqdan məlum olur ki, iki dövlət arasında dostluq əlaqələrini möhkəmləndirmək üçün onlar daim bir-birinə fəthnamələr və məhəbbətnamələr göndərmişlər. A.A.Arayancan yazır ki, Fateh Sultan II Mehmedin Cahanşaha göndərdiyi məktublarda "Ərəb və Əcəm xaqanlarının sultanı, Türk və Deyləm sultanlarının sahibi", "Yüksək məqamlı sultanlar sultanı əziz atam Cahanşah" adı ilə müraciət etməsi ona böyük hörmət bəslədiyini və ata deyəcək qədər yaxın olduğunu göstərir [174b, 204].

II Mehmedin Cahanşaha göndərdiyi məktublardan birində Bursadan kəsbkarlıq məqsədilə Təbrizə gələnlərdən söhbət açılması göstərir ki, bu dövlətlər arasında sıx iqtisadi əlaqələr də

mövcud idi. Sultan II Mehmed yazır ki, «Bursadan sizin diyarınıza öz kəsbkarlığı üçün Musa oğlu Əhməd adlı bir tacir getmişdir. O, Təbrizdə səfərdə olarkən axirətə getmiş, onun əlində olan bütün nəğd pulu və malları sizin dərgahınızın ümərası (əmin-amanlıq yaradanları – T.N.) tərəfindən götürülmüşdür ... Onun oğlu Bursalı Şeyx Mehmed onun varisidir və oraya gəlir, valilərə işarət olunsun şəri qovlumluq hökmünə riayət edərək alınmış şeylər qaytarılsın» [9, 501; 34, 223-224; 174[b], 204]. Cahanşah cavab məktubunda alınmış əşyaların qaytarıldığını, həmçinin Farsın və Əcəm İraqının şəhər və qalalarının Cığataylardan təmizlənməsi barədə məlumat verərək, bu xəbəri ona çatdırmaq üçün Əmir Tacəddin İbrahim Mehtəri hədiyyələrlə Osmanlı sultanının yanına göndərmişdi [9, 503; 34, 224; 174[b], 204].

XV əsrin 50-ci illərində Qaraqoyunlu hökmdarı Cahanşah Teymurilərə qarşı mübarizədə uğur əldə etmək üçün Osmanlılarla xoş münasibətdə olmağı vacib saymışdı. Türkiyə tarixçiləri Cahanşahla II Mehmed arasında həmçinin şəxsi dostluq əlaqələri olduğunu da qeyd edirlər [249, 489; 40, 133]. Yılmaz Öztunaya görə, Fateh II Mehmed atalarının Qaraqoyunlularla dostluq və onları himayə etmək siyasətini davam etdirmişdi. O, Cahanşahla çox yaxşı münasibətdə olmuşdu [283, 90]. Qaraqoyunlu-Osmanlı münasibətlərindən bəhs edən əksər Türkiyə tarixçiləri iki dövlət arasındakı qarşılıqlı əlaqələrin izahından daha çox müxtəlif hökmdarların müsbət şəxsi münasibətlərini qeyd etməklə kifayətlənməli olmuşlar.

XV əsrin 50-ci illərinin sonunda Cahanşahın Teymuri hökmdarı Əbu Səid üzərindəki qələbədən sonra Azərbaycan Qaraqoyunlu dövlətini Yaxın Şərqin ən güclü dövlətlərindən birinə çevirməsi Osmanlı dövləti ilə siyasi münasibətlərə öz təsirini göstərdi. Şərqi Anadolunun fəthini başa çatdırmağa çalışan II Mehmed Ağqoyunlu dövlətinin güclü müqaviməti ilə qarşılaşdı. Bu, Sultan II Mehmedin Trabzon yürüşü zamanı özünü aydın şəkildə büruzə verdi. Osmanlı sultanı Trabzona yürüşü ərəfəsində Cahanşaha göndərdiyi məktubda yazırdı: « ...

Əziz atam Cahanşah, tərəfindən Mövlana Şükrüllahla bizim dərgahımıza göndərilən kitabətin çatdı ... Biz Trabzona yollanırıq ... Əgər bu hücumla əlaqədar olaraq bizim məktublaşmamız bir qədər təxirə düşərsə, başqa şey haqda düşünməyib məktublaşma qapılarını qapamayın» [9, 536-541; 34, 255-257].

Osmanlı dövlətinin şərq istiqamətində irəliləməsinin Ağqoyunlular tərəfindən güclü müqavimətlə qarşılanması hər iki dövlət arasındakı münasibətləri daha da kəskinləşdirdi. Uzun Həsənin başçılığı ilə Ağqoyunluların ətraf vilayətlərə qarətçi yürüşlər təşkil etməsi və 1466-1467-ci illərdə Gürcüstana hücumla kifayətlənməyərək, Ərzuruma da döyüşçü dəstələrini yollaması, Qarahisarın alınıb Uğurlu Məhəmmədə verilməsi Ağqoyunlu-Qaraqoyunlu münasibətlərini daha da pisləşdirdi. Bununla bağlı Cahanşah II Mehmedə göndərdiyi məktubunda yazırdı: « ...Qədim vaxtlardan bəri bizim... sizin şərafətli xənədanınıza həqiqi məhəbbətimiz və dostluğumuz olmuşdur və olmaqdadır ... Bizim ... dostluğumuza heç nə mane olmur. Amma ortaya çıxan Həsən Ağqoyunlu bu müddət ərzində zahirdə yazıqlıq və məhəbbətini göstərsə də, əslində başqa cür hərəkət edirdi. Onun zahiri və batini bir olmadığı üçün günbə-gün nifaq yaranmaqda idi. Onda bu günlərdə xəbislik tam şəkildə göründü, onun əhdi-peymanı sındırdığı məlum oldu. Bizə hücum etdisə də, onun dəfi asanlıqla mümkün oldu. O, büləndhimmət həzrət ... (Sultan II Mehmed – T.N.) onun dəfi və cəzalanması üçün cəhd etsinlər. Sizdən sədaqətlə rica olunur ki, bu məsələdə iradə ... istək və inadınız qırılmasın və həqiqi dostların məqsəd və istəkləri həyata keçsin» [9, 552-553; 34, 273-274]. Məktubdan aydın olur ki, Cahanşah Ağqoyunlulara qarşı qarşıdakı qəti döyüşdə müttəfiqi olan Osmanlı hökmdarı sultan II Mehmeddən yardım istəmişdi. Qaraqoyunlu-Osmanlı münasibətlərindən bəhs edən əksər Türkiyə tarixçiləri Cahanşahın bu xahişi haqqında heç bir məlumat vermirlər. Bununla bağlı yalnız, A.A.Arayancanın son tədqiqatında məlumat verilmişdir [Bax: 174[b], 207].

Osmanlı sultanı Ağqoyunlular üzərinə yürüşü ilə bağlı Cahanşaha məlumat verərək ona yardım edəcəyini bildirmişdir.

Sultan II Mehmedin Cahanşaha yardımı məsələsinə toxunan Katerino Zeno yazır: "İranlı tarixçilər türk sultanı II Mehmedin Uzun Həsən getdikcə güclənirsə bir gün ona da fəlakət gətirəcəyindən qorxduğunu yazırlar. Buna görə də, Cahanşaha yardım göstərmək istədi. Onun itirilmiş qüdrətini qaytarmağa çalışdı" [53, 19; 174[b], 208]. Hammerin yazdığına görə, Cahanşah Fateh Sultan Mehmeddən yardım istəmişsə də, sultan o zaman İsgəndər bəyə qarşı mübarizə apardığı və Elbasan qalasının mühasirəsi ilə məşğul olduğu üçün onun istəyini yerinə yetirə bilməmişdi [229, 243].

Göründüyü kimi, Qaraqoyunlu hökmdarı Cahanşahı Uzun Həsənə qarşı müharibəyə Sultan II Mehmed təhrik etmişdi. Amasya valisi Bayəzid Sultan II Mehmedin əmri ilə Uzun Həsənə qarşı döyüşdə Cahanşaha hərbi yardım etməli idi. Lakin ona bu yardım göstərilmədi.

Qaraqoyunlu dövlətinin Osmanlı dövləti ilə münasibətlərində iki ölkə arasında sərhədlərin müəyyən edilməsi, bir-birinin ərazilərinə hücum etməməklə bağlı müəyyən razılıq əldə olunmuşdur. İ.H.Uzunçarşılı yazır ki, Cahanşah, hətta bir müddət ölkəsinə təcavüz etmiş Fateh Sultan II Mehmedə elçi göndərmiş, Sivasa qonşu olan Qaraqoyunlu torpaqlarına hücum etməyəcəyi təqdirdə ona 4 min kintal kərə yağı və min dəvə verəcəyini bildirmişdi. Osmanlı hökmdarı onun bu təklifini qəbul etmişdi [346, 184]. A.A.Arayancan yazır ki, Fateh Sultan II Mehmed Mora adasının fəthi ilə bağlı Cahanşaha göndərdiyi məktubunda, Mora adasının necə fəth olunduğu barədə məlumat verməklə yanaşı, Qaraqoyunlularla Osmanlılar arasında Hamid, Menuqan, Əmirdağ, Çay və bəzi əyalətlərdə sərhəd məsələsində mübahisənin olduğunu qeyd edərək onların qazılar tərəfindən dəqiqləşdirilməsini istəmişdir [9, 542-545; 174[b], 208]. Osmanlı sultanı Toğrul adlı şəxsin Osmanlı torpaqlarına daxil olaraq Əli bəyə məxsus evi qarət etdiyini, ona məxsus qoyun sürüsünü apardığını qeyd edərək, onun elçisi qarşısında cəzalandırılmasını və aparılan qoyun sürüsünün qaytarılmasını tələb etmişdir [9, 554; 174[b], 208]. A.A.Arayancanın fikrincə, Cahanşah Fateh Sul-

tan II Mehmedin tələbini qəbul edərək bəzi ərazilərin və Hamid vilayətinin təyin edilməsi ilə bağlı məşğul olacağını bildirsə də, Toğrul məsələsi ilə bağlı ona yalan məlumat verildiyini söyləmişdir. O, Sultan II Mehmedin elçisi Mövlana Muhiyəddinlə birlikdə etibar etdiyi adamlarından Qara bəyi Osmanlı sultanının yanına göndərərək baş verən hadisəni aydınlaşdırmağa çalışmışdır [9, 547-548; 174[b], 208-209].

Qaraqoyunlu-Osmanlı münasibətlərindən bəhs edən türk tarixçilərinin Osmanlı dövlətinin ən böyük düşməni kimi təqdim etdikləri Ağqoyunlu dövlətinə qarşı Cahanşahın apardığı mübarizədə II Mehmedin onu himayə etməsi, Osmanlı imperiyasının Ağqoyunlu dövlətinə qarşı yeritdiyi istilaçılıq siyasətinə haqq qazandırmaq və bütün günahları onların üstünə atmaq cəhdlərindən irəli gəlmişdi.

1467-ci ilin 10 noyabrında Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşah Ağqoyunlu Uzun Həsənlə həlledici döyüşdə öldürüldü. Tezliklə Uzun Həsən Qaraqoyunlu Həsənəlinin və Teymuri Əbu Səidin qüvvələrini darmadağın etdi. Qaraqoyunlu dövlətinin mövcudluğuna son qoyuldu. Paytaxtı Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövləti meydana gəldi.

## *II. 5. Azərbaycan Qaraqoyunlu dövlətinin Misir Məmlük dövləti ilə münasibətləri*

Azərbaycan Qaraqoyunlu dövləti ilə Misir Məmlük sultanlığı arasındakı siyasi əlaqələr XIV əsrin sonunda Qaraqoyunlu bəyliyinin Məmlük sultanları ilə siyasi münasibətlər yaratması ilə başlamışdı. Dövrün qaynaqları bu əlaqələrin əsasının hələ Qaraqoyunlu Qara Yusifin Azərbaycanda siyasi hakimiyyəti ələ almasından əvvəl baş verdiyini qeyd edirlər. XIV əsrin son rübündə Qaraqoyunlu bəyliyi Şərqi Anadoluda siyasi güc mərkəzinə çevrilərək bölgədə baş verən siyasi hadisələrdə fəal iştirak etməyə başladı. Qaraqoyunlularla Məmlüklər arasındakı əlaqələr Bayram Xocanın 1372-ci ildə Mosulu mühasirəyə alması ilə başlamışdı. Həmin ildə Məmlük ordusu Cabər qalasının hakimi Döğər Salim bəyi Hısn-Keyfə yaxınlığında sığındığı

dağda ələ keçirməyə çalışmışdı. Lakin Məmlük ordusu Salim bəyi ələ keçirə bilməsə də, Bayram Xocanı Mosulun mühasirəsindən əl çəkməyə məcbur etdi. 1374-cü ildə Məmlüklər Sincar bölgəsini ələ keçirdi. Yeni vali təyin edilən Seyfəddin Tak-Buğra Bayram Xocanın hücumu qarşısında Sincarı tərk etməli oldu. Həmin ildə Cəlairi Şeyx Üveysin ölümü və hakimiyyətə Sultan Hüseynin keçməsindən istifadə edən Bayram Xoca Mosuldan başqa Sürməli, Ala Kilisə, Xoy və Naxçıvan bölgəsini nəzarət altına almışdır [313, 43-44; 174[b], 214].

XIV əsrin sonunda Əmir Teymurun Ön Asiyaya hərbi yürüşləri Şərqi Anadoluda siyasi hadisələrin gedişinə əsaslı təsir etdi və öz növbəsində Qaraqoyunlu-Məmlük münasibətlərinin inkişafını şərtləndirmiş oldu. Əmir Teymur tərəfindən Azərbaycanın işğal edilməsindən (1386) sonra Azərbaycanda və Şərqi Anadoluda teymurilərə qarşı mübarizə aparan qüvvələrin Misir Məmlük dövlətilə siyasi əlaqələri xeyli gücləndi. Qeyd olunan dövrdə bölgədə Əmir Teymura qarşı mübarizə aparan əsas qüvvələrdən biri məhz Qaraqoyunlu bəyliyi idi [147, 165].

Qeyd etdiyimiz kimi, XIV əsrin sonlarında Əmir Teymurun həyata keçirdiyi işğallar Qaraqoyunlu-Məmlük münasibətlərinin yaranmasını zərurətə çevirdi. Bölgədə vahid düşmənə qarşı hərbi-siyasi koalissiyanın yaranması, Qaraqoyunlu Qara Məhəmmədin Məmlük sultanı ilə yaxınlaşmasına səbəb oldu. Faruq Sümer yazır ki, 1385-ci ildə Qara Məhəmməd Mosul və Mardin arasındakı ərazinin sahibi olan əmisi Misir Xocanı Qahirəyə göndərərək Sultan Bərkükdən iki düşmənin hücumuna məruz qaldığı üçün ona sığınmağa və Suriyaya keçməyə icazə istədi. Məmlük tarixçisi İbn Hacər Qara Məhəmmədin Misir sultanından himayə xahişinin qəbul olunduğunu qeyd edir. F.Sümer isə bu xahişin yaxınlaşan Teymur təhlükəsi ilə bağlı olduğunu göstərir [313, 48; 143, 104]. 1389-cu ilin aprelində Qara Məhəmməd və Mardin hakimi Məlik üz-Zahir İsa Qahirəyə elçi göndərərək onlara qarşı üsyan qaldırmış Hələb valisi Yel-Buğa ən-Nasirlə müharibə aparmaq üçün Məmlük sultanı Bərkükdən razılıq verməsini xahiş etdilər. Lakin Misir sultanı onların bu

təklifini diplomatik şəkildə rədd etdi [313, 53; 363, 30].

1388-ci ildə Əmir Teymurun Səmərqəndə dönməsindən istifadə edən Qara Məhəmməd Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizəyə fəal şəkildə qoşuldu. O, həmin il mayın 24-də Təbrizə yürüş edərək Cəlairi əmirlərini məğlub etdi və şəhəri ələ keçirdi. Məmlük tarixçilərinin məlumatına əsaslanan F.Sümer yazır ki, həmin ilin dekabrında Qahirəyə gələn Qara Məhəmmədin elçisi Təbrizin Qaraqoyunlular tərəfindən tutulduğunu, Məmlük sultanının adına xütbə oxunduğunu və sikkə zərb olunduğunu bildirdi. Sultan Bərkük bununla bağlı Qaraqoyunlu elçisinə öz təşəkkürünü bildirdi [313, 52; 143, 104].

Vaxtı ilə Əmir Teymura qarşı ittifaq yaradan Məmlük sultanı Bərkükün və Kayseri-Sivas hökmdarı Qazi Bürhanəddinin 1398-ci ildə ölümü Şərqi Anadoluda siyasi vəziyyətə təsir etdi. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Əmir Teymur 1399-cu ildə bölgəyə növbəti yürüşə başladı. 1400-cü ildə Əmir Teymurun Sivas istiqamətində irəliləməsi Qaraqoyunlu Qara Yusiflə Cəlairi Sultan Əhmədi Məmlük sultanına sığınmağa vadar etdi. Onlar Hələb istiqamətində hərəkət edərək Məmlük sultanı Fərəcə elçi göndərdi və sığınacaq verməsini xahiş etdilər. Lakin Hələb ətrafında şəhər naibi Dəmirtaş onlara irəliləməyə icazə vermədi və Hama naibi Toxmaqla birlikdə onlara mane olmağa çalışdı. Bu zaman tərəflər arasında baş verən döyüşdə Hələb naibi Dəmirtaş məğlub oldu. Hama naibi Toxmaq və Birəcik naibi Nasirəddin əsir alındı. Qara Yusif və Sultan Əhməd Sultan Fərəcə məktub göndərərək baş verən hadisədə Hələb naibinin günahkar olduğunu, onların savaşmağa məcbur qaldığını bildirdi. Bu hadisədən sonra Məmlük sultanına sığınmağın mümkün olmayacağını nəzərə alan hər iki hökmdar Osmanlı sultanının himayəsinə girməyə qərar verdilər [313, 61-62; 165, 231; 143, 105].

Əmir Teymurun 1401-ci ildə Bağdadı və Suriyanı işğal etməsi, 1402-ci il Ankara döyüşündə Osmanlı sultanını ağır məğlubiyyətə uğratması Qara Yusifi bölgədə yeganə siyasi güc mərkəzi olan Misir sultanı ilə əlaqələri daha da gücləndirməyə

vadar etdi. Şübhəsiz ki, belə bir şəraitdə Qara Yusiflə Sultan Fərəc arasındakı əlaqələrin güclənməsi onların siyasi maraqlarını tamamilə təmin edirdi [143, 105].

1403-cü ilin yayında Hillə yaxınlığında Teymuri ordusu ilə döyüşdə məğlub olan Qara Yusif sentyabrda Dəməşqə gəldi və Şam naibi Şeyx Mahmudi tərəfindən hörmətlə qarşılandı. Şam naibi vəziyyəti Qahirəyə bildirdi və Qaraqoyunlu hökmdarına hörmət göstərdi. Bir müddət sonra Teymurdan qaçan Cəlairi Sultan Əhməd də Şama sığınmağa məcbur oldu. Misir sultanının Qara Yusifi Qahirəyə göndərmək tələbi Şam naibinin xahişindən sonra təxirə salındı. Lakin, çox keçmədən Məmlük sultanı Əmir Teymurun Misirə yürüşündən ehtiyat edərək onların həbsi barədə göstəriş verdi. Bu göstərişi nəzərə alan Şam naibi 1404-cü ilin yanvarın 10-da Qara Yusifi Dəməşq qalasının Bürc ul-hammam, Sultan Əhmədi isə Bürc us-silsilə hissəsində zindana atdırdı [313, 66; 256, 33; 143, 105]. Əmir Teymurun hücumları qarşısında Qaraqoyunlu-Məmlük siyasi münasibətlərinin xeyli yaxınlaşmasına baxmayaraq, bu münasibətlər çox da möhkəm olmadı. Çünki qeyd olunan zaman Əmir Teymur elçisi Xoca Məsudu Qahirəyə göndərərək Misir sultanından «Həcc karvanlarını soyan və müsəlman məmləkətlərini talan edən Qara Yusifi edam etdirməsini, Əhməd Cəlairini isə ona göndərməsini» tələb etdi [46, 348; 312, 66]. Bu hökmün səbəbini aydınlaşdırmağa çalışan F.Sümerin fikrincə, Əmir Teymur gələcəkdə gözlənilən təhlükənin qarşısını almaq üçün ona tabe olmayan Qara Yusif və Sultan Əhmədin edamını Məmlük sultanından tələb etmişdi [313, 66; 143, 105-106]. Əmir Teymurun tələbini nəzərə alan Məmlük sultanı 1404-cü ilin fevral ayında onların edamı barədə hökm verdi. Lakin Şam naibi bu fərmanı icra etmədi [13, 58; 313, 66; 346, 181].

1404-cü ilin dekabrında bölgədə gərgin vəziyyətin yarandığı bir dövrdə Məmlük əmiri Yaşbəy Sultan Fərəcə qarşı üsyan qaldırdı. Şam valisi Şeyx Mahmudi və Hələb valisi Çəkəm də bu üsyana qoşuldu. Şeyx Mahmudi üsyançılara kömək etmək üçün 1405-ci ilin yanvarında həbsdən azad etdiyi Qara

Yusifin və Sultan Əhmədin qüvvələrindən istifadə etməyə çalışdı. Sultan Əhməd üsyana qoşulmadı və Şam şəhərini tərk etdi. Qara Yusif isə 500 nəfərlik tərəfdarı ilə üsyançılara kömək etdi. 1405-ci il iyunun ortalarında Qara Yusif və tərəfdarları ilk döyüşdə Sultan Fərəc üzərində qələbə qazandı. Lakin bir müddət sonra Qara Yusif Qahirə yaxınlığında baş verən növbəti döyüşdə bəzi əmirlərin xəyanəti nəticəsində məğlub olaraq Dəməşqə geri döndü [313, 68; 358, 36-37]. 1405-ci il iyunun 26-da Dəməşqə daxil olan Qara Yusif az sonra Şam naibi Şeyx Mahmudi ilə aralarında yaranmış anlaşılmazlıq nəticəsində şəhəri tərk edərək öz ölkəsinə hərəkət etdi [7, 22; 256, 44; 143, 106].

Mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövlətinin yaranması ilə Qaraqoyunlu-Məmlük siyasi əlaqələrində yeni bir mərhələ başladı. Məhz bu dövrdən etibarən tərəflər arasındakı əlaqələr dövlətlərarası qarşılıqlı siyasi münasibətlər formasında təzahür etməyə başladı. Qara Yusiflə Şeyx Mahmudi arasındakı dostluq əlaqələri davam etməkdə idi. Suriyada Şeyx Mahmudi ilə Sultan Fərəc tərəfdarları arasında mübarizə davam edərkən Qara Yusif Şeyx Mahmudiyə məktub göndərmişdi. O, məktubunda aralarındakı dostluq əlaqələrindən bəhs edərək ona yardım etmək üçün Şama gələcəyini xəbər vermişdi [256, 84; 174[b], 214]. Lakin Qara Yusifin dövlətin sərhədlərini cənub-qərb istiqamətində genişləndirmək təşəbbüsləri, Azərbaycan Qaraqoyunlu dövlətini Məmlük dövlətinin siyasi rəqibinə çevirdi. Bu dövrdə Məmlük sultanları Qaraqoyunlu təhlükəsinin qarşısını almaq üçün onların siyasi rəqibi olan Ağqoyunlu bəyliyindən bir vasitə kimi faydalanmağa çalışırdı. Çünki Məmlük sultanları Ağqoyunlu bəyliyinin məğlub olacağı halda Qaraqoyunlu dövlətinin onlar üçün başlıca təhlükə mənbəyinə çevriləcəyini bilirdilər [201, 416; 143, 106]. Öz məqsədini gerçəkləşdirməyə çalışan Məmlük sultanı Qaraqoyunlu dövlətinə qarşı birgə mübarizə aparmaq üçün Şərqi Anadoluda böyük siyasi güc mərkəzinə çevrilən və Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan Ağqoyunlu bəyliyi ilə danışıqlar aparırdı. Əmir Teymurun ölümündən sonra bölgədə güclü müt-

təfiqini itirən Ağqoyunlu Qara Osman da Məmlüklərin təklif etdiyi bu ittifaqa qoşulmaqda maraqlı idi və onun siyasi maraqlarna tamamilə cavab verirdi.

Qara Yusif yaranmış vəziyyəti düzgün dəyərləndirərək Məmlük dövləti ilə siyasi münasibətləri gərginləşdirməmək üçün bütün diplomatik vasitələrdən istifadə etməyə çalışdı. 1411-ci ildə o, bu məqsədlə Əlbistanda olan Misir sultanı Fərəcin yanına elçi göndərdi. Dövrün qaynaqlarında elçinin hansı məqsədlə göndərilməsi barədə məlumatlar çox məhduddur [87, 14]. Qeyd etmək lazımdır ki, həmin ildə Qaraqoyunlularla Ağqoyunlular arasında Amiddə və Mardin bölgəsində döyüşlər gedirdi. F.Sümer yazır ki, Qara Yusif Ərqani qalası önündə Qara Yülük Osmanı məğlub edərək qaçmağa vadar etmişdi [313, 90]. Güman etmək olar ki, Misir sultanının yanına Qara Yusifin elçisi məhz bu ərəfədə göndərilmişdi. Bu danışıqların başlıca məqsədi Qaraqoyunlu hökmdarının Ağqoyunlulara qarşı Misir sultanından kömək almaq istəyi idi. Görünür bu danışıqlarda Sultan Fərəc də Suriyada ona qarşı qalxmış üsyanı yatırtmaq üçün qaraqoyunluların köməyindən yararlanmağa çalışmışdı. Hadisələrin sonrakı inkişafı göstərir ki, iki dövlət arasında qarşılıqlı münasibətləri inkişaf etdirmək üçün müəyyən siyasi səbəblər mövcud olmuşdu.

1411-ci ilin sonunda Trablis naibi Novruzla Şam valisi Şeyx Mahmudi Məmlük Sultanı Fərəci hakimiyyətdən salmaq üçün mübarizəyə başladı [200, 516]. Maraqlıdır ki, bu zaman Şam valisi Şeyx Mahmudi Sultan Fərəcə qarşı mübarizədə Qara Yusifdən kömək almaq üçün Əhməd əl-Cəngini onun yanına göndərdi. Bu zaman Trablis nabi Novruz da öz elçisi Pəhləvanı hədiyələrlə birlikdə Qara Yusifin yanına yollamışdı. Qara Yusif göndərdiyi elçisi vasitəsilə onların istəklərinə müsbət cavab vermişdi [256, 98; 174[b], 218]. R.M.Yınançın fikrincə, Şeyxin Məmlük dövlətinə qarşı başladığı mübarizədə qələbə qazanmaq üçün ətrafdakı güclü türk hökmdarları ilə əlaqə yaratması Şama doğru hərəkət edən Sultan Fərəci üsyanı yatırmaq üçün Zülqədər, Qaraman və Ağqoyunlu bəylərinin yardımını almağa

məcbur etdi. Lakin onun bu təşəbbüsü nəticəsiz qaldı [358, 40]. Çünki, 1412-ci il aprelin 25-də Sultan Fərəclə üsyançılar arasında əl-Laccun adlı yerdə baş verən döyüşdə sultan məğlub olaraq Dəməşqə qaçmağa məcbur oldu. O, Dəməşq qalasında həbs edilərək taxtdan salındı və xəlifə əl-Müstəin Billahın fitvası ilə öldürüldü [256, 104]. 1412-ci ilin dekabrında Şam naibi Şeyx Mahmudi Məmlük taxt-tacı uğrunda mübarizənin gedişində bütün rəqiblərinə qalib gələrək hakimiyyətə yiyələndi [143, 107].

Göründüyü kimi, Qara Yusif Məmlük taxt-tacı uğrunda gedən mübarizədə Misir sultanının kömək istəyini rədd edərək onun rəqiblərini müdafiə etmişdi. Çünki Qara Yusifin Azərbaycan Qaraqoyunlu dövlətinin hüdudlarını cənub-qərb istiqamətində genişləndirmək istəyi Məmlük sultanı tərəfindən ciddi müqavimətlə qarşılanmışdı. Buna görə də, Qara Yusif Məmlük sultanının əlehdarlarını müdafiə etməklə Məmlüklər arasında hakimiyyət uğrunda gedən mübarizənin dərinləşməsində və Misir dövlətinin zəifləməsində maraqlı olmuşdu. Məhz buna görə də, Qara Yusif ənənəvi müttəfiqi olan Şeyx Mahmudinin Məmlük taxtına iddialarını müsbət qarşılamışdı [143, 107].

Misir taxt-tacına Şeyx Mahmudi keçdikdən sonra Qara Yusiflə onun dostluq münasibətləri arxa plana keçdi, tərəflərin siyasi maraqları və mənafeləri ön plana çıxdı. Bu zaman bölgədə baş verən siyasi hadisələr hər iki hökmdarı dostluq münasibətlərindən daha çox mənsub olduqları dövlətlərin siyasi maraqlarını qorumağa vadar etdi [143, 107]. A.A.Arayancan yazır ki, Şeyx Mahmudinin sultan seçilməsindən sonra iki dövlət arasındakı dostluğun yerini rəsmiyyət və soyuqluq tutdu, elçi mübadiləsi davam etdirilsə də, gərginlik yaşandı [174$^{b}$, 218].

K.Y.Kopramanın fikrincə, 1415-ci il iyulun 26-da Misir sultanı Şeyx Mahmudi Dəməşq naibi Qanibəyin üsyanını yatırmaq üçün Suriyaya yürüş etdiyi zaman Hələbdə dayanarkən Ağqoyunlu Qara Osman oğlu Əbu Səidi onun yanına elçi göndərdi. Hələbə gələn Əbu Səidin məqsədi Misir sultanını Qanibəyin üsyanını yatırmaq münasibətilə təbrik etmək idi. 1415-ci il noyabrın 27-də Sultan Şeyx Mahmudi Əbu Səidi

hədiyələrlə geri göndərdi [256, 192]. K.Y. Kopraman Məmlük tarixçilərindən əl-Məqrizinin verdiyi məlumata əsaslanaraq yazır ki, Sultan Şeyx Mahmudi Hələbdə olarkən Qara Yusifin də elçisi ora gəlmişdi [256, 192]. Dövrün qaynağı Qaraqoyunlu elçisinin hansı məqsədlə göndərilməsi barədə ətraflı məlumat vermir. Görünür, hadisələri yaxından izləyən Qara Yusif Ağqoyunlularla münasibətlərdəki gərginliyi nəzərə alaraq, Qara Osmanın Sultan Şeyx Mahmudi ilə yaxınlaşmasına imkan verməmək üçün öz elçisini Məmlük sultanını təbrik etmək üçün Hələbə göndərmişdi [143, 107-108].

Hadisələrin sonrakı gedişi göstərir ki, Qara Yusif bu addımı atmaqda yanılmamışdı. Çünki bu zaman Şərqi Anadoluda Qaraqoyunlularla Ağqoyunlular arasında rəqabət daha da kəskinləşmişdi. 1416-cı ilin yayında Ağqoyunlu ordusu Ərzincana hücum etdi və şəhər hakimi Pir Ömər kömək üçün Qara Yusifə müraciət etmək məcburiyyətində qaldı. İsgəndərin rəhbərliyi altında Qaraqoyunlu ordusu Pir Ömərin köməyinə gəldiyi üçün Qara Osman qarət etdiyi qəniməti buraxaraq qaçmağa məcbur oldu [7, 24; 313, 96-97; 143, 108].

K.Y.Kopramanın yazdığına görə, qaraqoyunlularla ağqoyunlular arasında mübarizənin yenidən kəskinləşdiyi bir dövrdə 1416-cı il noyabrın 27-də Qara Yusif Qahirəyə Dəniz adlı elçisini göndərdi. Lakin qaynaqlarda Qaraqoyunlu elçisinin hansı məqsədlə göndərilməsi barədə heç bir məlumat yoxdur [256, 193]. Görünür, Qaraqoyunlu elçisinin Misirə göndərilməsində məqsəd Məmlük sultanından Ərzincana uğursuz yürüşdən sonra ağqoyunlularla münasibətlərin yenidən kəskinləşməsi ilə bağlı kömək istəmək olmuşdu. Bu göstərir ki, hər dəfə bölgədə baş verən siyasi hadisələr Qaraqoyunlu-Məmlük siyasi əlaqələrinin gedişinə öz təsirini göstərirdi. Ağqoyunlu Qara Osmanın qaraqoyunlular əleyhinə fəaliyyətini gücləndirməsi və daxili qarışıqlıqdan faydalanaraq Malatya, Darəndə və Behisni şəhərlərini, kürd əmirlərinin isə Gərgər və Kaxta qalalarını nəzarət altına alması, 1417-ci ilin yazında Sultan Şeyx Mahmudinin Malatya bölgəsinə yürüşünə səbəb oldu [313, 97; 256, 192; 143, 108].

Şübhəsiz ki, bu zaman Qara Yusif Məmlük sultanının müttəfiqi kimi Ağqoyunlu Qara Osmana qarşı mübarizəyə qoşuldu.

Qara Yusif Ağqoyunlulara qarşı yürüş ərəfəsində, 1417-ci il avqustun 11-də Məmlük sarayına Hamidəddinin rəhbərliyi altında bir elçi heyəti göndərdi. K.Y.Kopraman Məmlük tarixçisi əl-Məqrizinin verdiyi məlumata əsaslanaraq yazır ki, Qahirəyə Hamidəddinlə bərabər Qara Yusifin oğlu Məhəmmədşah və Ərzincan hakimi Pir Ömərin də məktub və hədiyələri gətirilmişdi. Qahirədə böyük hörmətlə qarşılanan Qaraqoyunlu elçisi Qara Yusifin məktubunu Sultana təqdim etdi. Qara Yusif öz məktubunda Məmlük sultanına Ağqoyunlulara qarşı hücuma hazırlaşdığı barədə xəbər verirdi [256, 194; 143, 108]. Maraqlıdır ki, bu dövrdə qaraqoyunluların hücüm xəbərini eşidən Ağqoyunlu Qara Osman da oğlu Həmzəni məktub və hədiyyələrlə Misir sultanının yanına göndərmişdi. Məmlük sultanı Şeyx Mahmudi Ağqoyunlu elçisini hörmətlə qarşılasa da, Qara Osmanın xahişinə müsbət cavab vermədi [256, 194].

Məmlük tarixçilərinin verdiyi məlumata görə, 1417-ci ilin sentyabrında Sultan Şeyx Mahmudi Hələbdə olarkən Qara Yusifin elçisi Hamidəddin onun yanına gəlmişdi. Qaraqoyunlu elçisi Qara Yusifin Ağqoyunlular üzərində qələbə çaldığını Misir sultanına çatdırdı. Sultan Şeyx Mahmudi bu xəbərdən məmnun olmasa da, elçini hörmətlə qəbul etdi və qiymətli hədiyyələrlə yola saldı [313, 97; 256, 195]. K.Y.Kopramanın qənaətinə görə, Məmlük hökmdarı Şeyx Mahmudi Suriya səfəri zamanı Əlbistanda olarkən yanında olan Qaraqoyunlu elçisini öz elçisi ilə bərabər geri göndərdi. Qaraqoyunlu sarayına göndərilən elçi Qara Yusifə sultanın dostluq məktubunu və qiymətli hədiyyələri təqdim etdi [256, 195; 143, 108-109].

Qara Yusifin Ağqoyunlular üzərində növbəti qələbəsindən sonra tərəflər arasında sülh bağlandı. Razılaşmaya görə, Qara Osman Mardinin şimal-qərbində yerləşən Saur qalasını Qaraqoyunlulara verdi və əvəzində 1milyon dirhəm pul, 100 at və 100 dəvə aldı [313, 97; 363, 43]. Qaraqoyulu Qara Yusiflə Ağqoyunlu Qara Osman arasında bağlanan sülhdən məmnun

qalan Misir Sultanı Şeyx Mahmudi ölkənin şimal sərhədlərində qayda-qanunu bərpa edərək Qahirəyə qayıtdı [143, 109].

Göründüyü kimi, Misir sultanının Suriya səfəri zamanı Qaraqoyunlularla Məmlüklər arasında diplomatik əlaqələr daha da gücləndi. Şübhəsiz ki, bu əlaqələr həm Məmlük sultanının, həm də Qaraqoyunlu hökmdarının siyasi maraqlarına cavab verirdi. Belə ki, Məmlük sultanı Şeyx Mahmudi başa düşürdü ki, dövlətin şimal sərhədlərində sabitlik yaratmaq üçün Şərqi Anadoluda böyük siyasi nüfuza malik olan Azərbaycan Qaraqoyunlu dövlətilə yaxşı münasibətləri saxlamaq lazımdır. Eyni zamanda Qaraqoyunlu Qara Yusif də Ağqoyunlularla mübarizənin daha da kəskinləşdiyi bir dövrdə Məmlük sultanından yardım əldə etmək üçün onunla sıx qarşılıqlı münasibətlərin yaradılmasında maraqlı idi. Məhz bu amillər iki dövlət arasında mövcud olan siyasi əlaqələrin inkişafına müəyyən təsir göstərdi.

Lakin bir müddət sonra Qaraqoyunlu-Məmlük münasibətlərində müəyyən soyuqluq yarandı. Buna səbəb, 1418-ci ilin iyulunda Teymuri sultanı Şahruxun və Məmlük sultanı Şeyx Mahmudinin təhriki ilə Qara Osmanın bağlanmış barışığı pozaraq Mardin üzərinə yürüş etməsi oldu. Bundan xəbər tutan Qara Yusif Ağqoyunlulara qarşı hücuma keçərək onları Amid yaxınlığında məğlubiyyətə uğratdı. Qaraqoyunlular tərəfindən təqib edilən Qara Osman Hələb naibinə sığınmaq məcburiyyətində qaldı. Yürüşü davam etdirən Qara Yusif Fərat çayını keçərək sentyabrın 20-də Mərc Dabıqda Qara Osmanı ağır məğlubiyyətə uğratdı. Ağqoyunlu hakimi Hələbə qaçmağa məcbur oldu. Bu zaman Qara Yusifin oğlu Pirbudaq Məmlük sultanının nəzarəti altında olan Antəb bölgəsini qarət etdi. Misir sultanının razılığı olmadan Qaraqoyunluların Məmlük torpağına girməsi Qahirədə böyük təşvişə səbəb oldu. Sultan Şeyx Mahmudi Qara Yusifin Suriya üzərinə də yürüş edəcəyindən ehtiyat edirdi. Çünki sultanla münasibətləri gərgin olan Əmirül-Həcc Dəvaddar Yaşbək başda olmaqla Məmlük əmirlərinin Qara Yusifin yanına getməsi onu sultanın əleyhinə hərəkət edərək Suriya üzərinə yürüş etməyə təşviq edəcəyindən qorxuya düşən

Sultan Şeyx Mahmudi Həcc səfərini təxirə saldı və Qaraqoyunlulara qarşı yürüşə hazırlaşmağa başladı. Sultan Şeyxülislamdan və dörd məzhəb qazısından Qara Yusiflə savaşmağın vacib olmasına dair fitva aldı. Bu zaman Qara Yusif Hələb naibi Yaşbəyə və Misir sultanına məktub göndərərək Antəbin qarəti ilə bağlı üzürxaqlıq etdi, məqsədinin yalnız Qara Osmanı cəzalandırmaq olduğunu bildirdi və Suriyaya yürüş etməyəcəyinə təminat verdi. Qara Yusif həmçinin, Məmlüklərin Ağqoyunluları himayə etməsinə ciddi etirazını bildirdi [313, 99-100; 317, 11; 201, 416; 143, 109; 174[b], 218-219].

F.Sümerin fikrincə, Mardin ətrafında qarət və talanlar törətdən, hətta qadın və uşaqlara rəhm etməyən Qara Osmanı Məmlük sultanının himayə etməsi və onun Hələbə sığınmasına razılıq verməsi Qara Yusifin Məmlük əraziləri olan Antəb və Birəcik bölgəsini qarət etməsinə səbəb oldu. Ölkəsinə qayıdan Qara Yusif Məmlük sultanına elçisi Hamidəddinlə göndərdiyi məktubunda Məmlük ərazilərinə qarətedici yürüşünün qaçınılmaz olduğunu bildirdi, Qara Osmana sığınacaq verdiyinə görə sultanı qınadı və Ağqoyunlu hakimini himayə etməsinin sonrakı nəticələrindən çəkinməsini tövsiyyə etdi [313, 101; 256, 160; 174[b], 219].

Siyasi hadisələrin axarı bir daha göstərir ki, Qaraqoyunlu-Məmlük münasibətləri heç də rəvan məcrada inkişaf etməmişdi. Şübhəsiz ki, Şərqi Anadoluda siyasi cəhətdən möhkəmlənmək uğrunda mübarizə aparan və getdikcə güclənməkdə olan Qaraqoyunlu-Ağqoyunlu rəqabəti buna öz təsirini göstərdi. Məmlük sultanı yaranmış bu vəziyyətdən öz mənafeyinə uyğun şəkildə faydalanmağa çalışdı. Görünür o, Misir Məmlük dövlətinin sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün Ağqoyunlulardan bir sipər kimi istifadə etməyə çalışdı [143, 109].

Qeyd etmək lazımdır ki, Azərbaycan Qaraqoyunlu dövlətinin siyasi mövqelərinin daha da möhkəmlənməsi, Qara Yusifin Ağqoyunlu Qara Osman üzərində ardıcıl qələbələr qazanması, onun Məmlük sultanı ilə qarşılıqlı əlaqələrinə öz təsirini göstərdi. Bu dövrdə Qaraqoyunlu hökmdarının Qahirə ilə siyasi

münasibətlərində diktə edən tərəf kimi çıxış etməsi özünü açıq şəkildə göstərdi. Əgər əvvəllər Qara Yusifin Misir sultanının sarayına göndərdiyi məktublarda daha çox dövlətlərarası münasibətləri gərginləşdirməmək meyli hiss olunurdusa, sonrakı məktublarında Qaraqoyunlu hökmdarının bir sıra siyasi tələblər irəli sürdüyü açıq şəkildə hiss olunmağa başladı [143, 109-110].

1420-ci ilin martında Qara Yusif Misir sultanına təhdidedici məktub göndərərək Şeyx Mahmudidən Dəməşqdə həbsdə olan zaman ondan aldığı qiymətli ləli tələb etdi və əks halda ölkəsinə hücum etməklə hədələdi [13, 58; 313, 104; 256, 198].

Şübhəsiz ki, Qara Yusifin əldə etdiyi siyasi və hərbi üstünlük, eləcə də Qahirəyə göndərdiyi təhdidedici məktublar artıq Misir Məmlük sarayında ciddi narahatçılığa səbəb oldu. Qaraqoyunluların Suriyaya yürüşə hazırlaşması barədə Misir sarayına gələn məktublar Şeyx Mahmudini onlara qarşı ciddi tədbirlər görməyə vadar etdi. F.Sümer yazır ki, 1420-ci ilin martında Misir sultanı Qara Yusifə qarşı müharibəyə hazırlaşmaq üçün əmirlərinə göstəriş verdi və hətta, ata minə bilməyəcək qədər xəstə olmasına baxmayaraq bu qərarından imtina etmədi [313, 101; 201, 458].

Teymuri sultanı Şahruxun Azərbaycana – Qara Yusifə qarşı yürüşə başladığı bir dövrdə Məmlük hökmdarı Şeyx Mahmudi də Qaraqoyunlu dövlətinə qarşı müharibəyə hazırlaşdı. 1420-ci il avqustun 14-də bu məqsədlə Misir sarayında məmlük əmirlərinin, xəlifə və dörd məzhəb qazısının iştirak etdiyi yığıncaqda Qaraqoyunlulara qarşı müharibəyə fitva verildi və döyüş hazırlığı artırıldı [313, 103]. F.Sümer Məmlük tarixçisi Məqrizinin verdiyi məlumatlara əsaslanaraq yazır ki, Məmlük sultanının Qaraqoyunlular üzərinə hərbi yürüşə hazırlaşmasına səbəb Qara Yusifin ona göndərdiyi təhdidedici məktub olmuşdu. Qara Yusif bu məktubunda 1404-cü ildə Dəməşqdə həbsdə olan zaman Şeyxin ondan aldığı ləli istəmişdi. Hərhalda bu məktubda Şeyxi qəzəbləndirəcək ifadələr olmuşdu [313, 104; 143, 110]. F.Sumerin qənaətinə görə, Məmlük sultanı Şeyx Mahmudinin Qaraqoyulular üzərinə yürüşə qərar verməsinin başlıca səbəblə-

rindən biri, şübhəsiz Qara Yusifin Suriyaya yürüş edəcəyinə dair xəbərlərin alınması idi [313, 104].

K.Y.Kopraman yazır ki, 1420-ci ili avqustun 23-də Məmlik ordusu Qaraqoyunlu Qara Yusifə qarşı Suriya istiqamətində yürüşə başladı. Bu zaman Hısn-Keyfə hakimi Süleyman Qara Yusifin ölüm xəbərini Qahirəyə çatdırdı. Qara Yusifin ölümü Qaraqoyunlularla Məmlüklər arasında gözlənilən hərbi münaqişənin dayandırılmasına səbəb oldu [256, 198; 174[b], 220]. F.Sümerin fikrincə, Teymuri sultanı Şahruxa qarşı yürüşə gedən Qara Yusifin Ucanda ölümü yalnız Cığatayları deyil, Ağqoyunluları və Məmlükləri də sevindirdi [317, 12]. Göründüyü kimi, Qara Yusif dövründə Şeyx Mahmudi ilə əvvəlcə dostcasına inkişaf edən münasibətlər onun sultan seçilməsindən sonra Qaraqoyunlu hökmdarının təhlükə yaradacağından qorxduğu üçün əlaqələr soyumuş, hətta Qara Yusifə qarşı yürüşə hazırlıq görmüşdür.

Qara Yusifin ölümündən sonra Azərbaycan Qaraqoyunlu dövləti ilə Məmlük dövləti arasındakı siyasi münasibətlərdə yaxınlaşma meyli gücləndi. Buna səbəb, Teymuri sultanı Şahruxun aramsız hücumlarına məruz qalan və daxili siyasi çəkişmələr burulğanına düşən Qaraqoyunlu dövlətini Məmlük sultanının artıq özünə ciddi təhlükə hesab etməməsi idi. Digər tərəfdən Sultan Şahruxun Azərbaycana yürüşləri dövründə Qara Osman Ağqoyunlu bəyliyini xeyli genişləndirərək tədricən Şərqi Anadoludan keçən tranzit ticarət yollarını və strateji məntəqələri öz nəzarəti altına almışdı. Bu zaman Qaraqoyunluların Şərqi Anadoluda mövqeyinin zəifləməsi ilə bölgədə ciddi güc mərkəzinə çevrilən Ağqoyunlu bəyliyi Məmlük dövləti üçün ciddi təhlükə yaradırdı. Məhz bu amillər, Misir sultanının Azərbaycan Qaraqoyunlu dövləti ilə siyasi əlaqələrini bərpa etməsinə səbəb oldu. Misir Məmlük dövləti Qaraqoyunlu hökmdarı Qara İsgəndərə başlıca düşməni olan Ağqoyunlulara və Teymurilərə qarşı mübarizədə yardım göstərməyə çalışdı [143, 110-111].

XV yüzilliyin 20-ci illərində Teymuri sultanı Şahruxun Azərbaycana yürüşü dövründə onun müttəfiqi olan Ağqoyunlu

Qara Osmanın Şərqi Anadoluda mövqeyini xeyli möhkəmləndirməsi və Məmlük əraziləri üçün təhlükə yaratması Ağqoyunlu-Məmlük münasibətlərini xeyli gərginləşdirdi. Şübhəsiz ki, bu vəziyyət Məmlük sultanını Qaraqoyunlu İsgəndərlə sıx əlaqələr yaratmağa vadar etdi. 1429-cu ildə Qaraqoyunlu hökmdarı Salmas döyüşündə Sultan Şahruxa məğlub olub Şərqi Anadoluya çəkilən zaman Misir sultanı Barsbayın yanına gəldi və hörmətlə qarşılandı [87, 24]. 1435-ci ildə Qaraqoyunlu İsgəndər Təbriz yaxınlığında növbəti döyüşdə Sultan Şahruxa məğlub olan zaman yenidən Şərqi Adadoluya çəkildi. Teymuri sultanının tələbi qarşısında Qara İsgəndərin qarşısını kəsməyə çalışan Qara Osman Ərzurum yaxınlığında baş verən döyüşdə öldürüldü. Qara İsgəndər Qara Osmanın başını kəsərək Məmlük sultanı Məlik Əşrəf Barsbaya göndərdi. Məmlük tarixçilərinin məlumatlarına əsaslanan F.Sümer Qara Osmanın və iki oğlunun başlarının 1435-ci il oktyabrın 4-də Qahirəyə gətirildiyini qeyd edir [313, 136; 143, 111]. Qara Osmanın ölümünə çox sevinən Sultan Barsbay Qara İsgəndərə on min dinar dəyərində İsgəndəriyyə qumaşından ərmağanlar göndərərək ona yardım etmək üçün səfərə çıxacağını vəd etdi [313, 140; 186, 270].

Teymuri hökmdarının Azərbaycanı tərk etməsindən sonra Azərbaycana dönən Qara İsgəndər taxt-tac uğrunda qardaşı Cahanşahla savaşda məğlub olaraq Əlincə qalasına sığındı və müttəfiqi Sultan Barsbaya müraciət edərək yardım istədi. Cahanşah tərəfindən mühasirəyə alınan Qara İsgəndərin yeganə ümidi Məmlük sultanı Məlik Əşrəf Barsbayın göndərəcəyi kömək idi. Məmlük sultanı Məlik Əşrəf düşməni və səltənət rəqibi Canbəy Sufinin təhrikilə Misir dövlətinə müəyyən təhlükə yaradan Zülqədəroğlu Mehmed bəyi və Ağqoyunlu şahzadələrini himayə etdiyinə görə Sultan Şahruxa qarşı düşmən mövqedə idi. Məhz bu səbəbdən Qaraqoyunlu İsgəndərin dostu və müttəfiqi oldu. Bu zaman həqiqətən də Məmlük sultanı müttəfiqi Qara İsgəndəri düşmüş olduğu vəziyyətdən xilas etmək məqsədilə əmirlərindən Tanrıvermişin, Şam və Hələb naibi Qorxmazın rəhbərliyi altında önəmli bir qüvvəni Cahanşah

üzərinə göndərdi [13, 92; 313, 140; 201, 469]. Əbubəkr Tehrani bu barədə yazır: «Əmirzadələrdən Cahangir Mirzə Sultan Əşrəfin lütf göstərəcəyi ümidi ilə oraya getdi. Sultan Əşrəf tərəfindən böyük hörmətlə qarşılandı və şahlara layiq hörmət gördü. Onu məqsədinə çadırmaq üçün Şam və Misirdən əlli min atlı ilə Diyarbəkrə göndərdi. Onların başında görkəmli əmirlərdən qoşun başçısı Tanrıvermişi, Misirin böyük əmiri, Şam və Hələbin naibi Qorxmazı Diyarbəkrə yolladı ki, Sultan Həmzəni taxtdan salıb vilayətdən qovsunlar və hakimiyyət cilovunu Cahangir Mirzəyə versinlər. Sonra Qara Yusifin oğlu İsgəndərlə aralarında olan sazişə görə Əlincə qalasına getsinlər və Cahanşah Mirzənin mühasirəsində olan İsgəndəri xilas etsinlər» [13, 92; 143, 112].

Məmlük ordusu əmir Qorxmazın komandanlığı altında Ərzincana qədər irəlilədi, lakin bu zaman Misir sultanı Barsbayın ölüm xəbərini eşidərək yürüşü dayandırdı və geri döndü. Bir müddət sonra Qara İsgəndər də oğlu Şah Qubad tərəfindən öldürüldü [13, 93-94; 313, 140; 201, 469; 346, 183]. Beləliklə, uzun müddət Qaraqoyunlu taxt-tacı uğrunda davam edən siyasi mübarizə Cahanşahın qələbəsi ilə başa çatdı. Azərbaycan Qaraqoyunlu dövlətində Cahanşahın hakimiyyətdə möhkəmlənməsindən sonra da Qaraqoyunlu-Məmlük münasibətləri davam etdi [143, 112].

XV yüzilliyin ortalarında Qaraqoyunlu-Məmlük münasibətlərində yenidən müəyyən gərginlik yarandı. Buna səbəb Ağqoyunlu Cahangir Mirzə ilə Cahanşah arasında münasibətlərin yenidən kəskinləşməsi və Ərzincanın Ağqoyunlular tərəfindən ələ keçirilməsi idi. 1450-ci ildə Ərzincanı Ağqoyunlulardan geri alan Cahanşahın Diyarbəkr istiqamətində Cahangir Mirzəni təqib edərək Malatyaya kimi irəliləməsi Məmlük sultanını narahat etdi [363, 56]. M.X.Yınanç yazır ki, Misir sultanı Çaxmaq Cahanşahın yürüşündən xəbər tutaraq işin mahiyyətini öyrənmək məqsədilə 1450-ci ilin avqustunda öz elçisi Əli əl-Zardaqaş əl-Bundukdarini onun yanına göndərdi. Oktyabrda Qahirəyə geri dönən elçi Cahanşahın misirlilərə qarşı heç bir pis niyyəti olmadığını, başlıca məqsədinin Cahangiri təqib etmək

olduğunu bildirdi [358, 276]. Buna görə də, 1450-ci ilin oktyabrında Məmlük sultanı Zülqədərli Süleyman bəydən Cahangir Məmlük ölkəsinə sığınmaq istədiyi təqdirdə onun Suriyaya girməsinə mane olmasını tələb etdi. Lakin bu zaman Süleyman bəy Misirin sərhəd valiləri kimi Ağqoyunlu şahzadələrindən Cahangir və Uzun Həsənə düşmənləri Cahanşaha qarşı mübarizədə yardım göstərirdi. 1451-ci ilin dekabrında Cahanşah Xarput ətrafına gələn zaman Qaraqoyunlu ordusunun ön dəstələri Zülqədərlilərin yardımına mane olmaq üçün Fərat çayını keçərək Malatyaya doğru irəlilədi. Bu yürüş xəbəri Qahirəyə çatan zaman Sultan Çakmaq Suriyanın bütün valilərinə qaynatası Zülqədərli Süleyman bəyə yardıma tələsməyi əmr etdi [363, 57].

Qaraqoyunlu hökmdarı iki dövlət arasında yaranmış siyasi gərginliyi aradan qaldırmaq və Məmlük sultanı ilə mövcud münasibətləri qoruyub saxlamaq üçün Süleyman bəyə qarşı yürüşü dayandırmalı oldu. R.Yınanç yazır ki, Cahanşah məqsədinin yalnız Cahangir Mirzəni təqib etmək olduğunu Misir sultanı Seyfəddin Çakmaq əz-Zahirə bildirərək onun narahatlığına son qoydu [363, 57; 143, 113].

1451-ci ilin fevralında Cahangirin oğlu Qahirəyə gələrək Məmlük sultanına atasının təşəkkürünü və sədaqətli olduğunu bildirən məktubunu çatdırdı. Məmlüklərlə Ağqoyunluların yaxınlaşmasından xəbər tutan Cahanşah diplomatik vasitələrlə bunun qarşısını almaq üçün həmin ilin martında elçisini Qahirəyə yollayaraq məktubunu Məmlük sultanına çatdırdı. Farsca yazılmış bu məktubda Cahanşah sultana hörmət və itaətini bildirməklə yanaşı, Ərzincan və Mardin şəhərlərini ələ keçirdiyini, Diyarbəkr bölgəsinə gəlməkdə məqsədinin sultanın itaətindən çıxmış olan Cahangiri cəzalandırmaq, məmləkətini və təbəəsini pis idarə etdiyi üçün onu hakimiyyətdən uzaqlaşdırıb yerinə əmisi Şeyx Həsəni keçirmək olduğunu bildirirdi. [358, 176-177; 143, 113]. Qaraqoyunlu elçiləri özləri ilə Cahanşahın qardaşı İsfahanın 10 yaşlı oğlunu da Qahirəyə aparmışdı. Onlar şahzadəni Sultana təqdim edərək onun himayəsi altında böyüməsini Cahanşahın arzu etdiyini bildirdilər. Martın 27-də Cahanşahın

elçiləri Qahirədən qayıdan zaman Məmlük sultanı öz elçisi Qanəmini də onlarla birlikdə Qaraqoyunlu hökmdarının yanına göndərdi [358, 177].

XV əsrin 50-60-cı illərində Qaraqoyunlu Cahanşahla Ağqoyunlu Uzun Həsən arasında münasibətlərin getdikcə daha da gərginləşməsi və Şərqi Anadoluda siyasi vəziyyətə nəzarətin Ağqoyunluların əlinə keçməsi Qaraqoyunlu-Məmlük münasibətlərinə öz təsirini göstərdi. Ağqoyunlu bəyliyinin bölgədə getdikcə öz mövqeyini möhkəmləndirməsi Məmlük sultanı ilə münasibətləri gərginləşdirsə də, Qaraqoyunlu Cahanşahın mövqeyinin zəifləməsi onun Misir sultanı ilə siyasi əlaqələrini arxa plana keçirdi [143, 113].

Azərbaycan Qaraqoyunlu dövlətinin Misir Məmlük dövləti ilə qarşılıqlı əlaqələrinin müasir Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsinin öyrənilməsi bunu söyləməyə imkan verir ki, mövzu bilavasitə tədqiqat obyekti kimi araşdırılmasa da, Türkiyə tarixçiləri Qaraqoyunlu və Misir Məmlük dövləti ilə bağlı tədqiqatlarında bu məsələyə xüsusi diqqət yetirmişlər. Türkiyə tarixçilərinin Məmlük mənbələrindən hərtərəfli yararlanması bu iki dövlət arasındakı münasibətləri daha dolğun işıqlandırmağa imkan yaradır.

# III FƏSİL
# AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN İCTİMAİ-SİYASİ TARİXİ TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

## *III. 1. Ağqoyunluların mənşəyi*

Azərbaycan xalqının təşəkkülü prosesində yaxından iştirak etmiş qədim tayfa birliklərindən biri də Ağqoyunlulardır. Ağqoyunlular da «türkman» adlanan etnik qrupa daxil olmuşdur. Ağqoyunlu tayfa birliyinə daxil olan tayfaların və boyların mənşəyi məsələsi Azərbaycan tarixşünaslığında dərindən araşdırılmamış və onların Azərbaycanın etnik və siyasi tarixində oynadığı rol qəti müəyyən edilməmişdir. Bu əsasən Azərbaycan sovet tarixşünaslığında xalqımızın etnik tarixinin geniş tədqiqata cəlb olunmaması ilə bağlıdır. Buna görə də Türkiyə tarixşünaslığında bu tayfalarla bağlı aparılan araşdırmalar mühüm maraq doğurur.

Türkiyə tarixçiləri arasında Ağqoyunlu tayfalarına bu adın verilməsi ilə bağlı fikir birliyi yoxdur. Bu fikir müxtəlifliyi qədim türklərdə qoyunun (qoç) totem kimi qəbul edılib-edilməməsi fikrindən doğmuşdur. Məsələnin elmi həlli, bilavasitə bundan asılıdır. Tarixçilərin bir qismi bu adın Ağqoyunlulara qədim totemleri ilə bağlı verildiyini göstərir [238, 485; 352, 147; 264, 52; 120 ]. M.X.Yınançın fikrincə, Ağqoyunlular qədimdən qoyun toteminə bağlı olmuş və islamı qəbul etdikdən sonra da bu totemə sadiq qalaraq bayraqlarına qoyun (qoç) təsvirləri çəkdirmiş, qəbir daşlarını qoç heykəlləri şəklində qoydurmuşlar [355, 253].

Ş.Q.Səfəroğlu və Ə.Müdərrisoğlu belə hesab edirlər ki, «Ağqoyunlu» adı türklərin islamaqədərki dövrün qoyun totemi ilə bağlıdır. Ağqoyunlular əcdadları olan hun türklərinin ənənələrini davam etdirmişlər [303, 138; 120]. Hər iki müəllif «Ağqo-

yunlu» adını coğrafi cəhətlə bağlamağa çalışaraq qeyd edirlər ki, Qoyunlu (hun) türklərinin Anadolunun cənubunda yerləşmiş boyları «Ağqoyunlu», Şimalında məskunlaşmış boyları isə «Qaraqoyunlu» adlanmışdır [303, 138].

Azərbaycan tədqiqatçılarından E.Q.Mehrəliyev də «Qaraqoyunlu» və «Ağqoyunlu» adlarındakı «qara» və «ağ» sözlərinin coğrafı cəhət bildirdiyini göstərir [114, 10]. Osman Turan Ağqoyunluların qoyunun qədim totemləri olduğu üçün bu adı qəbul etdiklərini və bayraqlarına da ağ qoyun (qoç) rəsmlərini qoyduqlarını qeyd edir [339, 85; 120].

Türkiyə tarixçilərinin digər bir qismi isə türklərdə qoyunun (qoç) totem kimi qəbul olunmadığını qeyd edir. Onlar Ağqoyunlulara bu adın bəslədikləri qoyun sürülərinin rənginə görə verildiyini bildirir. Həmin tarixçilər bunu, Oğuz boylarına aid onqonların əti yeyilməyən yırtıcı quşlar olması və onqon kimi qəbul edilmiş heyvanın ətinin yeyilməməsi faktı ilə əsaslandırmağa çalışırlar [313, 13; 191, 137; 344, 32; 204, 39].

Avropa tədqiqatçılarından D.Dögini qeyd edir ki, Ağqoyunluların bayraqlarında ağ qoyun rəsmi olduğu üçün onlara bu ad şamil edilmişdir [197, 1771]. Bu fikir həm bəzi Türkiyə tarixçiləri, həm də Azərbaycan tarixçiləri tərəfindən qəbul edilmişdir [297, 237; 159, 45; 188, 185; 156, 78; 99, 37; 415, 158; 109, 6]. Hətta son tədqiqatlarda da bu fikir öz əksini tapmışdır [101, 133; 431, 179].

Bu fikirlə razılaşmaq çətindir. Çünki tayfanın, sülalənin öz adını bayrağındakı ağ qoyun rəsminə görə alması inandırıcı deyildir. Burada belə bir sual meydana çıxır. Tayfa bayraqlarının yaranmasına qədərki dövrdə bu tayfa necə adlanmışdır? Belə nəticəyə gəlmək olar ki, Ağqoyunluların əski təfəkküründə qoyun (qoç) onqon olmaqla yanaşı, hələ qədim dövrlərdə yaylaq-qışlaq həyatı yaşayan Ağqoyunlu tayfaları Azərbaycanın qərb bolgələri ilə yanaşı monqol hücumları zamanı Cənub-Şərqi Anadoluda məskunlaşmışdı. Maraqlıdır ki, bu dövrdə onlardan şimalda Qaraqoyunlu tayfaları yerləşmişdi. Qədim türk tayfalarının təfəkküründə quzey qara, güney qırmızı, batı ağ, doğu

göy anlamında olduğu üçün Şərqi Anadolunun şimalında yerləşən və qoyunçuluqla məşğul olanlar Qaraqoyunlu, onlardan cənub qərbdə yerləşənlər də Ağqoyunlu adlanmışdır. Bu tayfalar tarixi ənənəni uzun müddət yaşatmış və qəbirüstü abidələrini də qoç fiquru formasında qoymuşlar [120].

Bəzi türk tarixçiləri Ağqoyunlu bayraqlarında ağ qoyun rəsminin olmadığını göstərirlər. Onlar Topqapı Saray Muzeyində saxlanılan və Uzun Həsənə aid olan ağ bayraq üzərində qoyun rəsminin olmadığını, üzərində «Sultan Həsən Bahadur» sözləri yazılmış Bayandur damğasının vurulduğunu qeyd edirlər [313, 13; 191, 137; 204, 39; 120].

Ağqoyunlu tayfa birləşməsinə daxil olan müxtəlif tayfaların və boyların Azərbaycanda məskunlaşması və onların mənşəyi məsələsi ilə bağlı Türkiyə tarixçiləri arasında fikir birliyi yoxdur. Tarixçilərin bəziləri orta əsrlər Osmanlı qaynaqlarına əsaslanaraq, Ağqoyunluların XIII əsrin sonunda - Elxani Arğun xanın (1284-1291) zamanında Orta Asiyadan Azərbaycana və Şərqi Anadoluya gəldiklərini göstərirlər [346, 180, 188; 261, 43; 188, 185; 322, 75-76]. Həmin fikir bəzi Azərbaycan tarixçiləri tərəfindən də qəbul edilmişdir [375, 85; 156, 78; 431, 179].

Ağqoyunlularla bağlı tədqiqat aparmış M.X.Yınanç Osmanlı tarixçilərinin Ağqoyunluların Azərbaycana və Anadoluya Oğuz xanın dövründə gəldikləri qeydindən «Oğuzu» «Arğun» oxumaqla səhvə yol verdiklərini göstərir [355, 251-252; 121]. M.X.Yınançın fikrincə, «Cahan ara» və «Nigaristan» əsərlərinin müəllifi Qazi Əhməd Qaffari Ağqoyunluların çox qədim zamanlardan etibarən Diyarbəkrdə yerləşdiklərini qeyd etmişdir. «Məcməüt -təvarix» əsərinin müəllifi Heydər Razi də həmin fikri təsdiq edir [Bax: 357, 252].

XVI əsr tarixçisi İbrahim Hərir də «Tarixi Humayuni» adlı əsərində Ağqoyunlu tayfalarının çox qədimdən Anadoluda yaşadıqlarını və bəylərinin Səlcuq sultanlarının əmirlərindən olub Diyarbəkr vilayətinin onlara iqta verildiyini bildirir [Bax: 357, 251-252; 121]. «Səfəvi şahzadəsi Sam Mirzə öz təzkirəsində Uzun Həsənin oğlu Sultan Yaqubdan bəhs edərkən, Ağqoyunlu-

ların əcdadlarının islama qədərki dövrdə İranın əksər vilayətlərini fəth etmiş Oğuz xanın zamanında Diyarbəkr tərəflərinə gələrək orada yurd saldıqlarını nəzərə çatdırır» [313, 35].

Ağqoyunlu tayfalarının mənşəyi ilə bağlı ən mühüm məlumatı Ağqoyunlu tarixçisi Əbubəkr Tehrani «Kitabi-Diyarbəkriyyə» əsərində verir. Müəllif «Uzun Həsənin ulu babası Ağqoyunlu dövlətinin qurucusu olan Qara Yülük Osmanı bir-bir adlarını saymaqla, Bayandur xan vasitəsilə 52-ci babası ilə Oğuz xana çıxararaq Ağqoyunluların Oğuz elinin Bayandur boyundan bir sülalə olduğunu göstərir [Bax: 13, 13-31; 440, 115; 121]. Mahmud Qaşğari adlarını bir-bir sadaladığı 24 Oğuz boyları içərisində Kınık və Kayıdan sonra Bayandur boyunun olduğunu qeyd edir [39, c.1, 5]. Bayandur xanın, həmçinin onun sərkərdəsi Salur Qazanın və məsləhətçisi Qorqud Ata Bayatın, yaxud Dədə Qorqudun Orta Asiyanın Oğuz tayfalarına mənsub olduqlarını Ağqoyunlu Uzun Həsənin 1470-ci ildə şahzadə Bayəzidə məktubundan da görmək olur: «Uzun illər Manqışlaq, Xarəzm və Türkistan hüdudlarında yaşayan Bayandur xanın qəbilə və adamları, Bayat və Oğuzlar bizim xoşbəxt dövlətimizin himayəsi altına sığınıb xilas olmuşlar» [355, 39-40; 356, 69].

Sülaləyə öz adını verən Oğuz xanın nəvəsi Bayandur xan Sayramda öz yerinə kiçik qardaşı Beçənəqi Türküstana canişin qoyduqdan sonra, özü Qarabağ qışlağına və Göycə dəniz yaylaqlarına gəldi, ölkəsini oğulları arasında bölüb, dünyadan köçdü» [13, 15; 120]. Onun soyundan olan «Sunqur bəy (Qara Osmanın 20-ci babası) haqqında deyilir ki, o, peyğəmbərin (Məhəmmədin) müasiri olmuş və Orta Asiyadan Dəşti-Qıpçaq yolu ilə Azərbaycanın Alagöz və Göycə dəniz bölgəsinə yerləşmiş və islam dininə girməmişkən düşmənlərlə vuruşduğu zaman bir oxla yaralanıb ölmüşdü» [13, 18]. Əbubəkr Tehraninin verdiyi məlumatlara görə Əlincə qalası Xəlifə Harunun və Hadinin dövründə (VIII əsrin sonunda - IX əsrin əvvəllərində) Qıpçaq xanın, Xəlifə Əmin və Məmunun dövründə (809-833-cü illər) Şəktür bəyin ixtiyarında olmuşdur [13, 15].

F.Sümer Əbubəkr Tehraninin Ağqoyunluların şəcərəsində

Tur Əli bəydən öncə qeyd olunan tarixi şəxsiyyətlər barədə məlumatına şübhə ilə yanaşır [317, 4]. Bu haqqda O.Əfəndiyevin fikirləri ciddi maraq doğurur. O, yazır ki, Əbubəkr Tehrani şübhəsiz ki, Uzun Həsənin nəslinin qədimliyini göstərməyə, Bayandurların hakimiyyətinin qanuniliyini əsaslandırmağa çalışmışdır. Lakin bu genelogiya tarixilikdən heç də uzaq deyildir [440, 115]. F.Kırzıoğlu Əbubəkr Tehraninin verdiyi məlumatlara əsaslanaraq, Oğuzların Bayandur boyuna mənsub olan Ağqoyunluların VII əsrdə Türküstandan Qıpçaq ölkəsinə, oradan isə Azərbaycana gələrək Alagöz dağı ilə Göycə gölü sahillərində yerləşdiklərini, Əlincə qalasına sahib olduqlarını və sonralar Alagöz – Göycə gölü – Əlincə bölgəsindən Diyarbəkrə köçdüklərini göstərir [249, 47]. Həmin fikrə X.Koroğlu da gəlmişdir. O, yazır: «Ağqoyunlu birliyinə daxil olan Bayandur qəbiləsi VII əsrdə Qıpçaq çölündən keçib Qafqaza gəlmiş, Alagözlə Göycə dəniz arasındakı yaylaqda, Kür və Araz vadilərində yerləşmişdir. Sonra onlar Diyarbəkrə köçmüşlər və nəhayət, burada güclü Ağqoyunlu dövləti yaratmışlar» [401, 69].

Oğuzların Bayandur boyundan olan Ağqoyunlular mənbələrdə çox zaman «Bayanduriyyə» kimi təqdim edilir. F.Sümerin qənaətinə görə, Bayandurlar XI əsrdə Səlcuq istilasında iştirak etmişdir. Əbul Qazidəki Türkmən rəvayətlərində Bayandurların XI əsrin II yarısında və ya XII əsrdə İraqda yaşayan türkman qəbilələrinin ən qüvvətlisi olduğuna aid bir xatirə vardır [307, 314; 280, 259]. Lakin F.Sümerin fikrincə, Bayandur boyunun bir tayfası olan Ağqoyunlular Şərqi Anadoluya Səlcuq istilası zamanı deyil, daha sonralar - Monqol yürüşləri dövründə gəlmişlər [307, 314]. İ.Erdem və K.Paydaşın qənaətinə görə, Bayandurlar Səlcuqların Anadoluya yürüşündə iştirak etmişdilər. Bunu təsdiq edən ən mühüm qaynaqlardan biri Şərqi Anadoluda arxeoloji qazıntılar nəticəsində Bayandurlara aid 1109-cu il tarixli məzar daşının tapılmasıdır [204, 41].

Ağqoyunluların mənşəyi məsələsində Türkiyə tarixçiləri arasında mövcud olan mühüm fikirlərdən biri də onların Hun tayfalarına bağlanılmasıdır. M.X.Yınançın fikrincə, qədimdən

qoyun toteminə bağlı olduqları üçün bayraqlarına və qəbir daşlarına qoyun (qoç) təsvirlərini həkk edən və islamı qəbul etdikdən sonra da bu totemi tərk etməyən Ağqoyunlular erkən orta əsrlərdə böyük rol oynamış Qon («qoyun») türk elindən qalmış kiçik bir dəstə olmuş, qədim Qoyunlulardan ayrılaraq Anadoluya gəlmiş və buradakı Oğuzların Bayandur boyuna daxil olmuşlar [357, 253; 121].

Z.V.Toğan «Oğuz dastanı»nın təhlili əsasında belə nəticəyə gəlir ki, Bayandurlular digər Hun tayfaları kimi V əsrin 60-cı illərində Qafqaz Dərbəndi yoluyla Azərbaycana daxil olmuş və Göyçə gölü-Van gölü bölgəsində yerləşmişdilər [51, 117, 118, 122, 146]. Z.V.Toğan IV əsrdə Azərbaycanın cənub-qərb ərazisində yerləşmiş Ağ Hunlarla Ağqoyunlular arasında yaxın əlaqə olduğunu qeyd edir [51, 117, 118, 122, 146]. O, Ağqoyunluların bir hissəsinin qədim zamanlardan etibarən Azərbaycanda olduğunu, bir qisminin isə monqol istilası dövründə Orta Asiyadan gəldiyini göstərir [335, 253; 120].

M.Ə.Seyfəddini belə hesab edir ki, Ağqoyunlu tayfa birliyi öz mənşəyini oğuz-türkmən tayfasının Səbuktəkin nəslindən almış və Orta Asiyadan XI və XIII əsrlərdə qərbə köç edərək Azərbaycanın qərb hissəsində məskunlaşmışdır [430, 160]. Bəzi tədqiqatçılar Ağqoyunluların VIII-IX əsərlərdə [Bax: 68, 6], digərləri isə XII-XIII əsrlərdə Orta Asiyadan Azərbaycana köç etdiyini göstərir [Bax: 398, 26]. Lakin buna baxmayaraq, tədqiqatlar sübut edir ki, Azərbaycan xalqının soykökündə yaxından iştirak etmiş türk tayfalarından biri olan Ağqoyunlular hələ VI əsrin sonunda və VII əsrin əvvəllərində Qarabağda, Göyçə gölü ətrafında, Alagöz yaylaqlarında yaşamışlar [109, 6; 86, 93-94; 121].

Ağqoyunlu tayfa birləşməsinin başında ***Bayandur*** tayfası dururdu və Ağqoyunlu hökmdarı adətən bu tayfadan olurdu. Faruq Sümer yazır ki, Ağqoyunlu sülaləsi Oğuzların ***Bayandur*** boyuna mənsub olduğu üçün hökmdarları Həmzə bəydən etibarən bayraqlarına, pullarına və fərmanlarına Bayandur boyunun damğasını qoymuşlar [314, 149, 167]. Ağqoyunlu tayfa

birliyində müstəqil ***Ağqoyunlu*** tayfası olmamışdır [317, 1]. Tayfa birliyində ***Bayandur*** boyu ilə yanaşı, Oğuzların ***Bayat, Döğər, Çepni, İnallı*** boylarının Azərbaycanın cənub-qərbində və Şərqi Anadoluda yaylaq-qışlaq həyat tərzi keçirən tayfaları və sonralar ***Cagirli, Ərəbgirli, Biçən, Düharlı, Bayramlı, Hacılı, Mosullu, Pornək, Qoca Hacılı*** tayfaları, Uzun Həsənin Qaraqoyunlular üzərindəki qələbəsindən sonra isə ***Əfşar, Sədlu, Ağmalı, Qacar, Alpaut, Ağaçəri*** və ***Qaramanlı*** tayfaları da daxil olmuşdur [357, 253; 334, 367; 191, 139-140; 163, 42-45]. Qeyd olunan bu tayfalarla yanaşı Ağqoyunlu tayfa birliyinə ***Şeyxli, Əhmədli, Tabanlu, Heydərli, Əmirli, İzzəddin Hacılı, Çavundur, Həmzə Hacılı, Yurtçu, Süleyman Hacılı, Dodurğa, Karqın, Bəğdilli*** kimi Oğuz-türkman tayfalarının daxil olduğunu görürük [Bax: 317, 2; 163, 45; 227, 489; 187, 185; 249, 502].

Ağqoyunlu tayfa birləşməsində ***Şeyxli, Süleyman Hacılı, Çavundur, Dodurğa, Döğər, Karqın, Əfşar*** və ***Bəğdilli*** tayfaları siyasi cəhətdən ikinci dərəcəli rol oynamışlar. Ağqoyunlu tayfaları içərisində siyasi baxımdan ən güclüləri ***Mosullu*** və ***Pornəkdir***. «Kitabi Diyarbəkriyyədə» ***Mosullu*** tayfasnın adı 1436-cı ildən öncə çəkilmir. Lakin o, 1451-ci ildə Uzun Həsəni müdafiə edən başlıca qüvvə olmuşdur. Uzun Həsənin Teymuri hökmdarı Əbu Səid üzərindəki qələbəsində Mosullu Əmir bəy və qardaşı Sufi Xəlil mühüm rol oynamışlar. Əmir bəy Ağqoyunluların Teymuri Əbu Səid üzərində qələbəsində göstərdiyi böyük rəşadətə görə Uzun Həsən tərəfindən divan bəyi və baş komandan təyin edilmiş və bir müddət də Şiraz valisi olmuşdur [355, 207; 204, 56].

Ağqoyunlu tayfa birliyinə daxil olan Pornək tayfasının adı ilk dəfə Qara Yülük Osmanın Qaraqoyunlu İsgəndərlə 1421-ci ildə baş verən döyüşü ilə əlaqədar olaraq çəkilir. Bu döyüşdə Pornəklərə Kuh Əhməd Pornək rəhbərlik etmişdi. Qara Osmanın ölümündən sonra hakimiyyət uğrunda mübarizə başlanan zaman Pornəklər Həmzə bəylə Şeyx Həsənə yardım göstərsə də, 1451-ci ildə onlar Uzun Həsəni yaxından müdafiə edən mühüm tayfalardan biri olmuşdur [Bax: 317, 2; 163, 45; 228, 489; 188,

185; 249, 502; 204, 56-57]. Ağqoyunlu tayfa birliyində Pornəklər demək olar ki, yeganə tayfa idi ki, Bayandurlardan qız alaraq qohum olmuşdular [204, 56]. Ağqoyunlu taxt-tacı uğrunda Sultan Xəlillə Yaqub arasında mübarizə zamanı Pornəklər sonuncunu müdafiə etdilər. Sultan Yaqub dövründə Pornəklər Şahəli bəy vasitəsilə Ərəb İraqında, Mənsur bəy vasitəsilə də Fars əyalətində güclü nüfuz qazandılar. 1492-ci ildə ***Pornək*** tayfası Ağqoyunlu taxt-tacına Rüstəmin namizədliyini müdafiə etdi və onun hakimiyyəti dövründə Ərəb İraqı və Fars əyalətlərindəki hakimiyyətlərini qoruyub saxladılar [356, 209; 204, 57]. Anonim müllifin yazdığına görə, Mənsur bəy Pornək Sultan Yaqub dövründə Şiraz hakimi idi. Onu da Qasım bəy Pornək əvəz etmişdir. [6, 13] Mosullu və Pornək tayfaları Səfəvilər dövründə «Türkman» adı altında birləşərək öz varlıqlarını qoruyub saxlamışlar [317, 2].

Belə güman etmək olar ki, Ağqoyunlu tayfa birliyinə daxil olan tayfaların əksəriyyəti əski zamanlardan etibarən Azərbaycanda məskunlaşmış, Monqol istilası dövründə onların bir qismi Şərqi Anadoluya köç etmiş və sonralar Ağqoyunlularla qaynayıb-qarışmışlar. Ağqoyunlu tayfaları Azərbaycanın və Şərqi Anadolunun həm siyasi, həm də etnik tarixində mühüm rol oynamışlar. Bəzi Türkiyə tarixçiləri Ağqoyunluların ilk vətəninin Şərqi Anadolu olduğunu qeyd edirlər. Onlar Azərbaycana və İrana məhz oradan (Şərqi Anadoludan) köçmüşlər [357, 267; 360, 170; 314, 148]. Türkiyə tarixçilərinin bu müddəaları ilə razılaşmaq çətindir. Çunki Azərbaycan türk tayfalarının Kiçik Asiyaya miqrasiya yolu üzərində yerləşir və buranın türkləşməsi də daha əvvəl baş vermişdir.

Tədqiqatlar göstərir ki, Oğuz tayfaları VII-VIII əsrələrdən etibarən Azərbaycanda məskunlaşmışlar [157, 104]. Orxan Şaiq yazır: « ... Səlcuqlarla gələn Oğuzların babaları bir neçə əsr əvvəl Azərbaycana gəlmiş və hətta Asiya şəhərlərini belə fəth etmişdir" [258, XI]. Eyni fikrə X.Koroğluda da rəst gəlirik. Müəllif yazır: «Oğuzlar Qafqazda və Şərqi Anadoluda Səlcuqlardan bir neçə əsr qabaq meydana çıxmışlar" [403, 60]. Türk alimi

N.S.Banarlı göstərir ki, «Oğuzlar hələ Hun dövləti zamanından başlayaraq müəyyən kütlələr halında uzun və qısa fasilələrlə qərbə doğru – Azərbaycana və Anadoluya gəlmişlər. Onların bu gəlişini təsadüfi hal saymaq olmaz [176, 86].

Təbiidir ki, Oğuzların bu gəlişində Bayandur boyu da iştirak etmiş və sonralar Azərbaycandakı və Şərqi Analudakı oğuz-türkmən tayfalarını öz ətrafında birləşdirərək güclü tayfa birliyi yaratmışdı. V.Minorski belə hesab edir ki, Ağqoyunlu tayfa birliyi Monqol istilasından öncə mövcud olmasa da, bu birliyə daxil olan ayrı-ayrı boylar məskun olduqları bölgələri Səlcuq işğalları zamanı, yəni sülalənin rəhbərliyi öz əlinə almasından xeyli əvvəl ələ keçirmişlər [269, 155]. Lakin bəzi türk tarixçiləri qeyd edirlər ki, Ağqoyunlular Qaraqoyunlu tayfaları kimi Səlcuqların yürüşlərindən çox əvvəl Azərbaycan və Anadoluya gəlib yerləşmişlər [303, 141].

Bəzi Türkiyə tədqiqatçılarının verdiyi məlumata görə, Ağqoyunlular öncə Azərbaycanda yerləşmiş və sonralar Monqol istilası zamanı Anadoluya köç etmişlər [314, 156-157; 310, 485; 218, 189; 249, 49; 162, 297; 204, 42].

Güman etmək olar ki, Ağqoyunlu tayfalarının varlığı XIII əsrdə Monqol işğallarından sonra, «fatehlərin bu yeni təbəqəsi tərəfindən müvəqqəti olaraq maskanlanmış olduğu üçün», Monqolların hakimiyyətinin zəifləməsindən sonra Ağqoyunlular Bayandur boyu ətrafında birləşərək güclü tayfa birliyi yaratmağa müvəffəq olmuşlar.

Ağqoyunlu tayfaları Azərbaycanın, Şərqi Anadolunun siyasi və etnik tarixində mühüm rol oynamışlar. Faruq Sümerin qeyd etdiyi kimi, Ağqoyunlular XV əsrdəki siyasi qələbələri ilə hər tərəfdə çox mühüm rol oynamışlar [313, XII]. Təsadüfi deyildir ki, Faruq Sumer Şərqi Anadolunun müasir türklərini Qaraqoyunluların və Ağqoyunluların varisləri kimi qiymətləndirir [314, 318; 307, 318].

### *III. 2. Azərbaycan Ağqoyunlu dövlətinin siyasi tarixi*

XV yüzillikdə təkcə Azərbaycan torpaqlarını deyil, eyni zamanda qonşu ölkələrin ərazilərini də əhatə edən orta çağların qüdrətli Azərbaycan-türk imperiyası olan Ağqoyunlu dövlətinin ictimai-iqtisadi, siyasi və mədəni inkişaf tarixində baş verən dəyişikliklərin daha dərindən araşdırılması mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda Qaraqoyunlu və Ağqoyunlu dövrü kimi tanınan XV yüzillik, öz tarixi-fəlsəfi mahiyyətinə görə dövlətçilik tariximizin dönüş mərhələsi hesab edilə bilər. Bu dövr Azərbaycan türklərinin milli inkişaf tarixində xüsusi önəm daşıyır. Çünki XV yüzilliyin başlanğıcında ölkəmizdə yadelli ağalığına son qoyuldu və Oğuz-türk dövlətçilik ənənəsinə söykənən dövlətçiliyimiz bərpa edildi. Azərbaycan Qaraqoyunlu və onu əvəz edən Ağqoyunlu dövlətlərinin yaranması ilə Azərbaycan ərazisində Oğuzlar (türkmanlar) artıq yalnız etnik cəhətdən deyil, həm də siyasi baxımdan hakim mövqe qazandılar. Bu dönəmdə Dərbənddən Diyarbəkrə və Ərdəbildən Ərzincana qədər uzanan ərazi, yəni Azərbaycan və Şərqi Anadolu torpaqları Yaxın Şərq xalqlarının şüurunda «Türkman eli», Təbriz isə «dar-ül-mülkü Türkman» kimi qəbul edilməyə başlanmışdı [440, 112-118; 116, 163; 134, 60].

Uzun müddət Qərb mediyevistikasında Qaraqoyunlu-Ağqoyunlu dövrü, «mərkəzi müsəlman əraziləri» tarixində iki böyük dövr – Elxani-monqol və Səfəvi- Qızılbaş dönəmləri arasında sadəcə bir keçid və ya aralıq dövrü kimi qəbul edilirdi. Bu konsepsiya tərəfdarlarının fikrinə görə, Səfəvi dövləti XVI yüzillikdə İran milli dövlətçiliyinin bərpası dövrü idi. Beləliklə, Ağqoyunlu dövrü də sadəcə İran milli dövlətçiliyinin bərpası ərəfəsində bir hazırlıq dövrü hesab edilirdi [Bax: 116, 163]. Təbiidir ki, bu konsepsiya çərçivəsində Azərbaycanın XV yüzillik tarixinin gerçək mahiyyətini dərk etmək mümkün deyil [134, 60] .

Zaman keçdikcə bu dövrə aid yeni qaynaqların işıq üzü görməsi nəticəsində tədqiqatçıların da Ağqoyunlu dövlətinin

tarixinə maraqları artmış, bu tarixi yenidən nəzərdən keçirmək və dəyərləndirmək ehtiyacı ortaya çıxmışdır. Bunun nəticəsində Ağqoyunlu dövlətinin tarixinə aid yeni önəmli akademik tədqiqatlar nəşr edilmişdir [134, 60-61].

Ağqoyunlu dövlətinin siyasi tarixi Türkiyə tarixşünaslığında İ.H.Uzunçarşılının, M.X.Yınançın, F.Sümerin, Ş.Turanın, S.Ərşahinin, İ.Erdəm və K.Paydaşın əsərlərində xüsusi tədqiqat mövzusu kimi araşdırılmışdır. Z.V.Toğanın, Ə.Şərif bəyin, F.Kırzıoğlunun, Y.Öztunanın, S.Tanselin və K.Gürünün əsərlərində də Ağqoyunlularla bağlı mühüm məlumatlar öz əksini tapmışdır. Ağqoyunluların mənşəyi, Ağqoyunlu-Qaraqoyunlu və Ağqoyunlu-Osmanlı münasibətlərini ayrıca araşdırdığımız üçün burada, Ağqoyunlu dövlətinin yaranması, onun daxili siyasəti və dövlətin süqutu məsələlərinin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsini müəyyənləşdirməyə çalışacağıq.

Türkiyə tarixçilərinin əsərlərində Ağqoyunluların Azərbaycanda siyasi hakimiyyətə sahib olana qədərki dövrdə – Şərqi Anadoluda mərkəzi Diyarbəkr olan Ağqoyunlu bəyliyinin yaranması və Qara Osmanın rəhbərliyi altında XV əsrin əvvəllərində bu dövlətin keçdiyi inkişaf yolu geniş şəkildə tədqiq olunmuşdur. 1435-ci ildə Qara Osmanın ölümündən sonra Ağqoyunlu taxt-tacı uğrunda onun varisləri arasında uzunmüddətli mübarizə başladı və o, 1453-cü ildə Uzun Həsənin qələbəsi ilə başa çatdı. Uzun Həsənin Ağqoyunlu bəyliyində hakimiyyətə gəlməsinin ilkin mərhələsində feodal çəkişmələrinin arası kəsilmədi, lakin Ağqoyunlu əyanları Uzun Həsənin böyük nüfuzu ilə hesablaşmalı oldu [397, 143].

Uzun Həsən daxili çəkişmələrə son qoymağa çalışaraq, mərkəzi Diyarbəkr şəhəri olan Ağqoyunlu bəyliyini daha da möhkəmləndirmək və bu dövlətin ərazisini Azərbaycanın mərkəzi əraziləri hesabına genişləndirmək, Azərbaycanın cənub torpaqlarında dövlət hakimiyyətini ələ keçirmək məqsədilə orada hökmranlıq edən Qaraqoyunlulara qarşı mübarizə aparmaq üçün tədbirlər görməyə başladı. O, öz əyanlarına böyük imtiyazlar və vədlər verməklə onları ətrafında sıx birləşdirməyə nail oldu.

1457-ci ilin iyununda Uzun Həsən Diyarbəkr yaxınlığında Rüstəm bəyin rəhbərliyi altında Qaraqoyunlu ordusunu ağır məğlubiyyətə uğratdı. F.Sümerin qeyd etdiyi kimi, bu qələbə Uzun Həsənin mövqeyini daha da möhkəmləndirdi və ona böyük hökmdarlarla eyni sırada durmağa imkan verdi [317, 21]. XV əsrin 60-cı illərinin ortalarında İspirdən Urfaya, Şərqi Qarahisardan Siirtə qədər uzanan bölgələr Uzun Həsənin hakimiyyəti altında idi [317, 22].

Qaraqoyunlu əyanları arasındakı arasıkəsilməyən çəkişmələr, davam etməkdə olan mübarizənin mərkəzi hakimiyyətə ağır təsiri, Azərbaycan Qaraqoyunlu dövləti daxilində tədricən kəskinləşən ziddiyyətlər Uzun Həsən üçün əlverişli fəaliyyət meydanı açdı. Onun Qaraqoyunlulara qarşı döyüşlərdə qələbə qazanmasını asanlaşdırdı. Ağqoyunluların dövlət hüdudlarının getdikcə genişlənməsini görən Cahanşah rəqibə qarşı həlledici döyüşə can atdı. 1467-ci ilin 11 noyabr gecəsi cüzi qüvvə ilə Çapaxcur yaxınlığında Səncək adlı yerdə gecələyən Cahanşah Uzun Həsənin 6 minlik qoşununun hücumuna məruz qaldı, qaraqoyunlular məğlub oldu və Cahanşah öldürüldü. Bu məğlubiyyətdən sonra Cahanşahın oğlu Həsənəli Qaraqoyunlu ordusunu öz ətrafında birləşdirməyə nail oldu, lakin 1468-ci ilin avqustunda Mərənd yaxınlığında Ağqoyunlularla döyüşdə məğlubiyyətə uğradı. F.Sümerin fikrincə, Uzun Həsənin qazandığı bu qələbə nəticəsində bir imperatorluq süqut etdi və yeni bir imperatorluq yaranmış oldu [317, 23].

Bələliklə, 1468-ci ildə Azərbaycan Qaraqoyunlu dövləti süqut etdi və mərkəzi Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövləti yarandı [165, 91]. F.Sümerin fikrincə, Ağqoyunlu dövlətinin sərhədləri qərbdə Sivasa bağlı müasir Su şəhərindən Kirmanın Narmasir şəhərinə qədər uzanırdı [317, 23-24]. F.Kırzıoğlu belə hesab edir ki, Ağqoyunlu dövlətinin sərhədləri qərbdə Fərat çayı sahillərinə, Şərqdə Herata, şimalda Qafqaz dağlarına, cənubda isə Bəsrə körfəzinə qədər uzanırdı [249, 494].

M.X.Yınanç qeyd edir ki, Ağqoyunlu dövlətinin ərazisi səltənətin mərkəzi əyaləti olan Azərbaycan ilə, mərkəzi Amid

olan Diyarbəkri (yəni, bütün Şərqi Anadolunu-T.N.), mərkəzi Bağdad olan Ərəb İraqını, Mərkəzi Şiraz olan Fars əyaləti ilə, İsfahan, Kirman, Qəzvin və Arran əyalətlərinə ayrılmışdı [356, 263]. Ağqoyunlu dövləti öz daxili quruluşu baxımından Qaraqoyunlu dövlətindən əsaslı şəkildə fərqlənmirdi. Uzun Həsənin hakimiyyəti dövründə Ağqoyunlu dövlətinin tərkibinə Azərbaycanın Kür çayına qədərki bütün cənub torpaqları, Şərqi Anadolu, Diyarbəkr, Əcəm İraqı, Ərəb İraqı, Fars və Xorasan sərhədlərinə qədər olan torpaqlar daxil idi [416, 171; 368, 6; 398, 37; 91, 105].

Uzun Həsən həyata keçirdiyi əsaslı tədbirlərə baxmayaraq, mərkəzi hakimiyyəti lazımi səviyyədə möhkəmləndirə bilmədi. 1478-ci il yanvarın 5-də onun ölümündən sonra hakimiyyətə oğlu Sultan Xəlil keçdi. Sultan Xəlil qısa müddətli hakimiyyəti dövründə atasının həyata keçirdiyi mərkəzləşmə siyasətini davam etdirməyə təşəbbüs göstərdi. O, hakimiyyətə qarşı müxalif mövqe nümayiş etdirən qüvvələri zərərsizləşdirməyə çalışdı. Onun atdığı ilk addım 20 yaşındakı ögey qardaşı Maqsud Mirzəni Uğurlu Məhəmmədi müdafiə etdiyi üçün öldürtməsi oldu. Bu, Ağqoyunlular arasında Osmanlı tərzində ilk qardaş qətli idi. Sultan Xəlil bunun ardınca işlərinə müdaxilə etməməsi üçün anası Səlcuqşah Bəyimi qardaşları Yaqub və Yusiflə, Yaqubun müəllimi Qazi İsa Savəcini, Bayandur bəy və Süleyman bəyi uzaq Diyarbəkrə göndərərək öz mövqeyini xeyli möhkəmləndirdi [318, 25; 356, 232-233; 215, 113-114; 204, 123].

Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Sultan Xəlil anası Səlcuqşah Bəyimin dövlət işlərinə, xüsusən də Uzun Həsən dövründə olduğu kimi Ali divanın işlərinə qarışacağından çəkinərək onu oğlanları ilə birlikdə Diyarbəkrə yolladı [68,45]. F.R.Xuncinin fikrincə, Sultan Xəlil Yaqubla lələsi Süleyman bəy Bicənoğlu arasındakı əlaqəni kəsmək üçün onu ordunun baş komandanı təyin etməklə hakimiyyətinin dayağına çevirmək istəyirdi. Lakin o, şahzadəni tək buraxmamaq üçün sarayda qalmaqdan imtina etdi. Bu gündən etibarən Yaqubu qələbəyə aparan parçalanmanın və müqavimətin əsası qoyuldu [68, 45].

F.Sümer yazır ki, Səlcuqşah Bəyimi Diyarbəkrə göndərməklə Sultan Xəlil böyük səhvə yol vermişdi. Çünki siyasi zəka sahibi olan bu qadın ona dövləti idarə etməkdə yardım edərdi. Həmçinin o, anasının intriqalarına məruz qalmayacaqdı [317, 25].

Sultan Xəlil mərkəzi hökumətdə mühüm yer tutan siyasi, hərbi və dini vəzifələri Fars valisi olan zaman yanında xidmət göstərən və sədaqətinə etibar etdiyi əmirlərə tapşırdı. Əcəm İraqı və Fars vilayətində maliyyə işləri Deyləmilər nəslindən olan Şah İmadəddin Salmana və Şah Məhəmməd Cana tapşırıldı. Sultan Xəlil oğlu Əlvənd Mirzəni Şiraza valı təyin edərək ***Bayandur, Alpaut, Həmzə Hacılı, Mosullu*** və ***Qoca Hacılı*** tayfasından toplanan böyük bir qüvvəni onun sərəncamına verdi [356, 233; 215, 114; 204, 123 ]. Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Əlvənd Mirzəni müşayiət edən tanınmış əmirlər arasında vaxtı ilə Təvaçi divanının əmiri və şahzadənin ləfəsi olan Hüseyn bəy Qoca Hacılı da var idi [68, 47].

Seyfəddin Ərşahin yazır ki, Sultan Xəlil bölgənin böyük dövlətlərindən olan Osmanlılarla əlaqələri düzəltmək üçün baş qazı, tanınmış diplomat Qazi Əlaəddin Əli Beyhəqini Fateh II Mehmedin, tanınmış Nəqşbəndi şeyxi Dərviş Siracəddin Qasımı da baş vəzir və eyni zamanda böyük bir alim olan Sinan Yusif Paşanın dəstəyini qazanmaq məqsədilə İstanbula göndərdi [356, 233, 271 qeyd 4; 215, 242].

Türkiyə tarixçilərinin fikrincə, Sultan Xəlil həyata keçirdiyi tədbirlərlə qısa vaxt ərzində çoxlu düşmən qazandı. Qardaşları və əmisi oğlanları ona qrşı çıxdılar. Ona qarşı ilk addımı əmisi Cahangirin oğlanları atdılar. 1478-ci ilin mayında Savə hakimi olan Murad bəy Bayandur kürd əmirlərinin yardımı ilə üsyan qaldırdı. Məhz bu zaman Diyarbəkrdə şahzadə Yaqubun ətrafında mərkəzi hakimiyyətə qarşı çıxan narazı qüvvələr toplandı. Yaqub Mirzə anasının yardımı ilə Şərqi Anadoludakı ***Düharlu, Cagirli, Çəpni, Mosullu*** və ***Pornək*** əmirlərini Diyarbəkrə toplayaraq qardaşına qarşı üsyan qaldırdı. Sultan Xəlil bu zaman əmisi oğlu Muradın üsyanını yatırmaqla məşğul idi. O, iyun ayında Murad və tərafdarlarını ələ keçirərək edam etdirdi.

Az sonra Murad bəyin qardaşı İbrahimi ələ keçirərək üsyanı yatırdı, şərqdən gələn təhlükəni müvəqqəti olaraq aradan qaldırdı. Sonra əsas diqqəti Yaqub Mirzəyə qaşı yönəltdi [317, 25; 356, 233-234; 215, 242; 204, 123-125].

İlhan Erdəm və Kazım Paydaş Fəzlullah ibn Ruzbehan Xuncinin verdiyi məlumata əsaslanaraq yazır ki, 1478-ci ilin yazında Yaqub Mirzə yaylağa çıxmaq üçün Diyarbəkrdən ayrıldı. Yol boyu tanınmış Ağqoyunlu əmirləri öz dəstələri ilə ona qatıldılar. Onlar arasında Həsənəli bəy Bayandur, Elaldı bəy Çəpni və Bəkr bəy Düharlı da var idi. Yaqub Mirzə Pambıqlı çayı sahillərinə çatan zaman Səlcuqşah Bəyimin Bidlisi keçməsi barədə xəbər alındı. Bəşiri məntəqəsində o, oğlu ilə görüşdü. Səlcuqşah Bəyim Sultan Xəlilin onunla yaxşı əlaqələr qurmadığını söyləyərək, yaranmış vəziyyəti müzakirə etmək üçün əmirləri Kəngəş məclisinə topladı [204, 125-126]. F.R.Xunci yazır ki, Bəşiridən Hacı bəy Mosullu tələsik aradakı münasibəti necə möhkəmləndirməyi Sultan Xəlilə izah etmək üçün göndərildi [68, 51]. Yalqız ağac məntəqəsində* əmirlər məşvərət edərək Yaqub Mirzənin Ağqoyunlu taxtından daha nə qədər məhrum qalacağı məsələsini qaldıraraq, onu Təbriz üzərinə yürüşə getməyə çağırdılar. Ancaq Yaqub Mirzə əmirlərin bu fikrinə ciddi əhəmiyyət verməyərək tələsməməyi tövsiyyə etdi. Lakin Təbrizdən gələn Vəfa adlı bukavulun Murad bəyin Sultan Xəlili məğlub edərək hakimiyyəti ələ keçirməsi barədə yalan məlumatı Yaqub Mirzənin Muşa hərəkət etməsinə səbəb oldu. Burada Xurşid bəyin oğlu Yusif bəy, Məhəmməd bəy Düharlı və digər əmirlər ona qoşuldular. Fərat çayının sahilinə çatan zaman Pir Qaraca Təbrizdən xəbər gətirdi ki, Murad bəy Sultan Xəlildən qaçaraq Firuzkuh qalasına sığınmışdır [68, 51; 204, 126]. F.R.Xunci yazır ki, mübarizəyə ümid bəsləyən əmirlər məyus oldular ki, Sultan Xəlilin vəziyyətinin yaxşı olması Yaqub

* İ.Erdəm və K.Paydaş bu məntəqəni Hacı Ağac kimi qeyd edirlər [Bax: 204,126].

Mirzənin uğur qazanmasına mane olacaqdır. Buna baxmayaraq, uzun məşvərətdən sonra Yaqub Mirzənin Təbriz üzərinə hərəkət etməyə meyilli olduğu ortaya çıxdı. Qüsür dağının ətəyindəki düşərgədə Yaqub Mirzə hakimiyyəti ələ almağa qərar verdi. Balaş düzündə dayanan zaman şiddətli soyuqlar üzündən Təbrizdə ləngimiş olan Mənsur bəy də öz dəstəsilə yetişərək ona qoşuldu. Burada əmirlər Yaqub Mirzəyə sədaqət andı içdilər [68, 51; 204, 126]. İ.Erdəm və K.Paydaş yazır ki, bir neçə gün sonra Yaqub Mirzənin irəliləməsindən narahat olan Sultan Xəlil sürətlə Sultanbulaqdan Təbrizə döğru hərəkət etdi. Bu zaman Süleyman bəy, Ömər bəy Cagirli və İsgəndər bəy Piltən 5 min nəfər qüvvə ilə Sultan Xəlilin Xoy çayını keçməsinə mane olmaq üçün göndərildi. Sarısudan keçən Süleyman bəy Tikədaş və Sökmənabad üzərindən Xoy çayı sahilinə çıxaraq burada düşərgə qurdu. Yaqub Mirzə əksər Ağqoyunlu əmirlərinin onu gözlədiyi Ərciş çayı kənarına gəldi. Əmirlərə və əsgərlərə çoxlu qızıl pul paylanıldı. Divxanədə olan zaman Sultan Xəlilin yanına göndərilən Hacı bəy Mosullu geri döndü [68, 52; 204, 126].

Yaqub Mirzə öz qüvvələri ilə Sökmənabada gəldi. Süleyman bəyin dəstəsi ilə gələn əmirlərə və əsgərlərə rütbələrinə uyğun hədiyələr paylandı. Bu vaxt Əmir Şeyx Həsən bəy Pornək öz qüvvəsi ilə orduya qatıldı. Sultan Xəlilin Yam keçidinə gəldiyi xəbəri alındı. Bu vəziyyətdə Yaqub Mirzə ön qüvvələrlə birləşmək üçün əmr verdi. Ordu sürətlə 12 fərsəxlik yolu qısa müddətdə qət edərək Xoy düzünə gəldi. Bu zaman Mərənddə olan Sultan Xəlil Yaquba təhdidedici məktub göndərdi. O, məktubunda öz gücündən və ordusunun cox olmasından bəhs etsə də, Tanrının iradəsini xatırlatmağı unutmuşdu [204, 126].

F.R.Xunci yazır ki, bu, Yaqubun uğur qazanacağına inamını artırdığı üçün o, təcrübəli əmirlərindən olan Bayandur bəy, Qızıl Əhməd bəy və Elaldı bəyə döyüş yerini seçməyi tapşırdı. Onlar əgər Sultan Xəlil Xoy yolu ilə gələrsə döyüşü Xoy çayı üzərindəki körpüdə, Şeyx Pir Əhməd Naxçivaninin məzarı tərəfdən gələcəksə döyüşü məzar yaxınlığında qəbul etməyə qərar verdilər. Ertəsi gün Yaqub Mirzənin ordusu Xoy körpüsün-

dən keçdi və burada Maqsud bəy Kəmax xəzinəsi ilə onun ordusuna qatıldı. Sultan Xəlilin Mərənddə olduğu xəbəri alındığı üçün Yaqub Mirzə ordunun əsas ehtiyatlarını arxada yerləşdirərək Xoy körpüsünün arxasında mövqe tutmağa əmr verdi [68, 53; 204, 127].

F.R.Xunci yazır ki, Sultan Xəlil Valdiyandan hərəkət edən zaman Yaqub Mirzə dağın ətəklərində möhkəmləndi. Sübh tezdən hər iki ordunun ön qüvvələri qarşı-qarşıya gəldi və birbirinə ox ataraq geri çəkildilər. Günorta namazından sonra Sultan Xəlilin döyüş meydanına hərəkət etdiyi barədə xəbər alındı. Yaqub Mirzə əsgərlərin atlanmasına, əksər əmirlər də ordunun günəş batmadan döyüşə girməsinə razı olsa da, Elaldı bəy savaşmaq üçün vaxtın çox gec olduğunu bildirərək buna mane oldu [68, 53; 204, 127].

F.R.Xunci Sultan Xəlillə Yaqub arasında baş verən əsaslı döyüş barədə ətraflı məlumat vermişdir. O, yazır ki, 1478-ci il iyulun 15-də Xoy çayı körpüsü yaxınlığında tərəflər qarşı-qarşıya gəldilər. Yaqub Mirzənin ordusunun sağ cinahına Süleyman bəy rəhbərlik edirdi. Tanınmış əmirlərdən Bəhram bəy Bayrami, İsgəndər bəy Piltən və Mahmud bəy burada yer almışdı. Ordunun sol cinahında Bayandur bəy, Həsən Ağa Çələbioğlu, Yusif bəy Təvaçi və Maqsud bəy var idi. Mənqəlayda (avanqardda) Ömər bəy Çakarlı, Mənsur bəy Ciqani, Xurşid bəyin oğlu Yusif bəy və Cəmşid bəyin oğlanları yer almışdı [68, 53; 204, 127-128]. İ.Erdəm və K.Paydaş yazır ki, döyüşü Sultan Xəlil başladı. O, avanqard dəstəyə rəhbərliyi Şərəfəddin Osman bəy Miranşahiyə, Şah Əli Pörnəyə və Sufi Xəlil bəyə tapşırdı. İlk olaraq Yaqub Mirzənin çərxçiləri hücuma keçərək Xəlilin artileriyasına kimi irəlilədi, lakin Sultan Xəlil mərkəzi top və tüfənglərlə möhkəmlətdiyi üçün yaylım atəşi ilə çəxçiləri pərən-pərən saldılar. Bu çarpışmada Yaqub Mirzənin sol cinahında Bayandur bəy yer almışdı, o, Sultan Xəlilin qaynatası Söhrab bəyin hücumuna məruz qaldı [204, 128].

Sultan Xəlilin ön qüvvələrinin komandanı Osman bəy Miranşahi Yaqub Mirzənin ordusunun içərilərinə daxil olaraq

Bayandur bəyin ailə üzvlərini əsir aldı. Döyüşün gedişində Sultan Xəlilin ordusunun sol cinahında olan əmirlər Yaqub Mirzənin sağ cinahını dağıtdılar. Yalnız orada Süleyman bəy və Seyfəddin Bəhram bəydən savayı heç kim qalmadı. Onlar əsir alındılar. Sultan Xəlildən mükafat almaq məqsədilə onun tuğuna doğru aparıldılar. Lakin ora çatan zaman bəlli oldu ki, bu Sultan Xəlilin yox, Yaqub Mirzənin tuğudur. Beləliklə, yanlış yerə gəldikləri üçün Yaqub Mirzənin adamları tərəfindən ələ keçirilərək cəzalandırıldılar. Bu vaxt Sultan Xəlil Yaqub Mirzənin sağ cinahını və ön qüvvələrinin məğlub olduğunu görərək onun qaçdığını zənn etdi. Lakin Yaqub Mirzənin mərkəzdəki ordusu və mühafizə qüvvələri yerində möhkəm dayanmışdı. Sultan Xəlil Yaqub Mirzənin mərkəz qüvvələrinə qarşı hücuma keçsə də, özü əsas qüvvələrdən ayrı salınaraq Şeyx Əli Möhürdarın, Əmiraxur Satılmışın və oğlanlarının hücumuna məruz qalaraq öldürüldü [68, 54; 204, 128].

Beləliklə, Sultan Xəlil üzərində mühüm qələbə qazanan Yaqub Mirzə Təbrizdə Azərbaycan Ağqoyunlu imperiyasında taxt-taca sahib oldu. İ.Erdəm və K.Paydaş yazır ki, Sultan Yaqubun hakimiyyətdə möhkəmləndikdən sonra atdığı ilk addım Sultan Xəlilin tərəfdarlarını cəzalandırmaq oldu. Mihmad bəy Alpaut və Qara Məlik Təvaçi ələ keçirilərək edam edildi. Hakimiyyət uğrunda mübarizədə Sultan Xəlilin tərəfində yer alan Osman Miranşahi onun məğlub olduğunu hiss edərək Səhənd dağında gizləndi, sonra isə bağışlanmaq xahişi ilə hökmdarın hüzuruna gəldiyi üçün əvf olundu [204, 129]. S.Ərşahinin fikrincə, Sultan Yaqub ölkədə birlik və həmrəyliyi qoruyub saxlamq, əhali arasındakı narazılığı aradan qaldırmaq üçün Xoy döyüşündə iştirak edənləri əvf etdi [215, 115].

Ancaq Sultan Yaqubun bu tədbiri heç də mərkəzi hakimiyyətə qarşı bəzi əmirlərin müxalifətə keçməsinin qarşısını ala bilmədi. Mərkəzi hakimiyyətə qarşı çıxan qüvvələr Sultan Xəlilin oğlanları Əlaəddin Əli ilə Əlvəndin ətrafında birləşməyə başladılar. Lakin bir müddət sonra Əlaəddin Əli və tərəfdarları mərkəzi hakimiyyətlə barışdılar. Sultan Yaqub Əlvəndin xahi-

şini nəzərə alaraq ona Fars vilayətini versə də, Şabankarə bölgəsini Ali divanın nəzarətində saxladı. Ancaq müəyyən müddətdən sonra Əlvəndin ölüm xəbəri alındı. Şiraz əmirləri – Əbubəkr bəy Bəkdaş, Hüseyn bəy Hacılı, Qəzənfər bəy Miranşahi, Hacı bəy Alpaut, Piri bəy və Bəhram bəy Bayandur Fars vilayətinə hakim təyin edilmələrini xahiş etdilər. Lakin Sultan Yaqub bu vilayəti tamamilə Ali divanın nəzarəti altına keçirdi. Bununla da, vilayətdə xalqa ziyan vuran özbaşınalığa son qoyuldu [68, 57,58; 204, 130-131].

Beləliklə, Sultan Yaqub mərkəzi hakimiyyətə qarşı yönəlmiş çıxışları yatıraraq öz hakimiyyətini daha da möhkəmləndirdi. F.Sümer yazır ki, Sultan Yaqubun 12 illik hakimiyyət dövrü bu dövlətin tarixinin parlaq bir səhifəsini təşkil edir. Şübhəsiz ki, bunu Bayandur bəy, Sufi Xəlil Mosullu və Süleyman bəy Bicənoğlu kimi üç tanınmış sərkərdə təmin etdilər [317, 25-26; 215, 115].

S.Ərşahin yazır ki, Sultan Yaqub ölkə daxilindəki çıxışları yatırdığı zaman onun üçün xaricdən yeni təhlükə ortaya çıxdı. Bunu Osmanlı, Məmlük və Teymuri dövlətləri yaratdı. 1479-cu ilin yazında Osmanlı sultanı nominal olaraq Ağqoyunluların təsiri altında olan Torul bəyliyini ələ keçirərək Kəlkit-Çorux vadisini sərhəd kimi tanıdı. Bu dövrdə Teymurilər Kirman tərəfdən Ağqoyunlu ərazisinə daxil oldular. Bu ərəfədə Ağqoyunlu dövlətinə Məmlüklərin də təzyiqləri artdı. Buna görə Sultan Yaqub Osmanlı dövlətinin tələb etdiyi yeni sərhəddi qəbul etməli oldu [215, 114-115]. Həsən bəy Rumlu yazır ki, real təhlükənin şərqdə yarandığını hiss edən Ağqoyunlu sultanı əsas qüvvələrini Kirmana yönəltdi. Sufi Xəlilin və Bayandur bəyin rəhbərliyi altında Ağqoyunlu ordusu Teymuri şahzadəsi Əbu Bəkri və Cahanşahın nəvəsi İbrahimi Kirmandan çıxararaq burada sultanın hakimiyyətini bərpa etdi [43, 559-560].

Şübhəsiz ki, bu dövrdə Sultan Yaqubun hakimiyyəti üçün ən ciddi xarici təhlükəni Məmlüklər yaratdı. 1480-ci ilin noyabrında Mosul hakimi Yaşbək böyük bir ordu ilə Urfaya hücüm etdi. Sufi Xəlil Mosullunun, Süleyman bəy Bicənoğ-

lunun və Bayandur bəyin komandanlığı altında Ağqoyunlu ordusu Məmlükləri ağır məğlubiyyətə uğratdı və Əmir Yaşbəy öldürüldü. Sultan Yaqub bu qələbədən sonra Şam darğası Qansu Yəhyanı və Hələb naibi Özdəmiri əvf edərək Misirə göndərdi. Buna baxmayaraq, Məmlüklərlə Ağqoyunlular arasındakı əlaqələrdə müəyyən gərginlik davam etməkdə idi. Lakin Sultan Qayıtbayın Osmanlı çahzadəsi Cəm Sultana sığınacaq verməsi Məmlüklərlə Osmanlı dövləti arasında müəyyən gərginlik yaratdığı üçün Sultan Yaqubla Qayıtbay arasındakı münasibətlərdəki soyuqluğu xeyli azaltmış oldu [Geniş məlumat üçün bax: 68, 61-62; 215, 116].

Türkiyə tarixçilərinin əsərlərində Ağqoyunlu Bayandur bəyin Sultan Yaqubun hakimiyyətinə qarşı qaldırdığı üsyan barədə ətraflı məlumat öz əksini tapmışdır. Bayandur bəy Sultan Yaqubun hakimiyyətə gəlməsi və rəqibləri üzərində qələbə qazanmasında mühüm rol oynamışdı. İ.Erdəm və K.Paydaş yazır ki, Bayandur bəy əldə olunan qələbələrdə Sultan Yaqubun heç bir xidməti olmadığını, bunların bilavasitə onun gücü sayəsində mümkün olduğunu düşünməyə başladı. Sultan Yaqub Məmlüklərə qarşı qazanılan qələbədən sonra Bayandur bəyi Muşaşaların çıxışlarını yatırmaq üçün göndərdi. Bayandur bəy Səhənd yaylağından Həmədana yola düşdü. O, yol boyu İraq əmirlərinə, İsfahan darğasına elçi göndərərək ölkədəki vəziyyətlə bağlı məsələləri müzakirə etmək niyyətində olduğunu onlara çatdırdı. İsfahan əmirləri onu Həmədan yaxınlığında qarşıladılar. Onlar arasında Hacı bəy Alpaut, İsfahan darğası, Qum darğası Mənsur bəy Zöhrab var idi. Bayandur bəy onları tək-tək qəbul edərək Sultan Yaqubun öldüyünü və hökmdarlıq sırasının ona keçdiyini bildirdi. Onlar Bayandur bəyin qəzəbindən çəkinərək sultanın nə zaman və harada öldüyünü soruşmağa cəsarət etmədilər. Bayandur bəy Hacı bəy Alpautu və Mənsur bəyi əmirlər divanına vəzir təyin edərək İsfahana hərəkət etdi [68, 63-64; 204, 133]. Onun adamları yol boyu xalqa zülm edərək zorla onlardan pul topladılar. Bayandur bəy topladığı bu pulları adamlarına payladı. İraqı öz nəzarəti altına aldıqdan sonra

Təbrizdəki əmirləri də ələ almaq məqsədilə Osman bəy Miranşahiyə məktub göndərdi. Bayandur bəyin əsl məqsədi Sultan Yaqubun ona olan etibarına zərbə vurmaq idi. Lakin Osman bəy Bayandur bəyin tərəfinə keçməkdən imtina etdi. Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Bayandur bəyin digər bir hiyləsi də Sultan Yaqub Qızılağac gölündə qayıqda su quşları ovlayan zaman onu suda boğdurmaqdı. Ancaq Sultan Yaqub Təbrizə dönən zaman Bayandur bəyin üsyan qaldırdığını öyrəndiyi üçün Qızılağaca getmədi. O, təcili olaraq İraqa doğru yürüşə başladı. Bayandur bəy Sultan Yaqubla döyüşməyə qərar verərək yanında Qiyasəddin Məhəmməd, Cəmaləddin Ruzbehan, qazı, nəqib və seyidlər olmaqla Savədə möhkəmləndi. Savə ətrafında tərəflər arasında baş verən döyüşdə Mənsur bəy Zöhrab və Hacı bəy Alpautun Sultan Yaqubun tərəfinə keçməsi və bağışlanmasını xahiş etməsi döyüşün taleyini həll etdi. Bu vəziyyəti görən Bayandur bəy qaçmağa çalışsa da, Sufi Xəlil tərfindən ələ keçirilərək başı kəsildi [Bax: 68, 65-66; 317, 26; 215, 116; 204, 134].

Beləliklə, Bayandur bəyin mərkəzi hakimiyyətə qarşı qaldırdığı üsyan yatırıldı. Bayandur bəyin üsyanının yatırılması mərkəzi hakimiyyətin xeyli möhkəmlənməsini təmin etdi. Bir nüddət Sultan Yaqubun lələsi olan Süleyman Bicənoğlu baş əmir, əmirül-üməra və divanbəyi vəzifələrini əlində topladığı kimi, sultanın müəllimi olan Qazi İsa Savəci də dövlətin dini və maliyyə məsələlərinə rəhbərliyi ələ aldı. Sultan Yaqub tərəfindən bağışlanılan Mənsur bəy Zöhrab Qum hakimi, Hacı bəy Alpaut da İsfahan hakimi təyin olundu [Bax: 68, 66; 215, 116; 204, 134; 209, 878].

Dövrün qaynağının verdiyi məlumata görə, XV əsrin 80-ci illərində Sultan Yaqub Məmlük sultanı Qayıtbayla, Teymuri sultanı Hüseyn Bayqara və Osmanlı sultanı II Bayəzidlə qarşılıqlı əlaqələri daha da möhkəmləndirdi. Şiraz hakimi Sufi Xəlilin Gərmsir və Cerun əhalisinə qarşı aramsız hücumlar etməsi ilə bağlı Ağqoyunlu sarayına şikayətlərin daxil olması, hökmdarın xəbəri olmadan Hindistana yürüş etmək üçün Bəsrə körfəzində gəmilər hazırlatması və qala inşa etdirməsi ciddi narazılıq yarat-

dığı üçün Sultan Yaqub tərəfindən Şirazdan geri çağrıldı. Ona Gürcüstan sərhəddini qorumaq tapşırıldı. Onun yerinə əmir Müzəffərəddin Mənsur Pornək Şiraza hakim təyin olundu [Bax: 68, 69-70; 204, 135].

İ.Erdəm və K.Paydaş F.R.Xuncinin verdiyi məlumata əsaslanaraq Sultan Yaqubun Gilanda mərkəzi hakimiyyətə qarşı baş verən çıxışı yatırması barədə ətraflı məlumat verirlər. Mazandaran və Sari bölgəsi uzun müddət Ağqoyunlu hökmdarlarının idarəsi altında idi. Bu iki bölgənin hakimi Əmir Zeynalabdin hökmdara vergini vaxtında ödəyirdi. 1476-cı ildə Uzun Həsənin fərmanına görə, Gilanın Biyə-pəs vilayətinin ödədiyi xərac Bursa ipək bazarında ildə 1,2 milyon dəyərində olan 7.200 kq. xam ipəyə nəzərən hesablanmışdı. Biyə-pəs hakimi Ərzincanda 300 min axça dəyərində gömrük vergisi ödəyirdi. Mazandaran hakimi bundan üç dəfə artıq vergi ödəyirdi [Bax: 68, 72-73; 356, 240; 204, 136].

Əmir Zeynalabdinin ölümündən sonra qardaşı Əmir Şəmsəddin Sari hakimi oldu. O, əmisi oğlu Seyid Əbdülkərimin təzyiqi altında Sultan Yaquba sığınmaq məcburiyyətində qaldı. Seyid Əbdülkərim illik vergini gecikdirməyə başladı. Buna görə də, vergilərin vaxtında toplanmasını təmin etmək üçün bölgəyə Ağqoyunlu qoşunu göndərilməyə başlandı. Ağqoyunlu hökmdarı Seyid Əbdülkərimə qarşı mübarizədə Sari hakiminə kömək etmək üçün Xorasan əmirlərinin başçısı Bəkr bəy Mosullunun rəhbərliyi altında Rey, Xvar və İsfahan qoşununun göndərilməsi barədə əmr verdi [Bax: 68, 72-73; 204, 136].

Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Ağqoyunlu ordusunun yürüş xəbərini alan əmir Əbdülkərim Gilan hakiminin yanına qaçdı. Əmir Şəmsəddin Sariyə qayıtdı. Lakin Gilan hakimindən yardım alan əmir Ədülkərim yenidən ona qarşı mübarizəyə başladı. Əmir Şəmsəddin bu vəziyyət barədə Sultan Yaquba xəbər verdi. O, Gilan hakimi Əli Mirzənin dostu olan Lütfüllah Tərxanı Gilana göndərdi və əmir Əbdülkərimi hüzuruna gətirməyi tapşırdı. Lakin Lütfullah Tərxan Əli Mirzənin inadkarlığı ilə qarşılaşdı. Sultan Yaqub az sonra Əbdülkərimi

gətirməsi üçün Süleyman bəyi yolladı. O, Sultaniyyə və Əbhər yolu ilə Qəzvinə yola düşdü. Süleyman bəy hələ Əbhərdə olan zaman Gilan hakimin dostu olan Şeyx Şəmsəddin Xəlvəti Qəzvini onun yanına gələrək Əli Mirzənin üzrxahlığını və itaət göstərdiyini bildirdi. Süleyman bəy tələb etdi ki, yalnız Əbdülkərim təhvil verildiyi və Ali divanın ordu toplamaq üçün xərclədiyi vəsaiti ödəyəcəyi halda onun xahişi sultana çatdırıla bilər. Şeyx Şəmsəddin təminat verdi ki, əgər Süleyman bəy Əbhərdə dayanarsa, o, Əbdülkərimi gətirmək üçün oğlunu göndərəcəkdir. Bu təklifdən qəzəblənən Sultan Yaqub Əli Mirzənin üzrxahlığını qəbul etməyərək Süleyman bəyə Əbhərdə gecikməməyi, təcili Qəzvinə və Rüdbara hərəkət edərək Gilanın mərkəzində öz düşərgəsini yaratmağı tapşırdı [Bax: 68, 73; 204, 136-137].

Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Süleyman bəy Qəzvinə gələn zaman Gilan hakimi Əli Mirzə əmisi oğlu Sidi Əhməd Karkiyanı Rüdbar qazısı Mövlana Həsən və Mövlana Əlicanla birlikdə onun yanına göndərdi. Bu elçi heyətinə Qəzvinin tanınmış seyidləri, qazı və dərvişləri də qoşuldu. Onlar Süleyman bəyə Əli Mirzənin sultana 1000 tümən, əmirlər üçün 100 tümən ödəyəcəyini və Əbdülkərimi göndərəcəyini bildirdilər. Ancaq Süleyman bəy Sultanın qərarını dəyişməyəcəyini bildiyindən bu təklifi qəbul etmədi. O, ertəsi gün qoşuna Rüdbara döğru hərəkət etməyə və Gilanı almağa əmr verdi. Gilan elçiləri növbəti dəfə Süleyman bəyin hüzuruna gəldilər. Süleyman bəy bu dəfə Əli Mirzəyə Sultana 1200 tümən, əmirlərə 100 tümən verib Əbdülkərimi təhvil verərsə vəziyyəti Sultan Yaquba bildirəcəyini söylədi. Sultan Yaqub bu təklifi qəbul etdi və Süleyman bəyə Əbdülkərimi hüzuruna gətirməsini əmr etdi. Süleyman bəy Əbdülkərimi onun yanına apardı və sultan da onu əvf etdi. O, Azərbaycana qayıdan zaman Sultaniyyədə Qəzvinin yaşlı üləmalarından olan Mövlana Şəmsəddin Məhəmməd əl-Hənəfi Sultan Yaqubla görüşərək Əli Mirzənin vəziyyətinin çətin olduğunu, onun Peyğəmbər nəslindən olduğu üçün Gilan əhalisinə güzəştə getməyi xahiş etdi. Ağqoyunlu hökmdarı bu təklifi qəbul edərək Gilana göndərilən maliyyə

məmurlarını geri çağırdı [Bax: 68, 73-74; 204, 137].

Mərkəzi hakimiyyət möhkəm olmadığına görə Sultan Yaqubun (1478-1490) ölümündən sonra Azərbaycan Ağqoyunlu imperiyasında daxili mübarizə kəskinləşdi. M.X.Yınanç Sultan Yaqubun olümündən sonra Ağqoyunlu dövlətində güclənən daxili çəkişmələrin, Sultan Əbu Səidin ölümündən sonra Elxanilər dövlətində baş verən hadisələrə bənzədiyini göstərir [357, 261].

F.Sümerin fıkrincə, səltənəti ələ keçirmək üçün başlanan üsyanların davam etməsi Ağqoyunlu dövlətini, xanədanını və elini fəlakətə doğru aparırdı [317, 29]. Uzun Həsənin vəfatından sonra Ağqoyunlu dövlətinin daxili zəifliyi üzə çıxdı, Bayanduri sülaləsinin müxtəlif şahzadələrini səltənət taxtına çıxarmaq və onların adından dövləti idarə etmək üçün tayfa əmirləri arasında mübarizə başladı [416, 175]. M.X.Yınanç Ağqoyunlu əmirləri arasında davam edən mübarizəni səciyyələndirərək belə bir nəticəyə gəlir ki, daxili müharibələr ölkəni viran qoymuş, şəhərlər və kəndlər dağılmış və hər tərəfdə qorxunc bir səfalət başlamışdı. Daxili müharibələr nəticəsində bir-birinə düşmən olan əmirlər öz tayfaları ilə əvvəldən hakim olduqları məmləkətlərə müstəqil şəkildə hakim olmuşlar [357, 260].

1490-cı il dekabrın 24-də Sultan Yaqubun ölümündən sonra Azərbaycan Ağqoyunlu imperiyasında hakimiyyət uğrunda Ağqoyunlu əmirləri arasında mübarizə başladı. Bu zaman Bayanduri əmirləri Uzun Həsənin oğlu 22 yaşlı Məsih Mirzəni, Mosullu və Pornək tayfa əmirləri isə Sultan Yaqubun oğlu Baysunqur Mirzəni hakimiyyətə keçirmək niyyətində idi. İki tərəf arasında baş verən açıq mübarizədə başda Sufi Xəlil olmaqla Baysunqur tərəfdarları qələbə qazandı, Məsih Mirzə və Bayanduri əmirləri öldürüldü. Uzun Həsənin nəvəsi Rüstəm Mirzə ələ keçirilərək Naxçıvan yaxınlığındakı Əlincə qalasında zindana atıldı. Hələ də həddibuluğa çatmayan Baysunqur Mirsə Sufi Xəlil tərəfindən taxt-taca gətirildi [346, 196; 357, 261; 361, 427; 289, 121; 215, 121; 204, 149]. Azyaşlı Baysunqur Mirzənin hakimiyyətə gətirilməsi ilə real hakimiyyət Sufi Xəlilin əlinə keçdi. O, müxtəlif bəhanələrlə rəqiblərini öldürməyə və vəzifə-

lərdən uzaqlaşdırmağa başladı [361, 427; 215, 120].

F.Sümerin fikrincə, Sufi Xəlil tanınmış sərkərdə olmaqla yanaşı, dövlət adamında vacib olan mühüm keyfiyyətlərdən məhrum olan, sərt xarakterli, müstəbid ruhlu, kinli bir adam idi [317, 27]. Onun həyata keçirdiyi sərt tədbirlər Ağqoyunlu əmirləri arasında ciddi narahatlıq yaratdı.

Uzun Həsənin nəvəsi Mahmud bəy (Uğurlu Məhəmmədin oğlu) əmisi Məsih Mirzə öldürülən zaman yaranmış qarışılıqdan istifadə edərək Həmədana qaçmışdı. Onu İraq valilərindən biri olan Şah Əli Pornək müdafiə edirdi. O, ətrafındakı Ağqoyunlu əmirlərinin, xüsusən də Şah Əli Pornəkın yardımı ilə Həmədanda özünü sultan elan etdi. Onu Fars valisi Mənsur bəy Pornək də müdafiə etdi. Mahmud bəy Təbrizə göndərdiyi məktubunda babası Uzun Həsənin Qaraqoyunlu Həsənəli üzərindəki qələbəsini və Bağdadın fəth olunmasını xatırladaraq Sufi Xəlilin hakimiyyəti təhvil verməsini tələb etdi. Ərəb və Əcəm İraqının əksər bölgələrinin Mahmudun nəzarətinə keçdiyindən xəbər tutan Sufi Xəlil Baysunquru da yanına alaraq Mahmuda qarşı yürüşə başladı. Dərgəzin sərhəddindəki Atabəy adlı yerdə tərəflərin ordusu qarşı-qarşıya gəldi. Baş verən döyüşdə Sultan Baysunqur qələbə qazandı. Ələ keçirilən Mahmud bəy edam edildi. Mahmud bəyin öldürülməsindən sonra Yusif bəy Bayandur və Qasım bəy Baysunqurun tərəfinə keçdi [215, 122; 204, 150]. M.X.Yınanç yazır ki, Mahmud bəyin qardaşlarından Əhməd Mirzə Osmanlı sultanı II Bayəzidə, Hüseyn Mirzə isə Məmlük sultanı Qayıtbaya sığındı [361, 427; 356, 164; 215, 120].

İ.Erdəm və K.Paydaş yazır ki, Mahmud bəy üzərindəki qələbədən sonra daha da cəsarətlənən Sufi Xəlil ona qarçı çıxa biləcək qüvvənin qalmadığını düşünərək əmirlərə qarşı təzyiqini daha da artırdı. Bu zaman Diyarbəkr hakimi olan Süleyman bəy Bicənoğlu Azərbaycan əmirlərinin Sufi Xəlil tərəfindən öldürüldüyünü görərək bölgədəki əmirlərlə görüşərək ordu toplamağa başladı. Mühüm hazırlıqdan sonra Süleyman bəy Sufi Xəlilin özbaşınalıqlarına son qoymaq üçün Təbriz üzərinə yürüşə

başladı. Bundan xəbər tutan Sufi Xəlil də hazırlığa başladı. Van yaxınlığında qarşılaşan tərəflər arasında baş verən döyüşdə Sufi Xəlilin yanında yer alan Bayandur əmirləri ona qarşı çıxaraq Süleyman bəyin tərəfinə keçdilər. Bu döyüşün taleyini həll etdi. Sufi Xəlil və digər Mosullu əmirləri öldürüldü. Süleyman bəy Sultan Baysunqura toxunmayaraq onu Ağqoyunlu hökmdarı kimi saxladı və Sufi Xəlilin yerinə keçərək dövlətin idarə olunmasını öz əlinə aldı [357, 261; 204, 151; 289, 121].

F.Sümer yazır ki, Süleyman bəy Bicənoğlu rəqibi olan əmirlərin mallarını müsadirə etmək və onları edam etməklə orta-dan qaldırsa da, dövlət işlərindən daha çox əyləncə, eyş-işrətlə məşğul olurdu [317, 28; 215, 123]. Süleyman bəy Bicənoğlu Xacə Ruhullah Qəzvinini maliyyə vəziri, Qara Osmani Qorx-mazı əmirül-ümməra vəzifəsinə təyin etdi. Lakin o da xələfi Sufi Xəlil kimi ölkəni tək başına idarə etməyə başladı. Onun yeritdiyi siyasət xalqın narazılığına səbəb oldu [356, 163; 215, 123].

Şübhəsiz ki, Süleyman bəyin yeritdiyi siyasət ona qarşı narazılığın başlanmasına və yeni müxalifətin yaranmasına səbəb oldu. Bu müxalifətin hərbi gücünü Qarabağ bölgəsində yaşayan Qacar, Mosullu və Pornək tayfaları təşkil edirdi. Bu qruplar Uzun Həsənin qaynatası və əmirül-ümərası olan Qorxmaz bəyin qardaşı oğlu İbrahim bəyin (Eybə Sultanın) rəhbərliyi altında Rüstəm Mirzəni hakimiyyətə gətirmək üçün Əlincə qalasına yürüş etdilər. Onlar Əlincə hakimi Seydi Əli bəy Pornəkdən Rüstəm Mirzənin azad edilməsinə nail olaraq Təbriz üzərinə hərəkət etdilər. Süleyman bəy Bicənoğlu ordusu ilə ona qarşı çıxsa da, əksər əmirlərinin Rüstəm Mirzənin tərəfinə keçdiyini görərək Diyarbəkrə qaçdı və orada Eybə Sultanın qardaşı Nur Əli bəy tərəfindən öldürüldü. Baysunqur qardaşları Həsən və Muradla birlikdə babası Şirvanşah Fərrux Yəsara sığındı. 1492-ci il mayın 28-də Təbrizə daxil olan Rüstəm Mirzə sultan elan edildi [361, 428; 317, 28; 215, 123-124; 204, 152].

S.Ərşahinin fikrincə, Rüstəm Mirzə ilə Eybə Sultanın ittifaqı Ağqoyunlu dövlətində daxili ara müharibələrinə son qoymaq üçün sonuncu şans idi. Bu iqtidarın əsil başçısı olan

Eybə Sultanın dini zümrələrlə köçəri hərbi əmirlər arasında müəyyən əlaqə yaratmasına ehtiyac var idi. Bununla yanaşı, onun Baysunquru himayəsinə alan Şirvanşah Fərrux Yəsarla müəyyən razılığa gəlməsi gözlənilirdi. O, isə bu addımı atmadı. Şeyx Məhəmməd Quzucini dini işlərə, Məhəmməd Can Deyləmini maliyyə məsələlərinə rəhbər təyin etdi. Lakin onun bu tədbirləri ölkədə tüğyan edən üsyanları yatırmağa imkan vermədi [361, 428; 215, 124].

Rüstəm padşah Astrabadda Qasım bəyin üsyanını yatırdı və Baysunqur Mirzəni zərərsizləşdirmək üçün Şirvan üzərinə yürüş ersə də, uğur qazana bilmədi. Buna görə, Baysunqurla müəyyən razılığa gəlmək üçün danışıqlara başladı. Əldə edilmiş razılığa görə, Qarabağ, Gəncə və Bərdə şəhərləri Baysunqura verildi. Rüstəm padşah bununla Təbrizdəki hakimiyyətini möhkəmləndirmiş oldu [361, 428; 215, 124].

Bu zaman Əcəm İraqının bəzi əmirləri və İsfahan hakimi Kösə Hacının Baysunquru müdafi etməsi Rüstəm Padşahın onlara qarşı yürüşünə səbəb oldu. Bundan istifadə edən Baysunqur Mirzə babası Fərrux Yəsardan aldığı qüvvələrlə 1493-cü ilin yazında Təbrizi ələ keçirmək üşün yürüşə başladı [361, 428; 317, 29; 356, 256; 215, 124-125; 289, 122-123; 204, 152-153].

Rüstəm Padşahın İstəxr qalasından azad edərək Təbrizə dəvət etdiyi Səfəvi şeyxi Sultan Əlinin müridlərindən istifadə etmək niyyəti özünü doğrultdu. Ətrafa səpələnmiş Qızılbaş müridləri Sultan Əlinin ətrafında toplanmağa başladı. Eybə Sultan və Sultan Əlinin başçılığı altında Ağqoyunlu və Səfəvi ordusu Baysunqur Mirzəni qarşılamaq üçün Kür çayı sahilinə gəldi. Tərəflər çayın sahilində qarşı-qarşıya dayanaraq bir-birinə öx atmaqla kifayətləndilər. Az sonra Baysunqur Mirzə öz qüvvələrilə Şirvana çəkildi. Eybə Sultanın rəhbərliyi altında Ağqoyunlu ordusu da Təbrizə qayıtmalı oldu. Lakin may ayında Baysunqur Mirzə növbəti dəfə Təbriz üzərinə yürüş etdi və Meşkinə kimi irəlilədi. Lakin burada Eybə Sultanla döyüşdə Baysunqur ağır məğlubiyyətə uğradı və ələ keçirilərək ögey qardaşı Həsən ilə birlikdə edam edildi. Bu zaman Rüstəm

Padşah Qara Piri Təvaçının başçılığı altında Ağqoyunlu ordusunu İsfahan hakimi Kösə Hacının qiyamını yatırmağa göndərdi. Dərgəzində baş verən döyüşdə Kösə Hacı məğlub oldu və ələ keçirilərək öldürüldü. Bununla da Baysunqurun Əcəm İraqındakı tərəfdarları Rüstəm Padşahın hakimiyyətini tanımış oldu [361, 428; 317, 29; 356, 256; 215, 124-125; 289, 122-123; 204, 152-153].

Rüstəm Padşah tərəfindən Baysunqur Mirzə və tərəfdarlarının üsyanının yatırılmasına baxmayaraq, Bayandur əmirlərinin mərkəzi hakimiyyətə qarşı çıxışlarını, həmçinin xarici müdaxilə təhlükəsini tamamilə aradan qaldırmaq mümkün olmadı. Diyarbəkr hakimi olan Eybə Sultanın qardaşı Nur Əli bəy Bayandur Rüstəm Padşahın hakimiyyətini tanımaqdan imtina etdi. 1494-cü ildə Rüstəm tərəfindən Qasım bəyin başçılığı altında Diyarbəkrə Ağqoyunlu qoşununun göndərilməsindən xəbər tutan Nur Əli qaçaraq Misir sultanı Qayıtbaya sığındı [356, 257-258; 215, 125].

Rüstəm Padşahın bütün cəhdlərinə baxmayaraq, Ağqoyunlu əmirlərinin mərkəzi hakimiyyətə qarşı çıxışlarını tamamilə yatırmaq mümkün olmadı. Bu dövrdə Ağqoyunlu əmirləri Rüstəmin hakimiyyətinə son qoymaq və taxt-taca Uğurlu Məhəmmədin oğlu, II Mehmedin qız nəvəsi, Sultan II Bayəzidin kürəkəni olan Gödək Əhmədi gətirmək üçün ciddi fəaliyyətə başladılar. Qahirədə sürgündə olan Nur Əlinin 1496-cı ildə qayıtmasından sonra mərkəzi hakimiyyətdən narazı olan Ağqoyunlu əmirləri daha da fəallaşdılar. Nur Əli bəy Gödək Əhmədə məktub göndərərək Diyarbəkr və digər bölgələrin əmirlərinin ona itaət etdiyi üçün əlverişli imkanın yarandığını bildirərək Azərbaycana gəlib atalarının ölkəsinə sahib çıxmasını istədi [316, 29-30; 356, 260; 215, 127; 288, 207; 204, 154].

S.Ərşahin yazır ki, Osmanlı sultanı Ağqoyunlu şahzadəsi Əhməd bəyi Təbriz taxt-tacına keçirmək üçün yollar axtardığı bir dövrdə Ağqoyunlu əmirlərinin bir qrupundan ona dəvət məktubu gəlməyə başladı. 1496-cı ildə Həsənəli Tərhan İstanbula gələrək Sultan II Bayəzidə Azərbaycan və Əcəm İraqının

müdafiəsiz qaldığını bildirərək Əhməd bəyi Osmanlı qoşunu ilə Ağqoyunlu ərazisinə göndərməsinin vacib olduğunu bildirdi [215, 126-127]. Sultan II Bayəzid bu planı müsbət qarşıladı. Osmanlı sultanı II Bayəzidin yardımı ilə 1497-ci ilin mayında Araz çayı sahilində Çoban körpüsü yaxınlığında baş verən döyüşdə Eybə Sultanın və digər Ağqoyunlu əmirlərinin Gödək Əhmədin tərəfinə keçməsi ilə Rüstəm padşah məğlub olaraq Gürcüstana qaçdı. Gödək Əhməd Təbrizə daxil olaraq Ağqoyunlu taxtını ələ keçirdi. Rüstəm padşahın Qarabağ Qacarlarının yardımı ilə hakimiyyəti geri almaq təşəbbüsü uğursuz oldu. O, 1497-ci il iyulun 2-də məğlub olraq öldürüldü. Gödək Əhməd öz hakimiyyətini möhkəmləndirmək üçün bəzi islahatlar keçirdi, lakin onun bu tədbirləri Ağqoyunlu əmirlərinin güclü etirazı ilə qarşılandı [417, 149-150; 317, 29-30; 130, 11].

F.Sümerin fikrincə, Sultan Əhməd Ağqoyunlu dövlətində sabitlik və sakitlik yaratmaq üçün son ümid idi. Şübhəsiz ki, bu zaman hakimiyyət uğrunda mübarizənin başlıca səbəbi, hökmdarların kiçik yaşda olması, ədalətsizlik və hakimiyyətə olan qızğın hərislik olmuşdur [317, 30].

Sultan Gödək Əhməd narazı əmirləri itaət altına almaq üçün onlara qarşı sərt tədbirlərə əl atmaqdan çəkinmədi. Hətta o, qaynı Hüseynəli xanı və Pornəklərin saraydakı nümayəndəsi Müzəffər bəyi edam etdirdi. Eybə Sultanın mövqeyini zəiflətmək üçün onu mərkəzdən uzaq olan Kirmana hakim təyin etdi. Həmçinin Fars vilayətindəki müxalifət qüvvələrini zəiflətmək məqsədilə hakim Qasım bəy Pornəkı paytaxta çağırdı. Şübhəsiz ki, onun bu tədbirləri narazılığın artmasına və müxalifətin güclənməsinə səbəb oldu. Narazı qüvvələrə Eybə Sultan rəhbərlik etdi. O, Kirmanda üsyan qaldırdı və paytaxta dönməkdə olan Qasım bəy Pornəklə birləşdi. Eybə Sultan Sultan Yaqubun Şirvanşahın himayəsində olan 7 yaşlı oğlu Muradı hökmdar, özünü də vəkil elan etdi. Bu hadisələrdən xəbər tutan Sultan Gödək Əhməd qış mövsümünün olmasına baxmayaraq, ordusunu İsfahanda toplaşan müxalifət qüvvələri üzərinə yeritdi. 1497-ci il dekabrın 13-də İsfahan yaxınlığındakı Xacə Həsən Mazi deyilən

yerdə tərəflər qarşı-qarşıya gəldi. Ağqoyunlu hökmdarının qoşunu say etibarı ilə üstün olduğu üçün Eybə Sultan və Qasım bəy Pornəkın qüvvələrinə öncə üstün gəldi. Lakin Gödək Əhmədin yanında yer alan əmirlər və əsgərlər öz soydaşları ilə vuruşmaqdan imtina etdiyi üçün vəziyyət dəyişdi. Eybə Sultan yaranmış bu qarışılıqdan istifadə edərək Gödək Əhmədi öldürdü. Beləliklə, yaxın əmirlərinin xəyanəti nəticəsində Ağqoyunlu hökmdarı və onunla gəlmiş olan Osmanlı mühafizə qüvvələri məhv edildi [317, 30; 318, 11; 356, 261; 215, 128; 288, 211; 204, 154]. Bu hadisə bir daha göstərdi ki, Osmanlı təcrübəsi də Azərbaycan Ağqoyunlu dövlətində hakimiyyət uğrunda mübarizənin qarşısını ala bilmədi. Beləliklə, hakimiyyətin mərkəzləşdirilməsinə yönəldilmiş islahat cəhdləri Ağqoyunlu hərbi köçəri əyanlarının güclü müqaviməti nəticəsində uğursuzluqla nəticələndi.

S.Ərşahinin fikrincə, Sultan Əhməd xalqını sevən bir sultan idi. Onun qısa müddət davam edən hakimiyyəti dövründə ixracat qapısı elə bağlanmışdı ki, heç bir kimsə kəndlidən qanunsuz olaraq bir saman çöpü də almağa cəsarət etməmişdi. O, qadağan olunan şeylərdən, boş əyləncələrdən, şərab içməkdən uzaq olmuş, üləmalara və münəvvər insanlara mərhəmət göstərmiş, yaxından iştirak etdiyi elmi mübahisələr təşkil etmişdi. O, babası, əmisi və daha əvvəlki hökmdarlar tərəfindən bağışlanmış maaşları verməyərək soyurqalları geri almağa başladı ki, bu da onun səltənətinin başa çatmasına səbəb oldu [266, 876; 215, 246].

1497-ci il dekabrın 13-də Gödək Əhmədin öldürülməsindən sonra hakimiyyət uğrunda mübarizə daha kəskin hal aldı. Bu dövrü Azərbaycan Ağqoyunlu dövlətində hökmranlıq uğrunda varislərin qızğın mübarizəsi dövrü kimi qiymətləndirmək olar. Göründüyü kimi, Sultan Əhmədin ölümündən sonra Ağqoyunlu dövlətində tamamilə hərc-mərclik başladı və dövlət sürətlə dağılmağa doğru getməyə başladı [60, 145; 317, 31; 416, 179].

F.Sümer yazır ki, Eybə Sultan Təbrizə gələrək Diyarbəkr

hakimi Qasım bəy və Kiği hakimi Seyid Qazi bəy tərəfindən taxta çıxarılan Yusif Mirzənin oğlu Əlvəndin hakimiyyətini tanıdı və Şirvandan gələn Murad Mirzəni Ruyindiz qalasında göz altına aldı. Bu zaman Eybə Sultanın qardaşları Nur Əli və Əşrəf tərəfindən Əlvəndin qardaşı Məhəmmədi Mirzə Sultan elan edildi və Kuhquliyə hakimi Mənsur bəy Əfşarın yardımı ilə Şirazı ələ keçirdi. 1499-cu il iyun ayında Miyanə ilə Marağa arasındakı Əzizkənddə qardaşlar arasında baş verən döyüşdə Məhəmmədi Mirzə qalib gəldi və Eybə Sultan öldürüldü [317, 31; 204, 156].

Məhəmmədi Mirzə Təbrizə gəldiyi üçün Əlvənd Mirzə Diyarbəkrə çəkilərək Qasım bəyə sığındı. Bu zaman Eybə Sultanın qardaşı Gözəl Əhməd ilə Fərruxzad bəy tərəfindən Murad Mirzə Ruyindiz qalasından çıxarılaraq Farsa qaçırıldı. 1499-cu ilin sonunda İsfahan yaxınlığında Murad Mirzə tərəfdarları ilə baş verən döyüşdə Məhəmmədi Mirzə öldürüldü. Beləliklə, taxt-tac uğrunda mübarizə meydanında Diyarbəkrdən Təbrizə qayıdan Əlvənd Mirzə ilə Murad Mirzə qaldı. Hakimiyyət uğrunda iki əmioğlu – Əlvəndlə Murad arasında davam edən mübarizə 1500-ci ildə Əbhər yaxınlığında Baba Xeyrullah adlı dərvişin vasitəçiliyi sayəsində dayandırıldı. Onlar arasında bağlanmış müqaviləyə əsasən Azərbaycan Ağqoyunlu imperiyası Qızılüzən çayı sərhəd olmaqla bölündü. Diyarbəkr, Azərbaycanın Kür çayından cənuba doğru olan torpaqları Əlvəndin, bütün İraq, Fars və Kirman vilayətləri isə Muradın hakimiyyəti altına keçdi [317, 31; 356, 263-264; 205, 157-158].

XV əsrin sonunda Azərbaycan Ağqoyunlu imperiyasında hakimyyət uğrunda davam edən qanlı döyüşlər, daxilən möhkəm olmayan, siyasi cəhətdən parçalanmış dövlətin süqutunu obyektiv zərurətə çevirdi. M.X.Yınanç yazır ki, Ağqoyunlu dövlətində səltənət varisliyinin bir qanuna və ya ənənəyə bağlanmaması, mərkəzi hakimiyyətin zəifliyi, dövlətin hər tərəfində şahzadələrin və xənədana mənsub əmirlərin müstəqilliyinin tanınması, hakimiyyəti ələ keçirməyə çalışan şahzadələrlə, bir-birinə düşmən kəsilən və ayn-ayrı şahzadənin tərəfində duran əmirlərin

apardığı mübarizə dövlətin süqutuna səbəb oldu [356, 260].

M.X.Yınançın bu fikrini N.Cığatay da müdafıə edir [188, 260]. İ.H.Uzunçarşılı da belə hesab edir ki, Sultan Yaqubdan sonra uşaqların kiçik yaşda olması, ailə üzvləri arasında hakimiyyəti bir əldə toplamağa layiq olan hökmdarın çıxarılmaması və daxili müharibələr Ağqoyunlu dövlətini sarsıtdı və onun süqutuna səbəb oldu [398, 197]. F.Sümer bu haqda yazır: «Tariximizdə səltənət varisliyinin möhkəm bir qaydaya bağlanmaması dövlətin başına qüdrətli şəxsiyyətlərin keçməsinə imkan versə də, taxt-tac uğrunda mübarizə türk dövlətlərinin inkişafının qarşısını alır, başlıcası isə onların zəifləməsində və süqutunda əsas amil olurdu. Məhz Ağqoyunlu dövlətinin süqutuna da mühüm səbəb bu olmuşdur» [314, 162].

Məlum olduğu kimi, Uzun Həsənin hakimiyyəti illərində güclü orduya malik olan Azərbaycan Ağqoyunlu dövləti parlaq dövrünü yaşayır və geniş əraziləri ehtiva edirdi. Bununla belə, Uzun Həsənin bütün təşəbbüslərinə baxmayaraq, bu dövlət əsaslı şəkildə dəyişə bilmədi və daxilində köklü mərkəzləşdirmə islahatları həyata keçirməyə müvəffəq olmadı. Ağqoyunlu hərbi-siyasi elitası əski köçəri türk-monqol dövləyçilik anlayışı və ənənələrindən qopmadı, dövləti çağın və şəraitin tələb etdiyii rasional mərkəziyyətçi əsaslar üzərində qura bilmədi. Nəticədə Uzun Həsənin ölümündən yalnız 23 il sonra bir zamanlar Osmanlıların varlığını belə təhdid edən Ağqoyunlu dövləti tarixə qarışdı, yox oldu [118, 147-148].

Beləliklə, daxilən böhran keçirən Azərbaycan Ağqoyunlu imperiyası 1501-ci ildə İsmayıl Səfəvinin Şərur döyüşündə Sultan Əlvənd üzərində qələbəsindən sonra dağıldı və onun yerində Azərbaycan Səfəvi gövləti yarandı.

### *III. 3. Azərbaycan hökmdarı Uzun Həsənin şəxsiyyəti*

Türkiyə tarixçilərinin araşdırmalarında Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin şəxsiyyəti ilə bağlı mühüm fikirlər öz əksini tapmışdır. F.Sümer dövrün qaynaqlarının verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsən hələ 11 yaşı olan

zaman Kəmah hakimi olan əmisi Yaqub bəyin yanında xidmətə başlamışdı. Hətta atının yemini verməkdə çətinlik çəkən bu yeniyetmənin gələcəkdə güclü bir imperatorluq yaratmağa nail olması onun qüdrətli bir dövlət adamı olduğunu açıq şəkildə göstərir [319, 19]. S.Ərşahinin fikrincə, Uzun Həsən sağlam xarakterli, yaxşı ailə tərbiyəsi almış, gözəl əxlaqa sahib olduğu üçün Qaraqoyunlular dövründə İranın bəzi bölgələrində yayılan qeyri əxlaqi hərəkətlərə son qoymuşdur [215, 109].

Uzun Həsən türk tarixində önəmli yer tutan böyük sərkərdələrdən biri idi. O, düşmənə vaxtında hücum etmək taktikasından istifadə edərək qələbəni öz xeyrinə təmin etməyi bacarırdı. O, böyük əmək sərf etməsinə baxmayaraq, odlu silahları əldə etməsə də, seçmə süvari ordusu ilə Qaraqoyunlu və Teymuri qoşununu ağır məğlubiyyətə uğrada bildi. Uzun Həsən məhz bu hərbi uğurları ilə Çingiz və Əmir Teymur kimi cahangirlər arasında yer almışdır [215, 109].

F.Sümerin fikrincə, kiçik yaşlarından başlayaraq həyatı daim mübarizə içində keçməsinə baxmayaraq, bu böyük hökmdar elmə böyük qiymət vermiş, dövrünün alimlərini, elm xadimlərini himayə etmişdir. O, cümə axşamları tanınmış elm adamlarını sarayına toplayaraq xüsusi elmi müzakirələr keçirərdi. Tanınmış riyaziyatçı və astronom Əli Quşçuya böyük iltifat göstərmiş, hətta onu elçi kimi Osmanlı sultanı Fateh II Mehmedin yanına göndərmişdi. Ağqoyunlu tarixini qələmə alan Əbubəkr Tehrani hadisələrin çoxunu məhz ondan dinləyərək yazmışdır [317, 24; 319, 20; 170, 843; 215, 110; 209, 880].

Uzun Həsən xalqa qarşı mərhəmətli olmasına görə dövrünün bütün mənbələrində adil Sultan adı ilə tanınmışdır. F.Sümerin qeyd etdiyi kimi, o, döyüşlərdə və həyata keçirdiyi hərbi yürüşlər zamanı ələ keçirilən əsirləri sərbəst buraxardı. O, Qaraqoyunlu Cahanşahın hərbi düşərgəsinə hücumu zamanı ələ keçirilən Qaraqoyunlu əsgərlərini dərhal azad etmişdi [317, 24; 319, 19].

Türkiyə tarixçilərinin qənaətinə görə, Uzun Həsən yüksək milli şüura sahib olan bir hökmdar idi. Bir insanın xalqını sev-

məsi, onun dilinə, tarixi ənənələrinə dəyər verməsi, onun xalqına bağlı və güclü şəxsiyyət olmasından irəli gəlir. Xalqını sevmək, onun mədəniyyətinə dəyər vermək fəzilətlərin ən yüksəyi hesab edilir. Uzun Həsən Oğuz elinə və onun Bayandur boyuna mənsub olmasından qürur duyurdu. Onun müasiri olan Osmanlı sultanlarında babaları olan Oğuzlara qarşı bir sevgi mövcud olsa da, onlardan heç biri türk soyundan olduğunu açıq şəkildə söyləməmişdir [317, 24-25; 319, 19; 215, 110].

Ancaq Uzun Həsən açıq şəkildə özünü türklərin hökmdarı olduğunu söyləyirdi. O, hətta Faten II Mehmedə göndərdiyi məktubunda "Ölkənizdə türklərə qarşı qeyri-müsəlmanlar kimi davranılır, onlardan xərac alınır" - söyləyirdi. Uzun Həsən Bayandur boyunun damğasını dövlətin rəsmi damğası kimi qəbul etmiş və zərb etdiyi pullarına, rəsmi məktublarına, bayraqlarına onu vurmuşdur. Onda milli duyğuların yüksək olduğunu türk dilinə xüsusi önəm verməsi də bir daha göstərir. Onun kitabxanasında Mövlananın "Məsnəvisi"nin, Aşıq Paşazadənin "Qəribnaməsi"nin olması və Quranı türkcəyə tərcümə etdirməsi bunu təsdiq edir [317, 24-25; 319, 20]. Dövrün qaynaqları Ağqoyunlu hökmdarı Uzun Həsənin Quranı türkcəyə çevirtdirərək hüzurunda oxutdurması barədə məlumat verirlər. F.Sümer Uzun Həsənin Quranı ibadət zamanı oxunmaq üçün türkcəyə çevirtdiyini, o zaman din xadimləri və üləmanın buna qarşı çıxmasına görə onun təşəbbüsünün baş tutmadığını yazır [315, 159-160]. Z.V.Toğan isə tarixçi Lariyə istinadən yazır ki, Uzun Həsən Quranı türkcəyə tərcümə etdirərək oxutdurmuşdur [335, 381]. Son illərdə aparılan araşdırmalar Z.V.Toğanın haqlı olduğunu göstərir. M.R.İsmayılzadə digər araşdırmalar və mətnə istinadən Uzun Həsənin əmri ilə tərcümə edilərək yazılmış Quranı müəyyənləşdirmiş və onu araşdırmaya cəlb etmişdir. Bu Quranın bir nüsxəsi İranın Məşhəd şəhərində İmam Rza adına muzeydə saxlanılır. Onun mətni tərcümə zamanı bir neçə türk ləhcələrinin sözlərindən müqayisəli şəkildə istifadə olunduğunu göstərir [Bax: 239, 449-451].

Misir əmiri Yaşbəyin xüsusi tapşırığı ilə Təbrizə Ağqo-

yunlu sarayına səfir olaraq gəlmiş Məhəmməd əl-Hələbi isə şəxsən Uzun Həsən tərəfindən qəbul edilmişdi. Müəllifin yazdığına görə, Ağqoyunlu hökmdarı hər cümə axşamı Təbrizin üləmalarını toplayırdı və bu məclislərdə İmam əl-Buxarinin "əl-Cəmi-üs-səhih" əsərindən hədislər oxunurdu. Misir elçisinin iştirak etdiyi toplantıya Təbriz, Şiraz, Bağdad və Səmərqənd üləmaları dəvət edilmişdi. Elçinin qeydinə görə, padşahın anlaması üçün oxunan hədislər türkcəyə tərcümə edilirdi [Bax: 56, 51-53; 118, 285]. F.Sümer yazır ki, Uzun Həsənə görə müqəddəs kitabı türkcə oxumaq da bir ibadətdir və onunla da savab qazanmaq olar. Türk tarixində Uzun Həsən kimi eyni fikri bölüşən ikinci bir hökmdar yoxdur [317, 24].

Dövrün Avropa qaynaqlarında da Uzun Həsənin şəxsiyyəti ilə bağlı müəyyən qeydlər vardır. Venesiya diplomatları K.Zeno, G.Barbaro və A.Kontarininin verdiyi məlumatlar xüsusi maraq doğurur. S.Ərşahin yazır ki, Venesiya elçisi A.Kontarini Uzun Həsəni açıq üzlü, iri, uzun boylu, yaraşıqlı, biraz tatar çöhrəli, əyləncə və içkiyə meylli, çalğıçı və musiqiçilərin ifa etdikləri əsərlərə müdaxilə edə biləcək qədər musiqini sevən bir insan kimi xarakterizə edir [Bax: 53, 97; 215, 108].

Uzun müddət Ağqoyunlu sarayında fəaliyyət göstərən Venesiya elçisi K.Zeno Uzun Həsəni müstəbid hökmdar kimi qələmə verərək yazır ki, tanınmış Ağqoyunlu əmirləri ona son dərəcə hörmətlə yanaşaraq itaət göstərirlər. Onun qərargahındakı səssizlik sanki bir məbədi xatırladır. Uzun Həsənin çadırına girə bilən böyük əmirlər də danışmağa cəsarət etmədən hamılıqla onun danışığını dinləyərək təsdiq edirlər [215, 108-109]. S.Ərşahin yazır ki, K.Zenonun bu qeydlərinin əksinə olaraq Uzun Həsən Təbrizdəki sarayında təşkil etdiyi elmi məclislərdə iştirak edən alimlərə hörmətlə yanaşmış, hər kəsi dinləyərək fikirlərinə xüsusi önəm verən bir şəxs kimi diqqəti cəlb edir. Şübhəsiz ki, dövlətin ictimai-iqtisadi, siyasi və mədəni həyatında dərin iz qoyan Uzun Həsən XV əsr türk-islam dünyasının yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir [215, 109].

### *III. 4. Şərqin ilk diplomat qadını Saray Xatun*

Bu gün dünya dövlətləri birliyinin bərabərhüquqlu üzvü olan müstəqil Azərbaycanımız istiqlal tarixinin şanlı səhifələrini yazır. Azadlığımızın, qurmaqda olduğumuz demokratik cəmiyyətin taleyi, heç şübhəsiz, uğurlu xarici siyasətlə sıx bağlıdır. Xarici siyasət, tarixi təcrübə və ənənələr üzərində qurulduğu üçün Azərbaycanın orta çağlar tarixinin zəngin xarici siyasət təcrübələri, diplomatiya tariximizdə xüsusi tarixi xidməti və rolu olan şəxsiyyətlərimizin, dövlət xadimlərimizin, diplomatlarımızın fəaliyyətinin tədqiq edilməsi və geniş elmi ictimaiyyətə çatdırılması dövrümüzdə böyük aktuallıq kəsb etməkdədir [112, 6; 129, 87 ].

XV yüzillik xalqımızın tarixində ən keşməkeşli, siyasi hadisələrlə zəngin və mürəkkəb dövrlərdən biri olmuşdu. Məhz həmin yüzilliyin başlanğıcında Azərbaycan torpaqları yadelli əsarətindən azad edildi və Oğuz-türk ənənələrinə söykənən milli dövlətçiliyimiz bərpa olundu. Bu dövrdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranmasında və möhkəmlənməsində mühüm əməyi olan, dövrünün tanınmış dövlət xadimləri və sərkərdələri olan Qara Yusif və Uzun Həsən kimi tarixi şəxsiyyətlər Azərbaycanın qonşu dövlətlərlə qarşılıqlı münasibətlərinin qurulmasında və inkişaf etdirilməsində əhəmiyyətli rol oynadılar [129, 87].

XV yüzillik Azərbaycanın Qərbi Avropa ölkələri, eləcə də Yaxın Şərq dövlətləri ilə qarşılıqlı-siyasi, iqtisadi və mədəni əlaqələrinin daha sıx inkişaf etdiyi bir dövrdür. Məhz bu dövrdə diplomatiya tariximizdə əvəzsiz xidmətləri olan, Şərqin ilk diplomat qadını Saray Xatun fəaliyyət göstərmişdir.

Tarixşünaslığımıza Sara Xatun kimi daxil olan bu diplomat qadının adı əsərini Uzun Həsənə ithaf etmiş olan Ağqoyunlu tarixçisi Əbubəkr Tehraninin «Kitabi-Diyarbəkriyyə» əsərində Saray Xatun kimi qeyd olunduğunu nəzərə alaraq, biz də bu adı dövrün qaynağında verildiyi kimi saxlamağı məqsədəuyğun hesab etdik. Türk tarixçisi Faruk Sümerin yazdığı kimi Saray adı türklər arasında qadınlara verilirdi. Beləki, Əmir Teymurun

mötəbər xanımlarından birinin adı Saray Mülk xanım, Qaraqoyunlu İsgəndərin qızlarından birinin adı Şah Saray olmuşdu [319, 16; 129, 87-88].

Azərbaycanın XV yüzillikdə yaşamış görkəmli dövlət xadimi Saray Xatun diplomatiya tariximizdə mühüm yer tutan nadir şəxsiyyətlərdəndir. Azərbaycanın və bütün Şərqin zəngin dövlətçilik ənənələri və yaşadığı dövrün beynəlxalq münasibətləri ilə, o cümlədən xristian dünyasında baş verən hadisələrlə dərindən tanış olan Saray Xatun son dərəcə tədbirli siyasi xadim kimi tanınmışdır. Ağqoyulu sarayında seçilən, sayılan, sözü tutulan dövlət adamı, dövrün ziyalı şəxsiyyətlərindən biri idi [113, 48; 129, 88].

Dövrün mənbələrində Saray Xatunun doğum və ölüm tarixi ilə bağlı mühüm məlumata rast gəlinməsə də, onun XV yüzilliyin 70-ci illərinin ortalarında həyatda olduğu və Azərbaycan Ağqoyunlu dövlətinin xarici siyasətində yaxından iştirak edərək özünün ağbirçək məsləhətləri ilə həlledici rol oynadığını dövrün qaynaqları təsdiq edir. Saray Xatun Uzun Həsənin babası Qara Osmanın qardaşı Pirəli bəyin qızı olmuşdu.* Əmisi oğlu Əli bəylə evlənən Saray Xatunun Cahangir, Hüseyn, Uzun Həsən, Cahanşah, İsgəndər, İbrahim və Üveys adlı yeddi oğlu və Xədicə Bəyim adlı qızı olmuşdu. Faruk Sümer yazır ki, əri Əli bəy nə qədər zavallı bir şəxsiyyət idisə, Saray Xatun da, o dərəcədə ağıllı, bacarıqlı və çox gözəl, səlis danışıq qabiliyyəti olan bir Xatun idi. Hətta o, Əli bəyin sağlığında belə, bir müddət Xarput şəhərini idarə etmişdi. Cahangir Mirzə ilə Uzun Həsənin bu dəyərli anasının Xarputda tikdirdiyi məscid zəmanəmizə qədər gəlib çatmışdır [319, 19-20; 129, 87-88].

---

* Bizans tarixçilərindən Dukasın verdiyi məlumata görə, Qara Yülük Osman Trabzon imperatoru IV Aleksin qızı ilə evlənmişdi. Buna görə Hammer Saray Xatunun Trabzon Komnenlərinin şahzadəsi olduğunu qeyd edir. Lakin V.Hins Məmlük tarixçisi İbn Tanriberdiyə əsaslanaraq bunun doğru olmadığını göstərir. Onun fikrincə, Saray Xatunun atası Qara Osmanın qardaşı Pir Əli olmuşdu [Bax: 231, 28; 180, 71; 174[a], 291].

Saray Xatun Ağqoyunlu hökmdarı Əli bəyin ölümündən sonra dövlətin müstəqilliyinin qorunub saxlanmasında, Ağqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda gedən ara müharibələri və saray çəkişmələrinin aradan qaldırılmasında mühüm rol oynamışdır. XV yüzilliyin ortalarında Uzun Həsənin qardaşı Cahangir Mirzənin öz mövqeyini gücləndirmək üçün əzəli rəqibləri olan qaraqoyunlulara yaxınlaşması və Qaraqoyunlu Cahanşahla ittifaqa meyl etməsi qardaşlar arasında münasibətləri kəskinləşdirdi. Bu zaman Saray Xatun oğlanları arasındakı münasibətləri nizama salmaq və Ağqoyunlu bəyliyini möhkəmləndirmək üçün özünün bütün bacarığını ortaya qoydu. Uzun Həsən qardaşı Cahangir Mirzənin Qaraqoyunlu Cahanşaha qoşulmasını düzgün və məqsədəuyğun saymadı, onu bu hərəkətindən çəkindirmək üçün anası Saray Xatunu onun yanına göndərdi. Cahangir Mirzə qardaşının şərtlərini qəbul etmədi və anasının sözlərini qulaqardına vurub, fikrindən dönmədi. Lakin Uzun Həsənin qüvvələri tərəfindən məğlub edilən Cahangir Mirzə yenidən anasını onun yanına elçi göndərərək qardaşından bu düşmənçiliyə son qoyulmasını istədi. Ağqoyunlu tarixçisi Əbubəkr Tehrani bu haqda yazır: "Bu zaman Sahibqranın (Uzun Həsənin – T.N.) anası ismətli Saray Xatun Mardindən oğlunun yanına gəldi ki, Kürd Osmanın həlakı ilə bağlı şübhələrdən xilas olsun. Kürd Osmanın vəfatı ilə bağlı şübhələri aradan qaldırdıqdan sonra Uzun Həsən anasına belə dedi: "Ağqoyunlu və Qaraqoyunlu nökərləri bir-birinə gedib-gəlirlər, bir-birinə kömək edirlər, onların münasibətləri həmişə belə olub. Lakin bizim xanədanın böyük əmirləri qaraqoyunluların yanına getməyiblər. Mənim qardaşım Cahangir Mirzənin Cahanşah bəyə qoşulması düzgün və məqsədəuyğun deyil. Yaxşı olar ki, oğlunu mənim yanıma göndərsin, özü isə Mardində rahat və təhlükəsiz yaşasın. Heç bir məxluq onun gördüyü xoş günü görməyəcək". Uzun Həsən bu sifarişlə ismətli anasını yola saldı, özü isə köç edib Cəzirə və Qaraçuq tərəfə yollandı ... Yenə qardaşının yanına həmin məzmunda bir məktubla elçi göndərdi. Elçi gedib gəldi və belə bir xəbər gətirdi ki, Cahangir Mirzə oğlunu göndər-

məkdən imtina edir və anasının sözlərini qulaq ardına vurub. Uzun Həsən çağırışın faydasız olduğunu görüb Mardin vilayətini qarət etməyə başladı. Böyük döyüş oldu. Nəhayət, Cahangir Mirzənin qoşunu məğlub oldu və Uzun Həsənin qalib əsgərləri onları dağın ətəklərinə qədər təqib etdilər, sonra isə qənimətlələrlə geri döndülər. Cahangir Mirzə yenidən anasını elçi göndərdi ki, bu düşmənçilik düzgün deyil, gərək əkilmişləri yeməyib əkindən çıxaq. Uzun Həsən anasını hörmət-izzətlə qarşılayıb dedi ki, biz düşmənçilikdən əl çəkərik, amma qardaşım gərək oğlanlarından birini mənə təhvil versin və bu fitnələri aradan qaldırsın" [13, 138-139; 129, 88; 174[a], 294-295]. Saray Xatunun səyləri nəticəsində qardaşlar arasındakı düşmənçilik aradan qaldırıldı. Cahangir Mirzə Uzun Həsənin tələbini qəbul edərək oğlu Əlixan Mirzəni onun hüzuruna göndərdi. Uzun Həsənlə Cahangir Mirzə arasında əldə olunan razılığa görə Diyarbəkr Uzun Həsəndə, Mardin isə Cahangirdə qaldı [13, 152; 174[a], 295]. Beləliklə, Saray Xatunun səyləri nəticəsində Ağqoyunlu Mirzələri arasındakı ixtilaf aradan qaldırıldı.

Saray Xatunun müdrikliyi və saraydakı nüfuzu nəticəsində Əli bəyin oğlanları arasında hərbi istedadı və siyasi uzaqgörənliyi ilə seçilən Uzun Həsən (1453-1478) Ağqoyunlu taxtına çıxarıldı, kiçik Ağqoyunlu dövləti nəinki öz siyasi rəqiblərini aradan qaldıra bildi, hətta XV yüzilliyin 60-70-ci illərində dövrün ən qüdrətli feodal imperiyalarından birinə çevrildi. Saray Xatun dövlət həyatının bütün sahələrində öz oğlunun - XV yüzilliyin görkəmli dövlət xadimi, məşhur sərkərdə və diplomatı kimi şöhrət qazanmış Uzun Həsənin ən yaxın məsləhətçisi oldu [113, 48].

A.A.Arayancan Qaffarinin "Tarixi-cahanara" əsərinə istinad edərək yazır ki, "Uzun Həsənin anası Saray Xanım olduqca ədalətli, xeyirxah və iş bilən bir hakimdi". Qüvvətli iradəyə və siyasi zəkaya malik olan Saray Xatun dövrün siyasi hadisələrini düzgün qiymətləndirməyi bacarmış, oğlanlarına və xalqına qarşı xeyirxahlığı ilə tanınmışdır [174[a], 292].

Ağqoyunlu dövlətinin xarici siyasətinin tənzimlənməsində

və möhkəmləndirilməsində görkəmli diplomat və dövlət xadimi olan Saray Xatunun böyük rolu vardı. Demək olar bütün Şərqdə yeganə istedadlı diplomat qadın kimi məşhur olan Uzun Həsənin anası – Saray Xatun Avropa ölkələrində də yaxşı tanınırdı. O, bir dövlət xadimi kimi hakim sinfin mənafeyini müdafiə edir, feodal dövlətinin möhkəmləndirilməsinə çalışırdı [111, 17]. O, bu məqsədlə feodal dağınıqlığına və sülalə üzvlərinin mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda ara müharibələrinə, saray çəkişmələrinə qarşı mübarizə aparırdı.

Saray Xatunun dövrünün tanınmış dövlət xadimi və diplomatı kimi məşhurlaşmasında XV əsrin ortalarında aralarında əski rəqabətin olduğu qonşu Qaraqoyunlu dövləti ilə Ağqoyunluların kəskinləşən münasibətlərinin nizama salınmasındakı xidmətləri az rol oynamamışdır. Əbubəkr Tehrani bu haqda maraqlı məlumat verir. O, yazır: «Qaraqoyunlu sərkərdəsi Rüstəm Tərxan Kor Pir Məzid adlı şəxsi Cahangir Mirzənin yanına göndərdi ki, bizim aramızda qohumluq var. Sən ananı Cahanşah Mirzənin yanına göndər ki, arada sülh yaratsın. Qohumluq da onda idi ki, mərhum Əli bəyin anası Tərxanın qardaşı qızı idi. Rüstəm Tərxan nökərini yola saldı. Saray Xatun Rüstəm Tərxanın nökəri ilə Cahanşah Mirzənin yanına gəldi. Hörmət və təzimdən sonra Cahanşah buyurdu ki, iki qardaşdan biri - ya Cahangir Mirzə, ya da Həsən bəy gəlsinlər, bizim barışığımış sədaqətlə və saflıqla birləşsin. Saray Xatun buyurdu ki, onların gəlməsi mümkün olan şey deyil, əgər mən burada vəd versəm yalan demiş olaram» [13, 119-120; 129, 88; 174[a], 293].

Dövrün qaynağının verdiyi məlumatdan göründüyü kimi Ağqoyunlu dövlətinin qonşu dövlətlərlə münasibətlərinin nizama salınmasında, yaranmış gərginliyin aradan qaldırılmasında Saray Xatunun diplomatik missiyası həlledici rol oynamışdı. Saray Xatun oğlu Cahangirlə Cahanşah arasındakı münasibətləri qaydaya salmış və 1452-ci il aprelin 9-da tərəflər arasında Diyarbəkr andlaşmasını bağlamışdı. Müqaviləyə görə, Cahangir Diyarbəkrdə Qaraqoyunlu hakimiyyətini tanıyacaq, qızını Cahanşahın oğlu Məhəmmədi Mirzəyə ərə verəcək və oğlu Muradı

Cahanşahın sarayına girov olaraq göndərəcəkdi [356, 142; 358, 177; 215, 61]. Beləliklə, Cahanşah heç bir Qaraqoyunlu hökmdarının silah yolu ilə həll edə bilmədiyi işi – Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasındakı münasibətləri Saray Xatunun səyi nəticəsində diplomatik yolla nizama sala bildi.

Lakin Uzun Həsən qardaşının bu hərəkətindən razı qalmadı və ona qarşı mübarizəyə başladı. Əbubəkr Tehrani yazır ki, bir neçə gündən sonra Uzun Həsənin anası öz övladlarının münasibətlərini və vilayət əhalisinin vəziyyətini qaydaya salmaq üçün Mardindən çıxdı. [13, 140; 129, 88]. Mənbənin verdiyi məlumatdan aydın olur ki, Cahangir Mirzənin Qaraqoyunlu hökmdarı Cahanşahla yaxınlaşması Uzun Həsənlə qardaşı arasında ciddi gərginlik yaratdı. Məhz bu dövrdə, Saray Xatun oğlanları arasındakı ciddi narazılığı aradan qaldırmaq üçün ciddi əmək sərf etdi.

Saray Xatununun səyləri nəticəsində həmin dövrdə kiçik bəylik olan Ağqoyunlu dövləti Osmanlı və Qaraqoyunlu dövlətləri kimi iki qüvvətli rəqib arasında müstəqilliyini saxlaya və möhkəmləndirə bilmişdi. Olduqca ağıllı və tədbirli qadın olan Saray Xatun dövlətin idarə işlərinin bütün sahələrində oğluna yaxından kömək edirdi. Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində Saray Xatunun rolu daha mühümdür. Uzun Həsən bütün xarici siyasət məsələlərini onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi [110, 17-18; 129, 89]. Saray Xatunu bir diplomat, eləcə də dövlət xadimi kimi təkcə Şərqdə deyil, eləcə də Avropada da tanıyırdılar. Onun adına xarici ölkələrdən - o cümlədən Qərb dövlətlərindən məktublar göndərilir, Təbrizə gələn xarici diplomatlar, Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin nümayəndələri onunla danışıq aparırdılar. XV yüzilliyin diplomatiya tarixini əks etdirən ilk mənbələrdə bu barədə olduqca maraqlı məlumatlar vardır. Y.Mahmudlu bununla bağlı dəyərli məlumat verərək yazır ki, Venesiya hökuməti 1473-cü ilin fevralında Uzun Həsənin sarayına yola düşən növbəti səfiri İosafat Barboraya belə bir məxvi tapşırıq vermişdi: «Hökmdarın

(Uzun Həsənin) anasına (Sara Xatuna) da baş çək, ona ehtiram göstər, hədiyyələr ver. (Azərbaycanda) qəbul olunmuş qaydada ad-sanına layiq tərzdə çıxışlar edib onu Türkiyə ilə müharibəni davam etdirməyə çağır. Oğlanları, qardaşı oğlanları və nəvələri üçün bu işin nə qədər vacib olduğunu şəxsiyyətinə vacib olan ifadələrlə izah et» [113, 48-49; 129, 88].

Venesiya Respublikasının senatı Saray Xatunun Ağqoyunlu sarayındakı nüfuzunu nəzərə alaraq, demək olar Azərbaycana göndərilən bütün diplomatlarına ciddi tapşırıq verdi ki, ona ehtiram göstərsinlər, müxtəlif hədiyyələr versinlər və məqsədlərinə nail olmaq üçün ondan geniş istifadə etsinlər. Venesiyadan Azərbaycana göndərilən demək olar ki, bütün diplomatik sənədlərdə Saray Xatunun adı çəkilir və ondan bəhs olunurdu. Saray Xatun bir diplomat kimi nəinki ayrı-ayrı xarici ölkə elçiləri, həmçinin Qaraqoyunlu hökmdarı Cahanşah, Osmanlı sultanı II Mehmed, Misir Məmlük sultanları Seyfəddin Çaxmağ və Xoşqədəm, Teymuri hökmdarı Əbu Səidlə danışıqlar aparmış və Ağqoyunlu dövlətinin xarici siyasət mənafeyini uğurla müdafiə etmişdir. Xüsusən də Ağqoyunlu dövləti üçün qonşu dövlətlər tərəfindən ciddi təhlükə yaranan zaman Uzun Həsən xarici siyasətlə bağlı olan ən çətin məsələlərin həllini Saray Xatuna etibar edirdi [129, 89].

XV yüzilliyin 60-cı illərinin əvvəlində Saray Xatunun diplomatik fəaliyyətində onun Osmanlı sultanı II Mehmedlə apardığı Yassıçəmən danışıqları və burada sulh müqaviləsinin bağlanmasının böyük əhəmiyyəti vardı. 1461-ci ilin yayında imzalanan bu sülh Saray Xatunun Qaraqoyunlu Cahanşahla bağladığı barışığı nəzərə almasaq, xarici ölkə hökmdarları ilə imzaladığı ilk müqavilələrdən biridir. Saray Xatunun Ağqoyunlu sarayındakı nüfuzu və diplomatik fəaliyyəti Osmanlı sultanı II Mehmedə bəlli olduğu üçün o, 1461-ci ildə Ağqoyunlular və Trabzon üzərinə yürüşü zamanı Uzun Həsənlə münasibətləri nizama salmaq məqsədi ilə Saray Xatunun nüfuzundan yararlanmaq qərarına gəlmişdi. Bununla bağlı Əbubəkr Tehraninin verdiyi məlumat xüsusi maraq doğurur. O, yazır: «Sultan Mə-

həmmədin Trabzon üzərinə qəzavata getməsi xəbəri Ağqoyunlular arasında yayılanda, Sahibqran (Uzun Həsən – T.N.) onlara basqın etməyi öz qoşununa qadağan etdi. Uzun Həsənin ismətli anası, mövlana Əhməd Yekərci və digər ülәmalar yekdilliklə bildirdilər ki, o müsəlman padşahı olduğu üçün və qəzavata getdiyinə görə onunla düşmənçilik etmək şəriətə uyğun deyil, onunla sülh bağlamaq isə islamın və insanların xeyrinədir. Sultan Məhəmməd də elçi göndərib bildirdi ki, əgər Uzun Həsənin anası sülh danışıqlarına gəlsə əvəzində Trabzonu verərəm. Uzun Həsən ismətli anasını onun yanına göndərdi» [13, 208; 129, 89].

Bütün Yaxın və Orta Şərqdə böyük nüfuz sahibi olan Saray Xatun Osmanlı sultanının hərbi düşərgəsində yaxşı qarşılandı. Dövrün Osmanlı tarixçisi Aşıq Paşazadənin verdiyi məlumata görə, sultan II Mehmed Saray Xatuna böyük hörmət göstərdi və diplomatik danışıqlar zamanı onlar bir-birinə «ana» və «oğul» deyə müraciət etmişdilər [23, 159; 110, 19; 129, 89].

Saray Xatun bu danışıqlar zamanı özünün bütün diplomatik bacarığından istifadə edərək Uzun Həsənin onun qarşısında qoyduğu tapşırıqlardan birini yerinə yetirə bildi. Sultan II Mehmedi Ağqoyunlu dövlətinə qarşı müharibə etmək fikrindən daşındırdı. Türk tarixçisi Rəşad Əkrəmin yazdığına görə, iki ölkə arasında Ağqoyunluların Osmanlı dövlətinə, habelə onun himayəsindəki ərazilərə hücum etməməsi, Osmanlı qoşunlarının hücumu zamanı Ağqoyunlu dövlətinin Trabzona kömək göstərməməsi şərti ilə sülh müqaviləsi bağlandı [296, 27-28; 110, 19; 129, 90].

Əbubəkr Tehrani tərəflər arasında sülhün bağlandığını, lakin Osmanlı sultanının vədinə əməl etməyərək Trabzonu ələ keçirdiyini yazır [13, 208-209]. Saray Xatunun imzaladığı bu sülh müqaviləsinin Ağqoyunlu bəyliyi üçün mühüm əhəmiyyəti vardı. Bu müqavilə nəticəsində, o zaman Osmanlı dövləti ilə toqquşmağa qadir olmayan kiçik Ağqoyunlu dövləti öz müstəqilliyini qoruyub saxlaya bildi. Lakin Saray Xatunun bütün səylərinə baxmayaraq, II Mehmedi Trabzonu fəth etmək cəhdindən

çəkindirmək mümkün olmadı. Sultan II Mehmetlə Saray Xatun arasında bağlanmış Yassıçəmən sülhü barədə Y.M.Mahmudlu yazır: «Oğuz elinin ağbirçək diplomatının uzaqgörənliyi, siyasi məharəti sayəsində iki türk cahangiri arasında reallaşmaqda olan qardaş qırğınının qarşısı alınmışdı. Zəka, müdrüklük fəlakətə üstün gəldi. Türkü-türkə qırdırmaq siyasəti bu dəfə baş tutmadı. Ağqoyunlu-Osmanlı sülh müqaviləsi bağlandı. Beləliklə, Ağqoyunlu ulusunun məhv olmaq təhlükəsi sovuşdu. Lakin Sultan Trabzonu ələ keçirmək siyasətindən dönmədi» [113, 50; 129, 90].

Dövrünün görkəmli sərkərdəsi və mahir diplomatı kimi tanınan sultan II Mehmed Ağqoyunlu dövlətini təcrid etdikdən sonra Trabzon üzərinə yeridi. O, Uzun Həsənin arxadan hücum etməyəcəyinə əmin deyildi, buna görə də, Saray Xatunu da özü ilə götürdü. Sultan Trabzon yürüşü zamanı Uzun Həsənin anasını yanında saxlamaqla arxadan ağqoyunlular tərəfindən edilə biləcək hücumun qarşısını almaq istəyirdi. Lakin Əbubəkr Tehrani yazır ki, Uzun Həsən sülh bağlandığı üçün osmanlılara hücum etmədi [13, 209; 129, 90]. Türk tarixçisi Yaşar Yücel sültan II Mehmedin Trabzonu fəthi ərəfəsində Uzun Həsənlə olan münasibətlərini təhlil edərək belə bir nəticəyə gəlir ki, nə Uzun Həsən Fatehi Trabzon fəthindən çəkindirmək üçün qəti bir təşəbbüsdə olmuş, nə də Fateh onu bitərəf etməyə çalışmışdı. Üstünlüyün Fateh tərəfində qaldığı və Uzun Həsənin «şəfaət» diləməsi barədə Osmanlı rəvayəti qəbul oluna bilməz. Çünki, Fateh bütün Trabzon səfəri boyunca Uzun Həsəndən çəkinmiş və onun arxadan edəcəyi hücumdan ehtiyat etmişdi. İbn Kamalın çox gözəl qeyd etdiyi kimi sultanın Saray Xatunu özü ilə götürməsi bunu sübut edir [363, 311; 129, 90]. Ərzincandan Trabzona yürüş zamanı Sultan II Mehmedi müşaiyyət edən Saray Xatun oğlu Uzun Həsənin ikinci tapşırığını da yerinə yetirməyə – sultanı Trabzonu fəth etməkdən çəkindirməyə çalışdı. Ara verməyən yağışlar nəticəsində çətin keçilən Trabzon yürüşü zamanı Saray Xatunun inadkarlığı bəzən Sultanı qeyzləndirirdi. Lakin II Mehmedi fikrindən daşındırmaq mümkün olmadı. Belə

olduqda, Saray Xatun Trabzon torpaqlarının gəlini Dəspinə Xatuna məxsus olduğunu bildirdi və ağqoyunluların bu əraziyə qanuni varislik hüququnu irəli sürdü [113, 51; 215, 90; 129, 90]. Bütün bunlara baxmayaraq qurudan və dənizdən birgə hücum nəticəsində 1461-ci il oktyabrın 26-da Trabzon ələ keçirildi.

Yeri gəlmişkən, Oğuz elinin qədim dövlətçilik ənənələrinə və humanizm fəlsəfəsinə dərin bələd olan Saray Xatunun diplomatiyası nahaq qan tökülməsi əleyhinə idi, dövlətlər və xalqlar arasında sülh və qarşılıqlı anlaşma münasibətlərinə üstünlük verirdi. Bu baxımdan təsadüfü deyil ki, o, Sultan II Mehmedin Trabzonu hücumla almaq niyyətindən dönmədiyini görüncə şəhərə yaxınlaşmaqda olan türk qoşunlarının ordugahından dəfələrlə imperator Davidə məktublar yazıb müqavimət göstərməyin faydasız olduğunu bildirdi və qan tökülmədən təslim olmasını təklif etdi. O, Trabzon imperatoruna vəd verdi ki, bu təklifi qəbul edərsə onun özünün və imperator ailəsinin toxunulmazlığı təmin olunacaqdı [113, 51]. Trabzonun təslim olmasından sonra Azərbaycan diplomatı vədinə sadiq qalaraq imperator ailəsinin toxunulmazlığını təmin etdi. Saray Xatun Trabzonda qaldığı müddətdə öz ölkəsinin elçisi kimi daha bir diplomatik addım atdı. Gəlini Dəspinə xatunun varislik hüququndan istifadə edərək Trabzon xəzinəsini Osmanlı sultanı ilə böyüşdürərək Ağqoyunlu sarayına zəngin sərvətlə qayıtdı [23, 160; 113, 51; 215, 90].

Saray Xatunun sonralar da bir çox xarici ölkə diplomatları və hökmdarları ilə danışıqlar aparması barədə ilk mənbələrdə maraqlı məlumatlar vardır. Uzun Həsən 1465-ci ildə Gərgər qalasını kürdlərdən alaraq açarlarını Misir Məmlük sultanı Xoşqədəmə göndərmiş və əvəzində ondan Xarput şəhərilə yanaşı, 10 min dinar təzminat istəmişdi. Sultan Xoşqədəm osmanlılara qarşı önəmli bir müttəfiqi olan Ağqoyunlu dövlətini itirməmək üçün bu təklifi istəmədiyi halda olsa da belə, qəbul etməli olmuşdu. Uzun Həsənin Xarput şəhərini ələ keçirərək Malatya və Əlbistanı mühasirəyə alması Misir Məmlük sultanını narahat etsə də, osmanlıların Zülqədər torpaqlarına hücumlarının başlan-

ması nəticəsində o, Uzun Həsənlə əlaqələrini gücləndirmək məcburiyyətində qaldı. Belə bir vəziyyətdə, Əbubəkr Tehraninin yazdığına görə, Saray Xatun 1466-cı ilin əvvəlində Qahirəyə gedərək Ağqoyunlularla Məmlüklər arasındakı münasibətləri möhkəmləndirmək və tərəflər arasında yaranmış olan anlaşılmazlığı aradan qaldırmaq üçün özünün bütün diplomatik bacarığından istifadə edərək Sultan Xoşqədəmlə danışıqlar aparmışdı [50, 215; 215, 78; 129, 91].

1468-ci ildən Uzun Həsənin Azərbaycanda və Şimali-Qərbi İranda hakimiyyəti ələ alması Teymuri hökmdarı Əbu Səidi narahat etmişdi. Teymuri sultanı Cahanşahın oğlu Həsənəlini müdfiə etmək bəhanəsilə öz qüvvələrini Azərbaycana yeritdi. Uzun Həsən sultan Əbu Səidin böyük qüvvə ilə hərbi yürüş təşkil etdiyini xəbər alaraq onlarla vuruşmaq fikrindən çəkindi. O, məsələni münaqişəsiz həll etmək üçün diplomatik işlərdə şöhrət qazanmış olan anası Saray Xatunun başçılığı ilə Xorasanın Kalbuş yaylağında novruz şənliklərini keçirən Teymuri Sultanı Əbu Səidin yanına bir elçi heyəti göndərdi və sülh təklif etdi. Ağqoyunlu elçiləri Əmir Teymur zamanından aralarındakı dostluğu xatırladaraq, yenə dostluq əlaqələrinin qalmasını arzu etdiklərini bildirdilər [50, 284; 165, 92; 215, 74-75].

Əbu Səidlə Miyanədə aparılan danışıqlar da bir nəticə vermədi. Ağqoyunlu hökmdarından gözlədiyi cavabı ala bilməməsi Teymuri sultanı üçün son nəticədə fəlakətlə nəticələndi. Belə ki, Uzun Həsən Mahmudabad döyüşündə Əbu Səidi məğlub edərək əsir aldı və edam etdirdi.

Bütün bu məlumatlar bir daha təsdiq edir ki, Şərgin ilk diplomat qadını olan Saray Xatunun fəaliyyəti Azərbaycanın diplomatiya tarixində özünəməxsus yer tutur. Hər hansı bir xalqın diplomatiya tarixi, hər şeydən əvvəl həmin xalqın dövlət ənənələri tarixidir, onun siyasi varlıq tarixidir, müstəqillik tarixidir. Bu baxımdan, Saray Xatunun bir dövlət xadimi və diplomat kimi həyat yolu xalqımızın diplomatiya tarixinə şanlı səhifələr yazmış tarixi şəxsiyyətlərimizdən biri kimi tarixdə öz yerini əbədi olaraq yaşadacaqdır.

### *III. 5. Azərbaycan Ağqoyunlu dövlətlərinin quruluşu*

Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi tarixi ilə bağlı olan məsələlər Türkiyə tarixşünaslığında xüsusi tədqiqat mövzusuna çevrilmişdir. Türkiyə tarixçilərinin araşdırmalarında bu dövlətlərin siyasi quruluşu, inzibati idarə sistemi, saray və hərbi təşkilatlarına aid müəyyən fikirlər irəli sürülmüşdür [215; 287; 346; 347; 357].

İ.H. Uzunçarşılı Ağqoyunlu dövlətlərinin idarə, hərbi və saray təşkilatının əsasən Anadolu bəyliklərinin idarə sistemindən daha geniş, mükəmməl olduğunu göstərir [346, 205; 347, 286]. Lakin Z.V.Toğan Elxanilərlə Teymurilərin [335, 369], M.X.Yınanç Cəlairilərlə Teymurilərin [357, 263], F.Sümer isə Elxanilərlə Cəlairilərin [307, 304; 317, 35] siyasi quruluşunun oxşarı olduğunu qeyd edirlər. H.R.Roemerə görə, Ağqoyunlu dövlətlərinin siyasi strukturu bir çox cəhətinə görə monqol dövrünün bünövrəsinə əsaslanırdı və Cəlairilər burada sanki vasitəçi rolunu oynamışdılar [332, 184; 118, 150].

Azərbaycan Ağqoyunlu dövlətindəki saray, divan, qoşun təşkilatı, ayrı-ayrı əyalətlərin və şəhərlərin idarə quruluşu Elxanilər dövründə mövcud olan siyasi strukturun inkişaf etmiş forması idi.

Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsən mərkəzləşmiş dövlət yaratmağa səy göstərmişdi. Lakin müstəqilliyə can atan yerli feodallar və hərbi-köçəri əyanlar bu işə hər vasitə ilə maneçilik törətmişdilər. Ölkənin iqtisadi və siyasi cəhətdən dağınıqlığı da dövləttin mərkəzləşdirilməsi prosesinə ciddi mane olurdu. Əmirlər dövlətin işinə nəzarət edir, hətta hökmdarlara qarşı çıxırdılar. Məhz buna görə də, dövrün hökmdarları əmirlərlə hesablaşmalı olurdular. Bəzən əmirlərin və tayfa rəislərinin məşvərəti əsasında Azərbaycan Ağqoyunlu sülaləsindən bu və ya digər bir şəxs hakimiyyətə keçirdi [144, 35]. Azərbaycan Ağqoyunlu dövlətində istər idarə sistemi, istərsə də ordu quruculuğunda daha çox köçəri elatlara istinad edilirdi. Bu dövlətlərdə siyasi mərkəzləşmə prosesi istər-istəməz türk-monqol hərbi-köçəri elitasının və tayfaların zəifləməsi və qüvvələr

balansının dəyişməsi ilə müşaiyət olunurdu [118, 150-151].

Azərbaycan Ağqoyunlu dövlətində hökmdarın hökmran olduğunu göstərən mühüm əlamətlər mövcud idi. Türkiyə tarixçilərinin qeyd etdikləri kimi, ***taxt*** hökmdarlığın ən önəmli simvolu kimi başda dururdu. Dövrün mənbəyinin qeyd etdiyi kimi, Uzun Həsən təbəələri arasındakı mübahisələri qızıl taxtda oturaraq həll edirdi. Hökmdar olmağın ən önəmli tərəfi hökmdarlıq taxtına oturmaq idi. Uzun Həsən ağır xəstə olan zaman böyük oğlu Sultan Xəlil anası Səlcuqşah Bəyim tərəfindən Təbrizə çağrılmışdı [287, 214; 204, 168].

Ağqoyunlu hökmdarları çox zaman elçiləri taxtına oturaraq qəbul edirdilər. Hökmdarlığa məxsus olan əlamətlərdən biri də zərb edilən ***sikkədir***. Taxta çıxan hökmdarlar müstəqilliklərini elan etmək üçün üzərində adının, ləqəbinin olduğu sikkələr zərb edirdilər. Ağqoyunlu hökmdarları da digər türk dövlətləri kimi müstəqillik əlaməti olan sikkələr zərb etmişdilər. Ağqoyunlularda ilk sikkə zərb etdirən Tur Əli Bahadur olmuşdur [287, 214; 204, 169-170]. Ağqoyunlu dövlətində hakimiyyət simvollarından biri də ***xütbə*** idi. V.Hins yazır ki, Uzun Həsən böyük qardaşı Cahangirdən Diyarbəkri alan zaman əhali onun hakimiyyətini tanıyaraq xütbəni onun adına oxutmuşdu [231, 25; 287, 214; 204, 171].

Hökmdarın maddi hakimiyyət əlamətlərindən biri də ***bayraqdır***. Bayraqların müharibələrdə tutduğu yer çox böyükdür. Çünki ordu müharibə zamanı ancaq bayraqların altında toplanırdı. Ağqoyunlular döyüşlərdə bayraqlarını dövlətin başlıca atributlarından biri kimi daşımışlar. Əbubəkr Tehrani bayrağı döyüş vasitəsi və qələbə nişanəsi kimi təsvir etmişdir [13, 202; 204, 171]. İ.H.Uzunçarşılı Cəlaləddin Dəvvaninin verdiyi məlumata əsaslanaraq Ağqoyunluların bayrağının Bayandurların bayrağı kimi ağ rəngdə olduğunu göstərir. Hazırda İstanbulda Topqapı Sarayı Muzeyində saxlanılan Uzun Həsənə məxsus bayraq da ağ rəngdədir [347, 289]. Hökmdarlıq əlamətlərindən biri də hökmdar ***xalatıdır***. Əbubəkr Tehrani yazır ki, 1400-cü ildə Qara Yülük Osman Əmir Mütahərtənlə birlikdə Avnikdə

olan Əmir Teymurun hüzuruna gəldilər, böyük ordu ilə birləşdilər və öz itaətlərini bildirdilər. Bunun müqabilində Əmir Teymurdan çox böyük nəvaziş və hörmət gördülər, şahanə xalat və soyurqallar aldılar [13, 55; 50, 43; 204,171].

Ağqoyunlu dövlətində hökmdarlıq əlamətlərindən biri də ***səltənət çadırıdır*** (Humayın otağı). Hökmdarlar səfərə çıxdıqda, döyüşə getdikdə səltənət çadırı hökmdarın gedəcəyi yerə öncədən göndərilirdi [204,172]. Hökmdarlıq əlamətləri arasında ***tuğ*** mühüm yer tutur. Həm hökmdarın, həm də tanınmış əmirlərin tuğları olurdu. Əbubəkr Tehrani Otluqbeli döyüşündə Ağqoyunlu tuğ və mizraqlarının uclarının açılan tüfəng atəşindən dəlik-deşik olduğunu qeyd edir [50, 351; 204, 172]. İ.H.Uzunçarşılı yazır ki, Otluqbeli döyüşündə Uzun Həsənin ordusunda olan Teymuri şahzadələri və Əmir Hacı bəyin tuğları olmuşdu [346, 290].

Azərbycan Ağqoyunlu dövlətində hökmdarlıq əlamətlərindən biri də ***tuğra*** idi. Hökmdarın Münşi divanında hazırlanan fərman, hökm, məktub, fəthnamə və sülh müqaviləsinin mətnlərinin üst tərəfinə hökmdarlıq əlaməti kimi içərisində sultanın adı, ləqəbi, Quran ayələrindən ibarət olan möhür və imzasından ibarət olan tuğrası vurulurdu. Ağqoyunlular rəsmi sənədlərinə Bayandur boyunun damğasını vururdular [204, 171].

S.Ərşahin Ağqoyunlu hakimiyyət məfkurəsinin önəmli qaynaqlarından biri kimi ***qəza*** anlayışının ətraflı izahını vermişdir. Müəlllifin fikrincə, Ağqoyunlular savaşlarda kafir torpağı olsa belə qətl və qarətlərə yol verməzdilər. Uzun Həsən tərəfindən Gürcüstana hərbi yürüş zamanı əraziyə zərər verən iki əsgərin ölümlə cəzalandırılması bunu təsdiq edir [215, 187-188; 134, 63].

Məlum olduğu kimi, Ağqoyunlu dövlətində Uzun Həsən dövründə mərkəzləşdirmə siyasəti yeridilmişdi. S.Ərşahinin fikrincə, Ağqoyunlularda mərkəzi hakimiyyəti möhkəmləndirməyi gərəkli edən səbəblərdən biri yaylaq-qışlaq həyatı keçirən türkmanların müstəqil hərəkət etmək ənənəsinin güclü olması və köç yollarına nəzarət etmənin çətinliyi olmuşdu. Ağqoyunlu

mərkəzi hakimiyyətini zəiflədən digər amillərdən biri də iqta və soyurqal sisteminin mövcudluğu idi [215, 189; 134, 63-64]. Uğurlu Məhəmmədin üsyanı Uzun Həsəni gec də olsa, iqta sistemini nəzərdən keçirməyə, vilayətlərin idarə edilməsi işini, eləcə də, mərkəzi hakimiyyəti möhkəmləndirməyə tələsdirdi. Mərkəzi hökumət vilayətlər üzərində hakimiyyətini möhkəmləndirmək və məhəlli güclərin üsyan etmək və müstəqil hərəkət etmək imkanını ortadan qaldırmaq istəyirdi. Uzun Həsənin mərkəzləşdirmə siyasətində önəmli yerlərdən birini hazırlatdığı qanunlar tuturdu. O, bu qanunlarla bir tərəfdən, xanədan üzvlərini mərkəzi hakimiyyətə bağlamış, eyni zamanda Şərqi və Cənub Şərqi Anadoluda uzun müddət bölgəni yarıtmaz hala salmış tayfalararası çəkişmələrə, otlaq və yaylaq uğrunda qovğalara son qoymağa çalışmışdı [216, 205; 215, 189; 134, 64].

S.Ərşahin haqlı olaraq qeyd edir ki, Ağqoyunlu dövlətində vilayətlərin idarə edilməsində yeni bir qayda yaratmaq cəhdləri, onların mərkəzləşdirmə siyasətini tamamlayan şərtlərdən biri olmuşdur. Belə ki, mərkəzi hakimiyyət vilayətlər üzərində hakimiyyətini tam şəkildə qurmaq və məhəlli güclərin baş qaldırmasına və ya müstəqil hərəkət etmək imkanlarını ortadan qaldırmağa çalışırdı. Uzun Həsənin qanunları bu sahədə atılan ən önəmli addımlardan biri idi [216, 205; 215, 241; 134, 65].

Rəsmi sənədlərdən, fərmanlardan və hətta zərb edilmiş sikkələrin oxunuşundan məlum olur ki, Ağqoyunlu hökmdarları ***«sultan»*** və ya ***«padşah»*** titulu daşımışlar. Ağqoyunlu hökmdarlarının adlarının əvvəlinə «sultan», sonuna isə «padşah, bahadır, xan» titulları artırılır, onların ölkə başçısı olması həmin titullarla öz hüquqi səlahiyyətlərini alırdı [93, 20; 135, 122]. Ağqoyunlularda əvvəllər «Ədalətli Sultan Həmzə Bahadur» deyə sikkə zərb etdirən Qara Osmanın oğlu Həmzə bəydir. Onların zərb etdirdikləri sikkələrində Ağqoyunluların damğaları da müşahidə olunur [346, 290].

Mənbələrin verdiyi məlumatlara görə, XV əsrdə hökmranlıq etmiş ən yüksək təbəqəyə «sultanlar, əmirlər, vəzirlər, sədrlər və saraya yaxın adamlar» məxsus olmuşlar [91, 43].

M.X.Yınançın təbirincə «dövlətin idarəsi altındakı bütün məmləkət sülalənin mülkü olduğu üçün şahzadələr hökmdara tabe olmaqla ölkənin ayrı-ayrı vilayətlərinə vali təyin olunur, böyük bəylərdən biri də şahzadənin atabəyi (lələsi) olurdu. Hansı şahzadə taxta çıxırdısa, onun atabəyi də Əmiri-Əzəm olurdu və dövlətin bütün nüfuzu və gücü əgər hökmdar zəif olardısa, bu şəxsin əlində olurdu» [357, 263].

Azərbaycan Ağqoyunlu dövlətində Təbriz şəhəri hökumət mərkəzi – paytaxt idi və ən mühüm vilayətlər Fars, Yəzd, İsfahan, Bağdad, Diyarbəkr, Ərzincan, Şərqi Qarahisar idi [347, 300]. İ.H.Uzunçarşılıya görə, əyalət və ya vilayətlər, özlərinə iqta edilmiş ***bəylərbəyilər*** tərəfindən idarə olunurdu [346, 205]. Əmir Teymurun və xələflərinin dövründə «bəylərbəyi» istilahı işlənsə də, bu istilahın Azərbaycan Ağqoyunlu dövlətində işlənməsi haqqında qəti fikir söyləmək çətindir.

Azərbaycan Ağqoyunlu dövlətində siyasi aparatın idarə olunmasında sultandan və ya padşahdan sonra birinci yerdə ***əmirül-ümərə*** (əmirlər əmiri) dururdu. M.X.Yınanç belə hesab edirdi ki, Divanın ən nüfuzlu üzvü olan əmirül-ümərə hökmdarın iştirak etmədiyi səfərlərdə ordunun baş komandanı olurdu. Onun fikrincə, XV əsrdə bəylərin ən böyüyü məhz əmiri-əzəm idi [357, 263; 135, 122]. Mənbələrdən məlum olur ki, onun hökmü yürüşlərdə, döyüşlərdə əmirlər və bütün hərbçilər tərəfindən sözsüz yerinə yetirilirdi [3, 73]. Əmirül-ümərə titulu dövrün hökmdarı tərəfindən şəxsən verilirdi. Hökmdar hər hansı səbəbdən ölkədən çıxdıqda əmirül-ümərə onu əvəz edirdi. Əmir Teymurun vəsiyyətində deyilirdi: "Əmirül-ümərə o adam ola bilərdi ki, məclisdə və vuruşmada mənim müavinim olsun və bacarıqla qoşunu idarə edə bilsin, ona kimsə müxalifət etsə, cəzalandırmağı bacarsın"... Əmirül-ümərənın hökmü əmirlər, qoşunun digər hərbi rütbəli və qeyri rütbəli məmurları üçün qanun idi [144, 72; 93, 32].

Mərkəzi dövlət idarəsində mühüm yerlərdən biri də ***baş vəzirə*** məxsus olmuşdur. O, dövlətin gəlirlərinə nəzarəti həyata keçirir və maliyyə aparatını idarə edirdi. Baş vəzir, həmçinin

ölkənin xarici işləri ilə məşğul olur və mülki-inzibati idarələrə başçılıq edirdi [91, 47-48]. Mənbələrin çoxunda baş vəzirə “”etimadüd-dövlə” (“dövlətin etimadı”) deyildiyi göstərilmişdir. Bununla da vəzirin böyük etimada layiq olduğu nəzərə çatdırılır. Baş vəzir ali divana rəhbərlik etdiyinə görə, «sahib-divan» da adlanırdı [Bax: 74, 105]. Divanın möhürü ona etibar edilirdi. Hökmdarların verdikləri fərmanın və ya hökmün sərlövhəsində sultanın adı və ləqəbi, sonunda isə möhürləri vurulurdu [135, 122]. Fəzlullah ibn Ruzbehan Xuncinin verdiyi məlumata görə, Ağqoyunlu sarayında uzun müddət baş vəzir işləmiş, habelə Sultan Xəlilin də vəziri olmuş Şah İmadəddin Salman Deyləmi “mülki və maliyyə işlərini” tənzimləməkdən ötrü İraqa göndərilmişdi [68, 47; 93, 37].

Əbubəkr Tehrani yazır ki, Uzun Həsən öz ağıllı və tədbirli vəziri Əmir Məcdəddin İsmayılı xalqı sakitləşdirmək, idarəçilik və maliyyə işlərini qaydaya salmaq, məmurlar təyin etmək üçün qabaqcadan Şiraza göndərdi. O, əvvəllər Pirbudağın, Həsənəlinin və Sultan Əbu Səidin vəziri olmuş, sonra isə Uzun Həsənin divanında bu şərəfli vəzifəyə təyin olunmuşdu [13, 280]. Həsən bəy Rumlu da dövlətin bütün maliyyə və mülki işlərinə rəhbərliyin baş vəzir tərəfindən həyata keşirildiyini bildirir [43, 553; 91, 53-54; 93, 37].

Azərbaycan Ağqoyunlu dövlətində dövlətin mühüm atributlarından biri də ***möhürlər*** idi. Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsən tərəfindən 1470-ci ildə verilmiş bir fərmanın sonunda (sol kənarında) hökmdarın möhürü, fərmanın arxasında (sağ tərəfində) iki yerdə divanın möhürü və onun altında isə vəzirlərin möhürləri vurulmuşdu. Həmin fərmaının altında (sağ kənarında) pərvanəçinin adı yazılmışdır [347, 294-295; 144, 43]. Y.H.Uzunçarşılının fıkrincə, hökmdarın möhürü fərmanın sonuna vurulmuş, onun arxasında divanın və vəzirlərin möhürünün vurulması fərmanın divanın nəzarəti və məsuliyyəti altında olduğunu göstərir [347, 294-295; 144, 43]. Divan möhürünün yuxarıda, vəzirlərin möhürünün aşağıda olması sübut edir ki, vəzirlər divan rəisinə tabe olmuşlar.

İ.H.Uzunçarşılnın fikrincə, Uzun Həsənin 1472-ci ilin sentyabrında Qaraqoyunlu Pir Əhməd bəyə göndərdiyi bir hökmün sonunda «Rəhmedici Allaha etimad edən Həsən bin Əli bin Osman» yazılmışdır. Bu hökmün üzərində və sağ kənarında Ağqoyunluların mənsub olduğu Bayandur boyunun damğası və içərisində isə «Hökmdür» sözü yazılmış, altında «Əbunəsr Həsən Bahadur sözümüz» qeyd olunmuş, hökmün arxasında isə divanın beş üzvünün adı yazılmışdır» [347, 295-296].

Vəzir məşhur əmirlərdən təyin edilirdi. Vəzirlər hərbi yürüşlərdə də iştirak edir, onların xidmətləri yalnız mülki və maliyə işləri ilə məhdudlaşmırdı. Baş vəzirin ixtiyarında bir neçə min silahlı əsgər olurdu [93, 38].

Əmir Teymurun vəsiyyətlərindən aydın olur ki, qüdrətli bir dövlət başçısı kimi onu vəzir vəzifəsini tutan şəxsin şəxsiyyəti daim düşündürmüşdür [3, 70-71; 93, 38-39].

Maliyyə işlərinin həll edilməsində vəzirlər divanbəyiyə tabe idilər. Əgər divanbəyiyin icazəsi olmasaydı əmirül-üməra və əmirlər xəzinədən öz maaşlarını ala bilməzdilər. Dövlət tərəfindən ödənilən maaşların hesabatını divanbəyi hökmdara təqdim edirdi [Bax: 3, 65; 93, 33].

İ.H.Uzunçarşılı Ağqoyunlularda ***divan əmiri*** vəzifəsinin olduğunu göstərir. Onların hökmdardan sonra səltənət naibi kimi böyük ixtiyara malik olması, digər əmirlərdən üstün olduğu qeyd olunur [347, 295-296; 215, 204; 287, 216]. Ağqoyunlu dövlətində əmirlərin başlarına sarıdıqları sarıq ağ rəngdə idi. Məşhur alim Cəlaləddin Dəvvani Sultan Yaqubun zülmə meyl etməsindən mütəəssir olaraq başındakı əmirlərə məxsus sarığı çıxarmış, onun ölümündən sonra yenidən sarımışdır [347, 303].

Uzun Həsənin hakimiyyəti dövründə dövlətin mərkəzi idarə təşkilatı ***Ali divan*** idi. Divan rəisi *"əmir-divan", "sahib-divan", "əmir-əzəm"* yaxud *"divanbəyi"* adlanırdı. O, divan möhürünün sahibi idi [13, 261; 347, 294; 215, 204; 287, 215].

İ.H.Uzunçarşılıya görə, divan ayrı-ayrı sahələr üzrə üç yerə bölünürdü: divani təvaçi, divani mal, divani sədr. Bunların hər biri üçün ayrıca pərvanəçi, ya da hər üçünə bir pərvanəçi

təyin olunurdu [347, 303, 305; 144, 44; 357, 263].

İ.Erdem və K.Paydaşın fikrincə, Ağqoyunlularda «Böyük divan»la yanaşı, «məşvərət divanı», «inşa divanı» («münşi divanı» da adlanan bu divanda hökmdarın məktubları, soyurqallarla bağlı fərmanları hazırlanırdı), «maliyyə divanı» və əsgərlərin maaş və ləvazimatları ilə məşğul olan «divani ərz» adlanan divanları mövcud olmuşdur [204, 185-186]. Ağqoyunlu dövlətində Böyük divana bağlı olan ***Tuğra*** və ya ***Münşi divanı*** fəaliyyət göstərmişdir. Bu divanda fəaliyyət göstərən münşi divanbəyi tərəfindən göndərilən əmrlərlə yanaşı hökmdarın məktublarını, soyurqallarla bağlı fərmanlarını yazardı. [204, 186].

O.Ə.Əfəndiyev Ağqoyunlu dövlətlində fəaliyyət göstərən divanlar içərisində 5 divanın olduğunu qeyd edir: Divani-əmarət, divani-vəzarət, divani-təvaçı, divani-pərvanəçi, divani-ləşkər. Təbii ki, bu divanların hamısının ümumi nəzarəti divanbəyi tərəfindən icra edilirdi [93, 33]. S.Ərşahinin fikrincə, Ağqoyunlularda Ali divana tabe olan *divani-əmarət, divani-vəzarət, divani-məmalik, divani-pərvanəçi, divani-mustovfi, divani-ləşkər, divani-təvaçı, divani-ərzaqı cünd* kimi qurumlar fəaliyyət göstərmişdir [Bax: 215, 204].

Böyük və ya Ali divan dövlətin ən önəmli qurumu olub ən mühüm qərarlar burada qəbul olunardı. Ən mühüm məsələlər, yüksək vəzifələrə təyinatlar, eləcə də ayrı-ayrı əyalətlərin gəlirləri müzakirə olunur və qərarlar qəbul edilirdi. Əyalətlərin bütün gəlirlərinin toplanmasına nəzarəti də o həyata keçirirdi. Qəbul olunan qərarlar baş vəzirin möhürü ilə təsdiq olunaraq rəsmiləşdirilirdi [204, 185; 201, 436-437].

Ağqoyunlu sultanları dövləti və xalqı düşündürən məsələləri görüşüb həll etmək üçün divana böyük önəm verirdilər. Mənbələrin verdiyi məlumata görə, "Təbrizdə Ağqoyunlu sarayında hər sabah namazdan sonra davul çalınaraq Divan toplanırdı. Bundan sonra belində dəvə yunundan hazırlanmış qurşaq, çiynində quzu yunundan tikilmiş dərviş əbası olan Uzun Həsən divana daxil olaraq qızıl taxtda oturardu. Onun sağında və solunda şahzadələr və əmirlər yer alırdı. Şikayəti olan varlı

və ya kasıb olsun hər kəsi hüzuruna çağıraraq dinlər və hökmünü verərdi. Divanda hazır dayanan katiblər hökmdarın qərarlarını və əmirləri kağıza yazaraq şikayətçilərə verərdi. Bu qərar və əmrlər mütləq icra olunmalı idi, heç bir halda dəyişdirilə bilməzdi" [Bax: 231, 104-105; 215, 205; 204, 185; 287, 217].

Əbubəkr Tehrani divan əmirinin möhtərəm bir dövlət məmuru olduğunu nəzərə çatdırır: "Sahibqran Şirazı tutub Əbu Yusif Mirzəni məğlub edərək, qışlamaq üçün Quma yollananda, Ali divanın hakimi, dövlətin dayaqlarından biri, ağıllı, müdrik və təcrübəli Əmir bəyi Şiraza hakim təyin etdi" [13, 287; 93, 34].

Dövrün mənbələrindəki məlumatlar bir daha göstərir ki, dövlətin Ali divanının əmirlərindən başqa ayrı-ayrı vilayət, şəhər və qalaların da ***divan əmirləri*** olmuşdur. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Uzun Həsən şahzadə Sultan Xəlil Mirzəni Şiraza hakim təyin edən zaman o, hələ Xorasandan gəlib çıxmadığı üçün onun divan əmiri olan Həsən bəyi Qumdan Şiraza göndərmişdi [Bax: 13, 287].

Azərbaycan Ağqoyunlu dövlətində Ali divanda fərmanları yazanlar ***pərvanəçi*** adlanırdı. Pərvanəçi *münşi əl-məmalik* də adlanırdı. Hər bir divanın bir və ya bir neçə münşisi olurdu. Pərvanəçilər başlarına xüsusi kəkil taxırdılar [347, 280; 215, 205]. Ağqoyunlu pərvanəçiləri arasında Əmir Zəngi Şah, Mövlana Fani, Şeyx Nəcməddin Məsut, tanınmış tarixçi İdris Bidlisi və atası, Xoca Müzəffər Memar və Xoca Əfdal Kirmani kimi tanınmış şəxslər vardı [347, 280; 215, 205].

Azərbaycan Ağqoyunlu dövlətində Ali divanla yanaşı, ***Kənqaş*** və ya ***Məşvərət divanı*** (Məşvərət məclisi) da fəaliyyət göstərmişdi. Hökmdar qardaşları, oğlanları, xanımları, tayfa başçıları və ordu başçılarının iştirakı ilə dövlətin mühüm məsələləri ilə bağlı Məşvərət divanı çağırardı. Dövlətin müharibə, sülh və taxta varislik kimi mühüm siyasi məsələləri burada müzakirə olunurdu [204, 185; 74, 105]. Məşvərət divanı hər hansı döyüş qabağı da toplanardı. Əbubəkr Tehranini verdiyi məlumata görə, Qara Osman Qaraqoyunlu İsgəndərin qarşısını almaq məqsədilə dövlət

vəzirlərini, əmirləri, əyanları, sərkərdə və qoşun başçılarını məşvərətə toplamışdı. Keçirilən müzakirələr nəticəsində Əli bəyin təklifi ilə Ərzurumda möhkəmlənməyə qərar verilsə də, Qara Osman bu qərara əməl etməyərək qoşunun azlığına baxmayaraq döyüşə girməyə üstünlük verdi [13, 80; 204, 185].

İ.H.Uzunçarşılı Ağqoyunlu divanlarında maliyyə işləri ilə məşğul olan və ***«mustofi»*** adlanan vəzifəli şəxsin olduğunu göstərir. Qazi İsa Savəcinin atası Şükrullah Uzun Həsənin hakimiyyəti dövründə divanda mustofi (maliyyə vəkili) vəzifəsini tutmuşdu [347, 297; 144, 44]. Qardaşı Sultan Xəlildən sonra Ağqoyunlu taxtında əyləşən Sultan Yaqub tərəfindən dərhal "şah fərmanı" verilir və fərmanda vergilərin ixtisarı öz əksini tapır. Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, divan mustofiləri tərəfindən həmin vergilərdən yığılan gəlir müəyyən edildi və onun ümumi məbləği 70 min tümən oldu və bu məbləğ dərhal ləğv edildi [68, 58; 93, 47].

Türkiyə tarixçiləri Ağqoyunlu dövlətində ***Tuğra*** (Nişan) divanının olduğunu qeyd edirlər [357, 263; 204, 216]. Bu divan hökmdarın ölkənin vilayətləri və qonşu dövlətlərlə əlaqələrini həyata keçirirdi. Əmirlərin təyini, fərman və bəratlar bu divanda hazırlanırdı. K.Paydaşın qeyd etdiyi kimi, İdris Bidlisi Sultan Yaqub, Rüstəm Padşah və Sultan Əlvənd dövründə Ağqoyunlu sarayında nişançı vəzifəsini həyata keçirmişdi [Bax: 287, 216].

İ.H.Uzunçarşılı qeyd edir ki, Ağqoyunlu dövlətində məhkəmə və dini işlərə ***qazılar*** baxırdılar. Ən yüksək dini vəzifə ***«sədr*** və ya ***«sədarət»*** adlanırdı. Sədrin nəzarəti altında məhkəmə və şəriət işlərinə baxan *Sədarət divanı* adlanan məclis fəaliyyət göstərirdi. Vilayətlərdə məhkəmə işlərinə qazılar, dini işlərə müftilər baxırdı. Sədarət divanı mədrəsələrə nəzarət edir və onların təftişini həyata keçirirdi. Uzun Həsənin dövründə Əlaəddin Beyhəqi, Sultan Yaqubun hakimiyyəti illərində isə Qazi İsa Savəci sədr vəzifəsində çalışmışdı [347, 302-303]. Vəqf torpaqlarının bütün məsələləri, qazı, müdərris və ruhani idarələrinin ixtiyarı baş sədrə məxsus idi. Baş sədr həm də seyidlərin, qazıların, möhtəsiblərin, müdərrislərin, daimi xütbə oxuyanların

və mütəvəllilərin işlərinə nəzarət edirdi [144, 40].

I.H.Uzunçarşılı baş sədrin nəzarəti altında məhkəmə və dini işlərə baxan ***Sədarət divanının*** olduğunu qeyd edir. Mədrəsələrin nəzarət və təftişi də Sədarət divanının ixtiyarında idi [347, 303]. Bəzi tədqiqatçılar Azərbaycan Ağqoyunlu dövlətində tutduğu mövqeyə görə, əmirül-üməradan sonrakı yerin Sədrə məxsus olduğunu göstərir [146, 94; 397, 77; 144, 40]. Lakin Ş.Fərzəliyevin qeyd etdiyi kimi, mənbələrdə XV əsr Azərbaycan feodal dövlətlərində vəkilin, vəzirin tutduğu mövqeyin sədrə nisbətən daha üstün olduğu aşkar surətdə nəzərə çarpır və sədrin fəaliyyəti əsasən göstərilmir. Ağqoyunlu sədri Qazi İsa Savəcinin vəkil Sufi Xəlilin fərmanı ilə öldürülməsi sədarət vəzifəsinin XV əsrdə hələ o qədər də möhkəm mövqe tutmadığını göstərir [91, 47-48; 93, 40].

Həsən bəy Rumlu Sultan Yaqub dövründə Ağqoyunlu dövlətinin sədri Qazi İsa Savəcini "sədarət mənsəbi və dini işlər vəzifəsinin sahibi" adlandırırdı [Bax: 43, 599; 93, 40]. Mənbələrin qeyd etdiyi kimi, XV əsrin sonlarında Azərbaycan Ağqoyunlu dövlətində sədrin nüfuzu xeyli güclü olmuşdur. Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci Ağqoyunlu sədri barədə yazırdı: "Qazi İsa Sədrin Yaqub xan dövlətinin təməlinin qoyulmasında əvəzsiz iştirakı olmuşdur. Bütün vəzifə sahiblərinin təyinat və işdən çıxarılmalarında onun sözü həlledici idi. Hakimiyyətin cilovu tamamilə onun əlində idi ... Qazi öz dərəcəsinin əhəmiyyətini olduqca qaldırdı. Onun razılığı olmadan heç bir dini, yaxud dövlət işi həll oluna bilməzdi. Əlahəzrətin (Sultan Yaqub – T.N.) ona münasibətini görən adamların heç biri, heç bir məsələni əvvəlcə qazıya təqdim etmədən həll edə bilməzdi. Buna görə də bütün şahzadələr, əmirlər, qazılar, vəzirlər və əyanlar tamamilə ondan asılı idilər. Zəngin və məşhur adamlar onu salamlamaq, ya da diqqətinə yetməkdən ötrü onun qapısı önündə yığılıb gözləyirdilər. O, nəfsani fəzilətlərlə bəzənən bir adam idi və dinin möhkəmlənməsi yolunda nə hökmdardan, nə də fırıldaqçı adamlardan qorxub çəkinmirdi. O, Peyğəmbərin din bağçasını bəzəmək istəyirdi. Onun əsas

məqsədi Çingiz yasalarının (qanunlarının – T.N.) qaranlıq pərdəsi altında gizlənən mülki işləri qaydaya salmaq idi. Həqiqətən də din çiçəkləndi, qazının məsləhəti ilə üləmalar və ləyaqət sahibləri 1000 tümən və daha artıq məğləb pul ilə mükafatlandırıldılar. Əlahəzrət həmin pulu onlara soyurqal şəklində verirdi. Bu hal 894-cü ilin səfər ayının başlanğıcına qədər (yanvar 1489) davam etdi və Qaraağac qışlağında qazının hakimiyyəti təxminən hökmdarın səlahiyyətlərinə yaxınlaşdı" [68, 104-105; 93, 41]. Lakin, onun istəkləri həyata keçmədi və o, Qarabağda olarkən vəkil Sufi Xəlil tərəfindən öldürüldü [68, 111; 93, 41].

Türkiyə tarixçiləri Uzun Həsəni «ədalətin timsalı və sistemin qoruyucusu» hesab edərək Ağqoyunluların məhkəmə qurumlarına toxunaraq, ***«Cəza divanı»nın***, *baş qazının (Qazı əl-Quzat), qazının, müftinin* və *möhtəsibin* səlahiyyəti barədə ətraflı məlumat vermişlər [Bax: 204, 189-190].

Qazıların başçılıq etdikləri məhkəmələr qəza məhkəmələri adlanırdı. Şəriət və dünyəvi məhkəmələr bir-birini tamamlamış, xalqın şüurunda bilavasitə dinlə bağlı olan nigah, ibadət, ailə, miras, boşanma hüququ üzrə münasibətlər – şəriət məhkəmələri, digər məsələlər isə dövlət məhkəmələri tərəfindən həyata keçirilirdi [93, 69]. Azərbaycan Ağqoyunlu dövlətində məhkəmə (dünyəvi və şəri) qazılar tərəfindən aparılır, müqəssirlər "Yasa" qanununun müvafiq maddələri əsasında cəzalandırılırdılar. Bununla bağlı dövrün mənbəyində deyilirdi: "Oğrular haqqında buyurdum ki, harada olur-olsun, kim onları tutub gətirsə, oğrular Yasanın tələblərinə müvafiq cəzalandırılsınlar" [3, 69; 93, 70]. Qazılar iki yerə ayrılırdı: İslam qazısı, (yaxud şəriət qazısı) və əcrim qazısı ("curm"- günah, "qüsur" mənasındadır). "Əgər biri başqasının dişini sındırsa, gözünü kor etsə, qulaq və burun kəssə, şərab içsə, zina işlər görsə onu tutub divanxanadakı şəriət qazısına, yaxud əhdas qazısına tapşırsınlar. Şəriətə dair məsələlərin həllində hökmü islam qazısi çıxartsın, uruf-adət məsələlərini isə əhdas qazısı araşdırsın, sonra mənə çatdırsın" [3, 69; 93, 70].

İslam dininin ehkamlarına görə, şəriətə əks çıxmaq və ya onun göstərişlərinə əməl etməmək, vəzifəsindən sui-istifadə

etmək, dövlət əmlakını mənimsəmək, adət-ənənələri pozmaq, gizli sələmçiliklə məşğul olmaq, satqınlıq, oğurluq etmək, saxta şahidlik etmək, başqasının əmlakını ələ keçirmək, dövlət sənədlərinə etinasızlıqla yanaşmaq, saxtakarlıqla, rüşvətxorluqla məşğul olmaq, cinayəti gizlətmək, zinakarlıqla məşğul olmaq günah və cinayət hesab olunurdu. Şəriət məhkəmələrinə dövlətin qazı əl-quzatı başçılıq edirdi. Dövlətin bütün dini vəzifələrinin mərkəzi "ölkənin baş qəza təşkilatı" hesab olunurdu. Dövlətin bütün ərazisinə bir nəfər qazı əl-qüzat təyin edilirdi. Qazıların şəriət məhkəmələrindəki səlahiyyətləri çox böyük idi. Külli-ixtiyar sahibi olan qazı, əksər hallarda, məhkəmə prosesində iştirak edən bütün tərəfləri əvəz edir və öz rəyinə uyğun hökm çıxarırdı [148[A], 368-369].

Müsəlman hüququnun əsasında fiqh elmi dururdu. Fiqh ərəbcə "dəqiq anlayış, bilik" mənasını verir. Orta əsrlərdə bu istilah islamın ilk dövrlərində olduğu kimi "şəriət" sözünə bərabər tutulmuşdur. Fiqh müsəlmanların dini və dünyəvi həyatlarını tənzim edən normaları özündə toplayıb, həm ibadətlər, həm də miras, əqdlər, ailə münasibətlərini, edilməli və edilməməli əməlləri qiymətləndirəcək hökmləri, cəza ehkamı, mühakimə üsulları, dövlət təşkilatı və müharibə etmə hüququna dair ehkamları özündə birləşdirir [93, 70].

Qazılar dövrün məhkəmə sisteminin tətbiqində fiqh qanunlarını əldə əsas tutur və yalnız onlara istinad edirdilər. Qazılar fəaliyyətlərini "Qazılıq qanunları kitabı" ("Kitab ədəd əl-qada") ilə tənzimləyirdi və bütün maddi və prosessual normalar bu kitabda toplanmışdı [80, 344, 348; 93, 70].

Hökmdar tərəfindən təyin olunan qazı iman əhli olub xalqı ədalətlə mühakimə etməli, qanunsuzluğun qarşısını almalı, kimsənin haqqının mənimsənilməsinə, hüququnun tapdanmasına yol verməməlidir. O, öz vəzifəsini şəriətin tələbləri səviyyəsində apara bilmirsə tutduğu vəzifədən azad edilirdi. Qazı işi şahidlərin, iddiaçı və cavabdehlərin, məhkəmə üzvlərinin, məhkəmə xidmətçilərinin iştirakı ilə araşdırır və hökm çıxarırdı [80, 348; 93, 71]. S.Ərşahinin fikrincə, qazının çıxardığı hökm qəti hesab

edilsə də, iddiaçının Sultana şikayət etmək haqqı vardı. Bu məqam verilən qərarın ləğv edilməsini, yaxud da yenidən baxılmasına imkan verirdi [215, 212].

Qazılığın yüksək bilik və peşə vərdişini tələb etməsinin nəticəsidir ki, qazı vəzifəsinə fiqhə yaxından bələd olan, ailəliklə qazılıqla məşğul olanlar təyin edilmişlər [80, 350; 93, 71]. Sədrin təklifi və sultanın razılığı ilə seçilən qazılar yalnız rüşvət almaqda günahlandırılan zaman vəzifədən uzaqlaşdırılırdılar. Müstəqillik statusuna sahib olan qazılar məhkəmə işləri ilə yanaşı, vilayətlərdəki vəzifəli şəxslərin məsləhətçisi, vəqflərə rəhbərlik etmək, fəqirlərə, zəif və yetim varislərə qəyyumluq etmək kimi vəzifələri də yerinə yetirirdilər [215, 212].

Məhkəmə işlərini həyata keçirən qazı haqqında mülahizə yürüdərkən iki qazıdan danışmaq lazımdır. 1. Dövlət və mülki işlərə baxan şəriət qazısı; 2. Hərbi işlərdə qayda-qanun yaradılmasına çalışan qoşun qazısı (qaziyi-ləşkər). Şəriət qazısı yerlərdə mübahisəli məsələlərin həllinə çalışır, qoşun qazısı isə orduda dini iş və təbliğat aparır, günahkar hərbiçiləri mühakimə edirdi [93, 71].

Bacarıq və qabiliyyətlərinə görə bəzi qazılar sədr və vəzir kimi yüksək vəzifələrə layiq görülürdülər. Sultan Yaqub dövründə sədr vəzifəsini Qazi İsa tutmuşdur. Bəzi mühüm məsələlərin həlli üçün qazıların köməyindən istifadə edilirdi. Əbubəkr Tehraninin Qazi Əlaəddin Əli barədə məlumatı diqqəti cəlb edir: "Sahibqran... Seyidlərin qaymağı, qazıların iftixarı, sağlam düşüncə sahibi, kəskin fikirlər yiyəsi, aydın nitqi və güclü məntiqi, zəngin biliyi və təmiz mənəviyyatı sayəsində elçilikdə mahir olan və bu işdə islamın xeyrinə çalışan Qazi Əlaəddin Əlini layiqli hədiyyələrlə Cahanşah Mirzənin yanına göndərdi" [13, 221; 93, 73-74]. Əbubəkr Tehraninin qeyd etdiyi kimi, 1468-ci ildə Teymuri hökmdarı Sultan Əbu Səid Azərbaycana yürüş edən zaman Uzun Həsən qoşun qazısı Əlaəddin Əlini iki dəfə onunla danışıqlara göndərmişdi [13, 254-255; 93, 73].

Əbubəkr Tehrani qazını *"şəriət hakimi"* adlandırır. Qaraqoyunlu Həsənəli üzərində qələbədən sonra Uzun Həsən Təbrizə

gələrək mərhum padşaha məxsus Sahibabad sarayında yerləşdi. “Gəlişinin ikinci günü Təbrizin və onun gəlişini eşidib özünü ora çatdırmış digər şəhərlərin alimlərini və seyidlərini öz hüzuruna dəvət etdi, məmləkət və din işləri ilə məşğul olanlara nəsihətamiz sözlər dedi. Qazıların və şəriət məsələlərinə baxan adamların xəyanəti barədə şikayətlər eşitdiyi üçün qazıları hədələdi və bir neçə gündən sonra onların hamısını işdən azad etdi. Türk möminlərindən biri mənim (Əbubəkr Tehraninin – T.N.) təqdimatım və digər əyanların müdafiəsi ilə şəriət hakimi təyin olundu” [13, 279; 93, 71].

Azərbaycan Ağqoyunlu dövlətində mühüm və çətin məsələlərə aid məsləhətlərin verilməsində və şəriət ehkamları əsasında son qərarların çıxarılmasında islam dini qanunşünasları, hüquqşünasları, ilahiyytçıları sayılan ***müftilər*** əsas rol oynayırdılar. Müftilər məhkəmələrdə də şəriət ehkamlarını izah etməyə borclu idilər. Onlar alim və qazılarla birlikdə həm də dövlətin əsas qanunlarının tərtibində yaxından iştirak edirdilər. Seyfəddin Ərşahin yazır ki, müftinin əsas vəzifəsi fitva vermək və davanın mühakimə üsuluna uyğunluğuna nəzarət etməkdi. Qazılar şikayətçinin haqlı olduğunu sübut etmək üçün müftidən fitva istəyə bilirdi. Hazırda vəkillik sistemində olduğu kimi, müfti seçimi də hər bir şikayətçinin istəyindən asılı idi. Müftilər bir qayda olaraq dövlətdən hər hansı maaş almırdılar. Onlar yerinə yetirdikləri işin qarşılığında tərəflərdən müəyyən haqq alırdılar. Bu, müftilərin rəsmi təzyiqdən uzaq qalmasına şərait yaradırdı [215, 212].

Azərbaycan Ağqoyunlu dövlətlərində böyük yaşayış məntəqələrində ***möhtəsiblik qurumu*** fəaliyyət göstərmişdi. Türkiyə tarixçilərinin fikrincə, möhtəsib xalqın şikayətini dinləmək, dövlət intizamını və ictimai vəziyyəti pozmağa çalışan şəriətdən kənar hərəkətlərin qarşısını almaq, məscidlərdəki vəzifəli şəxslərə nəzarət etmək, müəzzinləri vəzifəyə təyin etmək və yolları düzəltmək kimi vəzifələri həyata keçirirdilər. Onlar həmçinin, bazarlarda ölçü və çəki alətlərinə, qida məhsullarına nəzarət edir, borcluların borcu vaxtında ödəmələrinə və

qonşular arasındakı ixtilafı həll etməyə çalışırdılar [Bax: 215, 213; 204, 190].

Əksər dini vəzifələr kimi möhtəsiblik qurumunda çalışanlar da dövlətdən maaş almırdılar. Onlar əsas ehtiyaclarını əhalidən topladıqları vergilər, möhür basma haqqı və əkinçilərdən aldıqları pul ilə ödəyirdilər. S.Ərşahin dövrün mənbəyinin verdiyi məlumata əsaslanaraq Sultan Xəlil dövründə Təbriz möhtəsibinin Qazi Molla Canı-Bican olduğunu qeyd edir [215 213].

Azərbaycan Ağqoyunlu dövlətində din xadimlərinə və dini şəxsiyyətlərə böyük önəm verilirdi. S.Ərşahin yazır ki, Cəlaləddin Dəvvaninin Fars valisi Sultan Xəlilin 1476-cı ildə həyata keçirdiyi rəsmi orduya baxış tədbirində əmirlər və dini şəxsiyyətlərin mövqeyi ilə bağlı məlumatı diqqəti cəlb edir. "Din və mülk əkiz qardaşdır" prinsipini qəbul edən C.Dəvvani Fars valisi Sultan Xəlilin keçid törənindəki Ağqoyunlu əsgər və əmirlərini maddi ordu, din xadimlərini və tanınmış dini şəxsiyyətləri də mənəvi ordu hesab etmişdir. Sultan Xəlil müqəddəs hisslərin orduya çatması üçün mənəvi ordu adlandırdığı dini şəxsiyyətləri keçid tədbirinə dəvət etmiş və ordunu onların önündən keçirmişdir. Bu tədbirə ölkənin müxtılif yerlərindən 4 min nəfər seyid, qazı, imam, molla və şeyxlər dəvət olunmuşdu. Sultan Xəlil tədbir başlamadan öncə fərman verərək dini şəxslərin dayanacaqları yeri müəyyən etmişdi. Onlar da əllərində Seyid Əhməd bin İmam Musa Rzanın bayraqları ilə keçidi həyata keçirmişdilər [215, 213; 216, 202].

Azərbaycan Ağqoyunlu dövlətində orduya rəhbərliyi hökmdar və şahzadələrdən sonra əmirlər həyata keçirirdi. Ağqoyunlu əmirlərinin əksəriyyəti qoşun başçıları olmuşdur [210, 87; 204, 187]. Əmirlər müharibə zamanı valisi olduqları vilayətin qoşunu ilə hökmdarın ordusuna qatılırdılar. Onlar döyüş vaxtı hökmdarın və ya şahzadələrin əmri altında olurdular. Əbubəkr Tehraninin yazdığına görə, əmirlər arasından ***böyük əmir*** *(əmiri-bozorq, əmiri-kəbir)* ayrılmışdır [50, 75]. Əbubəkr Tehrani Ağqoyunlu Qara Yülük Osman bəyi böyük əmir kimi tədim

edir. O, yazır: "Böyük əmir (Qara Osman – T.H.N.) dövlət vəzirləri, əmirləri, əyanları, sərkərdə və qoşun başçıları ilə İsgəndər Mirzənin qarşısını almaq barədə məşvərət etdi ... Böyük əmir qoşunun azlığına baxmayaraq qabağa keçdi. Tərəflər səflərə düzüldülər, müharibə odu alovlandı. Döyüşün əvvəlində İsgəndərin əmisi oğlu və onun böyük əmirlərindən olan Qılınc Aslan əsir düşdü. Hər iki tərəfdən də çoxlu ölən oldu" [13, 79-80].

Dövrün mənbəsində Azərbaycan Ağqoyunlu dövlətində Uzun Həsənin əmirül-ümərası olan Əmir bəy Mosullu, onun yaxın qohumu Sufi Xəlil Mosullu, Kaşan hakimi Məhəmməd bəy Mosullu, Şahəli bəy Pornək, Sultan Yaqub dövründə Şiraz hakimi olan Mənsur bəy Pornək və başqalarının adı çəkilir [Bax: 6, 22-24].

Azərbaycan Ağqoyunlu dövlətində ***hakimin*** də özünəməxsus yeri var idi. Hökmdarın tabeçiliyində olan olkə, vilayət və şəhərlər hakimlər tərəfindən idarə olunurdu. Onlar xüsusi fərmanla məşhur əmirlərdən təyin edilirdi. İsmayıl Aka Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsən Teymuri sultanı Əbu Səid üzərində qələbə qazandıqdan sonra müxtəlif bölgələrə hakimlər təyin etdi: Yaqub Ağa İsfahana, Əmir Zahirəddin İbrahimşah Yəzdə, Həsən Çələbi Qəzvinə, Əmir Zeynalabdin bəy Taroma, Yar Əli Sultaniyyəyə, Dara bəy Reyə, Cahangir bəy Savəyə, Səadət Yaşar bəy Kaşana, Gavərudlu Pir Hacı bəyin oğlanları Şah Məhəmməd bəy və Cahangirşah Həmədana hakim təyin olundular [169, 82].

Hakimlər xəzinəyə hər il müəyyən miqdar vergi verir, hökmdara vaxtaşırı hədiyyə göndərir və müharibə vaxtı əsgəri qüvvə ilə kömək edirdilər. Hakimlərin ən mühüm xüsusiyyəti onların hərbi qüvvələrə başçılıq etmələrində idi. Hakim bəzən əlindən çıxarılan əyaləti "böyük xərclə" geri alırdı ki, bu da hakimin hakimiyyəti əlindən verməmək ehtirasını göstərir [93, 43]. Dövrün mənbələrində inzibati cəhətdən tutduqları yerə görə hakimlər – vilayət, şəhər və qala hakimlərinə bölünmüşlər. Sonunculara "kutval" da deyilirdi. Bəzən kutval və darğa eyni şəxs ola bilirdi [215, 207; 216, 208].

Təyin olunduğu yerə gedən hakim özü ilə sultanın təsdiq edib ona verdiyi hökm sənədini – "nişan"ı aparırdı. Nişanda adı göstərilən yerin ona çatdığı yazılır, əhalidən hakimi peşkəşlə qarşılaması, qala və xəzinə açarlarının təqdim edilməsi və ona sözsüz itaət olunması yazılırdı [93, 43].

Ş.Fərzəliyevin qeyd etdiyi kimi, hakimə "darğa" da deyilmişdir ki, işləndiyi məna baxımından hakim və darğa sözləri bir-biri ilə qarışdırılmamalıdır. XV əsr Azərbaycan dövlətlərində hər iki istilah təqribən eyni şəxsə mənsub olmuşdur, yəni o zaman doğrudan da müəyyən inzibati ərazini idarə edən şəxsə həm hakim, həm də darğa deyilmişdir [93, 44]. "Qızılbaşlar tarixi"nin anonim müəllifi də "darğa" və "hakim" istilahlarını eyniləşdirir. O, yazır: "Həsən bəy (Uzun Həsən – T.N.) qışda Muğanda qışladı və bütün İraqa və Azərbaycana darğalar göndərdi" [6, 8; 93, 43].

***"Darğa"*** istilahı hakim mənasında işləndikdə hakimin rütbəsi, yəni onun hakim olması dərhal nəzəri cəlb edir. Bunun əksinə olaraq "darğa" istilahı dar mənada işlənərkən bu darğanın əmirlik olmadığı aydınlaşır. Həsən bəy Rumlunun verdiyi məlumata görə, 1499-cu ildə taxt-tac uğrunda Sultan Muradla Məhəmmədi Mirzə arasında baş verən döyüşdə sultanın döyüş bayrağı düşmüşdü. Pəhləvan Şahi adlı döyüşçü cəld həmin bayrağı qaldıraraq geri qaçmaqda olan Sultan Murad döyüşçülərini qaytardı və onlar yenidən həmin bayrağın altında toplaşdılar. Döyüş onların qələbəsi ilə bitdikdən sonra Sultan Murad döyüşçüləri ruhlandıran Pəhləvan Şahiyə kəndinin darğalığını verdi. Camaat ondan nə üçün Sultan Muraddan əmirlik istəmədiyini soruşduqda o, cavab vermişdi: "Atam o kəndin əkinçisi idi, mən isə darğası olmuşam" [44, 32-33; 93, 44-45]. Ş.Fərzəliyev yazır ki, 1500-cü ildə Bakı qalasının hakimi şahzadə Qazi bəyin arvadı, darğası isə Əbülfattah bəyin olması hakim və darğa vəzifələrinin eyni olmadığını göstərir. Hakimlərin öz idarə aparatı – sədri, vəziri və qoşunu olurdu [93, 45].

Elxanilər və Teymurilər dövlətində olduğu kimi, Azərbaycan Ağqoyunlu dövlətində də ***«dərgah»*** və ya ***«dövlətxana»***

adlanan saray təşkilatı var idi. Elxanilər dövründə mövcud olan *«inak», «rikabdar», «bukavul», «əmiraxur», «ayaqçı»* və sair istilahlara Azərbaycan Ağqoyunlu dövlətində də təsadüf edilir [347, 293-294; 287, 214; 144, 38]. Ağqoyunlu Sultan Xəlilin sarayında ***yasavul*** *(mühafizə məmuru),* ***çaşnigir*** *(aşxana müdiri),* ***quşçu, parsçı, piyadə, rikabdar*** *(bəbirçi) (heyvanların yeminə baxan),* ***yamçı*** *(əsgərlərin keçəcəyi yolu göstərir),* ***inak, məşəldar*** *(məşəl tutan),* ***nağaraçı, mətbəxe-humayun xadimləri, şirəçi*** *(şərabdar),* ***fərraş, kitabxana xadimləri, musiqi heyəti, ayaqçı, cərrah, carçı, qalabəyi, eşikağası və qapıçı*** vəzifələrindən ibarət böyük bir heyətin olduğu qeyd olunur [347, 293-294; 144, 38; 287, 214-215].

İ.H.Uzunçarşılı Cəlaləddin Dəvvaninin "Ərznamə" əsərinə əsaslanaraq yazır ki, Fars valisi Sultan Xəlilin ordu üçün təşkil etdiyi keçid tədbirində 186 yasavul, 244 bukavul, 86 quşçu, 28 parsçı, 378 piyadə, 186 əzab, 50 nağaraçı, 34 rikabdar, 38 yamçı, 26 məşəldar, 28 feyc, 72 mətbəxt xidmətçisi, 110 fərraş, 58 kitabxana xidmətçisi, 98 musiqiçi, 56 carçı, 36 şərabdar, 168 xüsusi tövlə xidmətçisi və 86 sənətkar iştirak etmişdi. [347, 293, qeyd 4; 215, 203; 216, 206].

***Yasavullar*** sultanın buyruğunu yerinə yetirən məmur kimi mühafizə xidmətini həyata keçirirdi. O, həmçinin sarayın mühafizəsini, divanbəyi məhkəmə kürsüsündə olan zaman səssizliyi təmin edir və malların müsadirəsini həyata keçirirdi [204, 180]. Yasavullar hərbi yürüşlər dövründə və döyüş anlarında bütün hərbi birləşmələr və hissələr üçün döyüş yerlərini müəyyənləşdirir, əmirləri və döyüşçüləri həmin yerə gətirir, onların öz mövqelərini tərk etməmələrinə nəzarət edirdilər. Döyüşə hazırlıq görülərkən, yeni hərbi hissələr təşkil olunarkən xüsusi yasavullar təyin olunurdu. Yasavullar yürüş zamanı hərbi hissənin önündə və hər iki cinahında gedir, əsgərlərin nizamlı və ahəngdar hərəkətini təmin edirdilər [148[a], 324].

İ.H.Uzunçarşılının fikrincə, Ağqoyunlularda ***eşikağası*** və ***qapıçı*** adlanan məmurlar var idi. Eşikağasına qapıçıbaşı da deyilirdi, qapıçı onun yanında xidmət edirdi. Eşikağası Məşvərət

məclisin yığıncaqlarında, sultanın əhali ilə olan əlaqə tədbirinin əsas cavabdehlərindən biri idi. O, eyni zamanda sarayın qorunmasına, saraya giriş və çıxışlara nəzarət edir, saray qapılarına nəzarət edən mühafizəçiləri yerləşdirirdi [347, 275; 204, 181].

Ağqoyunlu hökmdarları ovda olan zaman onun yanında ov itləri və quşlara xidmət göstərən ***quşçu*** və ***parsçılar*** olurdu. İ.H.Uzunçzrşılı yazır ki, əksər türk dövlətlərində olduğu kimi Ağqoyunlu dövlətində də ov mərasiminə xüsusi önəm verildiyi üçün saray xidmətçiləri arasında quşçu və parsçılar da yer almışdılar [346, 274; 204, 181]. Yuxarıda qeyd etdiyimiz kimi, Fars valisi olan şahzadə Sultan Xəlilin təşkil etdiyi keçid törənində 86 quşçu və 28 parsçı iştirak etmişdi. Parsçılar pələng ovu zamanı Sultanın xidmətində dururdular [216, 206; 204, 182].

Saray xidmətçiləri olan ***fərraşlar*** saray otaqlarının döşənməsini və eləcə də ziyafət tədbirlərinin keçirilməsi zamanı çadırların döşənməsini həyata keçirirdilər. Əbubəkr Tehrani Uzun Həsənin oğlanları Sultan Xəlil, Məhəmməd və Zeynalın sünnəti üçün təşkil etdiyi ziyafət barədə yazır: "Əvvəla səltənət baharının fidanları və möhtəşəm atalarının gözlərinin işığı olan xöşbəxt övladları Sultan Xəlil Mirzəni, Məhəmməd bəyi və Zeynal Mirzəni ... sünnət etdirdi və böyük bir toy məclisi qurdu. Bir neşə gün ərzində bu işə baxan adamlar həmən xöşbəxt məclis üçün lazım olan şeyləri tədarük edib növbənöv yeməklər hazırladılar. Səltənətin pənahı olan və fələyə ucalan sarayın fərraşları bu məclisi naxışlı döşənəcəklərlə və al-əlvan çadırlarla bəzədilər" [13, 135; 204, 181].

Kazım Paydaşın fikrincə, hökmdarın saray mətbəxində çalışan, yeməklərin dadına baxan və onlara zərərli şeylərin qatılmamasına nəzarət edən məmur ***bukavul*** və ya ***çaşnigir*** adlanırdı. [287, 214-215].

Azərbaycan Ağqoyunlu dövlətində tanınmış saray nümayəndələrindən biri də ***möhürdar*** olmuşdur. Möhürdar hökmdarın və əyalətlərdə də valinin möhürlərini qoruyan şəxsə deyilirdi. Onun sənədlərə vurduğu möhür hökmdarın imzası demək idi. Zərurət olduqda möhürdar hərbi səfərlərdə də iştirak edir,

şəxsən döyüşürdü [216, 206; 93, 45]. Əbubəkr Tehrani Ağqoyunlu möhürdarları barədə məlumat verir. O, Ağqoyunlu möhürdarlarını əsasən döyüşlərdə təsvir edir: "Sahibqran ... yenə Şeyx Əli Möhürdarı və İnaq Xəlilin oğlu Sultan Əhmədi kəşfiyata göndərdi" [13, 112].

Dövrün mənbəyinin verdiyi məlumatdan aydın olur ki, möhürdarlar bir əsgər kimi düşmənə qarşı mübarizədə ordunun sıravi üzvü kimi yaxından iştirak etmişdilər. Əbubəkr Tehrani Qaraqoyunlu əmiri Rüstəm Tərxanla Uzun Həsən arasında baş verən döyüşdə Şeyx Əli Möhürdarın iştirakını belə təsvir edir: "Rüstəm Sahibqranı (Uzun Həsənin – T.N.) zəif və taqətsiz görüb fürsəti qənimət bilərək qaçdı. Özünü Sahibqranın hücumundan qurtardı. Şeyx Əli Möhürdar Kor Hüseynə arxadan bir qılınc zərbəsi endirdi, onu əsir tutdu, Xəlil bəy isə ona bir qılınc vurdu. Sonra Rüstəm Şeyx Əlinin arxasından yetişdi və bir nizə vurdu. İki nəfəri atdan saldı. Bu zaman Məhmad bəy Sahibqranın arxasından gəldi, onun mübarək üzündən oxu çıxartdı. Şeyx Əli Möhürdar atdan düşdü. O, yaralı idi, qalxmağa taqəti yox idi. Sahibqran Sincboz adlı ata minmişdi. Sahibqran həmin atı Şeyx Əli Möhürdara verdi" [13, 123]. Müəllif Mardin ətrafında baş verən döyüşü təsvir edərək yazır: "Müzəffər ordunun bahadırlarından olan Şeyx Əli Möhürdar əksər döyüşlərdə olduğu kimi bu döyüşdə də mərdlik və cəsarət nümunəsi göstərib yeddi dəfə düşmənə qalib gəldi, yaxşı işlər görüb uğurlu vuruşlar etdi" [13, 139-140; 93, 45]. Ş.Fərzəliyev Həsən bəy Rumlunun verdiyi məlumata əsaslanaraq yazır ki, möhürdarın möhürü "böyük möhür" adlanırdı [91, 63; 93, 45].

Geo-siyasi və strateji baxımdan dünyanın ən önəmli və çətin bölgələrindən birinə hakim olan, dini, etnik və mədəni baxımdan ciddi şəkildə fərqlənən ərazilərdəki xalqları birləşdirən Azərbaycan Ağqoyunlulu dövləti güclü ordu yaratmağa çalışmışdı. Xüsusən də, Uzun Həsən dövründə Ağqoyunlu ordusu daha da gücləndirilmişdi.

Azərbaycan Ağqoyunlu dövlətində ***ordu*** sarayın ixtiyarındakı qoşundan və ayrı-ayrı vilayətlərdən toplanan döyüşçü dəs-

tələrindən *(çərik)* ibarət idi ki, onlara əsasən gəldikləri yerlərin tayfa başçıları rəhbərlik edirdi. ***"Xassə əsgərləri"*** deyilən döyüşçü dəstələrinə (şahın tabeliyindəki əsgərlərə) illik maaş verildiyi halda, çəriklərə yalnız onlar döyüşə çağırıldıqdan sonra pul ödənilirdi [357, 266; 93, 51].

Azərbaycan Ağqoyunlu dövlətində də orduda əsgərlərin ən mühüm qrupu *"xassa əsgərləri"* adlanırdı. Bunlar Ağqoyunlu mərkəz ordusunun özəyini təşkil edirdi. Ağqoyunlularda sultanın, şahzadə və əmirlərin xassə əsgərləri var idi. Dövrün mənbələrində Qara Osmanın oğlu İbrahim bəyin 30-a qədər xassə əsgəri olduğu qeyd olunur. Daha sonrakı dövrlərdə dövlət möhkəmləndikcə onların sayı da artmışdı. Uzun Həsən dövründə onların sayı artıq 32 minə çatmışdı. Şahzadələrin sərancamında 4 minə yaxın xassə əsgəri mövcud olmuşdur [205, 27; 210, 60].

Mənbələrdə ordu sözü *«ləşgər», «qoşun»,* ordunu təşkil edən əsgərlər isə *«mülazim, əsgər, qulluqçu, nökər, dilavər»* adlanmışlar [91, 68]. İ.H.Uzunçarşılının fikrincə, Ağqoyunlularda ordu quruculuğu və hərbi istilahlar tamamilə Elxanilərdə olduğu kimi idi [347, 305]. Ağqoyunlu hökmdarlarının bilavasitə mühafizəsi ilə məşğul olan alaylara ***qorçilər*** *(qoruyucular)* deyilirdi [347, 304].

Qorçi dəstələri hökmdarı qoruyan və daim onun keşiyini çəkən etibarlı alaylar olmuşdur ki, onun üzvləri əsasən əmirzadələrdən seçilirdi. V.F.Minorskinin yazdığına görə, qorçilər başqa döyüşçülərdən fərqlənməkdən ötrü uzun bığ saxlayırdılar. Müharibə vaxtı qorçi dəstələri çox vaxt ehtiyatda qalır, yalnız ən çətin anlarda döyüşə çıxarılırdılar [Bax: 210, 61; 91, 66].

Müharibə gözlənilən vaxt yerlərə cəlbedici məktublar göndərib, ənam vəd edilir və beləliklə, qoşun toplanışı sürətləndirilirdi. Həsən bəy Rumlu bu barədə yazır: "Yaqub Padşah ətrafdakı əmirlərə, sultanlara və hakimlərə könülaçıcı məktublar göndərərək onların hər birinə layiq nemət və ənam vəd edirdi. Ərciş çayının sahilinə gələn zaman yüksək məqamlı əmirlər ordugaha gəldilər" [43, 548; 91, 69]. Müharibə baş tutmadıqda, tərəflər arasında müəyyən razılıq əldə edildikdə sülhnamə tərtib

olunurdu.

Məğlubiyyətə uğrayan tərəfin məşhur əmirlərinin qalib tərəfə cəlb edilməsi üçün nəvazişnamələr yazılırdı. Həsən bəy Rumlu Həsən Padşahın Qaraqoyunlu Cahanşah üzərində qələbəsindən sonra "... elçiləri nəvazişnamələr ilə Cahanşahın əmirlərinə, şəhər və qalaların darğalarına, Bağdad vilayətinə göndərib onları yanına çağırdığını qeyd edir" [43, 442].

Bir qayda olaraq, döyüşə gedən ordunun başında hökmdarın özü dururdu. Azərbaycan Ağqoyunlu dövlətində ordunun ən yuxarı zümrəsini hökmdarla bir tayfadan olan əmirlər təşkil edirdi. Ağqoyunlularda Bayandurilər yüksək toxunulmazlıq hüququna və müstəsna səlahiyyətlərə malik idilər [93, 45]. M.X.Yınançın fikrincə, Ağqoyunlularda Bayanduri bəylərinə *"boy bəyləri",* əsgərlərinə isə *"boy nökərləri"* deyirdilər [357, 266; 210, 61]. İ.Erdəm Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Ağqoyunlularda ***"nökərlər"*** əsgəri termin olub bəyin yaxını və silahdaşı mənasını verirdi. Şübhəsəz ki, bəy əmri altında olan nökərlərin (əsgərlərin) iaşəsi, qorunması və silahlarla təmin olunmasına cavabdeh idi. Ağqoyunlularda Qara Osmanın əsgərləri arasında ilk olaraq Yağmur bəy Döğərin adı çəkilir [210, 60].

Dövrün mənbələrində dövlətin əsas qüvvəsi olan əmirlər zümrəsinin tutduğu mövqe ***"əmarət"*** adlanmış, əmirlər isə ***"əzəmətli"*** əmirlər adlanmışdır. İ.Erdəm C.Dəvvaninin verdiyi məlumata əsaslanaraq yazır ki, Ağqoyunlu əmirləri arasında ***"Böyük əmir"*** titulu daşıyan əmirlər olmuşdur. Əmirlərin ixtiyarında xassə qüvvələri olmuşdu. Ağqoyunlu hərbi təşkilatında səlahiyyətinə və nüfuzuna görə hökmdardan və şahzadələrdən sonra əmirlər gəlirdi. Əmirlər dinc dövrdə hökmdarın adından təyin olunduğu əyalətin idarə olunmasını həyata keçirirdi. Müharibə zamanı isə onlar valisi olduğu bölgənin ordusu ilə hökmdarın qüvvələrinə birləşirdilər [205, 25].

Əmirlər əllərində soyurqal və böyük imtiyaza malik olan böyük əmirlər və kiçik əmirlərə bölünürdü. İ.H.Uzunçarşılı yazır ki, böyük əmir Sufi Xəlil Sultan Yaqubun oğlu Baysunqur

Mirzənin tərbiyəçisi təyin edilmiş və şahzadəyə Fars əyaləti verilmişdi [347, 292].

Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin əmirül-ümərası olan Əmir bəy Mosullu da böyük əmir titulu daşımışdı. Onun oğlu Gülabi bəy də böyük əmir idi. Yuxarıda qeyd etdiyimiz kimi, Sultan Yaqub dövründə böyük qüdrətə malik olan məşhur Sufi Xəlil Mosullu da böyük əmir olmuşdu [6, 12; 93, 62-63].

Ş.Fərzəliyevin qeyd etdiyi kimi *"kiçik əmirlər"* zümrəsinə daxil olan əmirlər *"ordu əmirləri"* də adlanırdı. Onlar müxtəlif qoşun dəstələrinə başçılıq edən əmirlər olmuşlar. Sərhədləri qoruyan əmirlər də "kiçik əmirlər" zümrəsinə daxil idilər [93, 63].

Müharibə gözlənilən təqdirdə tabeliyindəki vilayətlərə gedərək hərbi qüvvə toplayan və ayrı-ayrı hərbi dəstələr arasında əlaqə yaradan əmirlər ***təvaçi*** adlanırdı. Onlar döyüşçüləri səfərbər edir, ordunun yerini bildirir, döyüşçülərin sayını özünün *«təvaçi dəftərinə»* qeyd edirdi. Təvaçilərin mühüm vəzifələrindən biri də orduda təftiş və yoxlama aparmaq idi [346, 206; 347, 305-306; 205, 26; 91, 70].

Şərəfəddin Əli Yəzdi Əmir Teymurun İrana yürüşə qərar verməsini təsvir edərək yazır: "Pələng ilinə uyğun gələn h.788-ci ildə (2.II.1386-21.I.1387) Sahibqran həzrətləri İrana yürüş barədə qərara gəldi və dünya şöhrətli yarlıq verdi ki, təvaçilər qələbə əzmli qoşun toplamaqla məşğul olsunlar. Fərmana görə qoşun hissələri ətraf ərazilərdən və tərəflərdən dərgaha üz tutub gəldilər" [16, 30; 93, 65].

Əbubəkr Tehraninin verdiyi məlumata görə, təvaçi vəzifəsi XV əsrin ikinci yarısında əhəmiyyətli dövlət vəzifələrindən biri olmuşdur. Dövrün qaynağı təsdiq edir ki, Sultan Xəlillə qardaşı Yaqub arasındakı mübarizədə qələbə qazanaraq Təbriz taxtını ələ keçirən Sultan Yaqubu düşündürən ən mühüm məsələ "böyük əmirlər" zümrəsinə daxil olan Mihmad bəy Alpaut və Qara Məlik Təvaçinin öldürülməsi nəticəsində dövlət işlərinin pozuması olmuşdu [68, 55]

Qeyd etmək lazımdır ki, Fəzlullah Xunci "təvaçi" və "bukavul" vəzifəsi daşıyan əmirləri təxminən eyni cür səciyyələndirir. Uzun Həsənin ölümündən sonra hakimiyyətə gələn Sultan Xəlil qardaşı Yaqubu Diyarbəkrə yollayır. Yaqub Təbrizdən çıxan kimi şiddətli qar yağmağa başlayır və şahzadənin hərəkəti çətinləşir. Diyarbəkrə çatmağa 5 fərsəx qalmış qar elə qalınlaşır ki, Fəzlullah Xunciyə görə, "hətta iki qar divarı arası ilə gedən dəvələrin başları belə görünmürdü". Belə şəraitdə yolun təmizlənməsindən ötrü məhz təvaçi əsgərləri səfərbər edilir [68, 46]. Fəzlullah Xunci əsərinin digər bir yerində oxşar vəziyyətin yarandığından bəhs edərək yazır: "Yaqub Təbrizə hücuma yollananda Diyarbəkri tərk edərək "it yolu" adlanan yoldan keçib Muşa gəlməli olur. Bu yol çox çətin keçilən bir yoldur və buna görə də bukavullara qoşunun keçidini təmin etməkdən ötrü əmr verilir" [68, 51; 93, 66]. Dövrün mənbəyinin verdiyi məlumatdan aydın olur ki, təvaçi və bukavul vəzifələri məzmun baxımından bir-birinə çox yaxın olmuşdur.

İ.H.Uzunçarşılı ***təvaçi divanının*** olduğunu qeyd edir [346, 206; 347, 305-306; 91, 70]. Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə, Uzun Həsənin dövründə Hüseyn bəy Hacılı təvaçi divanının əmiri olmuş, sonra isə Sultan Xəlilin lələsi təyin olunmuşdu [68, 47]. İ.H.Uzunçarşılı Sultan Yaqub dövründə Cəlaləddin Həsən bəyin pərvanəçilikdən təvaçi divanına əmir təyin olunduğunu qeyd edir [346, 306]. Lakin Fəzlullah İbn Ruzbihan Xuncinin verdiyi məlumatdan aydın olur ki, Sultan Yaqub dövründə Cəlaləddin Həsənəli bəy Nizaməddin Qulu bəylə birlikdə pərvanəçi vəzifəsindən təvaçi divanına deyil, pərvanəçi divanına əmir təyin olmunmuşdur [68, 114].

S.Ərşahin C.Dəvvaninin verdiyi məlumata əsaslanaraq yazır ki, təvaçilər ordunun rəsmi keçid törənini təşkil etməklə yanaşı, həm də fəth olunan yerlərdə ələ keçirilən əşyaların qeydiyatını aparırdılar [215, 217]. Sultan Yaqub Gürcüstana yürüşü zamanı fəth etdiyi qalalardan ələ keçirilən əşyaları təvaçi və divan məmurlarına saydırıb xəzinəyə daxil etdirmişdi [Bax: 347, 306; 215, 217]. Təvaçilər eyni zamanda ordunun təftişini

həyata keçirirdilər. Təvaçilər ordunun rəsmi keçid törənlərində yüksək səslə keçidi sultana elan edirdilər. 1474-cü ildə Fars valisi şahzadə Sultan Xəlilə ordunun rəsmi keçidində bunu təvaçilər həyata keçirmişdilər [Bax: 205, 89; 215, 217-218]. Təvaçilərdə əsgərlərin sayı, adı və tutduğu mövqenin yazıldığı təvaçi dəftərləri olurdu [Bax: 347, 305-306; 205, 26; 215, 218]. Uzun Həsənin əmirlərindən təvaçi adını daşıyanlar arasında Mirzə Məhəmməd Təvaçi, Xəlil Təvaçi, Yusif bəy Təvaçi və Qara Məlik Təvaçi kimi şəxslər olmuşdur [Bax: 347, 305; 215, 218].

Ağqoyunlu ordularında minik heyvanlarına nəzarət və nəqliyyat məsələlərinə rəhbərlik etmək ***əmiraxurun*** öhdəsinə düşürdü. Qoşunun əsas minik vasitəsi olan at ilxılarının ümumi sayı haqqında hökmən əmiraxurun məlumatı olmalı idi. Döyüş zamanı ordu ilə hərəkət edən əmiraxurlar da döyüşürdülər. Əbubəkr Tehrani Uzun Həsənin əmiraxurunun fəaliyyəti barədə yazır: " ... Qasım Əmiraxurun başçılıq etdiyi qoşun Nəsibin və Mardinin bəzi yerlərini qarət edib geri döndü" [13, 130; 93, 68].

İ.H.Uzunçarşılı Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ordunun sağ cinahının - *«bərənğar»,* sol cinahının - *«cəvanğar»* və mərkəz hissəsinin - *«uluğ»* adlandığını və müharibə zamanı mərkəz hissədən önə göndərilən qoşuna *«mənqəlay»* deyildiyini qeyd edir [347, 307; 210, 62]. Lakin Fəzlullah ibn Ruzbihan Xunci öz əsərində ordunun mərkəz hissəsinin həm də *«qul»* adlandığını göstərir [68, 54]. İ.H.Uzunçarşılı Ağqoyunlu ordusunda ***çərxçi*** və ***muçi*** dəstələrinin mövcudluğu haqqında bəhs etmir. Ş.F.Fərzəliyev də ilk tədqiqatlarında Ağqoyunlu qoşununda «çərxçi» və «muçi» istilahının olmadığını və onların Səfəvilər dövründə yarandığını bildirir [Bax: 91, 54]. Lakin o, yeni tədqiqatında bu barədə yazır: "Biz vaxtı ilə "muçi" istilahı ilə məşğul olaraq onun Səfəvilər dövründə yarandığını ehtimal etmiş və XV əsr hadisələrinin təsvirində muçi dəstələri haqqında məlumata təsadüf etmədiyimizi yazmışdıq. O vaxt bu doğrudanda belə idi və bizim əlimizdə Fəzlullah Xuncinin "Tarixi-alamarayi-Əmini" kimi qiymətli mənbəyi yox idi" [93, 56].

Fəzlullah ibn Ruzbehan Xuncinin məlumatına görə, 1478-ci il iyulun 15-də Sultan Xəlillə Yaqub arasında baş vermiş döyüşdə çərxçi və muçi dəstələri iştirak etmişdi. O, yazır: "Xəlil qoşununun mənqəlay hissəsinin adlı-sanlı rəhbərləri də çərxçilərin dəf olunmalarında iştirak edirdilər. Onlar çərxçiləri muçi əmirlərinə tərəf – Həsənəli ibn Şeyx Əli Möhürdara, Hüseyn bəy Qaramaniyə, Seydi Əhməd bəy Pornəka və Şahməhəmməd bəy Düharlıya tərəf sıxışdırdılar. Xəlilin mənqəlayındakı əmirlər muçi əmirlərindən iki dəfə güclü olduqlarından onlar muçi əmirlərini geriyə qaytardılar" [68, 53-54; 93, 56]. Bu bir daha göstərir ki, Ağqoyunlu ordusunda çərxçi dəstələri ilə yanaşı, muçi əmirləri adlanan xüsusi dəstələr də mövcud olmuşdur. Minorskinin fikrincə, "çərxçi" ilk təşəbbüs göstərən, ilk başlayan anlamını verir, "muçi" isə mənqəlay arxasındakı ehtiyat əsgərlərinə verilən ad olmuşdur [Bax: 68, 128].

Ağqoyunlularda hassa ordusunun əsgəri hissəsi: ***puşandarlardan*** *– ağır silahlanmış, zirehli süvarilərdən*, ***tirkəşbəndlərdən*** *– ox atanlardan və qulluqçulardan* ibarət olurdu [205, 28]. Puşandarlar dövrəsi gümüş və ya qızıl suyuna çəkilmiş xırda lövhəciklərdən düzəlmiş zirehli paltarlar geyirdilər. Tirkəşbəndlər isə möhkəm dəri paltarlar geyirdilər ki, bunları nə qılınc zərbəsi kəsə bilir, nə də ox deşə bilirdi [146, 95; 398, 79-80]. İ.Erdəm Ağqoyunlu hökmdarının xidmətində olan qulluqçular arasında *yasavullar, bukavullar, quşçular, parsçılar, əzablar, rikabdarlar, yamçılar, məşəlçilər, aşbazlar, çobanlar, kitabxana xidmətçiləri və sənətkarların* olduğunu qeyd edir [205, 28].

İ.H.Uzunçarşılı Ağqoyunlu ordusunun *zireh, nizə, qılınc, şeşbər (altı dilimli toppuz), xəncər, ox, kaman və kürzlə* silahlandığını qeyd edir [346, 309; 205, 60]. Dövrün mənbəyinin verdiyi məlumata görə Ağqoyunlu ordusunda *top, tüfəng, qaladağıdan silahlar – rəadə və mancaqlardan* da istifadə olunmuşdur [68, 53, 67, 103; 347, 308; 93, 68].

İ.H.Uzunçarşılının fikrincə, Ağqoyunlu ordusunda top və tüfəngdən də istifadə olunmuşdur. Sultan Xəlillə qardaşı Yaqub arasında baş verən döyüşdə top və tüfəng işlədildiyi kimi, Sultan

Yaqubun Gürcüstana hərbi yürüşü zamanı Axalsıkın mühasirəsində də topdan istifadə olunmuşdur [347, 308]. İ.H. Uzunçarşılının bu fikrini dövrün mənbəsi də təsdiq edir. Fəzlullah ibn Ruzbehan Xunci 1478-ci ilin yayında Sultan Xəlillə Yaqub Mirzə arasında baş verən döyüşdə odlu silahlardan istifadə olunduğunu qeyd edir. O, yazır: "Sultan Xəlil döyüşə başladı. O, mənqəlayı Şərəfəddin Osman Miranşahiyə, Şah Əli Pornəka və Xəlil bəy Sufiyə tapşırdı. Əvvəlcə Yaqubun çərxçiləri hücuma keçdilər və Xəlilin artileriyasına kimi irəlilədilər. Lakin Xəlil qoşununun mərkəzi hissəsini (qəlb) top və tüfənglərlə möhkəmləndirdiyindən topçular çərxçiləri öz atəşləri ilə pərən-pərən saldılar" [68, 53; 93, 55].

Azərbaycan Ağqoyunlu orduları döyüşə başlamazdan əvvəl ordunun ***"qarovul"*** adlanan müəyyən dəstəsi kəşfiyyata çıxır və bu dəstəyə məşhur əmirlər rəhbərlik edirdi. Qaravulun vəzifəsi düşmənin hərbi qüdrət və vəziyyətini öyrənmək və mümkün olduqda əsir ələ keçirib geri qayıtmaq idi ki, bu əməliyyat mənbələrdə "dil tutmaq" adlanmışdır [91, 70; 93, 55].

İ.H.Uzunçarşlılı orduda ***təbil, nağara, böyük nağara, nəfir, zurnadan ibarət təbilxana və nağaraçılar heyətinin*** olduğunu da qeyd edir [347, 309]. Hücum vaxtı ***kərənay*** *(uzun zurna),* qələbə qazanılanda isə ***nağara*** səsləndirilirdi. İ.H.Uzunçarşılı Otluqbeli döyüşündən sonra Sultan II Mehmedin qələbə münasibətilə göndərdiyi "Yarlığı"nda Ağqoyunlu şahzadələrinin adı çəkilən zaman sancaq və təbilxana, əmirlərin adları çəkilən zaman sancaq və nağara qeyd edilmişdir [347, 308, qeyd 3.].

İ.H.Uznçarşılının fıkrincə, Ağqoyunlu ordusunun say tərkibi 100 min nəfər olmuşdur [347, 310-311]. M.X.Yınanç Uzun Həsənin şəxsi qoşununun 30 min olduğunu qeyd edir [357, 265]. İ.H.Uzunçarşılıya görə, Uzun Həsənin daimi maaş alan şəxsi qoşunu 32 mindən çox olmuşdur [346, 207].

Müxtəlif müəlliflərin məlumatını müqayisə edərək V.Minorski güman edir ki, Uzun Həsənin şəxsi qoşunu 25 min süvari və 10 min piyadadan ibarət olmuşdur. Vilayət canişinlərinin qeyri-nizami qoşunları, habelə - silahlı və silahsız qulluqçular da

buraya əlavə edildikdə bu qoşunun sayı 100 min nəfərə çatırdı [Bax: 210, 62; 146, 96]. İ.Erdəmin fikrincə Uzun Həsən dövründə Ağqoyunlu ordusunun sayı 70 minlə 100 min arasında dəyişirdi [210, 62] .

Uzun Həsənin oğlu Uğurlu Məhəmmədin qiyamını yatırmaq üçün topladığı qoşunun sayı barədə həmin dövrdə Ağqoyunlu sarayında olan Venesiya diplomatı İ.Barbaronun verdiyi məlumat xüsusi maraq doğurur. O, yazır: “Şahı şəxsən ləyaqətli adamlar müşayiət edir və xidmətində dururlar... Bu arada əsgər və heyvanların miqdarını saymağa başladılar. Amma bizdə olan qayda-qanunun əksinə olaraq, adamların sayını səbt etmək və atları dağlamaqla məşğul olmadılar. Onlar yalnız qoşun başçılarını yanlarına çağırır, ixtiyarlarındakı döyüşçülərin sayının düzgün olub-olmadığını soruşurlar ... Mən öz xidmətçimlə onların arasından keçdim və paxla hesabı ilə qoşunu saymağa girişdim. Hər əlli nəfəri saydıqdan sonra cibimə bir paxla salırdım. Baxış sona çatdıqda hesablayıb əsgər və heyvanların sayını aşağıdakı kimi müəyyən etdim:

Çadırların sayı – 6000 (altı min), dəvələrin sayı – 30000 (otuz min), qatırların sayı – 5000 (beş min), yabıların sayı – 5000 (beş min), ulaqların sayı – 2000 (iki min), xidmətçilərin sayı – 20000 (iyirmi min), süvari atların sayı iki min baş idi. Onların üstünə dəmir zireh və qızıl-gümüşdən düzəldilmiş dördkünc zirehlər salınmış və atlar xırda zəncirlərlə bir-birinə bağlanmışdılar. Zirehlərin ətəkləri yerədək sallanırdı. Bəzi atlar, bizdə olduğu kimi, dəri ilə, bəziləri də ox keçirməyən qalın qaba ipəklə örtülmüşdü ... Sonra aşağıdakıları saydım: iki min baş gözəl qatır, 20 min baş xırda buynuzlu heyvan, 2 min baş iri buynuzlu mal-qara, cəmisi 100 dənə ov pələngi, 200 dənə “cins” və “mələz” qızılquş, 3 min ədəd tazı, 1000 ədəd ov iti, 50 ədəd qırğı, 15 min nəfər beli qılınclı döyüşçü, 2 min nəfər silahlı qulamlar, çobanlar və başqa xidmətçilər, 1000 nəfər oxatan. Bunlardan başqa 25 min seçmə süvari, 3 min nizəsi və oxu olan piyada əsgər, ali və orta təbəqədən olan 10 min qadın, 5 min xidmətçi qadın, 12 yaşından 6 yaşınadək 6 min kiçik qız və

oğlan uşağı, təxminən 5 min 5 yaşlı başqa uşaqlar.

Süvarilərin 1000 nəfəri nizəatan, 5 min nəfəri qalxanaparan, təxminən 10 min nəfəri oxçu olmaqla yerdə qalanlarının müxtəlif silahları vardı. Əsgərlərin yan-yörələrində görünən və öz mallarını satan sənətkarlar aşağıdakılardan ibarətdir: Ordunun bütün ehtiyacını ödəyən dərzilər, çəkməçilər, dəmirçilər, yəhərçilər və oxdüzəldənlər. Sonra hər yerdə səliqə-sahmanla çörək, ət, meyvə, şərab və başqa şeylər satan adamları da gərək sizə xatırladam. Orduda ədviyyat satan əttarlar da vardı" [Bax: 26, 82-84; 210, 62-63; 93, 53].

İ.Barbaronun verdiyi məlumatlardan aydın olur ki, yürüşə yollanan orduda döyüşçüləri adətən onların ailələri, xidmətçiləri müşayiət etmişdilər. Qoşun səfərdə olduğu zaman ilin fəslindən asılı olaraq qışlaq və yaylaq yerlərində dayanırdı. Orduda müxtəlif sənərkarlar və peşə sahibləri, alverçilər, ərzaq tədarükçüləri olduğu üçün müxtəlif yerlərdə "ordu bazarları" təşkil olunurdu və burada qoşun üçün lazım olan hər şey almaq mümkün idi. Ağqoyunlu ordusu odlu silahlarla təchizat baxımından o zamankı Avropa və Osmanlı ordusundan geri qalırdı. Buna baxmayaraq, Ağqoyunlu süvari ordusu dövrünün ən qüdrətli ordusu kimi ad-san qazanmışdı.

# IV FƏSİL AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN XARİCİ SİYASƏTİ MÜASİR TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA

## *IV.1. Ağqoyunlu-Səfəvi münasibətləri*

Türkiyə tarixşünaslığında Ağqoyunluların Səfəvilərlə münasibətlərinə xüsusi diqqət yetirilmişdir. S.Ərşahinin Ağqoyunlu tarixindən bəhs edən monaqrafiyasında Ağqoyunlu-Səfəvi münasibətlərinə də yer ayrılmışdı [Bax: 215, 164-175]. Müəllifin fikrincə, Ağqoyunlu-Səfəvi münasibətlərinin yaranması XV əsrin ortalarında baş vermişdi. 1447-ci ildə Səfəvi təriqətinin başına Şeyx Cüneyd keçsə də, onun gəncliyi bəhanə gətirilərək Qaraqoyunlu Cahanşahın yardımı ilə əmisi Şeyx Cəfər tərəfindən təriqətə rəhbərlikdən uzaqlaşdırıldı [215, 166]. Tufan Gündüz yazır ki, Şeyx Cüneyd atası Şeyxşah ləqəbi ilə tanınan Şeyx İbrahim vəfat edən zaman ənənəyə uyğun olaraq təriqətin başına keçmək istəsə də, əmisi Şeyx Cəfər onun əsil məqsədinin siyasi iqtidarı ələ keçirmək olduğunu düşünərək, Şərqi Anadolu və Azərbaycanda hökmranlıq edən Cahanşaha şikayət etdi. Cahanşah Cüneydin bölgədəki fəaliyyətindən narahat oldu və mülkünü itirmək qorxusuna qapılaraq Ərdəbili tərk etməsini tələb etdi [338, 24]. T.Gündüz qaynaqların verdiyi məlumatları təhlil edərək belə qənaətə gəlir ki, Cahanşahın Şeyx Cüneydi Ərdəbildən çıxarmasına səbəb, onun müridlərinin getdikcə sayca çoxalması və şeyxliklə kifayətlənməyərək şah olmaq həvəsinə düşməsidir [338, 24-25]. A.A.Arayancan Qaffarinin “Cahanara” əsərinə istinad edərək yazır: “Əslində qəm qaynağı olan o həzrətin əmisi Şeyx Cəfər onunla ziddiyyətə girdi. Cahanşahın Uzun Həsənlə rəqabəti üzündən o həzrətlə düşmənçiliyi ciddi hal aldı. Buna görə də o, Şeyx Cəfərlə əlaqə yaratdı, onun əlini Ərdəbildəki Şeyx Səfiyəddin türbəsinin idarəsində gücləndirdi”.

Cahanşah Şeyx Cüneydi bölgədən uzaqlaşdırmaq məqsədilə məşvərət məclisini topladı və müzakirə əsnasında: "Eşitdim ki, Sultan Cüneydin ətrafına çoxsaylı adam toplanmışdır. Mən Şeyx Səfi övladlarından biri qiyam qaldırır və dövlət bizim sülalənin əlindən çıxıb Şeyx Səfi xanədanına keçər deyə qorxuram" demiş və Şeyx Cüneydə məktub yollamışdır. Məktubda: "Mənim məktubum sənə yetişdikdə xalqı özündən və söhbətlərindən uzaq tutman lazımdır. Yanında olan müridləri toplayıb sakitləşdirməlisən, çünki mən sənin sufilərindən narahatam. Cahillərə uyub qiyamdan dəm vurursan, qəlbində səltənət arzusu yer tutsun, asan olan işlər çətinə düşsün, hər iki tərəfdən minlərlə qan tökülsün. Əgər mənim sözümü dinləməsən, həddini aşan hərəkətlərindən əl çəkməsən yaxın zamanlarda sənin və müridlərinin qovulması mənim üçün vacib olacaqdır" deyərək onu xəbərdar etmişdir [174$^{b}$, 364-365]. Şeyx Cüneyd Cahanşahın bu xəbərdarlıq məktubuna: "Əgər sən Şeyx Səfi övladlarından xatircəm deyilsənsə, o zaman bil ki, bu səni yoldan çıxarmağa çalışan şeytanın vəsvəsəsidir. Mən xəlvət guşəsində durarkən öz atalarımın astanasında ulu yaradana ibadət etməklə məşğulam və sufilərimdə ibadətlə məşğuldur. Mənim əsla qiyam qaldırmaq və ölkə tutmaq iddiam yoxdur. Əgər sənə xoş gəlməyə çalışan münəccimlərin səni qorxudurlarsa ki, Şeyx Səfi övladları arasından bir qiyamçı ortaya çıxacaqdır. O, mən deyiləm, mənim övladlarımdan və nəvələrimdən də belə birisi olmayacaqdır. Bizə nə düşüb ki ədavət edək. Yox, əgər Allahu-Təalanın istəyi bu olsa ki, Şeyx Səfi övladlarından biri qiyam qaldırsın, onda bizi öz xalqımızla burax, bizim səninlə heç bir düşmənçiliyimiz yoxdur. Məndən xatircəm ol və aləmi Həzrəti Xudanın qəzəbindən qoru! Ardını özün bilirsən" cavabını göndərmişdir [174$^{b}$, 365]. Şeyx Cüneydin bu məktubundan sonra Cahanşah bir müddət ona toxunmamağa qərar vermişdir. Lakin iki il sonra Qaraqoyunlu casuslarının hazırladığı raportda Şeyx Cüneydin üsyan qaldıracağı təqdirdə ətrafına 20 min silahlı adamı toplayacağı barədə məlumat verilmişdi. A.A.Arayancan "Anonum Aləmaray-i Şah İsmayıl" əsərinə əsaslanaraq yazır ki, buna görə, Cahanşah Şeyx

Cüneydə ikinci məktub göndərmişdir. Məktubda "Hər nə qədər mən sənə mane olmağa çalışsam da, sən yenə öz bildiyini etdin. Deyəsən könlündə böyük bir arzu gizlədirsən. Mənim dövlətimin sərhədlərini tərk et. Yoxsa gəlib Ərdəbili dağıdar, çoxlu insanı qətliam edərəm" [174[b], 305]. Məktubdan göründüyü kimi, Cahanşah Şeyx Cüneydə qarşı təzyiqləri artırmış, hətta ölkəni tərk etməzsə, Ərdəbili dağıdacağını bildirmişdir.

Beləliklə, 1449-cu ildə Səfəvi təriqətində mürşidlik uğrunda Şeyx Cüneydin əmisi Şeyx Cəfərlə mübarizədə Qaraqoyunlu hökmdarı Cahanşah Şeyx Cəfəri müdafiə etdiyi üçün Ərdəbili tərk etmək məcburiyyətində qaldı. Anadoluya gələn Şeyx Cüneyd müridlərindən biri ilə Osmanlı sultanı II Murada hədiyyə kimi səccadə, Quran və təsbeh göndərdi və Qurdbeli adlı yeri özü və müridləri üçün yurd olaraq verilməsini xahiş etdi. Hədiyyələri qəbul edən Osmanlı sultanı şeyxin xahişi haqqında vəziri Xəlil paşa ilə məsləhətləşdi. Aşıq Paşazadənin bildirdiyinə görə, Cüneydin xahişini Osmanlı hökmdarı: "Bir taxta iki padşah sığmaz",- deyərək rədd etdi. Bundan sonra Sultan II Murad şeyxin özünə iki yüz qızıl sikkə (flori) və müridlərinə də min gümüş axça göndərdi [23, 249; 301, 13; 215, 166; 338, 26; 117, 380]. Sultan II Muradın Şeyx Cüneyd haqqında yuxarıda qeyd edilən ifadəsi əslində çox mətləblərdən xəbər verir. Bu, Cüneydin Anadoluda özünə mürid toplamaqla bərabər müəyyən siyasi iddialara da düşdüyünü göstərir. Səfəvi şeyxinin yalnız təriqət işləri ilə məşğul olmayıb siyasi məqsədlər də güddüyünü ilk dəfə Osmanlı sultanı II Murad sezmişdi. Bu şübhələr isə Şeyx Cüneydin Anadoluda sonrakı fəaliyyətində öz təsdiqini tapdı [117, 381]. Şübhəsiz ki, Səfəvi təriqətinin siyasiləşməsi Osmanlı dövləti tərəfindən xoş qarşılanmadı. Hətta, Sultan II Mehmed dövründə yarım əsrə qədər "çıraq axçası" adıyla təriqətə (Ərdəbilə) göndərilən yardımlar dayandırıldı. Osmanlı hakimiyyəti bu yolla siyasiləşmiş Səfəvi təriqətinə qarşı reaksiyasını ortaya qoydu.

Osmanlı elindən ayrılan Şeyx Cüneydin Qaraman bəyliyinin paytaxtı Konyaya səfəri də bir nəticə vermədi. Şeyx Cü-

neyd yerli Şeyx Əbdüllətiflə görüşdən sonra Konyanı tərk etmək məcburiyyətində qaldı. O, Toros dağlarında yaşayan varsaq türkmanları arasında özünə sığınacaq tapdı. Gələcəkdə Səfəvi xanədanının sadiq müridləri olacaq varsaqların istər Anadolu və Osmanlı tarixində, istərsə də Azərbaycan və Səfəvi dövləti tarixində önəmli yeri vardır. XV-XVI əsrlərdə Anadoluda Osmanlı hakimiyyətinə qarşı ən çox mübarizə aparan tayfalardan biri məhz varsaqlar olmuşdu. Azərbaycan Səfəvi dövlətinin yaranmasında fəal rol oynayan varsaqlar qızılbaş ordusunda xüsusi çəkiyə sahib idi. Onların əksəriyyəti şah qorçilərinin tərkibinə daxil idilər [315, 50; 117, 381].

Varsaq türkmanları arasında Şeyx Cüneyd özünə xeyli tərəfdarlar tapdı. Ancaq Şeyx Əbdüllətif tərəfindən xəbərdar edilən Qaramanlı İbrahim bəy varsaq bəylərinə Səfəvi şeyxinin tutulması barədə əmr göndərdiyi üçün Cüneyd bu yerləri tərk etməli oldu. O, Suriyanın şimal ucqarlarına – Maraş, Antakya və Kilis bölgələrinə gəlib çıxdı. Şeyx Cüneyd burada Zülqədər tayfası içərisində şiəlik təbliğatı apardı. Səfəvi şeyxinin hərəkətlərindən və təbliğatından narahat olan yerli, nüfuzlu din xadimləri Qahirəyə Məmlük sultanı Çaxmağa xəbərdarlıq məktubu göndərdilər. Məmlük sultanı dərhal Hələb naibinə Şeyx Cüneydin tutulması barədə əmr göndərdi. Baş hacibin başçılığı ilə Hələb qoşunu Səfəvi şeyxinin üzərinə hərəkət etdi. Nəticədə yetmişə qədər müridi qılıncdan keçirilən Cüneyd buradan da qaçmağa müvəffəq oldu. O, Qara dəniz sahilindəki Canik bölgəsinə yollandı və öz adamlarına “Məni istəyən kişi Canikdə tapsın” xəbərini göndərdi [117, 382]. Şeyx Cüneyd Canik bölgəsinin valisi Mehmed bəyə sığındı. Burada Cüneydin ətrafına tərəfdarları toplanmağa başladı. Bu vaxt Amasya-Sivas-Tokat-Kırşehir bölgələrində məskun olan ustaclı türkmanları Ərdəbil ocağına bağlanıb bu öcağın müridləri oldular. Şeyx Cüneyd Canikdə üç il qalaraq öz tərəfdarlarını topladı. O, ustaclılardan təşkil olunan ordusu ilə Trabzon üzərinə yürüş etsə də, Osmanlı sərkərdəsi Xızır bəyin təzyiqi altında mühasirədən əl çəkdi. O, Uzun Həsənin dəvəti ilə 5 min nəfər müridi ilə birlikdə Diyar-

bəkrə gəldi [Bax: 68, 78-79; 434, 70; 351, 226; 359, 242; 301, 14; 215, 166, 167; 338, 27].

Uzun Həsənin Şeyx Cüneydə isti münasibət göstərməsinin iki səbəbi var idi. Birincisi, Uzun Həsənin Trabzon hökmdarı Komnenlərlə qohum olması idi. O, Şeyx Cüneydi yanına dəvət etməklə gələcəkdə Səfəvilərin növbəti hücumlarının qarşısını almış olurdu. İkincisi, onun Şeyx Cüneydlə yaradacağı güclü ittifaq Qaraqoyunlu hökmdarı Cahanşah qarşısında mövqeyini daha da möhkəmləndirə bilərdi.

V.Hins Şeyx Cüneydlə Uzun Həsənin görüşünü Yaxın Şərq tarixində əsaslı əhəmiyyəti olan bir hadisə adlandırır [231, 25]. Həqiqətən, Uzun Həsən – Şeyx Cüneyd ittifaqı Yaxın Şərqin gələcək inkişafına ciddi şəkildə təsir etmiş bir hadisə oldu. Bu ittifaq uzun müddətli daxili çəkişmələr və silahlı qarşıdurmalardan sonra xeyli zəifləmiş, ərazilərinin böyük hissəsini itirmiş və güclü düşmənlərlə əhatə edilmiş Ağqoyunlu bəyliyinə Anadolu və Azərbaycanda Səfəvi müridləri və tərəfdarları simasında bir çox müttəfiqlər qazandırdı [117, 383]. Aşıq Paşazadənin yazdığına görə, Uzun Həsənə birlik təklif edən Şeyx Cüneyd: "Cahanşah kimi düşmənin var. Mənim silahlı iyirmi min sufiyə gücüm yetər. Mən də sənə yardımçı olum", – demişdir [22, 250; 117, 383]. Səfəvi ocağının mənəvi dəstəyini əldə etmək Ağqoyunlu bəyliyinin mövqeyinin möhkəmlənməsi üçün önəmli amil idi. Öz növbəsində Uzun Həsənin himayəsini qazanmaqla Şeyx Cüneyd özünün və tərəfdarlarının təqiblərdən qorunması, tədricən güclənməsi və təsir dairəsini genişləndirməsi üçün gərək olan sığınacaq tapdı. Beləliklə, dövlət qurmaq arzusu ilə təhlükəli hərbi və siyasi fəaliyyətə atılan Səfəvi şeyxi özünə güclü bir hami tapmış oldu.

Şübhəsiz ki, Uzun Həsən öz düşməni Qaraqoyunlu Cahanşahla mübarizədə Şeyx Cüneydin köməyindən yararlanmaq arzusunda idi. Dövrün mənbəyinin təsdiq etdiyi kimi, Diyarbəkr yaxınlığındakı Ağziyarətdə Uzun Həsənin Şeyx Cüneydlə görüşündə Qaraqoyunlu Cahanşaha qarşı mübarizədə Səfəvi şeyxi maddi və mənəvi yardım göstərəcəyini vəd etmişdi. Diyarbəkrdə

yerləşən Şeyx Cüneyd 1459-cu ilin əvvəllərində Uzun Həsənin bacısı Xədicə Bəyimlə evləndi. Bu nigahın sorağı Kiçik Asiyanın və Suriyanın ən uzaq guşələrinə yayıldı və "əvvəlki şeyxlərin" xəlifələri Şeyx Cüneydin görüşünə gəldilər [435, 70-71; 215, 167]. T.Gündüz yazır ki, Həsən Padşah Cahanşahla müharibə vəziyyətində olduğu üçün Şeyx Cüneydin gəlişini dövlətinin güclənməsi, düşmənin zəifləməsi kimi qəbul etdi [338, 28 qeyd 84]. Onun öz sarayında Səfəvi şeyxini təmtəraqlı şəkildə qəbul etməsi və hətta bacısı ilə evləndirməsi, başlıca rəqibi Qaraqoyunlu Cahanşaha qarşı mübarizədə onun müridlərindən istifadə etmək niyyətində olduğunu göstərir. Lakin Uzun Həsənin Qaraqoyunlularla mübarizədə və Cahanşahın aradan qaldırılmasında bu niyyətin gerçəkləşməsi barədə hər hansı bir məlumat yoxdur [338, 28].

Üç ilə yaxın Diyarbəkrdə qalan Şeyx Cüneyd bölgədəki siyasi və dini hadisələrin inkişafını izlədi, ətrafa öz xəlifələrini göndərərək nüfuzunu xeyli artırdı. T.Gündüz yazır ki, Şeyx Cüneyd Diyarbəkrdə qaldığı müddətdə türkman tayfaları ilə sıx münasibətdə olmuşdu. Onun Ağqoyunlu tayfalarından olan Əfşar, Mosullu, Döğər, Xarbəndəli, İnallı, Qaramanlı camaatı üzərində boyük təsiri olmuşdur [338, 28]. 1459-cu ildə o, on bir ildir ayrıldığı Ərdəbilə dönməyə çalışsa da, əmisi Şeyx Cəfər Qaraqoyunlu Cahanşahın yardımı ilə buna imkan vermədi. Buna görə o, 4-5 minlik qüvvəsi ilə Çərkəzlər üzərinə "din uğrunda" yürüşə çıxaraq mühüm uğur qazandı. Ələ keçirdiyi əsirlər və qənimətlə birlikdə qışlamaq üçün Qarabağa gəldi. M.Ekinci yazır ki, Səfəvi şeyxinin bu yürüşündən son dərəcə narahat olan Şirvanşah Xəlilüllah onun yanına hədiyyələrlə öz elçisini göndərdi. Şirvanşahın elçisi "ərazi vergisi" ödəyərək Şirvanşahın asılılığında olan Çərkəzlər ölkəsinə etdiyi yürüşlə bağlı Səfəvi şeyxini məzəmmət etdi. Şirvanşah tanınmış din xadiminə qarşı açıq şəkildə çıxmaqda tərəddüd edirdi. Lakin siyasətə qarışmayan Şeyx Cəfərin Xəlilüllaha məktub göndərərək Şeyx Cüneydin vərasət hüququnun olmadığı üçün bir asi kimi öldürülməsinin vacib olduğunu bildirməsi Şirvanşahın cəsarətini xeyli

artırdı. O, Səfəvi şeyxinə qarşı mübarizəyə hazırlaşmağa başladı. Qaraqoyunlu Cahanşah və Tabasaran hakimi Əbül Masum ona hərbi yardım göndərdi. Şirvanşah Qarabağa öz elçisini göndərərək Şeyx Cüneyddən bölgəni tərk etməsini tələb etdi. Səfəvi şeyxi Şirvanşahın elçisini öldürərək bu təklifi rədd etdi. Şeyx Cüneyd 1460-cı ilin yazında Çərkəzlər üzərinə növbəti yürüşə gedən zaman Qarasu vadisində Şirvanşahın qüvvələri tərəfindən mühasirəyə alındı. Martın 3-də Samur çayı yaxınlığında baş verən döyüşdə şeyxlərinin yolunda canlarını qurban verməyə hazır olan Səfəvi müridləri fədakarlıqla vuruşdular. Döyüşün qızğın vaxtında Səfəvi şeyxi oxla vurularaq öldürüldü* [359, 244; 301, 14; 215, 167; 202, 122-123; 435, 72]. Şeyx Cüneyd öldürülən zaman bir yaşı tamam olmamış oğlu Heydər Səfəvi təriqətinin şeyxi seçildi. M.Ekincinin fikrincə, Şeyx Cüneyddən oğlu Şeyx Heydərə üç mühüm vəzifə miras qalmışdı: 1. Təriqətə ruhani rəhbərlik, 2. Müsəlman olan düşmənləri ilə yanaşı, qeyri-müsəlman qonşulara qarşı vuruşmağı arzulayan sufilərdən toplanmış orduya komandanlıq, 3. Ağqoyunlu hökmdar ailəsi içində sağlam mövqe [202, 132].

Ağqoyunlu-Səfəvi münasibətləri Uzun Həsənin Azərbaycan Qaraqoyunlu dövlətinə son qoyaraq Azərbaycan Ağqoyunlu dövlətini yaratması ilə daha da möhkəmləndi. 1470-ci ildə Uzun Həsən bacısı oğlunu, on yaşlı Şeyx Heydəri Ərdəbildə Səfəvi təriqətinin rəhbərliyinə gətirməklə Ağqoyunlu-Səfəvi münasibətlərini daha da möhkəmləndirdi. Şeyx Heydər atasının siyasətini davam etdirdi. Şeyx Cəfər dövründə təriqətin zəifləmiş olan mövqeyi daha da gücləndi. Hətta, Qaraqoyunlu tayfalarının ona meyl etməsi Səfəvi müridlərinin sayının artmasına səbəb oldu. Nəinki Azərbaycanda, habelə Şərqi Anadoluda olan Şeyx Cüneydin müridləri təriqətin yeni şeyxinin ətrafında sıx birləşdilər [359, 261; 202, 130].

1477-ci ilin sonlarında Şeyx Heydərin dayısı Uzun

---

* S.Ərşahin səhvə yol verərək bu döyüşün Qarabağda Qarasu yaxınlığında baş verdiyini yazır [215, 167].

Həsənin qızı Aləmşah bəyimlə evlənməsi onun şöhrətini daha da artırdı. Uzun Həsənin ölümündən sonra 18 yaşına çatmış Şeyx Heydər atasının yolunu davam etdirmək üçün başladığı fəaliyyəti tədricən intiqama söykəyərək daha da siyasiləşdirmiş oldu. O, bir tərəfdən təriqət şeyxliyini həyata keçirmiş, digər tərəfdən də müridlərini silahlandırmağa başlamışdı. Şeyx Heydər də atası kimi qarşısına müəyyən siyasi məqsədlər qoymuşdu. O, öncə atasının intiqamını almaq üçün onun qatili olan Şirvanşaha qarşı yürüş təşkil edəcək, sonra isə əlverişli vəziyyət olarsa özünün siyasi məqsədini gerçəkləşdirəcəkdi.

Şübhəsiz ki, Ağqoyunlu hökmdar ailəsi içində böyük nüfuza malik olması Şeyx Heydərə öz mövqeyini daha da möhkəmləndirməyə imkan yaratdı. Səfəvi şeyxi bundan istifadə edərək müridlərini silahlandırmağa başladı. O, Şirvanşaha qarşı daha ehtiyatla davranaraq ona qarşı birdən-birə hücuma keçməyə cürət etmədi. Lakin, lazım olan hazırlıqlara başladı. Şeyx Heydər öz müridlərinə mavi paltar geyindirərək başlarına "Heydəri tac" adlanan oniki dilimli qırmızı çalma qoydurdu. Buna görə də Ərdəbil sufiləri Qızılbaş adlandılar. F.Sümerin qeyd etdiyi kimi onlar Qızılbaş ifadəsini daim iftixarla işlətdilər. Hətta, dövlətlərini "Qızılbaş dövləti", hökmdarlarını "Qızılbaş Padşahı", ölkələrini də "Qızılbaş ölkəsi" adlandırdılar [315, III; 202, 131].

İ.Erdəm və K.Paydaş yazır ki, cəsur, qılınc və oxdan istifadə etməkdə mahir olan Şeyx Heydər hazırlıqlarını başa çatdırdıqdan sonra başlıca məqsədini gerçəkləşdirməyə qərar verdi. Şeyx Heydərin çərkəzlər üzərinə yürüşü Şirvandan keçmədən mümkün deyildi. Çünki çərkəzlərin yaşadığı Şimali Qafqaza gedən yol Şirvanşahın nəzarətində olan Dərbənddən keçirdi. Buna görə də, Şirvanşah Fərrux Yasardan razılıq alınmalı idi. Şeyx Heydər bunun üçün Sultan Yaquba müraciət edərək Şirvanşahdan razılıq alınmasını xahiş etdi. Ağqoyunlu sultanı Şeyx Heydərin Dərbənddən keçməsinə icazə verməsi üçün Şirvanşaha müraciət etdi [ 204, 138].

Türkiyə tarixçilərinin qənaətinə görə, Şirvanşah Şirvanın yoxsul əhalisinin Şeyx Heydərin zülmünə məruz qalacağını

bilməsinə baxmayaraq, sultanın əmrinə itaət etdi və şeyxin öz qüvvələri ilə Dərbənddən keçməsinə icazə verdi. Şeyx Heydər 10 minlik qüvvəsi ilə Dərbənddən keçərək Çərkəzlər üzərinə yürüş etdi. Mühüm qənimət və əsirlərlə Ərdəbilə qayıtdı [ 204, 138]. Bu uğurlu Çərkəz səfərindən dönən zaman səfəvilər, Şirvanşah Fərrux Yasardan intiqam almaq üçün yürüş edilməsini tələb etsələr də, daha yaxşı silahlanmağa ehtiyac olduğu önə çəkilərək sonrakı bir səfərə saxlanıldı. Şeyx Heydərin dövlət yaratmaq yolunda başlatdığı fəaliyyətlərdən biri də digər sultanlar kimi xüsusi tuğra şəklində möhürdən istifadə etməsi idi. Bu möhürü ilk dəfə o, Çərkəz səfərindən dönən zaman dədəsi Şeyx Zahid Gilaninin varislərinə miras qalmış yerləri təyin etmək üçün istifadə etmişdi [231, 69; 81, 63]. Beləliklə, Şeyx Heydər dövlət qurmaq yolunda lazım olan şərtlərin bir çoxunu başa çatdırmışdı. O, təriqətinə məxsus geyimi, kifayət qədər silahlanmış müridləri (əsgərləri) və dövlət nişanəsini xatırladan tuğrasıyla təriqəti kiçik bir dövlət halına gətirmişdi. Çərkəz səfərindən Ərdəbilə dönən Şeyx Heydər əldə etdiyi qənimət və əsirlərlə Ərdəbil əhalisinin etibarını qazanmışdı. O, bununla kifayətlənməyərək qənimətlərin bir hissəsini Təbrizə – Sultan Yaquba göndərməklə onun diqqətini bu məsələdən yayındıra bilmişdir.

İ.Erdəm və K.Paydaş Şeyx Heydərin Çərkəzlər üzərinə bu yürüşünün tarixi barədə məlumat vermirlər. F.Sümer Səfəvi şeyxinin bu yürüşünün 1486-cı ildə baş verdiyini yazır [315, 13-14]. Lakin M.Ekinci V.Hinsin verdiyi məlumatlara əsaslanaraq düzgün olaraq Şeyx Heydərin Çərkəzlər üzərinə birinci səfərinin 1483-cü ildə baş verdiyini yazır [ 202, 138].

M.Ekinci Şeyx Heydərin Çərkəzlər üzərinə ikinci yürüşünün 1484-cü ilin baharında baş verdiyini və 6 minlik əsirlə geri döndüyünü yazır [ 202, 139]. Lakin dövrün qaynağı olan Fəzlullah ibn Ruzbehan Xunci Səfəvi şeyxinin Çərkəzlər üzərinə ikinci yürüşünün 1487-ci ildə baş verdiyini və 6 minlik əsirlə Ərdəbilə döndüyü barədə məlumat verir [Bax: 68, 85]. İ.Erdəm və K.Paydaş Şeyx Heydərin bu yürüşü ilə bağlı yazır ki, 1487-ci ildə ikinci Çərkəz səfərinə çıxan Şeyx Heydər 6 minlik əsirlə

geri döndüyü zaman Sultan Yaqub onun Təbrizə gəlməsini əmr etdi. Şeyx Heydər köhnə bir hirka geyindi, başına çirkli təkkə qoyaraq, dərviş libası geyinmiş bir neçə müridini yanına alaraq Təbrizə gəldi və Şah Hüseyn Təkkəsində yerləşdi. Sultan Yaqub Şeyx Heydəri yerləşdiyi Təkkədə ziyarət etdi və onu mükafatlandırdı. Növbəti gün Şeyx Heydər Ağqoyunlu hökmdarının hüzuruna gəldi. Hər kəs Şeyx Heydərin yürüş arzusundan imtina etməsini və xüsusən də Anadolu xəlifələri ilə əlaqəsinin kəsilməsinin lazım olduğunu Sultan Yaquba söylədi. Ancaq Sultan "Bir şeyxin yürüşündən nə ola bilər? Bir dərviş nə edə bilər? dedi". O, sözünə davam edərək: "Əgər ondan şübhələnirsinizsə itaət yolundan çıxmaması üçün ondan söz alın. Əgər o, sözündən dönərsə başı sarayımıza geri dönər. Buna görə, bir Quran gətirildi və Qazı İsanın hüzurunda Səfəvi şeyxi ona and içdi" [204, 139].

Şeyx Heydərin əldə etdiyi qələbələr onun nüfuzunu daha da gücləndirdiyi üçün Ağqoyunlu hökmdarının təşvişə düşməsinə səbəb oldu. Səfəvi şeyxinin hərəkətlərinin təhlükəli həddə çatdığını düşünən Sultan Yaqub onu növbəti yürüşlərdən çəkindirməyə çalışdı və bu əməlindən əl çəkməsi üçün ona sədaqət andı içdirdi.

Şeyx Heydər yürüşə getməyəcəyi barədə and içsə də, öz planlarını həyata keçirməkdən imtina etmədi. Türkiyə tarixçilərinin qənaətinə görə, Şeyx Heydər 1488-ci ilin qışında Sultan Yaqubun Qumda qışlaqda olmasından istifadə edərək öz planını həyata keçirmək qərarına gəldi. O, anası Xədicə bəyimi çərkəzlər üzərinə növbəti yürüşə çıxması üçün Sultan Yaqubdan icazə almaq məqsədilə Quma göndərdi. Ağqoyunlu sultanı Şeyxin sədaqət andına güvənərək qaynatası Şirvanşah Fərrux Yasara bu məsələdə yardım göstərməsi üçün fərman yazdırıb bibisinə verdi. Xədicə bəyim razılıq xəbəri ilə Ərdəbilə dönənə kimi Şeyx Heydər qışın yaratdığı çətinliklərə baxmayaraq, geniş ərazilərə yayılmış Səfəvi müridlərini ətrafına toplamaq üçün xəbər göndərdi. Qısa vaxt ərzində qızılbaş xəlifələrinin rəhbərliyi altında daha çox Talış bölgəsi, Qaradağ və Anadaolunun qızıl-

baş müridləri Ərdəbilə toplandı. [204, 139; 202, 140-141; 215, 168; 81, 64]. M.Ekinçi Osmanlı qaynaqlarına əsaslanaraq Şeyx Heydərin Kür çayını keçərək Mahmudabada gəldiyini və Şirvanşah Fərrux Yasara elçi göndərdiyini, yardım etməsini tələb etdiyini və elçinin qayıtmasından sonra atasının intiqamını almaq üçün Şamaxı üzərinə hücum etdiyini yazır [ 202, 141; 81, 64].

Lakin bu məsələ dövrün qaynağı olan Fəzlullah ibn Ruzbehan Xuncinin verdiyi məlumatlara əsaslanan İ.Erdəm və K.Paydaş tərəfindən daha düzgün şərh olunmuşdur. Onlar yazır ki, Şeyx Heydər ətrafına topladığı müridlərlə Araz çayını keçərək Qarabağa gəldi və baş qazının Bərdə yaxınlığındakı mülkü olan Çiləbörd ətrafını qarət etdi. Şeyx Heydər Şirvanşahın yanına öz elçisini göndərərək çərkəzlərlə vuruşmaq niyyətində olduğunu və Sultan Yaqubun fərmanına uyğun olaraq Dərbənd yolunu açaraq islam ordusuna yardım göstərməsini tələb etdi [ 68, 86; 204, 140; 142, 315]. V.Hins yazır ki Şeyx Heydərin əsas məqsədi göndərdiyi elçi vasitəsi ilə Şirvandakı vəziyyətlə bağlı məlumat əldə etmək idi [ 231, 72]. Səfəvi şeyxinin elçisi Şamaxıya gələn zaman Fərrux Yasar uşaqlarından birinə sünnət toyu edirdi. O, Səfəvi elçisini qəbul etdikdən sonra ona bəzi döyüş silahları və atlar verərək oz elçisini də onunla birlikdə yola saldı. Şeyx Heydərin geri dönən elçisi Şirvanşahın qəflət içində olduğunu, yaranmış fürsəti qaçırmamağı ona çatdırdı. Buna görə, Səfəvi şeyxi Şirvanşahın elçisinə qarşı qaba davrandı. Şeyx Heydər Fərrux Yasarın elçisinə atasının intiqamını almaq üçün gəldiyini və adamlarının Şamaxı şəhərinə girəcəkləri xəbərini Şirvanşaha çatdırmaq üçün onu piyada geri qaytardı [Bax: 68, 87; 204, 140].

İ.Erdəm və K.Paydaş Şeyx Heydərin üçüncü yürüşünü F.R.Xuncinin verdiyi məlumatlardan istifadə edərək ətraflı işıqlandırmışlar. Onlar yazır ki, Şeyx Heydərin Şirvana hücum xəbərini alan Şirvanşah az qüvvə ilə ona qarşı dayanmağın çətin olduğunu görərək ailə üzvlərini və mallarını Gülüstan qalasına göndərdi, özü isə Şamaxıda qaldı. Növbəti gün Şeyx Heydər

başlarında qırmızı çalma və mavi geyimli sufiləri ilə Şamaxıya yaxınlaşdı. Qızılbaşların hücumunun qarşısını ala bilməyən Fərrux Yasar məğlub olaraq Gülüstan qalasına çəkildi. Şamaxını talan edən Şeyx Heydər Gülüstan qalasını top və mancanaklardan atəşə tutdu. Şirvanşah çıxılmaz vəziyyətdə qalaraq Sultan Yaquba bəlağətli məktub göndərərək ondan kömək istədi [68, 89; 204, 140-141].

Həsən bəy Rumlu Şirvanşahın məktubunun məğzi ilə bağlı yazır: "Sultan Heydər ölkə almaq bayrağını açaraq Qızılbaş ordusu ilə Şirvana gəldi. Əgər bu ölkəni alarsa, Azərbaycan məmləkətlərinə də həvəs göstərəcəkdi. Münasib olan, səltənət yuvası olan ölkənizin bir ordusunu dövlətinizin tərəfdarı olan bu qulunuzun yardımına gördərmənizdir. O zaman bəndəniz bu qüvvələrlə birlikdə Qızılbaşların qarşısına çıxar, can alan qılınc və ağır gürzlə onların ordusunun həyat damarını kəsərəm" demişdi [43, 583].

Sultan Yaqub Sultaniyyə yaxınlığındakı Gözəldərə yaylağında Şirvanşahın düşmüş olduğu ağır vəziyyət barədə xəbər alaraq ona yardım etmək üçün öz ordusunu göndərdi. Ağqoyunlu ordusu Gözəldərədən Şirvan istiqamətində hərəkətə başladı. 1488-ci il iyunun 7-də Sultan Yaqub Ərdəbil çayının sahilinə gəldi. Ömər bəy Cagirli onun hüzuruna gələrək Cagirli əsgərlərinin vəziyyəti barədə məlumat verdi. Ərdəbilə gələn Ağqoyunlu hökmdarı şəhərin ətrafında yerli əhaliyə məxsus əkin tarlalarının ordunun hərəkəti zamanı yararsız hala düşdüyünə görə saray gəlirlərindən əvəzinin ödənməsi barədə göstəriş verdi. Ağqoyunlu ordusu bir həftə Ərdəbildə qaldı. Bu zaman Şirvanşahın müsahiblərindən biri olan katib Mövlana Şərafəddin Hüseyni hökmdarın hüzuruna gələrək mövcud vəziyyəti ona anlatdı [68, 90; 204, 141].

Yaranmış bu vəziyyətdə Şirvanın böyük əmirlərindən olan Kiçi bəy ətrafdakı əhalidən topladığı ordu ilə Şeyx Heydərə hücum etməyə qərar verdi. O, bunu nə zaman və harada edəcəyini bildirmək üçün Gülüstan qalasına bir məktubla xəbər göndərdi. Lakin məktubu aparan casus Şeyx Heydərin adamları tərəfindən

tutulduğu üçün Qızılbaşlar qalanın önündən çəkilərək gözlənilmədən onlar üzərinə hücum edərək hamısını məhv etdi. Şirvanşah Şeyx Heydərin heç bir səbəb olmadan qalanın qarşısından çəkildiyini görərək, onun qorxduğu üçün qaçdığını zənn etdi. O, intiqam almaq məqsədilə Səfəvi şeyxini təqib etmək istədi. Lakin Şeyx Heydərin Şirvan ordusunu məğlub etdiyini xəbər alaraq Sulut qalasına sığındı [68, 90-01; 204, 141].

Şübhəsiz ki, bu, Şirvanşahın xilas olmasını təmin etdi. Çünki Şeyx Heydərin Gülüstan qalasını ələ keçirməyəcəyinə heç bir təminat yox idi. Şeyx Heydər artıq qələbə qazanacağını düşündüyü zaman Vəli Ağanın rəhbərliyi altında Ağqoyunlu ordusunun avanqard qüvvələri Cavada çatdı. Ağqoyunlu ordusunun Kür çayını keçməsi barədə xəbər alan Şeyx Heydər Dərbəndə çəkildi. Sultan Yaqub Süleyman bəy Bicənoğlunun və Cahangirin oğlu İbrahim bəyin rəhbərliyi altında Ağqoyunlu ordusunu Şirvana göndərdi. Ağqoyunlu ordusu Şirvana daxil olan zaman Fərrux Yasar Sulut qalasından çıxaraq öz qüvvələri ilə ona qoşuldu. Süleyman bəy Bicənoğlu Şirvan əsgərləri Şeyx Heydərin hücumu zamanı böyük sarsıntıya məruz qaldığı üçün onların dincəlməsinə bir günlük icazə verdi. Bir gün sonra onlar Samur çayını keçərək Dərbənd istiqamətində irəlilədilər. Süleyman bəy Şeyx Heydərin Zirehgaran qalasına sığınacağından təşvişə düşərək onu təqib etməyə başladı. 1488-ci il iyulun 9-da Səfəvi şeyxinin ordusu Elbrus dağının ətəklərində göründü. Qızılbaşlar əlverişli döyüş mövqeyi tutaraq onları gözləyirdi [68, 93; 204, 142]. Qızılbaşlar güclü bir mövqeyə sahib idilər. Onlara Ağqoyunlu ordusunun yalnız iki-üç yüz nəfər əsgəri yaxınlaşa bilirdi. Buna baxmayaraq, Süleyman bəy Ağqoyunlu əsgərlərini Qızılbaşlara qarşı döyüşə yeritdi. Tərəflər arasında qızğın döyüş başladı. Şeyx Heydər Ağqoyunlu ordusunun sol cinahına ciddi zərbə vurdu. Lakin döyüşün qızğın davam etdiyi bir dövrdə Şeyx Heydər oxla vuruldu [68, 94; 204, 142].

Həsən bəy Rumlu yazır ki, Şeyx Heydərə dəyən ox müxaliflərin deyil, yanlışlıqla Sultan Heydərin ordusundan atılan bir ox idi. Savaşda olanlar ona dəyən oxun o həzrətin əmirlərindən

Şahsuvar Lənkəraninin atası tərəfindən atıldığını bəyan etdilər [Bax: 43, 585]. Şeyxlərinin vurulduğunu görən Qızılbaşlar onu dövrəyə alaraq döyüş meydanından uzaqlaşdırmaq istədilər. Lakin Ağqoyunlu əsgərləri hücum edərək onun ətrafındakı qüvvələri yararaq Şeyx Heydərə yaxınlaşdılar. Sultan Yaqubun qapıçısı Əli Ağa Səfəvi şeyxinin başını kəsərək əmirlərin hüzuruna gətirdi [68, 95; 204, 142-143].

Qızılbaşlara qarşı düşmən mövqeyini gizlətməyən Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, çox böyük itki verməsinə baxmayraq, şeyxlərinin öldürülməsini görən sufilər təcili olaraq fədailər kimi döyüşə qayıdaraq qəhrəmancasına vuruşmağa başladılar. Sufilər liderlərinin öldürülməsindən sonra da görünməmiş bir şəkildə qəhramancasına vuruşmaqda davam etdilər. 1488-ci iyulun 16-da Səfəvi şeyxinin kəsik başı Ərvankuh yurdunda Sultan Yaquba təhvil verildi. Səfəvi müridləri Şeyx Heydərin cəsədini Tabasaran vilayətinin İsfəndiyar kəndində dəfn etdilər [68, 95; 435, 76-77; 204, 142-143].

Ağqoyunlu ordusu avqust ayında Şirvandan Təbrizə döndü. Beləliklə, 1488-ci ildə Şeyx Heydərin öldürülməsi ilə təriqət başsız qaldı və Səfəvi müridləri Ağqoyuluların təzyiqi altında ətrafa yayıldılar. Ağqoyunlu Sultan Yaqub əldə olunan bu qələbə münasibəti ilə Osmanlı sultanı II Bayəzidə göndərdiyi məktubunda Şeyx Heydərin əslində ata-babalarının yolundan çıxaraq ölkələr ələ keçirməyə çalışdığını, bu məqsədlə Şirvana hücum edib qadın, uşaq demədən hər kəsi öldürdüyünü, din və dövlət düşməni olan Heydərin ortadan qaldırıldığını, "Səfəvi təriqəti bizim ədalətimiz altına alınmışdır" deyə məlumat verməsi [Bax: 34, 302-304; 196, 421; 338, 34] Səfəvi təriqətinin tamamilə Ağqoyunlu dövlətinin nəzarətində olduğunu göstərir. Sultan Yaqubun məktubuna cavab olaraq Sultan II Bayəzidin göndərdiyi cavab məktubunda "Sənin bu zəfərin Şam və Ruma sevinc gətirmişdir" ifadəsinin yer alması [Bax: 34, 304-305; 196, 421] artıq bu ölkələrdən gedən türkmanların qarşısının alınacağı diqqətə çatdırılmışdır. Qeyd etmək lazımdır ki, Şeyx Heydərin

tərəfdarları arasında Şərqi Anadolu türkmanları da mühüm yer tutmuşdu. Fəzlullah ibn Ruzbehan Xunci Şeyx Heydərin müridləri arasında Anadoludan Qaraman, Təkəli və Hamid elindən olanların mühüm yer tutduğunu göstərir [Bax: 68, 82-95]. Anadolu türkmanları Osmanlılara boyun əyməmişdi. Şeyx Heydərin Rumdakı xəlifələri II Bayəzidə "xor baxmışdılar". Buna görə də, Sultan Yaqubun Şeyx Heydərin ölüm xəbərini çatdıran məktubuna cavabında Sultan II Bayəzid bu xəbərdən məmnun qaldığını bildirmişdi. O, məktubunda "Heydərin ölüm xəbərini eşitmiş olmağımız sevincimizi daha çox artırdı" demişdi [Bax: 34, 312].

Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, 1488-ci ilin avqustunda Rum Sultanı II Bayəzidin elçisi Təbrizə gəldi. O, tanınmış əmirlərdən biri idi və onu 100 nəfər qulam müşaiyət edirdi. O, hökmdara sultanın qiymətli hədiyyələrini və məktubunu çatdırdı [68, 99]. F.R.Xunci 1488-ci ilin avqustunda Osmanlı elçisinin hansı məqsədlə gəldiyini yazmasa da, bu dövrün hadisələrinə diqqət edincə bu görüşə səbəb Səfəvilərin olması bir həqiqətdir. Səfəvi təriqətinin müridləri arasında Osmanlı türkman tayfalarının çoxluq təşkil etməsi II Bayəzidi bu məsələ ilə bağlı düşünməyə vadar etmişdi. Səfəvi müridlərinin müəyyən hissəsinin əhli-beyt sevgisini həyat tərzi kimi qəbul edərək Anadoludan Azərbaycana – Ərdəbilə köç edən türkmanlardan olduğu nəzərə alınarsa, II Bayəzidin də istəyi bu istiqamətdə tədbir alması olmuşdur desək yanılmarıq. B.Dədəyev yazır ki, Osmanlılarla Ağqoyunlular Səfəvi təriqəti ilə bağlı məsələdə həmfikir idilər. Görünür, Osmanlı elçisi Davud paşa Səfəvi müridlərinə qarşı alınacaq tədbirlər barədə Ağqoyunlu sultanı ilə danışıqlar aparmışdır. Belə ki, bu görüşdən iki ay sonra (1488-ci ilin noyabrında) Sultan Yaqub tərəfindən Şeyx Heydərin Ərdəbildə olan üç oğlu anaları ilə birlikdə həbs edilərək Şiraz yaxınlığındakı İstəxr qalasında zindana salınmışdır [196, 421; 81, 68].

Sultan Yaqubun Şeyx Heydərin üç oğlunu öldürməməsinə səbəb, görünür həmin dövrdə bütün Azərbaycan və Anadoluya yayılmış Səfəvi tərəfdarlarının təzyiqlərindən çəkinməsi olmuş-

dur. Tufan Gündüz haqlı olaraq yazır ki, Ağqoyunlu sultanının bacısı oğlanlarına qarşı bu qədər sərt siyasəti həyata keçirməsinə səbəb, Qızılbaşların inanc baxımından fərqli olması deyil, onların gücünün nəzarət edilməz bir səviyyəyə çatmasından qaynaqlanırdı. Qızılbaşlar Səfəvi xanədanına qarşı o qədər dərin bir hörmət və sevgi ilə bağlanmışdılar ki, qısa vaxt ərzində şeyxlərini itirmələrinə baxmayaraq, yenə birləşə və tələb olunanda güclü bir ordu yarada bilmişdilər. Şeyxlərinin gənc və ya yaşlı olmasının onlar üçün heç bir önəmi yox idi. Şeyx Cüneydin ölümündən sonra biət etdikləri Şeyx Heydər, Sultan Əli və sonra da İsmayıl hələ kiçik yaşda olmuşdur. [338, 38-39].

1488-ci ildə Şeyx Heydərin öldürülməsindən sonra Səfəvi müridləri onun vəsiyyətinə əməl edərək böyük oğlu Sultan Əlini təriqətə rəhbər seçdilər. Lakin Sultan Yaqubun bacısı Aləmşah bəyimi oğlanları Sultan Əli, İsmayıl və İbrahimlə birlikdə İstəxr qalasında zindana atdırması Ağqoyunlu-Səfəvi münasibətlərinə ciddi zərbə vurdu. K.Paydaş yazır ki, Sultan Yaqubun həyata keçirdiyi bu tədbir Uzun Həsən dövründə Ağqoyunluların Səfəviləri qoruması kimi xarakterizə olunan əlaqələri Sultan Yaqub dövründə düşmənçiliyə çevirdi [289, 121].

1490-cı ilin dekabrında Sultan Yaqubun ölümündən sonra Bayanduri əmirləri başda Sufi Xəlil olmaqla onun oğlu Baysunquru hakimiyyətə gətirdi. Az yaşlı Baysunqur Mirzəni taxt-taca gətirən Sufi Xəlil real hakimiyyəti ələ alaraq narazı əmirlərə qarşı sərt tədbirlərə əl atdı. Onun bu tədbirləri Ağqoyunlu əmirləri arasında ciddi narazılıq yaratdı. Bundan istifadə edən Diyarbəkr hakimi Süleyman bəy Bicənoğlu Rüstəm Mirzəni hakimiyyətə gətirmək uğrunda mübarizəyə başladı. O, Sufi Xəlil üzərində qələbə qazanaraq Rüstəm Mirzəni Təbrizdə hakimiyyətə gətirdi. Məğlub olan Baysunqur babası Şirvanşah Fərrux Yasara sığındı. Azərbaycan Ağqoyunlu imperiyasının əksər vilayətlərində mərkəzi hakimiyyətə qarşı narazılıq gücləndi. Ölkəni bürüyən üsyanlar dalğası hakimiyyətə yenicə gəlmiş Rüstəm padşahı başlıca rəqibi Şirvanşahdan yardım alan Baysunqur Mirzəyə qarşı mübarizədə müttəfiq aramağa vadar etdi.

F.Sümer yazır ki, Rüstəm Padşah əksər əmirlərinin ölkədə baş verən üsyanları yatırmaqla məşğul olduğunu nəzərə alaraq Səfəvilərin döyüşkən müridlərinin yardımından istifadə etmək üçün İstəxr qalasında zindanda saxlanılan Şeyx Heydərin oğlanlarını – Sultan Əli, İbrahim və İsmayılı azad edərək Təbrizə dəvət etdi [317, 29]. K.Paydaşın fikrincə, Sultan Əli Təbrizdə Ağqoyunlu hökmdarı tərəfindən böyük ehtiramla qarşılandı. Rüstəm Padşah Sultan Əliyə "sənə qarşı edilənlər artıq arxada qalmışdır. Tanrının yardımı ilə mən onları düzəltməyə çalışacam, sən mənə qardaş kimisən" deyərək ona kəmər və xalat verdi. Bu xəbərin ətrafa yayılması Səfəvi müridlərinin Sultan Əli ətrafında toplanmasına səbəb oldu [289, 122; 338, 36 qeyd 127].

Şübhəsiz ki, bu dövrdə Ağqoyunlu dövlətində yaranmış siyasi vəziyyət Ağqoyunlu hökmdarını Səfəvilərlə münasibətləri nizama salmağa vadar etdi. Sultan Əlinin öz qüvvələri ilə Eybə Sultanla birləşməsi, Əhər və Meşkin arasında baş verən döyüşdə Baysunqur üzərində qələbənin əldə olunmasını təmin etdi. Bu qələbədən sonra Sultan Əli Ərdəbilə dönmək üçün Rüstəm padşahdan icazə verməsini istədi. Rəqiblərini məğlub edən Ağqoyunlu hökmdarı Səfəvi şeyxinə Ərdəbilə dönməyə icazə verdi [289, 123]. Sultan Əlinin başlıca xidməti heç də yalnız Rüstəmin ən böyük düşmənlərindən xilas olmasına yardım etmək olmamışdı. O, həmçinin ölkə daxilində Rüstəm Padşaha qarşı yönəlmiş daxili müxalifəti yatırmaqda da önəmli rol oynadı. Belə ki, o, Baysunqur Mirzəyə qarşı ikinci səfərinə çıxmadan öncə, Qarapiri bəy Qacarın rəhbərliyi altında Səfəvi qoşununu Rüstəmə qarşı baş qaldıran İsfahan valisinin üsyanını yatırmaq üçün göndərdi.

K.Paydaş yazır ki, Şeyx Heydərin oğlanlarının Ərdəbilə dönməsindən xəbər tutan Səfəvi müridləri və tərəfdarları ona biət etmək üçün Ərdəbildə toplanmağa başladı. Qızılbaş müridlərinin Ərdəbilə toplanması xəbəri Rüstəm Padşaha çatdırılan zaman o, bu məsələ ilə ciddi maraqlanmağa başladı. 1494-cü ilin ortalarında Ağqoyunlu hökmdarı Səfəvilərin siyasi məqsədlərinin hakimiyyəti üçün ciddi təhlükə hesab etdi. Buna görə,

Sultan Əlinin tərəfdarları ilə əlaqəsini kəsmək üçün Ərdəbilə öz adamlarını göndərərək Şeyx Heydərin oğlanlarını öz qərargahına gətirtdi. Səfəvi sufilərinin Sultan Əlinin yanında qalmasına icazə vermədi və onların üzərinə ciddi nəzarət qoydu [289, 123-124; 202, 112-113; 338, 37; 435, 82].

Qızılbaş müridlərinin Rüstəm Padşahın qərargahına gələrək Sultan Əlini ziyarət etməkdə davam etməsi onu qorxuya saldı. O, qışlaqdan yaylağa qalxan zaman Xoyda Sultan Əli və qardaşlarını öldürmək fikrinə düşdü. Ağqoyunlu hökmdarı Təbriz və Ərdəbil şəhərlərindəki Səfəvi tərəfdarlarını da öldürmək niyyətində idi. Lakin Rüstəm Padşahın bu planı barədə məlumat Sultan Əliyə çatdırıldığı üçün o, qardaşları və yaxın silahdaşları olan Hüseyn bəy Lələ, Əbdül bəy Dədə, Qarapiri bəy Qacar və İlyas bəy ilə Rüstəm Padşahın qərargahından qaçdı. Onların qaçdığını öyrənən Ağqoyunlu hökmdarı Eybə Sultanı və Hüseyn bəy Əlixanini 5 min nəfərlik qüvvə ilə onların ardınca gönərdi [289, 124; 435, 82]. Onlar Sultan Əliyə Ərdəbilə daxil olmağa imkan verməməli idilər. Çünki müridləri ilə birləşərək möhkəmlənə bilərdi. K.Paydaş yazır ki, Ərdəbilə yaxınlaşan Sultan Əli qızılbaş əmirlərini toplayaraq təriqətin başına keçməsi üçün kiçik qardaşı İsmayılı varis təyin etdi. Başındakı Heydəri tacı onun başına qoydu. Bu gün baş verəcək döyüşdə öldürüləcəyini bildirərək, İsmayıla atasının və özünün intiqamını Həsən Padşahın övladlarından almasını vəsiyyət edərək onu Ərdəbilə yola saldı [289, 124; 215, 169]. Bir müddət sonra Ağqoyunlu ordusu Şəmasi kəndi yaxınlığında Sultan Əli və təraftarlarına yetişdi. Qızılbaşların hücumu qarşısında Eybə Sultan və Hüseyn bəy Əlixani qaçmağa məcbur oldu. Qızılbaşların Ağqoyunlu düşərgəsinə daxil olaraq qarətlə məşğul olması, Eybə Sultana öz qüvvələrini toplayaraq onlar üzərinə hücumuna şərait yaratdı. Qızılbaşlar məğlub oldular. Sultan Əli döyüş zamanı çaya yıxılaraq böğuldu öldü [435, 82]. Sultan Əlinin cəsədi anası Aləmşah bəyimin istəyi ilə dəfn olunmaq üçün Ərdəbilə aparıldı. Eybə Sultan Ərdəbilə daxil olaraq Rüstəm Padşahın əmri ilə İsmayılı ev-ev axtarmağa başladı. İsmayıl öncə Qazi Əhməd

Kakulinin evində gizlədildi. O, sonra isə Xancan adlı qadının evində saxlanıldı, daha sonra Zülqədər qəbiləsindən olan və Ərdəbildə cərrahlıq edən Übanın evində gizlədildi. Bir müddət sonra ona zərər veriləcəyindən qorxan Üba onu Qızılbaş müridlərinə verdi. Onlar İsmayılın qaldığı yeri ardıcıl olaraq dəyişməklə onu Rüstəm Padşahın adamlarından qoruya bildilər. Onun yerini yalnız bibisi Paşa Xatun bilirdi. Buna görə də, Eybə Sultanın İsmayılın yerini öyrənmək üçün Aləmşah bəyimə işgəncə verməsi bir nəticə vermədi [435, 82; 338, 39].

Ərdəbildən qaçırılan İsmayıl Rüstəm bəy Qaramanlı tərəfindən 6 həftə ərzində Kərkan kəndində xətib Fərruxzadın evində gizlədildi. Sonra isə İsmayıl Rüstəm bəy Qaramanlı, Məhəmməd bəy Türkman tərəfindən 80 nəfər sadiq qızılbaşın müşaiyəti ilə Gilana aparıldı. Təqib edilən İsmayıl Tulunav hakimi Əmir Müzəffər və Kəsgər hakimi Əmir Səyavuş tərəfindən qonaq edildi və etibarlı şəkildə Rəşt hakimi Əmir İshaqın yanına göndərildi. Rəşti də təhlükəsiz hesab etməyən sadiq müridləri İsmayılı daha etibarlı sığınacaq hesab etdikləri Lahicana, Gilanın Biyepiş hakimi Mirzə Əli Karkiyanın sarayına apardılar [289, 124-125; 202, 125-126; 338, 40; 435, 83; 84, 41-42]. Mirzə Əli Karkiyanın İsmayılı və onu müşayiət edənləri mehriban qarşılamasına səbəb, onun hələ 1492-ci ildə savaşmalı olduğu Rüstəm Mirzəyə qarşı düşmən münasibətdə olması idi.

Mirzə Əli Karkiya İsmayılı Key Əfridun mədrəsəsi ilə üzbəüz binada yerləşdirdi və hörmətli qonaqlarına hər cür diqqət göstərdi. Tanınmış yerli alimlərdən biri – Şəmsəddin Lahici ərəb və fars dillərini öyrətmək, Quranı oxumaq üçün İsmayılın və onun qardaşının tərbiyəçisi təyin olundu [289, 127; 338, 41; 84, 42].

Bununla belə Ağqoyunlu Rüstəm İsmayılla hesablaşmaq ümidini itirmirdi. İsmayıl Gilana qaçdıqdan az sonra Eybə Sultan Übanı həbs etməyə və ondan İsmayılın Ərdəbildə qaldığı yeri öyrənməyə nail oldu. Üba Rüstəmin əmri ilə Təbrizin bazar meydanında edam edildi. İsmayılın qaçırılmasına kömək etmiş Məhəmməd bəyin və onun qardaşı Əhmədi bəyin əmlakı hö-

kumət tərəfindən müsadirə olundu. Rüstəm Padşah İsmayılı qaytarmaq tələbi ilə Mirzə Əli Karkiyaya dəfələrlə hədələyici məktublar göndərdi, lakin Lahican hakimi hər dəfə üzürlü bəhanələr gətirməklə onun tələblərini rədd etdi [289, 125; 435, 83; 84, 42-43].

İsmayıl Lahicanda təqribən 6 ilə yaxın qaldı. Bu dövrdə Ağqoyunlu taxt-tacı uğrunda davam edən mübarizə Səfəvi müridlərinin sərbəst şəkildə Gilana gələrək İsmayılı ziyarət etməsinə şərait yaratdı. Səfəvi müridləri hər tərəfdən, xüsusilə Rum, Qaracadağ və Əhərdən onun ziyarətinə gələrək öz itaətlərini bildirirdilər. Bütün məsələləri həll edən qızılbaş əmirlərinin hesablamalarına görə, Ağqoyunlu şahzadələri arasındakı ara müharibələri və onların dövlətinin dağılması İsmayılın qalibiyyətli yürüşünü asanlaşdırmalı idi. Bu vəziyyəti düzgün qiymətləndirən İsmayıl 1499-cu il avqustun 22-də yanında Hüseyn bəy Ləlә Şamlı, Əbdüləli bəy Dədə, Xadim bəy Xüləfa, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Xunuslu və Qarapiri bəy Qacar olmaqla Lahicandan Ərdəbil istiqamətində hərəkət etdi [289, 127; 435, 84; 84, 43].

K.Paydaş yazır ki, Mirzə Əli Karkiya hələ on iki yaşında olması və kifayət qədər ordusu olmadığı üçün İsmayılı bu niyyətindən əl çəkməyə çağıraraq atası Heydərin başına gələnləri xatırladaraq ona mane olmağa çalışdı. Lakin o, bu qərarından imtina etmədi [289, 127]. T.Gündüz bu hadisə barədə yazır: "İsmayıl Gilandan çıxmaq istəyəndə Mirzə Əli Karkiya onun getməsini münasib bilmədi. Sənin qüvvən kifayət qədər olmadığı üçün qüvvətli düşmənə qarşı dayana bilməzsən. Bu sövdadan əl çəkmək və özünü qoruman vacibdir. Əgər tələskənliyə yol versən, düşmənin qarşısında atanın vəziyyətinə düşərsən. Bir az daha səbr etmən və intiqam almağı sonraya saxlamağın daha yaxşı olar. Şahzadə bunları dinlədikdən sonra Allaha arxalanıram və gücümü ondan alıram, heç kimdən qorxmuram cavabını verdi" [338, 46 qeyd 158].

İsmayıl və sadiq müridləri 1499-1500-cü ilin qışını Xəzər dənizi yaxınlığında, Astara ərazisindəki Ərçüvanda keçirdi.

Onlar burada öz tərəfdarları ilə birləşmək üçün vaxt qazanmaq üçün dayanmışdılar. Qızılbaş rəhbərlərinin müşavirəsində Ərzincana hərəkət etməyə qərar verildi. İsmayıl Ərzincanda ətrafına topladığı 7 minlik qüvvəsi ilə öncə Şirvanşah Fərrux Yasarı, sonra isə Ağqoyulu Sultan Əlvəndi Şərur döyüşündə məğlub edərək Azərbaycan Ağqoyunlu dövlətinə son qoydu. Mərkəzi Təbriz şəhəri olan Azərbaycan Səfəvi dövləti yaradıldı.

### *IV. 2. Ağqoyunlu-Teymuri münasibətləri*

Ağqoyunluların Azərbaycanda və şimal-qərbi İranda hakimiyyəti ələ alması Teymuri hökmdarı Əbu Səidi narahat etməyə başladı. Teymurilər Ağqoyunlu dövlətinin genişlənməsinə imkan verməmək məqsədilə Uzun Həsənin Azərbaycandakı hakimiyyətinin ilk günlərindən onun əleyhinə mübarizəyə başladılar. Türkiyə tarixçilərinin əsərlərində Ağqoyunlu-Teymuri münasibətləri haqqında müəyyən fikirlər öz əksini tapmışdır.

Ağqoyunlu-Teymuri münasibətləri XIV əsrin sonunda Teymurun Azərbaycana yürüşü zamanı Ağqoyunlu Qara Osmanın onun himayəsinə sığınması ilə təşəkkül tapmışdı. Teymurun ölümündən sonra da Ağqoyunlu-Teymuri münasibətləri dostluq məcrasında inkişaf etmişdi. F.Sümerin və İ.Akanın əsərlərində Şahruxun Azərbaycana yürüşləri zamanı Qara Osmanın ona hərbi yardım etdiyi ətraflı surətdə işıqlandırılmışdır [Bax: 317, 94-133; 165, 59-72].

Ağqoyunlu-Teymuri münasibətləri XV əsrin 50-ci illərinin sonunadək dostluq şəraitində davam etmişdi. 1458-ci ilin iyununda Cahanşahın Xorasanı ələ keçirməsi və Teymuri hökmdarı Əbu Səidlə sülh müqaviləsi bağlaması Ağqoyunlu-Teymuri münasibətlərinə öz təsirini göstərdi. Ağqoyunlular şərqdə ən güclü müttəfiqlərini itirdilər. Cahanşahın ölümündən sonra Teymuri sultanı Əbu Səid Cahanşahın oğlanlarını müdafiə etmək bəhanəsilə öz qüvvələrini Azərbaycana yeritdi.

Türkiyə tarixçiləri Teymuri hökmdarının Azərbaycana yürüşünün səbəblərini geniş şəkildə izah etmirlər. F.Sümer Sultan Əbu Səidin Azərbaycana Cahanşahın oğlu Həsənəlinin dəvəti ilə

gəldiyini qeyd edir [317, 23]. İsmayıl Aka göstərir ki, Teymuri hökmdarı Azərbaycanda yaranmış vəziyyətdən ıstifadə etməyə çalaşırdı [165, 90]. K.Paydaş yazır ki, Uzun Həsənin Qaraqoyunlu Cahanşah üzərində gözlənilməz qələbəsi böyük əks-səda yaratdı. Ağqoyunlular Qaraqoyunlu torpaqlarına sahib olaraq Teymurilərin qonşusu oldu. Uzun Həsən Qaraqoyunlu hakimiyyətinə son qoymaqla keçmiş müttəfiqi Teymurilər tərəfindən yaxşı qarşılanacağına ümid bəsləyirdi. Ancaq Teymuri Əbu Səid Ağqoyunlularla Qaraqoyunlular arasındakı mübarizədən istifadə edərək Qərbi İranı ələ keçirmək niyyətində idi [290, 127] .

Sultan Əbu Səidin Azərbaycana hücumunun səbəbi onun Qərbi İranı və Azərbaycanın cənub ərazilərini öz dövlətinin tərkibənə daxil etmək, tabeliyində olan vilayətlərin sayını daha da artırmaq istəyi idi [420, 237; 91, 103]. Uzun Həsən Sultan Əbu Səidin xeyli qüvvə ilə hərbi yürüş təşkil etdiyini eşidərək teymurilərlə toqquşmaq fıkrindən çəkindi. O, məsələni münaqişəsiz həll etmək üçün Xorasanın Kalbuş adlanan yerində qərarlaşmış Sultan Əbu Səidin yanına qiymətli hədiyyələrlə bir heyət göndərdi və sülh təklif etdi. Ağqoyunlu elçiləri aralarında Teymur zamanından etibarən yaranmış dostluğu xatırladaraq, yenə bu əlaqələrin qalmasını arzu etdiklərini bildirdilər [165, 92; 169, 77].

Sultan Əbu Səid Uzun Həsənin elçisi şərəfinə ziyafət təşkil edərək Ağqoyunlu hökmdarına hakimiyyət əlaməti kimi qəbul edilən tac, qızıl kəmərlə qılınc göndərdi. Lakin o, fitnə və fəsadı yatırmaq üçün yürüşə çıxdığını və bu məsələnin döyüşdə həll ediləcəyini bildirdi [169, 77; 99, 75].

A.A.Bakıxanov bu məsələ ilə bağlı yazır ki, mahir diplomat qadının səyləri Əbu Səidi öz cəhdlərindən çəkindirə bilmədi [375, 85; 99, 75]. Ağqoyunlu tarixçisi Əbubəkr Tehrani öz əsərində Uzun Həsənin ayrı-ayrı vaxtlarda Sultan Əbu Səidin yanına göndərdiyi elçilər arasında Murad bəyin, Qazi Əlaəddin Əlinin və Rüstəm Mehmandarın olduğunu göstərir [13, 252-254, 256].

Teymuri sultanı Ağqoyunlu elçilərini yola saldıqdan sonra

Barlas Əmir Nizaməddin Əhmədi Şiraza, Barlas Əmir Cəlaləddini Kirmana, Əmir Seyid Məhəmmədi Sultaniyyə və Qəzvinə, Əmir Fərmanşeyxi Yəzdə, Əmir Hüseynəlini Həmədana göndərdi. Teymuri ordusu yürüşü davam etdirdi [169, 77]

Teymuri hökmdarı bir həftə Sultaniyyədə qaldı. Bu zaman Qaraqoyunlu Həsənəli Mirzə, Əmir Bayəzid Bistam Cagirli və Şeyx Cəfər Səfəvi onun hüzuruna gəldilər [169, 77]. 1468-ci ilin oktyabrında Teymuri ordusu Miyanəyə gələn zaman Cahanşahın oğlu Əbu Yusif Mirzə və vaxtı ilə Qaraqoyunluların tərəfinə keçmiş Uzun Həsənin əmisi Mahmud bəy öz qüvvələri ilə Sultan Əbu Səidin yanına gəldilər. Bu, Teymuri hökmdarını sevindirdi. Sultan Əbu Səid Azərbaycan hakimliyini Həsənəliyə, Diyarbəkri isə Uzun Həsənin əmisi Mahmud bəyə verdiyini bildirdi [169, 79; 356, 176]. Əbubəkr Tehrani yazır: “Elə bu zaman Uzun Həsən qardaşı oğlu Murad bəyi şahanə hədiyyələrlə Sultan Əbu Səidin hüzuruna göndərdi və xoşagələn sözlərlə sifariş göndərib aradakı məhəbbəti artırmağa çalışdı. Sahibqran (Uzun Həsən – T.N.) gözləyirdi ki, Sultan onun itaət yolundan çıxmadığını və düşmənlərini məhv edərək, günbəgün məmləkətini genişləndirdiyini görüb ibrət alacaq və Sahibqranın amansız qılıncı sayəsində onun əlinə keçmiş İraq mülkü ilə kifayətlənəcək və Azərbaycandan gözünü çəkəcək” [13, 252]. “Murad bəy Miyanə düzənliyində Sultan Əbu Səidin düşərgəsinə çatanda, onu ordunun yaxınlığında saxladılar. İki gündən sonra onu düşərgəyə gətirdilər ... Düşərgəyə daxil olduqdan sonra, onu əvvəlcə divana apardılar və o, Sultan Əbu Səidin oğlu Sultan Məhəmmədlə və divan əmirləri ilə görüşdü. Sonra onu Sultanın hüzuruna apardılar, böyük ziyafət verdilər. Sultan taxtda oturdu, Murad bəyi taxtın aşağısında əyləşdirdilər. O, Sahibqranın sözlərini çatdırdıqdan sonra, Siltan Əbu Səid Mirzə dedi: “Həsən bəy Azərbaycanı bizim ixtiyarımıza verməlidir, çünki babamın məzarı oradadır. Digər tərəfdən, mən övladlarımı Ruma və Şama göndərəcəyəm, inşallah o diyar fəth olunduqdan sonra, Azərbaycanın əvəzinə onları Sahibqrana verəcəyəm”. Sultan Əbu Səid Murad bəyi yola salanda, öz elçisini də ona qoşdu və

həmin sözləri Sahibqrana çatdırmağı tapşırdı. Bu sözlər də Sahibqranı müharibəyə təhrik etdi" [13, 252-253; 43, 461-462].

1468-ci il oktyabrın 10-da Teymuri sultanı Miyanə yaxınlığından Uzun Həsənə göndərdiyi məktubunda yazırdı: «Teymur bütün ölkələri zəbt edib böldüyü zaman Təbriz taxtını böyük babam Miranşah Mirzəyə vermişdi. Tanrının yardımına sığınaraq... Azərbaycan vilayətini zəbt edib, babamın yurdunu əvvəlki üsul ilə taxt etmək üçün gəlmişəm. Teymur baban Osman bəyə Diyarbəkr vilayətini vermişsə ..., mən sənə Tanrının köməkliyilə Misir, Rum (Anadolu) vilayətlərini alıb vərərəm» [40, 127-128; 13, 255]. Sultan Əbu Səidin bu məktubundan aydın olur ki, o, Azərbaycana yürüş etməklə onu zəbt etmək və Uzun Həsənə Anadolu torpaqlarını vəd etməklə Ağqoyunluları Azərbaycandan uzaqlaşdırmaq istəmişdi.

Ağqoyunlu Murad bəy Sultan Əbu Səidin elçisi Mahmud bəylə Uzun Həsənin qərargahına gələrək vəziyyəti bildirdi. Cığatayların onun apardığı atları hürkütdüklərini söylədi. Dövrün mənbəyində bununla bağlı deyilir: "Həsən Padşah buyurdu: Atı hürkütmək xöşbəxtliyi hürkütməkdir ... Amma Azərbaycanı istəməkdə və "bizim məzarımız ordadır" deməkdə haqlıdır– görünür, onun dövlətinin süqutu və özünün həlakı bu diyarda baş verəcək. İraq və Azərbaycan iki kuzə kimidir. Mən onların hər ikisini tapdım, İraqı ona verdim, Azərbaycanı özümə saxladım. Sultan Əbu Səid Mirzə hələ İraqı bütünlüklə ələ keçirməmiş, Azərbaycana üz tutub, bu isə tam insafsızlıqdır" [13, 253; 43, 459].

Sultan Əbu Səid elçi ilə göndərdiyi məktubunda israrla və mübaliğəli şəkildə məhəbbət və dostluqdan danışmışdı və məqsədi də bu idi ki, bu hiylə ilə Uzun Həsəni arxayın salsın və o da sayıqlığını itirib dincəlmək üçün daha münasib olan başqa bir yerə köçsün. Özü isə elçini Murad bəylə yola salan kimi hərəkət etmişdi. Uzun Həsən öz güclü fəhmi ilə anlamışdı ki, o elçini yola salan kimi hərəkət edəcək və ona yaxınlaşacaq, sevgi və hörmət dolu sözlərlə onu arxayınlaşdırmaq istəyir. Buna görə də elçinin gəlib çatdığı gün hərəkət edib Sultan Əbu Səidə tərəf

yollandı və Sultani adlı yerdə dayandı [13, 254].

Teymuri sultanının niyyəti Qaraqoyunlu Həsənəlini müdafiə etmək adı altında Azərbaycanda möhkəmlənməkdi. Bunu, Uzun Həsənin onun yanına elçi göndərdiyi Murad bəy də açıq şəkildə sezmişdi. “Murad bəy elçiliyə getdiyi zaman Sultan Əbu Səidin əhvalını müşahidə edib onun Azərbaycanı tutmaq əzmində olduğunu və heç bir vəchlə bu niyyətdən daşınmayacağını görmüşdü və bunu Uzun Həsənə çatdırmışdı. Uzun Həsən də müharibəyə hazırlaşaraq, lazımi tədbirləri həyata keçirmişdi” [13, 254].

Sultanlı adlı yerdə elçi gəlib çıxdı və elə həmin yerdə şahzadə Sultan Xəlil də Təbrizdən qayıdıb orduya qoşuldu. İki tərəf arasında daim elçilər və məktublar mübadiləsi olurdu. Günbə-gün fitnə-fəsad artır, qəzəb və kin coşurdu. Teymuri hökmdarı gücünə arxalanıb təkəbbürə uyaraq, torpaq iddiasına düşmüşdü. Ağqoyunlu elçisi hökmdara real vəziyyət barədə məlumat verdikdən sonra Uzun Həsən qaziəsgər Əlaəddin Əlini Sultanın Nemətullahla birgə gəlmiş Əli adlı elçisinə qoşub Əbu Səidin yanına yola saldı.Uzun Həsən bəzi məktublarında bildirmişdi ki, hər bir padşah bir vilayətə hücum edəndə və bir dəstə müsəlmanın üstünə qoşun çəkəndə, bunun üçün dəlili və əsası olmalıdır; əsassız yerə qılınc sıyırmaq dövlətçilik, idarəçilik, din və ədalət qanunlarına ziddir. Biz Sultana yaxşılıqdan və köməkdən başqa bir şey etməmişik. İraq və Fars bizim qılıncımız və dövlətimiz sayəsində onun ixtiyarına keçib [13, 254-255]. Sultan bunun cavabında yazmışdı: “Bu yürüşdə bizim dəlilimiz və əsasımız odur ki, Təbriz mənim babamın dəfn olunduğu yerdir. Bu neçə il ərzində o xanədan bizim xanədana itaət göstərib, indi də gərək ata-babaları kimi bizə itaət göstərsin. Mənim istəyim belədir ki, Sahibqran (Uzun Həsən – T.N.) Azərbaycandan əl çəkib Diyarbəkrə qayıtsın. Mən Rumu və Şamı fəth etdikdən sonra bunun əvəzində bir sıra vilayətləri ona bağışlayacağam” [13, 255].

Uzun Həsən öz elçisi Qazi Əlaəddin Əlini Teymuri sultanının düşərgəsinə yola salanda, onun sözlərinin cavabında belə

bir sifariş göndərdi. "İndiyə qədər biz məhəbbət yolundan başqa bir yolla getməmişik. Böyük Əmir Teymurun bizim xanədana göstərdiyi hörmətlər və köməklər müqabilində biz imkanımız daxilində əlimizdən gələni etmişdik. İndinin özündə də daim insaf qaydalarına əməl edirik. Lakin bundan sonra yaxşılıq əvəzinə pislik ediləcəksə və haqq tapdanacaqsa, günahkar özünüzü bilin. Biz əvvəllər bir qılınc kimi idik ki, onun qəbzəsi sizin əlinizdə idi və düşmənə endirilirdi; indi bu qılıncın qəbzəsini düşmənin əlinə vermisiniz və özünüzü vurursunuz" [13, 255; 43, 459]. Uzun Həsən daha sonra buyurdu: "Sizin qanuni torpaqlarınızı Cahanşah tutmuşdu. Əgər Yəzddə bir xarvar yük vurmaq istəyirdilərsə, Yəzd darğaları on dəfə müraciət etməyincə, icazə ala bilmirdilər. Sizin elçinizin başına çadır saldılar və siz onunla vuruşa bilmədiniz. Allahın köməkliyi ilə mən sizin dövlətinizi bu bəladan qurtardım. Gərək siz əvəzində İraq vilayətlərinin bəzisini bizə verəydiniz. İndi mən Azərbaycanı sizin irsi torpaqlarınızı əlindən almış elə bir padşahdan qılınc gücünə alandan sonra, siz istəyirsiniz ki, onu hiylə, yalan andlar və yağlı dil vasitəsilə məndən qoparasınız. Bu insafsızlığın son həddidir" [13, 256].

Ağqoyunlu hökmdarı Teymurilərlə ənənəvi dostluğu xatırladaraq Sultan Əbu Səidi Ağqoyunlular üzərinə yürüşdən çəkindirməyə çalışsa da, bu mümkün olmadı. İndiyə qədər pərdə arxasında qalan ədavət aşkara çıxdı. Ağqoyunluların kəşfiyyat dəstələri həmlələrə başladılar. Üç ay ərzində Ağqoyunlu igidləri Teymuri sultanının xəndəklər və arabalarla əhatə olunmuş ordusuna həmlələr edib əsir və qənimət götürdülər [13, 256].

Sultan Əbu Səid havaların soyuduğunu nəzərə alaraq Miyanədə keçirilən məclisdə Əmir Teymurun və Şahruxun vaxtı ilə Qarabağda qışladığını nəzərə alaraq orada qışlamağa qərar verdi. Teymuri ordusu Miyanədən hərəkətə başladı. Şeyx Cəfər Səfəvi və Ömər bəy Cagirli hazırlıq işləri görmək üçün Ərdəbilə göndərildi. Sultan Əbu Səid Ərdəbilə gələrək Şeyx Səfi məqbərəsini ziyarət etdi. Teymuri sultanı buradan Qarabağa hərəkət etdi. Lakin Ağqoyunlu qaravulları ilə Teymuri ön qüvvələri arasında

döyüşlərin baş verməsi və Uzun Həsənin Əbu Səidin Xorasandan gələn cəbbəxanasını ələ keçirməsi vəziyyəti xeyli ağırlaşdırdı [169, 80].

İsmayıl Aka Həsən bəy Rumluya əsaslanaraq yazır ki, Ağqoyunlu qaravulları Sultan Əbu Səidin cəbbəxanasını Xorasandan gətirdikləri xəbərini Həsən Padşaha çatdıran zaman o, Əmir Ömər bəyi cəbbəxananı ələ keçirməyə göndərdi. Əmir Ömər bəy cəbbəxananı və onu müşayiət edən qüvvələri də əsir aldı. Onlar arasında Mövlana Şəmsəddin Məhəmməd Buxari və Mövlana Sədrəddin Təbib də var idi [169, 461-462]. İ.Akanın fikrincə, Sultan Əbu Səid Qarabağa 7 fərsəx yaxınlaşsa da, ərzaq çatışmamazlığı onu Mahmudabada dönməyə məcbur etdi. Mahmudabada gələn Teymuri sultanının ordusunda yaranmış qıtlıqdan xeyli heyvan tələf oldu. Teymuri sultanını Xəzər dənizi sahillərinə çəkən bu idi ki, onun zənnincə Şirvanşah Fərrux Yasar atası I Xəlilullahın siyasətini davam etdirəcək, Bakıdan dəniz vasitəsilə teymurilərə ərzaq, yem və hərbi qüvvə göndərəcəkdir. Bu məqsədlə Əbu Səid Şəki hakimi Əbdülqafar və Şirvanşah Fərrux Yasara elçilər göndərərək taxıl və ərzaq yardımı istədi. [169, 79; 290, 128; 99, 76].

Lakin Əbu Səidin ümidi boşa çıxdı. Uzun Həsən bu planın gerçəkləşməsinə imkan vermədi. Cığataylara taxıl göndərməsinə baxmayaraq, Fərrux Yasar sonralar fikrini dəyişdi, Uzun Həsənə elçi yollayıb onunla ittifaqa girdi [29, 127-128; 119, 48; 91, 103]. Beləliklə, Cığatay ordusuna taxıl göndərməsinə baxmayaraq, Teymuri sultanının Fərrux Yasarın yardımından istifadə etmək cəhdləri özünü doğrultmadı. İ.P.Petruşevski mənbələrin məlumatına əsasən yazır ki, Uzun Həsən o zaman Şirvanşahın yanına elçi göndərmiş, ona kömək edəcəyi təqdirdə Şirvana sülh və təhlükəsizlik vəd etmişdi [416, 259].

Əbubəkr Tehrani bu barədə yazır: “O vaxta qədər Cığataylarla müttəfiq olan Şirvanşahlar ... Sultan Əbu Səid Mirzədən ümidlərini üzdülər, Əbdülxalıq adlı bir nəfəri dostluq qapısını açmaq və ittifaq yaratmaq üçün Sahibqranın (Uzun Həsənin – T. N.) hüzuruna göndərdilər. Cığataylardan üz döndərib onlara

taxıl və digər şeylər satmağı qadağan etdilər. Sahibqran vaxtı ilə Cahanşah Mirzənin mülazimlərindən olmuş Əmir Əbdülhəqqi Şirvanşah Fərrux Yasarın yanına elçi göndərdi və məhəbbətini bildirib xoş sözlərlə onu ümidvar etdi [13, 259]. Həsən bəy Rumlu qeyd edir ki, əgər Sultan Əbu Səidlə Fərrux Yasar arasında ixtilaf yaranmasaydı, Uzun Həsən qalib gələ bilməzdi [Bax: 43, 464; 91, 104]. Lakin tanınmış Azərbaycan tarixçisi bu ixtilafın səbəbləri barədə aydın fikir söyləməsə də, düşünmək olar ki, Uzun Həsənin Şirvanşah Fərrux Yasarla münasibətləri möhkəmləndirməsi və onu Əbu Səidə lazım olan hərbi və ərzaq yardımı göndərməkdən çəkindirməsi onlar arasında ixtilafın yaranmasına səbəb olmuşdur.

Sultan Əbu Səid öz ordugahını Kür çayı ilə Xəzər dənizi arasında yerləşdirdi. Uzun Həsənin ordusunun yerləşdiyi tərəfə döyüş arabalarını düzdürdü və xəndək qazdıraraq müdafiəni möhkəmləndirdi. O, qışı burada keçirmək və yazda Ağqoyunlulara qarşı mübarizəni davam etdirmək niyyətində idi. Lakin Ağqoyunlu Uzun Həsən Cığatayları burada da sıxışdırmağa başladı [290, 128]. İ.Akanın fikrincə, Ağqoyunlular tərəfindən təhdidlərin artması, Şirvanşah Fərrux Yasarın 1469-cu il yanvarın 18-dən etibarən Cığataylardan üz döndərərək ərzaq göndərməməsi Əbu Səidi Ərdəbilə dönməyə vadar etdi. Böyük çətinliklə bataqlıqlardan keçmək məcburiyyətində qalması Teymuri sultanının ordusunun ciddi itki verməsinə səbəb oldu. Çoxlu heyvan tələf oldu. Ərdəbil ətrafında ordugah quran Əbu Səid ərzaq əldə etmək üçün Qızılağac tərəflərinə adamlar göndərdi [169, 80-81; 290, 129].

İsmayıl Aka yazır ki, Ağqoyunlu hökmdarı Əbu Səidin dönməkdə olduğunu xəbər alaraq onun yolunu kəsmək üçün min nəfərlik qoşun göndərdi. Lakin onlar Əbu Səidin qüvvələri tərəfindən məğlubiyyətə uğradılar. Cığatay əsgərləri qarətlə məşğul olan zaman yanvarın 28-də Uzun Həsənin hücumuna məruz qalaraq böyük itki verdilər, başda Əmir Seyid Məzid olmaqla tanınmış əmirlər əsir alındı. Bu məğlubiyyətdən sonra Teymuri hökmdarı hansı şərtlə olursa-olsun sülh bağlamaq və Əmir Seyid

Məzidi azad etmək üçün Seyid Qiyasəddin Mazandaranini elçi kimi Uzun Həsənin yanına göndərdi. Elçinin dönməsini gözləməyən Əbu Səid Məşhəd seyidlərindən Əbdülhəyy və Seyid İbrahim Qumini öz anası ilə birlikdə Ağqoyunlu hökmdarının yanına göndərdi. Elçilər vaxtı ilə Uzun Həsənin sülh təklifini qəbul etmədiklərini, indi isə özlərinin sülh istədiklərini bildirdilər. Uzun Həsən bunun əvəzində ya Sultanın gəlməsini və yaxud da, oğlu Mahmud Mirzənin göndərilməsini tələb etdi. [169, 81; 99, 77].

Əbubəkr Tehrani bu hadisəni belə təsvir edir: "Şeyx Əli Möhürdarın oğlu Seyid Məzidi, Əli Ərəb isə Əmir Hüseyn Divanəni əsir tutdu. Düşməni dəstə-dəstə əsir tutub əli-qolu bağlı şəkildə Sahibqranın hüzuruna gətirdilər. Bu xəbər Sultan Əbu Səid Mirzəyə çatanda o, özünü itirdi. Sərhəd vilayətlərinin böyüklərindən biri, Seyid Qəvaməddin Mazandaranini Seyid Məzidi azad etmək şərtilə sülh bağlamaq təklifi ilə Sahibqranın hüzuruna göndərdi və bildirdi ki, Sahibqranın qoyacağı bütün şərtləri qəbul etməyə hazırdır. Lakin hədsiz dərəcədə narahat olduğu üçün Seyid Qiyasəddin hələ geri qayıtmamış öz anasını da sülh təklifi və Seyid Məzidi azad etmək xahişi ilə Sahibqranın yanına göndərdi ... Müqəddəs Məşhədin böyük seyidlərindən olan Seyid Əbdülhəyy və Seyid İbrahim Qumini də anasına qoşdu. Sultanın anası böyük seyidlərlə birlikdə Sahibqranın hüzuruna yetişib sözlərini dedikdə, Sahibqran buyurdu: "Sultan Əbu Səid Mirzənin etdiyi bütün haqsızlıqlara baxmayaraq, əgər o özü hüzuruma gəlsə, istədiyi yerinə yetər". Əbu Səidin anası bildirdi ki, onun gəlməsi üçün bir sıra maneələr mövcuddur və bəzi maneələri qeyd etdi. Padşah buyurdu: "Əgər Şah Mahmud Mirzəni göndərsə, məsələ istədiyi kimi həll edilər" [13, 261].

İ.Akanın fikrincə, bu zaman bir müddət öncə Uzun Həsənin Əbu Səidin yanına göndərdiyi elçi Seyid Ərdəbili Cığatayların vəziyyətinin heç də yaxşı halda olmadığını, sülhə gərək qalmadığını söyləməsi vəziyyəti dəyişdiryi üçün elçilər əliboş geri qaytarıldı [169, 81]. A.Bakıxanovun yazdığına görə, Uzun

Həsən Teymuri elçi heyətini dinlədikdən sonra, sülh danışıqlarını davam etdirmək məqsədilə Şeyx Heydəri Sultan Əbu Səidin yanına göndərmişdi. Şeyx Heydər Teymuri ordusunun ağır vəziyyətini görərərək, sülh danışığını aparmır və geri qayıdaraq vəziyyəti Uzun Həsənə danışır və sülh bağlamağı məsləhət görmür. Buna görə də Uzun Həsən sülh danışığı aparmaq üçün ikinci dəfə gələn elçiləri rədd cavabı ilə geri qaytardı [Bax: 375, 68-69; 99, 77]. Teymuri elçiləri Sultan Əbu Səidin qərargahına çatar-çatmaz Uzun Həsənin ordusu Teymuri qoşunlarını mühasirəyə alırlar. Teymuri ordusu ilk vaxtlar müqavimət göstərsə də, az sonra qaçmağa başladı. Teymuri sərkərdələrinin bir çoxu öz dəstələri ilə Uzun Həsənin tərəfinə keçdi. Yanvarın 30-da vəziyyətin ağır olduğunu, Xorasan əsgərlərinin Ağqoyunlular tərəfinə keçdiyini görən Əbu Səid oğlanları Sultan Məhəmməd və Şahrux Mirzə ilə ordugahı tərk edərək qaçmağa təşəbbüs göstərdi. Lakin Sultan Xəlil Mirzə, Zeynal Mirzə və Şah Əli Bayrami onların ardınca gedərək gecə yarısı onları ələ keçirdi və iki gün sonra Uzun Həsənin ordugahına gətirdilər. Teymuri sultanı Ağqoyunlularla qədim dostluğu xatırladaraq azad edilməsini xahiş etsə də, Uzun Həsən buna əməl etmədi. [Bax: 60, 114-118; 356, 177; 169, 81-82; 99, 77-78].

Əbubəkr Tehrani bu hadisə ilə bağlı yazır: "Sultan buyurdu: "Bizimlə sizin nəsil arasında yüz illik dostluq və üç aylıq ədavət var. Azacıq ədavətə görə köhnə dostluq haqqını itirməzlər." Sahibqran buyurdu: "Şahrux Mirzənin xanədanı ilə bizim xanədanımız arasında dostluq olub, mənimlə sənin aranda heç bir dostluq olmayıb. İndi Şahrux Mirzənin xanədanından Yadigar Məhəmməd Mirzə bizim yanımızdadır və biz möhtərəm babasının haqqını ona qaytarırıq, ona hər cür ehtiram göstəririk" [13, 262].

Bir neçə gün sonra Ağqoyunlu hökmdarı Əbu Səidi vaxtı ilə Sultan Şahruxun xanımı Gövhərşad Ağanı edam etdiyi üçün qisas almaq məqsədilə Teymuri şahzadəsi Yadigar Məhəmmədə verdi. 1469-cu il fevralın 5-də Yadigar Məhəmmədin adamları onu edam etdilər [169, 82].

Beləliklə, Uzun Həsən başlıca rəqibi olan Əbu Səidi məğlub edərək Teymurilərin Azərbaycan torpaqlarında yenidən möhkəmlənmək cəhdinin qarşısını aldı. F.Sümer yazır ki, bu parlaq zəfərlər Həsən bəyə Qaraqoyunlu imperatorluğunun bütün torpaqlarını qazandırdı. Bununla da, Həsən bəy Xorasandan Sivasa qədər uzanan daha geniş bir imperatorluğun sahibi oldu. Ağqoyunlu imperatorluğunun mərkəzi Təbriz şəhəri idi. Bundan sonra mənbələrdə bu böyük hökmdar "Sultanül-adil Həsən xan", "Sultanül- Qalib Həsən Padşah" adları ilə qeyd olunmağa başladı [319, 19].

Uzun Həsən Əbu Səidin öldürülməsindən sonra Teymuri taxtına öz müttəfiqi olan Yadigar Məhəmmədi oturtdu. Lakin, 1470-ci ildə Hüseyn Bayqara onu hakimiyyətdən uzaqlaşdırdı və hakimiyyəti öz əlinə aldı. 1469-cu ilin oktyabrında Uzun Həsən Osmanlı sultanı II Mehmedin oğlu şahzadə Bayəzidə göndərdiyi məktubda adına Cuma xütbəsi oxudaraq sikkə zərb etdirən Hüseyn Bayqaranın Ağqoyunluların Xorasan valisi kimi tanındığını qeyd edirdi. Lakin həmin ilin qışında Hüseyn Bayqaranın Qaraqoyunlu Cahanşahın nəvəsi İbrahimlə Əli Şəkər Baharlının oğlu Pir Əliyə sığınacaq verməsi və Uzun Həsənin bütün tələblərinə baxmayaraq, onları təhvil verməməsi münasibətləri gərginləşdirdi. Ağqoyunlu ordusu Xorasana göndərildi. Kuhistan və Astrabad azad edildi. 1470-ci ilin mayında Uzun Həsən Yadigar Məhəmmədi Xorasanın müstəqil valisi kimi tanıdan fərman imzaladı [356, 190].

C.Vuds yazır ki, Heratda möhkəmlənən Yadigar Məhəmməd Uzun Həsənin təsirindən azad olmaq üçün Ağqoyunlu qoşununun geri çağrılmasını ondan israrlı şəkildə tələb etdi. Bu zaman onun yeritdiyi siyasətdən narazı olan qüvvələr avqustun 21-də şəhəri Hüseyn Bayqaraya təslim etdilər. Ələ keçirilən Yadigar Məhəmməd edam edildi [356, 191]. İsmayıl Aka qeyd edir ki, Uzun Həsən Qərbdə başqa məsələlərlə məşğul olduğuna görə, Şərqdə öz müttəfiqinə yardım göstərə bilmədi [165, 95]. M.X.Yınançın fikrincə, 1471-ci ildə Uzun Həsən Sultan Hüseyn Bayqara ilə sülh bağladı və Şərqdə müharbə aparmaqdan əl

çəkərək əsas diqqətini Qərbə yönəltdi [357, 260].

Türkiyə tarixçilərinin əsərlərində Uzun Həsənin ölümündən sonra Ağqoyunlu-Teymuri münasibətlərində baş verən dəyişikliyə dair heç bir məlumat verilmir. İlk mənbələrin məlumatından aydın olur ki, Ağqoyunlu-Teymuri münasibətləri XV əsrin 80-cı illərində dostluq məcrasında inkişaf etmişdi. Fəzlullah ibn Ruzbihan Xunci 1487-ci ildə Teymuri hökmdarı Hüseyn Bayqaranın Nizaməddin Aşik Məhəmməd Arğun adlı elçisinin xüsusi hədiyyələrlə Sultan Yaqubun yanına gəldiyi haqda məlumat verir. Sultan Hüseyn Bayqaranın məktubunda hər iki dövlət arasındakı qədim dostluq münasibətlərindən bəhs edilmişdi [68, 74].

Mənbələrdə Sultan Hüseyn Bayqara tərəfindən Kamaləddin Hüseynin Sultan Yaqubun yanına elçi göndərildiyi haqda da məlumat verilir [68, 113]. Fəzlullah ibn Ruzbihan Xunci 1489-cu ilin fevral ayında Sultan Hüseyn Bayqaranın iki ölkə arasındakı dostluq əlaqələrini bərpa etmək məqsədilə göndərdiyi elçinin Sultan Yaqub tərəfindən qəbul edildiyi barədə məlumat verir [68, 111]. Bu bir daha göstərir ki, XV əsrin sonunda Ağqoyunlu-Teymuri münasibətləri dostluq şəraitində inkişaf etmişdir.

### *IV. 3. Ağqoyunlu-Gürcüstan münasibətləri*

Ağqoyunluların Gürcüstanla münasibətləri hələ XIV əsrin sonlarında Ağqoyunlu Qutlu bəyin (1363-1389) dövründə yaranmışdı. Əbubəkr Tehrani yazır ki, Qutlu bəyin hakimiyyətinin əsasını şəriət, öz ölkəsinin ətrafında olan din düşmənləri ilə vuruşub onlara qarşı cihad etmək təşkil edirdi. Daim kafirlərin hücumları qarşısında öz ölkəsinin sərhədlərini möhkəmlətmək və onların torpaqlarını ələ keçirmək üçün çalışırdı. O, din düşmənlərinə qarşı hədsiz qəzəbinin nəticəsində Gürcüstan hökmdarlarından birinin üzərinə hücum etdi. Dinin hamisi olan əmirin bir zərbəsi ilə düşmən qoşunu qaçmağa başladı. Ağqoyunlu hakimi gürcüləri məğlub edərək Axıska şəhərini ələ keçirdi və çoxlu qənimət əldə etdi [13, 40-41].

Türkiyə tarixçilərindən F.Sümer və K.Paydaş Əbubəkr Tehraninin verdiyi bu məlumatı qeyd etsələr də, Ağqoyunluların bu dövrdə yürüş edəcək qədər güclü olmadığını əsas gətirərək bu məlumata şübhə ilə yanaşmışlar [317, 6; 292, 183].

Ağqoyunluların Gürcüstana hərbi səfərləri Uzun Həsən dövründə daha intensiv xarakter almışdır. Uzun Həsənin Gürcüstana ilk yürüşünün tarixi barədə Türkiyə tarixçiləri arasında fikir müxtəlifliyi vardır. M.X.Yınanç "Ağqoyunlular" adlı məqaləsində Uzun Həsənin Gürcüstana ilk yürüşünün 1459-cu ildə baş verdiyini göstərir [358, 259]. K.Paydaş isə C.Vudsun verdiyi məlumatlara əsaslanaraq, Uzun Həsənin Gürcüstana ilk hərbi yürüşünü 1458-ci ildə həyata keçirdiyini qeyd edir [356, 165; 292, 183].

S.Ərşahin yazır ki, Ağqoyunluların şimal qonşuları olan gürcülərlə münasibəti çox zaman düşmənçilik səviyyəsində olmuşdu. Çətin coğrafi mövqeyə malik olan Gürcüstanda bu dövrdə İmereti, Kartli və Samsxe kimi kiçik çarlıqlar mövcud idi [215, 71]. Şübhəsiz ki, bu Ağqoyunluların Gürcüstan üzərinə hərbi yürüşlərinə əlverişli şərait yaradırdı.

K.Paydaşın fikrincə, Uzun Həsən Cahanşahın xaraba qoyduğu Ərzincanı ələ keçirdikdən sonra Gürcüstana hərbi yürüşə hazırlıq gördü. O, Diyarbəkrdə Əlişəkər bəyin oğlu Pir Əlini azad edərək Cahanşahın yanına göndərdi. Uzun Həsən bu hərəkəti ilə Gürcüstana yürüşü zamanı Qaraqoyunlulardan gözlənilən hücumun qarşısını almağa çalışdı. O, Qarasu çayını keçərək Tarmuk yaylağına gəldi. Burada da Solan bəyi azad edərək Qaraqoyunlu hökmdarının yanına göndərdi. Bu zaman o, həmçinin süvari qüvvələrini ətrafına toplayaraq ordusunu möhkəmləndirdi [292, 183].

Ağqoyunlu tarixçisi Əbubəkr Tehrani Uzun Həsənin Gürcüstana yürüşü barədə ətraflı məlumat verir. O, yazır: "Sahibqran Amid şəhərinə çatanda Əlişəkər bəyin oğlu Pir Əli bəyi azad edib Cahanşahın yanına göndərdi. Sonra Təbəs yolu ilə sel kimi hərəkət edib Fərat çayının sahilinə çatdılar. Müxtəlif çətinliklərlə çayı keçib Tarmuk yaylağına gəldilər. Orada dü-

şərgə qurub Tərcana gəldilər və orada bir neçə gün dayandılar ki, qoşunun qalan hissəsi də gəlib çıxsın. Burada Sahibqran Solan bəyi də azad edib Cahanşah Mirzənin yanına göndərdi. Sonra Gürcüstana doğru yollandılar. İslam qoşunun gəlməsi xəbəri o diyardakı şəhər, qala və kəndlərin əhalisinə çatanda, bəziləri qaçmağa başladı, bəziləri isə qalaların möhkəmliyinə arxayın oldular və yerlərindən tərpənmədilər. Lakin tezliklə qorxudan və vahimədən qalaları qoyub qaçmağa başladılar. İslam qoşunu oradan keçib Xeybərdən də möhkəm olan Səmaqar qalasına çatdı və döyüşə girişdi. Qala əhalisi qalanın möhkəmliyinə arxayın olduğu üçün qışqırırdı ki, bu qala heç zaman heç kəsin əlinə keçməyib. Heç vaxt müsəlmanlar bu qalanı fəth edə bilməyib. Hətta Əmir Teymur bütün tədbirlərə əl atsa da, onu ala bilmədi [13, 201-202; 292, 183-184].

K.Paydaş Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsən bu qalanı ələ keçirmək fikrindən əl çəkmədi. Ağqoyunlu hökmdarı tərəfindən verilən tapşırığı yerinə yetirən əsgərlər qalanın bürclərinə çıxmağa nail oldular. Bir neçə nəfər isə aşağı qapını ələ keçirdi. Qala bürclərinə çıxmağa nail olan Ağqoyunlu gəncləri itgi versə də, qalanı ələ keçirməyə nail oldular. Çoxlu qənimət və əsir ələ keçirdilər. Gürcülərə qarşı yürüşü davam etdirən Ağqoyunlu hakimi Etrəkər adlı kəndə gəldi və buradakı gürcüləri əsir aldı, heyvanları və ərzağı qənimət kimi ələ keçirdi. Oraya öz qələbə bayrağını sancıb hərəkəti davam etdirdi. İnhan və Tavayel məbədlərinə qədər bütün o ərazini qarət edib kafirləri əsir götürdülər, çoxlu mal və heyvan qənimət kimi ələ keçirdilər. Uzun Həsənin bu yürüşdə məqsədi Axıskaya kimi getməkdi. Lakin Qarahisar və Kəmax qalalarının hakimləri bu yürüşdə iştirak etməkdən boyun qaçırdıqları və öz düşmənçiliklərindən əl çəkmədikləri üçün Uzun Həsən onların fitnə-fəsadına son qoymağı məmləkət üçün daha faydalı bilib Axıskaya getmək fikrindən daşındı və Ərzuruma gəldi [13, 202; 356, 165-166; 292, 184].

V.Hins yazır ki, bu yürüş nəticəsində ələ keçirilən gürcülərin bir hissəsi satıldı, bir hissəsi də müsəlmanlığı qəbul et-

diyi üçün sərbəst buraxıldı, digər hissəsi isə köləyə çevrildi. Bununla yanaşı Ağqoyunlular böyük qənimətlə Ərzuruma döndülər [231, 32; 292, 184]. Bu yürüşdən sonra 1459-cu ildə Uzun Həsənin Qahirəyə göndərdiyi elçisi Məmlük sultanı İnalın hüzuruna çıxaraq hökmdarının altı qalanı gürcülərdən azad etdiyi barədə xəbər verdi [292, 184].

F.Kırzıoğlunun fikrincə, 1458-ci ildə Uzun Həsən birinci Gürcüstan yürüşü nəticəsində İspirdən aşağı Çoruk boyu ilə yuxarı Kür bölgələrindəki Atabəy yurdunu ələ keçirərək himayəsi altına aldı, Qara dəniz sahilində sərhədləri bəlli olmayan orta və yuxarı Harşit boyundakı kiçik Meso-Xaldiya ilə Kürtün bəyliyini də öz himayəsi altına aldı [250, 37].

S.Ərşahinin fikrincə, bu dövrdə kağız üzərində olsa da, Osmanlı təhlükəsinə qarşı Ağqoyunlu-Trabzon-Gürcü ittifaqı yarandı. Ancaq 1461-ci ildə Sultan II Mehmed Trabzonu mühasirəyə alan zaman gürcülərdən hər hansı yardım gəlməmişdi [215, 71]. Əbubəkr Tehrani yazır ki, Osmanlı sultanı vədinə xilaf çıxıb Trabzonu ələ keçirdiyi zaman Uzun Həsən sülh bağladığı üçün ona hücum etmədi və qayıdıb qoşunu toplayaraq Gürcüstana qazavata yollandı [13, 209].

S.Ərşahinin fikrincə, Uzun Həsənin bu yürüşdə məqsədi, Trabzon Osmanlılar tərəfindən tutulduğu üçün Qara dəniz sahillərində avropalı müttəfiqləri ilə əlaqə yaratmaq üçün çıxış nöqtəsi əldə etmək idi [215, 71]. C.Vuds yazır ki, Uzun Həsən itirdiyi gücünü bərpa etmək və sarsılmış nüfuzunu möhkəmləndirmək üçün gürcülərə qarşı yürüş etdi [231, 167]. F.Kırzıoğlu yazır ki, 1461-ci ildə Uzun Həsənin Gürcüstana yürüşünə səbəb Atabəy II Kvarkvarenin ölkəsinə hücüm edən Kartli çarı VIII Georgiyə qarşı mübarizədə Ağqoyunlu hakimindən kömək istəməsi idi. Ağqoyunlu sərkərdələri Dərviş Kiləki və Teymur bəy Qori və Tiflis şəhərlərinə kimi irəliləyərək Kartli vilayətini qarət etdi, İmereti və Somxeti vilayətləri də talan edildi [250, 37]. Bu yürüşlə bağlı Əbubəkr Tehrani yazır: “Müzəffər ordu Ərzuruma yetişəndə şəhəri boş, darvazaları açıq gördü. Lakin Sahibqran Cahanşah Mirzə ilə bağladığı əhd-peymanı və içdiyi

andı nəzərə alıb, şəhərə hücum etmədi. Oradan Avnikə getdi, taxıla və əkinlərə ziyan vurmuş bir neçə nəfəri qətlə yetirdi. Oradan Axıskaya getdi və Qara dəniz sahillərinə qədər irəlilədi. Elə yerlərə gedib çıxdı ki, heç vaxt müsəlmanlardan kimsə oralara getməmişdi. Sağ-salamat və müxtəlif mallardan və heyvanlardan ibarət çoxlu qənimətlərlə geri qayıtdı. Kafirlərin qalalarından çoxunu döyüşlə ələ keçirib həmin qalaları yerlə-yeksan etdi. Oradan Ərzincan çölünə – öz düşərgəsinə gəldi və qışlağa getdi" [13, 209; 356, 167; 215, 71].

Gürcüstanda baş verən hadisələr Ağqoyunlu Uzun Həsənin növbəti yürüşünə səbəb oldu. F.Kırzıoğlu yazır ki, gürcü çarı VIII Georgi cənubda Kartlis-Kelidən, şimalda Taş-is-Kariyə kimi uzanan ərazinin hakimi olub, mərkəzi Axıska olan Samsxe Atabəylərindən Ağbuğanın əmisi oğlu II Kvarkvaredən (1451-1466) vergi istədi. Buna görə də, onlar arasında müəyyən narazılıq yarandı. 1461-ci ildə Trabzonu ələ keçirən Sultan II Mehmed Samsxe Atabəyinə məktub göndərərək onun mülkünə toxunmayacağını bildirdi. Osmanlı sultanının Trabzonda möhkəmlənməsi Gürcüstana da öz təsirini göstərdi. Kutaisidə oturan İmeret hakimi Baqrat, Svan eristavı Gelevan, Quriya eristavı Vardanoğlu Kaxaber, Meqrel hakimi Dadyan Libarit və Şirvanşah I Xəlilüllahın birləşmiş qüvvələri 1462-ci ildə Kutaisinin cənubunda Çikxori kəndi yaxınlığında Kartli çarı VIII Georgini məğlubiyyətə uğratdılar. Bu qələbə nəticəsində Baqrat Tiflisdə tac qoyaraq İmeret çarlığını yaratdı. Bu hadisədən sonra VIII Georgi itirdiklərini bərpa etmək və vergi verməkdən imtina edən Atabəy II Kvarkvare üzərinə yürüş etdi. II Kvarkvare İmeretə qaçmağa məcbur oldu və Uzun Həsəndən yardım istədi [249, 491-492; 356, 119-120; 292, 185]. K.Paydaş yazır ki, II Kvarkvare Uzun Həsənə elçi göndərərək ondan yardım istədi və bunun qarşılığında ona bağlı olacağına söz verdi [292, 185].

Bu zaman Samsxe vilayətini ələ keçirən gürcülər xalqa zülm edərək ağır vergilər toplamağa başladılar. Buna görə də, Uzun Həsən 1463-cü ildə Kiləkli oymağından Dərviş bəy və Teymur bəyin rəhbərliyi altında Ağqoyunlu ordusunu göndərə-

rək Axıskanı ələ keçirdi. Atabəy II Kvarkvarenin hakimiyyəti bərpa olundu. O, Ağqoyunluların asılılığında qaldı. Ağqoyunlu sərkərdələri Baqratilərin Somxet və Kartli vilayətlərini qarət edərək geri döndülər [249, 491; 292, 183].

Gürcülərin Ağqoyunlu hökmdarına itaət göstərməsi uzun çəkmədi. Çünki, 1334-cü ildən bəri Baqratilərə tabe olan və Ağqoyunluların yardımı ilə azad olan Samsxe Atabəyləri illik vergini ödəməkdən imtina etdilər. Bu isə Uzun Həsənin Gürcüstana dördüncü yürüşünə səbəb oldu [249, 492; 292, 183]. 1466-cı ilin yazında Uzun Həsən Gürcüstan torpaqlarına daxil olaraq Çamakar qalasını ələ keçirdi. Əsgərlərini ətrafa göndərən Ağqoyunlu hökmdarı çoxlu qənimət ələ keçirdi. Uzun Həsənin bu yürüşdə məqsədi Axıskanı ələ keçirmək idi. Lakin ölkəsində baş verən qarışıqlıq buna imkan vermədi. Buna görə də o, gürcülərin əsir aldıqları müsəlmanları azad edərək böyük qənimətlə Ərzuruma qayıtdı [292, 186].

M.X.Yınanç yazır ki, Qaraqoyunlu hökmdarı Cahanşah Bağdadda oğlu Pirbudağın üsyanını yatırdıqdan sonra Uzun Həsəni Gürcüstana etdiyi uğurlu yürüş münasibətilə təbrik etdi və öz elçisi vasitəsilə ona bir qılınc göndərdi [358, 189].

F.Kırzıoğlunun fikrincə, Uzun Həsən 1472-ci ildə Kür və Çoruk boylarını qəti olaraq Ağqoyunlu dövlətinə birləşdirmək fikrinə düşdü. Çünki Osmanlılara qarşı başlayacağı müharibədə arxasını etibarlı şəkildə möhkəmləndirmək niyyətində idi. Bu məqsədlə də o, 1472-ci ildə Gürcüstana beşinci yürüşə çıxaraq mühüm uğurlar qazandı [249, 494; 292, 186]. K.Paydaş yazır ki, Uzun Həsən bu yürüşə çıxmadan öncə Osmanlı şahzadəsi II Bayəzidə göndərdiyi məktubunda hazırda Qum şəhərində qışladığını, baharda Gürcüstan səfərinə çıxacağını, kilsələrin yerinə məscidlər tikdirəcəyini bildirmişdi [292, 186 qeyd 60]. Uzun Həsən bu yürüş zamanı Samsxeyə daxil oldu, çoxlu qalanı fəth etdi və Tiflisi ələ keçirdi. Gürcüstan hakimi olan Baqratın əlindən məmləkətini alaraq Konstantin və Aleksandr adlı gürcü hakimlərinə verdi. Bundan sonra Uzun Həsən müzəffər ordusu ilə paytaxtı Təbrizə döndü [292, 186-187].

Uzun Həsən Tiflisi böyük əmirlərindən Sufi Xəlil Bəkdaşa iqta olaraq verdi. Gürcü sərhəd bölgələrinin idarəsi də ona həvalə olundu. Uzun Həsən Gürcüstanı tərk edən zaman çar Baqratın elçisi onun yanına gəldi. Elçinin əlində 19 misqal ağırlığında bir yaqut və 12 misqal ağırlığında bir ləl vardı. Baqrat bu hədiyyələri verərək əvəzində taxt-tacını geri almaq niyyətində idi. Lakin Uzun Həsən bu hədiyyələri qəbul etmədi və onları geri qaytardı. Gürcüstanı böyük qənimət və üç min əsirlə tərk etdi [49, 342; 292, 187].

Göründüyü kimi, Uzun Həsən siyasi dağınıqlıq dövrünü yaşayan Gürcüstanı öz hakimiyyəti altına almaq üçün mühüm cəhdlər göstərmişdi. 1472-ci ildə onun Gürcüstana yürüşü Ağqoyunluların az sonra Osmanlılara qarşı başlayacağı müharibəyə hazırlıq kimi düşünülmüşdü. Uzun Həsən asanlıqla qazanılan qələbələrlə əsgərlərin döyüş ruhunu yüksəltmək istəmiş, onların müəyyən qədər qənimət əldə etməsinə şərait yaratmışdı [74, 96].

K.Paydaşın məlumatına görə, Ağqoyunlu hökmdarı Osmanlı sultanı ilə müharibəyə yollandığı zaman ona tabe olan gürcü çarı VI Baqratdan kömək istədi. Lakin gürcü çarı bu yardımı göstərməkdən imtina etdi. Müəllifin fikrincə, bu hadisə 1477-ci ildə Uzun Həsənin Gürcüstana altıncı yürüşünə səbəb oldu. Uzun Həsən Sultan II Mehmedlə əsaslı döyüşdə məğlub olduqdan sonra yardım ala bilmədiyi gürcü çarını cəzalandırmağa qərar verdi [45, 65; 292, 187]. Uzun Həsənin bu yürüşünə qatılan İosafat Barbaronun verdiyi məlumata görə, Uzun Həsən 1477-ci ildə iyirmi minlik süvari və ona xidmət göstərən altı minlik qüvvə ilə şimal-qərb istiqamətində yürüşə başladı. Gürcüləri duyuq salmamaq üçün Ağqoyunluların Osmanlılara qarşı yürüşə çıxması ilə bağlı xəbərlər yayıldı. Yeddi günlük yürüşdən sonra sağa – Gürcüstan istiqamətinə dönüldü [26, 110; 45, 65; 292, 187]. İ.Barbaronun və C.M.Anciolellonun verdiyi məlumata əsaslanan K.Paydaş yazır ki, Ağqoyunlu ordusu gürcü torpaqlarına yaxınlaşdıqca, keçidlər meşələrlə örtülü olduğundan Uzun Həsən beş minlik süvari dəstəsini ordunun hərəkətini təmin etmək üçün irəli göndərdi. Bu qüvvələr çətin keçilən böl-

gələrdən ordunun keçməsini təmin etdi. İki günlük yürüşdən sonra ordu Tiflisə daxil oldu. Şəhər əhali tərəfindən tərk edildiyi üçün müqavimətsiz ələ keçirildi [26, 110-111; 45, 65-66; 356, 202; 292, 187].

Bu zaman çar VI Baqrat ölkəsində deyildi. Gürcülər Ağqoyunluların yürüş xəbərini eşitcək meşələrə qaçmış, bir hissəsi də qalalara sığınmışdı. Tiflisdə möhkəmlənən Ağqoyunlular gürcüləri itaət altına aldılar. Burada süvari dəstə saxlayaraq Qoriyə döğru irəlilədilər. Qorinin əhalisi dağlara qaçdığı üçün Ağqoyunlular boş şəhərə daxil oldular. Beləliklə, Tiflisdən sonra Qori də Uzun Həsənin əlinə keçdi. Ağqoyunlu hökmdarı onbeş gün ərzində meşələrə sığınmış gürcüləri əsir aldı. Bu zaman çar VI Baqrat Radşaya qaçdı. Öz qərargahını Muxranda quran Uzun Həsənin ətrafa göndərdiyi dəstələr Tiyanetiyə kimi irəlilədilər. Kaxetiya şahzadəsi I Georgi Ağqoyunlu hökmdarına hədiyyələr və kölələr göndərərək itaət edəcəyinə təminat verməyə çalışdı [26, 111; 45, 66; 292, 188]. Anciolello yazır ki, çar Baqrat və Kvarkvare yeddi nəfərlik elçi heyətini Uzun Həsənin yanına göndərərək ildə 16 min qızıl duka vergi vermək şərti ilə sülh bağlamağı təklif etdilər. Ağqoyunlu hökmdarı bu təklifi qəbul etdi [45, 66]. K.Paydaş yazır ki, Uzun Həsən Tiflisdən başqa digər gürcü torpaqlarının idarəsini Baqrata və Kvarkvareyə verərək sülh təklifi ilə razılaşdı. Uzun Həsən bu yürüşə özü ilə götürdüyü seyidlərə və alimlərə hədiyyələr payladı. O, 1477-ci ilin sonunda ələ keçirdiyi 5 min əsirlə Təbrizə qayıtdı [292, 188].

İosafat Barbaro Uzun Həsənin gürcü çarları ilə bağladığı sülh və alınan bac barədə maraqlı məlumat verir. O, yazır ki, Uzun Həsənin çar Baqrat və Kvarkvare ilə bağladığı sülhə görə onlar 24 min duka xərac verir, Ağqoyunlu hökmdarı da Tiflisdən başqa digər torpaqları onlara verməyə razı olurdu. Bu zaman çar Baqrat və Kvarkvare vergi əvəzinə dörd Bədəxşan yaqutunu elçi vasitəsilə Uzun Həsənə göndərdi. Bu daşlar Uzun Həsənə təqdim olunan zaman onun qiymətini müəyyənləşdirmək üçün İ.Barbaroya verildi. İ.Barbaro bu daşların 4 min duka dəyərində olduğunu söylədiyi zaman Uzun Həsən mənə daş-qaş

deyil pul lazımdır söyləyərək onları geri qaytardı [26, 111].

K.Paydaş yazır ki, Uzun Həsənin Gürcüstana qarşı həyata keçirdiyi bu yürüşdən sonra ölkədə vəziyyət daha da gərginləşdi. Çünki, Ağqoyunlu hökmdarı Gürcüstan bölgəsinin valiliyini tapşırdığı Sufi Xəlil vasitəsilə gürcüləri itaət altına almağı bacarmışdı [292, 188]. Lakin 1478-ci il yanvarın 5-də Uzun Həsənin ölümü ilə Ağqoyunlu taxt-tacı uğrunda mübarizə başladı. Bu mübarizəyə qoşulan Sufi Xəlil Gürcüstanı tərk edərək Təbrizə gəldi. Azərbaycan Ağqoyunlu dövlətində yaranmış vəziyyətdən istifadə edən gürcülər Tiflisdə möhkəmlənməyə çalışdılar.

Uzun Həsənin ölümü ilə gürcü hakimləri Ağqoyunlu dövlətinə ödəniləcək bacı dayandırdılar. Buna görə də, Azərbaycan Ağqoyunlu dövlətində hakimiyyətə Sultan Yaqubun keçməsi ilə gürcülər üzərinə yeni yürüşlərə başlanıldı. Fəzlullah ibn Ruzbehan Xuncinin verdiyi məlumata görə, 1482-ci ildə yaylaqdan dönən Sultan Yaqub Gürcüstana yürüş etməyə qərar verdi. Buna səbəb, gürcü hakimi Kvarkvarenin yaramaz hərəkətlərə yol verməsi idi. Bu məqsədlə Sultan Yaqub Azərbaycan və Diyarbəkr ordusunu Axıska üzərinə göndərdi. Ağqoyunlu hökmdarı Süleyman bəyin və Gülabi bəy Bəkdaşın müşayiəti ilə Təbrizdən Üçmiədzin yolu ilə Gürcüstana hərəkət etdi. Payızın sonlarında ramazan ayında Gürcüstana daxil olan Ağqoyunlu ordusu şəhərləri ələ keçirərək qarət etməyə başladı. Bu zaman havanın soyuması və qar yağması ordunun hərəkəti üçün çətinliklər yaratdı. Bu çətinliklərə baxmayaraq Sultan Yaqub Axıska şəhərinə gəldi. Şəhərdəki kilsələr dağıdıldı, xəzinə ələ keçirildikdən sonra yüksək dağ üzərində yerləşən Axıska qalası mühasirəyə alındı. Ancaq qala gürcülər tərəfindən son dərəcə möhkəmləndirilmişdi. Onu adi döyüş silahları ilə almağın çətin olduğunu görən Ağqoyunlular qalanı şiddətli top atəşinə tutdular. Topların qala divarlarında yaratmış olduğu dağıntıları gürcülər möhkəm materiallar və dəmir parçaları ilə bərpa etməyə çalışdılar. Lakin atılan toplardan birinin taxıl anbarına düşməsi nəticəsində taxılın yanmasını gürcülər hiss etmədilər. Qalada böyük bir yanğının çıxmasından gürcülərin təşvişə düşməsi Ağqoyunlu əsgərlərinin

qala divarlarına çıxmasına şərait yaratdı. Qalanın müdafiəsinin mümkünsüz olduğunu görən gürcülər qala divarlarından çəkildiyi üçün Ağqoyunlular qalaya daxil oldular. Axıska qalası ələ keçirildi. Gürcü aznaurları aman diləyərək qaladan çıxdılar. Hündür dağın zirvəsində yerləşən Axıska qalası Ağqoyunlu topçularının səyi nəticəsində fəth olundu. Gürcü aznaurlarının bir hissəsi islamı qəbul edərək bağışlandı, müqavimət göstərənlər isə qandallanaraq əsir alındı. Külli miqdarda qənimət ələ keçirildi. Sultan Yaqub gürcü çarlarının xəzinəsinin saxlandığı Xatun qalasına doğru yürüşü davam etdirdi. Bu qalada gürcü çarı Kvarkvarenin xəzinəsi və xanımının qiymətli daş-qaşı saxlanılırdı. Bu alınmaz qalanı fəth etmək hələ heç bir hökmdara nəsib olmamışdı. Bu zaman Kvarkvarenin anası da bu qalada idi. O, Ağqoyunlulara qarşı müqavimət göstərməyin mümkün olmadığını nəzərə alaraq, Sultan Yaqubdan aman istəməsini baş keşişə tapşırdı. Həmin keşişin göndərdiyi elçi qalanın təslim edilməsi və içindəki hər şeyi təslim etmək şərti ilə aman istədi. Sultan Yaqub bu təklifi qəbul etdi. Gürcü keşişi növbəti gün yanında aznaurlar olmaqla qaladan aşağı enərək Ağqoyunlu düşərgəsinə gəldi. Sultan Yaqub aznaurların mühafizə olunması üçün əsgərlərə paylanmasını, keşişin isə digər günahkar gürcülərlə birlikdə həps olunması barədə göstəriş verdi. Bundan sonra divan əmirləri və təvaçılar qalaya gedərək xəzinəni qəbul etdilər. Onlar arasında bütöv bir ölkənin xəracı dəyərində olan ləl-cəvahirat və yaqut var idi. Kvarkvare həyatını xilas etməyi qaçmaqda gördü. O, az sonra oğlunu məktub və hədiyyələrlə Sultan Yaqubun yanına göndərərək bağışlanmasını istədi. Kvarkvare ölkəsinə dönməyə icazə verilərsə, Sultan Yaqubun müəyyən etdiyi xəracla yanaşı, 500 tümən nal-baha ödəyəcəyini və bu vəsaitin ödənməsinə kimi oğlunun girov qalacağını bildirdi. Sultan Yaqub mərhəmət göstərərək bu tələbi qəbul etdi, yürüşün başa çatdığını bildirdi və geri dönməyə qərar verdi. Beləliklə, ordu kafirlərə qarşı müharibədə özünün müqəddəs borcunu yerinə yetirdi. Sultan Yaqub 40 gün çəkən bu yürüşü uğurla başa catdıraraq Şörəyel yolu ilə Təbrizə qayıtdı [Geniş məlumat üçün

bax: 68, 67-69; 292, 190]. F.Sümerin fikrincə, bu yürüşün mühüm xüsusiyyəti Ağqoyunlu ordusunun Gürcüstan qalalarının mühasirəsi zamanı topdan istifadə etməsidir [317, 26].

Sultan Yaqub Gürcüstan yürüşündən uğurla döndükdən sonra Osmanlı sultanı II Bayəzidə göndərmiş olduğu fəthnamədə Gürcüstanda həyata keçirdiyi fəthlər barədə xəbər verdi və yürüş nəticəsində çoxlu qiymətli daşı qənimət aldığını bildirdi [34, 321; 292, 191].

Azərbaycan Ağqoyunlu dövlətinin gürcü çarları ilə münasibətlərindəki gərginlik Sultan Yaqub dövründə davam etməkdə idi. Ağqoyunlu hökmdarının 1482-ci ildə Axıska səfəri uğurla başa çatdı və çar Kvarkvare illik bac verərək itaət göstərəcəyinə təminat verdi. Bu zaman Kaxeti çarı Konstantin 1478-ci ildə Uzun Həsənin ölümü ilə Ağqoyunlu dövlətində baş verən qarışıqlıqdan istifadə edərək Tiflisdə möhkəmlənməyə çalışmışdı. Fəzlullah İbn Ruzbehan Xunci yazır ki, Xəlil bəy Bəkdaşın Tiflisi tərk etməsi ilə sərhəddəki Ağqoyunlu əmirləri müdafiəsiz qaldı. Sultan Yaqub ölkədə ciddi qayda yaratdıqdan sonra 1487-ci ildə Sufi Xəlili Şirazdan geri çağıraraq Gürcüstan sərhəddindəki vilayətə hakim təyin etdi. Sultan Yaqub Qum qışlağında olan zaman Sufi Xəlil gürcülərə qarşı hücuma keçdi. Kartli çarı III Konstantin qorxudan Tiflisi tərk edərək digər mülklərinə çəkildi. Ağqoyunlularla gürcülər arasında döyüşlər davam etməkdə idi. Bu zaman Sufi Xəlil qışlamaq üçün Qarabağa gəldi. O, yaranmış vəziyyətdən istifadə edərək Tiflisi yenidən ələ keçirmək üçün hazırlıqlara başladı [68, 102; 292, 191].

K.Paydaş F.R.Xuncinin verdiyi məlumata əsaslanaraq yazır ki, Sufi Xəlilin bu hazırlıq planına yeni bir topun tökülməsi, Debed çayının aşağı axarlarında Ağcaqala və Kaozani qalalarının inşasına başlamaq daxil idi. Bu hazırlıqlar qarşısında III Konstantin Tiflisə çəkildi. Sultan Yaqub Qarabağ qışlağına gəldiyi zaman Sufi Xəlil Tiflis qalasının ələ keçirilməsi üçün görülən hazırlıqlar barədə ona məlumat verdi və yardımçı qüvvələrin göndərilməsini xahiş etdi. Sultan Yaqub onun Tiflisin fəth olunması ilə bağlı tələbini qəbul etdi və Zəngişah bəy

Pərvanəçini böyük hədiyyələrlə Sufi Xəlilin yanına göndərdi. Zəngişah bəy geri döndüyü zaman Sultan Yaqub yürüşə başlamaq barədə fərman verdi. Bu zaman Qara Ağac meşələrindəki Ağqoyunlu ordusu toplanmağa başlandı. Vəli Ağanın başçılığı altında Ağqoyunlu ordusu Tiflis qalası ətrafındakı Alget çayı yaxınlığında olan Sufi Xəlillə birləşdi. Ağqoyunlu ordusu Tiflisə yaxınlaşan zaman qış mövsümü olduğu üçün havalar soyumuş, hər tərəf qarla örtülmüşdü. Buna baxmayaraq, onlar Tiflisi almağa qərarlı idilər. Bu məqsədlə ilk öncə Kuçir qalasını mühasirəyə aldılar. Qala Ağqoyunlular tərəfindən ciddi top atəşindən sonra fəth olundu. Ələ keçirilən əsirlər və qənimət Sultan Yaquba göndərildi. 1489-cu il yanvarın 29-da Ağqoyunlular Tiflis qalasını ələ keçirmək üçün mühasirəyə aldılar. Gürcülər şəhəri boşaldaraq qalaya sığındılar. Ağqoyunlular dərhal qalanı top atəşinə tutmağa başladılar. Bu hücum qarşısında dayana bilməyən gürcülər dağlara qaçdılar. Ağqoyunlular onları təqib etdilər. Gürcülər keçidlərin birində onların yolunu kəssələr də, Ağqoyunlular mühüm şücaət göstərərək itki vermədən xilas oldular. Döyüşdə böyük şərəf qazanmış olanlar arasında şəhid olmaq arzusu ilə bu yürüşə qatılan Qazi Azud əl-İslam Səidi də vardı. Ağqoyunlu igidlərindən Hacı bəy Mosullu bu döyüşdə böyük qəhramanlıq göstərdi. Bu hadisədən xəbər tutan Ağqoyunlu əmirləri Kür çayı sahilindəki Karqatay kəndində bir neçə gün dincəldilər və növbəti hücum üçün hazırlıq gördülrər. Bu zaman məğlubiyyətdən xilas olmağa çalışan III Konstantin anasını aman diləmək arzusu ilə Ağqoyunlu əmirlərinin yanına göndərdi. Yaşlı qadın nə qədər çalışsa da əmirlər onun üzürxahlığını qəbul etmədilər. Buna görə o, ümidsiz şəkildə oğlunun yanına qayıtdı. Bir şey əldə edə bilməyəcəyini dərk edən III Konstantin Tiflisi tərk etməyə məcbur oldu. 1489-cu il fevralın sonunda Ağqoyunlu əmirlərindən Vəli Ağa Tiflisi ələ keçirdi [68, 102-103; 292, 191-192].

Tiflis qalası alındıqdan sonra onun gürcülərin əlinə keçməsinin qarşısını almaq üçün bəzi tədbirlər görüldü. Bəzi Ağqoyunlu əmirlərini Tiflisdə saxlayan Əmir Xəlil bəy Bəkdaş Ağqo-

yunlu ordusu ilə Qarabağda Qara Ağacda olan Sultan Yaqubun yanına döndü. Ağqoyunlu hökmdarı bu yürüşdə iştirak edən hər kəsə hədiyyələr payladı. Bu yürüşdə xüsusi qəhrəmanlıqlar göstərən Hacı bəy Mosulluya tuğ və nağara bağışlandı [68, 102-103; 292, 191-192].

Beləliklə, Ağqoyunlu hökmdarının Gürcüstana bu növbəti yürüşü də uğurla başa çatdı, Tiflis daxil olmaqla Şərqi Gürcüstanın mühüm hissəsi Azərbaycan Ağqoyunlu dövlətinin nəzarəti altına keçdi. Lakin bu vəziyyət uzun müddət davam etmədi. 1490-cı il dekabrın 24-də Sultan Yaqubun Qarabağda ölümü ilə Azərbaycan Ağqoyunlu dövlətində taxt-tac uğrunda mübarizənin başlanması nəticəsində mərkəzi hakimiyyət zəiflədi. Bundan istifadə edən Kartli hakimləri Tiflisə daxil olaraq bölgədə öz hakimiyyətlərini yenidən bərpa edə bildilər. Lakin F.Kırzıoğlunun qeyd etdiyi kimi, Uzun Həsən və oğlu Sultan Yaqub dövründə Ağqoyunlulara tabe edilən Atabəylər yurdu ilə Açıqbaş (İmeretiya – T.N.) bölgəsi Ağqoyunlu dövlətinin süqutuna kimi onların nəzarətində qaldı. 1501-ci ildə Trabzon hakimi şahzadə Səlim Gürcüstana yürüş edərək həmin bölgəni Osmanlı dövlətinə birləşdirdi [250, 86].

## *IV. 4.* Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı dövlətilə qarşılıqlı əlaqələri

Azərbaycanın Osmanlı Türkiyəsi ilə qarşılıqlı əlaqələri tariximizin lazımi səviyyədə öyrənilməmiş problemlərindəndir. Problemin araşdırılmasının tarixşünaslığımız üçün başlıca elmi əhəmiyyəti budan ibarətdir ki, Azərbaycan xalqının XV-XVI əsrlərdəki inkişafı Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri kimi geniş əraziyə malik olan siyasi qurumlarının tarixi ilə bilavasitə bağlı olmuşdur. Bu dövlətlərin sosial-siyasi, iqtisadi tarixinin, onların Osmanlı Türkiyəsi ilə qarşılıqlı əlaqələrinin dərindən öyrənilməsi ümumdünya tarixinin bəzi məsələlərinin obyektiv həlli üçün də vacibdir. Orta əsrlər Şərqinin Azərbaycan Ağqoyunlu və Səfəvi dövlətləri kimi iri siyasi vahidləri qonşu dövlətlərlə geniş iqtisadi əlaqələrə malik

idi. Bu feodal dövlətləri beynəlxalq münasibətlər sistemində fəal mövqe tutmuş, Asiya və Avropa ölkələrinin Osmanlı imperiyasına qarşı hərbi-şiyasi ittifaqlarında başlıca rol oynamışlar.

Ağqoyunlu-Osmanlı münasibətləri məsələsinə tarixşünaslığımızda Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə əlaqələrinin səbəblərini izah etmək məqsədilə araşdırmalar aparmış tədqiqatçılar ümumi şəkildə toxunmuşlar. İ.P.Petruşevski Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə (xüsusən Venesiya ilə) diplomatik əlaqələrini tədqiq etmiş, Ağqoyunlu hökmdarının Avropaya meyl etməsini XV əsrin II yarısında Osmanlı Türkiyəsinin gömrük siyasəti, habelə sultan II Mehmedin (1451-1481) qəsbkarlıq planları ilə əlaqələndirmişdir [416, 172-173; 126, 114]. C.M. İbrahimov da Azərbaycanın XV əsr tarixinə dair tədqiqatlarında İ.P.Petruşevskinin elmi nəticələrini təsdiq etmişdir [398, 41]. Bəzi əsərlərdə isə Ağqoyunlu-Osmanlı münasibətləri tədqiq edilərkən Osmanlı dövlətinin istilaçılıq siyasəti ön plana çəkilir. Azərbaycan Ağqoyunlu dövləti Venesiya respublikası və digər Qərb dövlətləri «Türk hücumu təhlükəsindən ehtiyat edən» siyasi vahidlər kimi təqdim edilir [374, 224]. Ağqoyunlu-Osmanlı münasibətləri Y.M.Mahmudovun əsərlərində daha geniş tədqiq olunmuşdur [Bax: 109; 110; 111; 112]. Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı Türkiyəsi ilə münasibətlər tarixini elmi baxımdan düzgün qiymətləndirmək üçün bu əlaqələrin inkişaf prosesini iki dövrə bölmək mümkündür:

*1. Ağqoyunluların Azərbaycanda hakimiyyətə gəlməsindən əvvəlki dövr.*

*2. Azərbaycan Ağqoyunlu dövlətinin yaranmasından sonrakı dövr.*

XV əsrin ikinci yarasında Ağqoyunlu tayfa ittifaqı Dəclə və Fərat çaylarının yuxarı axarında möhkəmlənmişdi. Diyarbəkr isə bu feodal bəyliyinin mərkəzi idi. Ağqoyunlu əmirləri ilə Osmanlı sultanları arasında ənənəvi düşmənçilik münasibətləri vardı. Yaşar Yücel və Yılmaz Öztuna bu düşmənçiliyin XIV əsrin sonlarında Qara Osmanın dövründə yarandığını göstərir. Qazi Bürhanəddini öldürən Ağqoyunlu hakimi Osman bəy Siva-

sı almağa çalışırdı. İldırım Bayəzidin Sivası zəbt etməsi, ağqoyunluların ən böyük rəqibi olan qaraqoyunluların Osmanlıların dostu olması bu düşmənçiliyi daha da gücləndirdi [364, 247-248; 283, 279]. Faruq Sümerin fikrincə, Ağqoyunlu bəyliyinin qurucusu olan Qara Osmanın osmanlılarla münasibətləri daim dostluq məcrasında keçmişdi [317, 15; 126, 115]. Osmanlı dövləti ilə həmsərhəd olan ərazilərdə Ağqoyunlu tayfa ittifaqının getdikcə güclənməsi Osmanlı sultanlığını təşvişə saldığından, Sultan İldırım Bayəzid öz qüvvələrini toplayaraq Ağqoyunlulara qarşı mübarizəyə qalxdı. Vəziyyətin gərginləşdiyini hiss edən Qara Osman osmanlılar əleyhinə mübarizədə Teymurun qüvvələri ilə əlaqəyə girdi. Teymur qoşunlarının Kiçik Asiyaya yürüşü zamanı onlar üçün əlverişli şərait yarandı. Ağqoyunlular Ankara döyüşündə (1402) İldırım Bayəzidə qarşı Teymurun tərəfində vuruşduqları üçün Ağqoyunlu-Osmanlı münasibətləri daha da pisləşdi. T.Bıyıqlıoğlu belə hesab edir ki, Teymurun istilasından sonra Osmanlı dövləti daxilində baş verən qarışıqlıqdan faydalanan Ağqoyunlular Osmanlı torpaqlarına təcavüz etməkdən belə çəkinmədi. Bu təcavüzlər 50 ildən artıq bir müddət ərzində baş verdi [231, 50, tərcüməçinin qeydi; 126, 115]. Dövrün qaynaqları T.Bıyıqlıoğlunun bu iddiasını tamamilə təkzib edir. Osmanlı sultanı I Mehmedin Qara Osmana məktubunda deyilir: « ...Biz (bu vaxtlar ərzində) onlardan (yəni Qara Osmandan – T.N.) dostluq və xeyirxahlıqdan başqa bir şey müşahidə etməmişik, ... özünüzü əski dost və bu tərəfdən səmimi insan bilib, bu münasibətdə heç bir dəyişikliyə yol verməyin» [9, 185; 34, 155]. Məktubdan göründüyü kimi, Osmanlı Sultanı Ağqoyunlu hökmdarı Qara Osmanla münasibətlərinin dostluq məcrasında inkişaf etdiyindən bəhs etməkdədir. Ancaq nəzərə almaq lazımdır ki, bu dostluğun dərin özülü olmadığından, o yalnız zahiri xarakter daşımışdır.

XV əsrin 40-50-ci illərində Ağqoyunlu tayfa ittifaqında hakimiyyət uğrunda daxili mübarizə kəsilmək bilmədən davam etdiyi üçün onların nəzarətində olan ərazilər əldən-ələ keçirdi. Qara Osmanın dövründə xeyli möhkəmlənərək qüvvətli mövqe

qazanan Ağqoyunlu bəyliyində başlanan və arası kəsilməyən mübarizə Osmanlı sultanlığının diqqətini özünə cəlb edir. Osmanlı sultanı Ağqoyunlular əleyhinə bir sıra tədbirlər həyata keçirməyə cəhd etsə də, əhəmiyyətli nəticələr əldə edə bilmədi. Ağqoyunlu-Osmanlı münasibətlərindəki gərginlik artmağa başladı.

Ağqoyunlu-Osmanlı münasibətlərinin pisləşməsində ticarət mənafelərinin toqquşmasının mühüm rolu oldu. XV əsrin II yarısında beynəlxalq əhəmiyyəti olan başlıca karvan yolları Ağqoyunlu dövlətinin ərazisindən keçirdi. Bu yollardan biri Yaxın və Orta Şərq bazarlarını Təbrizlə, Xəzər sahili Azərbaycan bölgələrini isə, Həştərxan vasitəsilə Moskva ilə birləşdirirdi [Bax: 109, 13-14]. Digər mühüm karvan yolu Hindistanı, İranı və Azərbaycanı Qara dənizlə birləşdrən Hörmüz-Təbriz-Trabzon ticarət yolu idi. Şərq-Qərb ticarət əlaqələrinin inkişafında Təbriz-Bursa-İstanbul yolunun da böyük əhəmiyyəti vardı [110, 12].

Azərbaycan-Osmanlı və Azərbaycan-Avropa ticarət əlaqələrində Təbriz-Bursa karvan yolu mühüm rol oynayırdı. Bu karvan yolunda başlıca məntəqə Toqat idi. Təbrizdən gedən ticarət karvanları Toqatda Şirvan, Gəncə və Gürcüstandan gələn ipək karvanları ilə birləşir və Bursaya yönəlirdi. Fəxri Dalsar Bursaya gedən ipək karvanlarında təxminən 300-400 yük heyvanının olduğunu göstərir [193, 129]. Xəlil İnalcık qeyd edir ki, Təbrizdən gələn hər karvan Bursaya orta hesabla 200 tay ipək gətirirdi [232, 53]. Şirvan ipəyi də Bursa ticarətində önəmli yer tuturdu. 1467-ci ildə, yalnız Əbdürrəhim adlı bir tacir Şamaxıdan Bursaya 220 min akça dəyərində olan 4400 tay ipək gətirmişdi [275, 125; 126, 115].

Aralıq dənizinin Şərqində möhkəmlənmək uğrunda Venesiya ilə müharibəyə başlayan II Mehmed Avropa-Şərq ticarətində inhisar mövqeyə malik olmaq istəyirdi. Müzəffər Arıkanın fikrincə, osmanlılar nəinki Anadoludan keçən ticarət yollarına, həm də Şərq ilə Qərb arasındakı bütün ticarət yollarına hakim olmağa çalışırdılar [328, 653; 126, 115]. Buna görə də, II Mehmed müxtəlif üsullarla avropalıların Şərqlə ticarətinə mane

olurdu. O, Osmanlı Türkiyəsi hüdudlarında toxuculuğun inkişafına ciddi fıkir verirdi. Sultan Türkiyəni Şərqdən alınan ipəyi toxuyaraq avropalılara hazır məhsul şəklində satan bir ölkəyə çevirməyə çalışırdı. O, bu məqsədlə, cürbəcür məhdudlaşdırıcı tədbirlərlə Azərbaycandan gətirilən xam ipəyin Osmanlı Türkiyəsindən xaricə aparılmasına maneçilik törədirdi. Azərbaycandan gətirilən xam ipək əlverişli olmayan şərtlərlə Osmanlı tacirlərinə satılmalı idi. Ağqoyunluların Osmanlı ərazisi vasitəsilə Qərblə ticarət etməyə məcbur olduqlarını yaxşı anlayan II Mehmed Azərbaycan tacirlərindən çoxlu kömrük haqqı alırdı. Azərbaycandan Bursaya gedən ipək karvanlarından iki yerdə (Toqatda və Bursada) kömrük haqqı ahnırdı [19, 41; 232, 52; 126, 115].

Xəlil İnalcık qeyd edir ki, Azərbaycan tacirləri Toqatda ikinci kömrük vergisindən çox şikayət edirdilər. Uzun Həsən isə bunu Fatehin çıxardığı haqsız bir bidət hesab edir və pisləyirdi [232, 52]. II Mehmedin qanunlarına görə, xam ipək və ipək parçadan hər 100 axçaya 2 axça hesabı ilə gömrük alınırdı [110, 14]. Osmanlı dövlətində ümumi ticarət gömrüyündən əldə edilən 3 mln. akca gəlirin 2 mln-u ipəkdən alınırdı [232, 57; 110, 14]. Beləliklə, Ağqoyunlu dövləti ilə Osmanlı Türkiyəsi arasında dərin ticarət ziddiyyətləri vardı. Osmanlı dövlətinin iqtisadi siyasətinin bu axarda davam etməsi Ağqoyunlu dövlətinin süqutuna səbəb ola bilərdi. Təbii ki, Ağqoyunlu-Osmanlı qarşıdurmasının siyasi mahiyyətini hər iki tərəfin mühüm beynəlxalq ticarət yollarının keçdiyi Anadolu torpaqlarını öz hakimiyyəti altında birləşdirmək məqsədi təşkil edirdi. Mübarizə bu prosesin sadəcə hansı istiqamətdən və hansı dövlət tərəfindən həyata keçiriləcəyi uğrunda gedirdi [118, 231].

Sultan II Mehmed Şərqdən gələn ipək karvanlarından gömrük haqqı almaqla kifayətlənmirdi. O, 1453-cü ildə strateji, hərbi-siyasi, iqtisadi əhəmiyyəti olan Bosfor və Dardanel boğazlarını ələ keçirdikdən sonra Şərq istiqamətində də geniş istilaçılıq müharibələrinə başladı. Sultan bu zaman Ön Asiyada mövcud olan bütün xırda feodal dövlətlərini – Qaraman, İs-

fəndiyar oğulları, Alaiyyə, Zülqədəroğulları bəyliklərini, Şimali Anadoludakı Genuya müstəmləkələrini, Trabzon və Ağqoyunlu dövlətlərini aradan qaldırmaq, bütün Anadolu yarımadasını öz hakimiyyəti altında birləşdirmək istəyirdi [407, 51; 126, 116]. O, Şərqdə ticarətdə üstünlüyü ələ almağa, imperiya ərazisində inkişaf edən ipəkçilik itehsalını daimi xammalla təmin etmək üçün «Osmanlı iqtisadiyyatının şah damarı olan Təbriz-Toqat-Bursa ipək yolu»nu ələ keçirməyə çalışırdı [233, 515]. Digər tərəfdən iqtisadi cəhətdən böyük əhəmiyyəti olan Şərqi Anadolunun fəth olunması ilə Osmanlılar Təbriz-Hələb, Təbriz-Bursa ipək yolunun tam nəzarətini ələ keçirmiş olurdular. Şübhəsis ki, bu iki yol Osmanlı xəzinəsinin böyük gəlir mənbəyi olacaqdı [234, 300]. Xəlil İnalcık belə bir nəticəyə gəlir ki, Bursanı Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzi olan Təbrizlə birləşdirən bu ipək yolu Osmanlı fəthlərini Şərqə doğru istiqamətləndirən əsas amil idi [232, 51]. II Mehmedin Təbriz-Bursa tranzit yolu üzərində hakim olmaq təşəbbüsü Ağqoyunlu dövləti ilə Osmanlı dövləti arasında uzunmuddətli və ağır bir mübarizəyə gətirib çıxaracaqdı [233, 515-516; 126, 116]. Osmanlı sultanı dövrün başlıca ipək mənbəyi olan Azərbaycanı, habelə bütün Cənubi Qafqazı fəth etmək niyyətində idi.

Sultan II Mehmedin Trabzon yunan dövlətini aradan qaldırmaq cəhdləri də Ağqoyunlu-Osmanlı ziddiyyətlərini kəskinləşdirdi. II Mehmed Trabzonu tutmağa və beləliklə özünün başlıca rəqibi olan Ağqoyunlu dövlətini Qara dənizə çıxış yolundan məhrum etməyə, onun Qərblə əlaqələrini kəsməyə can atırdı. Səlahəddin Tanselin fikrincə, Fateh Trabzonu almaqla Şərq ilə Qərbi birləşdirən böyük dəniz ticarəti yolunun nəzarətini öz əlinə keçirmiş olardı [326, 17; 126, 116].

XV əsrin II yarısında Şərq istiqamətində Osmanlı işğallarının güclənməsi ilə bağlı Ağqoyunlu Trabzon munasibətləri daha da möhkəmləndi. 1459-cu ildə Murad bəyin başçılığı ilə Ağqoyunlu elçiləri İstanbula gəldilər. Onlar Trabzonun Osmanlılara verdiyi bacın ləğv olunmasını, Dəspinə xatunun cehizi olan Sivas-Kayseri bölgəsinin Ağqoyunlulara təslim edilməsini

tələb etdilər [270, 92; 250, 26-27]. II Mehmed bu tələbi rədd etdi. İstanbuldan mənfi cavab alan Uzun Həsən 1460-cı ilin baharında Trabzon yaxınlığında mühüm strateji məntəqə olan Qoyluhisarı ələ keçirdi. Y.Yücel və B.S.Baykal Əbubəkr Tehraninin verdiyi məlumatlara əsaslanaraq yazırlar ki, bu zaman Fateh Sultan Mehmed Uzun Həsənlə sülh əldə etmək məqsədilə Muş Əli adlı bir nəfəri elçi göndərdi. Uzun Həsən bu elçini böyük əmirlərindən olan Xurşid bəylə birlikdə Fateh Mehmedin yanına göndərdi. Elçi onun «Trabzon və ətrafındakı qalalarla bağlı tələblərini» Osmanlı sultanına bildirdi. Sultan II Mehmed bu tələbləri qəbul etdi və əmirlərinə xəbər göndərərək Trabzon torpaqlarına hücum etməməyi, bu bölgəni Uzun Həsənin təbəələrinə həvalə etməyi tapşırdı [365, 301-302; 180, 76; 126, 116].

Beləliklə, iki dövlət arasında baş verə biləcək böyük bir münaqişənin qarşısı alındı. B.S.Baykal Sultan Mehmedin Uzun Həsənin tələblərini qəbul etməsinin səbəbini, Fatehin daha vacib olan Mora səfərinə hazırlaşmağında görür [180, 76]. Lakin II Mehmed heç də Trabzonu işğal etmək fıkrindən əl çəkməmişdi. S.Tansel Ağqoyunlularla münasibətdə II Mehmedin tərəddud etməsinin səbəbi barədə yazır: «Uzun Həsənın təcavüzünün artması Fatehə qəti olaraq bunu anlatmışdı ki, özünə arxadan zərbə vura biləcək bir dövləti bitərəf etməsə, Trabzona yürüş təhlükəli ola bilər» [326, 264-265]. Buna görə də, «II Mehmed Trabzon probleminin həllini təxirə salaraq, Uzun Həsənlə hesablaşmaq üçün öz ordusunu Ərzincana yeritdi və Yassıçəmən adlanan yerdə ordugah qurdu» [326, 264-265].

Türkiyə tarixçiləri arasında bu məsələyə münasibətdə müəyyən fıkir ayrılığı mövcuddur. Bəkir Sidqi Baykal və Yaşar Yücel Səlahəddin Tanselin fikrinə qarşı çıxaraq göstərir ki, Fateh Mehmedin başlıca hücum hədəfi Uzun Həsən deyil, Trabzon olmuşdur [180, 78; 365, 304-305]. Yaşar Yücel Firudin bəyin "Münşəatüs-selatin"ında Cahanşahın Bağdadda Pirbudağın üsyanını yatırdıqdan sonra Sultan II Mehmedə göndərdiyi məktubuna Osmanlı sultanının göndərdiyi cavab məktubuna

əsaslanaraq yazır ki, bu önəmli məktub nədənsə indiyə kimi Osmanlı tarixçiləri tərəfindən istifadə olunmamışdır. Fateh II Mehmed öz məktubunda "Əziz atam" deyə müraciət etdiyi Cahanşaha hakimiyyəti dövründə göstərdiyi fəaliyyəti xatırlatmış, etdiyi yürüşlərlə bağlı məlumat verdikdən sonra yazırdı: " ...Onun günahını əfv etdikdən sonra Trabzon ölkəsi qalalarının fəthinə qərar verdik. Bu qalalar Ağqoyunlu Həsən bəyin ölkəsinə yaxındır və Həsən bəy onunla (Trabzon imperatoru – T.N.) ittifaq yaratmışdır. O yerlərin yaramaz kafirlərdən asanlıqla azad edlməsinin müəssər olacağına ümid edilir" [365, 304]. Y.Yücelin qənaətinə görə, Sinopun ələ keçirilməsindən sonra yazılmış bu məktub Fateh II Mehmedin Ağqoyunlu ölkəsinə deyil, Trabzona doğru yürüş etdiyini göstərir. Əgər Fateh II Mehmed məktubunda adını xatırlatdığı Uzun Həsənə qarşı yürüşə çıxmağı planlaşdırsaydı, onun bu məsələdə susması imkansızdır. Çünki məktub Ağqoyunluların düşməni olan Cahanşaha yazılmışdı. Məktubda hərbi yürüşün və onun istiqamətinin gizlədilməsinin heç bir faydası yox idi. Əksinə, Uzun Həsənə arxadan zərbə vurmaq üçün vəziyyətin bütün açıqlığı və təfsilatı ilə bildirilməsinə ehtiyac olardı [365, 304-305].

Bu dövrdə Ağqoyunlu dövləti çox çətin vəziyyətə düşmüşdü. Çünki Uzun Həsən keçmiş rəqibi olan Qaraqoyunlularla mübarizə aparırdı. Teymuri hökmdarı Əbu Səid də Qaraqoyunlu dövləti ilə ittifaq bağlamışdı. Ağqoyunlular iki təhlükə arasında qalmışdılar. Beləliklə, o zaman hələ kiçik feodal bəyliyi olan Ağqoyunlu dövlətinin aradan qaldırılması təhlükəsi yaranmışdı. Vəziyyəti düzgün qiymətləndirən Uzun Həsən Yassıçəmənə – II Mehmedin hərbi düşərgəsinə bir elçi heyəti göndərməyə qərar verdi [407, 54; 126, 117].

Əbubəkr Tehraninin verdiyi məlumata görə, Fateh II Mehmed Uzun Həsənin yanına elçi göndərərək sülh bağlamağı təklif etmişdi. O, yazır: «Rum padşahı Uzun Həsənə elçi göndərdi və bildirdi ki, əgər o, anası Saray Xatunu sülh üçün onun yanına göndərərsə, sülh bağlamağa, Trabzona olan iddialarından imtina etməyə hazırdır» [50, 392; 126, 117]. Ağqoyunlu el-

çilərinə Saray Xatun başçılıq edirdi. Bəkir Sidqi Baykal Əbubəkr Tehraninin verdiyi məlumatların doğru olduğunu qəbul edir və Uzun Həsənin anasını Fatehin yanına yollamağa razı olmasının səbəbinin cavabsız qaldığını yazır [180, 80].

Bütün Yaxın və Orta Şərqdə böyük nüfuzu olan Saray Xatun Osmanlı sultanının hərbi düşərgəsində yaxşı qarşılandı. Qaynaqların verdiyi məlumata görə, danışıqlar zamanı Saray Xatun və II Mehmed bır-birinə «ana» və «oğul» deyə müraciət etmişdilər [22, 207-208; 42, 752-753]. Saray Xatun bu danışıqlar zamanı özünün bütün diplomatik bacarığından istıfadə etdi və Uzun Həsənin birinci tapşırığını yerinə yetirə bildi: II Mehmedi Ağqoyunlu dövlətinə qarşı müharibə etmək fıkrindən daşındırdı [109, 19; 183, 262]. Rəşad Əkrəmə görə, iki ölkə arasında, Ağqoyunluların Osmanlı dövlətinə, habelə onun himayəsindəki ərazilərə hücum etməməsi, Osmanlı qoşunlarının Trabzona hücumu zamanı Ağqoyunlu dövlətinin bitərəf qalması şərtilə sülh müqaviləsi bağlandı [295, 27-28; 126, 117]. Bu sülh müqaviləsinin Ağqoyunlu dövləti üçün böyük əhəmiyyəti oldu. Məhz Saray Xatunun bağladığı bu müqavilə nəticəsində o zaman Osmanlı imperiyası ilə toqquşmağa qadir olmayan kiçik Ağqoyunlu dövləti öz müstəqilliyini saxlaya bildi. Lakin Saray Xatunun bütün səylərinə baxmayaraq, II Mehmedi Trabzon fəthindən çəkindirmək mümkün olmadı [126, 117].

Yaşar Yücel II Mehmedin Trabzon fəthi ərəfəsində Uzun Həsənlə olan münasibətlərini təhlil edərək belə bir nəticəyə gəlir ki, nə Uzun Həsən Fatehi Trabzon fəthindən çəkindirmək üçün qəti bir təşəbbüs göstərdi, nə də Fateh onu tamamilə bitərəf etməyə çalışmadı. Üstünlüyün Fatehin tərəfində qaldığı və Uzun Həsənin «şəfaət» diləməsi haqqında Osmanlı rəvayəti qəbul oluna bilməz. Çünki, Fateh bütün Trabzon səfəri boyunca Uzun Həsəndən çəkindi və onun arxadan edəcəyi hücumdan ehtiyat etdi. İbn Kamalın düzgün olaraq qeyd etdiyi kimi sultanın Saray Xatunu özü ilə Trabzona götürməsi də bunu sübut edir [365, 311; 126, 117-118].

1461-ci il oktyabrın 26-da Trabzon Osmanlı ordusu tərə-

findən ələ keçirildi. Şəhərin əldən getdiyini görən Saray Xatun öz gəlininin (Dəspinə xatunun – T.N.) Trabzon taxtına olan varislik hüququnu irəli sürdü. O, bundan istifadə edib Trabzon xəzinəsini Sultan II Mehmedlə bölüşdürdü [251, 100].

Yaşar Yücel bunu, sultanın danışıqlar zamanı Saray Xatuna bəzi şeylər vəd etməsi ilə əlaqələndirir [365, 311]. Yaşar Yücel və Əli Sevim yazır ki, Sultan Fateh Uzun Həsənin ölkəsinin sərhədlərinə gələn zaman girov olaraq götürülmüş Saray Xatunu bir elçi heyəti və Trabzon xəzinəsindən əldə olunmuş hədiyyələrlə oğlunun yanına göndərdi. Osmanlı heyəti Uzun Həsənlə mövcud olan müqaviləni «Şərq sərhədlərinin təhlükəsiz olması şərtilə təzələdi» [366, 158]. Osmanlı sultanı atdığı bu addımla qərbdəki istilalarını həyata keçirərkən şərq sərhədlərinin təhlükəsizliyini təmin etmiş oldu.

Trabzonun fəth olunması nəticəsində Ağqoyunlu dövləti nəinki öz müttəfiqini itirdi, habelə Qara dənizə olan yeganə çıxış yolundan da məhrum oldu. Bu, öz növbəsində Ağqoyunlu-Osmanlı münasibətlərini xeyli kəskinləşdirdi. Remzi Kılıçın qeyd etdiyi kimi, Fateh Sultan Mehmedlə Uzun Həsən arasındakı mübarizənin birinci mərhələsi Trabzon imperiyasına son qoyulması ilə Fatehin xeyrinə başa çatmış oldu [251, 100].

Şübhəsiz ki, Uzun Həsən Şərqi Anadoluda möhkəmlənmək üçün Osmanlı sultanı ilə mübarizədən imtina etmək fikrində deyildi. Osmanlı Sultanı II Mehmedin öz ərazilərini Anadoluda davamlı şəkildə genişləndirmək istəyi onu Uzun Həsənlə qarşı-qarşıya gətirdi. R.Kılıç yazır ki, Trabzonu itirən Uzun Həsən Qaraman ərazisini öz nüfuz sahəsi saydığı üçün Osmanlı sultanı ilə mübarizənin uzun sürən ikinci mərhələsi başlamış oldu [251, 100-101].

Qaraman hadisələri Ağqoyunlu-Osmanlı ziddiyyətlərini son həddə çatdırdı. Aralıq dənizi sahilində, çox əlverişli coğrafi mövqedə yerləşən Qaraman bəyliyi bütün Anadolu yarımadasını ələ keçirməyə çalışan Osmanlı dövləti ilə Qərbi Avropa ölkələri ilə bilavasitə ticarət əlaqələri yaratmağa çalışan Ağqoyunlu dövləti arasında mənafelərin toqquşduğu düyün nöqtəsi

idi. Trabzonun işğalından sonra Qara dəniz ticarətindən məhrum olan Ağqoyunlular üçün Qaramanın əhəmiyyəti xeyli artmışdı. Qaraman bəyliyi Osmanlılara qarşı Ağqoyunlu dövlətinin ənənəvi müttəfiqi idi. Qaraman ərazisinin Ağqoyunlu dövləti üçün hərbi-strateji məntəqə kimi əhəmiyyəti daha böyük idi. Osmanlı imperiyası ilə labüd olan müharibənin yaxınlaşdığı bir şəraitdə Uzun Həsən Qaraman ərazisini heç cür itirmək istəmirdi [109, 20; 126, 118].

Ədnan Sadıq Ərzi bu məsələ ilə bağlı yazır ki, Trabzonun Osmanlılar tərəfindən fəthi Uzun Həsən dövlətinə şimal istiqamətində təhlükə törədirdi. Qaramanın itirilməsi isə Ağqoyunlu hökmdarı üçün daha təhlükəli ola bilərdi. Buna görə də Fatehin rəqibi olan, Anadoluda hegemonluq uğrunda mübarizəyə başlayan Uzun Həsənin Qaramana hərbi, siyasi müdaxiləsi və bu bölgədə müttəfiq bir dövlətin olmasını istəməsi təbii idi [218, 94].

Remzi Kılıçın fikrincə, Fateh Sultan Mehmed Asiya-Avropa tranzit ticarət yollarını nəzarət altında tutaraq yüksək vergilər aldığı üçün Avropa dövlətləri ilə Ağqoyunlu dövlətinin iqtisadi maraqlarına zərbə vurmuşdur. Buna görə də, Avropa dövlətləri iki türk dövləti arasında öz maraqlarını qorumağa çalışmışdı. Venesiya Fatehlə münasibətlər qurmaq üçün yollar axtarsa da, Qaramanlılar və Ağqoyunlular ilə əlaqə yaratmaqda heç də çətinlik çəkmədi. Çünki hər iki dövlət Orta Anadolunu hakimiyyətləri altına almaq niyyətində idi və qarşılarında yeganə rəqib Osmanlı dövləti idi [251, 102].

Akşin Sina qeyd edir ki, Şərqi Anadoluda Osmanlılara düşmən olan Ağqoyunlu dövləti ilə toqquşmanın getdikcə yaxınlaşdığı bir şəraitdə cənubdan təhlükəsizliyə tam əmin olmaq istəyən Fateh Sultan Mehmed Qaraman ölkəsini zəbt etmək qərarına gəldi [172, 91-92]. 1464-cü il avqustun 4-də Qaraman əmiri İbrahimin ölümündən sonra Osmanlı sultanının Qaramanı işğal etməsi üçün əlverişli imkan yarandı. Uzun Həsən yaranmış fürsətdən istifadə edərək İshaqı Qaraman taxtına yerləşdirsə də, son nəticədə, Osmanlı qoşunlarının köməyi ilə Pir Əhməd Qara-

man taxtını ələ keçirdi [255, 105-106; 326, 286]. İshaq kömək almaq üçün Uzun Həsənin yanına qaçdı. Lakin Cahanşahla həlledici döyüşə hazırlaşan Ağqoyunlu hökmdarı bu dəfə öz müttəfiqinə yardım edə bilmədi. Türkiyə tarixçiləri etiraf edirlər ki, Asiyada, «Qaraman problemini» ən radikal şəkildə qısa bir vaxtda həll edən Osmanlı dövləti Ağqoyunlu dövləti üçün həqiqətən bir təhlükə halını aldı [244, 62].

«Qaraman məsələsində» ilk müvəffəqiyyətsizliyə uğrayan Ağqoyunlu hökmdarı Osmanlı Türkiyəsinin Şərqdəki müttəfiqləri ilə mübarizəyə başladı. O, 1464-1469-cu illər ərzində ardıcıl olaraq böyük qələbələr qazandı. Uzun Həsən 1467-ci ilin noyabrında Ərzincan yaxınlığında, Qaraqoyunlu Cahanşah üzərində parlaq qələbə qazandı. Bundan sonra Cahanşahın oğlu Həsənəlini də məğlub edən Ağqoyunlular 1468-ci ilin baharında Kürdən cənubda olan bütün Azərbaycan ərazilərini ələ keçirdilər [109, 23]. Azərbaycan Qaraqoyunlu dövləti süqut etdi. Onun yerində paytaxtı Təbriz şəhəri olan Azərbaycan Ağqoyunlu dövləti yarandı.

1469-cu ilin əvvəllərində Uzun Həsən Qızılağac və Mahmudabad yaxınlağında Teymuri hökmdarı Əbu Səidin 27 minlik ordusunu darmadağın etdi. Teymurilər dövləti müvəqqəti olaraq Ağqoyunlulardan asılı vəziyyətə düşdü [398, 36]. Beləliklə, az vaxt ərzində iki təhlükəli düşməni aradan qaldıran Uzun Həsən Kürdən cənubdakı Azərbaycan torpaqları (Ərdəbil mahalı istisna olunmaqla – T.N.) Şərqi Anadolu, İraq, Kürdüstan və bütün Qərbi İranı əhatə edən geniş əraziyə malik olan öz imperiyasını yaratdı. Azərbaycan Ağqoyunlu imperiyası Orta Şərqdə mühüm hərbi-siyasi qüvvəyə çevrildi. Bu vaxtdan etibarən Ağqoyunlu-Osmanlı münasibətlərinin ikinci dövrü başlandı.

***Ağqoyunlu-Osmanlı münasibətlərinin II dövründə*** Uzun Həsən Osmanlılara qarşı hərbi ittifaq yaradılmasının əsas təşkilatçısı idi. Bu vaxtdan etibarən Azərbaycan Ağqoyunlu dövlətinin Osmanlı Türkiyəsinə qarşı münasibətlərinin xarakteri də dəyişdi. XV əsrin 60-cı illərinin sonuna yaxın Osmanlı imperiyasına qarşı mübarizə Ağqoyunlu dövlətinin başlıca xarici si-

yasət məsələsinə çevrildi. Uzun Həsən Osmanlı dövlətini aradan qaldırmağa, bütün Kiçik Asiyanı ələ keçirməyə, Avropa ölkələri ilə bilavasitə ticarət əlaqələri yaratmağa çalışırdı [407, 59]. O, Osmanlı imperiyasına qarşı müharibəyə hazırlaşır, fəal xarici siyasət yeridirdi. Yılmaz Öztuna yazır ki, Təbrızdə – Uzun Həsənin sarayında Osmanlı dövlətini Kiçik Asiyanın siyasi xəritəsindən yox etmək planı hazırlanırdı. Bu palana əsasən İstanbul da daxil olmaqla Anadolu Ağqoyunlulara, bütün Rumeli isə Venesiya və onun müttəfiqlərinə veriləcəkdi. Osmanlı dövləti məhv ediləcək, Uzun Həsən isə İstanbul taxtında oturacaqdı [283, 59]. Müzəffər Ərəndil də Osmanlı ərazisinin Venesiya ilə Ağqoyunlular arasında bölüşdürülməsini nəzərdə tutan Təbriz planının olduğunu qeyd edir [212, 35]. Göründüyü kimi, Ağqoyunlu hökmdarı Uzun Həsənin də fəal qəsbkarlıq planları vardı. O, Yaxın və Orta Şərqdə hegemonluq uğrunda Osmanlı sultanı ilə fəal rəqabət aparırdı.

XV yüzilliyin ortalarında Osmanlı sultanı II Mehmed mühüm strateji, hərbi- siyasi və iqtisadi əhəmiyyətə malik olan Bosfor və Dardanel boğazlarını ələ keçirmiş, ardınca da Şərq istiqamətində geniş istilaçılıq müharibələrinə başlamışdı. O, bu zaman Ön Asiyada mövcud olan bütün xırda fedal dövlətlərini aradan qaldırmaq, bütün Anadolu yarımadasını öz hakimiyyəti altında birləşdirmək istəyirdi [407, 51; 139, 3].

Qeyd olunduğu kimi, Sultan II Mehmedin Təbriz-Bursa ipək yolu üzərində hakim olmaq təşəbbüsü Ağqoyunlu-Osmanlı münasibətlərini daha da kəskinləşdirdi. Sultan II Mehmedin Trabzonu ələ keçirməsi nəticəsində Ağqoyunlular Qara dənizə çıxışdan məhrum oldular. Belə bir vəziyyətdə Qərbi Avropa dövlətlərilə ticarət əlaqələri yaratmağa çalışan Uzun Həsənlə II Mehmed arasında Qaraman bəyliyi mənafelərin toqquşduğu düyün nöqtəsi oldu. Çünki, bu bəylik Aralıq dənizi sahillərində, çox əlverişli coğrafi mövqedə yerləşirdi və Ağqoyunlularla normal münasibətlərə malik idi. Bu zaman şübhəsiz ki, Qara dəniz ticarətindən məhrum olan Ağqoyunlular üçün Qaramanın əhəmiyyəti daha da artmışdı. Ə.S.Ərzi bu məsələ ilə bağlı yazır

ki, Trabzonun Osmanlılar tərəfindən fəthi Uzun Həsən dövlətinə şimal istiqamətindən təhlükə törədirdi. Qaramanın itirilməsi isə Ağqoyunlu hökmdarı üçün daha təhlükəli ola bilərdi. Buna görə də, Fatehin rəqibi olan, Anadoluda hegemonluq uğrunda mübarizəyə başlayan Uzun Həsənin Qaramana hərbi, siyasi müdaxiləsi və bu bölgədə müttəfiq bir dövlətin olmasını istəməsi təbiidir [218, 94; 139, 4].

Trabzonun II Mehmed tərəfindən işğal edilməsilə bağlı gərginləşən Ağqoyunlu-Osmanlı münasibətləri Qaramanın Osmanlı dövlətinin tərkibinə qatılmasından sonra daha da pisləşdi. Şərafəddin Turan yazır ki, Uzun Həsən qısa bir vaxt ərzində Venesiyadan tələb etdiyi top və digər silahları əldə edəcəyinə əmin olduğuna görə, Osmanlı padşahı ilə savaşarkən arxadan vurulmaması üçün gürcü çarına məktub göndərərək aradakı gərgin vəziyyətə son qoyulmasını istədi və Osmanlı torpaqlarının istilasına məhz Trabzondan başlamağa üstünlük verdi. Lakin 1472-ci ilin mayında Trabzon üzərinə göndərilən Ağqoyunlu hərbi qüvvələri şəhəri mühasirəyə alsa da, Osmanlı donanmasının köməyə gəlməsi nəticəsində geriyə çəkilməyə məcbur qaldı [342, 95; 139, 4].

Ş.Turan Osmanlı və Venesiya qaynaqlarının müqayisəli təhlili əsasında belə qənaətə gəlir ki, Uzun Həsən bu zaman öz qüvvələrini Qaraman istiqamətində göndərdi, Osmanlı sultanının diqqətini yayındırmaq məqsədilə öz elçisini onun yanına yolladı və Trabzon ilə birlikdə «qəsb edilən digər yerlərin», heç şübhəsiz ki, Qaramanın ona qaytarılmasını istədi. Ağqoyunlu elçisi öz hökmdarının qüvvət və qüdrətini ehyam şəklində II Mehmedə çatdırmaq üçün ona bir zopa və bir torba darı təqdim etdi. II Mehmed Ağqoyunlu elçisinin gözü önündə o darını yerə səpdirib toyuqlara yem etdirdi. Osmanlı sultanının Ağqoyunlu elçisinə dediyi sözlər səciyyəvidir: «Hökmdarına söylə, bu toyuqlar torbadakı darını necə bitirdisə, yeniçərilərim də onun adamlarının işini eləcə tezliklə bitirəcək. Onun adamları keçi otarmaqda usta ola bilər, ancaq savaşdan heç bir şey anlamazlar» deyərək onu geri qaytardı [342, 96; 131, 54; 118, 240; 139, 4-5].

Bu sözlər osmanlıların Ağqoyunlu türkmanlarına baxışlarını aydın surətdə ifadə edir. Əslində, bu deyim orta əsrlərin sonunda müharibələrin müqəddaratını artıq odlu silahların həll etdiyi bir zamanda yeni düşüncəyə sahib olan bir insana məxsusdur. II Mehmed bu ifadə tərzi ilə ağqoyunluların "keçi otaran" çoban olduqlarına, köçəri heyvandarlıq dövrünün keçdiyi və onların yeni zamanın tələblərinə cavab verə bilmədiklərinə işarə edir. Bu səbəbdən dövrünün qabaqcıl qoşun növü sayılan və odlu silahlarla təchiz edilmiş Osmanlı yeniçəriləri qarşısında türkmanların (Ağqoyunluların – T.N.) yeniləcəyinə şübhə etmirdi [118, 240].

Görünür Ağqoyunlu sultanı II Mehmeddən rədd cavabı aldıqdan sonra Venesiyadan istədiyi hərbi sursatın gətirilməsi barədə cavabın gəlməsini gözləmədən Qaraman üzərinə öz ordusunu göndərməyi vacib bilmişdi. Uzun Həsən Trabzonun ələ keçirilməsi təşəbbüsünün uğursuz olduğunu nəzərə alaraq, Ağqoyunlu əmirləri Bəkdaş oğlu Ömər bəylə Yusif Mirzəni yanlarında Qaraman oğulları Pir Əhməd və Qasım bəy olmaqla 30 minlik qoşunla Toqat üzərinə göndərdi. 1472-ci il avqustun əvvəllərində Ağqoyunlu ordusu Toqat şəhərini ələ keçirdikdən sonra Ömər bəyin öz qüvvələri ilə geri dönməsinə baxmayaraq, Yusif Mirzənin başçılığı altında 20 minlik Ağqoyunlu ordusu Qaraman istiqamətində irəlilədi [345, 33; 351, 93-94; 326, 294-295; 251, 105].

R.Kılıç yazır ki, Ağqoyunlu hökmdarı Uzun Həsənin Qaraman oğullarına yardım göstərməkdə başlıca məqsədi Orta və Cənubi Anadoluda Osmanlı hakimiyyətinə son qoyaraq Malatya-Hələb arasındakı ticarət yolunu ələ keçirmək və Aralıq dənizinə çıxış əldə etməklə Avropalı müttəfiqləri ilə əlaqə yaratmağı təmin etməkdi [224, 462; 251, 106]. Beləliklə, XV əsrin 70-ci illərin əvvəllərində «Qaraman böhranı» Ağqoyunlu və Osmanlı dövlətləri arasındakı münasibətləri gərginləşdirərək müharibə vəziyyətinə çatdırdı.

Ağqoyunlu sultanının Osmanlılara qarşı hərbi əməliyyata başlamağa qərar verməsində Qərbi Avropa xristian dövlətlərinin

rolu az olmamışdı. 1463-cü ildən Osmanlı dövlətilə müharibə aparan Venesiya bütün diplomatik vasitələrdən istifadə edərək Ağqoyunlu dövlətinin iqtisadi və siyasi maraqlarını nəzərə alaraq Uzun Həsəni Sultan II Mehmedə qarşı müharibəyə cəlb etməyə çalışırdı. Qərb dövlətlərinin məqsədi, Ağqoyunlu sultanının hərbi qüvvələri vasitəsilə osmanlılara şərqdən sarsıdıcı zərbə vurmaq və Fateh II Mehmedin nəzər diqqətini Avropadan şərqə yönəltməklə onunla müharibədə düşmüş olduqları çətin vəziyyətdən xilas olmaq idi. Beləliklə, başda Venesiya olmaqla Avropa dövlətlərinin düşünmüş olduğu plan baş tutdu. Şərqi Anadoluda hegemonluq uğrunda Sultan II Mehmedlə siyasi və iqtisadi mənafeləri kəsişən Uzun Həsəni Venesiyanın hərbi sahədəki müəyyən vədləri ilə Osmanlı dövlətinə qaşı müharibəyə cəlb etmək mümkün oldu [131, 55].

Osmanlı Türkiyəsi ilə müharibənin labüd olduğunu anlayan Uzun Həsən gələcək toqquşmaya ciddi hazırlıq gördü. Mənbələrin məlumatına görə, Ağqoyunlu hökmdarı Osmanlılara qarşı müharibə üçün yalnız İraqdan 37 min əsgər səfərbər etmişdi [179, 271]. Uzun Həsən Osmanlıların taxt-tacdan məhrum etdiyi bütün Kiçik Asiya feodal hakimlərini də himayə edirdi. Qaraman şahzadələri, İsfəndiyar oğlu Qızıl Əhməd bəy, Zülqədəroğulları və başqa keçmiş Kiçik Asiya hakimləri Ağqoyunlu sarayına sığınmışdılar. Onlar daim Uzun Həsəni osmanlılara qarşı müharıbəyə təhrik edir və yenidən öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayırdılar [179, 270]. İ.H.Uzunçarşılının qeyd etdiyi kimi bütün bunlar hər iki dövlət arasındakı münasibəti gərginləşdirdi [346, 191].

Beləliklə, Osmanlı-Ağqoyunlu toqquşmasının obyektiv tarixi zəmini var idi. O, Anadolunun türk mühitinin daxilində gedən dərin sosial və etnodini diferensiasiya prosesiləri ilə bağlı idi. Ağqoyunluların simasında Osmanlılar Anadolunun özlərinə müxalif olan hissəsini görürdülər. Əmir Teymur dövründə Anadolunun bütün anti-osmanlı qüvvələri ümidlərini Orta Asiya fatehinə bağladığı kimi, bu dəfə də Uzun Həsənin simasında yeni "şərq xilaskarını" görürdülər. Öz mülk və hakimiyyətilərini

itirmiş Anadolu bəyləri onun sarayına sığınır, Ağqoyunlu hökmdarını Osmanlı sultanıyla müharibəyə başlamağa təhrik edirdilər [118, 248].

Uzun Həsənin apardığı aramsız müharibələr, onun Yaxın və Orta Şərqdə, Avropada istedadlı bir sərkərdə kimi məşhurlaşması da II Mehmedi təşvişə salırdı. Ağqoyunlu hökmdarının hərbi uğurları (Azərbaycan Qaraqoyunlu dövlətini aradan qaldırması, Teymuri Əbu-Səidin qonşularının darmadağın edilməsi, Misirlə, gürcü knyazları ilə müharibələrdəki qələbələr) Osmanlı sultanını narahat etməyə bilməzdi. S.Tansel qeyd edir ki, dövrünün böyuk sərkərdələrindən biri olan, Fateh ləqəbi qazanmış Sultan II Mehmed Ağqoyunlu hökmdarı ilə üz-üzə gəlməkdən çəkinirdi [326, 21].

Ağqoyunlu-Osmanlı münasibətlərindən bəhs edən mənbələrdə Uzun Həsən Osmanlı Türkiyəsinin qüdrətli rəqibi kimi qiymətləndirilir və o, Əmir Teymurla müqayisə olunur [179, 268]. Bəkir Sidqi Baykal XV-XVI əsrlərdə Osmanlıların Asiya və Avropadakı düşmənlərini müqayisə edərək belə bir qənaətə gəlir ki, şərqdəki rəqiblər Osmanlı Türkiyəsi üçün daha qorxulu olmuşdur. Şərqdəki üç təhlükə – Əmir Teymurun, Uzun Həsənin və Şah İsmayılın hərbi qüvvələri Osmanlı dövlətini aradan qaldırmaq, onu kiçik bir bəylik səviyyəsinə salmaq iqtidarında idi [179, 271]. Bu fikir İ.H.Uzunçarşılı tərəfindən müdafiə olunur [349, 394]. Yılmaz Öztuna isə Fateh Sultan Mehmedlə müharibə vəziyyətində olan 20-yə qədər dövlətdən ən qüvvətlisinin Ağqoyunlular olduğunu qeyd edir [283, 60].

Təbiidir ki, Türkiyə tarixçiləri Osmanlı dövlətinin qəsbkar siyasətini ört-basdır etməyə çalışır və onu yalnız özünü müdafiə edən dövlət kimi qələmə verirlər. Lakin II Mehmedin qələbələrini, şəxsiyyətini mədh edən, onun rəqiblərinin uğurlarını isə kiçildən, qələbələrinə göz yuman Türkiyə tədqiqatçılarının Ağqoyunluların qüdrətli siyasi qüvvə olduğunu göstərməyə məcbur olması təsadüfi deyildi. Bəzi Türkiyə tarixçilərinin yazdığına görə, Uzun Həsən özünü Əmir Teymurun xələfi hesab edirdi [326, 300]. Topqapı Sarayında saxlanılan bir məktubun müəllifi

isə 9 bənddə Uzun Həsəni Teymurla müqayisə edir və Ağqoyunlu hökmdarının Teymurdan da üstün olduğunu göstərir [326, 302]. Uzun Həsən Avropa mənbələrində də Əmir Teymura bənzədilir, bəzən isə ikinci Teymur adlandırılır [Bax: 231, 31]. Osmanlı sultanı yetişməkdə olan müharibədə qələbə çalmaq üçün üstünlüyü ələ almaq məqsədilə Qaraman əmirliyinin fəth olunmasını başa çatdırdı. Uzun Həsən sultandan Qaraman işlərinə qarışmamağı tələb etsə də, bu heç bir nəticə vermədi. Görkəmli diplomat Saray Xatunun Osmanlı sultanı ilə Qaramanı öz keçmiş hakimlərinə qaytarmaq haqqındakı danışıqları da faydasız qaldı [342, 97]. «Qaraman böhranı» Ağqoyunlu-Osmanlı ziddiyyətlərini kəskinləşdirərək müharibə həddinə yaxınlaşdırmaqda idi. Beləliklə, Azərbaycan Ağqoyunlu dövləti ilə Osmanlı imperiyası arasında dərin hərbi-siyasi ziddiyyətlər mövcud idi. Bu ziddiyyətlərdə başlıca cəhət Osmanlı dövlətinin qəsbkarlıq siyasəti idi.

Osmanlı sultanı sülh müzakirələri ilə vaxt qazanmaq və qarşıdakı müharibəyə hazırlığı başa çatdırmaq üçün Ağqoyunlu sarayına elçilər göndərdi. Şərafəddin Turan yazır ki, Osmanlı elçiləri Türkiyənin Ağqoyunlu dövlətinə qarşı gördüyü bütün tədbirlər müqabilində Uzun Həsəndən üzr istəməli, Ağqoyunlularla «vicdanlı sülh və dostluq müqaviləsi» bağlamalı idilər. Lakin Dəspinə Xatunun, Qaraman şahzadələrinin və Katerino Zenonun ümumi səyləri nəticəsində Uzun Həsən Sultan II Mehmedin elçilərini qəbul etməkdən imtina etdi [342, 117]. Ağqoyunlu hökmdarı Aralıq dənizi istiqamətində hücuma keçib Qaramanı fəth etmək, Qərb dövlətlərinin (o cümlədən Venesiya Respublikasının) hərbi qüvvələri ilə birləşmək üçün öz qoşunlarına döyüş əmri verdi. Bununla da, 1472-ci ilin yazında Ağqoyunlu-Osmanlı müharibəsi başlandı.

Ağqoyunlu-Osmanlı müharibəsində təqsiri Uzun Həsənin üzərinə qoymaq və II Mehmedin istilaçılıq siyasətinə haqq qazandırmaq Türkiyə tədqiqatçıları üçün səciyyəvi haldır. Mətin Kunt yazır ki, Həsən Padşah Azərbaycan və İrandakı üstünlüyü ilə kifayətlənsə idi, Fateh Sultan Mehmed Cənub-Şərqi Anado-

lunu da Ağqoyunlulara güzəştə gedər, Balkan yarımadasındakı fəaliyyəti ilə məşğul olardı. Fəqət, 1472-ci üdə Həsən Padşah öz hakimiyyətini Osmanlıların əlində olan Anadolunun içərilərinə doğru genişləndirdiyi üçün əks tərəf buna qarşı çıxmışdı [172, 93]. İsmət Barmaqsız oğlu V.Hinsin əsərinin tərcüməsinə yazdığı şərhlərdə tarixi həqiqətləri qismən açıqlamalı olmuşdur. O, yazır ki, ənənəvi olaraq Fərat çayının şərqində qalan Anadolu əraziləri İranda və Azərbaycanda mövcud olmuş dövlətlərin qanuni torpaqları sayılmışdır. Fatehin Fərat çayını keçməsi Şərqi Anadolu, Azərbaycan və İran ərazilərində böyük bir dövlət yaratmış Ağqoyunlu hökmdarını bu tarixı ənənənin müdafiəsi üçün hərəkətə gətirmişdi [286, 38].

Fateh Sultan Mehmedin 1473-cü il 30 avqust tarixli "Yarlığı"nda Ağqoyunlu dövlətinə qarşı aparılan müharibənin başlıca səbəbi kimi Uzun Həsənin Toqat şəhərini ələ keçirməsi göstərilir [21, 303]. Rəhməti Arat yazır ki, Toqat şəhərinin alınması bu müharibə üçün bir bəhanə olmuşdur. Fəqət, bu iki türk dövlətinin bir-birinə qarşı olan düşmənçiliyinin ən mühüm səbəbi bu idi ki, Anadolunun böyük bir qismini öz hakimiyyəti altında birləşdirən Osmanlı sultanının Şərqi Anadoluya doğru irəliləməsinə Ağqoyunlu hökmdarı maneçilik törətmişdi. Fateh Mehmedin əsas məqsədi yalnız Uzun Həsən tərəfindən edilən təcavüzə cavab vermək deyil, bu kimi hərəkətlərin gələcəkdə təkrar olunmaması üçün Ağqoyunlu dövlətini məhv etmək və yaxud da, onu Anadolu işlərinə qarışmaq iqtidarında olmayan siyasi vəziyyətə salmaq idi [21, 311]. Təbriz sarayına göndərilən və hadisələrin iştirakçısı olan Venesiya elçisi A.Kantarini Uzun Həsənlə Osmanlı sultanı Fateh II Memed arasında baş verən müharibənin əsas səbəbini Qaraman bəyliyinin Osmanlılar tərəfindən işğal olunması faktı ilə bağlayır [64,130].

Osmanlı sultanı da müharibəyə ciddi hazırlıq görmüşdü. Xəlil İnalcığın qeyd etdiyi kimi, II Mehmed Ağqoyunlularla müharibə ərəfəsində imperatorluğunun çıxara biləcəyi bütün qüvvələri bir araya toplamağa çalışmışdı [232, 526]. 1472-1473-cü illərin Ağqoyunlu-Osmanlı müharibəsinin şahidi olmuş itali-

yalı C.M.Anciolelonun məlumatına görə, II Mehmed Uzun Həsənə qarşı müharibəyə 220 minə qədər əsgər səfərbər etmişdi [110, 61]. Katerino Zeno və Osmanlı tarixçisi İbn Kamal da Ağqoyunlulara qarşı təqribən bu qədər əsgərin səfərbər edildiyini göstərir [38, 338-339]. Türkiyə tarixçilərindən Ə.B.Şapolyo isə bu rəqəmin 100 min olduğunu qeyd edir [324, 10].

1472-ci ilin yayında Venesiyanın qızışdırdığı Ağqoyunlu sultanı Uzun Həsən osmanlılara qarşı müharibəyə başladı. Ağqoyunlu ordusu müvəffəqiyyətli döyüş əməliyyatı nəticəsində Toqatı, Qeysəriyyəni, Ağsarayı və Ağşehri ələ keçirərək Qaramana daxil oldu. Toqat şəhərinin Uzun Həsən tərəfindən dağıdılmasının səbəbini izah edən Xəlil İnalcık yazır: «Azərbaycandan ipək gətirilərkən Osmanlılar iki yerdə – Toqatda və Bursada gömrük haqqı alırdılar. Ağqoyunlular Toqatda gömrük haqqı alınmasından çox şikayətlənirdilər. Uzun Həsən bunu Fatehin çıxardığı bir bidət sayır, həmin işi pisləyirdi. 1472-ci ildə Ağqoyunlular Toqatı alıb talan etdilər [232, 52; 92, 83]. V.Çabukun fikrincə, Fateh Sultan Mehmed tərəfindən Toqatda ipəyə ikinci gömrük haqqı qoyulması nəticəsində mühüm gəlirdən məhrum olan Ağqoyunlu hökmdarı ilk hücumu məhz buraya yönəltdi [187, 129]. Bu fakt bir daha təsdiq edir ki, Ağqoyunlu-Osmanlı münasibətlərinin gərginləşməsində Fateh II Mehmedin həyata keçirdiyi iqtisadi tədbirlərin də rolu az olmamışdı.

Lakin əsas qüvvələrdən ayrı düşmüş, Osmanlı qüvvələrindən qat-qat az olan, yorğun Ağqoyunlu süvariləri 1472-ci il avqustun 18-də Beyşehir gölünün sahilində Əflatun-pınarı (Kıreli) döyüşündə Qaraman valisi Şahzadə Mustafa tərəfindən məğlubiyyətə uğradıldı və Yusif Mirzə əsir götürüldü [283, 51; 233, 526; 342, 100; 186, 273; 217, 50; 187, 130].

Bununla da, 1472-ci ilin hərbi əməliyyatları Ağqoyunlu ordusu üçün uğursuzluqla başa çatdı. Qışın yaxınlaşması ilə əlaqədar olaraq tərəflər hərbi əməliyyatları dayandırdı. Bu zaman Osmanlı sultanı II Mehmed bütün qış ərzində hərbi hazırlıqlarını həyata keçirdi. X.İnalcığın qeyd etdiyi kimi, Fateh imperatorlu-

ğun çıxara biləcək bütün qüvvələrini bir araya toplamağa çalışdı. Hətta, Rumelidəki xristian əhalisindən də əsgər toplanıldı [233, 526; 139, 6]. Sultan əmin idi ki, artıq Qaraman Osmanlıların əlində olduğuna görə, Ağqoyunlu dövləti və Venesiya ona qarşı birləşə bilməyəcəkdir. Buna görə də, o, Osmanlı dövlətinin bütün qüvvələrini Ağqoyunlulara qarşı yönəltmək qərarına gəldi. Müzəffər Ərəndil yazır ki, Fateh Sultan Mehmed Osmanlı dövlətinin gələcəyini Şərqdə baş verəcək böyük bir döyüşdə həll edəcəyinə inanırdı [212, 35].

İ.H.Uzunçarşılının qeyd etdiyinə görə, vəziyyətin təhlükəli olduğunu görən Uzun Həsən 1472-1473-cü illər arasında Venesiyanın göndərmiş olduğu odlu silahı əldə etmək üçün Fərat çayının sağ sahilindəki Məmlük torpaqlarına – Birəcikə və Hələb şəhərinə hücum edərək Suriya vasitəsilə Aralıq dənizi sahillərinə yol açmağa çalışmışdı [350, 96; 131, 56]. Bunu, Uzun Həsənin Birəcikin mühasirəsi zamanı 1473-cü il martın 1-də Neapol kralı Ferdinanda yazdığı və G.Barbaro vasitəsilə göndərmiş olduğu məktubu da təsdiq edir. Məktubda deyilirdi: «…Məmlük sultanı ilə əvvəllər dost idik, ancaq onun pis əməlləri üzündən indi onunla düşmən olub ona qarşı hərbi yürüşə başlamağa məcbur qalmışıq. İndi mən kifayət qədər qüvvə ilə Suriyaya yürüş etmişəm. Hazırda Birəcik adlı yerdə müharibə aparırıq. Allahın inayəti ilə buranı da ələ keçirəcəyik. Bundan sonra da Allah müyəssər etsə Fərat çayını keçəcəyik» [Bax: 342, 106-107; 139, 7].

Lakin Ağqoyunlu sultanı bu istəyinə nail ola bilmədi. Ağqoyunlu hökmdarının atdığı bu addımdan Osmanlı sultanı Uzun Həsənlə Misir sultanı Qayıtbay arasındakı münasibətləri pozmaq üçün məharətlə istifadə etdi. Nəzərə almaq lazımdır ki, Sultan II Mehmedin Qaramanda möhkəmlənməsi Uzun Həsənlə yanaşı, Misir sultanı Qayıtbayın da xoşuna gəlməmişdi. Digər tərəfdən, Maraş və Əlbistan bölgəsinə hakim olan Zülqədər bəyliyi Osmanlı və Məmlik sultanlığı arasında başlıca rəqabət və ixtilaf mənbəyi olmuşdu. Bu zaman osmanlılar tərəfindən Uzun Həsənin Venesiyaya göndərmiş olduğu elçi yaxalandı və Ağqoyunlu

sultanının yazmış olduğu məktub ələ keçirildi. Məktubda Osmanlılar və Məmlüklər əleyhinə Avropa dövlətlərinə ittifaq təklif olunur, Ağqoyunluların qurudan, onların isə dənizdən hücum etmələri bildirilirdi [342, 96-97; 222, 61; 139, 7].

II Mehmed Məmlük sultanı ilə münasibətləri nizama salmaq və onu Ağqoyunlulara qarşı qaldırmaq məqsədilə elçisi vasitəsilə bu məktubu ona çatdırdı. Bununla da, II Mehmed Ağqoyunlulara qarşı müharibədə Məmlük sultanının bitərəf qalmasına təminat almağa çalışdı [233, 526]. Bu məsələ ilə bağlı Ənvər Qonuqçu yazır: "Osmanlılarla rəqabət Uzun Həsəni Misir hökmdarı ilə daha yumşaq davranmağa vadar etmişdi. O, Venesiya ilə əlaqə yaratmaq üçün Aralıq dənizinə çıxış üçün yol aramağa məcbur olduğu zaman, Misir və Suriya hökmdarına məxsus olan Fərat çayının sağ sahilindəki ərazilər onun üçün bir maneəyə çevrilmişdi. Buna görə də, Uzun Həsən Məmlüklər əleyhinə mübarizəyə başlayaraq öz torpaqlarını genişləndirməyə məcbur qalmışdı" [252, 14; 139, 7].

Ə.Qonuqçunun fikrincə, Misir sultanı Qayıtbayın göndərdiyi ordu Əmir Yaşbək əl-Davadarın rəhbərliyi altında Ağqoyunluları Birəcikdən uzaqlaşdırdığı üçün Qahirəyə göndərilən Osmanlı elçisi xristianlarla müttəfiq olan Uzun Həsənə qarşı duyulan düşmənçiliyi qızışdırmağa çalışsa da, Misir sultanı Qayıtbay ehtiyatlı davranmışdı [252, 14].

Bu məsələ ilə bağlı Ş.Turan K.Zenonun 1473-cü il 27 iyul tarixli məktubuna əsaslanaraq yazır ki, 1472-ci ilin payızında Ağqoyunlu qüvvələrinin Kaytanı ələ keçirməsi və Birəciki mühasirəyə alması nəticəsində aralarında ixtilaf yaranmış olan Məmlük Sultanı Qayıtbayın sülh üçün göndərdiyi elçinin Ərzincana gəlməsi Uzun Həsənin cəsarətini daha da artırdı. Məmlük elçisinə sultanın arzu etdiyi hər şeyi etməyə hazır olduğunu söyləyən Uzun Həsən öz elçisini də Qayıtbayın yanına göndərdi [342, 120; 139, 8].

Bu hadisənin 1473-cü ilin yayında baş verdiyini nəzərə alsaq, onda Misir sultanının ehtiyatlı davranışının səbəbini anlamaqda çətinlik çəkmərik. Çünki, bu dövrdə artıq sultan II Meh-

med Ağqoyunlular üzərinə yürüş üçün qərar vermişdi. Bu yürüşün nəticəsi bəlli olmadığına görə, Sultan Qayıtbay Ağqoyunlular tərəfindən ələ keçirilən əraziləri geri aldığı üçün Uzun Həsənlə münasibətləri qırmağa təşəbbüs göstərmədi. Y.Öztunanın fikrincə, əgər Sultan Uzun Həsən Məmlükləri də Osmanlılar əleyhinə qaldıra bilsəydi, Türkiyənin vəziyyəti ağır olacaqdı. Bu təqdirdə Fatehin Avropa dövlətləri ilə tələsik sülh bağlamaqdan başqa çarəsi qalmayacaqdı. Ancaq Uzun Həsən Məmlük sultanı ilə ittifaq yaratmağa təşəbbüs göstərmədi. II Mehmed də Ağqoyunlu-Məmlük ittifaqının yaratdığı təhlükəni anladığından hər vasitə ilə onun gerçəkləşməsinin qarşısını almağa çalışdı [283, 48; 139, 8].

1473-cü ilin martında II Mehmed Ağqoyunlu sultanına məktub göndərərək onun üzərinə hərbi yürüşə başlayacağını bildirdi. Məktubda deyilirdi: «…Bundan öncə ananın ricası ilə qəzəbimdən qurtulmuşdun. Biz də səni ağıllanmış qəbul edərək bağışlamışdıq. Halbuki sənin kimi xain bir türkmanın mənimlə səltənət və istiqlal davasında bulunması haramdır. Sənin özün kimi olan bir neçə kimsəyə zor tətbiq etməklə qalib gəlmənə, öz torpaqlarında göstərdiyin qürur və əzəmətinə, hətta bütün qüdrət və şövkətinə bizim razılığımız və göz yummamız səbəb olmuşdur. Buna baxmayaraq, … ədalətli idarəm altında yaşayan Toqata və sonra da Qaraman ölkəsinə əsgərlərini göndərərək əhaliyə zülm etdiyin və rəzalətlərə səbəb olduğun məlumumuzdur. Buna görə səni öldürmək və məmləkətini əlindən almaq üçün bu ilin baharında hərəkətə qərar verdik. Səni bağışlamaq qətiyyən düşünülməmişdir. Çəkinmədən, qorxmadan torpaqlarımıza təcavüz etdiyin üçün qılıncımız sənin köksündə qana bulanmalıdır. Ər sənsə meydana gəl. Qadın kimi dəlikdən dəliyə girmə, hazırlaş. Xəbər verilmədi demə» [Bax: 34, 272-273; 351, 97; 187, 131-132; 279, 27; 139, 8].

Fateh II Mehmed bu məktubunda nə zaman yürüşə başlayacağını da Uzun Həsənə bildirmişdi. Ə.Qonuqçunun yazdığına görə, indiyə qədər planlaşdırdığı hərbi yürüşləri ən yaxın adamlarından belə gizlətməyə çalışan Fateh Sultan Mehmed bu dəfə

tamamilə bunun əksinə hərəkət edərək yürüş xəbərini yalnız Uzun Həsənə deyil, başqalarına da çatdırmaqdan çəkinməmişdi [253, 289; 251, 109; 131, 56].

İ.H.Uzunçarşılı yazır ki, Ağrıbozun süqutundan sonra Ağqoyunluları dayanmadan Osmanlılara qarşı mübarizəyə sövq etməyə çalışan Venesiya buna hələ də nail ola bilməmişdi. Uzun Həsən çox ağır davranırdı. Lakin 1472-ci ildə Ağqoyunlularla müttəfiqlər arasındakı iş birliyi birdən-birə artmağa başladı. Ağqoyunlu qüvvələri Yusif Mirzənin rəhbərliyi altında Qaraman oğullarına yardım adı altında Qaramana yürüş etdi. Bu zaman xristian donanması da Osmanlılar əleyhinə hərəkətə keçmək üçün hazırlıqlarına başladı. Bütün bunlara baxmayaraq, Fateh Sultan Mehmed Ağqoyunlularla bağlı verdiyi qərardan imtina etmədi [346, 66; 131, 56]. Ə.Qonuqçu Sultan II Mehmedin Ağqoyunlular üzərinə yürüşə qərar verməsilə bağlı yazır: «Osmanlılar bu savaşa başlamasalar belə Ağqoyunlular buna təşəbbüs edəcəkdilər. Bu təqdirdə Osmanlılar, düşmənlərinin hazırlamış olduğu hərbi taktikaya uyğun olaraq savaşı onların istədiyi yerdə qəbul etməyə məcbur qalacaqdı. Buna görə də, indiyə kimi müdafiədə qalmış olan Fateh Sultan Mehmed hücum etmək qərarını vermişdi» [253, 290; 131, 56; 139, 9]. S.Cöhçənin fikrincə, II Mehmed Ağqoyunlulara qarşı yürüş ərəfəsində, bir tərəfdən Məmlükləri Ağqoyunlulara qarşı qızışdırmış, digər tərəfdən də Venesiya və Macarıstanla danışıqlara başlayaraq onları ümidləndirərək nə edəcəklərini bilməyəcək hala salmışdı [186, 274; 131, 56].

Bu məsələ ilə bağlı Ş.Turan yazır ki, hələ 1470-ci ilin oktyabrında Fateh Mehmed analığı Mara və onun bacısı Katerina vasitəsilə Venesiyaya barışığa hazır olduğunu təklif etmişdi. Qonşularından umduğu yardımı ala bilməyən və ağır hərbi xərclərdən əziyyət çəkən Venesiya sülh müzakirələri üçün Nikolo Kokko və Françesko Kapellonu İstanbula göndərmişdi [342, 89; 139, 9]. Bununla bağlı İ.H. Uzunçarşılı daha ətraflı məlumat verir. O, yazır ki, Osmanlı hökuməti Uzun Həsənə qarşı başlanacaq hərbi səfər zamanı Venesiya respublikasının Ağqoyunlu-

larla birgə hərəkət etməməsi üçün onunla anlaşmaq istədi. İki tərəf arasında Fateh Sultan Mehmedin analığı olan Serbiya şahzadəsi Mara (Məryəm Sultan) vasitəçi oldu. Bu məqsədlə Venesiyanın İşkodra qalasının komandanı Leonardo Buldo vasitəsilə Venesiyaya müraciət olundu. Fateh Kroyanı geri qaytarmağa və Venesiya tacirlərinin ödədiyi 150 min dukatı almayacağını təklif etsə də, Venesiya Ağrıboz adasının geri qaytarılmasını tələb etdiyi üçün 1472-ci il danışıqları sülhün bağlanmasına imkan vermədi [346, 116; 139, 9].

Bu faktlar bir daha təsdiq edir ki, Fateh II Mehmed Venesiyanın müttəfiqləri arasındakı fikir ayrılığından hər vasitə ilə faydalanaraq, ona qarşı yönəlmiş olan bu ittifaqı zərərsizləşdirmək və parçalamaqdan çəkinməmişdi. Osmanlı sultanı sülh danışıqlarının davam etdiyi dövrdə Venesiyaya bir elçi göndərmiş və İstanbuldakı danışıqları uzatmaqla Venesiya respublikasını aldadıcı ümidlərə sövq etmişdi. Sultan II Mehmedin Venesiya ilə sazişə cəhd göstərdiyini Katerino Zeno da təsdiq edir. O, yazır: «Osmanlı sultanı bizim respublikamızla dostluğun əhəmiyyətini dərk etdiyi üçün barışıq yolu axtarırdı. Ağsaqqallar məclisinin üzvləri isə görürdülər ki, başqa ölkələr türklərin əli ilə məğlub edilmiş olduğundan onların özü də asanlıqla fatehlərin qurduğu tora düşə bilərlər [53, 209; 92, 80-84; 139, 9].

Katerino Zenonun verdiyi məlumatlardan aydın olur ki, eyni vaxtda həm Osmanlı, həm də Ağqoyunlu səfirləri Venesiyaya gələrək onlara ittifaq təklif etmişdilər. Ağqoyunlu sultanı Osmanlılara qarşı müharibəyə hazırlığı üçün yalnız Venesiyaya deyil, Roma papası, Neapol, Kipr, Macar, Polşa krallarına və Alman imperatoruna elçi göndərərək onlara osmanlılar əleyhinə ittifaq yaratmağı təklif etmişdi. Ancaq bu ittifaqın gerçəkləşməsinə yol verməmək üçün II Mehmed müxtəlif vasitələrə əl atmalı olmuşdu [139, 10].

Ş.Turannın fikrincə, Ağqoyunlu hökmdarının Osmanlılıra qarşı ittifaqa cəlb etməyə çalışdığı Alman imperatoru III Fridrix bu dövrdə Osmanlı sultanının Venesiyaya qarşı təkbaşına savaşmasını məqsədəuyğun hesab etmişdi. Bununla yanaşı, o, Reyxs-

taqdan Uzun Həsənə yardım etmək barədə razılıq almağa çalışmışdı. Macar kralı Matiaş Korvin isə Fatehlə sülh bağlamaq üçün təşəbbüs göstərmişdi. Onun İstanbula göndərdiyi elçi Sultanla görüşmək üçün Sivasa kimi gedərək orada gözləmək məcburiyyətində qalmışdı [342, 118; 139, 10].

Beləliklə, 1473-cü ilin 11 aprelində İstanbuldan Ərzincan istiqamətində Ağqoyunlular üzərinə yürüşə başlayan Sultan II Mehmed Sivasda 220 minlik ordusuna hərbi baxış keçirmişdi. Osmanlı sultanı Uzun Həsənin Venesiyadan göndərilən odlu silahı almaq üçün Qaraman istiqamətində hücuma keçəcəyini yaxşı bilirdi. Buna görə də, o, rəqiblərinin Aralıq dənizi sahillərində birləşməsinə yol verməmək üçün Ağqoyunlu ordusunu Anadolunun şərqində qarşılamaq qərarına gəlmişdi. Bu zaman Uzun Həsən Xarputdan Ərzincana hərəkət etmiş və iyulun sonuna kimi digər qüvvələrin ona qatılması üçün burada gözləməli olmuşdu. Ş.Turan yazır ki, «bu zaman Ərzincandakı Ağqoyunlu ordugahına Fateh Mehmedin bir elçisi gəldi». K.Zeno Osmanlı qaynaqlarında heç bəhs olunmayan bu elçinin sülh təklifi üçün gəldiyini bildirsə də, Həsən bəy Rumlu sülhdən bəhs etməyərək, Osmanlı sultanının Uzun Həsən üzərinə yürüş etdiyini xəbər vermək üçün bir elçi göndərildiyini qeyd edir. Hələ də Venesiyanın göndərdiyi top və odlu silahların ona yetişəcəyini zənn edən Uzun Həsən Osmanlı elçisini hüzuruna qəbul etmədi və K.Zenoya, Venesiya ilə müttəfiq olduğunu, onun iştirakı olmadan heç bir barışıq imzalamayacığını bildirdi. «Biz də qanlar axıdan əsgərlərimizlə o diyara yaxınlaşdıq, siz də yaxına gəlin ki, bir-birimizlə haqq-hesab çəkərim» sözlərini Fatehə çatdırmasını elçiyə söyləyərək onu geri qaytardı [342, 117; 251, 110; 139, 10-11].

Türkiyə tarixçilərinin əsərlərində Ağqoyunlularla Osmanlılar arasında baş verən Malatya və Otluqbeli (Başkənd) döyüşləri hərtərəfli tədqiq edilmişdir. Uzun Həsənin osmanlılarla qarşıda gözlənilən döyüşdəki hərbi planlarına toxunan S.Cöhçə yazır ki, Uzun Həsənin niyyəti Ərzincan üzərindən Sivasa doğru irəliləyərək onu tutmaq idi. Ancaq Osmanlı ordusu Sivasa girdiyindən

o, bundan imtina etmişdi. O, vəziyyəti aydınlaşdırmaq üçün qərbə doğru kəşfiyyatçı dəstələr göndərmişdi. Uzun Həsən Tərcan vadisində toplamış olduğu 60 minlik qüvvəsilə Osmanlı ordusunun Fərat boyunda çayı keçən zaman yaranacaq fürsətdən yararlanaraq məğlub etmək istəmişdi. Çünki, Ağqoyunlu ordusunda top və tüfəng kimi odlu silahlar olmadığından, bu silahların müharibədəki rolunu yetərincə bilməmişdi. Buna görə də, Ərzincan-Tərcan istiqamətində irəliləyəcək Osmanlı ordusunu ən zəif anında, Fərat vadisini, xüsusən də Sansa keçidini keçən zaman haqlamaqdı [186, 274-275; 131, 57; 139, 11].

Ağqoyunlu hökmdarı Osmanlı ordusunu belə zəif bir durumda yaxalamaq üçün onun ön qüvvələrinin və əsas hissəsinin Sansa keçidinə girməsindən sonra onlara hücum edərək boğazı qərbdən kəsməyi planlaşdırmışdı. Bu zaman Fərat vadisini şimaldan əhatə edən dağlardan və Ərzincan istiqamətindən hücum edəcəq qüvvələrlə Osmanlı ordusunun arxasını kəsmək, şimaldan həyata keçirilən hücumlar nəticəsində düşməni Fərat çayına tökərək məhv etməyi düşünürdü [186, 275; 139, 11].

Osmanlı ordusu avqustun 1-də Fərat çayına çataraq onu keçməyə cəsarət etməyərək çayın sağ sahili ilə Malatyaya kimi irəlilədi. Bu zaman Ağqoyunlu ordusu da çayın sol sahilində özünə döyüş mövqeyi seçmişdi. Nə ağqoyunlular, nə də osmanlılar çayı keçib hücum etməyə cəsarət göstərmirdilər. Uzun Həsənin öncədən hazırlamış olduğu plan gerçəkləşmək üzrə idi. 1473-cü ilin 4 avqustunda Malatya yaxınlığında Osmanlı ordusunun ön qüvvələri Rumeli bəylərbəyi Xasmurad Paşanın rəhbərliyi altında Fərat çayını keçdi və Ağqoyunlu sultanının təşkil etdiyi pusquya düşərək məhv edildi [Bax: 342, 120; 326, 316-317; 253, 293; 407, 101; 251, 111]. Osmanlı ordusu özünün 12 minlik seçmə zərbə qüvvəsini itirdi. S.Tansel yazır ki, bu qalibiyyət Ağqoyunlular üçün önəmli bir hadisə idi. Çünki osmanlılar üzərində çox ağır təsir yaratmışdı [326, 317]. Malatya məğlubiyyəti Osmanlı qoşununda döyüş intizamının pozulmasına və böyük ruh düşkünlüyünə səbəb oldu. Bu zaman Osmanlı qərargahında olan C.M.Anciolello yazır ki, Fateh bu zaman ən

qısa yolla geriyə dönməyə qərar vermişdi. Uzun Həsən də müharibəyə girməyə tərəfdar görünmürdü [Bax: 326, 317].

Qələbəyə ümidini itirən Osmanlı sultanı döyüşdən sonra Uzun Həsənə öz nümayəndəsini göndərərək sülh bağlamağa təşəbbüs göstərdi. Ş.Turan yazır ki, avqustun 7-də II Mehmedin elçisilə yanaşı, iki macar elçisi də qiymətli hədiyyələrlə Uzun Həsənin qərargahına gəlmişdi. Barış üçün Fatehlə təmas yaratmağa çalışan Matiaş Korvin İstanbula göndərdiyi elçisinin hələ də sultanın hüzuruna qəbul edilmədiyini görərək müttəfiqi Ağqoyunlu hökmdarı ilə əlaqələrini davam etdirməyi gərəkli saymışdı. Bundan da ümidlənən Uzun Həsən «Venesiya elçisi K.Zenoya vermiş olduğu vədə sadiq qalaraq Fateh Mehmedin sülh təklifini qəbul etməmişdi» [342, 121; 251, 111; 139, 12].

Malatya döyüşündə əldə olunan qələbədən Ağqoyunlular layiqincə faydalanmadılar. Uzun Həsənin böyük oğlu Uğurlu Məhəmməd Xas Murad Paşa üzərində qazanılmış bu qələbədən dərhal sonra Osmanlı ordusuna qarşı əsaslı hücuma keçilməsini təklif etsə də, qardaşları Xəlil və Yaqub Mirzənin anası Səlcuqşah Bəyimin Uzun Həsənə təsiri nəticəsində bu təklif qəbul olunmamışdı [Bax: 326, 317; 366, 176; 251, 111].

Əsas zərbə qüvvələrini itirmiş olan Fateh II Mehmed ordusunu Sansa keçidinə salmadı və Ağqoyunlu qüvvələrini Fərat vadisindən uzaqlaşdırmaq məqsədilə şimala, Bayburd istiqamətində geriyə çəkdi. Osmanlı sultanının bu hərəkəti Uzun Həsənə öz planlarını Fərat vadisində gerçəkləşdirməyə imkan vermədi [186, 275]. Buna baxmayaraq, Uzun Həsən oğlanlarının təkidi ilə Osmanlı ordusunu təqib etməyə qərar verdi. Ağqoyunlu ordusu Malatya döyüşündən bir həftə sonra avqustun 11-də Ərzincanla Ərzurum arasında Üçağızlı dərəsində Osmanlı ordusunu qabaqladı. S.Tansel yazır ki, Üçağızlı dərəsi dar və keçilməsi çətin olan bir yerdir. Artıq heyvanların belə yüyürmək halları qalmamışdı. Buna görə, keçilməsi çox çətin olan, dar və ətrafı yüksək dağlarla əhatə olunmuş bu yerdə ordugah qurmaq və istirahət etmək məcburiyyətində qalındı [326, 318]. Otluqbeli yüksəklikləri Ağqoyunlu süvariləri tərəfindən tutulduğu üçün Fateh

II Mehmed döyüşə girmək məcburiyyətində qaldı [139, 13].

Otluqbeli (Başkənd) döyüşü Türkiyə tarixçilərinin əsərlərində hərtərəfli işıqlandırılmışdır. Ş.Turan yazır ki, Uzun Həsən oğlu Uğurlu Məhəmməd ilə Qaramanlı Pir Əhməd bəyi Osmanlı ordugahı üzərinə sövq etdirərkən, digər oğlu Zeynal bəylə Bayandur bəyi öz süvariləri ilə osmanlıları yan tərəflərdən kəsməyə göndərdi, özü də əsas ordusunun başında qarşıdan hərəkətə keçdi. Beləliklə, bir dərə içində olan II Mehmed hər tərəfdən mühasirəyə alınmış olurdu [342, 121]. Vuruşmanın planına görə, həm qarşıdan, həm də yanlardan hücum edən Ağqoyunlu süvariləri Osmanlı ordusunu qəfildən yaxalamalı və onu dərədən düzə çıxmağa qoymamalı idi. Döyüş dərədə baş verməli idi. 1473-cü ilin 11 avqustunda Otluqbelidə (Başkənddə) iki fatehin hərbi qüvvələri arasında 8 saata qədər davam edən şiddətli döyüş baş verdi. Döyüşün əvvəlində buraxılan səhv Uzun Həsənə öz məqsədini gerçəkləşdirməyə imkan vermədi. Bu səhv Uzun Həsənin döyüşdən sonra Venesiya Doju Nikolo Trona yazdığı məktubunda aydın şəkildə qeyd edilmişdir. Məktubda deyilirdi: «İndi Osmanlı sultanının istila üçün mənim torpaqlarıma gəldiyini sizə bildirmək istəyirəm. O, Ərzincan sərhəddinə qədər irəliləmişdi, biz də yavaş-yavaş Ərzincan dolaylarına gəlmişik...İlk qarşılaşmadakı məğlubiyyət Osmanlı sultanını böyük əndişəyə saldığından o, geriyə dönməyə qərar verdi. Ancaq geriyə öz torpaqlarına döndüyü gün biz də onu təqibə başladıq. Onu təkrar geri döndərmək üçün bir neçə gün atlarımızla arxasınca getdik. Bu zaman qüvvələrimdən bir qismi mənim əmrimi gözləmədən onlarla savaşa girdilər və bunlar sayca az olduqları üçün təsadüfi bir məğlubiyyətə uğradılar» [342, 123; 139, 13-14].

Ağqoyunlu süvariləri Gavur İshaqın və Zeynal bəyin rəhbərliyi altında Uzun Həsənin xəbərdarlıq etməsinə baxmayaraq, aradakı məsafəyə diqqət yetirməyərək döyüşə girdiyi üçün Anadolu bəylərbəyi Davud Paşa tərəfindən məğlub edildi. Otluqbeli təpəlikləri osmanlılar tərəfindən tutuldu, bundan yararlanan Osmanlı ordusu xeyli təlafatdan sonra düzə çıxıb döyüş

nizamı ala bildi [342, 122; 326, 319]. Ağqoyunlu süvariləri döyüşün əvvəlindən sonuna kimi üstünlüyü öz əllərində saxladı. Ş.Turan yazır ki, Katerino Zeno Osmanlı və digər şərq qaynaqlarında qeyd olunmayan önəmli bir məsələyə aydınlıq gətirmişdir. O, Uzun Həsənin bu qanlı savaşda bilavasitə iştirak etdiyini və saat 9-da atına minərək Osmanlı səflərini yararaq hətta, döyüş arabalarının olduğu yerə qədər yaxınlaşmağa müvəffəq olduğunu qeyd etmişdir. Ancaq bu zaman, osmanlılar Ağqoyunlu qüvvələrinə arxadan toplardan şiddətli atəş açmış və top atəşi ilə piyadaların tüfəng atəşləri arasında qalan Uzun Həsənin «ölüm silahlarının səsinə alışmayan» əsgərləri qaçmağa məcbur oldu [342, 123; 139, 14].

Beləliklə, döyüşün sonuna yaxın Ağqoyunlular odlu silahlardan istifadə edən yeniçəri alaylarının inadlı əks-hücumlarına davam gətirə bilmədilər. Döyüş Osmanlı ordusunun qələbəsilə sona yetdi. Hər iki tərəf ağır təlafat verdi. Ş.Turan yazır ki, Fateh Mehmed güclə olsa da qalibiyyət qazandı. Amma Uzun Həsən də ağır itki verməsinə baxmayaraq, məğlub olduğunu qəbul etmək istəmədi. O, Otluqbeli savaşını qüvvələrindən bir qisminin onun əmri olmadan osmanlılarla döyüşə girmələri və sayca az olduqları üçün «təsadüfi bir məğlubiyyətə» uğradıqları kimi qiymətləndirdi [342, 122]. Uzun Həsənin öncül qüvvələrinin vaxtından əvvəl döyüşə girərək əlverişli mövqelərini itirməsindən sonra Osmanlı ordusunun Üçağızlı dərəsindən çıxaraq düzən ərazidə döyüş nizamını qurmasını «Sultan Fateh Mehmedin yarlığı» da təsdiq edir. «Yarlıq»da yazılır: «Bu arada Həsən bəy gəlincə, bizim öndəki qarovul bəyləri, Davud bəy Anadolu xalqı ilə və Mahmud paşa komandanlığında bulunanlar yürüyüb, onun irəli qarovul bəylərinə yetişdilər. İki-üç dəfə Həsən bəyin ön qarovul bəylərini geri oturdaraq, sancaqlarının olduğu yerə qədər dəf edə bildilər. Bu arada biz Allah-taalanın inayətiylə və ərənlər himmətiylə əsgərləri təşkil edərək dərədən çıxdıq» [21, 304; 139, 15].

1473-cü ilin 30 avqustuda Otluqbeli döyüşündən sonra yazılmış olan «Fateh Sultan Mehmedin Yarlığı» Otluqbeli (Baş-

kənd) döyüşünün necə cərəyan etməsi, burada iştirak etmiş olan hər iki dövlətin hərbi qüvələri, döyüş taktikası və komandanlar haqqında mühüm məlumat verməkdədir. «Yarlığa» görə, Fateh Mehmed Ağqoyulu sultanını Ərzincan vilayətində gözləmiş, lakin Uzun Həsən hələlik osmanlılarla qarşılaşmağı məsləhət bilməmişdi. «Yarlığ»ın şəhadətinə görə, Uzun Həsən divanbəyi Məhəmməd bəy və Əmir Cəmşid bəyin komandanlğı altında 5 min nəfərlik qarovulu Ərzincanda osmanlılara qarşı göndərmişdi. Qarşı tərəf də Turəxan bəyin oğlu Ömər bəyin başçılğı altında bir o qədər əsgərlə onlara qarşı çıxmışdı. Həmin döyüdə ağqoyunlular basılmışdı [21, 303-304]. «Yarlıq»dan məlum olur ki, Uzun Həsənlə həlledici döyüş üçün Fateh II Mehmed Ərzincan gədiyini aşmış, avqustun 2-də Uzun Həsən ona qarşı gəlmişdi. İlk qarşıdurma Ağqoyunlu-Osmanlı qarovul dəstələri arasında olmuş, Ağqoyunlular «bir neçə kişini əsir almışdılar» [21, 304; 92, 84]. «Yarlıq»da Ağqoyunlu və Osmanlı ordusunun Otluqbeli döyüşündəki hərbi tərtibatı, döyüş nizamı, düzülüşü, qoşuna rəhbərlik edən şəxslərlə bağlı müfəssəl məlumat verilmişdir [21, 304; 139, 15].

«Yarlığ»ın verdiyi məlumatlar təsdiq edir ki, Otluqbeli döyüşü çox qızğın keçmişdi. Müasir Türkiyə tarixçiləri Osmanlı müəlliflərinin verdiyi məlumatlara əsaslanaraq Otluqbeli (Başkənd) döyüşünün gedişini Osmanlı ordusunun mütləq qələbəsi kimi izah edirlər. Katerino Zenonun «Səfərnaməsi»nə müqəddimə yazan ingilis mütərcimi Çarlz Qreyin məlumatına görə, döyüş nəticəsində güclü müqavimətə rast gələn Fateh Mehmed geri dönmək məcburiyyətində qalmışdı. Lakin Uzun Həsən onu təqib edərək, yenidən döyüşə girmiş və məğlub olmuşdu [Bax: 92, 84; 139, 15].

S.Ərşahin yazır ki, şübhə yoxdur ki, Otluqbeli döyüşünün qalibi odlu silahlar olmuşdu. Top və tüfəngə sahib olan Osmanlılar klassik silahlara üstünlük verən Ağqoyunlu ordusunu məğlub etmək üçün çox güç sərf etmədilər. Uzun Həsən demək olar ki, eyni sayda olan Teymuri və Məmlük ordularını məğlub etsə də, odlu silahlara malik olan Osmanlılara məğlub olmuşdur

[215, 103].

1473-cü il Osmanlı-Ağqoyunlu döyüşü Anadolu və Azərbaycan türklərinin hərbi-siyasi tarixinin mühüm mərhələlərindən birini təşkil edir. Otluqbeli qələbəsi Osmanlı imperiyasına şərqdə yeni geniş ərazilər qazandırmasa da, Anadolunun Osmanlı hakimiyyəti altında mərkəzləşməsində fövqəladə dərəcədə önəmli hadisə olmuşdu. Nəticədə Osmanlı nüfuz dairəsinin şərq istiqamətində genişlənməsinin qarşısını ala biləcək yeganə qüvvə olan Ağqoyunlu dövləti Anadoluda hakimiyyət iddialarından birdəfəlik əl çəkməli oldu və Kiçik Asiyanın Osmanlı hakimiyyəti altında siyasi mərkəzləşmə prosesinin ikinci böyük mərhələsi başa çatdı. Uzun Həsənə sığınmış türk bəylərinin süqutu ilə Qərbi Anadoludan sonra Orta Anadolu bölgələri də qəti şəkildə Osmanlı dövlətinin tərkibinə qatıldı [118, 189].

Ağqoyunlularla bağlı tədqiqatlarında İ.H.Uzunçarşılı, M.X.Yınanç, B.S. Baykal, F.Sümer, S.Tansel, Ş.Turan, Y.Yücel və M.Ərəndil Osmanlı qaynaqlarına əsaslanaraq bu iki dövlət arasındakı qarşılıqlı münasibətləri aydınlaşdırmağa çalışmışlar. Müasir Türkiyə tarixşünaslığında 1473-cü il avqustun 11-də baş vermiş Otluqbeli (Başkənd) döyüşündən sonra Ağqoyunlu və Osmanlı dövlətləri arasında sülh bağlanması ilə bağlı fikirlər müxtəlifdir. Ağqoyunlularla bağlı xüsusi tədqiqatlarında M.X.Yınanç və F.Sümer [Bax: 357; 217] Otluqbeli (Başkənd) döyüşü ilə bağlı geniş məlumat vermədikləri üçün bu döyüşdən sonra tərəflər arasında bağlanmış sülhdən bəhs etməmişlər. Öz əsərlərində Otluqbeli (Başkənd) döyüşü ilə bağlı geniş məlumat verən Y.Öztuna, Ə.Sevim, Y.Yücel və İ.H.Uzunçarşılı da sülhlə bağlı heç bir məlumat vermirlər [283, 53-54; 366, 176; 346, 193].

1473-cü il Ağqoyunlu-Osmanlı sülh müqaviləsi ilə bağlı mühüm məlumatlar S.Tanselin, X.İnalcıkın, Ş.Turanın, A.Şimşirgilin, Ə.Qonuqçunun, V.Çabukun, S.Cöhçənin tədqiqatlarında öz əksini tapmışdır. Onlar Osmanlı tarixçisi İbn Kamalın verdiyi məlumarlara, eləcə də Topqapı Sarayı arxivində saxlanılan Uzun Həsənin rəsmi məktublarına [Bax: 326, 323-324, Vəsiqə, 17, 18,

19] əsaslanaraq Ağqoyunlu və Osmanlı dövlətləri arasında sülhün bağlandığını qeyd edirlər [326, 323-324; 233, 527; 342, 127-128; 325, 355; 252, 32; 187, 139; 186, 276; 251, 112]. İbn Kamal yazır ki, Fateh II Mehmed Şəbinqarahisarda olan zaman Uzun Həsən Əhməd Begürci adlı tanınmış bir şeyxi sülh üçün onun hüzuruna göndərdi. Fateh Uzun Həsənin istədiyi sülhü bağladı [38, 368; 139, 17]. Şərafəddin Turan yazır ki, Uzun Həsənin sülh üçün elçi göndərməsində məqsədi, Osmanlı qüvvələrinin Ağqoyunlu torpaqlarına girməsinin qarşısını almaq, Venesiyanın göndərdiyi silahlara sahib olaraq ordusunu yenidən qurmaq üçün vaxt qazanmaq idi [342, 127-128]. Xəlil İnalcık isə bağlanmış sülhün şətrlərinə toxunaraq yazır ki, sülhə görə, Uzun Həsən Şəbinqarahisarı tərk etdi və Osmanlı ərazisinə bir daha təcavüz etməyəcəyinə söz verdi [233, 527; 251, 112-113; 127, 139, 17].

Ə.Qonuqçunun fikrincə, II Mehmedin əsir aldığı Ağqoyunlular arasında Qazi Mahmud Süreyhi, Uzun Həsənin nişançısı Seyyid Məhəmməd Münşi və imamı Mövlana Qazi Əli də olmuşdu. Osmanlı sultanı bu əsirləri öldürmədi. Buna səbəb, döyüşdən sonra Uzun Həsən tərəfindən böyük alim Mövlana Əhməd Begürci adlı elçinin II Mehmedin yanına göndərilməsi oldu. Elçini Fatehin yanına göndərmədən öncə, Uzun Həsən ona barışı çox arzuladığını, lakin Fatehin yüksəkdən baxdığı üçün padşaha müsəlmanlara hizmət edilməsini nəsihət etməklə mövcud əsirlərin qarşılıqlı şəkildə sərbəst buraxılmasını istədiyini bildirdi [252, 32; 127, 94]. İbn Kamalın fikrincə, padşaha yalvarmaq üçün göndərilmiş olan bu elçi Osmanlı vəzirləri tərəfindən irəli sürülən hər şeyin Uzun Həsən tərəfindən qəbul ediləcəyini bildirmişdi [38, 368].

Ağqoyunlu-Osmanlı sülhü ilə bağlı Türkiyə tarixçilərinin verdiyi məlumatı dövrün digər qaynaqları da təsdiq edir. Bununla bağlı geniş məlumata Mualinin «Xunkarnamə» əsərində rast gəlirik. 1474-cü ildə mənzum əsərini fars dilində tamamlayaraq Fateh II Mehmedə təqdim edən Muali Qaraqoyunlu-Ağqoyunlu-Teymuri və Osmanlı qarşılıqlı münasibətləri ilə bağlı qiymətli

məlumatlar vermişdir. Bu əsərdə 1473-cü il Ağqoyunlu-Osmanlı sülhü ilə bağlı qiymətli məlumat öz əksini tapmışdır. Muali sülh haqqında yazır: «Uzun Həsən mütəəssirdir. Oğlu Zeynalı itirdiyini düşünərək, Yusif və Fərrux Cəmalın aqibətlərinin necə olduğunu bilmədiyinə görə, sülh bağlayaraq onları xilas etmək üçün bir elçi göndərməyə qərar verdi. Onun Mirzə Həsən adlı elçisi Fateh II Mehmedin yanına gəlmişdi. Sultan Ağqoyunlu elçisinə Uzun Həsənin Fərat çayının arxa tərəfində qalması lazım gəldiyini bildirmiş, onun qızını oğlu şahzadə Bayəzidə verməsini tələb edərək elçini geri göndərmişdi. Onunla birlikdə Fateh tərəfindən Əli bin Molla Fənari də göndərilmişdi. Heyət 40 gündən sonra Təbriz hüdudlarına çatmışdır. Əlvənd və Səhənd dağları arasında ovla məşğul olan Uzun Həsən elçi Əli Fənarini burada qəbul etmişdi. Uzun Həsən öz taxtı yanına qoydurduğu Teymuri Əbu Səidin taxtına Osmanlı elçisini oturtmuşdu. Elçinin Fatehdən gətirdiyi məktubu oxuyan Ağqoyunlu hökmdarı məmnun qalmışdır. Əli Fənari 40 gün Uzun Həsənin qərargahında qaldıqdan sonra yanında Uzun Həsənin qızı, 300 ağqoyunlu süvarisi və gəlinin cehizi ilə bərabər İstanbula hərəkət etmişdi» [17, 155; 127, 94-95 ].

Müalinin verdiyi məlumat bir daha təsdiq edir ki, 1473-cü ildə Fateh II Mehmed Şəbinqarahisarda olarkən Ağqoyunlu-Osmanlı sülhü bağlanmış, hətta bu sülhü möhkəmləndirmək arzusunda olan Osmanlı sultanı öz elçisini Ağqoyunlu sarayına göndərmişdir. Mualinin məlumatından belə nəticəyə gəlmək olur ki, Uzun Həsənin sülh bağlamaqda mühüm məqsədlərindən biri də osmanlılar tərəfindən ələ keçirilən əsirləri xilas etmək olmuşdur. Əsirlərlə bağlı onun vermiş olduğu bu məlumat dövrün rəsmi vəsiqələri, eləcə də İbn Kamalın verdiyi məlumatlarla üst-üstə düşür [127, 95].

1473-cü ildə Ağqoyunlularla–Osmanlılar arasında sülh bağlanmasını Otluqbeli döyüşündən sonra Sultan Fateh II Mehmedin Teymuri hökmdarı sultan Hüseyn Baykaraya bu fəthlə bağlı göndərmiş olduğu məktubu da təsdiq edir. Məktubda Fatehin «...Onun (Uzun Həsənin) bütün ölkəsini ələ keçirə bilərdim

…amma o, bir əziz danişməndi sülh üçün yanıma göndərdi» [34, 285; 92, 87; 149, 61] faktını xatırlatması bir daha təsdiq edir ki, döyüşdən sonra tərəflər arasında sülh bağlanmışdır [127, 95]. Ağqoyunlu-Osmanlı sülhünün bağlanmasını Türkiyə tarixçisi Mehmet Rıhtımın son tədqiqatları da təsdiq edir. M.Rıhtım yazır: «Şeyx (Pir Məhəmməd Ərzincani) Ağqoyunlu hökmdarı ilə iki dəfə görüşmüşdür. Uzun Həsən Fateh Sultan Mehmed xan ilə hərbə qərar verəndə Şeyxi ziyarət edərək dəstəyini almaq istəmiş, ancaq buna nail ola bilməmiş, şeyxdən müharibədən çəkilməsi tövsiyəsini almışdır. Uzun Həsən Otluqbelində Fatehə məğlub olanda Şeyxdən yardım istəmişdir. Buna görə o, öz xəlifələrindən Pir Əhmədi Fatehə elçi göndərərək Osmanlı dövləti ilə sülh müqaviləsinin bağlanmasına müvəffəq olmuşdur» [149, 61]. Bu faktlar bir daha təsdiq edir ki, 1473-cü ildə Uzun Həsənlə II Mehmed arasında Otluqbeli döyüşündən sonra sülh bağlanmışdır. Dövrün qaynaqlarından gətirdiyimiz faktlar Türkiyə tarixşünaslığında problemin düzgün qoyulduğunu, S.Tanselin, X.İnalcıqın, Ş.Turanın, Ə.Şimşirgilin, Ə.Qonuqçunun bu məsələyə düzgün mövqedən yanaşdığını söyləməyə imkan verir [127, 95].

Ağqoyunlu sarayına göndərilən Venesiya diplomatı A.Kontarinin verdiyi məlumat bir daha göstərir ki, Uzun Həsən Osmanlı sultanı ilə münasibətləri nizama salmaq və sülhü möhkəmləndirmək məqsədilə mühüm təşəbbüs göstərmişdi. 1474-cü ildə Təbrizdə olan Venesiya diplomatı A.Kontarininin verdiyi məlumata görə, Ağqoyunlu hökmdarı Uzun Həsən Osmanlı Sultanı II Mehmedlə sülh müqaviləsi bağlamaq məqsədilə Osmanlı sarayına öz elçisini – ordu Qazisini göndərmişdi. Lakin o, bir nəticə əldə etmədən geri dönmüşdü [Bax: 53, 91].

Ağqoyunlu hökmdarı üzərindəki qələbədən sonra Türkiyə tarixçilərinin Fateh Mehmedin ən böyük düşməni kimi göstərdikləri Ağqoyunlu dövlətini aradan qaldırmaq üçün imkanı olmasına baxmayaraq, onu təqib etməməsinin səbəbini, guya Sultan II Mehmedin belə bir məqsədinin olmaması, yalnız Uzun Həsəni cəzalandırmaq istəməsi ilə izah edirlər [231, 52, Tər-

cüməçinin qeydləri]. Səlahəddin Tansel bu məsələ ilə əlaqədar daha düzgün qərara gələrək yazır ki, Fatehin Ağqoyunlular üzərinə hücumu davam etdirməməsinin başlıca səbəbi Osmanlıların Ağqoyunlu dövlətindən çəkinməsi olmuşdur [326, 303-304]. Mənbələrin verdiyi məlumata görə, «Otluqbeli qələbəsi sultana o dərəcədə baha başa gəlmişdi ki, o, bir də heç vaxt Ağqoyunlular üzərinə hücum etməyə cürət etməmiş və gələcək müharibələrində bürün diqqətini Avropaya yönəltmişdir» [62, 62].

Beləliklə, Ağqoyunlu ordusunu məğlub edən Osmanlı sultanı özünün bütün hərbi qüvvələrini qərbə – Venesiya respublikasına və başqa Avropa dövlətlərinə yönəltdi.

Otluqbeli döyüşündən sonra Ağqoyunlu-Osmanlı münasibətləri gərgin məcrada davam etmişdi. Uzun Həsən Osmanlı Türkiyəsini məğlub etmək planından əl çəkməmişdi. O, döyüşdən cəmi bir həftə sonra Venesiya diplomatı Katerino Zenonu və Macarıstan elçisini qəbul etmiş, onlara Osmanlı Türkiyəsinə qarşı yeni müharibəyə hazırlaşdığını bildirmişdi [233, 527]. Xəlil İnalcık yazır ki, Otluqbeli döyüşündən az sonra Uzun Həsənin xristian dövlətlərini Osmanlılara qarşı təhrik etməkdə davam etdiyini öyrənən Sultan II Mehmed Hüseyn Bayqaraya göndərdiyi məktubunda Uzun Həsəni məhv etmək üçün ikitərəfli hücuma keçməyi təklif etmişdi [Bax: 407, 105]. Yılmaz Öztuna qeyd edir ki, 1478-ci il yanvarın 5-də Uzun Həsənin ölümündən sonra bu planın həyata keçirilməsinə ehtiyac qalmamışdı [283, 57]. Bütün bunlar göstərir ki, iki türk dövləti arasında mövcud olan zıddiyyətlər hələ də həll edilməmişdir.

Türkiyə tarixçilərinın «Uzun Həsənin xristian dövlətlərini Osmanlılara qarşı təhrik etməsi» fikri həqiqətdən uzaqdır. Bu təşəbbüs Uzun Həsən tərəfindən deyil, əksinə başda Venesiya olmaqla Avropa dövlətləri tərəfindən irəli sürülmüşdü. Çünki Otluqbelidə Ağqoyunlulara qalib gələn II Mehmed özünün bütün hərbi qüvvələrini Venesiyaya qarşı çevirmişdi. Belə bir şəraitdə Agqoyunlu dövlətini yenidən Osmanlılara qarşı müharibəyə təhrik etmək, düşmən qüvvələrini iki cəbhəyə parçalamaq Venesiya respublikası üçün daha vacib idi. Buna görə də,

Venesiya diplomatiyası əsas diqqətini Ağqoyunlu dövlətini yenidən Osmanlılara qarşı müharibəyə təhrik etməyə yönəltmişdi. Şərafəddin Turan yazır ki, bu məqsəd üçün Venesiya respublikası üç nəfər elçisini Uzun Həsənin sarayına göndərmişdi [342, 132-133]. Uzun Həsən Avropa elçiləri ilə söhbətində Osmanlı Türkiyəsinə qarşı 1476-cı ilin baharında hərbi əməliyyata başlamaq qərarına gəldiyini bildirmişdi [64, 63-64; 112, 161]. Şərafəddin Turan qeyd edir ki, Uzun Həsən 1477-ci ilin baharında 20-24 minlik qüvvə ilə Osmanlılara qarşı səfərə çıxmaq istədiyi haqda xəbər yaymış, lakin Venesiya elçisi G.Barbaro buna inanmamışdı. Uzun Həsən öz qüvvələrini Anadoluya deyil, Gürcüstana yeritmişdi [342, 137]. Beləliklə, Otluqbeli döyüşündən sonra Venesiya Respublikasının bir-birinin ardınca Ağqoyunlu sarayına göndərdiyi elçilər öz məqsədlərinə nail ola bilmədilər. Belə ki, Uzun Həsən Osmanlılara qarşı yeni müharibəyə başlamadı [26, 80].

1478-ci il yanvarın 5-də Uzun Həsənin ölümü ilə Venesiya Respublikasının, habelə başqa Qərb dövlətlərinin Osmanlı Türkiyəsini əsasən Ağqoyunlu dövlətinin qüvvəsi ilə məğlub etmək cəhdi tamamilə boşa çıxdı. Uzun Həsənin ölümündən sonra Azərbaycan Ağqoyunlu dövlətində varislər arasında taxt-tac uğrunda kəskin mübarizə başladı. Hakimiyyəti ələ keçirən Sultan Xəlil qardaşlarına qarşı mübarizəyə başladı. Sultan Xəlilin dövründə Ağqoyunlu-Osmanlı münasibətlərinə toxunmuş Türkiyə tarixçiləri yazırlar ki, Uzun Həsənin ölümündən sonra onun yerinə keçən oğlu Sultan Xəlil dostluğu yenidən bərpa emək məqsədilə Qazi Əlaəddin Beyhəqini İstanbula göndərdi və hər iki dövlət arasında dostluq əlaqələri yaradıldı [351, 105; 366, 177]. Bu faktı dövrün mənbələri də təsdiq edir. Fəzlullah ibn Ruzbihan Xunci qeyd edir ki, Sultan Xəlil Osmanlı Sultanı II Mehmedə padşahın ölüm xəbərini çatdırmaq və dostluğu bərpa etmək məqsədilə özünün divanbaşçısı Qazi Əlaəddin Beyhəqini İstanbula göndərdi [68, 47; 215, 114]. Həsən bəy Rumlu da Sultan Xəlilin Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq məqsədi ilə oraya elçi heyəti göndərdiyini yazır

[Bax, 91, 107]. Məhəmməd Nəşrinin verdiyi məlumatlara əsaslanan Yılmaz Öztuna Ağqoyunlularla Osmanlılar arasında dostluq münasibətlərinin yaradılmasının səbəblərini səciyyələndirərək belə bir nəticəyə gəlir ki, Uzun Həsən ölərkən vəsiyyət etdi ki, özündən sonra nəslindən padşah olanlar heç zaman «Osmanlılarla müharibə etməsinlər». Oğlanları onun bu vəsiyyətinə sadiq qaldılar [283, 54].

Fikrimizcə, Osmanlı Türkiyəsinin də Ağqoyunlularla mehriban qonşuluq münasibətləri yaratması müəyyən tarixi zərurətdən irəli gəlmişdi. Belə ki, Ağqoyunluların Avropadakı müttəfiqlərinə qarşı mübarizəyə başlayan Sultan II Mehmed Avropa dölətlərinin Ağqoyunluları Osmanlılara qarşı yeni müharibəyə təhrik etməkdə davam etdiklərini bilirdi. Bunun qarşısını almaq məqsədilə o, bütün qüvvələrini Avropadakı düşmənlərinə qarşı səfərbər edə bilmək üçün Ağqoyunlu dövləti ilə münasibətləri gərginləşdirmək fikrində olmamışdır.

Sultan Yaqubun hakimiyyətə gəlməsi ilə Ağqoyunlu-Osmanlı münasibətlərində yaxınlaşma hiss edilməyə başlandı. Hələ vaxtı ilə Fransız şərqşünası J.Dögini yazırdı ki, Yaqub Padşah Osmanlı dövləti ilə daim dostluq münasibətləri yaratmışdı və atasının başına gələnlərdən qorxduğu üçün bu müdhiş qüvvəni öz üzərinə cəlb etməkdən çəkinmişdi [197, 1773]. J.Hammer də Sultan Yaqubun Osmanlı sultanı II Bayəzidlə dostluq əlaqələri yaratdığını, 12 illik hakimiyyəti zamanı dəfələrlə İstanbula elçilər və hədiyyələr göndərdiyini yazır [229, 332]. İ.H.Uzunçarşılı da Ağqoyunlu hökmdarı Sultan Yaqubun Osmanlılarla dostluq əlaqəsi yaratdığını göstərsə də, bunun səbəbini izah etməmişdir [351, 197].

1961-ci nəşr olunan «Azərbaycan tarixi» kitabında qeyd edilir ki, Ağqoyunlu ordusu 1480-ci ildə Osmanlıları ağır məğlubiyyətə uğratmış və Sultan II Bayəzid sülh istəməyə məcbur olmuşdur [73, 225]. Lakin bu fikir dövrün nə Ağqoyunlu, nə də Osmanlı qaynaqlarında öz əksini tapmamışdır. Lakin Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə, 1480-ci ildə Ağqoyunlu ordusu Bayandur bəy, Süleyman bəy Bican oğlu və

Xəlil bəy Bəktaşın rəhbərliyi altında Yaşbəyin komandanlıq etdiyi Misir ordusunu məğlub etmişdir [Bax: 68, 61-62].

Uzun Həsənin ölümündən sonra Ağqoyunlu-Osmanlı münasibətlərindəki yaxınlaşma meyli Ağqoyunlu və Osmanlı qaynaqlarında öz əksini tapmışdır. Osmanlı tarixçisi Xoca Sədəddin Əfəndi Ağqoyunlu Sultan Yaqubla Sultan II Bayəzid arasındakı münasibətlərə toxunaraq yazırdı: «Yaqub Padşah qonşu hökdarlarla dostluq əlaqələri yaratdığı üçün onun sevgisi də təmiz ürəklərdə yer tutmuşdu. O, xüsusilə cənnətməkan Sultan Bayəzid həzrətlərinə sevgilərini, yaxın diləklərini bildirən məktublar və elçilər göndərmiş, taxta çıxdığı gündən ömrünün sonunadək bu vəziyyətə sadiq qalmışdır. İki tərəf arasındakı bu xeyirli əməl anlaşılmazlıq izlərini aradan qaldırmış, qarşılıqlı dostluq hər yerdə müşahidə olunmuşdur» [37, 334].

Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbihan Xunci 1488-ci ilin avqustunda Osmanlı Sultanı II Bayəzidin elçisinin qiymətli hədiyyələrlə Təbrizə – Ağqoyunlu sarayına gəlməsi haqqında məlumat verir. Onun fikrincə, gələn elçi heyətinin rəhbəri Osmanlı dövlətinin tanınmış əmirlərindən biri idi və onu yüz nəfər müşayiət edirdi. O, II Bayəzidin məktubunu və dəyərli hədiyyələr gətirmişdi [68, 99]. "Tarix-i alam-aray-i Əmini"nin tərcüməçisi V.Minorski bu hadisə ilə bağlı yazdığı şərhdə bildirir ki, bu Osmanlı dövlətinin Sultan Yaqub sarayına göndərdiyi ilk elçi heyəti olmamışdı. 1485-ci ilin iyulunda Venesiya diplomatı Covanni Darionun Qəzvindən İstanbuldakı Venesiya nümayəndəsinə göndərdiyi məktubda 1485-ci ildə Hindistan və Macarıstan elçiləri ilə birlikdə Osmanlı elçisi Davud Paşanın da gəldiyi bildirilir [68, 137; 81, 65]. Zənnimizcə, Fəzlüllah ibn Ruzbehan Xuncinin qeyd etdiyi 1488-ci ilin avqustunda gələn Osmanlı elçisi 1485-ci ildə gələn Davud paşa ilə eyni şəxsdir. Bu dövrdə Osmanlı dövlətində yüksək vəzifə daşıyan Davud adlı iki dövlət adamının olduğu məlumdur. 1485-ci ildə bu şəxslərdən yalnız biri paşa ünvanı daşıyıb və baş vəzir olmuşdur. Baş vəzirin bu dövrlərdə diplomatik əlaqələr üçün xarici ölkələrə getməsinə dair heç bir məlumat yoxdur. F.R.Xunci elçi baş

vəzir Davud paşa olsa idi mütləq bu haqqda məlumat verərdi. Belə görünür ki, bu şəxs baş vəzir Davud paşa olmayıb, 1488-ci ildə nişançı vəzifəsinə gətirilən, yəni paşa ünvanı verilən ikinci Davud paşadır. Çünki, II Mehmed dövründən etibarən nişançılara vəzirlik (eyni zamanda paşalıq) verilərək müxtəlif vəzifələr tutması adət halını almışdı. Bununla yanaşı, Osmanlı dövlətində nişançıların diplomatik əlaqələr üçün göndərildikləri məlumdur. Ola bilsin ki, 1485-ci ildə Venesiya diplomatı o dövrdə Osmanlı dövlət adamları üçün geniş işlənməyə başlayan paşa ünvanını Davud adına da əlavə etmişdir [81, 65]. F.R.Xunci 1488-ci ilin avqustunda Osmanlı elçisinin hansı məqsədlə gəldiyini yazmasa da, bu dövrün hadisələrinə diqqət yetirilərsə bu görüşə səbəb Səfəvi təhlükəsinin ortaya çıxması idi. Çünki, Qızılbaş təhlükəsi Ağqoyunlu-Osmanlı münasibətlərinə mühüm təsir göstərərək onların yaxınlaşmasına səbəb olmuşdu.

Ağqoyunlu-Osmanlı münasibətlərindəki yaxınlaşmaya II Bayəzidlə Sultan Yaqubun dini etiqadının yaxın olmasıdır. Doğrudur hər iki sultanın həyatlarının müəyyən dövrlərində əyləncəyə və eyş-işrətə aludə olduqları bilinməkdədir. Amma bəhs olunan dövrdə hər iki dövlət başçısı ciddi bir şəkildə təsəvvüfi həyata bağlanmışdılar [356, 243-246]. Hər iki hökmdarın Xəlvətilik və Nəqşbəndilik təriqətləri ilə də sıx əlaqəsi olmuşdur [68, 75; 60, 160; 81, 67]. Bu amillərin təsiri altında Sultan Yaquba qarşı şiələrin nisbətən çox olduğu Mazandaran və Gilan bölgələrində, hələ Uzun Həsən dövründə müstəqil yaşamaları üçün müəyyən edilmiş vergilər ödənməmiş və üsyan baş qaldırmışdı. Buna görə də Sultan Yaqub 1483, 1487 və 1488-ci illərdə ardıcıl olaraq bu bölgələrə səfər etmiş və Ərdəbil də daxil olmaqla bu əraziləri Şeyx Heydər hərakatının sonuna kimi nəzarəti altında saxlamışdır [68, 72-74; 356, 240; 81, 67].

Ağqoyunlu tarixçisi Osmanlı elçi heyətinin 1490-cı ilin yazında Sultan Yaqub Səhənd yaylağında ikən onun yanına gəlməsi haqda məlumat verir. F.R.Xunci elçinin adını çəkməsə də, elçi heyətinin başında Osmanlı dövlətinin böyük əmirlərindən min frank vəzifə maaşı olan birinin olduğunu qeyd et-

məklə kifayətlənir [68, 113; 81, 68]. Görünür Osmanlı elşisi çox önəmli bir məsələdən ötrü gəlmişdi. Çünki, ölkədə vəba xəstəliyi geniş vüsət aldığı üçün Sultan Yaqub Səhənd yaylağına çəkilmişdi. B.Dədəyevin fikrincə, Osmanlı və Ağqoyunlu dövlətləri Səfəvi təriqətinin prinsip etibarı ilə ideoloji xəttini dəyişdirmək məsələsində həmfikir olmuşdur. Səfəvi müridlərinin böyük əksəriyyətinin əhl-beyt sevgisini həyat tərzi kimi qəbul edən türkmanlardan olduğunu nəzərə alsaq, ola bilsin ki, bunları zərərsizləşdirmək üçün müəyyən tədbirlərə ehtiyac duymuşdur. Bu da təriqətin yeganə kitabı olan "Səffatüs-səfa"da Ağqoyunlular tərəfindən Səfəvilərin Sincandan gəldiyi nəzərə alınaraq "kürdi" ibarəsi ön plana çıxarılmışdır. Beləliklə, təriqət şeyxlərinin soy kökündə əslində "qeyri seyyid" olduğu göstərilməyə çalışılmışdır. Uzun illər boyu seyyid olduqları üçün şeyxləri yolunda canını qurban verən Səfəvi müridlərinin əsərə "kürdi" ibarəsini yazmasını düşünmək imkansızdır [81, 68]. Ağqoyunlu sultanının belə bir siyasi addım atmasının iki səbəbi ola bilərdi. Birincisi, təriqətə siyasətdən uzaq əski özəlliyini qazandırmaq, ikincisi isə təriqətin xüsusən Anadoludan gələn türkmanlarla olan əlaqəsini kəsməkdi. Əgər, Sultan Yaqubun gənc yaşda vaxtsız ölümü olmasaydı, ola bilsin ki, bu plan gerçəkləşəcək və Səfəvi dövlətinin yaranması bəlkə də bir xəyal olaraq qalacaqdı.

Ağqoyunlu-Osmanlı münasibətlərindəki müsbət dönüşü Yaqub Padşahın Sültan II Bayəzidlə yazışmaları və tərəflərin müntəzəm olaraq bir-birinə elçi göndərmələri də sübut edir. İki türk dövləti arasında münasibətlərin yaxşılaşması səbəbləri türk tarixçiləri tərəfindən açıqlanmır. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri olmuşdur.

Osmanlı Türkiyəsi antitürk koalisiyasının üzvləri olan Ağqoyunlu dövləti və Venesiya respublikası üzərində qələbədən sonra Avropada işğalçılıq müharibələrini genişləndirmiş Məmlük sultanı ilə müharibəyə başladığı üçün Şərq qonşusu ilə sülh münasibətləri yaratmağa can atmışdı. Digər tərəfdən: antitürk koalisiyasının üzvləri (xüsusən Venesiya respublikası) II Mehmedlə müharibədə məğlub olmalarına baxmayaraq, daha da gü-

clənməkdə olan Osmanlı imperiyasına qarşı Ağqoyunlu dövlətini yeni müharibəyə sövq etməyə çalışmış, regionda baş verən hərbi-siyasi dəyişikləri diqqətlə izləmək üçün öz diplomatlarını Ağqoyunlu sarayına göndərmişlər. 1485-ci ildə İstanbuldakı Venesiya səfiri Petro Bambo öz hökumətinin tapşırığı ilə diplomat Covanni Darionu Ağqoyunlu sarayına göndərmişdi. Bu təcrübəli Venesiya diplomatına Uzun Həsənin ölümündən sonra Ağqoyunlu sarayında baş vermiş dəyişikliyi, Ağqoyunlu dövlətini Osmanlı Türkiyəsinə qarşı yeni müharibəyə cəlb etməyin mümkün yollarını öyrənmək vəzifəsi həvalə olunmuşdu [407, 114].

1485-ci il iyulun 9-10-da Covanni Darionun Qəzvindən İstanbuldakı Venesiya səfıri Bamboya göndərdiyi məktubların da Ağqoyunlu sarayındakı qəbul zamanı və danışıqlarda macar elçisi ilə yanaşı hind elçisinin, Osmanlı elçisi Davud paşanın da olduğu qeyd edilmişdir [68,137; 407, 114]. Bu fakt bir daha göstərir ki, Sultan II Bayəzid Qərb ölkələrinin Ağqoyunlu dövlətini Osmanlı Türkiyəsinə qarşı yeni müharibəyə cəlb etməsinə imkan verməmişdir. Osmanlı elçisinin Qərb diplomatları ilə Ağqoyunlu Padşahı Yaqubun danışıqlarında iştirak etməsi faktı da bunu bir daha sübut edir. Osmanlı imperiyasının Ağqoyunlu və Venesiya dövlətləri üzərindəki qələbəsi onun əleyhidarlarının vahid cəbhədə yenidən birləşmək cəhdini puça çıxardı. Avropa dövlətlərinin başçıları tarixi gerçəkliklərlə hesablaşmağa məcbur oldular.

Osmanlı dövlətində Sultan II Bayəzidlə qardaşı Cem arasında başlanan taxt-tac mübarizəsində Cem məğlub olaraq Misirə qaça bildi. Osmanlı dövlətindəki bu taxt-tac mübarizəsi təbii ki, Ağqoyunlu-Osmanlı-Məmlük əlaqələrinə də təsir etmiş və siyasi tarazlıq tədricən dövrün şərtlərinə görə dəyişməyə başlamışdır. Məmlüklərin Ortavə Cənubi Anadolu əraziləri üzərindəki iddiaları nəticəsində Osmanlı dövlətilə yaxşı olmayan münasibətləri Şahzadə Cemlə bağlı hadisədən sonra daha da gərginləşdi. Buna görə də, Məmlüklər Ağqoyunlu dövlətilə münasibətləri normal hala salmaq məcburiyyətində qaldılar. Eyni zamanda Osmanlı-Məmlük əlaqələrinin getdikcə pisləşmə-

sindən istifadə edən Ağqoyunlu dövləti öz vəziyyətini düzəltməyə başladı. Hadisələrin bu axarda inkişaf etməsindən sonra Ağqoyunlu-Osmanlı əlaqələrində önəmli bir gərginlik yaşanmadı [81, 60].

Şübhəsiz ki, Sultan II Bayəzidin taxt-tac uğrunda qardaşı Cem ilə apardığı mübarizəyə və Avropa dövlətlərinin bu məsələyə cəlb olunması Ağqoyunlu-Osmanlı münasibətlərindəki yaxınlaşma meylini gücləndirdi. Səlahəddin Tansel yazır ki, Sultan II Bayəzid xarici siyasətdə daim ehtiyatla hərəkət edirdi. Düşmənlərinin edə biləcəyi müştərək bir hücumdan yayınmaq üçün diplomatik incəlik göstərirdi [327, 233]. Y.M.Mahmudov bu iki türk dövləti arasında Uzun Həsənin ölümündən sonra yaranmış dəyişikliklərdən, başda Venesiya olmaqla bəzi Avropa dövlətlərinin narahat olduğunu və buna görə də Ağqoyunlu dövləti ilə diplomatik əlaqələri təzədən qurmaq istədiklərini bildirir [111, 125; 81, 61]. Xüsusilə bu məsələdə II Bayəzidin ehtiyatlı davranmasının əsas səbəbi onunla taxt-tac mübarizəsi aparan qardaşı Cemin Avropaya qaçması idi. Çünki, Şahzadə Cem 1482-ci ildə Həcc ziyarətindən geri dönən zaman Məmlüklərin yardımı ilə Anadoluya daxil olsa da, II Bayəzidə məğlub olaraq Rodosa, daha sonra isə Papaya sığındı. II Bayəzid təhdidlərə qarşı şahzadə Cemi buraxmamaları üçün onu 1495-ci ildə ölümünə qədər Rodos cəngavərlərinə və Papaya ildə 45 min duka ödəmək məcburiyyətində qalmışdı [327, 187-190; 81, 61].

Sultan II Bayəzid qardaşı Cemin taxt-tac uğrunda apardığı mübarizəni yatırmaq, cənub və qərb cəhbəsində uğurlu müharibə aparmaq məqsədilə Ağqoyunlu dövləti ilə münasibətdə çevik, diplomatik siyasət yeridir, bütün məktublarında Ağqoyunlu sultanı Yaqubla dostluq şəraitində yaşamağı arzuladığını bildirirdi [Bax: 9, 594-600, 620-623,636-643-645,649-652; 34, 308-309, 314-315, 318-319]. Sultan Yaqubla II Bayəzid arasındakı yazışma sənədlərinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, Sultan Yaqub dövründə Osmanlılarla açıq-aşkar düşmənçilik etmək, onlara qarşı pis münasibət nümayiş etdirmək meyli aradan qalxmış, Azərbaycan Ağqoyunlu hökmdarı ilə Osmanlı sul-

tanı arasında yazışmalar və elçilik mübadiləsi normal vəziyyətə düşmüşdü. Beləliklə, Ağqoyunlu-Osmanlı dövlətləri arasındakı diplomatik münasibətlər normal vəziyyətə gətirilmiş, tərəflər arasında sıx qarşılıqlı əlaqələr hakim olmuş, iki dövlət arasında yazışmalar və elçilərin gediş-gəlişi əvvəlki illərə nisbətən intensiv hal almışdır. Məhz Sultan II Bayəzidin mülayim siyasəti nəticəsində Osmanlı Türkiyəsi ilə Ağqoyunlu dövləti arasında hərbi əməliyyatlar kəsilmişdi [416, 175-176]. Yaqub Padşahın və Sultan II Bayəzidin şair təbiətli olması da iki dövlət arasındakı münasibətlərə öz təsirini göstərmişdi.

Sultan Yaqubun ölümündən sonra Ağqoyunlu dövlətində hakimiyyət uğrunda qızğın mübarizə başlandı. Onun azyaşlı oğlu Baysunqur hakimiyyətə gəldi (1490-1492). Sultan II Bayəzid Sultan Yaqubun ölümü, taxt-taca Baysunqur Mirzənin gəlişi ilə bağlı olaraq göndərdiyi məktubda Ağqoyunlu sultanlarına münasibətdə artıq böyük qürurla davranmağı, əda ilə danışması ilə fərqlənir. Sultan II Bayəzid Baysunqura məktubunda yazırdı: « ...İndi Həzrət Fərzənd (yəni Baysunqur - T.N.) gərək ...Bizim atalıq şərəfimizi olduqca güclü şəkildə təsəvvür etsin. Vəziyyət barədə və zəruri məsələlər haqqında yazışma qapılarını açıq saxlasın. Bu fikrimizi sizə bildirmək üçün Şeyx Həsənağanı göndərdim» [9, 668]. Baysunqur Mirzənin anasının Sultan II Bayəzidə məktubunda deyilirdi: «...Baysunqur Mirzənin… Sizə çox böyük məhəbbəti… vardır. Ümidvaram ki, bu məhəbbət getdikcə artacaq, dostları sevindirəcək… düşmənləri kədərləndirəcəkdir… hər iki tərəfin rəiyyəti də asayiş və xoşluqla güzəran edəcəkdir. Aramızda məktublaşma və elçi mübadiləsi məhz bu məhəbbət sayəsində mövcuddur… və hər iki məmləkətin kasıb və zəif bəndələri əmin-amanlıq beşiyindədirlər» [9, 662; 34, 327-328]. Məktubdan aydın olur ki, iki dövlət arasındakı münasibətlərin yaxşılaşmasının perspektiv nəticələrinə diqqət yetirilmişdir. Qarşılıqlı münasibətlərin bu məcrada davam etməsinin hər iki tərəfin mənafeyinə uyğun olması açıq surətdə hiss edilməkdədir.

M.X.Yınanç Sultan II Bayəzid ilə Sultan Baysunqurun bir-

birinə məktublar və elçilər göndərməsini qeyd etsə də, onlar arasındakı münasibətə tam aydınlıq gətirməmişdir [361, 427]. Hər iki dövlət arasında münasibətlərin nizama salınmasında Sultan II Bayəzidin şəxsi keyfiyyətləri də mühüm rol oynamışdı. Sultan II Bayəzid gəncliyindən səltənətinin sonuna qədər əyləncəli həyat tərzi sürmüşdür. S.Tansel isə yazır ki, gəncliyində eyş-işrət düşkünü olan və sultan seçildikdən sonra da bir müddət ərzində bu həyat tərzini davam etdirmiş olan II Bayəzid Avropanın ən böhranlı bir dövründə, Qərb və Şərq dövlətlərinin Osmanlılara qarşı getdikcə qorxulu bir qüvvəyə çevrildikləri şəraitdə hakimiyyətdə olmuşdur [327, 186]. S.Tansel «Şərq dövləti» ifadəsini işlədərkən Ağqoyunlu dövlətini nəzərdə tutmuşdur. Lakin onun bu mövqeyini bütün mənbələr təkzib edir. XV əsrin sonlarında Osmanlı Türkiyəsinin Ağqoyunlu dövlətinin daxili işlərinə müdaxilə etməsi və Ağqoyunlu əmirləri arasında hakimiyyət uğrunda güclənməkdə olan mübarizədən öz mənafeyinə uyğun istifadə etməyə cəhd göstərməsini dövrün qaynaqlarından aydın şəkildə izləmək mümkündür.

Ağqoyunlu əmirləri Rüstəm Padşahdan narazı idilər. Onlar Sultan II Bayəzidə məktub yazaraq ondan Uğurlu Məhəmmədin oğlu Gödək Əhmədi yardıma göndərməyi xahiş etdilər və əmir Hüseynəli Tərxanı İstanbula göndərdilər [417, 149]. Ağqoyunlu əmirlərindən olan Nur Əli bəyin Sultan II Bayəzidə göndərdiyi məktubunda göstərilirdi ki, məmləkətdə özbaşınalıq baş alıb gedir. Sultan bu məmləkətin ərazisinə rəhm etsin və şahzadə Əhməd Mirzəni bu tərəflərə göndərsin. Əgər şahzadə gəlməsə, bu məmləkətdə dinclik olmayacaqdır. Sultan şahzadəyə kömək edərsə, bu məmləkətlə o vilayətin (Rumun - T.N.) birliyi hasil olar [9, 681-682; 34, 340-341]. Ağqoyunlu dövlətinin siyasi işlərinə müdaxilə etmək istəyən Osmanlı sultanı bu xahişi bir fürsət hesab etdi. Əhməd Mirzəyə və Hüseynəli Tərxana qoşun verərək onları Təbriz üzərinə göndərdi. Bunu qaynaqlar da təstiq edir. Sultan II Bayəzidin Nur Əli bəyə və digər Ağqoyunlu əmirlərinə ünvanlanmış məktubunda deyilir: « ...elə edin ki, işlərinizdə təqsir və döyüşlərinizdə qüsur əmələ gəlməsin. Qəni-

mət olan fürsəti əldən verməyin ... Bizim səadətmənd Fərzəndimiz (Gödək Əhməd - T.N.) ... o diyarın ədalətli sultanlarından daha adil və ağıllıdır ... Mahmud Çavuşu göndərdik. Hər kim o fərzəndə (Gödək Əhmədə - T.N.) itaət və inayət göstərsə, bir olan Allaha and olsun ki, padşahlıq bizim tərəfimizdən də lütfkarlığı ilə sərafraz olacaqdır» [9, 685-686].

Z.V.Toğanın fıkrincə, Ağqoyunlu əmirlərini belə bir addım atmağa məcbur edən əsas səbəb «şiəlik təhlükəsi» olmuşdur: «Ağqoyunlu bəyləri şiəlik təhlükəsi qarşısında Osmanlılarla anlaşmaq zərurətini hiss etdilər. Onlar Uğurlu Məhəmmədin Fateh II Mehmedin qızından doğulmuş oğlu və eyni zamanda II Bayəzidin kürəkəni olan Gödək Əhmədi İstanbuldan gətirərək hökmdar elan etdilər» [335, 368]. F.Kırzıoğlu da həmin fikri müdafiə edərək yazır ki, ölkədəki qarışıqlıqdan təngə gəlmiş və Səfəvi müridlərinin təhlükəsini aradan qaldıracaq qüdrətli şahzadəni taxta çıxarmaq istəyən Ağqoyunlu əmirləri Gödək Əhmədi İstanbuldan gətirib padşah elan etdilər. Hər iki tədqiqatçı məsələyə münasibətində birtərəfli mövqe tutmuşdur. Onlar Osmanlı sultanının əsas siyasi məqsədini ört-basdır etməyə çalışmışlar. Yalnız Yılmaz Öztuna sultanın əsil məqsədini aydın şəkildə açıqlamışdır. O, yazır: «Şübhəsizdir ki, Sultan II Bayəzid Türkiyənin Fərat-Toroslar sərhəddini tuta bilmək üçün Ağqoyunlu dövlətinin əlindən Şərqi və Cənub-Şərqi Anadolunu almağın geopolitik bir zərurət olduğunu anlamışdı. Lakin o, bu işi məsləhətlə həyata keçirmək istəyirdi. II Bayəzid qızı Aynişah Sultanı ana tərəfdən Fatehin nəvəsi olan Ağqoyunlu sultanı Gödək Əhmədə ərə vermiş və nigah diplomatiyası ilə Türkiyənin maraqlarını qorumaq yolunu tutmuşdu» [283, 165]. Tayyib Gökbilginin fıkrincə, yarandığı dövrdən etibarən fəth etdiyi və işğal etmək istədiyi məmləkətlərdə yerli bəylərdən və şahzadələrdən istifadə etmək istəyi Osmanlı dövlətinin siyasi bir məsləki və ənənəsi olmuşdu [223, 35]. II Bayəzid öz məqsədinə nail olmaq üçün Şahzadə Əhmədi Ağqoyunlu dövlətində hakimiyyətə gətirməyi qərara aldı. Digər Türkiyə tarixçiləri də Sultan II Bayəzidin məhz bu məqsədlə Gödək Əhmədə yardım

etdiyini göstərirlər [346, 196; 317, 30; 322, 81]. Faruq Sümer isə qeyd edir ki, bəzi Osmanlı tarixçilərinin (İdris Bidlisinin, Xoca Sədəddinin) Osmanlı hökmdarının Əhmədin getməsinə icazə vermədiyinə dair fikri, yalnız II Bayəzidi xoşniyyətli göstərmək üçün söylənmişdir [318, 10]. Gödək Əhməd Hüseynəli Tərxanın köməyi ilə Rüstəm Padşah üzərində qələbə çalaraq, Təbrizdə sultan taxt-tacını ələ keçirdi. 902-ci ilin Ramazan ayının 1-də (3 may 1497) Təbriz məscidində ilk dəfə olaraq xütbə Əhməd Padşahın adına oxundu [417, 149]. Gödək Əhməd Rüstəm Padşah üzərində qələbə çalması münasibətilə Sultan II Bayəzidə göndərdiyi məktubunda yazırdı: «...Bütün Əcəm məmləkətləri və İran ölkəsi ədalətli və hünərvər əsgərlərimizin əlinə keçdi. Babam Sultan Həsənin Təbrizdə olan taxtını əldə etdim» [9, 692]. Sultan II Bayəzid də Əhməd Padşaha təbrik məktubu göndərdi [34, 335-336]. F.Sümerin fikrincə, Sultan II Bayəzid bacısı oğlu və kürəkəninin qələbəsindən o qədər məmnun oldu ki, şəhəri bayraqlarla bəzətdi və şənliklər təşkil etdirdi [318, 10]. Lakin Sultan Gödək Əhmədin Ağqoyunlu taxt-tacında hakimiyyəti uzun çəkmədi. 1497-ci il dekabrın 13-də o, İsfahan yaxınlığında Eybə Sultan və Qasım Pornəkin qüvvələri ilə döyüşdə öldürüldü [99, 109]. Gödək Əhmədin ətrafındakı qüvvələrin əksəriyyətinin Osmanlılardan ibarət olduğunu Türkiyə tarixçiləri təsdiq edirlər. Faruq Sümer yazır ki, «Sultan Əhməd İstanbuldan özü ilə gətirdiyi əsgərlərlə birlikdə müharibə meydanında qaldı» [317, 30]. Bu fakt bir daha sübut edir ki, Osmanlı sultanı öz məqsədinə nail olmaq üçün yaranmış əlverişli şəraitdən istifadə etməyə cəhd etmişdir.

XV əsrin son illərində Ağqoyunlu dövlətində şahzadələr arasında hakimiyyət uğrunda gedən mübarizə nəticəsində dövlətin son dərəcə zəiflədiyi aydın surətdə hiss edilirdi. II Bayəzid Venesiya respublikası ilə müharibə aparsa da, Ağqoyunlu dövlətində baş verən hadisələri diqqətlə izləyirdi. İsmayılın başçılığı ilə Səfəvilərin siyasi səhnəyə çıxmasından narahat olan Ağqoyunlu sultanı Əlvənd Mirzənin sultan II Bayəzidə ünvanlanmış məktubunda sultandan Ağqoyunlulara kömək etməsi xahiş olunurdu [Bax: 9, 703-704; 34, 351-352]. Osmanlı sultanı cavab

məktubunda yazırdı: Onlar «...gərək bundan sonra tam qeyrətlə çalışıb bölgənin bütün adamları ilə ittifaq yaradaraq o tayfanın (Səfəvilərin – T.N.) darmadağın edilməsinə çalışsınlar. Fitnə atəşi alovlanmazdan əvvəl onu söndürsünlər...

Bizim köməyimizi də nəzərə alsınlar ... Əgər lazım olarsa, kiçik bir işarə etsəniz, biz yubanmadan sizə kömək edərik» [Bax: 9, 706-707; 34, 352-353]. Bu məktubdan aydın olur ki, Ağqoyunlu sultanları ilə Osmanlı Sultanı II Bayəzid yetişməkdə olan təhlükə qarşısında əski düşmənçiliyi unutmuş və birgə mübarizə aparmağı nəzərdə tutmuşlar. II Bayəzid Səfəvilərin getdikcə artan təsirinin özünə qarşı çevriləcək real bir qüvvə olduğunu yaxşı dərk edirdi. Buna görə də o, Ağqoyunlu sultanlarına istənilən yardımı göstərəcəyini bildirmişdi. Beləliklə, «şiəlik təhlükəsi» qarşısında Ağqoyunlu dövləti ilə Osmanlı Türkiyəsi yaxınlaşmalı oldular. Lakin bu yaxınlaşma meyli uzun çəkmədi. Çünki, Səfəvilər 1501-ci ildə İsmayılın başçılığı altında Təbriz şəhərini ələ keçirərək Azərbaycan Ağqoyunlu dövlətinə son qoydular. Azərbaycan Səfəvi dövlətini yaratdılar [435, 53]. Tezliklə Azərbaycan Səfəvi dövləti ilə Osmanlı Türkiyəsi arasında dərin ziddiyyətlərin olduğu özünü büruzə verdi.

Beləliklə, Türkiyə tarixçiləri Ağqoyunlu-Osmanlı münasibətlərinin müxtəlif dövrlərini araşdırarkən, Ağqoyunlu-Osmanlı ziddiyyətlərinə, tərəflər arasındakı müharibəyə daha geniş yer vermişlər. Ağqoyunlu hökmdarı Uzun Həsənin ölümündən sonrakı dövrdə Ağqoyunlu-Osmanlı münasibətləri Türkiyə tarixşünaslığında lazımi səviyyədə araşdırılmamışdır. Hətta Ağqoyunlularla bağlı tədqiqat işi aparan İ.H.Uzunçarşılı, M.X.Yınanç, F.Sümer, S.Ərşahin, İ.Erdəm və K.Paydaş da bu məsələlərə geniş diqqət yetirməmişlər.

### *IV. 5. Azərbaycan Ağqoyunlu dövlətinin Misir Məmlük dövlətilə qarşılıqlı əlaqələri*

Ağqoyunlularla Misir Məmlük dövləti arasında qarşılıqlı əlaqələr hələ XIV əsrin sonunda yaranmışdır. Bu əlaqələr qarşılıqlı mənafeyə əsaslandığı üçün dövrün geosiyasi vəziyyətindən asılı olaraq gah düşmən, gah da dostluq xarakteri daşımışdır. XIV əsrin sonlarında Əmir Teymurun növbəti yürüşü ilə bağlı Şərqi Anadoluda siyasi durum xeyli gərginləşdi. Bu vəziyyət Ağqoyuluları seçim qarşısında qoydu. Bu zaman Ağqoyunlu tayfa birliyinə rəhbərlik uğrunda Qutlu bəyin üç oğlu arasında rəqabət daha da gücləndi. Belə bir gərgin dövrdə, Ağqoyunlu Qara Osman 1398-ci ilin iyulunda Sivas-Kayseri hökmdarı Qazi Bürhanəddini öldürərək Sivas üzərinə yürüş etdi lakin, şəhər əhalisinin ciddi müqaviməti ilə qarşılaşdı. Sivas əhalisi yardım üçün Osmanlı Sultanı İldırım Bayəzidə müraciət etdi. Yardıma gələn Osmanlı qüvvələrinə məğlub olan Qara Osman Ərzincan hakimi Mütahərtənə sığınmaq məcburiyyətində qaldı. Aralarında ciddi ixtilafın olmasına baxmayaraq, başlıca rəqibi Qazi Bürhanəddini öldürdüyü üçün Mütahərtən Qara Osmanı hörmətlə qarşıladı [Geniş məlumat üçün bax: 13, 53-54].

Bu dövrdə Ağqoyunlular arasında nüfuzunun artmasına baxmayaraq, Anadoluda xüsusi əmirlik yaratmağa müvəffəq ola bilməyən Qara Osman indiyə kimi ərazisinə ziyan vurmaqdan çəkinmədiyi Misir sultanına müraciət edərək Suriyanın şimalındakı digər türkman bəyləri kimi Misir dövlətinin xidmətinə girməyi xahiş etdi. Sultan Bərkük Qara Osman kimi qorxmaz bir bəyin bu istəyini məmnuniyyətlə qəbul etdi və ona bağışlanması barədə məktub və 50 min dirhəm gümüş pul göndərdi [357, 257; 123, 133].

Beləliklə, Ağqoyunlularla Misir məmlükləri arasında qarşılıqlı əlaqələrin yaradılması üçün Ağqoyunlu Qara Osmanın göstərdiyi ilk təşəbbüs müsbət qarşılandı. Lakin, az sonra Sultan Bərkükün ölümü və hakimiyyətə azyaşlı oğlu Fərəcin keçməsi ilə Misirdə daxili çəkişmələr gücləndi. Bundan istifadə edən İldırım Bayəzidin misirlilərin əlində olan Anadolu şəhərlərini

ələ keçirməsi və Suriyaya doğru hərbi yürüşə hazırlıq görməsi, Qara Osmanın Misir dövlətindən gözlədiyi ümidləri boşa çıxardı və onu başqa yollar aramağa vadar etdi [357, 257].

1399-cu ildə Azərbaycana və Şərqi Anadoluya növbəti yürüş edən Əmir Teymur Qarabağda qışlayan zaman onun qərargahına gələn Qara Osman himayəyə qəbul edildi. Ağqoyunlular Əmir Teymurun müttəfiqi kimi Məmlük torpaqlarına yürüşlərə qatılaraq Sivasın mühasirəsində, Əlbistan və Malatyanın ələ keçirilməsində yaxından iştirak etdilər. Əmir Teymur Malatyanı Qara Osmana verdi. Teymur ordusunun Suriyaya yürüşü zamanı Hələb yaxınlığında baş verən döyüşdə Qara Osmanın oğlu İbrahim bəy çox böyük şücaət göstərdi. Əmir Teymurun böyük mərhəmətini qazanan İbrahim bəy göstərdiyi xidmətlərə görə Teymurdan Amid və Hələb şəhərlərinin idarəçiliyini aldı. Əmir Teymur Osman bəyin döyüşdəki şücaəti, mərdliyi və igidliyi haqqında xəbərdar olaraq ona da çoxlu iltifat göstərdi [13, 55; 357, 257].

1403-cü ildə Əmir Teymurun müharibə zamanı əldə etdiyi qənimətlər Səmərqəndə göndərildiyi zaman yolda Qara Osmanın qardaşı oğlanları Məhəmməd və Piltanın hücumuna məruz qaldı və karvan qarət olundu. Buna cavab olaraq Əmir Teymur Məhəmməd və Piltanla yanaşı, onların atalarını- Əhməd və Pir Əlini də ələ keçirdi. Sonuncuları etdikləri xəyanətə görə həbsə atdırdı. Bu hadisə Qara Osmanın Ağqoyunlu bəyliyində şəriksiz rəhbər qalmasını təmin etdi [13, 57; 356, 82-83].

Lakin Əmir Teymur ordusunun bölgəni tərk etməsindən sonra məmlüklər Ağqoyunlu Qara Osmanı Diyarbəkrə çəkilməyə məcbur etdi. Qara Osman tərəfindən mərkəzi Diyarbəkr olan Ağqoyunlu bəyliyi bölgənin ən nüfuzlu dövlətlərindən biri olan Məmlük sultanlığı ilə xoş münasibətlər yaratmağa çalışsa da, müəyyən dövrlərdə bu münasibətlər ciddi qarşıdurma ilə müşayiət olunurdu [342, 189]. M.X.Yınanç yazır ki, Qara Osman Misir sultanlarından Fərəc və Müəyyəd Şeyx ilə dost olmuş və Barsbay ilə də yaxşı münasibətlərini qoruyub saxlamışdı. Lakin onun Misir sultanına məxsus şəhərləri ələ keçirməsindən sonra

Ağqoyunlularla Misir sultanları arasındakı münasibətlər pisləşməyə başladı [357, 258].

Qara Osmanın Məmlüklərlə ilk ciddi qarşıdurması Misir sultanının Hələbə hakim təyin etdiyi Əmir Çəkəm arasında oldu. Əmir Teymurun ölümündən üç il sonra Qara Osman öz təsirini Diyarbəkr və Suriyada gücləndirərək öncə kürd əmirləri, sonra isə Mardin hakimi üzərinə hücuma başladı. Ağqoyunlu hakimi Mardin ətrafındakı kürd əmirlərinə qarşı yürüş təşkil etdiyi zaman mardinlilər Əmir Çəkəmdən yardım istədi. 1407-ci ilin aprelində Hələb valisi Əmir Çəkəm və Mardin hökmdarı Məcdəddin İsa 10 minlik ordu ilə Ağqoyunlular üzərinə yürüş edərək Amidi mühasirəyə aldı. Ağır silahlarla silahlanmış Məmlük ordusu Qara Osmanın şəhər ətrafındakı torpaqlara su buraxması nəticəsində yaranmış bataqlığı keçə bilmədi və ağır məğlubiyyətə uğradı [356, 86]. Əbubəkr Tehrani bu barədə yazır: «Osman bəy düşmənin güclü və çoxsaylı olduğunu nəzərə alaraq, adam göndərib İbrahim bəyi çağırmağı məsləhət bildi. İbrahim bəy otuz nəfər xüsusi adamları ilə atasının yanına tərəf yollandı. Çox böyük bir vuruşma oldu… Axırda Əmir Çəkəm İbrahim bəyi atdan saldı. Atası bu xəbəri alarkən yel kimi döyüş meydanına yetişdi. Qara Osman oxu Çəkəmin hulqumuna atdı. Onu atdan saldı və o, həlak oldu. Mardin sultanı, Kürdüstan əmirləri və ordu başçıları bu halı görüb qaçmağa başladılar. Osman bəy onların ardınca getdi. İntiqam qılıncını çəkdi, onlara aman vermədi. Mardin sultanını, Hacı Fəyyazı və bir çox əmirləri öldürdü. Ağqoyunlular çoxlu qənimət, mal, dövlət və at əldə etdilər [13, 60-61; 317, 10; 215, 40-41]. Qara Osmanın qələbə qazanmasından və üsyankar Hələb valisi Çəkəmin başını Qahirəyə göndərməsindən məmnun qalan Sultan Fərəc Ağqoyunlu hakiminə Urfa şəhərini bağışlamaqla yanaşı, «Suriya və Anadolu əhalisinin ən qoxmaz adamı» ləqəbini də verdi [346, 86].

Bəhs olunan dövrdə Azərbaycanda Teymuri ağalığına son qoyaraq siyasi hakimiyyəti ələ alan Qaraqoyunlu Qara Yusifin hücumları qarşısında dayanmağı bacaran Qara Osman, həmçinin Diyarbəkrdən keçən köç və ticarət yollarına da nəzarət

edirdi. Sultan Fərəcin güclü xələfi Şeyx Mahmudinin Suriya və Anadoludakı çıxışları yatırması Məmlük sərhədlərinin təhlükəsizliyini təmin etdi. Bu vəziyyət həmçinin Ağqoyunluların Qaraqoyunlu hökmdarının hücumlarından müdafiəsini xeyli artırdı [356, 87].

1407-ci il hadisələrindən sonra Qara Osman uzun müddət Misir Məmlük sultanlığı ilə münasibətlərin gərginləşməsinə yol vermədi. Onun Məmlük sultanı Şeyx Mahmudi ilə qarşılıqlı münasibətləri Qaraqoyunlu-Məmlük rəqabəti fonunda xeyli möhkəmləndi. Lakin 1427-ci ildə Qara Osmanın Malatya üzərinə hərbi yürüşü zamanı Məmlüklərin nəzarətində olan Fərat çayı ətrafındakı torpaqları ələ keçirmək istəyi Ağqoyunların əsas məqsədlərindən birinə çevrildi. Bu şübhəsiz ki, Qara Osmanı Məmlük sultanı Əşrəf Barsbayla mübarizəyə sürüklədi və Sultan Şeyx Mahmudi dövründə yaranmış dostluq əlaqələrinə tamamilə son qoydu [356, 92].

1429-cu ilə Qara Osmanın Besni və digər Məmlük qalaları üzərinə hücumları və Məmlük sultanına tabe olan zülqədərlilərin nəzarətində olan Xarputu mühasirəyə almasından sonra Ağqoyunlu-Məmlük sərhəddində gərginlik yarandı. Bu, Sultan Barsbayı Xarputu xilas etmək üçün Misir və Suriyadan topladığı qüvvələri Ağqoyunlulara qarşı göndərməyə vadar etdi. Məmlük ordusu hələ Şamda toplanan zaman Qara Osmanın oğlu Əli bəy Xarputu ələ keçirdi. Az sonra Qara Osman da Ərzincana yiyələndi. Bu zaman ilk hədəflərinə yetişə bilməyən məmlüklərin ön qüvvələri Ağqoyunluların Hələb üzərinə gözlənilən yürüşünə yol verməmək üçün Qara Osmanın nəzarətində olan Urfa üzərinə yürüş etdi. Hələb naibi Tanrıvermişin komandanlığı altında Məmlük ordusu Urfa və ətrafını görünməmiş şəkildə qarət edərək qadın və uşaqlara belə aman vermədi. İyulun 24-də qısa müddətli mühasirədən sonra Urfa valisi Habil bəy Məmlük səkərdəsindən bağışlanmaq barədə vəd alaraq qalanı təslim etdi. Lakin, Məmlük əmirləri verdikləri vədi pozaraq onu əsir alıb Qahirəyə apardılar. 1430-cu ildə o, Qahirədə taundan öldü [356, 92-93; 215, 41; 181, 406]. Oğlunu azad etmək üçün Ağqoyulu

Qara Osmanın göstərdiyi bütün səyləri Sultan Barsbay cavabsız qoydu. Bu hadisədən qəzəblənən Qara Osman yenidən Məmlük torpaqlarını viran etməyə başladı. Hətta Sultan Barsbayı təhqir edərək ona ayna, xələt və haçaquyruq qoyun göndərdi [317,13-14; 181, 407].

1430-1432-ci illərdə Qara Osman Məmlük sərhədlərinə sürəkli hücumlarını davam etdirdi və Qaraqoyunluların nəzarətində olan Mardini ələ keçirdi. Bu vəziyyət Məmlük sultanını Ağqoyunlular üzərinə yürüşə başlamağa vadar etdi. 1433-cü ilin martında Sultan Barsbayın rəhbərliyi altında Məmlük ordusu Ağqoyunluları cəzalandırmaq üçün onlar üzərinə yürüşə başladı. Mayın 22-də Urfanı ələ keçirən Məmlük ordusu bir həftə sonra Qara Osmanın oğlu Muradın müdafiə etdiyi Diyarbəkri mühasirəyə alaraq onu top atəşinə tutdu. Şəhərin müdafiəsinə lazımi qüvvə qoyan Qara Osman Ərqani qalasına çəkilərək məmlüklər üzərinə gözlənilməz hücumlar etdi. Diyarbəkr müdafiəçilərinin 6 həftə ərzində (iyulun 2-nə kimi) igidliklə müqavimət göstərməsi nəticəsində məmlüklərin ağır itki verməsi və nüfuzlu Misir və Suriya əmirlərinin üsyan qaldıracağı haqda xəbərlərin yayılması Sultan Barsbayı mühasirəni dayandırmağa vadar etdi. Məmlük ordusuna yardıma gələn Hısnı-Keyfə hakimi Əşrəf öz qüvvələri ilə birlikdə Ağqoyunlular tərəfindən əsir alındı. Vəziyyətin çıxılmazlığı Sultan Barsbayı Qara Osmanın sülh təklifi ilə razılaşmağa məcbur etdi. Bağlanmış sülhün şərtlərinə görə: Qara Osman Barsbayın adına xütbə oxutduracaq; zərb olunan pullarına onun adını vurduracaq; Urfanı geri qaytaracaq; Həcc və ticarət karvanlarının təhlükəsiz keçməsini təmin edəcək; Məmlük torpaqlarına hücum etməyəcək və Hısnı-Keyfə Əyyubi hakiminin ərazi bütövlüyünə hörmətlə yanaşacaqdır. Ancaq Məmlük sultanı daxil olmaqla heç kim bu sülhün ciddiliyinə inanmadı [317, 13-14; 356, 94; 215, 41].

Sultan Barsbay ordusunu geri çəkdikdən sonra Ağqoyunlu hakimi Məmlük valisini Urfadan qovmağa çalışdı və növbəti il ərzində həmin əraziyə hücumları davam etdirdi. Sülh müqaviləsinin pozulması Sultan Barsbayı narahat etsə də, Ağqoyunlu-

lar üzərinə böyük xərc tələb edən 1433-cü il hərbi yürüşündən sonra ordusunun dəstəyini itirdiyi üçün hər hansı bir əməliyyata səy göstərmədi. Buna baxmayaraq, Qara Osman Ağqoyunlu-Məmlük münasibətlərindəki gərginliyi aradan qaldırmaq üçün yeni təşəbbüsə əl atdı. 1434-cü ilin avqustunda o, Ağqoyunlu elçisini Sultan Əşrəf Barsbayın adından zərb edilmiş sikkələrlə Qahirəyə göndərdi [351, 95]. C.Vuds yazır ki, bir müddət sonra Teymuri Şahruxun Azərbaycana növbəti yürüşü ilə bağlı Ağqoyunluların Fərat sahillərinə yenidən hücum etməsi haqda xəbərin alınması, Qara Osmana qarşı mübarizədə Barsbayın uduzduğuna dəlalət edir. Lakin, bu zaman Qara Osman Məmlük sultanı üzərindəki üstünlüyündən yararlanmayaraq əsas diqqətini şimalda Qaraqoyunlu İsgəndərin yaratdığı təhlükəyə qarşı yönəltdi [356, 95].

Qara Osmanın uzunmüddətli hakimiyyət dövrünü dəyərləndirərkən qeyd etmək lazımdır ki, o, Diyarbəkr, Ərzincan, Mardin və Ərzurumu ələ keçirərək Ağqoyunlu bəyliyini bölgədə siyasi güc mərkəzinə çevirmiş, Hindistan, Mərkəzi Asiya, İran və Azərbaycanı Yaxın Şərq və Qərbi Avropaya bağlayan həyati əhəmiyyət daşıyan ticarət yolları üzərində Ağqoyunlu nəzarətini təmin etmişdi.

XV yüzilliyin 20-ci illərindən başlayaraq Teymuri sultanı Şahrux Azərbaycanı öz nəzarəti altında saxlamaq üçün hakimiyyət uğrunda mübarizə aparan Qaraqoyunlu şahzadələrini bir-birinə qarşı salışdırmaq siyasəti yeritdiyi kimi, eyni analoji siyasəti Şərqi Anadoludakı proseslərə fəal müdaxilə edən Misir məmlükləri də həyata keçirirdi. Onlar bu siyasəti Ağqoyunlulara, Qara Osmanın oğlanlarına tətbiq edirdilər. Bunun nəticəsi Qara Osmanın ölümündən sonra özünü bütün «parlaqlığı» ilə göstərmişdi. Qara Osmanın oğlanları arasındakı ziddiyyətlər hələ onun sağlığında üzə çıxsa da, o, oğlanlarının iddialarını cilovlaya bilir və bütün qüvvələrini əsas düşməninə — Qaraqoyunlularla qarşı mübarizəyə yönəldirdi [13, 23; 154, 39-40; 123, 134]. Qara Osmanın ölümü ilə Ağqoyunlu tarixində yeni bir mərhələ başlanır. Əsasən daxili çəkişmələr və müharibələrlə xarakterizə

olunan bu dövr sülalənin tarixində ən ağır və mürəkkəb bir mərhələ kimi qiymətləndirilə bilər. Hadisələrin sonrakı inkişafından bəlli olur ki, bu zaman regionda fəal siyasət yeritməyə başlayan Misir məmlüklərinin Ağqoyunlu şahzadələri ilə qarşılıqlı əlaqələri xeyli intensiv hal almışdır [123, 134].

1435-ci ildə Qara Osmanın ölümündən sonra Ağqoyunlu bəyliyində hakimiyyətə Əli bəy keçdi. Əli bəyin Ağqoyunlular üzərindəki hakimiyyətini qardaşı Həmzə bəy, Ərzincan və Kəmah hakimi Yaqub bəy və onun oğlu Cəfər qəbul etmədilər. Bu dövrdə Qaraqoyunlu İsgəndəri təqib edərək Ərzuruma gələn Şahruxun oğlu Məhəmməd Cuki Qara Osmanın varisi kimi Əli bəyin Diyarbəkrdə möhkəmlənməsini təmin etdi. Əbubəkr Tehrani bu barədə yazır: «Şahzadə Cuki Mirzə... Diyarbəkri və Ağqoyunlu əmirliyini görkəmli atası (Qara Osman – T.N.) vaxtından vəliəhd olan Əli bəyə verdi və ona qızıl kəmər, qılınc və qızıl xalat ənam edərək yola saldı» [13, 83]. Şübhəsiz ki, bu zaman Əli bəyin mövqeyinin güclənməsini istəməyən qardaşı Həmzə bəy və tərəfdarları ona qarşı müxalif mövqe tutdular. Buna baxmayaraq, Əli bəy Amiddə möhkəmlənərək «oğlu Cahangir Mirzəni Amidə hakim qoydu və ulusuna qayıtdı. O biri oğlu Hüseyn bəyi dostluq əlaqələri yaratmaq üçün Misirə göndərdi. Sultan Fərəc Qara Osmandan incik olduğundan Hüseyn bəyi əsir aldı və Məmlük qoşununu Diyarbəkri qarət etməyə göndərdi. Onlar Qaracadağı qarət etdilər. Ağıllı adamların «hazırlıqsız düşmən üzərinə getmək olmaz, Misir qoşunu çox güclüdür» sözlərinə əhəmiyyət verməyən Cahangir Mirzə Amiddən hərəkət edib onlarla vuruşmağa başladı. Qürur pərdəsi onun gözünü tutmuşdu, nəsihətləri qəbul etmədi. Cəsarətlə Misir qoşunu önündə səf düzəltdi» [13, 83; 207, 106; 204, 69]. Əbubəkr Tehrani Cahangir Mirzənin Məmlüklərlə döyüşdə göstər-diyi şücaət barədə geniş məlumat verərək yazır: «Misirlilər fürsəti qənimət bilib hücum etdilər. Çox böyük vuruşma oldu. Dügərin atları öyrədilmiş, Cahangir Mizənin atları isə xam idilər. Dügərlilər dörd tərəfdən Cahangir Mirzəni əhatə edərək, ona hər tərəfdən oxlar yağdırdılar. Əmirzadə Cahangir şəxsən cəsarətlə vu-

ruşurdu. Dörd dəfə onu atdan saldılar…Behzad Ərəbin atı, ərəb olmasına baxmayaraq, ayağı sürüşdü və Cahangir Mirzəni yerə saldı. Onu tutdular…Dügər camatı Cahangir Mirzəni, Xazin oğlu Rüstəmi, Əbdüləziz oğlu Xoşqədəmi, Osman Bəktaşı, Əliqulu Qaranı tutub əsir aldılar və Misirə göndərdilər» [13, 83-84; 204, 69; 207, 106]. Məmlüklərlə döyüşdə Cahangir böyük şücaət göstərməsinə baxmayaraq Ağqoyunlular məğlub oldu. Bu xəbəri alan Əli bəy böyük bir üzüntü keçirdi [13, 84; 207, 106; 204, 69]. Ağqoyunlu tarixçisi məmlüklərlə döyüşdə Ağqoyunluların məğlub olmasının səbəblərinə toxunaraq yazır: «Bu müharibədə Ağqoyunlulardan çox qırılan oldu. Bütün bunlar onların tədbirli davranmamasından oldu. Cahangir Mirzə gənc idi, ağrı-acı görməmişdi, təcrübəsi yox idi, ağıllı məsləhətlərə qulaq asmadı. Padşahlar və sərkərdələr gərək ağıllı adamların məsləhətinə qulaq assınlar, dövlətin işlərini tədbirlə görsünlər, ixtiyarlarını qürur və təkəbbürün əlinə verməsinlər» [13, 84].

Əbubəkr Tehraninin verdiyi məlumatdan bəlli olur ki, Əli bəyin Ağqoyunlu bəyliyində möhkəmlənməsinə qarşı qardaşı Həmzə bəyin və tərəfdarlarının apardığı mübarizədən istifadə edən Məmlük sultanının regiondakı proseslərə müdaxiləsi daha fəal və qabarıq şəkildə özünü göstərdi. Əli bəy əmirlərinin etirazına baxmayaraq cəsarətli addım ataraq Xarput və Kəlkit ətrafında mövqeyini möhkəmləndirdikdən sonra Amidə döndü. Onu düşündürən başlıca məsələ Qahirədə əsir olan oğlanlarını xilas etmək idi. O, Məmlüklərlə münasibətlərini qaydaya salmaq üçün Qahirəyə böyük güzəştlər nəzərdə tutan məktubla elçi göndərdi. Bununla razılaşmayan Məmlük sultanı Ağqoyunlu hakimindən əsas mülkü olan Xarputu istədi. Ürəyi yaralı ata yanlış qərar qəbul edərək bu istəyə müsbət cavab verdi [207, 107; 123, 134]. Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanan İ.Erdəm və K.Paydaş yazır ki, Məmlük sultanı Əşrəf «əgər oğlanlarını görmək istəyirsənsə Xarput qalasını mənə təslim et, oğlanlarını sənə göndərim»« xəbərini Əli bəyə çatdırdı. Əli bəy oğlu Uzun Həsəni Xarputa göndərərək qalanı misirlilərə təslim etməyi tapşırsa da, qalada olanlar bu əmri yerinə yetirmədilər. Əli bəy

Xarput qalasına gələrək qalanı Malatya əhlinə, şəxsən Misir sultanına tabe olan Saru xana verdi. Əli bəyin oğlanları azad olaraq Misirdən atalarının yanına döndülər [204, 71; 123, 134-135]. F.Sümerin yazdığı kimi, beləliklə, oğlanları azad olsa da, Əli bəy də yurdsuz qaldı [317, 16]. Lakin, Misir Sultanı Əşrəf Barsbay Əli bəyin Xarputu misirlilərə təhvil verməsi ilə kifayətlənmədi. O, bölgədəki maraqlarını təmin etmək üçün Əli bəyin oğlu Cahangir Mirzəni hakimiyyətə gətirməyə çalışdı. Görünür, Cahangir Mirzənin əsirliyi boş-boşuna keçməmiş, məmlüklər ondan hansısa maraqlarının reallaşacağına təminat almışdılar [13, 25; 154, 42-43; 123, 135].

Bəhs olunan dövrdə Həmzə Mirzə ilə Əli bəy arasındakı münasibətlər ziddiyyətli olaraq qalırdı. 1437-ci ilin sonunda Həmzə Mirzənin Bağdad hakimi Qaraqoyunlu İsfahan bəy üzərindəki qələbəsi onun nüfuzunu Ağqoyunlular arasında xeyli möhkəmləndirdi. Belə bir vəziyyətdə Əli bəy nəyin bahasına olursa-olsun oğlanlarını xilas etmək üçün yurdsuz qalsa da, Xarputu Məmlüklərə təslim etməkdə tərəddüd etmədi. Həmzə Mirzənin Diyarbəkri Uzun Həsəndən alması Əli bəyi Məmlük sultanına yardım üçün müraciət etməyə vadar etdi. Əli bəy Sultan Barsbaydan yardım almaq üçün oğlanları Cahangir və Hüseynin Misirə getmələrini istədi [207, 108]. Əbubəkr Tehrani bu barədə yazır: «Hüseyn bəy və Cahangir Mirzə Misir və Şamın vəziyyətini yaxşı bilirdilər. Əmirzadələrdən Cahangir Mirzə qışın əvvəlində Hisn-Mənsurdan tələsdi, onu həbsdən xilas etmiş Sultan Əşrəfin lütf göstərəcəyi ümidilə oraya getdi. Sultan Əşrəf tərəfindən böyük hörmətlə qəbul olundu və şahlara layiq hörmət gördü. Sultan onu məqsədinə çatdırmaq üçün Şam və Misirdən əlli min atlı ilə Diyarbəkrə göndərdi. Onların başında görkəmli əmirlərdən qoşun başçısı Tanrıvermişi və Misirin böyük əmiri, Şam və Hələbin naibi Qorxmazı da Diyarbəkrə yolladı ki, Sultan Həmzəni taxtdan salıb vilayətindən qovsunlar və hakimiyyət cilovunu Cahangir Mirzəyə versinlər» [13, 92]. Lakin Ərzincanı alaraq şərqə doğru hərəkət edən Məmlük ordusu Sultan Barsbayın ölüm xəbərini alaraq geri döndü [154, 93;

186, 270]. Məmlük sultanının Əli bəyin oğlanlarına belə bir yardım göstərməsinin səbəblərinə toxunan İ.Erdəm yazır ki, bunlardan ən önəmlisi Məmlüklərin Sultan Həmzəyə güvənməməsi, üsyankar əmir Canıbəy Sufinin bölgədəki fəaliyyəti və Cahanşah qarşısında çətin vəziyyətə düşən əski dostları İsgəndər Mirzəni qurtarmaqla Cığatayların bölgədəki üstünlüyünü azaltmaq istəyi olmuşdu [207, 108].

Beləliklə, Əli bəyin oğlanlarının Məmlük sultanının yardımı ilə rəqiblərini zərərsizləşdirmək cəhdləri uğursuz oldu. Əli bəyin Misir sultanı Çakmağa sığınaraq ondan yardım tələbi də gözlənilən nəticəni vermədi. O, Suriyaya sığınmaq məcburiyyətində qaldı [357, 259; 204, 72]. C.Vuds yazır ki, 1438-ci ildə Qara Osmanın varisi Əli bəyin könüllü şəkildə Sultan Çakmağa sığınması, Məmlüklər və Osmanlılar tərəfindən Diyarbəkrdə hakimiyyəti tanınan və Ağqoyunlu hərbi elitasının dəstəyini qazanan Həmzə Mirzənin 1439-cu ilin əvvəllərində Qara Osmanın ən güclü varisi kimi ortaya çıxmasına səbəb oldu [356, 134]. Məmlük sultanı Məlik Əşrəf Barsbayın bu dövrdə Həmzə Mirzəni himayə etməsi barədə qəti fikir söyləmək çətindir. Çünki, Sultan Barsbay 1435 və 1438-ci illərdə Osmanlı Sultanı II Murada yazdığı məktublarda Həmzəyə göstərdiyi yardıma görə minnətdarlığını bildirsə də, 1438-ci ilin əvvəllərində Həmzə Mirzəni Şam valisinin yanına çağıran Məmlük sultanı bu tələbi qəbul edəcəyi təqdirdə onun Diyarbəkrin qanuni hakimi kimi tanınacağını, əks halda isə ölümlə cəzalandırılacağını bildirdi. Çünki Həmzə Mirzənin Canibəy Sufiyə yardım göstərməsi Sultan Barsbayı qəzəbləndirmiş və ona qarşı hərbi səfərə çıxmağa vadar etmişdi [356, 153-154].

Bu dövrdə Ağqoyunlu bəyliyində hakimiyyətdə Həmzə Mirzə möhkəmləndiyi üçün Əli bəyin oğlanları ona qarşı mübarizəni davam etdirdilər. Cahangir Mirzənin Məmlüklərin yardımı ilə Ərzincanda möhkəmlənməsi ilə Yuxarı Fərat boyunda yerləşən Akşehir, Kəmah, Ərəbkir və Çemişkezek bölgələri Məmlüklərin asılılğına düşdü. Əli bəy və oğlanlarının təslimçilik siyasəti bölgədə Məmlüklərə etibarı gücləndirsə də, Məlik

Əşrəf Barsbayın ölümü bu prosesi yarımçıq qoydu. Məmlük ordusu dərhal geri çəkildi.

Yaranmış vəziyyətdən istifadə edən Həmzə Mirzə Məmlük hökmdarı Barsbayın adına sikkə kəsdirməyə və xütbə oxutmağa etinasızlıq göstərdi və qardaşı oğlanları üzərinə yürüş etməkdən çəkinmədi. Mardin hakimi böyük bir ordu ilə Ərzincanı mühasirəyə aldı. O, Əli bəyin oğlanlarını ölkəni Məmlüklərə peşkəş etməkdə günahlandırdı və Ağqoyunlular üzərində üstünlük qazanmağa çalışdı [207, 110]. Cahangir Mirzə əmisinə qarşı mübarizədə Misir sultanının yardımını almaq üçün qardaşı Uzun Həsənlə birlikdə Qahirəyə getdi. Məmlük sultanı tərəfindən hörmətlə qarşılanan Cahangir Mirzə və qardaşına qiymətli hədiyyələr və 3 min əşrəfi bağışlandı. Ancaq Məmlük sultanı əvvəlki hərbi səfərləri nəzərə alaraq təkrar Diyarbəkrə yürüş etmək niyyəti olmadığı üçün Cahangir Mirzəyə Urfa valiliyini verdi və ona əmisi Həmzə bəyə qarşı mübarizə aparmağı məsləhət bildi [356, 134; 207, 111; 204, 74-75].

1440-cı ildə Cahangirə qarşı ilk səfərində uğur qazana bilməyən Həmzə Mirzə növbəti il Urfa və Ərzincana yürüş etdi. Ərzincanı ələ keçirən Həmzə onu qardaşı Şeyx Həsənə verdi. Həmzə Mirzə Ərzincanı ələ keçirdikdən sonra Sultan titulunu qəbul etdi və özünü Ağqoyunlu konfederasiyasının rəhbəri elan etdi. O, Urfa və Kəmaxdan savayı bütün şəhər və qalaları nəzarət altına alaraq, Ağqoyunlu tayfa başçılarını da öz arxasınca apararaq rəqibləri qarşısında mühüm üstünlük qazandı [356, 134-135]. 1443-cü ildə Əli bəyin, növbəti ilin oktyabrında isə oğul varisi olmayan Həmzə Mirzənin ölümü ilə Ağqoyunlu konfederasiyası iki yerə bölündü.

Cahangir Mirzə ilə əmisi Şeyx Həsən arasında taxt-tac uğrunda mübarizə başladı. Əmisini qabaqlayan Cahangir Mirzə Diyarbəkrdə möhkəmləndi. Əbubəkr Tehraninin yazdığı kimi, «bu zaman Ağqoyunluların ən ali padşahı Cahangir Mirzə oldu» [13, 104].

1444-cü ildə Cahangir Mirzənin Ağqoyunlu bəyliyində hakimiyyəti ələ almasından sonra Ağqoyunlu-Məmlük müna-

sibətlərində müəyyən soyuqluq yarandı. 1447-ci ilin martında Teymuri Şahruxun ölümü ilə Ağqoyunluların ən güclü müttəfiqini itirməsi Cahangir Mirzənin vəziyyətini xeyli çətinləşdirdi. Bununla da hər zaman mübahisə obyekti olan qərb bölgələri Qaraqoyunlu Cahanşah, Məmlük sultanı Çakmaq və Osmanlı sultanı II Muradın təhdidlərinə buraxılmış oldu. C.Vuds yazır ki, Şahruxun ölümü Məmlük-Teymuri dostluq münasibətlərinə son qoyduğu üçün bu vaxtdan etibarən Ağqoyunluların Məmlük sərhədlərinə hücumları çoxaldı [357, 137; 123, 135].

1450-ci ilin əvvəllərində Cahanşahın Ağqoyunlulara qarşı başladığı hərbi yürüş nəticəsində Ərzincan, Tərcan və Bayburd ələ keçirildi. Cahangir Mirzə Qaraqoyunlu ordusunun Mardin və Urfanı mühasirəyə almasının qarşısını ala bilmədiyinə görə Məmlük sərhədlərinə çəkilmək məcburiyyətində qaldı. Lakin, Şahruxun ölümündən sonra Cahangir Mirzənin Qahirə ilə münasibətləri pisləşdiyindən bu dəfə ona Məmlük ərazisində sığınacaq verilmədi. Bu məsələyə öz münasibətini bildirən M.X.Yınanç yazır ki, Cahanşahın qüvvələri qarşısında məğlub olan Cahangirin Suriyaya sığınması haqda məlumat əldə edən Misir sultanı Əlbistan əmiri və Zülqədər hökmdarı Süleyman bəyə məktub göndərərək Cahangirin yolunu kəsməyi və Suriyaya buraxmamağı tapşırdı [358, 176]. Göründüyü kimi, Cahangir Mirzə Qaraqoyunlu Rüstəm Tərxana məğlub olub Məmlük sərhədlərinə çəkilən zaman Sultan Çakmaq ona öz ərazisinə sığınmağa razılıq vermədi. Həmçinin, bu zaman Ərzincanın itirilməsi Ağqoyunluların və onları təqib edən qaraqoyunlu qüvvələrinin Hələbi işğal edəcəyi ilə bağlı qorxu yaratdı. Əlverişli ticarət yolu olan Ərzincan-Hələb xəttində çətinliklərin ortaya çıxması Hələb bazarında minik və yük heyvanlarının bahalaşmasına səbəb oldu. Bu gərginlik və Cahangirin məmlüklərə qarşı üsyan qaldıran Hama valisi ilə həmfikir olması Məmlük sultanı Çakmağı Ağqoyunlular üzərinə yürüş etməyə sövq etdi. Lakin, 1450-ci ilin iyulunda Cahangirə qarşı üsyan qaldıran əmisi Qasımın Qahirəyə gəlməsi və yardım almaq istəyi Məmlük sultanını öz niyyətindən daşındırdı. O, bir ay sonra Qasım bəyə Ur-

fa valiliyini verərək onu Cahangir Mirzəyə qarşı yürüşə vadar etdi [356, 139-140; 207, 120; 204, 78].

Bu zaman Qaraqoyunluların gözlənilmədən Urfa və Mardini ələ keçirərək Diyarbəkr əyalətində öz mövqeyini gücləndirməsi Misir məmlüklərini qorxuya saldı. İ.Erdəm yazır ki, Sultan Çakmaq bir tərəfdən Cahanşahın yanına öz elçisini göndərdiyi halda, digər tərəfdən 1450-ci ilin iyulunda Qahirədə olan Qasıma Urfa naibi kimi xalat geydirdi. Bölgənin iki böyük dövləti Diyarbəkr üzərində nüfuz qazanmaq üçün şiddətli bir mübarizə aparırkən, daha ehtiyatlı olan Cahanşah Qahirəyə hərəkətinin düşmənçilik məqsədi daşımadığını bildirərək Ağqoyunlular üzərinə hücumunu davam etdirdi. 1450-ci ilin noyabrında Məmlük paytaxtına çatan xəbərə görə, Qaraqoyunlu hökmdarı qarşısından qaçan Cahangiri təqib edərək Məmlük ərazisinə girmiş və Hələbə kimi gəlmişdi. Türkmanlar arasındakı mübarizənin ölkəsinə yayılmasından qorxuya düşən Sultan Çakmaq dərhal sərhədləri bağlatsa da, ətrafdakı vahiməni aradan qaldıra bilmədi [207, 120].

Dekabrın əvvəllərində Cahanşahın bölgəni tərk etməsi ilə Məmlük hökmdarının narahatlığına son qoyuldu. Lakin, bu zaman Diyarbəkrdə olan Ağqoyunlu hökmdarının gərgin vəziyyəti hələ də davam edirdi. Rüstəm Tərxanın rəhbərliyi altında Qaraqoyunlu ordusu Mardini ələ keçirdiyi üçün hər tərəfdən sıxışdırılan və çox çətin mühasirə vəziyyətdə olan Cahangir Mirzə Məmlük sərhəddinə çəkildi. Lakin ona Məmlük torpaqlarına sığınmağa icazə verilmədi. Çətin vəziyyətə düşən Cahangir Mirzə bütün bunları nəzərə alaraq anası Saray Xatunu Qahirəyə göndərdi. Məqsəd keçmiş hamisi olan Məmlük sultanının yanında əvvəlki mövqeyini qismən də olsa bərpa etmək, ondan müəyyən yardım istəmək, heç olmasa Cahanşahla sülh bağlamasına vasitəçi olmasını xahiş etmək idi [356, 140; 358, 176; 207, 120]. İ.Erdəm və K.Paydaş yazır ki, Misirə getmək üçün yola çıxan Saray Xatunu Hələb naibi saxladı və onu Birəciyə geri dönməyə vadar etdi. Bu vəziyyət Məmlük sultanına bildirildi və ondan necə hərəkət edilməsi barədə cavab is-

tənildi. Sultan Saray Xatunun Hələbə və oradan da Şama göndərilməsini tələb etdi. Saray Xatun Qahirəyə gəldi və Sultan Çakmaq tərəfindən yaxşı qarşılandı [204, 78-79]. Ancaq dövrün qaynaqları Saray Xatunla Məmlük sultanı arasındakı danışıqların gedişi barədə heç bir məlumat vermirlər. İ.Erdəm Məmlük tarixçilərindən İbn Tağriberdinin verdiyi məlumata əsaslanaraq yazır ki, 1451-ci ilin yanvarında Qahirədə Saray Xatunun Sultan Çakmaqla görüşündən sonra Suriya naibləri Ağqoyunlulara yardım etməyə başladı [207, 120]. Bu Məmlük sultanının Ağqoyunlu elçisi Saray Xatuna müsbət cavab verdiyini təsdiq edir. 1451-ci ilin fevralında Cahangir Mirzənin oğlunun da Qahirəyə gələrək Sultan Çakmağa atasının təşəkkür və sədaqətini bildirən məktubunu çatdırması bir daha Məmlük sultanının Ağqoyunlu hakiminin yardım xahişinə müsbət yanaşdığını göstərir. Məmlüklərlə Ağqoyunluların yaxınlaşmasından xəbər tutan Cahanşah diplomatik vasitələrlə bunun qarşısını almağa çalışdı. O, 1451-ci ilin martında öz elçisini məktubla Qahirəyə – sultanın yanına göndərdi. Cahanşah məktubunda Məmlük sultanına hörmət və itaətini bildirməklə yanaşı, Ərzincan və Mardin şəhərlərini ələ keçirdiyini, Diyarbəkr bölgəsinə gəlməkdə məqsədinin onun itaətindən çıxmış Cahangiri cəzalandırmaq, məmləkətini və təbəəsini yaxşı idarə etmədiyi üçün onu hakimiyyətdən uzaqlaşdırıb yerinə əmisi Şeyx Həsəni keçirmək olduğunu bildirdi [358, 176-177; 207, 120].

Cahangir Mirzənin rəhbərliyi altında tarixinin ən çətin dövrünü yaşayan Ağqoyunluların müqəddaratı məsələsi Məmlüklərlə Qaraqoyunlular arasında diplomatik çəkişmə mövzusuna çevrildiyi bir vaxtda siyasi mübarizə meydanına gənc şahzadə Uzun Həsən çıxdı. O, 1451-ci ilin yazında Qaraqoyunluların mühasirəsində olan Urfanı azad etdi. Başda Şeyx Həsən olmaqla bəzi Ağqoyunlu və Qaraqoyunlu əmirləri əsir alındı. Əbubəkr Tehrani bu barədə yazır: «Allahın köməkliyi və ona tərəf olması ilə üç yüz nəfər min iki yüzə qalib gəldi. Şeyx Həsən Mirzəni şəhərdə olan və əsir düşən bütün Qaraqoyunlu əmirləri ilə birlikdə edam etdilər. Şeyx Həsən bəyin başını Misirə, qol-

larını Amidə göndərdilər…Uzun Həsən əldə etdiyi bu böyük qələbədən sonra Amidə üz qoydu. Cahangir Mirzəyə bəxşişlər göndərdi» [13, 110; 123, 135].

Gözlənilmədən böyük bir qələbə qazanan Uzun Həsən Ağqoyunluların qəhrəmanına çevrildi. Məmlüklərin bölgəyə göndərdiyi Qasımın tərəfinə keçməyə hazır olan Xabur və Cizrə arasında olan Ağqoyunluların bir hissəsi bu qələbədən sonra Uzun Həsənə qatıldı. Uzun Həsənin bu zəfəri Məmlüklərdə də böyük bir təşviş yaratdı. 1451-ci ilin aprelində Uzun Həsənin əldə etdiyi qələbə barədə xəbər Qahirəyə yetişdi və müsbət qarşılandı [207, 121; 123, 135-136; 141, 45-46].

Diyarbəkr bölgəsində Ağqoyunlularla Qaraqoyunlular arasında döyüşlər davam etdiyi zaman Ağqoyunlu şahzadələri ilə xoş münasibətdə olan Zülqədəroğlu Süleyman bəy və Misir sultanının sərhəd naibləri onlara yardım edirdi. Cahanşah düşmənlərinə edilən bu yardımlara mane olmaq üçün Xarput ətrafına gələrək ön qüvvələrini Malatyaya göndərdi. 1451-ci il dekabrın ortalarında Qaraqoyunlu hökmdarının Zülqədərlilərə hücum edəcəyi xəbəri Qahirəyə çatan zaman Misir sultanı himayə etdiyi və dostu olan Zülqədər hökmdarına yardım etmək barədə bütün Suriya naiblərinə əmr göndərdi. Bu zaman Misir sultanı ilə münasibəti pozmaq istəməyən Cahanşah hücumu dayandıraraq əsas diqqəti Ağqoyunlular üzərinə yönəltdi [358, 177].

1452-ci ilin yazında Teymuri Sultan Baburun İraqi-Əcəm və Fars bölgələrini ələ keçirmək üçün Reyə gəldiyini xəbər alan Cahanşah Ağqoyunlu Cahangirə qarşı mübarizəni dayandırmaq qərarına gəldi. Cahangir Mirzə Cahanşahın sülh təklifini qəbul etdi. Onun Cahanşahla barışığından razı qalmayan Uzun Həsən qardaşına qarşı mübarizəyə başlamağa məcbur oldu. 1452-ci ilin sentyabrında Cahangir Mirzənin Diyarbəkri tərk etdiyini öyrənən Uzun Həsən yaranmış vəziyyətdən istifadə edərək şəhəri ələ keçirdi [356, 145; 141, 46]. İ.Erdəm və K.Paydaş yazır ki, Uzun Həsən Diyarbəkri ələ keçirdikdən dərhal sonra şəhərin açarlarını asılılıq rəmzi kimi Qahirəyə göndərdi. Uzun Həsənin bu hərəkətindən razı qalan Sultan Çakmaq açarları ona geri qaytardı və

Uzun Həsəni Diyarbəkr valisi kimi tanıdı. Məmlük sultanının bu hərəkəti Cahanşahın altı ay əvvəl Cahangirlə əldə etdiyi razılaşmaya bir cavab oldu [204, 81; 356, 145]. Məmlük tarixçisi İbn Tağriberdiyə əsaslanan İ.Erdəmin məlumatına görə, Uzun Həsənin elçisi 1453-cü ilin yanvarında Qahirəyə gəlmişdi [207, 125]. Deməli, Uzun Həsən Diyarbəkr şəhərini V. Hinsin yazdığı kimi 1453-cü ildə deyil [231, 24], məhz 1452-ci ildə ələ keçirmişdi. Bunu dövrün Məmlük tarixçilərinin verdiyi məlumata əsaslanan C.Vudsun dəqiqləşdirdiyi tarix bir daha təsdiq edir [356, 159; 357, 259; 141, 46].

XV əsrin ortalarında Uzun Həsən Ağqoyunlu taxt-tacı uğrunda həm qardaşı Cahangirə qarşı mübarizə aparır, həm də onu müdafiə edən Qaraqoyunlu əmirləri ilə vuruşmaq məcburiyyətində qalırdı. Bu zaman bölgənin böyük güclərindən biri olan Məmlük dövləti Qaraqoyunlu ordusunun Diyarbəkrə yürüşündən narahat olsa da, Uzun Həsənə açıq şəkildə yardım göstərməkdən imtina etdi. Misir sultanına ilk müraciətindən lazımi nəticə əldə edə bilməyən Uzun Həsən, qardaşı Urfa hakimi Üveys bəyin vasitəsilə yenidən Məmlük sultanına müraciət etməli oldu [186, 128; 141, 46]. Məmlük sultanından lazımi cavab ala bilməyən Ağqoyunlu hökmdarı 1457-ci ilin mayında Diyarbəkrin şərqində Dəclə çayı üzərində Rüstəm ibn Tərxanın rəhbərliyi altında 20 minlik Qaraqoyunlu ordusu ilə döyüşə girdi. Döyüşün başlanğıcında Rüstəm ibn Tərxanın və Qaraqoyunlulara sığınan Cahangirin qüvvələri sayca çox olduğu üçün müəyyən üstünlük qazandı. Lakin sonda Uzun Həsən Ağqoyunluların Əfşar, Əmirli, Heydərli, Mosullu, Pornək və Qoca-Hacılı tayfalarından topladığı qüvvələrlə Qaraqoyunlular üzərində qələbəni təmin etdi. Qaraqoyunluların acnacaqlı məğlubiyyətində Cahangirin qorxaqlığı və qoşunu arasında yaranmış vahimə də mühüm rol oynadı. Cahangir Mardinə qaçsa da, tanınmış Qaraqoyunlu əmirləri başda Rüstəm ibn Tərxan və Əli Şəkər Baharlı olmaqla əsir alındı. Böyük hərbi sursat və qənimət ələ keçirildi. Əsir alınan 1700 nəfərdən 500-ü başda Rüstəm ibn Tərxan olmaqla edam edildi [13, 151; 356, 150-151; 141, 46].

Uzun Həsən qazandığı böyük qələbə ilə bağlı Osmanlı və Məmlük sultanlarına zəfərnamələr göndərdi. İ.Erdəm yazır ki, Osmanlı sultanı bu hadisəyə etinasız yanaşsa da, Məmlük sultanı Əşrəf İnal Ağqoyunlu hökmdarının qazandığı qələbəyə çox sevindi və ona təbriklərini çatdırdı [358, 180; 207, 130; 356, 151]. C.Vuds Məmlük tarixçilərinin verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsənin Qahirəyə gələn elçisi Məmlük sultanı Əşrəf İnala Qaraqoyunlulardan alınan silahları bir xatirə olaraq bağışladı [13, 162, qeyd 88]. Uzun Həsənə qonşu dövlətlərdən göndərilən hədiyələrlə bağlı Əbubəkr Tehrani yazır: «Hər yerdən ünlü sərkərdələrdən, padşahlardan və hökmdarlardan sovqat və hədiyyələr gəlirdi. Bu zaman Uzun Həsən tərəfindən Misir səltənətinə və Rum padşahının yanına göndərilən Hüseyn Hacı padşahlara layiq hədiyyələr gətirdi» [13, 132; 141, 47].

Rüstəm ibn Tərxan üzərində qələbə Ağqoyunlu tarixinin ən parlaq səhifələrindən və Uzun Həsənin hərbi-siyasi bioqrafiyasında ən mühüm nailiyyətlərdən biridir. Bu qələbədən sonra Qaraqoyunlular uzun müddət Ağqoyunlular üzərinə hücum etmədilər. Cahangir Mirzə Ağqoyunlular arasında nüfuzunu tamamilə itirdi və hakimiyyətdən əl çəkdi. O, axır ki, Uzun Həsənin təklifini qəbul edərək oğlu Əlixan Mirzəni onun yanına göndərdi və vəfat etdiyi 1469-cu ilə kimi Mardin hakimliyi ilə kifayətləndi. Bununla da, Ağqoyunlu bəyliyində daxili çəkişmələrə və ara müharibələrinə son qoyuldu və dövlətin Qara Osman dövründəki hüdudları bərpa edildi [13, 29; 154, 49; 141, 47].

Uzun Həsənin rəhbərliyi altında Ağqoyunlu bəyliyi regionda mövqeyini xeyli möhkəmləndirdi və başlıca güc mərkəzlərindən birinə çevrildi. Bu isə ayrı-ayrı Ağqoyunlu şahzadələrini müdafiə etmək bəhanəsi ilə onlar arasında rəqabəti qızışdıran Məmlük sultanının bölgədə öz mövqeyini qoruyub saxlamaq və gücləndirmək siyasətini iflasa uğratdı. Uzun Həsən Məmlük sultanı Əşrəf İnalla yaxşı münasibətlərini qoruyub saxlamağa çalışırdı. Yuxarıda qeyd etdimiz kimi, 1457-ci ildə Uzun Həsən Diyarbəkr yaxınlığında Rüstəm ibn Tərxanın rəhbərlik etdiyi Qaraqoyunlu ordusunu ağır məğlubiyyətə uğratdıqdan

sonra qazandığı bu qələbə haqda məlumatı Misir sultanı Seyfəddin İnal Əşrəfə bildirdi. Məmlük sultanı bu xəbərdən məmnun qaldı [13, 132; 317, 21]. A.S.Erzinin fikrincə, Uzun Həsən Ağqoyunlu torpaqları ilə həmsərhəd olan Osmanlı, Məmlük və Qaraqoyunlu dövlətlərinə qarşı zahiri dostluq siyasəti yeritsə də, özünü qüvvətli hiss etdiyi anlarda onlara qarşı hərəkət etməkdən çəkinmirdi [218, 208; 141, 47].

Lakin, xeyli müddətdən bəri nisbətən sakitlik dövrünü yaşayan Ağqoyunlu- Məmlük siyasi münasibətləri 1461-ci ildə Misir sultanı Əşrəf İnalın ölümündən sonra yenidən gərginləşməyə başladı. C.Vudsun qənaətinə görə, Uzun Həsənin Qahirə ilə siyasi əlaqələrində 1462-ci il dönüş nöqtəsi oldu. Belə ki, Uzun Həsənin son dərəcə yaxşı münasibətdə olduğu – bir il əvvəl vəfat edən Məmlük sultanı Əşrəfin yerinə hakimiyyətə keçən Sultan Xoşqədəmə qarşı məmlüklərin Şam valisi Canım Əşrəf üsyan qaldırdı. Uzun Həsənin etiraz etməsinə baxmayaraq, Sulltan Xoşqədəm Ağqoyunlu hökmdarının Canım Əşrəfi müdafiə etməsi barədə yanlış məlumatlar aldığına görə valini və müttəfiqlərini cəzalandırmaq üçün bir ordu göndərdi. Ağqoyunlu hökmdarı Qahirəni razı salmaq üçün Canım Əşrəfi Urfada öldürdü. Bununla da, Sultan Xoşqədəmin narahatlığına son qoydu və Məmlük ordusu geri döndü [356, 170-171; 204, 77]. Beləliklə, iki dövlət arasında mövcud olan gərginlik aradan qaldırıldı və normal münasibətlər bərpa edildi [141, 47-48].

Lakin az sonra iki dövlət arasındakı siyasi əlaqələrdə yenidən soyuqluq yarandı və gərginlik xeyli artdı. Bu zaman Misirdə baş verən hadisələr buna əlverişli şərait yaratdı. 1462-ci ildə Uzun Həsən Misir sarayında mövcud olan siyasi çəkişmələrdən istifadə edərək Məmlük ərazisinə qoşun yeritdi. F.Sümerin qənaətinə görə, həmin ildə Uzun Həsən Hısn-Keyfə şəhərini ələ keçirərək burada Əyyubi hakimiyyətinə son qoydu. Bu dövrdə Bayburt şəhəri də Ağqoyunlu mülklərinə qatıldı [317, 22; 141, 48].

Ancaq bu zaman Qaraman bəyliyində baş verən hadisələr iki dövlət arasında mövcud olan narazılığı arxa plana keçirdi.

Qaraman hökmdarı İbrahimin ölümü ilə onun oğlanları arasında taxt-tac uğrunda mübarizə başladı. Qaraman hakiminin oğlu İshaqı Ağqoyunlu və Məmlüklər, digər oğlu Pir Əhmədi isə Osmanlı sultanı müdafiə edirdi. Məhz buna görə də, A.S.Erzi Məmlük tarixçisi İbn Tağriberdinin verdiyi məlumata əsaslanaraq bu dövrdə Sultan Xoşqədəmlə Uzun Həsən arasında Osmanlılara qarşı ittifaq yarandığını qeyd edir [218, 209]. 1464-cü ilin sentyabrında Qaraman uğrunda mübarizəyə qatılan Uzun Həsən Konya, Beyşehir, Ağşehir, Aksaray, Dəvəli və Kayserini ələ keçirdi. Onun yardımı ilə İshaq Qaramanda taxt-taca gətirildi. O, cümə xütbəsini Sultan Xoşqədəmin adına oxutdurdu. Bu, Uzun Həsənlə Əmir İshaqın Məmlük sultanı ilə xoş münasibətlərdə olduğunun və onunla hesablaşdığını bir daha göstərir. Bu hadisələr Xoşqədəmi məmnun etsə də, az sonra Sultan II Mehmedin himayə etdiyi Pir Əhmədi Qaramanda taxta keçirməsi vəziyyəti yenidən dəyişdi [215, 77-78]. A.S.Erzi İbn Tağriberdinin verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsən Qaraman səfəri ilə bağlı Məmlüklərin Darəndə və Divrigi naiblərinə məktub yolladı. O, 1465-ci il yanvarın 3-də Sultan Xoşqədəmə mövcud vəziyyəti bildirmək üçün öz elçisini Qahirəyə göndərdi [218, 217]. Bu bir daha göstərir ki, Qaraman məsələsi xeyli pisləşmiş olan Ağqoyunlu-Məmlük münasibətlərindəki gərginliyi aradan qaldıraraq onların yaxınlaşmasına müsbət təsir göstərdi. Aralarında ciddi ixtilafın olmasına baxmayaraq, Qaraman məsələsinin ortaya çıxması Sultan Xoşqədəmi Uzun Həsənlə daha da yaxınlaşmağa məcbur etdi. A.S.Erzinin yazdığı kimi, Qaraman məsələsi ortaya çıxan zaman Məmlük sultanı Osmanlılara qarşı Uzun Həsənlə ittifaq yaratdı. Sultan Xoşqədəmin Məmlük ərazisinə hücum üçün əlverişli yollar üzərində yerləşən torpaqlara sahib olan Qaramanoğullarının da bu ittifaqa girməsini və Qaramanda özünə dost olan bir hökmdarın olmasını istəməsi təbii idi [218, 217; 179, 265; 141, 48].

Lakin bir müddət sonra Uzun Həsənin atdığı növbəti addım Ağqoyunlu-Məmlük münasibətlərinin yenidən pisləşməsinə və gərginliyin artmasına səbəb oldu. S.Ərşahinin fikrincə, 1464-

cü ildə Pazuki kürdləri Hələb-Ərzincan yolunu nəzarət altında saxlayan Gərgərə hücum edərək valini öldürdü və şəhərin açarlarını Uzun Həsənə göndərdi [215, 77]. 1465-ci ilin yanvarında Uzun Həsənin bir ilə yaxın Gərgər qalasını mühasirədə saxlayan Məmlük ordusunu qovaraq onu nəzarət altına alması barədə xəbər Sultan Xoşqədəmə çatdı. Şübhəsiz ki, bu hadisə Qahirədə yenidən ciddi narahatlıq yaratdı. Bir ay sonra Uzun Həsənin elçisi Gərgər qalasının açarlarını Qahirəyə gətirərək onu Xarput qalası ilə dəyişməyi və 10 min dinar təzminatın ödənməsini təklif etdi. [231, 121; 356, 171-172; 215, 78]. R.Yınançın fikrincə, Məmlük sultanı Xarputun Zülqədərlilərə aid olduğunu bildirərək bu təklifi rədd etdi [363, 60]. C.Vuds bu hadisə ilə bağlı yazır ki, Sultan Xoşqədəm Uzun Həsənin təklifinə «Xarputu yardımçım Məlik Aslana verdim, əgər ala bilirsənsə al» cavabını verdi. Eyni zamanda, gizli olaraq Məlik Aslana müqavimət göstərməyi tövsiyə etdi və hətta ona kömək də göndərdi [356, 210]. Lakin, S.Ərşahin Məmlük tarixçilərinin verdiyi məlumatlara əsaslanaraq yazır ki, Sultan Xoşqədəm Osmanlılara qarşı önəmli müttəfiqi olan Ağqoyunlu bəyliyini itirməmək üçün bu təklifi qəbul etməyə məcbur oldu. Bununla da, çox güvəndiyi Xarput valisi Məlik Aslan Zülqədəri zərbə altında qoydu [356, 78; 141, 49].

Başlıca rəqibi olan Cahanşahın Bağdadda oğlu Pirbudağın üsyanını yatırmaqla məşğul olması Uzun Həsənə Ağqoyunlular üçün strateji əhəmiyyəti böyük olan Xarput qalasını ələ keçirməyə əlverişli imkan yaratdı. O, 1465- ci ildə Gərgər qalasını Məmlüklərə təhvil verərək Xarput üzərinə yürüş etdi. Türkiyə tarixçilərinin qənaətinə görə, Məmlük sultanının tutduğu mövqeyə baxmayaraq, Uzun Həsən Əlbistan hakimi Məlik Aslan Zülqədəri məğlub edərək Xarputu ələ keçirdi, Malatyanı və Əlbistanı mühasirəyə aldı. Ağqoyunlulara məğlub olan Məlik Aslan məcburiyyət qarşısında qalaraq Uzun Həsənə sülh təklif etdi. Uzun Həsənin vəziri vasitəsilə aparılan danışıqlardan sonra Zülqədər hakimi ilə razılıq əldə olundu. Əldə olunan razılığa görə, qala Ağqoyunluların ixtiyarına verildi. Xarput qalasının ələ keçirilməsi Ağqoyunlu-Məmlük münasibətlərində müəyyən

gərginlik yaratdı [363, 60; 204, 86-87; 215, 78; 231, 122; 20, 89; 251, 106]. S.Ərşahin yazır ki, Xarput qalasının Ağqoyunlular tərəfindən ələ keçirməsi Ağqoyunlu-Məmlük münasibətlərini xeyli gərginləşdirdi. Lakin, bu zaman Osmanlıların Zülqədər torpaqlarına başlanan hücumlarını nəzərə alan Sultan Xoşqədəm Uzun Həsənlə diplomatik əlaqələrini yenidən möhkəmləndirməyə ehtiyac duyduğu üçün baş verən hadisə ilə barışmalı oldu [215, 78; 141, 49].

Xarput qalasının alınması ilə bağlı Əbubəkr Tehrani yazır: «Xarputu mühasirəyə alan Uzun Həsən qoşunun böyük bir hissəsini yaylağa göndərdi, lağım atıb qaladakıları heyrətə saldı. Məlik Aslan əksəriyyəti yaylağa getmiş qoşunu az görüb ürəkləndi, gecə ikən Malatya tərəfdən Fərat çayını keçdi. Süleyman bəy Bicəni və Xəlil Təvaçının qardaşı İbrahim Ağanı otuz süvari ilə əsir götürdü… Uzun Həsən bundan xəbər tutub çayı keçdi. Məlik Aslan davam gətirməyib Əlbistana getdi. Lakin o, artıq ixtiyarını əldən verdiyi və müvazinətini itirdiyi üçün heç bir yerdə qərar tuta bilmirdi. Əlbistan müzəffər ordunun hücumu ilə qarət olundu. Məlik Aslan öz acizliyini və səhvini etiraf edib itaətini bildirmək üçün elçi göndərdi və dedi ki, Uzun Həsənin istənilən hökmünə tabe olmağa, istənilən əmrini yerinə yetirməyə canla-başla hazıram və bunları etsəm də, yenə özümü təqsirli bilib günahgar sayacam. Uzun Həsən cavabında Xarput qalasının təslim olunmasını tələb etdi və dedi ki, Çiçəkoğlu və onun sahib- divanı olan Mövlana Yəhya gəlib qalanı təhvil versinlər. Beləliklə, dostluq və məhəbbətin bünövrəsi qoyulsun, düşmənçilik aradan qalxsın» [13, 210; 141, 49-50]. «Bütün bu danışıqlara baxmayaraq, Uzun Həsən Məlik Aslanın olduğu yerə hərək etdi. Çıxılmaz vəziyyətdə olan Məlik Aslan Cihan çayının sahilinə çəkilsə də, adları çəkilən şəxsləri və eləcə də əsirləri Uzun Həsənin yanına göndərdi və qalanı təslim etdi. Uzun Həsən mərhəmətinin çoxluğundan ona 4 min əşrəfi göndərdi və oradan qışlağa yollandı» [13, 210; 141, 50]. R.Yınançın fikrincə, Uzun Həsən 4 min əşərəfi qızıl ödəməklə Xarput qalasını əldə etmişdir [363, 60]. Lakin dövrün qaynağının təsdiq etdiyi kimi,

Uzun Həsən heç də Xarput qalasını 4 min əşərəfinin qarşılığında əldə etməmişdi. Çünki, Əbubəkr Tehranidən yuxarıda gətirdiyimiz fakt da təsdiq edir ki, Məlik Aslan şəhəri təslim etdikdən sonra Uzun Həsən mərhəmət göstərərək ona pul göndərmişdi. Görünür, Uzun Həsən Zülqədər hakimi ilə xoş münasibətlərini davam etdirmək üçün bu addımı atmışdı [141, 50].

Bu zaman Fərat çayına kimi irəliləyən Məmlük qüvvələri hadisələrə müdaxilə etməyərək gözləmə mövqeyi tutdu. Maraqlıdır ki, bu hadisədən sonra Sultan Xoşqədəm Məlik Aslanın Qahirəyə göndərdiyi elçini qəbul etməyərək Xarputun Ağqoyunlulara təslim edilməsindən narazı qaldığını bildirdi. Əslində Məmlük sultanı Zülqədər hakiminin Osmanlı dövləti ilə yaxınlığından ehtiyat etdiyi üçün Uzun Həsənin Xarputu alaraq Məmlüklər əleyhinə atmış olduğu bu addımı istəməsə də qəbul etməli oldu [363, 60].

Şübhəsiz ki, Xarput qalasının Ağqoyunluların nəzarətinə keçməsi Ağqoyunlu-Məmlük münasibətlərində müəyyən soyuqluq yaratsa da, Uzun Həsən bunun dərinləşməsinə yol verməməyə çalışdı. İ.Erdəm və K.Paydaş yazır ki, Uzun Həsən məmlüklərlə münasibətlərdə son dərəcə ehtiyatlı olsa da, Gərgər ətrafına etdiyi yürüşlər iki dövlət arasındakı əlaqələri xeyli çətinləşdirdi. Qaraqoyunlu təhlükəsi Uzun Həsəni Məmlük sultanı Xoşqədəmlə münasibətləri normallaşdırmağa və son nəticədə müəyyən razılaşmağa vadar etdi. Belə ki, Ağqoyunlu hökmdarı fəth etdiyi əraziləri geri verəcək, əvəzində Məmlüklər Xarputla bağlı tələblərindən imtina edəcəkdilər [204, 88; 345, 171; 141, 50]. Xarput qalasının açarlarını Sultan Xoşqədəmə təqdim etmək üçün 1466-cı il fevralın 16-da Uzun Həsən Urfa valisi Əmir Musa Türkmanı Misirə göndərdi. Bunun ardınca isə, həmin ilin mart ayında Uzun Həsən Məmlük dövlətilə münasibətləri normallaşdırmaq və Xarput qalası ilə bağlı yaranmış anlaşılmazlığı aradan qaldırmaq üçün anası Saray Xatunu Qahirəyə göndərdi. Saray Xatun Ağqoyunlu-Məmlük münasibətlərini qaydaya salmaq üçün xeyli diplomatik səy göstərdi. Sultan Xoşqədəm bu cür səmimi münasibətdən razı qaldığını bildirdi [215, 78; 231, 122; 346, 107;

363, 60].

Ağqoyunlu-Məmlük münasibətlərindəki gərginliyin aradan qalxmasında xarici amillərin təsirini nəzərdən qaçırmamaq lazımdır. Osmanlı dövlətinin Qaramanda möhkəmlənərək Misir sultanının asılılığında olan Zülqədər bəyliyinə təzyiqlərini artırması və Qaraqoyunlu Cahanşahın Ağqoyunlu bəyliyi üçün ciddi təhlükə yaratması Ağqoyunlu-Məmlük ziddiyətlərinin aradan qalxmasına və qarşılıqlı münasibətlərin nizama salınmasına müsbət təsir göstərdi [141, 51].

1468-ci ildə Uzun Həsən Qaraqoyunlular üzərində qələbə qazanaraq Azərbaycanda siyasi hakimiyyəti ələ aldıqdan sonra Azərbaycan Ağqoyunlu dövlətilə Misir Məmlük dövləti arasında münasibətlər daha da möhkəmləndi. S.Ərşahinin fikrincə, Uzun Həsən Qaraqoyunluları ortadan qaldırıb Teymuriləri də Xorasana sıxışdırdıqdan sonra Məmlüklərlə daha sıx əlaqə qurmağın vacibliyini lazım bildiyindən Qahirəyə bağlılığını bildirdi. Onun əsas məqsədi Osmanlılar qarşısında təklənməmək üçün Məmlüklərin etimadını qazanmaq idi [215, 78]. Şübhəsiz ki, iki dövlət arasında qarşılıqlı əlaqələrin mökəmlənməsində Məmlük sultanı da maraqlı idi. Artıq bu zaman Məmlük sarayında taxt-tac uğrunda gedən mübarizədə Əşrəf Qayıtbay öz mövqeyini möhkəmləndirdi. Məhz bu səbəbdən, 1468-ci ilin avqustunda Uzun Həsən ona dostluq münasibətlərini çatdırmaq üçün təbrik məktubu göndərdi [68, 35; 215, 78; 141, 51].

Eyni zamanda, Sultan Qayıtbay da Azərbaycanda rəqibləri üzərində qələbə qazanaraq öz mövqeyini möhkəmləndirməsi münasibətilə Uzun Həsəni təbrik etmək üçün Ağqoyunlu sarayına bir elçi göndərdi. Əbubəkr Tehrani bu hadisəni təsvir edərək yazır: «…Misir sultanı Qayıtbay tərəfindən göndərilən elçi dəbdəbəli surətdə və qiymətli töhfələrlə gəlib yetişdi, sədaqət, dostluq və vilayətlərin fəthi münasibətilə təbriklər ifadə edən bəlağətli bir məktub təqdim etdi. O, da hörmətlə qarşılanıb ənam və hədiyyələr aldıqdan sonra yola salındı» [13, 293; 141, 51]. Əbubəkr Tehraninin verdiyi məlumat bir daha təsdiq edir ki, Azərbaycan Ağqoyunlu dövlətinin yaranması ilə Ağqoyunlu-

Məmlük qarşılıqlı münasibətləri daha da dərinləşərək xoş məcrada inkişaf etməyə başladı.

Türkiyə tarixçilərinin qənaətinə görə, 1469-cu ilin ortalarında Uzun Həsən Qaraqoyunlu Həsənəlidən alınan yerlərin açarlarını Sultan Qayıtbaya göndərdi və ondan sultanlıq xalatı tələb etdi. Qayıtbay bu istəkləri qəbul edərək Uzun Həsənin əldə etdiyi uğurlarını və qanuni hökmdarlığını qəbul etdi [346, 114-115; 215, 78-79].

Qeyd etmək lazımdır ki, bu dövrdə Şərqi Anadolu bəylikləri ilə bağlı Osmanlı dövlətilə Məmlüklər arasında siyasi mübarizə kəskin hal almışdı. Xüsusilə Məmlük sultanının vassalı olan Zülqədər bəyliyi bu mübarizənin mərkəzində dayanırdı. Yaranmış vəziyyətdən yararlanan Uzun Həsən dövlətinin sərhədlərini cənub-qərb istiqamətində genişləndirməkdə maraqlı idi. Bu zaman Zülqədər hakiminin Məmlük sultanı ilə münasibətlərinin kəsginləşməsi Ağqoyunlu-Məmlük münasibətlərinə də öz təsirini göstərdi. 1469-cu ildə Zülqədər hakimi Şahsuvar bəy Qahirəyə elçi göndərərək Sultan Qayıtbaydan hakimiyyətinin tanınmasını bildirdi. Məmlüklərin tələb etdiyi Antəb bölgəsinin qaytarılması müqabilində Hələbdə bir Zülqədər qarnizonunun yerləşdirilməsinə razılıq verməsini tələb etdi. 1470-ci ilin iyununda danışıqlardan bir nəticə əldə etməyən Şahsuvar bəy Məmlük sultanının vassalı olan Ramazanoğullarına qarşı hücuma keçərək İsgəndərun körfəzinin qərb sahillərini, sonra isə Adana və Tarsusu ələ keçirdi. Sultan Qayıtbay Şahsuvar bəyin Hələbə hücumundan qorxaraq qala qarnizonunu möhkəmləndirmək üçün Misirdən qüvvə göndərdi. Zülqədərlilər tərəfindən Məmlüklərə endirilən zərbə bu zaman Fərat çayı sahillərini ələ keçirməyə çalışan Uzun Həsənin ümidlərini daha da gücləndirdi. Fürsəti qaçırmayan Ağqoyunlu hökmdarının atdığı addımlar Qahirədə təşviş yaratdı. Çünki Məmlük dövləti Ağqoyunların Zülqədərlilərlə birləşərək Hələb şəhərinə hücum etməsindən ciddi narahat oldu [363, 69-70; 141, 51-52].

Dövrün qaynağının təsdiq etdiyi kimi, 1471-ci ilin fevralında Uzun Həsənlə Zülqədər hakimi Şahsuvarın Hələbə yiyə-

lənməsinin qarşısını almaq üçün Əmir Yaşbəyin rəhbərliyi altında Misir qoşunu Qahirədən Hələb istiqamətində yürüşə başladı və iyun ayında Antəb qalasını mühasirəyə alaraq ələ keçirdi [Geniş məlumat üçün bax: 56, 26-30]. R.Yınançın fikrincə, bu zaman Osmanlı sultanının Zülqədərlərə köməyindən ehtiyatlanan Sultan Qayıtbay Osmanlı dövlətilə danışıqlara başladı. O, Sultan II Mehmedə elçi göndərərək Şahsuvar bəyi himayə etməməyi xahiş etdi və bunun müqabilində Zülqədər bəyliyini onun himayəsinə verəcəyini vəd etdi. Osmanlı sultanı Qayıtbayın təklifinə müsbət cavab verdi və Şahsuvarı müdafiə etmədi. II Mehmedin göstərişilə şahzadə Bayəzid Şahsuvar bəyin son istinadgahı olan Zamanti qalasının mühasirəsi zamanı Əmir Yaşbəyə taxıl və ərzaqla kömək edəcəyini vəd etdi [56, 73; 363, 71-72,74; 141, 52].

Osmanlı dövlətilə müəyyən razılıq əldə edən Məmlük sultanı həmçinin, Ağqoyunlu Uzun Həsənlə də danışıqlara başlamağı münasib bildi. Çünki, Sultan Qayıtbay Məmlük ordusunun bu yürüşü zamanı Ağqoyunlu hökmdarının hansı mövqe tutacağını bilmədiyi üçün ciddi narahat idi. Həmçinin, Zülqədər əmirlərini açıq şəkildə müdafiə edən Uzun Həsənin Məmlük ordusunun Zülqədər torpaqlarına yürüşü ilə bağlı atacağı addımlar da bəlli deyildi. Yaranmış bu vəziyyət şübhəsizdir ki, Məmlük sultanını narahat etmişdi. Məhəmməd əl-Hələbi yazır ki, 1471-ci il avqustun 17-də Məmlük əmiri Yaşbəy bu yürüşdə iştirak edən ordu qazısı Məhəmməd əl-Hələbini bu münasibətlə Ağqoyunlu sarayına göndərdi [56, 39]. Məhəmməd əl-Hələbi sentyabrın 24-də Təbrizə gəldi və ertəsi gün Uzun Həsən tərəfindən qəbul olundu. Elçi Əmir Yaşbəyin məktubunu ona təqdim etdi [56, 45]. Uzun Həsən Məmlük elçisi ilə aparılan danışıqlarda Məmlüklərin bu yürüşünə birmənalı olaraq münasibət bildirmədi və Misir sultanı ilə münasibətləri gərginləşdirməmək üçün yumşaq mövqe nümayiş etdirərək elçini diplomatik qaydalara uyğun olaraq yola saldı [Geniş məlumat üçün bax: 56, 46-57]. 1472-ci ilin aprelində Məmlük ordusu Zülqədərlilərə qarşı yürüşə başladı. Məmlük ordusu Şahsuvar bəyin sığındığı Zamantı qalasını ələ

keçirdi və onu əsir götürdü. Şahsuvar bəyin Qahirədə edam edilməsindən sonra Məmlük sultanı Zülqədər taxtına onun qardaşı Şahbudaq bəyi oturtdu. Şahbudaq bəy şəriət qaydasında Məmlüklərə sədaqətli olacağına and içdi [56, 75; 363, 76].

S.Ərşahinin qənaətinə görə, bu zaman Uzun Həsənin dövləti bölgənin ən böyük güclərindən birinə çevrilmişdi. Şübhəsizdir ki, bu, bölgənin digər iki böyük dövləti olan Osmanlılar və Məmlüklərlə növbəti münaqişələrin yaranmasına gətirib çıxarırdı. Beləki, Uzun Həsənin Qərb müttəfiqlərindən, xüsusilə də Venesiyadan göndərilən hərbi yardımı almaq üçün Aralıq dənizinə açılan bir dəhlizə ehtiyacının olması Məmlüklərlə yeni münaqişəyə yol açdı. Öz məqsədinə çatmaq üçün Uzun Həsən Məmlük valilərini və vassallarını təhdid etməyə başladı. Besni valisinə göndərdiyi məktubda Məmlük sultanlarının kölə mənşəli olduğunu bildirdi, Zülqədəroğlu Şahbudağa yazdığı məktubda isə Ağqoyunlulara birləşməyi tələb etdi [215, 79; 346, 130; 141, 53]. Digər tərəfdən, Uzun Həsənin islamın müqəddəs yerləri olan Məkkə və Mədinə şəhərləri üzərində hakimiyyətə iddialı olduğunu bəyan etməsi Məmlüklərlə münasibətlərdə yeni anlaşılmazlığa yol açdı. Ağqoyunlu hökmdarı bu addımı ilə islam dünyasının ən böyük güclərindən biri olduğunu elan etmiş oldu [215, 79; 141, 53].

Bu zaman Şərqi Anadoluda öz nüfuzunu möhkəmləndirmək üçün Osmanlı dövləti ilə mübarizəni daha da gücləndirən Ağqoyunlu hökmdarı, yaxın müttəfiqi olan Venesiyadan göndərilən hərbi silah və sursatı əldə etmək üçün Qaramana hərbi yürüş təşkil etdi. Lakin, 1472-ci ilin avqustunda Yusif Mirzənin başçılığı altında Ağqoyunlu ordusu Beyşehir yaxınlığında Osmanlılarla döyüşdə məğlub oldu və Yusif Mirzə əsir alındı [252, 128].

Uzun Həsən Qaraman yürüşünün uğursuz olduğunu nəzərə alaraq, Məmlük sultanının nəzarətində olan Suriya ərazisindən keçməklə Aralıq dənizinə çıxmaq qərarına gəldi. Bu qərarı reallaşdırmaq üçün 1472-ci ilin oktyabrında Ağqoyunlu hökmdarı Aralıq dənizində Venesiya donanması ilə əlaqə yaratmaq məqsədilə Suriya istiqamətində yürüşə başladı. Malatya, Kahta və

Gərgər qalalarını ələ keçirərək Hələbə yaxınlaşdı. Bu zaman Uğurlu Məhəmmədin başçılığı altında Ağqoyunlu ordusu Fərat çayı üzərində yerləşən Birəciyə yürüş etdi [351, 96; 233, 106]. Bu hadisə ilə bağlı İ.H.Uzunçarşılı yazır ki, Ağqoyunlu hökmdarı 1472-1473-cü illər arasında Venesiyanın göndərmiş olduğu odlu silahları əldə etmək üçün Fərat çayının sağ sahilindəki Məmlük torpaqlarına — Birəcikə və Hələb şəhərinə hücum edərək Suriya vasitəsilə Aralıq dənizi sahillərinə yol açmağa çalışdı [350, 96]. Bunu Uzun Həsənin Birəciyin mühasirəsi zamanı 1473-cü il martın 1-də Neapol kralı Ferdinanda yazdığı və G.Barbaro vasitəsilə göndərmiş olduğu məktubu da təsdiq edir. Məktubda deyilirdi: «...Məmlük sultanı ilə əvvəllər dost idik, ancaq onun pis əməlləri üzündən indi onunla düşmən olub ona qarşı hərbi yürüşə başlamağa məcbur qalmışıq. İndi mən kifayət qədər qüvvə ilə Suriyaya yürüş etmişəm. Hazırda Birəcik adlı yerdə müharibə aparırıq. Allahın inayəti ilə buranı da ələ keçirəcəyik. Bundan sonra da Allah müyəssər etsə Fərat çayını keçəcəyik» [342, 106-107; 141, 54].

Şübhəsiz ki, bu yürüş Ağqoyunlu- Məmlük münasibətlərində yenidən gərginlik yaratdı. Zülqədər hakimi Şahbudaq bəy Misir sultanı Qayıtbaydan yardım istədi. 1472-ci ilin dekabrında vəziyyəti nəzərə alan Misir sultanı Əmir Yaşbəyin komandanlığı altında ordusunu Ağqoyunlulara qarşı Birəciyə göndərdi.

Lakin Ağqoyunlu sultanı bu istəyinə nail ola bilmədi. Osmanlı sultanı Ağqoyunlu hökmdarının atdığı bu addımdan Uzun Həsənlə Misir Sultanı Qayıtbay arasındakı münasibətləri pozmaq üçün məharətlə istifadə etdi. Nəzərə almaq lazımdır ki, Sultan II Mehmedin Qaramanda möhkəmlənməsi Uzun Həsənlə yanaşı, Misir Sultanı Qayıtbayın da xoşuna gəlməmişdi. Digər tərəfdən, Maraş və Əlbistan bölgəsində hakim olan Zülqədər bəyliyi Osmanlı və Məmlik sultanlığı arasında rəqabət və ixtilaf mənbəyi oldu. Bu zaman Uzun Həsənin Venesiyaya göndərdiyi elçi Osmanlılar tərəfindən yaxalandı və Ağqoyunlu sultanının məktubu ələ keçirildi. Məktubda Osmanlılar və Məmlüklər əleyhinə Avropa dövlətlərinə ittifaq təklif olunur, Ağqoyunluların

qurudan, onların isə dənizdən hücum etmələri təklif edilirdi [351, 96-97; 222, 61]. II Mehmed Məmlük sultanı ilə münasibətləri qaydaya salmaq və onu Ağqoyunlulara qarşı mübarizəyə sövq etmək məqsədilə həmin məktubu elçisi vasitəsilə Qahirəyə çatdırdı. Bununla da, II Mehmed Ağqoyunlulara qarşı müharibədə Məmlük sultanının bitərəf qalmasına təminat almağa çalışdı [233, 526]. Bu məsələ ilə bağlı Ənvər Qonuqçu qeyd edir ki, bir tərəfdən Osmanlılarla rəqabət Uzun Həsəni Misir hökmdarı ilə daha yumşaq davranmağa vadar edirdi. Digər tərəfdən isə, Venesiya ilə əlaqə yaratmaq üçün Aralıq dənizinə çıxmağa məcbur olan Uzun Həsənə Misir və Suriya hökmdarı Qayıtbayın nəzarətində olan Fərat çayının sağ sahilindəki ərazilər maneçilik törədirdi. Buna görə də, Uzun Həsən Məmlüklər əleyhinə mübarizəyə başlayaraq öz torpaqlarını genişləndirməyə məcbur idi [252, 14]. Ə.Qonuqçunun fikrincə, Misir sultanı Qayıtbayın Əmir Yaşbək əl-Davadarın rəhbərliyi ilə göndərdiyi ordu Ağqoyunluları Birəcikdən uzaqlaşdırdı. Bu zaman Qahirəyə göndərilən Osmanlı elçisi xristianlarla müttəfiq olan Uzun Həsənə qarşı düşmənçiliyi qızışdırmağa çalışsa da, Misir sultanı Qayıtbay ehtiyatlı davrandı [252, 14; 141, 54].

Osmanlı sultanı ilə münasibətlərdə gərginliyin xeyli artdığını nəzərə alan Uzun Həsən əsas diqqətini bu məsələyə yönəltdiyindən Uğurlu Məhəmməd Məmlüklərlə döyüşdə ciddi uğur qazana bilmədi. 1473-cü ilin aprelində o, Əmir Yaşbəyin hücumu qarşısında dayana bilməyərək Birəciyi tərk etdi və Fərat çayı boyunca geri çəkilməyə məcbur oldu [231, 122; 356, 114-115; 363, 77; 215, 79; 91, 106].

Ş.Turanın fikrincə, Ağqoyunlu ordusunun Birəciyi mühasirəyə alması ilə bağlı aralarında ixtilafın ortaya çıxması üzündən Misir sultanı Qayıtbay Ağqoyunlu-Məmlük münasibətlərində yaranmış gərginliyi aradan qaldırmaq üçün təşəbbüs göstərdi. O, 1473-cü ilin iyulunda öz elçisini sülh təklifi ilə Ağqoyunlu hökmdarının Ərzincandakı hərbi düşərgəsinə göndərdi. Uzun Həsən Məmlük elçisinə Sultanın arzu etdiyi hər şeyi etməyə hazır olduğunu bildirərək onun sülh təklifini qəbul etdi və

Məmlük elçisi ilə bərabər öz elçisini də Misir sarayına göndərdi [342, 120; 141, 55].

Lakin, Azərbaycan Ağqoyunlu dövləti ilə Misir Məmlük dövləti arasındakı gərginlik tamamilə aradan qalxmadı. 1474-cü ilin mayında Uğurlu Məhəmməd mərkəzi hakimiyyətə qarşı Şirazda qiyam qaldıran zaman Məmlük sultanı onu müdafiə etdi. İ.H.Uzunçarşılı yazır ki, Uzun Həsənin Məmlük dövlətinin şimal sərhədlərinə intensiv hücumlarını nəzərə alan Məmlük sultanı Uğurlu Məhəmmədin müraciətindən istifadə edərək onun istədiyi köməyi verdi və onu İraq tərəfə göndərdi [351, 105]. Lakin, Uğurlu Məhəmməd məğlub oldu və qardaşı Maqsud Mirzənin idarə etdiyi Bağdada sığındı. Lakin o, burada gözlədiyi yardımı ala bilmədiyi üçün Urfa valisi Uveysin idarə etdiyi torpaqlara keçdi. Bu zaman Məmlük qüvvələri də ona qatıldı. Onun Hələb valisinə sığınması Uzun Həsənin Hələbə yürüş etməsinə səbəb oldu. 1475-ci ilin iyulunda Ağqoyunlu ordusu Uğurlu Məhəmmədi məğlub etdi və Hələb valisi İnal əl-Hakimi öldürdü. Hələb valisinin öldürülməsi Sultan Qayıtbayı narahat etdi. Uzun Həsən bu hadisədən sonra Misir sultanı ilə münasibətlərin daha da gərginləşməsinə yol verməməyə çalışaraq digər tədbirlərə əl atmadan geri döndü [317, 25; 231, 123; 171, 79].

Uğurlu Məhəmməd atasının göndərdiyi quvvələrlə döyüşdə yaralansa da, qaça bildi. İ.H.Uzunçarşılının fikrincə, o, anasını Məmlük sultanı Məlik Əşrəf Qayıtbayın yanına göndərərək sultandan atası ilə arasının düzəldilməsi və əvf olunmasına vasitəçilik etməsini xahiş etmişdi [351, 96]. Hadisələrin sonrakı inkişafı göstərir ki, Ağqoyunlu şahzadəsi Məmlük sultanından verilən təklifə müsbət cavab almadığı üçün Osmanlı sultanı II Mehmedə sığınmaq məcburiyyətində qalmışdır. Misir sultanının bu prosesə müdaxilədən çəkinməsinə baxmayaraq, Uzun Həsənlə Qayıtbay arasındakı siyasi münasibətlərdəki gərginlik aradan qaldırılmadı [141, 55].

1478-ci ildə Uzun Həsənin ölümündən sonra Ağqoyunlu taxt-tacında öncə oğlu Sultan Xəlil, sonra isə Sultan Yaqub möhkəmləndi. Sultan Yaqubun (1478-1490) hakimiyyəti döv-

ründə Ağqoyunlularla Misir Məmlükləri arasındakı siyasi gərginlik hələ də davam edirdi. S.Ərşahin yazır ki, bu zaman Sultan Yaqubun hakimiyyəti üçün ən ciddi təhlükəni məhz xaricdən Məmlüklər yaratdı. 1480-ci ilin noyabrında Əmir Yaşbəyin komandanlığı altında Məmlük ordusu Urfaya – Ağqoyunlular üzərinə yürüş etdi. Mosullu Xəlilin, Süleyman Bicənin və Bayandur bəyin komandanlığı altında Ağqoyunlu ordusu Urfa yaxınlığında məmlükləri ağır məğlubiyyətə uğratdı və Yaşbəy əsir alındı. Bayandur bəyin əmri ilə Yaşbəy edam edildi [317, 26; 215, 79, 116; 231, 130; 357, 261-262; 74, 96-97].

Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci Məmlük sərkərdəsi Yaşbəyin Ağqoyunlu ərazisinə yürüşü barədə yazır: «Uzun Həsənin ölümündən sonra Yaşbəy Dəvatdar Əcəm torpaqlarını işğal etmək qərarına gəldi. O, Misir, Dəməşq və Hələbin 100 minlik süvari və piyada ordusunu toplayaraq Fərat çayını keçdi və Ruhanı mühasirəyə aldı… Əmir Qütbəddin Bəkdaş qəhrəmanlıq möcüzəsi göstərərək Yaşbəyin 40 minlik ordusuna ciddi müqavimət göstərdi. Yaqub bu yaramazı cəzalandırmaq üçün Bayandur bəyi, Süleyman bəy Bicəni və Xəlil bəy Bəkdaşı Diyarbəkr yolu ilə yardıma göndərdi… Gəlib yetişən əmirlər Yaşbəyə çapar göndərərək heç bir səbəb olmadan xeyirxah müsəlmanların müqəddəs ramazan ayında yürüş etməsinə izahat tələb etdi. Ancaq Yaşbəy Urfanı ələ keçirmək üçün hücumu daha da artıraraq ordusunu Ağqoyunlu əmirlərinə qarşı çevirdi» [68, 61-62; 141, 56].

Fəzlullah ibn Ruzbehen Xunci Məmlüklərlə Ağqoyunlular arasında baş verən döyüşü ətraflı təsvir edərək yazır ki, Yaşbəy ordusunun sağ cinahınında Qansu Yəhyəvinin rəhbərliyi altında Dəməşq əmirləri, sol cinahında Özdəmirin başçılığı altında Hələb əmirləri, mərkəzdə isə Yaşbəyin seçmə ordusu və sultanın mühafizə qüvvələri yerləşmişdi. Ağqoyunlu ordusunun mərkəzində Bayandur bəy, sağ cinahda Süleyman bəy, sol cinahda isə Xəlil Bəkdaşın qüvvələri yer almışdı. Misirlilər Ağqoyunlu qoşununun mərkəzi hissəsini yarmağa çalışsalar da, buna nail ola bilmədilər. Nəticədə Misir ordusu məğlub oldu. Əmir Yaşbəy

Qansu Yəhyəvi, Özdəmir, Dəməşq darğası, Hələb naibinin müavini və digər əmirlər ilə birlikdə əsir düşdü. Yaşbəyi gecə edam etdilər və onun başını Dəməşq və Hələb əmiri ilə birlikdə Sultan Yaquba göndərdilər [68, 62; 141, 56]. Şübhəsiz ki, Ağqoyunluların əldə etdiyi bu qələbə Ağqoyunlu-Məmlük münasibətini xeyli gərginləşdirdi. Hətta, Ağqoyunlu sultanı tərəfindən Məmlük əsirlərinin azad edilməsinə baxmayaraq, sonrakı bir neçə ay ərzində Sultan Yaqubla Sultan Qayıtbay arasındakı münasibətlərdəki gərginlik qalmaqda davam etdi [204,132]. Lakin bir müddət sonra Osmanlı şahzadəsi Cem Sultana sığınacaq verdiyi üçün Sultan II Mehmedlə münasibətləri pisləşən Sultan Qayıtbay əsirlərin qarşılıqlı şəkildə dəyişdirilməsi və Sultan Yaqubun baş vermiş hadisə ilə bağlı üzürxahlığını bildirməsi nəticəsində Ağqoyunlu dövləti ilə münasibətləri yaxşılaşdırdı və Ağqoyunlu Həcc karvanının ziyarətə ketməsinə icazə verdi [356, 141; 215, 116].

XV əsrin 80-ci illərinin ortalarında Azərbaycan Ağqoyunlu hökmdarı Sultan Yaqubla Misir hökmdarı Sultan Qayıtbay arasındakı münasibətlərdəki gərginlik xeyli azaldı. Buna səbəb, bu zaman Məmlük dövləti üçün real təhlükəyə çevrilən Osmanlı imperiyasına qarşı mübarizədə Ağqoyunlu hökmdarı ilə birləşmək zərurətinin yaranması idi. İ.Erdəm və K.Paydaş yazır ki, Sultan Yaqub 1486-cı ilin yayında Səhənd yaylağında olarkən, Misirdən göndərilən Şərbətdar Qayıt adlı bir elçi Məmlük hökmdarı Qayıtbayın məktubunu ona çatdırdı. Göndərilən bu məktubda Məmlük ordusunun Osmanlılar üzərindəki qələbəsindən bəhs olunurdu. Elçi iyulun ortalarında Ağqoyunlu hökmdarı tərəfindən qəbul olundu [204, 135]. Sultan Qayıtbayın Ağqoyunlu dövlətilə qarşılıqlı siyasi münasibətləri inkişaf etdirmək arzusunda olduğunu dövrün mühüm qaynağı da təsdiq edir. Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, 1486-cı ilin iyulunda Misir sultanı öz elçisi Qanum Şərbətdarı* Sultan Yaqubun yanına gön-

---

* Mənbənin məlumatından aydın olur ki, Məmlük sultanı Qayıtbəyin Ağqoyunlu sarayına göndərdiyi elçinin adı Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Qayıt Şərbatdar deyil, Qanum Şərbatdar olmuşdur.

dərdi. Ağqoyunlu sarayına gələn Məmlük elçisi, Misir sultanının dostluq məktubunu Ağqoyunlu hökmdarına təqdim edərək məmlüklərin osmanlılar üzərindəki qələbəsi barədə xoş xəbəri ona çatdırdı. Vəzir Qazi Səfiyəddin İsa Savəci tərəfindən cavab məktubu hazırlandı. Ağqoyunlu hökmdarının məktubunda növbəti il öz elçisini Qahirəyə göndərəcəyi vəd edilirdi. Misir sultanının elçisi həmin ilin avqustunda geriyə qayıtdı [68, 60-70; 92, 90; 141, 56-57].

1487-ci ilin martında Ağqoyunlu hökmdarı Sultan Yaqub vəd etdiyi kimi öz elçisi əmir Əxi Fərəci Sultan Qayıtbayın yanına göndərdi. İ.Erdəm və K.Paydaşın məlumatına görə, Sultan Yaqub bir il əvvəl verdiyi sözə əməl edərək, 1487-ci il qışın sonunda aralarındakı dostluq əlaqələrini möhkəmləndirmək məqsədilə Sidi Əli oğlu Əxi Fərəci xüsusi məktubla Məmlük sultanı Qayıtbayın yanına göndərdi. 1487-ci ilin martında Təbrizdən yola düşən Ağqoyunlu elçisi Məmlük hökmdarı tərəfindən yaxşı qarşılandı. Əxi Fərəcə məşhur xəttat Yaqut əl-Müstəsim tərəfindən yazılmış Quran nüsxəsilə yanaşı, digər nadir hədiyyələr və məktub verilərək geri göndərildi [204, 135-136]. Əxi Fərəcin Məmlük sultanı tərəfindən təmtəraqlı şəkildə qarşılanmasını Ağqoyunlu tarixçisi Fəzlullah ibn Ruzbehan Xunci də təsdiq edir. O, əlavə olaraq qeyd edir ki, avqustun 30-da Təbrizə geri gönən Əxi Fərəc Qayıtbayın cavabını və qəbul zamanı ona göstərilən ehtiramı Sultan Yaquba xatırlatdı [68, 71; 141, 57].

F.R.Xuncinin verdiyi məlumatlara görə, XV əsrin sonlarında da Ağqoyunlu dövləti ilə Misir Məmlük sultanlığı arasında qarşılıqlı diplomatik əlaqələr davam etmişdi [68, 71].

1490-cı ildə Azərbaycan Ağqoyunlu hökmdarı Sultan Yaqubun ölümündən sonra hakimiyyət uğrunda aramsız mübarizənin başlanması nəticəsində Ağqoyunlu-Məmlük münasibətlərində müəyyən soyuqluq yarandı. Şübhəsiz ki, buna səbəb Ağqoyunlu sarayında baş verən siyasi çəkişmələrin dövlətin fəal xarici siyasi əlaqələrini arxa plana keçirməsi oldu. Həmçinin, bu zaman Osmanlı dövlətinin hərbi-siyasi təzyiqləri qarşısında ümidsiz vəziyyətə düşən Məmlük sultanı xeyli zəifləyən Ağqo-

yunlu dövlətini potensial müttəfiq kimi görmürdü. Şübhəsiz ki, bu zaman Osmanlılarla Məmlüklər arasında Zülqədər bəyliyi uğrunda mübarizənin yenidən kəskinləşməsi və 1492-ci ildə Sultan Qayıtbayın ölümü ilə Məmlük taxt-tacı uğrunda tanınmış əmirlər arasında çəkişmələrin başlanması Ağqoyunlu-Məmlük münasibətlərinin zəifləməsinə təsir göstərdi. XV əsrin sonlarından etibarən özünün tənəzzül dövrünü yaşayan Azərbaycan Ağqoyunlu və Misir Məmlük dövlətləri bölgədə baş verən siyasi hadisələrə müdaxilə imkanlarını itirdiyi üçün güclü qonşusu olan Osmanlı dövlətinin təzyiqləri qarşısında birləşmək imkanından məhrum oldular [141, 57-58].

Beləliklə, XV əsrdə Azərbaycan Ağqoyunlu dövləti ilə Misir Məmlük sultanlığı arasında mövcud olan qarşılıqlı münasibətlərin müasir Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsinin öyrənilməsi göstərir ki, iki dövlət arasında mövcud olan münasibətlər heç də həmişə sabit olmamış, tarixi şəraitdən və bölgədə baş verən siyasi hadisələrdən tamamilə asılı olmuşdur. Beləki, iki dövlət arasındakı qarşılıqlı əlaqələrə, eləcə də siyasi maraqlara söykənən əməkdaşlığa daha çox Osmanlı dövlətinin bölgədə yeritdiyi siyasət öz təsirini göstərirdi. Ağqoyunlu və Məmlük dövlətləri Cənub-Şərqi Anadoluda siyasi nüfuz qazanmaq uğrunda gedən mübarizənin müəyyən mərhələsində müttəfiq kimi çıxış etsələr də, hər iki dövlətin siyasi maraqları bölgədə toqquşan zaman onlar arasındakı münasibətlər gərginləşərək pisləşirdi. Buna baxmayaraq, Azərbaycan Ağqoyunlu və Məmlük dövlətləri arasında mövcud olan siyasi münasibətlər qeyri-sabit və mürəkkəb olduğu üçün hətta tərəflər bir-birinə qarşı zor vasitələrdən istifadə etməkdən də çəkinmirdilər [141, 58].

### *IV.6. Azərbaycan Ağqoyunlu dövlətinin Qərbi Avropa dövlətləri ilə qarşılıqlı əlaqələri*

XV əsrin ortalarından etibarən Azərbaycanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələri siyasi xarakter almağa başladı. Bu əlaqələrin getdikcə daha çox siyasi xarakter almasının mühüm səbəblərindən biri Osmanlı dövlətinin öz ərazilərini genişlən-

dirmək siyasəti idi. Y.M.Mahmudov haqlı olaraq yazır ki, Azərbaycanın Avropa ölkələri ilə diplomatik əlaqələrinin səbəblərini aydınlaşdırmaq üçün XV əsrin II yarısında Aöqoyunlu dövləti ilə Türkiyə, habelə Qərb ölkələri ilə Türkiyə arasındakı ziddiyyətlərə ayrı-ayrılıqda nəzər salmaq, ilk növbədə bu ölkələr arasındakı iqtisadi ziddiyyətləri aydınlaşdırmaq, sonra isə bunun qanunauyğun nəticəsi olan xarici siyasi əlaqələri tədqiq etmək lazımdır [112, 74]. Azərbaycan tarixşünaslığında Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə diplomatik əlaqələri Y.M.Mahmudov tərəfindən dərindən araşdırılmışdır [Bax: 109; 110; 111; 112]. Türkiyə tarixşünaslığında isə bu məsələ Ş.Turan tərəfindən tədqiq olunmuşdur [342]. Bununla yanaşı, İ.H.Uzunçarşılı, Y.Öztuna, S.Ərşahin, İ.Erdəm və K.Paydaşın əsərlərində də bu məsəyə toxunulmuşdur [Bax: 351; 283; 215; 209].

Osmanlı dövləti 1453-cü ildə Konstantinopolun fəthindən dərhal sonra Qərbi Avropada geniş müharibələrə başladı. Sultan II Mehmed öz hərbi planlarını həyata keçirmək üçün Qərb dövlətləri arasındakı ixtilaflardan məharətlə istifadə etdi. O, əvvəlcə Türkiyənin qərbdə ən qüdrətli rəqibi olan Venesiya Respublikasını bitərəfləşdirdi. 1454-cü il aprelin 18-də Osmanlı dövləti ilə Venesiya arasında müqavilə bağlandı [342, 68-69; 112, 99]. Ş.Turan yazır ki, 1454-cü il 18 aprel müqaviləsinə baxmayaraq Osmanlı – Venesiya münasibətləri tamamilə normallaşmadı. Buna səbəb Venesiyanın "türk dostluğu" ilə "türklərə qarşı ittifaq" siyasəti arasında mütərəddid mövqeyi və vaxtı ilə Bizans imperiyasına daxil olan torpaqları nəzarət altına almağa çalışan Fateh II Mehmedin siyasəti olmuşdur [342, 69]. Venesiya respublikası II Mehmedlə bağladığı müqaviləyə görə, Kiçik Asiyada hələ Bizans imperiyası zamanı malik olduğu ticarət imtiyazlarını bərpa etdi, ona qarşı rəqabət və müharibə aparan İtaliya dövlətlərinə qarşı mövqeyini möhkəmləndirdi [112, 99]. Sultan II Mehmedin Avropada "türk təhlükəsi"nə qarşı mübarizə apara biləcək və antitürkiyə blokunun təşkilatçısı olacaq ən qüdrətli dövlətlərdən birini – Venesiyanı müvəqqəti olsa da, bitərəfləşdirməsi, Qərbdə Osmanlı işğalları üçün əlverişli şərait

yaratdı. Buna görə də, Avropa istiqamətində genişlənməkdə olan Osmanlı işğallarının ilk dövründə Qərb dövlətlərinin Osmanlı dövləti əleyhinə hərbi-siyasi ittifaqının təşkilatçısı kimi Venesiya deyil, Roma papaları çıxış etməyə başladılar [112, 100]. Papa V Nikolay (1447-1455) Konstantinopolun Osmanlılar tərəfindən fəthindən dərhal sonra, 1453-cü il sentyabrın 30-da xüsusi fərman – bulla ilə bütün Avropa xalqlarını "kafirlər"ə (türklərə - T.N.) qarşı "səlib yürüşü"nə çağırdı [351, 4-5; 112, 100]. Papa nümayəndələri Osmanlılara qarşı "səlib yürüşü" təbliğatı aparmaq üçün əksər Avropa ölkələrinə göndərildilər.

Ş.Turan yazır ki, 1458-ci ildə Uzun Həsənin Trabzon imperatoru IV Kalo İoannesin qızı Dəspinə Xatunla evlənməsi onlar arasında bir əsrdən artıq davam edən dostluq münasibətlərini daha da möhkəmləndirdi, Ağqoyunlu hökmdarı Osmanlılara qarşı Trabzonu müdafiə etməklə Osmanlı sultanı ilə ixtilafa sürükləndi. Buna görə də, Uzun Həsən papanın Osmanlılara qarşı təşkil etməyə çalışdığı ittifaqa meyl etdi. Papa III Kaliktsin (1455-1458) elçisi fransiskans rahibi Lüdoviq Trabzon və Gürcüstandan sonra, 1459-cu ildə Diyarbəkrə gələrək Ağqoyunlu hökmdarını Osmanlılara qarşı yaradılacaq ittifaqa qoşulmağa dəvət etdi. Bu təklifi müsbət qarşılayan Uzun Həsənin Lüdoviq, Trabzon və Gürcüstan elçiləri ilə bərabər yola saldığı elçisi Alman imperatoru III Fridrixə Osmanlı sultanına qarşı müharibəyə Uzun Həsənin 50 min nəfərlik qüvvə hazırlayacağını bildirdi. Elçi 1460-cı ilin dekabrında Romaya gələn zaman papa II Piyə (1458-1464) xristian dövlətlərin qərbdə eyni vaxtda Osmanlılar əleyhinə müharibəyə girməsi şərti ilə Uzun Həsənin şərqdə hərəkətə başlayacağını vəd etdi [342, 65-66; 326, 263; 112, 105-106]. Beləliklə, Ağqoyunlu dövləti Avropa dövlətləri ilə diplomatik əlaqələrə cəlb olundu.

Lakin papaların bütün səylərinə baxmayaraq, XV əsrin 50-ci illərində Avropada vahid antitürkiyə bloku yaratmaq mümkün olmadı. Qərb dövlətləri arasında dərin ixtilafların olması, Balkan slavyanları və yunanlar arasında katolik məzhəbinə olan dərin nifrət və Roma papalarının keçmiş nüfuzunu itirməsi bu ittifaqın

yaradılmasına imkan vermədi. Bununla belə, II Mehmedin işğalları genişləndikcə Qərb dövlətləri arasında vahid antitürkiyə bloku yaradılması barədə danışıqlarda fəallıq artır, Osmanlılara qarşı birgə mübarizə cəbhəsinə yeni-yeni dövlətlər qoşulurdu [112, 102].

Ş.Turan yazır ki, II Mehmedin Amasra və Sinopdan sonra Trabzonu zəpt etməsi bu ittifaq təşəbbüslərini xeyli sürətləndirdi. Trabzonun Osmanlılar tərəfindən tutulması xəbərini alan Venesiya senatı Macarıstanda olan Pietro Tomasoya 1461-ci il oktyabrın 26-da göndərdiyi təlimatda kral Matiaş Korvinin diqqətini Avropa üçün təhlükə yaradan türk təhlükəsinə qarşı yönəltməyi tapşırmışdı. Papa II Piy məlumatlandırılmış və Fransaya iki elçi göndərilmişdi. Lakin Fransa kralı XI Lüdovik imperator III Fridrixlə Matiaş Korvin arasında ixtilaf olduğu üçün Almaniya yolunun onun üçün bağlı olduğunu, yalnız öz qüvvələrini Genuya üzərindən şərqə göndərə biləcəyini bildirərək, dərhal yardım göstərə bilməyəcəyini söylədi. 1462-ci il oktyabrın 11-də Venesiyaya gələn macar elçisi ilə danışıqlar da bir nəticə vermədi. Venesiya bütün xristian dövlətlərin birləşmədiyi bir ittifaqla II Mehmedin yürüşlərini dayandırmağın mümkün olmayacağını, əksinə Levantdakı maraqlarına ziyan dəyəcəyini düşündüyü üçün Bosniya kralı Stepan Tomaseviçin 1463-cü il 28 fevralda ittifaq təklifini soyuq qarşıladı [342, 70]. Lakin Osmanlı sultanının Balkan yarımadası və Egey hövzəsində möhkəmlənməsi ilə Osmanlı – Venesiya ziddiyətləri son həddə çatdı. Osmanlı qoşunları Venesiyanı Moreyanın sahil məntəqələrindən, ümumiyyətlə Egey hövzəsindən də sıxışdırmaqda idi. Bu, Venesiya doju Kristofor Moronu (1462-1471) təcili Florensiyaya "türk təhlükəsinə qarşı birləşmə"yi təklif etməyə vadar etdi. Lakin Florensiya Levantdakı təbəələrini təhlükəyə atmamaq üçün Osmanlılara qarşı müharibə təklifinə müsbət yanaşmadı. Bununla belə, Şərq ticarətində vasitəçilikdən əli çıxan Venesiya respublikasının vaxtı ilə Aralıq dənizi və Egey hövzəsində ələ keçirdiyi mühüm hərbi-siyasi məntəqələri itirməsi, onu Osmanlı dövləti ilə müharibəyə başlamağa vadar etdi [342, 70;

112, 102]. 1463-cü il iyulun 28-də 16 ilə qədər davam edən (1463-1478) Venesiya-Osmanlı müharibəsi başlandı. Ş.Turan yazır ki, Venesiyanın 1454-cü il sülhünə riayət etməməsi və sahibindən oğurladığı pulla Korona qaçan türk əsirini təhvil verməməsi Moreyadakı Osmanlı qüvvələrinin 1463-cü il aprelin 3-də Venesiyaya məxsus Arqosu ələ keçirməsinə və Osmanlı – Venesiya müharibəsinin başlamasına təkan verdi [342, 70].

Müharibənin başlanması ilə Qərbdə antitürkiyə blokunun yaradılmasına yönəlmiş danışıqlarda müəyyən canlanma əmələ gəldi. Venesiyanın Osmanlılar əleyhinə ittifaqa girmək çağırışına ilk səs verən Macarıstan oldu. Macarıstan gec-tez Osmanlı təcavüzünə məruz qalacağından ehtiyat edirdi. Buna görə də, 1463-cü il sentyabrın 12-də Venesiya ilə Osmanlılara qarşı ittifaq bağladı. Dekabrın 9-da Venesiya respublikası ilə Papalıq və Burqundiya hersoqluğu arasında da ittifaq bağlandı [351, 112; 233, 522; 342, 71; 112, 103]. Ş.Turan yazır ki, Venesiya senatı II Mehmedə qarşı müharibədə yardım almaq üçün nəzər diqqətini Avropadan şərqə çevirmiş, Qaramanoğlu İbrahim bəy və Uzun Həsənlə ittifaq bağlamağı münasib bildi. Venesiya hökuməti Osmanlı dövlətinə qarşı Asiyada Qaraman bəyliyi və Ağqoyunlu dövləti ilə ittifaqa girməyi qərara aldı. 1463-cü il dekabrın 2-də Venesiya senatı 3 nəfər əleyhinə, 6 nəfər bitərəf qalmaqla 110 səslə Osmanlı dövlətinə qarşı Qaramanoğlu İbrahim bəy və Ağqoyunlu Uzun Həsənlə ittifaq yaratmağa qərar verdi.* Bu zaman Kiprdə olan Venesiyalı Andrea Kornaroya göndərilən təlimatda onun Ağqoyunlu sarayına getməsi tapşırıldı. Əgər o, gedə bilməzdisə Lazaro Kvirinonu elçi göndərməli idi. [342, 73-74]. Lazaro Kvirinonu Uzun Həsənin yanına yola salan Andrea Kornaro Rodosdan Qaramana keçərək İbrahim bəylə görüşdü. Lakin 1464-cü ilin əvvəllərində İbrahim bəyin ölümü və hakimiyyətə oğlu İshaq bəyin keçməsini xəbər

---

* Y.M.Mahmudov yazır ki, Senatda müzakirələr zamanı Osmanlı dövlətinə qarşı Ağqoyunlularla ittifaqa girmək barədə qərarın lehinə 110, əleyhinə 16 nəfər səs vermiş, 3 nəfər bitərəf qalmışdı [bax: 112, 107].

alan Venesiya senatı onu təbrik etmək və atasının Andrea Kornaro ilə bağladığı ittifaqı təsdiq etmək üçün Qaramana yeni elçi göndərdi. Digər tərəfdən senat Uzun Həsənə yenidən məktub yazılmasını və ona Venesiya donanmasının Türkiyəyə qarşı hərəkətə başlamağa hazır olduğunu çatırmağı münasib bildi [342, 75] .

Sultan II Mehmedin başını daim Qərb dövlətləri ilə müharibəyə qarışdırmaq siyasəti yeridən Uzun Həsən isə, hələ Lazaro Kvirino Ağqoyunlu sarayına çatmamış öz elçilərini İtaliyaya göndərdi. Uzun Həsənin Venesiya doju Kristofor Moraya yazdığı məktubunu gətirən elçisi Katib Məhəmməd Hələb-Rodos yolu ilə 1464-cü il mayın 13-də Venesiyaya çatdı.* Ağqoyunlu dövləti ilə Venesiya arasında əldə olunmuş razılığa əsasən Venesiya donanması dənizdən, 60 min nəfərlik Uzun Həsən süvariləri isə qurudan İstanbul istiqamətində hücuma keçməli, tərəflər bir-biri ilə razılaşdırılmadan Osmanlı dövləti ilə sülh bağlamamalı idilər [342, 76; 112, 107]. Ş.Turan yazır ki, Venesiya Uzun Həsənin elçisinin təklifini ciddi qəbul etsə də, Qaramanoğlu İbrahim bəylə əldə olunmuş ittifaqı təzələmək üçün İshaq bəylə aparılan danışıqların hələ başa çatmadığı, Osmanlılara qarşı səlib yürüşü layihəsinin rəhbəri papa II Piyin gözlənilmədən vəfat etməsi Ağqoyunlu elçisi Katib Məhəmmədə qəti cavab verilməsini ləngidirdi. Lakin bir müddət sonra İshaq bəylə müəyyən razılığın əldə olunması və yeni papa II Pavelin (1464-1471) Osmanlılara qarşı xaç yürüşlərini davam etdirəcəyini bəyan etməsi "Osmanlılara qarşı ittifaq" məsələsindəki "böhranı" aradan qaldırdı [342, 77-78].

1464-cü il sentyabrın 26-da Venesiya senatı Ağqoyunlu-Venesiya ittifaq müqaviəsini təsdiq etdi. Venesiya Uzun Həsənin fəth edəcəy bütün Osmanlı torpaqlarını ona vəd edir,

---

* Y.M.Mahmudov Ağqoyunlu elçisinin 1464-cü il martın 13-də Venesiyaya çatdığını qeyd edir [112, 107]. Lakin Ş.Turan yazır ki, Q.Berşe ilk kitabının ön sözündə bu tarixi qeyd etsə də, sonralar ikinci kitabında vəsiqələri xronoloji ardıcıllıqla düzən zaman həmin tarixi 13 may kimi təqdim etmişdir [342, 75 qeyd 36.].

Kiçik Asiyanın Aralıq dənizi sahili boyunca ərazilərini, xüsusilə buradakı liman şəhərlərini isə özünə götürürdü. Senatın həmin yığıncağında Venesiya hökumətinin Ağqoyunlu hökmdarına yazdığı məktub müzakirə olundu. Venesiya ilə Uzun Həsən arasında ittifaqın rəsmi sənədi olan bu məktubda deyilirdi: "Hakimanə və lütfükar məktubunuzu aldıq; katibiniz və elçiniz Məhəmməd də müştərək və amansız düşmənimiz Osmanlıya qarşı bizimlə birlikdə hərəkət etmək niyyətində və qərarında olduğunuzu şifahi şəkildə çatdırdı. Böyük hökmdara layiq olan bu fikirlər bizi məmnun etdi. Osmanlı dövləti qürürü və ehtirası üzündən yer üzərindəki dövlətləri, xüsusən də qonşu dövlətləri aradan qaldırmaqdan başqa bir şey düşünmür. Bəzən bu hökmdarlardan birini, bəzən də digərini məğlub etdiyi üçün Osmanlı sultanının bütün dövlətləri devirmək və öz qüdrətini artırmaq barədə arzusu getdikcə güclənməkdədir. Buna görə bizim və digər xristian hökmdarların onunla müharibə apardığı bir vaxtda sizin də bütün qüvvələrinizlə o tərəfdən dərhal hərəkətə keçməniz, özünüzün və digərlərinin xilası üçün onun məğlub edilməsində iştirak etməniz vacibdir. Xristianların başçısı və eyni zamanda hökmdar olan yeni papa Osmanlı dövlətinin ortadan qaldırılması üçün lazım olan hər işi görməkdədir. Burqundiya hersoqu və digər xristian hökmdarlar da həmin məqsədlə hərəkət edirlər. Biz aramızda müəyyən razılığa gəldiyimiz üçün dənizdə çox qüvvətli donanmamız, Moreya və Albaniyada quru qoşunlarımız vardır. Digər tərəfdən, Macarıstan kralı da Osmanlılarla müharibə aparır. Osmanlı sultanının bütün bunlara müqavimət göstərməsi mümkün deyildir. Bununla bərabər siz nə qədər tez hərəkətə başlasanız o tərəflərdəki torpaqlarınızı asanlıqla ələ keçirərsiniz. Bundan sonra sizin fəth edəcəyiniz bütün yerlərin tamamilə sizə aid olmasını məmnuniyyətlə qəbul edirəm. Elçiniz baş verən hadisələr və ümumi düşmənə qarşı xristianların irəliləməsi haqqda ona verdiyimiz məlumatları sizə çatdıracaqdır" [342, 79-81; 112, 107].

Ş.Turanın fikrincə, Venesiya doju Kristofor Moronun 1464-cü il sentyabrın 26-da yazılmış bu məktubunda Uzun

Həsənin hər iki tərəfin iştirakı olmadan Osmanlı sultanı ilə hər hansı bir sülhün bağlanmayacağı haqqda təklifi ilə bağlı hər hansı bir qeydin olmaması diqqəti cəlb edir. Görünür Venesiya senatı elçi Katib Məhəmmədlə aparılan müzakirələrdə qəbul edilən bu tələbi müəyyən sərbəst hərəkət etmək niyyəti ilə məktuba daxil etməmişdi* [342, 81].

Danışıqları uğurla başa çatdıran Ağqoyunlu diplomatı vətənə qayıtmaq üçün Venesiyadan gəmilərlə Rodosa gəldi, admiral Pyetro Moçeniqo Venesiyanın Aralıq dənizindəki hərbi dəniz qüvvələrini Ağqoyunlu diplomatına nümayiş etdirdi və bildirdi ki, qarşıdakı müharibədə həmin donanma Uzun Həsənin sərancamına əsasən hərəkət edəcəkdir [342, 81; 112, 108].

Ağqoyunlu dövlətinin Qərb ölkələri ilə əlaqələrinin genişlənməsinə Osmanlı imperiyası ilə ziddiyyətlər öz təsirini göstərirdi. XV əsrin 50-60-cı illərində Uzun Həsən Trabzon yunan dövləti, Papalıq və Venesiya Respublikası və onların vasitəçiliyi ilə həmçinin, Kipr, Rodos, Macarıstan, Albaniya və b. dövlətlərlə diplomatik əlaqələr yaratmışdı.

Osmanlı sultanı II Mehmed ona qarşı yönəlmiş ittifaqı daxildən parçalamaq, Venesiyanın rəqibi olan İtaliya dövlətlərini onun əleyhinə qaldırmaq, "türklərə qarşı birgə hərəkət" layihəsinin gerçəkləşməsinə yol verməmək üçün diplomatik fəaliyyəti gücləndirdi. Hələ Uzun Həsənin elçisi Katib Məhəmməd Venesiyada olarkən Neapol kralı I Ferdinanda qızıl, gümüş və ipək parçalar, at və ov itlərindən ibarət hədiyyələrlə birlikdə öz elçisini göndərdiyi kimi, Milanı Venesiya əleyhinə təhrik etmək üçün də elçi göndərdi. Bununla yanaşı o, 1465-ci ilin yazında Pir Əhmədi Qaraman taxtına oturtmuş, İshaq bəy Ağqoyunlu sarayına sığınmağa məcbur qalmışdı. Qaramanı nəzarət altına alan II Mehmed Venesiya ilə Uzun Həsən arasındakı ən mühüm

---

* Ş.Turan yazır ki, dövrün tanınmış annalistlərindən olan D.Malipiyero Ağqoyunlu elçisinin bütün tələblərinin qəbul edildiyini və Uzun Həsənin iştirakı olmadan Osmanlılarla heç bir sülhün əsla bağlanmayacağı, Asiyada Ağqoyunlular tərəfindən ələ keçiriləcək yerlərin tamamilə ona, Venesiya donanmasının fəth edəcəyi yerlərin də Venesiyaya aid olacağını qeyd edir [342, 81 qeyd 49].

əlaqə yolunu da kəsmişdi [342, 82-83].

Qaramanoğlu İshaq bəyi Osmanlı müdaxiləsindən müdafiə edəcəklərinə təminat verən Venesiya və Ağqoyunlu dövləti bu hadisəyə seyriçi qalmışdı. Uzun Həsənin başlıca rəqibi Qaraqoyunlu Cahanşahla mübarizəyə başlaması, Venesiynın isə müharibə və ya sülh məsələsi arasında tərəddüd keçirərək barışığa ümidini kəsməməsi buna öz təsirini göstərmişdir. Vəziyyətdən istifadə edən II Mehmed Qaraman bəyliyinə son qoyaraq bölgəni tamamilə nəzarət altına almışdı.

Ş.Turan yazır ki, 1466-ci ildə II Mehmedin İshaq bəyin yerinə Pir Əhmədi hakimiyyətə gətirməsinə mane olmayan Uzun Həsən Venesiyaya Həsən Əzən adlı elçisini göndərdi. O, Venesiya dojuna göndərdiyi məktubunda Osmanlı dövlətinə qarşı müharibəyə hazır olduğunu, lakin müharibəyə başlaması üçün Venesiyanın digər xristian dövlətləri ilə birlikdə hərəkətə başlaması tələb olunurdu. Görünür bu dövrdə Fateh II Mehmedlə müharibə aparmaq üçün kifayət qədər qüvvəsi olmayan Uzun Həsən Osmanlı torpaqlarına təcavüzə başlamaq, Qaramanı yenidən öz nüfuzu altına almaq üçün Venesiya və digər müttəfiqlərinin qərbdə hərbi əməliyyatlara başlayaraq Osmanlı sultanını məşğul etməsini münasib görmüşdü [342, 83-84]. Lakin Ağqoyunlu elçisi Venesiyaya gələn zaman senat müharibədən daha çox sülh məsələləri ilə məşğul idi. Buna görə də, Uzun Həsənin elçisinə dərhal cavab verməyərək, sülh danışıqlarının sonunu gözləməli oldu. Venesiyanın Osmanlı ordusunun müharibənin gedişində ələ keçirdiyi Midilli ilə birlikdə Moreyanın verilməsini tələb etməsi noyabrın ortalarına kimi davam edən danışıqların kəsilməsi ilə nəticələndi. Bununla belə, 1466-cı ilin əvvəllərində Venesiya ilə Osmanlı dövləti arasında yenidən başlayan sülh danışıqları kəsildiyi üçün Venesiya senatı Uzun Həsənin elçisi Həsən Əzəni daha çox gözlətməmək üçün Ağqoyunlu hökmdarının adına yazılmış məktubla onu ölkəsinə göndərməyə qərar verdi. Venesiya hökuməti 1466-cı il 27 fevral tarixli cavab məktubunda öz müttəfiqinə Osmanlı dövlətinə qarşı mübarizədə daha əzimli olduğunu, xristian hökmdarlar ara-

sında yaradılmış ittifaqa böyük ümid bəslədiyini vurğulayaraq, Ağqoyunlu hökmdarından xahiş edirdi ki, Kiçik Asiya hakimlərini də antitürkiyə blokuna cəlb etsin [342, 84; 112, 108].

Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Venesiya və Ağqoyunlu dövlətinin başçılıq etdikləri bu ittifaqa qoşulan dövlətlər Osmanlı imperiyasına qarşı vahid cəbhədə çıxış etmədilər. Y.M.Mahmudovun qeyd etdiyi kimi, antitürkiyə blokunun qərbdəki üzvləri arasında dərin ixtilaflar vardı. Hətta, Türkiyə ilə müharibə vəziyyətində olmasına baxmayaraq, özünün İtaliyadakı rəqiblərindən ehtiyat edən Venesiya respublikasının özü belə, Osmanlılara qarşı tam qüvvə ilə çıxış etmirdi. Venesiya hökuməti bu zaman öz düşmənini, əsasən Ağqoyunluların əli ilə məğlub etmək siyasəti yeridirdi [112, 109].

Ş.Turanın fikrincə, Venesiya 1467-1468-ci illərdə Fateh II Mehmedlə səmərəsiz sülh danışıqlarına təşəbbüs göstərdiyi üçün Venesiya-Ağqoyunlu münasibətlərində ciddi irəliləyiş baş vermədi. Bu dövrdə antitürkiyə blokuna daxil olan İtaliya dövlətləri 100 min qızıl florini toplamaq məsələsində ümumi razılığa gəlmədiyi üçün Osmanlı imperiyasına qarşı birgə hərəkət etmək təşəbbüsü puça çıxdı. Venesiyanın II Mehmedlə sülh danışıqlarına başlamaq cəhdi uğursuz olduğu üçün elçi Giovanni Kapello 1469-cu il avqustun 17-də İstanbulu tərk etməli oldu [Bax: 342, 85-87]. Venesiya hökuməti sülh təşəbbüsünün uğursuz olduğunu nəzərə alaraq yenidən nəzərlərini şərqə yönəltdi. Venesiya senatı elçi G.Kapellonun İstanbuldan dönməsindən sonra admiral Nikolo da Kanaleyə Uzun Həsənin Teymuri Əbu Səid üzərində əldə etdiyi qələbəni təbrik etmək və eyni zamanda onu Osmanlılar əleyhinə müharibəyə təhrik etmək üçün elçi göndərməsini tələb etdi. Bununla da, Venesiya 1464-cü ildə Ağqoyunlu sultanı ilə əldə olunmuş ittifaqı canlandırmağa çalışdı [342, 87].

Qeyd etmək lazımdır ki, bu dövrdə görkəmli sərkərdə və diplomat olan Uzun Həsən bütün diqqətini Qaraqoyunlu Cahanşaha və Teymuri hökmdarı Əbu Səidə qarşı yönəltdi. Bu çətin mübarizədə arxadan – qərbdən təhlükəsizliyini təmin etmək üçün Avropa dövlətləri ilə, xüsusən də bu zaman Türkiyə ilə

müharibə vəziyyətində olan Venesiya ilə geniş əlaqə saxlayır, diplomatik və hərbi xarakterli vədlərlə Qərb dövlətlərini Osmanlı imperiyasına qarşı müharibəyə təhrik edirdi. Bunun nəticəsidir ki, XV əsrin 60-cı illərinin sonuna yaxın həm Qərbdə, həm də Şərqdə Osmanlı imperiyasına qarşı beynəlxalq münasibətlərdə əsaslı dəyişiklik əmələ gəlmədi [112, 110]. Əksinə Sultan II Mehmed Venesiya ilə müharibədə qəti üstünlüyü ələ keçirdi. 1470-ci il iyulun 12-də Osmanlı ordusu Venesiyaya məxsus mühüm hərbi-strateji məntəqə olan iri Aqriboz (Neqropont) adasını ələ keçirdi [342, 88; 326, 205; 112, 110]. Ş.Turan yazır ki, Aqribozun ələ keçirilməsi Venesiyada şok təsiri yaratdı. D.Malipiyeronun qeyd etdiyi kimi, "Aqribozun süqutu ilə Venesiyanın şanı və şöhrəti itirilmiş, qürüru alçalmışdı" [342, 88].

Venesiya artıq Osmanlılara qarşı müharibəni təkbaşına davam etdirməyə qadir deyildi. Odur ki, bir tərəfdən Neapol, Florensiya, Papalıq və Fransaya kömək göstərmək üçün müraciət etdi. Bu zaman İtaliyada baş verən hadisələri izləyən II Mehmed Aqribozu əldə saxlamaqla, 1470-cilin oktyabrında Venesiyaya barışıq təklif etdi. Qonşularından lazımi yardımı ala bilməyən, müharibənin ağır xərclərini ödəməkdə çətinlik çəkən Venesiyanın bu təklifi qəbul etməsindən başqa yolu qalmamışdı. Buna görə də, 1470-ci il noyabrın 27-də Nikolo Kokko və Françesko Kapellonun danışıqlar aparmaq üçün İstanbula göndərilməsinə qərar verildi. Lakin bu zaman papanın təşəbbüsü ilə Romada Osmanlılara qarşı yeni ittifaqın yaradılması barədə xəbər alındığı üçün elçilərin göndərilməsi ləngidildi. Dekabrın 22-də türklərə qarşı İtaliya dövlətlərinin ittifaqının yaradılması rəsmən elan edildi. Lakin Levantdakı gəlirlərini itirməmək və oradakı təbəələrini təhlükəyə atmaq istəməyən Florensiya elçisi ittifaqa imza atmadan Romanı tərk etdiyi kimi, Milan, Fransa və Almaniya nümayəndələri də müxtəlif bəhanələrlə ittifaq müqaviləsini təsdiq etmədilər. Bunu nəzərə alan Venesiya senatı 1471-ci il yanvarın 2-də öz elçilərini İstanbula göndərdi. Lakin Venesiya elçilərinin itirilmiş ərazilərin qaytarılmasını tələb et-

məsi danışıqların dayandırılmasına səbəb oldu. Buna görə də, Venesiyanın Uzun Həsənlə ittifaqı canlandırmaq və onu Osmanlı sultanına qarşı müharibəyə təhrik etməkdən başqa çarəsi qalmadı [342, 89-90].

Ağqoyunlu hökmdarı qüdrətli Osmanlı imperiyasının qüvvələrini iki cəbhəyə parçalamaq və Avropadan odlu silahları almağa çalışırdı. Uzun Həsən Venesiya hökuməti, Roma papası və başqa Qərb dövlətləri ilə danışıqlar aparmaq üçün 1464-cü ildən Ağqoyunlu sarayında olan Venesiya səfiri Lazaro Kvirinonu və öz elçisi Murad bəyi Avropaya yola saldı. 1471-ci ilin fevralında Venesiyaya çatan Murad bəy Uzun Həsənin məktubunu Venesiya hökumətinə təqdim etdi [342, 90-91; 112, 123]. Ş.Turanın fikrincə, Uzun Həsənin 1470-ci il avqustun 2-də Sultaniyyədə yazılan bu məktubunda deyilirdi: " ...Osmanlı sultanının oğlu Mehmed bəydən başqa yolumuz üzərində bir düşmənimiz qalmamışdır. Onu mülkündən və səltənətindən uzaqlaşdırmaq çətin deyildir. Əgər biz sizinlə ciddi əlaqə yarada bilsək, Venesiya hərbi-dəniz qüvvələri dənizdən, Ağqoyunlu süvariləri isə qurudan eyni zamanda hərbi əməliyyata başlasalar, Mehmed bəyi asanlıqla Avropa və Asiyadakı bütün torpaqlardan məhrum etmək olar" [342, 90-91; 112, 123-124]. Məktubdan göründüyü kimi, Ağqoyunlu hökmdarı 1464-cü il ittifaqına əsaslanaraq Venesiya hökumətinə II Mehmedə qarşı birgə mübarizə aparmağı təklif edirdi. Bununla yanaşı, Uzun Həsən 1471-ci il fevralın 21-də Kipr kralına, Rodos cəngavərlərinin rəisinə ərəb dilində, Alaiyyə hakiminə farsca məktublar göndərərək Osmanlıları Qaramandan çıxarmaq üçün hərəkətə keçməyə hazır olduğunu bildirirdi* [342, 91].

Venesiya hökuməti Ağqoyunlu diplomatını yaxşı qarşılasa da, ona dərhal cavab verməyə tələsmədi. Çünki bu zaman Vene-

---

* Ş.Turanın fikrincə, Uzun Həsənin göndərdiyi bu məktubların əslinin Topqapı Saray Muzeyinin arxivində saxlanılması (E.9662, 8344 və 3127) göstərir ki, məktublar Osmanlı sultanı II Mehmed tərəfindən ələ keçirilmişdir.

siya elçiləri yuxarıda qeyd etdiyimiz kimi, İstanbulda danışıqlar aparırıdılar. Y.M.Mahmudovun fikrincə, Venesiya hökuməti öz başlıca müttəfiqi olan Ağqoyunlu dövlətinin köməyi ilə Türkiyənin vəziyyətini çətinləşdirib ondan dinc yolla əlverişli ticarət imtiyazları qoparmağa çalışırdı. Odur ki, Venesiya respublikası Ağqoyunlu elçisi ilə danışıqları qəsdən uzadır, İstanbuldan cavab gözləyirdi [112, 124].

Ş.Turanın fikrincə, Uzun Həsənin təklifini məmnuniyyətlə qarşılayan, hətta Neapol kralına Ağqoyunlu elçisinin gəlişini sevinclə xəbər verən Venesiya senatı geri dönən Lazaro Kvirinonun yerinə aradakı dostluğu daha da möhkəmləndirmək məqsədi ilə 1471-ci il martın 7-də Ağqoyunlu hökmdarının yanına yeni elçi göndərməyə qərar verdi. Bu vəzifə üçün seçilən Françesko Mikele və Cayomo Medi Ağqoyunlu sarayına gediş-gəliş yollarının son dərəcə təhlükəli olduğunu bildirərək imtina etdilər. Buna görə, Venesiya hökuməti bu diplomatik vəzifəni Uzun Həsənlə qohumluq əlaqəsi olan Katerino Zenoya həvalə etdi [342, 91].

Venesiya senatı Ağqoyunlu sarayına göndəriləcək elçini müəyyən etdiyi vaxt Uzun Həsənin papa II Pavelin yanına göndərdiyi digər elçisi də aprelin əvvəllərində Venesiyaya gəldi. Ş.Turan yazır ki, qəti olaraq adının dəqiqləşdirilməsi çətin olan bu elçi (ola bilsin ki, Nikolo adlı xristian olmuşdu) yanındakı gürcü elçisi ilə birlikdə Trabzondan Akkermana, oradan da Polşaya gəlmişdi. Kral IV Kazimir də papaya elçi göndərməyə qərar verdiyinə görə, hər üç elçi Romaya getmək üçün Venesiyaya gəlmişdi. Ağqoyunlu və Gürcüstan elçiləri hökmdarlarının Osmanlı sultanına qarşı müharibəyə hazır olduqlarını bildirərək, xristian hökmdarlarının da eyni cür hərəkət etmələrinin vacib olduğunu çatdırdılar. Əsas vəzifəsi xristian hökmdarların yardımını təmin etməli olan papanın işə qarışmasını xahiş edən Uzun Həsənin elçisinə münasib cavab verildi və Romaya hərəkət etməsinə Venesiya səfirinin yardım edəcəyi bildirildi [342, 92].

Venesiya senatı 1471-ci il mayın 18-də Ağqoyunlu sara-

yına göndəriləcək Katerino Zenoya xüsusi məxfi təlimat vermişdi. Venesiya hökuməti öz müttəfiqinin – Ağqoyunlu dövlətinin xəbəri olmadan II Mehmedlə gizli – separat danışıqlar apardığından, senat üzvlərindən birinin təklifi ilə İstanbulda danışıqlar aparan Nikolo Kokko və Françesko Kapellodan dəqiq xəbər alınana qədər Katerino Zenonun Azərbaycana göndərilməsi təxirə salınmışdı [342, 92-93]. İstanbulda aparılan separat sülh danışıqları müvəffəqiyyətsizliyə uğradıqdan sonra, Osmanlı imperiyası ilə müharibəni davam etdirmək məcburiyyətində qalan Venesiya hökuməti, nəhayət Ağqoyunlu diplomatı Murad bəyə qəti cavab verməyə məcbur oldu. 1471-ci ilin sentyabrında onunla birlikdə öz səfiri Katerino Zenonu Təbrizə yola saldı [112, 129; 342, 92-93].

Ş.Turan yazır ki, papa II Pavel iyulun 26-da öldüyü üçün Romaya getmiş olan Ağqoyunlu elçisi Nikolo avqustun 9-da papa seçilən IV Sikst tərəfindən qəbul edildi. Yeni seçilmiş papa sələfləri kimi türklərə qarşı ittifaq siyasətini davam etdirəcəyini bildirərək, rahib San Françeskonu Uzun Həsənin yanına göndərməyə qərar verdi. Katerino Zenonun papanın elçisi ilə yola çıxması münasib görüldü. San Françesko Venesiyaya gələrək Katerino Zeno, gürcü və Ağqoyunlu elçiləri ilə birlikdə oktyabrın sonunda Kiprə hərəkət etdi. Ancaq Katerino Zeno bir neçə ay Rodosda gözləməli oldu. Çünki Uzun Həsənin Venesiya ilə əlaqələrindən xəbər tutan II Mehmed bir tərəfdən Venesiya ilə aparılan danışıqları uzatdı, digər tərəfdən də Qaramanoğullarını himayə etmək üçün hərəkət edəcəyini bildirən Uzun Həsəni qabaqlayaraq sədrəzəm İshaq paşanı Pir Əhmədin və Qasım bəyin nəzarətində olan Qaraman qalalarını almağa göndərdi. Məğlub olan Qaraman şahzadələri Uzun Həsənə sığındı, Venesiya donanmasının istifadə edəcəyi limanlar Osmanlıların nəzarətinə keçdi. Ağqoyunlu ölkəsinə gedən yollar Osmanlılar tərəfindən tutulduğu üçün bir müddət Rodosda gözləyən Katerino Zeno Uzun Həsənin yanından Qaramana dönən Qasım bəylə əlaqə yaradaraq Qaraman sahillərinə çıxdı və min bir çətinliklə 1472-ci il aprelin 30-da Təbrizə çatdı [342, 93].

Venesiya elçisi Ağqoyunlu paytaxtında böyük hörmətlə qarşılandı. Katerino Zeno Venesiya hökumətinin təlimatlarına uyğun olaraq Uzun Həsənin yunan arvadı Dəspinə Xatunla görüşdü, gəlişinin səbəblərini bildirdi və gətirdiyi məktubları ona təqdim etdi. Təbrizdə aparılan Ağqoyunlu-Venesiya danışıqları nəticəsində antitürkiyə koalisiyası üzvlərinin həm şərqdən, həm də qərbdən eyni zamanda Osmanlı imperiyasına qarşı müharibəyə başlaması qət olundu. Avropa müttəfiqləri ilə əldə olunmuş ümumi razılıq əsasında hərəkət edən Uzun Həsən özünün bütün hərbi qüvvələrini səfərbərliyə almağa başladı [342, 94-95; 112, 131].

Ş.Turanın fikrincə, Uzun Həsən Katerino Zenonun gəlişi ilə Venesiyanın birgə hərəkət etməyə hazır olduğunu düşünərək, Osmanlılara qarşı hərəkət etməyə hazır olduğunu və "Osmanlı sultanını məğlub etmədən Anadoludan çəkilməyəcəyinə qərarlı olduğunu çatdırmaq üçün ispanəsilli yəhudi olan İshaqı Venesiyaya yola saldı. Ağqoyunlu hökmdarını düşündürən başlıca məsələ Venesiyadan odlu silahlar əldə etmək olduğu üçün İshaqın ardınca, 1472-ci il mayın 30-da Hacı Məhəmmədi Venesiyaya göndərdi. O, Kiprdə admiral Pyetro Moçeniqo ilə görüşdükdən sonra Venesiyaya gedəcəkdi" [342, 95]. Venesiyadan tələb etdiyi top və digər silahların yaxınlarda göndəriləcəyini düşünən Uzun Həsən Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başladı. 1472-ci ilin mayında Ağqoyunlu ordusunun Trabzona yürüşü uğursuz oldu. Bununla belə, Toqatın ələ keçirilməsi və Yusif Mirzənin başçılığı altında Ağqoyunluların Qaramana irəliləməsinə baxmayaraq avqustun 19-da Beyşehir gölü sahilində Əflatun-Pinarında onlar məğlub oldu.

1472-ci ilin avqustunda İshaq adlı Ağqoyunlu elçisi Venesiyaya gəldi və Uzun Həsənin məktubunu Venesiya hökumətinə təqdim etdi. Uzun Həsənin elçisinə Roma papası IV Sikst və Neapol kralı ilə danışıqlar aparmaq tapşırıldığı üçün o, Venesiyadan Romaya yola düşdü. Ondan bir neçə gün sonra Kipr-Rodos yolu ilə Hacı Məhəmməd Venesiyaya gəldi. O, Uzun Həsənin və Katerino Zenonun Venesiya doju Nikolo Trona

(1471-1473) mayın 30-da yazdıqları məktubları və hədiyyə kimi 228 mm. qiymətli firuzə gətirmişdi [342, 98-99]. Y.M.Mahmudov yazır ki, Uzun Həsənin tapşırığı ilə hərəkət edən Hacı Məhəmməd Venesiya hökuməti ilə danışıqlar zamanı Ağqoyunlu-Venesiya hərbi müqaviləsi şərtlərinin ardıcıllıqla yerinə yetirilməsini tələb etdi. O, Venesiya hökumətini vəd etdiyi odlu silahları, artileriya mütəxəssislərini Aralıq dənizi sahilinə göndərməyə və qərbdən Osmanlı imperiyasına qarşı hücuma keçməyə tələsdirdi [112, 136].

1472-ci il sentyabrın 22-də Ağqoyunlu diplomatı Hacı Məhəmmədə Venesiya hökuməti tərəfindən müsbət cavab verildi. Sentyabrın 25-də Venesiya senatı Uzun Həsənə təcili məktub yazılmasına qərar verdi. Nikolo Tron tərəfindən yazılan məktubda Ağqoyunlu hökmdarına məlumat verilirdi ki, vəd olunan odlu silahlar tezliklə yola salınacaqdır. Venesiya Respublikası hərbi dəniz qüvvələrinin baş komandanına göstəriş verilmişdir ki, Uzun Həsənin sərancamına əsasən hərəkət etsin. Nikolo Tron Uzun Həsənə Katerino Zenonu yaxşı qarşıladığı və Toqatı dağıtması münasibətilə təşəkkür etdikdən sonra məktubunda yazırdı: "Şəxsi qabiliyyətiniz, yüksək ədalətiniz və yaxşılıqlarla bağlı qadiri mütləq olan Tanrının sizə nəsib etdiyi parlaq və müstəsna zəfərlər üçün Sizi bütün qəlbimizlə təbrik edir və bütün düşmənlərinizi aradan qaldırmağınız üçün yardımını əsirgəməməsini əbədi olan Tanrıdan arzu edirik" [342, 100-101].

Ş.Turan yazır ki, Venesiya hökuməti Uzun Həsənlə birlikdə qəti nəticə əldə edəcəklərinə ümid bəslədiyi üçün II Mehmedin sülh təklifini rədd etdi. Ağqoyunlu hökmdarı ilə Venesiya və Macarıstan arasındakı əlaqələri izləyən, hətta Uzun Həsənin Matiaş Korvinə göndərdiyi elçini ələ keçirərək sorğuya çəkən II Mehmed Ağqoyunlular üzərinə yürüşə qərar verdiyindən, onu təkləmək üçün Venesiyaya elçi göndərərək ona sülh təklif etdi. Bu zaman Uzun Həsənin Malatyanı ələ keçirdiyi barədə məlumat əldə edən Venesiya hökuməti müttəfiqi olan Ağqoyunlu sultanının iştirakı olmadan sülh bağlamayacağını bildirdiyi üçün Osmanlı elçisi geri döndü. Venesiya senatı 1473-cü il yanvarın

5-də Ağqoyunlu sarayındakı elçisi Katerino Zenoya göndərdiyi məktubunda Osmanlı sultanının sülh təklifinin rədd edildiyini xəbər verərək, ondan Uzun Həsəni müharibəyə təhrik etməyi tələb etməklə yanaşı, Ağqoyunlu hökmdarının istədiyi top və digər silahların xüsusi elçi ilə göndəriləcəyi bildirilirdi. Bu elçi Tanada konsul işləmiş, şərq dillərini, o cümlədən türk və fars dillərini yaxşı bilən İosafat Barbaro təyin edildi [342, 100-101].

Venesiya senatı top və digər döyüş sursatını Uzun Həsənə aparacaq fövqəladə səfiri İosafat Barbaroya biri açıq, digəri məxfi olan iki təlimat vermişdi. 1473-cü il yanvarın 28-də İosafat Barboraya verilmiş açıq təlimatda o, Uzun Həsəni tezliklə Türkiyəyə qarşı müharibəyə təhrik etməli, onun istədiyi silahları və bu silahları istifadə edəcək adamlar, Venesiyada gözləyən Ağqoyunlu elçisi Hacı Məhəmməd, papa IV Sikstin, Neapol kralı I Ferdinandonun (1458-1494) elçiləri ilə Azərbaycana getməsi tapşırılmışdı. Venesiya hökumətinin tapşırığına əsasən İosafat Barbaro silah gəmiləri ilə yolüstü Kipr kraliçası Katerina Kornaro (1473-1489) və Rodos cəngavərlərinin rəisi ilə görüşə nail olmalı idi. Təlimata görə, İosafat Barbaro Uzun Həsənin qəbuluna Katerino Zeno ilə birlikdə getməli və onu əmin etməli idi ki, Venesiya Türkiyə ilə müharibəni qələbəyədək davam etdirəcək, müttəfiqinin – Ağqoyunlu dövlətinin razılığı olmadan sultanla sülh bağlamayacaqdır [342, 102; 112, 138-139].

Ş.Turan yazır ki, 1473-cü il fevralın 11-də İosafat Barbaroya verilən məxfi təlimatda Uzun Həsəni Osmanlı sultanı ilə müharibə etməyib sülh bağlamaq istəsə Barbaronun nə edəcəyi aydınlaşdırılırdı. Venesiya diplomatı necə olursa-olsun Ağqoyunlularla Osmanlılar arasında sülh bağlanılmasına mane olmalı idi. O, Uzun Həsənə bildirməli idi ki, Osmanlı sultanı güc mənbəyi olan Anadolunu Uzun Həsənə, Canaqqala boğazından Yunanıstanla üz-bəüz bütün sahil boyu ilə Canaqqalanı da Venesiyaya tərk etmədikcə, Venesiyalıların Qara dənizə sərbəst surətdə keçmək və ticarət fəaliyyətini həyata keçirməsinə razılıq verilmədikcə onunla sülh bağlamaq niyyətində deyildir. Bunlara baxmayaraq, Uzun Həsən Fateh II Mehmedlə sülh bağlamaq

niyyətində olarsa, İosafat Barbaro Moreya, Midilli və Neqropontu Venesiyaya qaytarmasını tələb etməli idi. Bu da mümkün olmadıqda, İosafat Barbaro Osmanlı dövləti ilə bağlanılacaq sülh müqaviləsinə Venesiyanın da daxil edilməsinə çalışmalı idi [342, 102-103; 112, 139-140].

İosafat Barbaroya ikinci məxfi təlimatın verilməsi ərəfəsində Venesiyaya Uzun Həsənin yeni elçisi gəldi. Beləliklə, Venesiyadakı Ağqoyunlu elçilərinin sayı üç nəfər oldu. Ş.Turanın fikrincə, Cəfərşah adlı Ağqoyunlu elçisi Uzun Həsənin Məmlüklərdən Malatyanı ələ keçirdiyini və Birəciyi mühasirəyə aldığını xəbər vermək və Fateh II Mehmedin hücumu qarşısında Venesiya və müttəfiqlərindən yardım almağa nə qədər əhəmiyyət verdiyini çatdırmaq üçün göndərilmişdi. Ağqoyunlu elçisini qəbul edən Venesiya hökuməti Uzun Həsənə yazılmış məktubla bərabər onu geri göndərdi. 1473-cü il fevralın 15-də yazılmış məktubda İosafat Barbaronun kifayət qədər top və sursatla hərəkət etmək üzrə olduğu, Venesiya donanmasına Anadolu sahillərinə hücum etmək əmrinin verildiyi xəbər verilir və Uzun Həsənin ordusunun sahilə yaxınlaşması tələb edilirdi [342, 104-105]. Fevralın 18-də Venesiya hökumətinin Azərbaycan Ağqoyunlu hökmdarının sarayına yola saldığı növbəti səfir İosafat Barbaro, vətənə qayıdan Ağqoyunlu diplomatı Hacı Məhəmməd, habelə Neapol kralı I Ferdinandonun və papa IV Sikstin elçiləri 4 gəmi ilə Venesiyadan yola düşdü. Bu gəmilərdən ikisinə Uzun Həsənə təqdim edilmək üçün odlu silahlar – 6 böyük, 10 orta, 36 kiçik top, 500 ox-kaman, tüfəng, kifayət qədər barıt, 300 ədəd dəmir çubuq, 3 min qazma bel, 4 min kürək və 10 min duka dəyərində hədiyyələr yüklənmişdi. Bundan başqa, hərbi sursat yüklənmiş gəmilərdə Ağqoyunlu əsgərlərinə top və silahlardan istifadə edilməsini öyrətmək üçün Tommazo da İmolanın başçılığı altında 4 zabit və 200 nəfər artileriya mütəxəssisləri də yola salınmışdı [342, 105; 112, 141].

1473-çü il martın 29-da İosafat Barbaro yanında Hacı Məhəmməd və digər elçilərlə birlikdə Kiprə yetişdi. Kipr kraliçası Katerina Kornaro ilə görüşən İosafat Barbaro top və silah-

ları Ağqoyunlu ordusuna çatdırmaq üçün Anadolu sahillərindən Azərbaycana gedən yollar təhqiq edildi. Qaraman sahillərinin Osmanlılar tərəfindən işğal edildiyi üçün Kiprdə gözləməyə qərar verildi. On aydan çox Kiprdə qalan İosafat Barbaro Otluqbeli döyüşündən çox sonra, yalnız 1474-cü ilin fevralında İrana (Azərbaycana – T.N.) hərəkət etmişdi [342, 105-106].

Y.M.Mahmudovun qeyd etdiyi kimi, Venesiya hökumətinin ikiüzlü siyasəti nəticəsində Ağqoyunlular üçün göndərilən odlu silahlar gecikdirildi. Barbaro onları nəzərdə tutulan yerə – Aralıq dənizinin Qaraman sahilinə çıxara bilmədi. O, gətirdiyi silahlarla birlikdə bir ilə yaxın Kiprdə qaldı [112, 141-142].

Ş.Turanın fikrincə, bu dövrdə Birəciyin mühasirəsini həyata keçirən Uzun Həsən yaranmış vəziyyətdə Venesiyanın göndərdiyi silahları əldə etməyin çətin olduğunu nəzərə alaraq, İosafat Barbaro ilə əlaqə yaratmaq və Venesiya donanmasının Qaramanoğulları Pir Əhməd və Qasım bəyə yardım etməklə Anadolu sahillərinə çıxaraq Qaramandan Ağqoyunlu ölkəsinə gedən yolu açmaq niyyətində idi. O, bu məqsədlə çərkəz əsilli Zuanı elçi kimi Kiprə göndərdi, Neapol kralının məktubuna yazdığı cavabı da Neapola çatdırmaq istədi. Uzun Həsənin martın 1-də Birəcik ətrafında yazdığı, İosafat Barbaronun aprelin 27-də Venesiya senatına surətini göndərdiyi bu mək-tubunda Osmanlı sultanı Fateh II Mehmedə qarşı müharibəyə başlamaq üçün yaxında Fərat çayını keçəcəyi bildirilirdi. Məktubun sonunda xüsusi olaraq göstərilirdi: "Donanmanızı Suriya sahillərinə göndərmək istədiyinizi də öyrəndik. Lakin biz donanmanın bu tərəfə göndərilməsini, boş yerə qan tökülməsinə yol verilməsini istəmirik. Donanmanı və bütün hərbi sursatı buna ehtiyacı olan Qaramana göndərin və Qaramanoğullarını tək buraxmayın. Bizim ərazilərimizlə Qaraman ölkəsi həmsərhəddir" [342, 106]. Məktubdan göründüyü kimi, Ağqoyunlu hökmdarı Venesiya hökumətinin ona kömək üçün yola saldığı hərbi silah və sursatı tezliklə əldə etmək üçün Venesiya donanmasının Qaraman sahillərinə yürüş etməsini daha münasib bilmişdi.

Hadisələrin sonrakı inkişafı göstərdi ki, Ağqoyunluların

Qərbdəki başlıca müttəfiqi olan Venesiya respublikası müttəfiqlik müqaviləsinin şərtlərinə riayət etmədi. Ağqoyunlu hərbi qüvvələri müqaviləyə əməl edərək 1472-ci ilin yayında Qaramanı ələ keçirib Aralıq dənizi sahilinə çıxdılar. Lakin Venesiya vəd etdiyi odlu silahları və artileriya mütəxəssislərini vaxtında göndərmədi. Əksinə, Ağqoyunlu – Osmanlı müharibəsinin (1472-1473) qızğın çağında Türkiyə ilə gizli – separat danışıqlara girib, müttəfiqinin qələbələrindən istifadə edərək, Osmanlı sultanından dinc yolla ticarət imtiyazları qoparmağa çalışdı. Bununla da, əslində, Ağqoyunlu dövlətinin məğlub olmasına şərait yaratdı. Nəticədə Osmanlı sultanı özünün bütün hərbi qüvvələrini Uzun Həsənə qarşı səfərbər edə bildi və Otluqbelidə mühüm qələbə qazandı [112, 149-150].

Qeyd etmək lazımdır ki, 1472-1473-cü illər Ağqoyunlu – Osmanlı müharibəsindən sonra, Ağqoyunlu – Avropa əlaqələrində Qərb dövlətləri, xüsusən Venesiya respublikası tərəfindən fəallıq daha da artmışdı. Y.M.Mahmudovun qeyd etdiyi kimi, Ağqoyunlu dövlətini Osmanlı imperiyasına qarşı müharibə vəziyyətində saxlamaq, II Mehmedin hərbi qüvvələrini iki cəbhəyə parçalamaq Venesiya respublikası üçün həmişəkindən daha artıq vacib idi [112, 155]. Ş.Turan Otluqbeli döyüşündən sonra Venesiyanın ardıcıl ilaraq Ağqoyunlu sarayına üç diplomat göndərməsinin səbəblərinə toxunaraq yazır ki, belə bir qərarın verilməsində Venesiya senatının Uzun Həsənin Otluqbelində məğlub olmasından nə qədər təşviş keçirdiyini göstərir. Uzun Həsənin bəyanatlarına baxmayaraq, Anadoluya yenidən yürüş etmədi və II Mehmedlə sülh bağlamaq ehtimalı yüksək idi. Belə bir vəziyyətdə, Osmanlılar Venesiya donanmasının ələ keçirərək Qasım bəyə verdiyi Qaraman qalalarını geri alacağına şübhə yox idi. Uzun Həsənin və Qaramanoğullarının meydandan çəkilməsindən sonra Venesiya şərqdəki müttəfiqlərindən məhrum olaraq II Mehmed qarşısında təkbaşına qalacaqdı. Bu vəziyyətə düşməmək üçün Uzun Həsəni ümumi düşmənə qarşı müharibəni davam etdirməyə vadar etmək, Ağqoyunlu sultanı ilə Osmanlı sultanı arasında sülh bağlanmasının qarşısını almazsa, bu sülh

danışıqlarında iştirak edərək təklənməkdən xilas olmalı idi. Bu məqsədlə Uzun Həsənin sarayına elçilər göndərmişdi [342, 127].

Ş.Turan Venesiya respublikasının Ağqoyunlu sarayına göndərdiyi elçiləri – Paolo Oynibene, İosafat Barbaro və Ambrocco Kontarininin fəaliyyəti barədə ətraflı məlumat verir [Bax: 342, 126-137]. Venesiya diplomatlarının Azərbaycan Ağqoyunlu hökmdarı ilə apardığı danışıqlar heç bir nəticə vermədi. Venesiya müttəfiqi olan Ağqoyunlu hökmdarının bütün vədlərinin əksinə olaraq Osmanlı sultanı ilə separat sülh bağlamağa qərarlı idi [342, 135]. Bu bir daha göstərir ki, Qərbi Avropa dövlətləri başda Venesiya olmaqla Ağqoyunlularla bağladıqları müttəfiqlik müqavilələrinin şərtlərinə əməl etmədikləri üçün Osmanlı imperiyasına qarşı müharibə Ağqoyunlu dövlətinin qələbəsi ilə sona yetmədi. Bununla belə, Ağqoyunlu dövlətinin fəal antitürkiyə siyasəti, onun Osmanlı imperiyasına qarşı Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri nəticəsiz qalmadı. Osmanlı imperiyasının hərbi qüvvələrinin bir hissəsini daim Şərqdə məşğul etməklə, bəzən də ona qarşı müharibəyə girib Osmanlı ordusunun əsas zərbəsini öz üzərinə götürməklə, Ağqoyunlu dövləti II Mehmedin Qərb ölkələri ilə əlaqədar hərbi planlarının yerinə yetirilməsə əngəl törədirdi [112, 168].

# V FƏSİL
# AZƏRBAYCAN QARAQOYUNLU VƏ AĞQOYUNLU DÖVLƏTLƏRİNDƏ İCTİMAİ-İQTİSADİ VƏ MƏDƏNİ HƏYAT

## *V. 1. Kənd təsərrüfatı və aqrar münasibətlər*

Türkiyə tarixçilərinin araşdırmalarında XV əsrdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi həyatının tədqiqinə geniş yer verilməsə də, bəzi məsələlər araşdırılmışdır. Qeyd etmək lazımdır ki, XV əsrdə Azərbaycanın iqtisadi həyatının müxtəlif sahələri qeyri-bərabər səviyyədə inkişaf etmişdi. Əsrin əvvəllərində viranedici müharibələr və feodal çəkişmələrinin davam etməsi kənd təsərrüfatının inkişafına əngəl törədirdi. Teymuri hakimlərinin yerli əhali hesabına hərbi hissələri təchiz etmək sahəsindəki soyğunçu tədbirləri, Teymurilərlə Qaraqoyunlular arasında baş verən hərbi toqquşmalar geniş əhali kütlələrini müflisləşdirdi.

XV əsrin 30-80-cı illəri ölkənin nisbətən sabit siyasi şəraitdə inkişaf etməsi ilə əlamətdardır. Azərbaycan feodal dövlətlərində ənənəvi «torpaq beşliyi» – çeşidli torpaq sahibliyi qalmaqda idi. *Dövlət torpaqları «əraziyi-divani» və «əraziyi-xassə»* (hakim sülaləyə məxsus mülklər) adlanan iki hissəyə bölünürdü. Bunların arasında bir tutarlı ayrılıq yox idi. Hər ikisi padşahın ixtiyarında saxlanırdı. Yalnız bir fərqlə seçilirdi: divan torpaqlarının gəliri dövlətin ümumi xərclərinin, xüsusilə ordunun saxlanması ilə bağlı olan xərclərin ödənilməsi, xass torpaqlarının gəliri isə padşah ailəsinin və bütünlüklə sarayın saxlanması üçün işlənirdi [215, 240; 418, 78-79].

Əvvəllər mövcud olmuş iqta institutunu *soyurqal* əvəz etməkdə idi. Azərbaycanda soyurqal torpağı ilk dəfə XIV əsrin sonuncu rübündə ortaya çıxmışdı. Soyurqal sultan tərəfindən divan torpaqları hesabına paylanılırdı. Onun verilməsi üçün

əyanların, tayfa və əyalət əmirlərinin dövlət qarşısında hərbi-inzibati qulluq daşıması gərək idi. Hərbi və mülki xidmət müqabilində paylanmış bu mülklər feodalların irsi istifadəsində olurdu. Ancaq soyurqal torpaqları hərbi-inzibati qulluq əyanlarına yeni üstünlüklər və imtiyazlar verirdi: bu əyanlar soyurqal torpaqları üzərində inzibati və məhkəmə hakimiyyəti səlahiyyəti alır, dövlət xəzinəsinə vergi verməkdən azad olunurdular. Mərkəzi hakimiyyət məmurlarının nəzarəti soyurqal torpaqlarına aid edilmirdi. Soyurqal sahibi vergi tədbirlərində və məhkəmə-inzibati fəaliyyətdə müstəqil idi. Vergi toxunulmazlığı hüququ soyurqal sahibinin zənginləşmə vasitəsi idi. Soyurqal sahibinin öz torpaq sahəsində vəzifəyə təyin etdiyi şəxslər yalnız onun qarşısında hesabat verirdilər [215, 240-241; 204, 191; 165, 112; 174$^{b}$, 318-319; bax: 418, 145-153; 74, 109].

Soyurqal hərbi-bəxşiş torpaqları XV əsrin sosial tarixinin çox təzadlı təsisatlarından biridir. Bu torpaqlar sahəsinə görə bəzən çox da böyük olmur, 2-3 kəndi birləşdirirdi [418, 151]. Ancaq yuxarıda söyləndiyi kimi, bu və ya başqa halda hərbi köçəri əyanlara – əyalət və tayfa əmirlərinə bütöv mahal və ya əyalətlər də soyurqal adı ilə bağışlanırdı. Azərbaycan Qaraqoyunlu dövlətinin banisi Qara Yusifin Teymurilər və Cəlairilər üzərində qəti qələbə çalaraq, Azərbaycanın cənub torpaqlarında möhkəmlənməsindən sonra həyata keçirdiyi ilk tədbirlərdən biri sələflərinin bəxşiş etdiyi soyurqalları təsdiq etməsi və çoxlu yeni soyurqallar paylaması olmuşdu [291, 201; 99, 141; 435, 33].

K.Paydaşın fikrincə, Qara Yusif Şirvanşah I İbrahim və müttəfiqi gürcü çarı II Konstantinə qarşı döyüşə hazırlaşdığı zaman Cənubi Azərbaycanın yerli feodallarının yardımını əldə etməyə çalışmışdı. Bu məqsədlə o, ən yaxın adamlarından başlayaraq bir çox əmirə soyurqallar paylamışdır. O, əmirül-ümərası olan Bistam bəy Cagirliyə Ərdəbil və Xalxal bölgəsini soyurqal vermişdi [291, 201; 174$^{b}$, 320]. Ərdəbil və ətrafı əvvəllər də Bistam Cagirli və sələfləri tərəfindən idarə edilmişdi. Qara Yusifin fərmanı əslində bunu təsdiq etmişdi [313, 84; 437, 168; 291, 201].

Mirxond Qaraqoyunlu dövlətində mühüm yer tutan soyurqal torpaq sahibliyindən bəhs edərkən, Əmir Baba Hacı Kavərdiyə verilən soyurqal mülkü haqqında mühüm məlumat verir. O, yazır ki, Qaraqoyunlu hökmdarı Qara Yusif öz nüfuzunu artırmaq məqsədilə 1410-cu ildə Əmir Baba Hacı Kavərdiyə Kavərd qala qəsəbəsini, ona tabe və qonşu olan 600 kəndi və başqa əkin yerlərini bağışladı, özünü də orduya sərkərdə təyin edib böyük ixtiyar verdi [8, 293-294; 417, 146; 99, 141; 435, 33].

Soyurqal almış feodal, soyurqal torpağında yerləşən şəhərlər, kəndlər və onların əhalisi üzərində həm inzibati hakimlik hüququ, həm də mühakimə etmək hüququ almış olurdu. Əgər onun mərkəzi divan idarəsi məmurlarının nəzarəti altından bütünlüklə çıxarılması da nəzərə alınarsa, belə soyurqal torpağın əslində «dövlət içində bir dövlətə» çevrilməsi aydın olur. Soyurqal torpağı alanlar mərkəzi hakimiyyətin başlıca sosial dayağı idilər. Ancaq belə geniş üstünlük və imtiyazlar verilməsi nəticəsində soyurqal sahibləri çox böyük siyasi, inzibati və maliyyə sərbəstliyini əldə edirdilər [291, 203; 174[b], 319].

Şərəf xan Bidlisi Qaraqoyunlu Qara Yusifin Şəmsəddin Ruzəkiyə soyurqal hüququnu verməsi barədə mühüm məlumat verir. O, 1417-ci ildə Qara Yusifin ölkənin hər tərəfinə göndərdiyi təmimnamə haqda yazır: "Bütün tümən əmirlərinə və Kürdüstanın minbaşılarına, sərdarlarına, hakimlərinə, xidmətçilərinə, ərbablarına, kələntərlərinə, əhalisinə, əyanlarına, kəndxudalarına, məliklərinə və habelə Bidlis, Əxlat, Muş, Xnus və ona tabe olan yerlərin məşhur adamlarına, vətəndaşlarına və sakinlərinə məlum olsun ki, oğulluğa götürdüyüm əmirin mənə olan kəmali-ixlası, birliyi və cansipərliyini nəzərə alaraq, Əmir Şəmsəddini qabaqkı qayda ilə öz həmtayfalarının arasında cürbəcür peşkəşlər və soyurqallarla mümtaz və sərafraz edirəm. Buna görə də, Bidlis, Əxlat, Muş, Xnus və ona tabe olan digər qalaları və bundan əvvəl də Əmir Şəmsəddinin ixtiyarında olan mahalları, bu yerlərin hakimiyyətini, əmirliyini, divan və malucəhət hüquqları yenə də ona qaytarılır. Heç kəsin buraya müdaxilə və müşarikəti ola bilməz. Hes kəs bundan sonra əmirin (Əmir Şəm-

səddinin-T.N.) işinə qarışmasın, yerlərinin, qışlaqlarının və əkinlərinin ətrafına dolaşmasınlar. Onlar bu fərmana riayət etməzsə, məsuliyyətə alınacaq və ağır cəzaya məhkum ediləcəklər. Bidlis, Əxlat, Muş, Xnus əmirləri, sərdarları, əyanları və əhalisi, qala başçıları və dövlət işçiləri mənim oğulluğa götürdüyüm əmiri özlərinin əmir və hakimləri bilsinlər. Onun sözündən və rəyindən çıxmasınlar. Ona itaət edib cansipər olsunlar və bütün işlərini, müamilələrini əmirin adamlarından asılı bilsinlər. Hər nə desələr onların sözündən çıxmasınlar. O, nə fərman yazarsa, ona əməl etsinlər" [59, 377-378; 418, 152-153; 99, 141-142; 435, 35-36; 291, 202].

Qara Yusifin vermiş olduğu bu fərmandan bir daha aydın olur ki, soyurqal sahibinə geniş səlahiyyətlər verilmiş, o, faktiki olaraq soyurqal aldığı bölgənin tam ağasına çevrilmişdir. Fərmandan da göründüyü kimi, soyurqal sistemində kəndlilər öz vergilərini soyurqal sahibinə vermək məcburiyyətində qalmış, dövlət məmurları bu imtiyazın istifadəsinə və həyata keçirilməsinə müdaxilə edə bilməzdilər [215, 240]. Qara Yusifin Bidlis hakiminə verdiyi bu soyurqal fərmanında vergilər barədə aydın məlumat olmasa da, Qaraqoyunlu hökmdarının sevgili övladı kimi qiymətləndirdiyi Şəmsəddinin soyurqal aldığı ərazilərin divana aid vergilərdən azad edildiyi öz əksini tapmışdır [291, 202].

A.A.Arayancan Əbubəkr Tehraninin verdiyi məlumata əsaslanaraq yazlr ki, Cahanşah da atası kimi əmirlərə, qazılara və şahzadələrə soyurqallar paylamışdı. O, qardaşı İsgəndərin oğlu Şah Qubad tərəfindən öldürülməsindən sonra Avniki və Pasin vilayətini ona soyurqal vermişdi [174[b], 320]. K.Paydaş yazır ki, Qaraqoyunlu hökmdarı Cahanşahın 1453-cü il sentyabrın 17-də verdiyi və "Əbül Müzəffər Cahanşah sözümüz" ifadəsi ilə başlayan soyurqal fərmanına görə, Culah adlı ərazi Şeyx Daraiyə soyurqal verilmişdi. Burada soyurqal sahibinin vergi və idarəçilik məsələlərində əldə etdiyi imtiyazlar qeyd olunmuş və məmurların soyurqal ərazisindən öz adamlarını geri çağırması əmr olunmuşdur [291, 201].

Əbubəkr Tehraninin yazdığına görə, Uzun Həsən Cahanşah və Əbu Səid üzərində qələbədən sonra səxavət qapılarını hamının üzünə açdı və hər kəsin ehtiyacını ödəyib yaşadığı vilayətə göndərdi. Pir Hacı bəy Qavrudinin oğlu Şah Məhəmməd bəyi və Şah Hacı bəy Qavrudinin oğlu Əmirzadə Cahangiri Həmədana göndərdi, çünki Həmədan və onun ətrafı onların atalarının irsi torpaqları idi [13, 266; 43, 470-471]. K.Paydaş Həsən bəy Rumlunun və Ş.Fərzəliyevin verdiyi məlumata əsaslanaraq yazır ki, Cahanşah Həmədan şəhərini Əmir Satılmış və Əmir Şahsuvar bəyə soyurqal kimi bağışlamışdı. Uzun Həsən Cahanşah və Əbu Səidi məğlub etdikdən sonra hər iki əmirə qarşı xoş davranaraq, onları yenidən soyurqal sahibi kimi Həmədana göndərmişdir [291, 203; 91, 79;]. Lakin yuxarıda qeyd etdiyimiz kimi, həm Əbubəkr Tehrani və ondan yararlanan Həsən bəy Rumlu Uzun Həsənin Həmədana hakim təyin etdiyi şəxslər Əmir Satılmış və Əmir Şahsuvar deyil, Şah Məhəmməd və Əmir Cahangir Qavrudilər olmuşdur. Bu təyinat bir daha göstərir ki, hakimiyyətə yeni hökmdar keçən zaman soyurqal sahibləri bir çox halda dəyişdirilməmiş və əvvəlki sultanların vermiş olduqları soyurqallar yenidən təsdiq olunmuşdur.

Şübhəsiz ki, soyurqal institutunun geniş yayılması mərkəzi hakimiyyətin maddi əsasını məhdudlaşdırır, onun gəlirini xeyli dərəcədə azaldırdı. Soyurqalın irsiliyi soyurqal sahibini mərkəzi hakimiyyət üçün təhlükəli ünsürə çevirməkdə idi. İri soyurqal sahibləri artıq özlərindən asılı olan şəxslərə xırda soyurqallar paylamağa başlamışdılar. Feodalların siyasi təsiri torpaq sahələrinin kəmiyyəti və məhsuldarlığı ilə deyil, onların sahib olduğu soyurqal almış xırda feodalların sayı ilə müəyyən olunurdu. Əgər XV əsrin I yarısında Azərbaycan Qaraqoyunlu hökmdarları tərəfindən soyurqallar əsasən hərbi köçəri əyyanların nümayəndələrinə verilirdisə, Ağqoyunlu hakimiyyəti dövründə bu mülklər başlıca olaraq ruhanilərə və mülki bürokratiya nümayəndələrinə bağışlanırdı [Bax: 418, 150; 437, 169; 291, 202-203; 74, 109; 137, 51].

Azərbaycan Ağqoyunlu dövlətində də soyurqal bəxşişlərinin geniş yayıldığını dövrün mənbələri təsdiq edir. K.Paydaş Əbubəkr Tehraninin verdiyi məlumatlara əsaslanaraq hələ Qara Osman dövründə onun paylandığını qeyd edir. Onun fikrincə, Qara Osman Ərzincanı mühasirəyə aldığı zaman yardımına gələn oğlu Yaqub bəyə Qarahisarı soyurqal vermişdir [291, 203]. Uzun Həsən və varisləri dövründə mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün soyurqal bəxşişləri paylanmışdır. Onlar daha çox seyyidlərə, qazılara, üləmalara paylanmışdır. Belə ki, Uzun Həsən Şirazı aldıqdan sonra burada əmin-amanlığı tam bərpa etdi, seyidlərin, qazıların, alimlərin, məmur və əyanların hamısına qayğı göstərdi, öz fərman və hökmləri ilə onlara vəzifələr, soyurqallar və məvaciblər verdi [Bax: 43, 282; 291, 203]. K.Paydaşın fikrincə, Uzun Həsən 1476-cı ildə (əslində 1477-ci il olmalıdır-T.N.) Gürcüstana səfəri zamanı seyyidlərə və şeyxlərə soyurqallar paylamışdır [291, 203]. Bununla bağlı Həsən bəy Rumlu yazır ki, 1477-ci ildə Həsən Padşah yanında götürdüyü seyyidlər, şeyxlər və soyurqal sahibləri ilə birlikdə Gürcüstan vilayətini fəth edən zaman çoxsaylı əsirlər əldə etdi və onlardan seyyidlərin və şeyxlərin hər birinə pay verdi [43, 541]. K.Paydaş Uzun Həsənin 1471-ci ildə verdiyi soyurqal fərmanından bəhs edərək yazır ki, bu fərmanda soyurqalın daimi olduğu göstərilir, soyurqal sahibinin mal, ixracat, əvariz və digər divan vergilərindən azad edildiyi qeyd olunurdu. Fərmanda soyurqalın daimi olduğu qeyd olunduğu üçün yeni fərmanlar istənilməməsi və onun ali möhürlə möhürləndiyi üçün keçərli olduğu göstərilirdi [291, 204].

K.Paydaş yazır ki, Ağqoyunlu dövlətində verilmiş soyurqallara örnək olaraq Cahangirin oğlu Qasım tərəfindən 29 mart 1498-ci il tarixində verilmiş fərmanı göstərmək olar. Bu fərmana görə, Ağqoyunlu Qasım tərəfindən Egil, Bağın və Heni qəsəbə və nahiyələri İsfəndiyar bəyə soyurqal verilmişdi [335, 288]. V.Minorski tərəfindən çap olunan bu soyurqal fərmanında torpağın daimi olaraq bağışlandığı və bu soyurqal bölgəsinin vergilərdən azad edildiyi bildirilirdi. Fərmanda vergi məmurlarına

soyurqallardan öz adamlarını geri çağırmaları əmr edilirdi. Fərmanın üzərində, onun sol tərəfində soyurqalın bağışlandığının sübutu kimi sultanın adı və tamğası vurulmuşdur [291, 204].

Azərbaycan Ağqoyunlu dövlətində soyurqalların verildiyi zümrələr artmışdı. Sultan Yaqubun vəziri Qazi İsa Savəcinin tövsiyyəsi ilə üləmalara və hörmətə layiq olan alimlərə də soyurqallar verilməyə başlanmışdır. Lakin bəzi şəxsiyyətlərin bu cür imtiyazları qəbul etmədikləri görünür. Belə ki, Sultan Yaqub Qazi İsa Savəcinin qardaşı Əli Əfəndinin tövsiyyəsi ilə dövrün tanınmış şeyxlərindən biri olan Gülşəniyə Bərdə ətrafında olan arxlardan nə qədər qəbul edərsə soyurqal verilməsini əmr etmişdir. Lakin bütün israrlara baxmayaraq, Gülşəni bu soyurqalları qəbul etməmişdir [291, 204].

Ağqoyunlu hökmdarlarının mərkəzi hakimiyyəti qoruyub saxlamaq üçün ayrı-ayrı əmirlərə soyurqal paylaması, ölkə ərazisində iri torpaq mülkiyyətinin – soyurqalın genişlənməsi mərkəzi hakimiyyətin zəifləməsinə, xəzinəyə daxil olan gəlirlərin azalmasına gətirib çıxardı, çünki soyurqal sahibləri vergilərdən azad olub, həm də soyurqal ərazisində inzibati-məhkəmə imtiyazlarından istifadə edirdilər. Soyurqal sahibləri əslində dövlətin məkəzləşdirmə siyasətinə ciddi maneçilik törədərək dövlət üçün təhlükə mənbəyinə çevrilmişdi. Beləliklə, dövlətin nəzarət etdiyi torpaq fondu xeyli azalırdı. Torpaqların feodal və iri torpaq sahibkarlarının əlində cəmləşməsi prosesi davam edir və feodal separatizmi güclənirdi [288, 210; 291, 203; 437, 169-170; 74, 184-185].

S.Ərşahinin fikrincə, soyurqal sahibinə öz soyurqalı daxilində vəzifəli şəxsləri təyin etmək, vergi toplamaq və günahkarları cəzalandırmaq hüququ verilirdi. Soyurqal sahiblərinin mərkəzdən asılılığını artırmaq üçün mərkəzi hökumət bəzən onların təsərrüfatındakı torpaqları azaldır və məhkəmə hakimiyyətini məhdudlaşdırırdı. Mərkəzi hökumət soyurqal sahibinin tam və ya yarı müstəqil hərəkət etməyə başladığı zaman onu soyurqal hüququndan məhrum edir və bu hüququ başqa şəxsə verirdi [215, 240].

XV əsrdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətində şərti torpaq mülkiyyəti kimi *iqta* fəaliyyət göstərirdi. İqta torpaq mülkiyyəti dövlətə xəzinədən pul xərcləmədən böyük və güclü ordu yaratmağa imkan verirdi. İqta sahibləri öz ərazilərinin mühafizəsini həyata keçirirdilər [174[b], 312]. Əyalətlər və vilayətlər əmirlər və sülalənin üzvlərinə iqta kimi paylanılırdı. Cahanşah dövründə Fars, Yəzd, İsfahan və Bağdad kimi önəmli və böyük vilayətlər şahzadələr tərəfindən idarə edilirdi. Bu dövrdə iqta sisteminin olduğunu Cahanşahın fərmanları və vəqfnamələri də təsdiq edir. A.A.Arayancan yazır ki, Cahanşahın İstanbulda Topqapı Sarayı Muzeyində saxlanılan 1454-cü il tarixli fərmanı Herat, Şiraz və Bevanatın Əmir Cəlaləddin Tərxana iqta verildiyini nəzərdə tutur [174[b], 313]. Qaraqoyunlu hökmdarı oğlu Pirbudağı Şirazdan uzaqlaşdırdığı zaman Kirmanı Bevanatla birlikdə Əbu Yusif Mirzəyə iqta kimi vermişdir [174[b], 313]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşah dövründə Qəzvin Rüstəm Tərxanın oğlu Söhrab bəyə iqta verilmişdir [13, 268; 174[b], 313].

Cahanşah dövründə Qaraqoyunlu dövlətində mərkəzləşmə prosesinin güclənməsi sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, hökmdarın nüfuzunun artmasına və mərkəzi hakimiyyətin güclənməsinə təsir etmişdir. Hökmdarlar tərəfindən verilən iqtalar sultan və hakim sinif arasındakı əlaqəni gücləndirsə də, ziddiyyətləri tamamilə aradan qaldırmadı. İdarəsi altında geniş ərazilər və önəmli hərbi qüvvələr olan iqta sahibləri bəzən sultanla, bəzən də öz aralarında mübarizə aparırdılar. A.A.Arayancan yazır ki, Qaraqoyunlular dövründə əyalət hakimləri, şahzadələr, əmirlər böyük torpaq mülkiyyətini müxtəlif yollarla əllərinə keçirdilər. Cahanşahın oğlanları olan Pirbudaq və Həsənəli hadisəsi bunu aydın şəkildə göstərir. Əllərində böyük sərvət toplayan və nüfuz sahibi olan əyanlar sultan hakimiyyətinin daha çox güclənməsinə və mərkəzləşdirmə siyasətinə qarşı mübarizə aparırıdı [174[b], 314].

Azərbaycan Qaraqoyunlu dövlətində şərti torpaq mülkiyyəti kimi *tiyul* da paylanılırdı. Tiyul müəyyən bir yerin mü-

vəqqəti istifadə olunmasından ötrü hökmdarın dövlət torpaqları hesabına xüsusi şəxslərə verdiyi sahəyə deyilirdi. Tiyul sahibi həmin torpaqdan alınan gəlirin hamısını, yaxud böyük bir hissəsini mənimsəyirdi. O, dövlətə hər il rüsum adı altında müəyyən məbləğ pul verməliydi. Bəzən tiyul müəyyən qoşun hissələri hazırlanması məqsədi ilə də verilir və tiyuldar lazımi vaxtda hökumətin sərancamına əsgəri qüvvə verməli idi. Tiyul soyurqaldan fərqli olaraq əmir, şahzadə və başqa şəxslərə irsən verilə bilməzdi, çünki bu torpaq mülkiyyəti növü məhz tiyula layiq görülən hökumət məmurunun etdiyi xüsusi xidmət müqabilində maaş kimi verilirdi [91, 80; 174[b], 321]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, 1466-cı ildə oğlu Pirbudağın üsyanını yatırmaq üçün Bağdad üzərinə yürüş edən zaman "Cahanşah qoşun toplamaq üçün hər tərəfə adamlar göndərdi. Məhəmmədi Mirzəni İsfahandan, digər əmirləri və tiyul sahiblərini vilayətlərdən çağırdı və böyük bir qoşun hazırladı" [13, 198; 174[b], 322]. Əbubəkr Tehraninin verdiyi məlumata görə, Cahanşahın ölümündən sonra "padşahın öz tiyullarında qalmış əyanları və sərkərdələri onun (Uzun Həsən – T.N.) yanına gəlib rütbələrinə uyğun ənamlar və mükafatlar aldılar, ona itaət göstərməyə məcbur olub münasib şərait gözləməyə başladılar" [13, 276; 174[b], 322].

Oturaq əyanların irsi torpaqları *mülk* adlanırdı. Mülk torpaqları sözsüz olaraq atadan oğula və ya başqa hüquqi varisə keçə bilir, alqı-satqı obyekti olur, istənilən zaman bu və ya başqa şəxsə bəxşiş edilə bilirdi. Aydındır ki, bu torpaqlarda yaşayan və onu becərən kəndlilər mülk sahibindən tam asılı idilər. Mülk torpaqlarının böyük bir qismi kənd icmalarının istifadəsinə verilir və buna görə də şərti olaraq *«icma torpaqları»* adlanırdı. Mülklərin ikinci qismi torpağı ayrı-ayrı parçalar şəklində kəndli ailəsinə icarəyə verilirdi. Birinci halda feodal istismarının özülü kəndli icmasının külli halında ödədiyi vergidən, ikinci halda isə tək kəndli təsərrüfatının ödədiyi vergidən ibarət olurdu. Hər iki halda ödənilən vergi məhsulun yarısına qədərini, hətta yarıdan çoxunu mülk sahibinin ixtiyarına verirdi [Geniş

məlumat üçün bax: 418, 228-233; 137, 51].

XV əsr Azərbaycan dövlətlərində dini müəssisələrin çox gəlirli *vəqf* torpaq mülkiyyəti var idi. Bu torpaqlarda yaşayan rəiyyət ruhanilərdən asılı idi. Vəqfdən götürülən gəlirin bir hissəsi məscid, mədrəsə və başqa dini idarələrin tikilməsinə xərclənir, onun böyük hissəsini isə ruhanilər mənimsəyirdilər. Dini müəssisələrin ixtiyarında böyük torpaq sahələrindən başqa vəqf olunmuş evlər, bazar, emalatxana, karvansaray, dəyirman, bağ, suvarma kanalları və mədənlər də vardı [91, 74-75]. Bu dövrdə təsərrüfatda mühüm yer tutan vəqf torpaqları da iki yerə bölünürdü. Dini müəssisələrin xüsusi torpaqları *vəqfi-xeyri* adlanırdı. Seyidlərə, dərviş şeyxlərinə, müqəddəs hesab olunan şəxslərə məxsus vəqflər isə *vəqfi-əhli* adı ilə tanınırdı.

Vəqf torpaqlarının gəliri vəqfi verən şəxsin vəsiyyətinə əsasən məsrəf edilə bilərdi. Vəqf olunan əmlak vəqfnaməyə müvafiq surətdə idarə edilməli idi. Bu torpaqlardan hökumət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı. Məhz buna görə də feodallar bəzən öz torpaqlarını dini müəssisələrə vəqf edir, beləliklə də, xəzinəyə vergi verməkdən can qurtarırdılar [435, 30; 91, 75].

XV əsr Azərbaycan dövlətlərində elmi və ictimai müəssisələrin məsrəflərini ödəmək məqsədilə onlara verilən ərazilər də vəqf torpaqları adlanırdı [174b, 315]. A.A.Arayancan yazır ki, Qaraqoyunlular vəqf əraziləri və vəqf idarə sistemində Teymuri və Cəlairi ənənələrini davam etdirdikləri kimi, onları örnək kimi qəbul edərək daha da inkişaf etdirdilər. Bəzi vəqfnamələrdə Teymur dövründə vəqf edilmiş yerlər Qaraqoyunluların əlinə keçdikdən sonra sahibində saxlanılmış və Teymuri ənənəsi davam etmişdi. Teymur dövründə Hz. Fatimənin məzarı Nizaməddin Əhməd Rezeviyə verilmiş, Cahanşahın 1462-ci il fərmanından görünür ki, vəqf həmin şəxsdə saxlanmışdır [174b, 315]. Bəzi vəqf əraziləri bağışlanan zaman Cahanşahın arvadı Can Bəyim Xatunun və qızı Dövlət Sultan Xatunun rizası alınmışdı. Buna görə də hökmdarın fərmanında onların adı çəkilmişdir. Cahanşah dövrünə aid vəqfnamələrdən birində Cahanşahın və

Can Bəyim Xatun tərəfindən Şeyx Səfi məzarı Kas-ı Şərifə, Müzəffərə, Qazı Nizam və Nəsrabadi Serpəştə vəqf olunduğu qeyd olunmuşdu. Vəqfnamədə əgər məzar xarab olardısa vəqf edilən yerdən əldə olunan pul ilə təmir edilməli idi [174[b], 315-316]. 1471-ci il tarixli vəqfnaməyə görə, Cahanşahın öğlu Mirzə Yusif Şirazda bir kənd və baxça vəqf etmişdir. Vəqfnamədən görünür ki, bunlar Mirzə Yusifə anasından qalmış Şirazın ətrafındakı Xosrovabad kəndi, digəri isə Terkmənabad tarlasıdır. Bu iki ərazi Atabəy Səd ibn Zəngin tikdirdiyi Seyid Əmir Əhməd ibn Musanın məzarına vəqf olunmuşdur. Vəqfnamədə vəqf edilən torpağın əvəzinə müəyyən şərtlər vardır. Vəqf edilən ərazi bağışlana, satıla və girov qoyula bilməzdi. Vəqf edilən ərazinin sahibi və idarəsi Seyid Sədrəddin Məhəmməd ibn Mənsur Eddəştəkdə məxsusdur [174[b], 316].

Vəqf ərazisinin gəliri ehtiyaclarına uyğun şəkildə sərf olunurdu. 1488-ci ildə Sultan Yaqubun vermiş olduğu fərmana görə, bir övliyanın qəbri ilə mədrəsənin ehtiyacını ödəmək və onlara baxmaq üçün müəyyən bir ərazi onlara vəqf olaraq bağışlanmışdır [204, 191].

XV əsrin II yarısında Azərbaycanda olan ən böyük vəqflər bunlar idi: Ərdəbildə Şeyx Səfiyəddin məqbərəsi, hal-hazırda Təbrizdə mövcud olan Həsən şah məscidi, Cahanşah tərəfindən vəqf edilən Cahanşahiyyə vəqfləri, Qazan xanın məzarı [91, 75]. Həsən bəy Rumlu Cahanşahın vəqfləri və Təbrizdə tikdirdiyi məscid barədə yazır: "Heç kəs belə kamil işlənmiş bina tikməmişdir... Məscidə bitişən günbəzi... qızılla bəzəmişlər. Bu məscidə doğru küçə salınmış və ona çoxlu əmlak vəqf edilmişdir" [91, 75].

XV əsrin rəsmi sənədlərindən məlum olur ki, bu dövrdə Azərbaycanda otuzdan şox *vergi və mükəlləfiyyət* mövcud idi. Ağqoyunlu Sultan Yaqubun 1488-ci il soyurqal fərmanında 27, şahzadə Qasım Mirzənin 1498-ci ildə əyanlardan İsfəndiyara verdiyi soyurqal fərmanında isə 31 adda vergi və mükəlləfiyyətin adı çəkilir [417, 147; 435, 38]. XV əsrdə Azərbaycan əhalisi üzərinə qoyulan vergi və mükəlləfiyyətlərin tam siyahısına

1498-ci ildə Əlvənd Ağqoyunlunun soyurqal fərmanında rast gəlmək mümkündür. Burada ümumilikdə 45 adda vergi və mükəlləfiyyətin adı çəkilir. Onların bəziləri sinonim kimi təkrarlandığı üçün 30-35 adda vergi və mükəlləfiyyətin olduğu məlum olur [ 435, 38].

Vergilər xüsusi dövlət vergiyığanları – mühəssillər vasitəsilə toplanılırdı. Həsən bəy Rumlunun yazdığı kimi, "hamı mühəssillərin əlində giriftar olmuşdu" [91, 81]. Mühəssillər vergiləri müəyyən olunmuş miqdardan artıq yığmağa çalışdıqları üçün vergi verə bilməyənləri işkəncə ilə məcbur edir, çoxlu mal ələ keçirməyə çalışırdılar. Vergi toplanışı zamanı vergiyığanların özbaşınalığı şəhər və kəndlərdə narazılıq yaradır və bəzi hallarda üsyana səbəb olurdu. Həsən bəy Rumlunun yazdığına görə, 1405-ci ildə qanunsuz olaraq rəiyyət malına əl uzatdılmasından həyacana gələn Təbriz əhalisi üsyan etmiş, vergiyığan Xacə Pirəlini öldürmüş və səngər düzəldərək döyüşə başlamışdı [43, 38-39; 91, 81].

S.Ərşahinin fikrincə, Ağqoyunlular vergi sistemini əsasən Elxanilərdən almışdılar. Osmanlı Tapu-Təhrir dəftərlərində öz əksini tapmış Uzun Həsənin "Qanunnamə"sində Ağqoyunlu dövlətinin şəriətə uyğun olaraq topladığı vergilərin əsasları və miqdarları barədə mühüm məlumatlar verilmişdir. Kəndlərdəki tacirlər, sənətkarlar və əkinçilər *malucəhət* adlanan vergi ödəyirdi. Torpaq və məhsul vergisi *uşr və xarac,* ticarət və sənaye vergisi *tamğa,* gömrük vergisi *bac* və torpaq bastı vergisi *rəhdar* adlanırdı [215, 248].

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ayrı-ayrı ərazilərdən hansı miqdarda vergi alındığı barədə dəqiq məlumat olmasa da, bəzi bölgələrdən alınan vergi miqdarı barədə məlumatlar əldə etmək mümkündür. Uzun Həsən dövründə Gilan bölgəsindəki Biyə-pəs əyalətinin illik vergisi 7.200 kq. xam ipək müəyyən olunmuşdur. Bunun Bursa ipək bazarındakı dəyəri 1.2 milyon axça idi. Mazandaran bunun üç qatını ödəyəcəkdi [91, 147; 215, 248]. 1478-ci ildə Sultan Xəlil Fars vilayəti üçün illik 5 min tümən vergi müəyyən etmiş, Sultan Yaqub bu vergi yü-

künü xeyli azaltmalı olmuşdur. Ancaq nisbətən kasıb olan İraqi Əcəm vilayətinə 1479-cu ildə 70 min tümən vergi qoyulmuşdu. 1487-ci ildə Sultan Yaqub Gilan vilayəti üçün 1200 tümən vergi müəyyən etmişdi [231, 89; 215, 248].

S.Ərşahinin qeyd etdiyi kimi, şəhərlilər və kəndlilər üzərinə qoyulan vergilərin miqdarı dəyişdiyi üçün xalq arasında narazılığa yol açmış və hətta dövlətin süqutunun mühüm səbəblərindən biri olmuşdur. Təqribən 40 adda müxtəlif vergini ödəməyə məcbur olan kəndlilər üsyan qaldırmışlar. Ağqoyunlu dövlətində mərkəzi hakimiyyətin zəiflədiyi dövrlərdə vergiləri toplamaqda müəyyən çətinliklər ortaya çıxmışdır. Sultan Yaqubun hakimiyyəti dövründə bəzi bölgələr, xüsusən də Mazandaran vilayəti illik vergiləri gecikdirdiyi üçün Ağqoyunlu sultanı tərəfindən oraya ordu göndərilmişdir [356, 147; 215, 248-249].

Bununla yanaşı, Ağqoyunlu sultanları müəyyən dövrlərdə, xüsusən də Həcc ziyarəti zamanı Həcc karvanının keçdiyi ərazilərdə hacılar bac, tamğa və rəhdar vergisindən azad edilirdi. 1486-cı ildə Sultan Yaqub tərəfindən verilmiş fərmana görə, Ağqoyunlu torpaqlarından keçəcək hacılar Həcc yolu boyunca bac, tamğa və rəhdar vergisindən azad edilmişdir [215, 249].

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində 30-dan artıq vergi və mükəlləfiyyətlər mövcud olmuşdu. Türkiyə tarixçilərindən S.Ərşahin Ağqoyunlu dövlətində vergi sistemi barədə mühüm məlumat verir [215, 247-256]. Onun fikrincə, Ağqoyunlular vergi sistemini əsasən Elxanilərdən almışdılr. Elxani sarayında mühüm vəzifələr tutan Nəsirəddin Tusi hökmdarın vergi aldığı sosial zümrələri əkinçilər, tacirlər, maldarlar və tayyarat kimi müəyyənləşdirir. Ağqoyunlularda da buna oxşar zümrələrdən vergi alınmışdır [215, 248].

Başda taxıl olmaqla müxtəlif məhsullardan alınan vegi *uşr* adlanırdı. Qaraqoyunlu və Ağqoyunlularda uşr vergisinin miqdarı torpağın yararlılığı nəzərə alınaraq məhsulun yarısından onda birinə kimi dəyişirdi. Torpaq vergisi olan *xərac* Ağqoyunluların hakimiyyəti altında olan qeyri-müsəlmanlardan alınırdı. *Rəsmi cift* vergisini kəndlilər novruzda ödəyirdilər [215, 251].

İstifadə olunmuş suyun müqabilində kəndlilər *bəhrə* vergisini ödəyirdilər. Qeyri-qanuni surətdə, özbaşına toplanan vergilər *şiltaqat* adlanırdı.

İ.Ərdəm və K.Paydaşın fikrincə, Ağqoyunlu dövlətində heyvanlar üzərinə müxtəlif vergilər qoyulurdu. Heyvan sahiblərindən *məvaşi* vergisi alınırdı. Bu vergi sığır və qatırdan alınırdı. Diyarbəkr Qanunnaməsində hər inəkdən 6 axça alındığı bəlli olur. Sürü ilə qoyunu olan hər kəsdən yüz qoyuna görə bir qoyun alınırdı [204, 194]. S.Ərşahin yazır ki, Ağqoyunlu dövlətində heyvanlardan məvaşi ilə yanaşı, *rəsmi mərai, ağnam rəsmi, yaylaq rəsmi, qışlaq rəsmi, ağıl rəsmi* adı altında vergi alınırdı [215, 253]. Ağqoyunlular sahib olduqları sürüləri mövsümlə bağlı yaylağa və qışlağa aparmalı olduqları üçün *yaylaq və qışlaq* vergisini ödəyirdilər. Uzun Həsənin "Qanunnamə"sinə görə, dörd ayaqlı heyvanı olan hər yaylaqçı xanədan iki yüz dirhəm dəyərində olan yağ ödəyirdi. Qışlaq vergisi kimi novruzda hər sürüdən bir heyvan alınırdı [204, 195].

Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində alınan vergilər içərisində *ələfə* və *üləfə* vergisi mühüm yer tuturdu. Burada ordu əmirləri, elçilərin mindikləri və yük daşıdıqları heyvanlar üçün alınan arpa, saman və ot kimi yemlər nəzərdə tutulurdu [204, 195]. Ələfə istilahı qoşunlardakı heyvanların yemləməsindən ötrü əhalidən toplanan vergi olmuşdur. Bu söz altında bəzən hökumətin tələbi ilə döyüşçülər üçün rəiyyətdən yığılan ərzaq da başa düşülür. Üləfə isə dövlət məmurları və əsgərlər və vergiyığanlar üçün toplanan vergi növü idi [91, 84].

İ.Ərdəm və K.Paydaş yazır ki, əyalətlərdə olan döyüşçü və dövlət qulluqçularının ehtiyaclarını ödəməkdən ötrü əhalidən *ixracat* vergisi alınırdı [204, 195]. Həsən bəy Rumlunun verdiyi məlumata görə, Sultan Yaqub 1481-ci ildə ixracatın bir hissəsini, sonra isə hamısını ləğv etmişdi. Gödək Əhməd dövründə də "ixracat qapıları" bağlanmışdır [91, 85].

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ticarət və sənətkarlıq malları satılarkən onların üzərinə qoyulan vergi *tamğa* adlanırdı və pul ilə yığılırdı. İ.Ərdəm və K.Paydaş

yazır ki, bu vergi şəhərdə alınıb-satılan hər cür mallardan, toxunan qumaşdan və kəsilən heyvanlardan alınırdı. Ağqoyunlularda Uzun Həsən və xələfləri olan Sultan Yaqub və daha sonra dövlətin son dövrlərində – Sultan Əlvənd dövründə ticarət vergisi olan tamğa alınmaqda idi [204, 194; 215, 254]. Tamğanı toplayan şəxs tamğaçı adlanırdı. Təbrizdə vaxtı ilə qəssablıq edən və əxilər təşkilatına daxil olan Şeyx Əxi Qəssab bir müddət Təbrizdə tamğaçı işləmişdi [144, 100].

Bununla yanaşı Ağqoyunlu torpaqlarından tranzit olaraq keçən mallardan *bac* vergisi alınırdı [215, 254]. Şəhər qapılarının mühafizəçiləri üçün *bəvvabi* adlanan vergi ödənilirdi. Bu vergi şəhərin daxilindən, ya da kənarından gəlməsinə, şəhərdə satılıb-satılmamasına baxmayaraq, şəhər qapısından içəri keçən bəzi mallardan alınırdı. Bu mallar şəhərin içərisi ilə keçirilərdisə, o zaman həm girişdə, həm də çıxışda ödənirdi. Taxıl və süd məhsulları bu vergidən azad edilirdi [204, 196].

### *V. 2. Uzun Həsən və varislərinin islahatları*

Azərbaycan Ağqoyunlu dövlətinin banisi Uzun Həsənə Qaraqoyunlulardan acınacaqlı miras qalmışdı. Tayfa əmirlərinin Azərbaycan əhalisinin mənafeyinə zidd fəaliyyəti, sinfi ziddiyyətlərin kəskinləşməsi, hərbi-tayfa əyanları arasındakı daxili müharibələr nəticəsində dövlət tənəzzül prosesi keçirirdi. Buna görə də, Cənubi Azərbaycan əhalisi Qaraqoyunlu sülaləsinin sonuncu taxt-tac iddialarını müdafiə etmədi. Əhali hakim sülalənin dəyişməsini xeyirxaqlıqla qarşıladı.

Uzun Həsən öz hakimiyyətini möhkəmləndirmək məqsədilə əhalinin vəziyyətinin yüngülləşdirilməsi sahəsində bəzi tədbirlər gördü. Onun dövründə mərkəzi dövlət hakimiyyətinin oturaq əhaliyə arxalanması prosesi gedirdi. Uzun Həsən hərbi-tayfa əyanlarının separatizmini zəiflətmək, ərazicə geniş olan imperiyanı gücləndirmək üçün bəzi maliyyə və inzibati islahatlar həyata keçirməyə təşəbbüs göstərdi [74, 118].

S.Ərşahin haqlı olaraq qeyd edir ki, Ağqoyunlu dövlətində vilayətlərin idarə edilməsində yeni bir qayda yaratmaq cəhdləri,

onların mərkəzləşdirmə siyasətini tamamlayan şərtlərdən biri olmuşdur. Belə ki, mərkəzi hökumət vilayətlər üzərində hakimiyyətini tam şəkildə qurmaq, vilayət hakimlərinin baş qaldırmasını və müstəqil hərəkət etmək imkanlarını ortadan qaldırmağa çalışırdı. Uzun Həsənin "Qanunları" bu sahədə atılan ən önəmli addımlardan biri olmuşdu [215, 241].

Uzun Həsənin hakimiyyət başına gəldiyi illərdə şəhərlilər və kəndlilər üzərinə qoyulan vergi və mükəlləfiyyətlər çox ağır idi. Burada toplanan müxtəlif vergilərin miqdarı getdikcə artırdı [59, 131]. Bu, nəinki geniş xalq kütlələrinin vəziyyətini ağırlaşdırır, hətta ölkənin gəlirlərinin azalmasına səbəb olur, onun iqtisadi əsasını zəiflədirdi. Uzun Həsən vergi və mükəlləfiyyətlərin miqdarını müəyyənləşdirmək, zorakılığın qarşısını almaq, vergi toplayan məmurların xəyanətlərinə son qoymaq məqsədilə vergi işlərini nizama salan «Qanunnamə»* tərtib etdirdi [416, 171]. F.Sümer bu fikirləri müdafıə edərək yazır ki, Uzun Həsənin «Qanunnamə»si kəndlilərdən, sənətkarlardan və tacirlərdən alınan vergiləri qaydaya salmağı nəzərdə tuturdu. O, hətta bütün hərbi vergiləri ləvğ etməyə çalışmış, lakin mülki və hərbi əyanların etirazları ilə qarşılaşmışdı [317, 36; 319, 19].

Uzun Həsən uzaqgörən dövlət xadimi kimi yaxşı başa düşürdü ki, onun uğurlu hərbi qələbələri nəticəsində yaradılmış və tərkibinə müxtəlif xalqların, ölkələrin daxil olduğu Ağqoyunlu dövləti, ərazicə geniş olsa da, daxilən möhkəm deyildi və buna görə də, Osmanlı imperiyası kimi qüdrətli dövlətə qarşı dura bilməzdi. Qüdrətli xarici təhlükəni dəf etmək üçün, hər şeydən əvvəl, güclü mərkəzləşdirilmiş dövlət yaratmaq lazımdır. Odur ki, Uzun Həsən bu məqsədlə bir sıra islahatlar keçirdi. O, köçəri hərbçi əyanlara deyil, oturaq əhaliyə əsaslanmaq xətti götürdü. Cəmiyyəti yaşadan əsas istehsalçılar olan kənd-

---

* Həsən Padşah "Qanunları"nın XVI əsrin əvvəllərində Şərqi Anadoludakı (Diyarbəkr, Mardin, Ərzincan, Erqani, Ərəbgir, Urfa, Xarput, Çermik) fəaliyyəti ilə bağlı sənədlər Ö.L.Barkan tərəfindən 1941-ci ildə çap olunmuşdur Bax: [27, cilt I, sayı 2, s.91-106; sayı 3, s.184-196]. Bu sənədlər Ş.M.Mustafayev tərəfindən rus dilinə çevrilərək nəşr edilmişdir [Bax: 409, 149-186].

lilərin, habelə sənətkarların vəziyyətini nisbətən yaxşılaşdırmaq məqsədilə xüsusi "Qanunnamə" hazırlatdı [112, 117].

S.Ərşahinin əsərində Uzun Həsənin «Qanunnamə»si barədə dövrün ərəbdilli qaynaqlarından olan Qiyasinin verdiyi məlumat xususi maraq doğurur. Qiyasi yazır: «Həsən bəy ədalətli və xeyirxaq idi. O, bütün dövlət ərazisində tamğanı ləğv etmək istəyirdi. Lakin əmirləri onunla razılaşmadılar. Sultan tamğanı yarıbayarı azaldaraq 1/20 dirhəmə çatdırmışdı . O, bütün ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirdi. Uzun Həsən əhali arasındakı mübahisə və şikayətlərə aid "Qanunnamə" də tərtib etdirmişdi. O, günahkarları sərt şəkildə cəzalandırmağı tələb edirdi. Sultan "Qanunnamə"ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə göndərmişdi". O, ölkədəki əxlaqsızlıq yuvalarını və buraya bağlı olan meyxanələri və qumarxanələri bağlatdırdı, ölkəsində toplanmaqda olan torpaq vergisini azaldaraq məhsulun həcminin 1/6-i qədər müəyyən etdi, xalq arasında ortaya çıxan şikayətləri və düşmənçilikləri nizama salmaq üçün "Qanunnamə" hazırlatdı. O, günahkarları sərt şəkildə cəzalandırmaq üçün töhmət və cərimə (pul cəzası) müəyyən etdi və cinayətkarların cəzalandırılmasını tələb etdi. Gücü şatdıqca ədalət prinsipindən heç zaman uzaqlaşmadı» [215, 241-242; 74, 118; 134, 65].

S.Ərşahin haqlı olaraq qeyd edir ki, tarixçi Qiyasi Uzun Həsənin «Qanunnaməsi»nə cəza qanunu anlamını əlavə etmişdir. Digər tarixçilərin verdiyi izahdan fərqli olan bu dəyərləndirmə ayrı bir araşdırma mövzusudur. Uzun Həsənin hazırlatdığı bu "Qanunlar"ın Diyarbəkrdən Farsa qədər uzanan imperiyanın vilayətlərinin idarə edilməsində bir qayda yaradıb-yaratmadığını bilmirik. Ancaq bu qanunların Azərbaycanda, eləcə də Fars və İraqda həyata keçirildiyi məlumdur. Müəllifin fikrincə, «Həsən Padşah "Qanunlar"ı türk hüquq və maliyyə tarixi ilə maraqlananlar üçün önəmli bir qaynaq olduğu kimi, türkcənin inkişaf mərhələlərinə işıq tutacaq bilgilər də verməkdədir» [215, 242].

Şərəf xan Bidlisi yazır ki, Uzun Həsən «rəiyyət vergisi almaq üçün İran, Fars və Azərbaycan padşahlarının indi də (XVI

əsrdə – T.N.) əməl etdikləri qanun vermişdi» [59, 135]. Uzun Həsənin «Qanunnamə»si Osmanlılar tərəfindən bir müddət, Səfəvilər tərəfindən isə uzun zaman ərzində istifadə edilmişdir [316, 36; 318, 19]. F.Sümer bu sənədi Ağqoyunlu dövlətinin İslam aləminin maliyyə tarixinə mühüm bir töhfəsi kimi qiymətləndirir [317, 36; 319, 19].

Şübhəsiz ki, Uzun Həsən feodal özbaşınalığını məhdudlaşdırmaq və vergilərin yığılması zamanı sui-istifadə hallarını aradan qaldırmaqla iqtisadiyyatın inkişafına təkan vermək və xəzinənin zənginliyini təmin etmək istəyirdi. O, bu siyasəti həyata keçirərkən mərkəzi dövlət aparatının möhkəmləndirilməsində maraqlı olan ruhanilərə və mülki bürokratiyaya da arxalanırdı [437, 169-170; 74, 118].

K.Paydaş yazır ki, soyurqalların geniş paylanması ilə mərkəzi hakimiyyət zəifləmiş, dövlət vergilərdən məhrum olmuş və bunun nəticəsində məhkəmə və hərbi işlər tamamilə güclü torpaq sahiblərinin əlinə keçmişdir. Başqa sözlə, soyurqallar dövlət üçün bir təhdid mənbəyinə çevrilmişdir. Soyurqalların mövcudluğu dövlətin mərkəzləşdirilməsinə də zidd idi. Əslində Uzun Həsən dövründə dövlətin mərkəzləşdirilməsi ilə soyurqal torpaq sahibliyinin məhdudlaşdırılması uğrunda mübarizə başlanmışdı. Uzun Həsən köçəri əmirlərə qarşı mübarizədə din xadimlərinə arxalanmış və təbəənin bu ünlü təmsilçilərinə soyurqallar paylamışdı [288, 210; 437, 169-170].

Azərbaycan Ağqoyunlu dövlətində torpaq islahatına növbəti təşəbbüs Sultan Yaqub dövründə həyata keçirilmişdi. Sultan Yaqub atasının əmirlərin özbaşınalığını məhdudlaşdırmaq siyasətini davam etdirərək mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün mühüm tədbirlər gördü. O, hətta hakimiyyətinin başlanğıcında vergiləri 70 min tümən məbləğində azaltmağa məcbur oldu [74, 119].

Ağqoyunlu vəzirlərinin Sultan Yaquba uzun illər paylanılan soyurqalların xəzinəyə böyük zərər verdiyini ardıcıl olaraq xatırlatması, onun soyurqalın ləğv edilməsi barədə fərmanlar verməsinə səbəb olmuşdur. Onun bu qərarına müəyyən etirazlar

baş qaldırmışdır. Belə ki, Qazi İsa və Ağqoyunlu şeyxi Gülşəni arasında keçirilən müzakirələrdə Gülşəni ona belə hadisələrin hələ Uzun Həsənin dövründə də olduğunu bildirmişdi. O, Sultan Yaquba məktub göndərərək əvvəlki sultanların seyidlərə və şeyxlərə verdikləri soyurqalların ləğv edilməsinin doğru olmadığını göstərmişdi. Bunu nəzərə alan Sultan Yaqub yazılan fərmanların ləğv edilməsini əmr edərək, bu zümrələrin soyurqallarının özlərinə qaytarılmasına göstəriş vermişdir [bax: 35, 111-112; 291, 204].

S.Ərşahin Ağqoyunlu dövlətində Sultan Yaqub dövründə torpaq və maliyyə islahatının həyata keçirilməsinə yeni cəhd edildiyini yazır. Bu islahatların həyata keçirilməsi dövrünün güclü siyasi və dini şəxsiyyəti olan Qazi İsa tərəfindən 1489-cu ilin yanvarında həyata keçirilməyə çalışılmışdı [215, 242]. Qazi İsa yeni torpaq-maliyyə islahatını həyata keçirmək üçün xüsusi plan hazırlamışdı. Onun əsas məqsədi soyurqal torpaq sahibliyini azaltmaq və torpaq vergisinə yeni əlavələr etmək idi. Fəzlullah ibn Ruzbehan Xunci Sultan Yaqubun bu sahədəki tədbirlərinin səbəbini izah edərək yazırdı: “Çingiz xanın zamanından etibarən torpaq işi pozulmuş, müsəlman hüququ Çingiz xanın Yasası ilə sıxışdırılmışdı və şahın qanuni istəyi şəriətin müəyyən etdiklərini həyata keçirmək idi” [68, 105; 215, 243; 74, 119].

Fəzlullah ibn Ruzbehan Xunci yazır ki, Qazi İsa Sədr istəyirdi ki, qanuni maliyyə tədbirləri həyata keçirməklə tamğa adlı ticarət vergisini aradan qaldırsın, alış-veriş əməliyyatları genişlənsin, xəzinəyə gəlir gətirən mənbələri çoxaltsın, “mal qapıları” açılsın. Qazi bir neçə gün ərzində öz niyyətini həyata keçirməyə tərəddüd etmişdi. Nəhayət, bir axşam o, bu məsələdə müəyyən məsləhət almaq məqsədilə Divanın müşrifi və vəzir səlahiyyətini icra edən Şah Şərafəddin Mahmud Deyləmini yanına dəvət etmişdi [68, 106; 93, 41].

S.Ərşahinin fikrincə, Qazi İsa Ağqoyunlu dövlətində bir sıra islahatları həyata keçirməyə çalışmışdı. Bunlar içərisində Monqollar dövründə tətbiq olunan qeyri islami vergiləri ləğv etməyə çalışması xüsusi yer tuturdu. O, dövlətin gəlirlərini

lazımi səviyyədə saxlamaq üçün vəqf torpaqlarını dövlətin nəzarəti altına almışdı [215, 210].

S.Ərşahin F.R.Xuncinin verdiyi məlumata əsaslanaraq yazır ki, Qazi İsa çalışırdı ki, Sultan Yaqubun verəcəyi bir fərmanla əsas gəlir mənbəyinə daxil olan torpaqlardan aşkar yollarla pul toplansın və islama zidd olan tamğa vergisini ləğv etmək işini asanlaşdırsın. Qazi İsa yeni vergi məbləğini müəyyən etmək üçün torpaq sahələrinin dəqiqləşdirilməsini vəzirə həvalə etdi. O, bir gecə divanın müşrifi vəzir Şərəfəddin Mahmud Deyləmini yanına dəvət edərək Sultan Yaqubun şəriət hökmlərinə uyğun olaraq həyata keçirmək istədiyi planla onu tanış etdi [68, 106; 266, 867; 215, 243; 74, 119]. Qazi İsa qardaşı İmadəddin Şeyx Əlini Şərəfəddin Mahmud Deyləmi ilə birlikdə yerlərdə torpağın təftişi üçün öncə Farsa və Əcəm İraqına göndərdi. 1489-cu ili fevralın 5-də onlar Ordubazarda dayanaraq Fars və Əcəm İraqına bukavullar göndərdilər. Onlar divan işçilərinin torpaq sahəsinin ölçüsünü və qiymətini müəyyənləşdirdilər, soyurqalın ləğv olunduğunu elan etdilər. Dövlət və xəzinə ərazilərindən verilmiş xeyli soyurqal ləğv olundu. İslahat yalnız ruhanilərin deyil, hərbi tayfa əyanlarının soyurqalına da toxunurdu [68, 107; 266, 868; 215, 243; 74, 119].

Şübhəsiz ki, Qazi İsanın təşəbbüsü ilə həyata keçirilən islahat bölgələrdə ciddi narazılıq yaratdı. Divan məmurları tərəfindən insanlar və heyvanlar siyahıya alındı və onlar üzərinə yeni vergilər qoyuldu. Bu, öz növbəsində yerlərdə güclü narazılığa yol açdı. S.Ərşahin F.R.Xuncinin verdiyi məlumata əsaslanaraq Qazi İsanın torpaq islahatındakı uğursuzluğuna aydınlıq gətirməyə çalışır. Onun fikrincə, islahatın uğursuzluğuna səbəb onun həyata keçirilməsi zamanı ədalətdən uzaqlaşmaq və Sultan Yaqubun Qazi İsaya böyük etimad göstərməsi olmuşdur. Qazi İsanın qardaşı Şeyx Əli tərəfindən İsfahanda, Şirazda məzlumların qarət edilməsi nəticəsində toplanan vəsait xəzinəyə göndərilsə də, yerlərdə narazılığın güclənməsinə səbəb oldu [215, 243].

Dövrün mənbəyinin verdiyi məlumata görə, Fəzlullah ibn Ruzbehan Xunci Səhənd dağında Qazi İsa ilə görüşərək divan məmurlarının vilayətlərdəki özbaşınalığına diqqəti yönəldərək "məzlumların ciblərinə uzanan zalımların əllərinin kəsilməsini" söyləmişdi. F.R.Xunci Qazi İsanın qardaşının təcavüz yolu ilə məzlumların malını aldığını bildirərək islahatın gedişində mühüm səhvə yol verildiyini ona çatdırmışdı. Qazi İsa islahat komissiyasının məqsədinin qanuni olduğunu, islahatın gedişində xalqın rifahının yüksəldiyini və əsgərlərin maaşının ödənməsinin təmin edildiyini söyləmişdi. Onun qənaətinə görə, hökumətin fəaliyyət göstərməsi üçün xalqdan vergi toplanması və bunların əsgərlərə çatdırılması vacibdir [68, 108-109; 266, 871-872; 215, 245]. Sultan Yaqubun vaxtsız ölümü Qazi İsanın həyata keçirməyə çalışdığı torpaq-maliyyə islahatının yarımçıq qalmasına səbəb oldu. Az sonra Əmir Sufi Xəlil Mosullunun Qarabağda Qazi İsanı edam etdirməsi ilə islahat Ağqoyunlu hərbi-köçəri əyanlarının güclü müqaviməti nəticəsində uğursuzluqla nəticələndi.

Buna baxmayaraq, sonuncu Ağqoyunlu padşahlarından Gödək Əhmədin dövründə ölkədə islahat keçirməyə növbəti təşəbbüs göstərildi. Sultan Əhmədin məqsədi Osmanlı dövlətində olduğu kimi güclü mərkəzi hakimiyyət yaratmaq idi. O, köçəri əyanların müqavimətini qırmaq üçün mülki bürokratiyanın, din xadimlərinin və Azərbaycan xalqının köməyinə arxalanırdı. O, din xadimlərinin yardımını əldə etmək üçün olkədə şərab içməyi qadağan etdi. Yeni Ağqoyunlu hökmdarı mərkəzdə və vilayətlərdəki hərbi köçəri əmirləri nəzarət altına almaq üçün onların iqtisadi qüdrətini sarsıtmaq niyyətində idi. Bu məqsədlə o, hələ əvvəllər onlara geniş paylanmış olan təltifləri və imtiyazları dayandırdı və onlar üzərinə şəriətə uyğun vergilər qoydu [266, 876; 417, 148; 317, 11; 215, 128; 288, 210-211; 291, 207].

Sultan Əhməd şəriətə uyğun olaraq hər bir kəsin ödəməsi nəzərdə tutulan borclarına bir dinarın əlavə edilməməsini, əhalinin bütün təbəqəsinin divanın əlavə vergisindən azad edilməsini, heç kimin ixracat və şiltaqat vergisi ilə narahat edilməməsi

barədə vəzirlərə və divan məmurlarına əmrlər verdi. [266, 876; 215, 246; 291, 207].

Şübhəsiz ki, onun bu tədbiri müəyyən imtiyazlardan faydalanan hərbi köçəri əmirlərin iqtisadi və siyasi nüfuzuna güclü zərbə vurdu. Az sonra o, Bayandur və Pornək tayfa əmirlərinin təsirini zəiflətməyə çalışdı. K.Paydaşın fikrincə, Əhməd bəy Ağqoyunlu hökmdarı olduqdan sonra ölkədəki qarışıqlığa son qoymaq üçün Osmanlı idarə sietemini, dini və siyasi idarəçiliyi həyata keçirmək istədi. Ağqoyunlu hökmdarı ölkəsində rəiyyətə və əkinçilərə ədalət qaydalarının tətbiq olunduğunu elan etdi [288, 208]. K.Paydaş Xandəmirin verdiyi məlumata əsaslanaraq yazır ki, sultan Əhməd "şəriətin himayə bayrağını qaldırdı və hökm verdi ki, vergilər şəriətə uyğun olaraq qoyulsun, vəzirlər, divan məmurları kəndlilərə şəriətdən kənar bir dinar və bir man (buğda) da almaqla əziyyət verməsinlər, rəiyyəti divan vergilərindən azad bilib, heç kəsi ixracat və şiltaqatla incitməsinlər" [288, 208-209; 291, 207; 74, 120].

Bununla yanaşı, Sultan Əhməd ruhanilərə və mülki əyanlara arxalanmaqla hərbi-feodal əyanları zəiflətməyə çalışırdı. Onun fərmanı ilə mülk sahiblərinin soyurqal hüquqları ləğv olundu, çalma sahibləri vergilərdən azad edildilər. Əhməd sələflərinin hərbi-feodal əyanlara vermiş olduqları imtiyaz fərmanlarını qanunsuz elan etdi. O, bununla xəzinəni zənginləşdirməyə çalışır, vergiləri azaltmaq üçün zəmin yaratmaq istəyirdi. Onun islahatı əsasən köçəri hərbi tayfa əmirlərinə qarşı yönəldilmiş, ruhanilərin isə soyurqalları saxlanılmışdı. Sultan Əhmədin vergi islahatına əsasən yalnız şəriətdə nəzərdə tutulan vergi və mükəlləfiyyətlər: torpaq vergisi olan xərac və üşr, maldarlardan, əmlakdan və ticarətdən alınan zəkat, qeyri-müsəlmanlardan alınan can vergisi – cizyə saxlanılmışdı. Beləliklə, o, şəriətdə nəzərdə tutulmayan 20-yə yaxın vergi və mükəlləfiyyəti ləğv etdi. İxracat, şiltaqat, biyar və müsəlmanlardan adambaşına, ev hesabına alınan ən ağır vergilər də ləğv edildi. Əyalətlərdə əsgərlərin və dövlət qulluqçularının ehtiyacını ödəmək üçün yerli əhalidən toplanılan ixracat və bikar vergisi, ticarətin inkişa-

fına əngəl törədən tamğa vergisi də ləğv edilən vergilər arasında idi [266, 876; 437, 169-170; 215, 246; 288, 209-210; 74, 120-121].

K.Paydaşın fikrincə, Ağqoyunlu dövlətinin mərkəzi idarə sistemindəki əksiklikləri aradan qaldırmağa çalışan Sultan Əhməd təbəəsinə qarşı çox mərhəmətli davranan bir hökmdar idi. Onun qısa müddət davam edən hakimiyyəti dövründə ixracat qapısı elə bağanmışdı ki, heç kəs kəndlidən qanunsuz olaraq bir saman çöpü belə almağa cəsarət edə bilməzdi [288, 211-212].

Həsən bəy Rumluya görə, Sultan Əhməd xalqını sevən bir hökmdar idi. Onun dövründə yoxsulluq azalmış, içki içilməsinin qarşısı alınmışdı. O, dövrünün tanınmış alimlərinə qarşı hörmətlə yanaşırdı. Təşkil etdiyi toplantılarda elmi müzakirələrə üstünlük verər, özü də bu müzakirələrə qatılardı. O, fərmanlar vermək əvəzinə alimlərə, xüsusən də Mövlana Cəlaləddin Dəvvani və Mir Sədrəddin Məhəmmədə məktublar yazdığını, ədalət yaratmağa çalışaraq Ağqoyunlu əmirlərinin əlini zəiflərdən və vergi verən xalqdan çəkməyə çalışırdı. Çünki əmirlər ona qarşı özlərini itaətkar göstərsələr də, həqiqətdə ona qarşı idilər. Onun təbiətində dövlət malını qorumaq hakim idi. Buna görə də, özündən əvvəlki sultanların verdikləri soyurqalları nəzarət altına almağa çalışsa da, bu fəaliyyət ona uğur gətirmədi. Bu onun sonunu hazırlayan əsas səbəblərdən biri oldu [44, 24-25; 266, 877; 215, 247].

Digər Türkiyə tədqiqatçılarının fikrincə, Sultan Əhməd qısa hakimiyyəti dövründə rəiyyətdən qeyri-qanuni alınan vergiləri ləğv etdi. O, haram işlərdən və spirtli içkilərdən uzaq olduğu kimi, şəriətin və imanın yüksəldilməsinə çalışdı, alimlərə qarşı hörmətlə davrandı. Özünün də qatıldığı elmi müzakirələr təşkil etdi. Onun Nöktəçi Ala adında sözündən və yolundan çıxmayan bir şeyxi var idi. Şeyxin mühüm xüsusiyyəti tamahkar olması idi. Əhməd dədəsi, əmisi və əvvəlki sultanlar tərəfindən verilən soyurqalları geri almağa başladı. Ancaq onun bu siyasəti başda saray mənsublarının bir qismi, eləcə də üləma və əmirlər tərəfindən yaxşı qarşılanmadı. Sultan Əhməd qərarlı davranaraq

1497-ci ilin iyununda bacısının əri Hüseynəli xanı və digər əmirləri edam etdirsə də, öz məqsədinə çata bilmədi [266, 876-877; 215, 247].

Soyurqalların aradan qaldırılması Ağqoyunlu Əhməd dövründə ən radikal xarakter almışdır. Sultan Əhmədin məqsədi adil qanunlara dayanaraq köçəri əmirlərin kəndlilər üzərindəki səlahiyyətlərini əllərindən alaraq onları nəzarət altında saxlamaqdı. Əmirləri mərkəzi sistemə bağlamaq üçün ən böyük maneə onların geniş soyurqal sahibi olaraq böyük iqtisadi gücə malik olması idi. Bunu nəzərə alan Sultan Əhməd əvvəlki hökmdarların vermiş olduqları soyurqalları ləğv etdi. Ağqoyunlu hökmdarı bununla köçəri əmirlərə kəskin zərbə vurmağı düşünürdü. Ancaq Əhməd Padşahın almış olduğu bu qərarlar yalnız əmirlərə qarşı idi. Onun bu siyasəti bütün feodal təbəqəsinə qarşı deyildi. Lakin Əhmədin bu addımının uğurlu olması, son nəticədə onun digərlərinə də yönələcəyini göstərirdi. Ağqoyunlu əmirlərini mərkəzi hakimiyyətə tabe etmək üçün ən böyük maneə onların soyurqal sahibi olmaqla böyük iqtisadi gücə sahib olması idi. Bunu yaxşı bilən Ağqoyunlu hökmdarı özündən əvvəlki sultanların payladığı soyurqalı ləğv etdi. Sultan Əhməd həyata keçirdiyi tədbirlərlə Cənubi Azərbaycandakı hərbi köçəri əmirləri itaət altına almağa nail oldu. Lakin mərkəzi hakimiyyətin nəzarətindən çıxmış olan Əcəm İraqında və Fars vilayətində vəziyyət xeyli fərqli idi. Ağqoyunlu hökmdarının həyata keçirdiyi siyasət burada müsbət qarşılanmadı və hərbi köçəri əmirlərin ciddi müqaviməti ilə qarşılandı [288, 210-211; 437, 171].

Hələ Uzun Həsən dövründə dövlətin mərkəzləşdirmə siyasətinin başlanması ilə soyurqal torpaq sahibliyini məhdudlaşdırmaq uğrunda mübarizə başlamışdı. Uzun Həsən köçəri əmirlərə qarşı mübarizədə din xadimlərinə arxalanmış və onlara soyurqal paylamışdır. Soyurqal torpaq sahibliyinin ləğv olunması Gödək Əhməd dövründə daha radikal xarakter almışdır. Gödək Əhmədin məqsədi şəriət qaydalarına əsaslanaraq hərbi köçəri əmirlərin kəndlilər üzərindəki nüfuzuna ağır zərbə vuraraq onları nəzarət altına almaq idi [288, 210; 437, 169-170].

Şübhəsiz ki, hakimiyyətin mərkəzləşdirilməsinə yönəldilmiş islahat cəhdləri bu dəfə də nəticəsiz qaldı. Bu dövrdə islahatı həyata keçirməyə qarşı çıxmış siyasi qüvvələr daha güclü idi. Cəmi 7 ay hakimiyyətdə olmuş Sultan Əhmədin əmirlərin qaldırdığı qiyam zamanı öldürülməsi ilə həyata keçirilən islahatlar yarımçıq qaldı.

### *V. 3. Ticarətin inkişafı*

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri Qərb dünyası ilə geniş ticarət əlaqəsi yaratmışdılar. Mərkəzi Asiya, Çin, Hindistan və İran körfəzini Qara dəniz və Aralıq dənizi hövzələri ilə, Yaxın və Orta Şərq ölkələrini Dərbənd keçidi ilə və Volqa-Xəzər su yolu vasitəsilə Rusiya ilə əlaqələndirən beynəlxalq ticarət yollarının bu dövlətlərin ərazisindən keçməsi onların xarici iqtisadi əlaqələrinə müsbət təsir göstərirdi. Eyni zamanda, Azərbaycanın, habelə bütövlükdə Cənubi Qafqaz və İranın məşhur sənətkarlıq və ticarət mərkəzlərinin, xammal ehtiyatlarının bu dövlətlərin əlində cəmləşməsi onların bilavasitə özlərinin də Qərb ölkələri ilə geniş ticarət əlaqəsi saxlamasına əlverişli şərait yaradırdı. Azərbaycan ipəyi, xüsusilə xam ipək Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələrində mühüm rol oynayırdı. Azərbaycan dövlətlərinin Avropa ölkələri ilə qarşılıqlı ticarət əlaqələri, əslində Şərqlə Qərb sivilizasiyaları arasında ən qədim zamanlardan başlamış qarşılıqlı əlaqələrin davamı və konkret mərhələsi idi [112, 8].

XIV əsrin sonu-XV əsrin əvvəllərində hərbi əməliyyatlar nəticəsində ticarət-sənətkarlıq mərkəzləri və sənətkarlıq xammalının cəmləşdiyi bölgələrdəki böyük dağıntılar, tranzit yollarında təhlükənin artması Azərbaycanın bir çox ticarət-sənətkarlıq mərkəzlərinin zəifləməsinə səbəb oldu. Lakin, XV əsrin 30-80-cı illəri ölkənin nisbətən sabit siyasi şəraitdə inkişaf etməsi ilə əlamətdardır. Cahanşah Qaraqoyunlunun, Ağqoyunlu hökmdarları Uzun Həsən və Sultan Yaqubun hakimiyyətləri dövründə ölkənin iqtisadi həyatı daha yüksək inkişaf səviyyə-

sində olmuşdu. Uzun Həsənin islahatları şəhərlərin yüksəlişini təmin edən rəsmi tədbir idi [74, 109].

Bütövlükdə XV əsr (əsrin əvvəli və sonunu nəzərə almasaq) Azərbaycanda şəhər həyatının nəzərə çarpacaq dərəcədə canlanması, şəhərlərin ticarət-sənətkarlıq əhəmiyyətinin artması dövrü kimi qiymətləndirilə bilər. Şəhərlərin inkişafı həm daxili, həm də xarici bazarda əmtəələrə olan tələbatın artması ilə əlaqədar idi. Avropa ölkələrində və Asiyada əmtəə-pul münasibətlərinin inkişafı hər iki qitə arasında transit ticarətin genişlənməsinə şərait yaratdı. Azərbaycan şəhərləri bu inteqrasiya prosesində mühüm rol oynamışdır [74, 111].

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri ticarətin inkişafına xüsusi diqqət yetirirdilər. Onlar digər məsələlərdə olduğu kimi, ticarətin inkişaf etdirilməsi sahəsində də, Cəlairi və Teymuri dövlətlərinin təsirini hiss etmişdilər. Əmir Teymur ticarətin dövlət üçün ən böyük gəlir mənbəyi olduğunu nəzərə alaraq onun inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. O, tacirlərini dünyanın müxtəlif ölkələrinə – Çinə, Hindistana, Misirə və Avropa ölkələrinə göndərərək əldə edəcəkləri nadir məhsulları gətirmələrini tapşırırdı. Teymur sərmayəsini itirən tacirlərə əski sərmayəsi qədər pul verilməsini təmin etmişdi. Onun bu səyləri nəticəsində ticarət hərtərəfli inkişaf etmişdi [293, 214]. K.Paydaş yazır ki, Teymur imperiyasının yavaş-yavaş parçalanması nəticəsində Şərqdən Qərbə uzanan, Mərkəzi Asiya və Azərbaycandan keçən ticarət yollarında müəyyən durğunluq baş verdi və ticarət zəiflədi. Lakin XV əsrin II yarısında, xüsusən də Uzun Həsən dövründə ticarətdə müəyyən canlanma baş verdi [293, 214].

A.A.Arayancan yazır ki, XV əsrdə Qaraqoyunlu dövlətinin paytaxtı Təbriz şəhəri tranzit ticarət yollarının üzərində yerləşən önəmli ticarət mərkəzi idi. O, R.Q.Klavixonun verdiyi məlumata əsaslanaraq Təbriz şəhərində ticarətin inkişafı barədə yazırdı: “Təbriz həqiqətən zəngin və möhtəşəm bir şəhərdir. Şəhərin qapıları meydanlara açılır və meydanların hər birində karvansaray yerləşir. Karvansarayların içində ayrı-ayrı otaqlar və dü-

kanlar vardır. Karvansaraylardan hər bir küçəyə qapılar açılır və burada üxtəlif mallar satılır: ipək və pambıq parçalar, xam ipək və zinət əşyaları. Burada qızğın ticarət gedir. Bazarın bəzi yerlərində qadınlar üçün zinət əşyaları satılır. Qadınlar alış-veriş üçün özləri gəlirlər" [61, 77; 174[b], 307].

XV əsrdə Azərbaycanın xarici ticarət əlaqələrinin genişlənməsi, xüsusən Azərbaycan ərazisindən keçən beynəlxalq karvan yollarının daha da canlanması Azərbaycan şəhərlərinin, o cümlədən Təbriz, Şamaxı və başqa şəhərlərimizin iqtisadi həyatına müsbət təsir göstərdi. Belə ki, ayrı-ayrı sənətkarlıq sahələrinin inkişafı ilə yanaşı, beynəlxalq ticarət mərkəzləri olmaları da Azərbaycan şəhərlərinin iqtisadi tərəqqisində mühüm roy oynayırdı. Məhz Avropa-Asiya ticarətində əlaqələndirici rol oynadığı üçün Təbriz Yaxın və Orta Şərqin ən böyük ticarət mərkəzinə çevrildi. Ön Asiya ticarət mərkəzləri vasitəsi ilə İtaliyadan gətirilən mahud və şüşə məmulatı, Şəki, Şirvan, Gürcüstan, Gilan və Yəzdin xam və toxunulmuş ipəyi, Hindistandan, habelə Seylondan və Malakkadan gətirilən nadir boyalar və ədviyyat şeyləri, cürbəcür daş-qaş, Qahirə, İsgəndəriyyə və İstanbuldan gətirilən müxtəlif cür sənətkarlıq məmulatı məhz Təbriz bazarında satılırdı. Demək olar ki, bütün Şərqin ticarət sinirlərini özündə birləşdirən Təbriz, həm də Şərq mallarını xarici ölkələrə ixrac edən başlıca məntəqə idi. Təbrizin ixracatında xam ipək əsas rol oynayırdı. Təbriz və başqa Azərbaycan şəhərlərinin ticarət əhəmiyyətinin artması, ümumiyyətlə, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri ərazisindən keçən karvan yollarının canlanması ilə əlaqədar idi. Beləliklə, istər ayrı-ayrı Azərbaycan şəhərlərinin tərəqqisinə, istərsə də bütövlükdə Azərbaycanın iqtisadi inkişafına coğrafi amil – ölkənin beynəlxalq ticarət əlaqələrinin həyata keçirilməsi üçün əlverişli mövqedə yerləşməsi fəal təsir göstərirdi [112, 57].

Qeyd etmək lazımdır ki, müasir Türkiyə tarixçilərinin araşdırmalarında Azərbaycan ipəyi əsasən İran ipəyi, tacirlərimiz də İran və ya Əcəm taciri kimi təqdim olunmuşdur [Bax: 238, 270-271, 279; 236, 196-198; 221, 102-103; 293, 214-222].

Əslində isə Azərbaycanın Osmanlı dövləti ilə ticarətini həyata keçirənlərin böyük əksəriyyətini azərbaycanlı tacirlər təşkil etmişdi. Xəlil İnalcığın verdiyi məlumata görə, məhz XV əsrdə Azərbaycandan Bursaya gələn ipək tacirləri arasında azərbaycanlılar üstünlük təşkil edirdilər. Onların əksəriyyəti Təbriz, Şamaxı, Çuxursəd və Şirvandan olan tacirlər idi [238, 279].

Azərbaycan Qaraqoyunlu dövlətinin Osmanlı dövləti ilə ticarət əlaqələri Sultan II Murad dövründə xeyli genişlənmişdi. Qaraqoyunlu-Osmanlı siyasi münasibətlərinin normal səviyyədə olması, iki dövlət arasında iqtisadi əlaqələrin inkişafına müsbət təsir göstərmişdi. II Murad dövründə qarşılıqlı ticarət əlaqələrinin mövcudluğunu Osmanlı pullarının Azərbaycanda tədavüldə olması da təsdiq edir. Görünür, Osmanlı tacirləri bu dövrdə rahat şəkildə mal alıb satmaq üçün öz ölkələrinin pullarından istifadə etmişdilər [195, 108].

XV əsrin I yarısında, xüsusilə Qaraqoyunlu Cahanşahın hakimiyyəti dövründə ticarət sahəsində nisbətən canlanma nəzərə çarpır. Cahanşah daxili və xarici ticarətin inkişafına xüsusi səy göstərirdi. Belə ki, onun hakimiyyəti dövründə Bursadan Təbrizə mal gətirmiş Əhməd ibn Musa Təbrizdə vəfat edir. Dövlət məmurları onun 8 xalvar ipəyini mənimsəyirlər. Bu barədə Osmanlı hökmdarı Sultan II Mehmed Cahanşaha məktub yazaraq vəfat edənin mallarını onun oğlu, həm də varisi Bursalı Şeyx Mehmedə qaytarılmasını xahiş etmişdi. Təbriz tacirlərinin rəisi məlik-üt-tüccar Xacə Şəmsəddin bu barədə yoxlama aparır və Cahanşahın əmrilə mənimsənilmiş mal geri qaytarılır [145, 68; 195, 108-109; 174[b], 310].

XV əsrin ortalarına doğru Azərbaycan qonşu Osmanlı dövləti və Qərbi Avropa ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. Azərbaycan-Avropa ticarət əlaqələrində xam ipək mühüm rol oynayırdı. Uzun tarixi dövr ərzində aramsız olaraq dağıdıcı hərbi-siyasi toqquşmalar meydanına çevrildiyindən oturaq təsərrüfat sahələrinə ağır zərbə vurulduğu üçün Azərbaycanın xarici ticarətindən alınan gəlirin olduqca böyük əhəmiyyəti vardı. Buna görə də, Azərbaycan hökmdarları ölkənin xarici

ticarət əlaqələrinin, o cümlədən Avropa ölkələri ilə ipək ticarətinin genişləndirilməsinə xüsusi diqqət yetirirdilər [112, 60-61].

Bu dövrdə Azərbaycan malları ilə yüklü karvanlar Toqat üzərindən Bursa və İstanbul bazarlarına müntəzəm olaraq daşınırdı. Bu, Bursa və İstanbulda ipək sənayesinin inkişafını təmin edirdi. Azərbaycan ipəyini əldə etmək uğrunda Venesiya, Genuya və Florensiya tacirləri arasında ciddi rəqabət mövcud idi. X.İnalcık 1467-ci ilin avqustundan 1469-cu ilin iyuluna kimi Bursa Vərəsə dəftərində adı keçən xarici tacirlər arasında azərbaycanlı tacirlərin olduğunu qeyd edir. O, azərbaycanlı tacirlərdən ipək taciri Şamaxılı Xoca Əbdürrahim və Qiyasəddin bin Xeyrəddinin adını çəkir. 1488-ci il Vərəsə dəftərində haqqında məlumat verilən hər 3 kişidən ikisi azərbaycanlı tacirdir. Buraya gələn azərbaycanlı tacirlər gətirdikləri ipəyi Avropa yun parçaları ilə dəyişdirir, geri dönən zaman Bursanın ipək parçalarını, firəng çuxaları, qızıl, gümüş və mis götürdükləri bildirilir [236, 196-197; 195, 109].

Y.M.Mahmudovun qeyd etdiyi kimi, Azərbaycan şəhərlərinin Avropa ölkələri ilə ticarət əlaqələrinə rövnəq verən başlıca məhsullar yüksək keyfiyyətli ipək parçalar, xam ipək, mütəlif cür daş-qaş və ədviyyat şeyləri idi [112, 55].

Xəlil İnalcığın Bursa Qazi reyestrindən əldə etdiyi məlumatlardan görünür ki, Azərbaycan tacirlərinin əksəriyyətini Təbrizdən və Çuxursəddən gələn tacirlər təşkil etmişdi. Onlar Bursada Əcəm karvansarası adlanan ticarət mərkəzində qalırdılar. XV əsrin sonlarına aid Bursa reyestr dəftərində yer alan Əcəm rəis məhəlləsi Azərbaycan tacirlərinin Bursada yerləşdiyini və şəhərin inkişafında önəmli rol oynadığını göstərir [236, 198; 195, 109].

K.Paydaşın qeyd etdiyi kimi, Uzun Həsən ölkəsində ticarətin inkişafını təmin etmək üçün ölkənin hər yerində ticarət vergisi olan tamğanı 20 dirhəmdən 1 dirhəmə endirmişdi. Çünki çox yüksək olan bu ticarət vergisi ticarətin inkişafına əngəl törədirdi [293, 214]. İ.H.Uzunçarşılının fikrincə, Uzun Həsənin Rakka ətrafından keçən tacirlərə rahatlıq verməyərək onların

mallarını qarət edən Neşib, Uneyn və Rəbiə ərəb tayfalarına ciddi zərbə vuraraq tacirləri müdafiə etməsi, Ağqoyunlu hökmdarının ticarətə mühüm önəm verdiyini göstərir [346, 246; 293, 214-215].

Ağqoyunlu dövlətinin tanınmış üləmalarından Cəlaləddin Dəvvani Uzun Həsənin uzaq yerlərdən gələn tacirləri himayə etməsini yüksək qiymətləndirir. K.Paydaşın fikrincə, hökmdar bu hərəkəti ilə insanların sevgisini qazanacaq, tacirlərin himayəçisinə çevriləcək, nəticədə ölkəsinin rifahı yüksələcəkdir [293, 215]. Uzun Həsənin gömrük qanunlarında tez-tez firəngi atlaslarının, qumaşların adları çəkilir ki, bu da Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə geniş yicarət əlaqələri saxladığını sübut edir [193, 264-265; 112, 8].

Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, ipək və qumaş Azərbaycan bazarlarında önəmli yer tuturdu. Xüsusən də, XV əsrdə Avropada ipək toxuma sənayesinin inkişaf etməsi Bursa bazarında Azərbaycan və İran ipəyinə təlabatı artırmışdı. Təbriz-Bursa karvan yolu – biri şimalda Bolu-Kastamonu, digəri isə cənubda Ankara-Çorum üzərindən keçməklə Amasya – Toqat – Ərzincan – Ərzurum və Araz vadisindən keçərək Təbrizə çatırdı [232, 51; 293, 214].

K.Paydaş yazır ki, tacirlər tərəfindən Təbriz bazarından alınan xam ipəyi mühüm satış mərkəzlərinə çatdırmaq üçün karvanlar Təbriz – Çuxursəd üzərindən Ərzurum –Ərzincan – Toqat yolu ilə Amasyaya gəlirdi. Amasyada yol ikiyə ayrılırdı: biri şimalda Kastamonu – Bolu, digəri isə cənubda Çorum – Ankara yolu ilə Bursaya çatırdı. Dövrünün digər önəmli ipək bazarı olan Hələbə isə Ərzurum üzərindən Fərat vadisinə keçməklə, ya da Van-Bidlis-Diyarbəkr-Urfa-Birəcik yolu ilə gəlinirdi. [293, 214].

Azərbaycan ərazisindəki feodal dövlətlərin başçıları ölkənin beynəlxalq karvan ticarəti üçün əlverişli olan mövqeyindən geniş şəkildə istifadə edirdilər. XV əsrin II yarısında Azərbaycan ərazisindən keçən ticarət karvanlarından alınan gömrük Ağqoyunlu dövlətinin əsas gəlir mənbələrindən biri idi. Uzun

Həsənin qanunlarına əsasən iri ticarət məntəqələrində ipək karvanlarından gömrük almaq üçün xüsusi gömrükxanalar yaradılmışdı. Türkiyə tarixçisi Fəxri Dalsar Bursada ipəkçiliyin inkişafı tarixinə dair tədqiqatında XV əsrin 70-ci illərində Uzun Həsən tərəfindən verilmiş gömrük fərmanlarından bir neçəsini nəşr etdirmişdir. Bu qanunlara əsasən Ağqoyunlu ərazisindən qərbə aparılan hər Diyarbəkr batmanı ipəkdən 48 Diyarbəkr axçası gömrük alınırdı. Sonralar bu rəqəmin daha 12 axça artırıldığı məlumdur [193, 242; 112, 61].

XV əsrin II yarısında Uzun Həsənin hakimiyyəti dövründə Azərbaycan Ağqoyunlu dövləti ilə Avropa dövlətləri, xüsusən də Venesiya arasındakı iqtisadi və siyasi əlaqələr Təbriz şəhərinin daxili və xarici ticarətinin inkişafına böyük təsir göstərdi. Uzun Həsən öz dövrünə qədər mövcud olmuş qədim vergi və mükəlləfiyyətlərin ağır olduğunu nəzərə alaraq, ölkəsindəki iqtisadi vəziyyəti canlandırmaq üçün yeni vergi və mükəlləfiyyətlər tətbiq edərək ticarətin inkişaf etməsinə müsbət təsir göstərdi. Həsən Padşah "Qanunları" kimi tanınan bu "Qanunnamə" XVI əsrin I yarısına kimi, daha doğrusu 1557-ci ildə Şah Təhmasibin yeni "Qanunnamə" elan etməsinə qədər Azərbaycan Səfəvi dövlətində istifadə olunmuşdur. Bununla yanaşı, Uzun Həsənin Avropa dövlətləri ilə dostluq müqavilələri bağlaması ticarətin inkişafına səbəb olmuşdur [145, 68-69; 293, 217].

X.İnalcığın qeyd etdiyi kimi, Təbriz şəhəri Ağqoyunlulardan əvvəl də dünyanın inkişaf etmiş ən mühüm ticarət mərkəzi idi. Bağdadı və dünya ticarətinin Yaxın Şərqdəki digər mərkəzlərini kölgədə qoyan Təbriz Asiya ticarətinin ən böyük mərkəzinə çevrilmişdi. Təbrizdən çıxan ticarət yolu Ərzincan-Sivas şəhərlərindən keçməklə Konyaya, ya da hələ Elxanilər dövründə Asiya məhsullarının əsas ixrac limanı səviyyəsinə çatan İsgəndərun körfəzindəki Ayasa çatırdı. Konyadan gələn karvan yolları Dənizlidən keçib Efes və ya Antalya limanına yetişirdi. Qərb tacirləri ipək və ədviyyat məhsullarını bu limanlardan əldə edirdilər. Təbrizdə yerləşən İtaliya tacirləri özlərinin yun parçalarını burada Azərbaycan ipəyinə, yaxud da Hörmüz və Bağdad

üzərindən gətirilən Hindistan ədviyyatına dəyişirdilər [238, 270-271; 293 214].

1474-cü ildə Təbrizdə olan Venesiya elçisi Ambrosi Kontarini yazır ki, Təbrizin ərazisi geniş, əhalisi azdır. Burada hər cür ərzaq malları vardır. Ərzaq mallarının qiyməti bahadır. Şəhərdə bir neçə bazar vardır. Buraya çoxlu miqdarda ipək gətirilir. Sonralar, həmin ipək karvan vasitəsilə Hələb şəhərinə göndərilir [53, 90; 293, 217; 99, 133]. A.Kontarini Təbrizi əhalisi az olan bir şəhər kimi təsvir etməkdə yanılmışdır. Çünki daha mötəbər mənbələrin verdiyi məlumata görə Təbriz sıx əhaliyə malik bir şəhər olmuşdu. Hələ 1404-cü ildə Təbrizdə olan İspaniya elçisi Klavixo yazır ki, şəhərdə abad küçə və döngələr çoxdur, burada müxtəlif mallar satılır və yaxşı qurulmuş dükanlar var. Bu küçələrin və döngələrin arasında alkaseriyə* bənzəyən böyük evlər var, burada evlər və dükanlar, yaxşı təchiz olunmuş mağazalar var. Bu alkaserilərdə qapılar müxtəlif şeylər, misal üçün ipək və pambıq parçalar, sandal və tafta, ipək və mirvari satılan ayrı-ayrı küçələrə açılır. Alkaserilərdə də çoxlu müxtəlif şeylər satılır ... Bu şəhərdə heyrət olunacaq oymalar və şəbəkələr, yunan ustalarının işlədiyi mina və qızıl, habelə çoxlu gözəl şüşələrlə bəzədilmiş çox böyük binalar və məscidlər var ... Bu binaların və tikintilərin arasında, gözəl və zəngin işlənmiş, divarla əhatə olunmuş böyük bir ev olmuşdur, bu evdə iyirmi min hücrə və ayrı-ayrı otaqlar var imiş ... Bu şəhər çox böyükdür, bir gündə satılan və işlənən pul və malın sayına görə çox zəngindir; danışırlar ki, qabaqlar onun əhalisi daha sıx idi. Ancaq indi də əhalisi iki yüz min ev, bəlkə də bundan çoxdur [61, 77-78; 1, 177-178].

İosafat Barbaro da Ağqoyunlu dövlətində ticarətin yüksək inkişaf etdiyini vurğulayaraq, İsfahanda tacirlərin mallarını satmaq və saxlamaq üçün çoxotaqlı karvansarayların olduğunu yazır [26, 90; 293, 217-218]. İ.Barbaronun "Səyahətnamə"sində

---

* Alkaser – İspaniyada mavritan üslubunda tikilmiş qəsr və ya qalaya deyilir.

Ağqoyunluların Kaşan və Yəzd şəhərlərində də böyük miqdarda ipək hazırlandığını qeyd edir. Yəzddə ipək, pambıq və yun parça toxuyan çoxlu sənətkar vardır. Xalqın çoxu ipək parça toxumaqla məşğuldur. İpəyi Astrabad və Bakı dənizi yolu ilə Cığatay bölgəsindən gətirirdilər. Yəzdlilər hazırlamış olduqları parçaların bir hissəsini Hindistana, Cığataya, Çinə və Türkiyəyə göndərirdilər. Suriyanın xoş və gözəl toxunmuş ipək parçalarını satın alanlar, artıq Yəzdin ipək parçalarını seçirlər [26, 90, 91; 293, 218]. İ.Barbaronun verdiyi məlumata görə, Şiraz şəhəri də tacirlərlə dolu idi və bunların çoxu Heratdan, Səmərqənddən, Nisadan gəlmişdi. Fars yolunu tutan karvanların hamısı Şirazdan keçir. Bu şəhərin başlıca gəliri ləl-cəvahirat, böyük və kiçik ipək parçalar və ədviyyatdan əldə olunur [26, 92; 293, 218]. K.Paydaş İ.Barbaronun verdiyi məlumata əsaslanaraq yazır ki, Uzun Həsənə vergi ödəyən Hörmüz böyük ipək parça istehsalının mərkəzi idi. Hindistandan İrana və İrandan Hindistana gedən tacirlər buradan keçirdilər [26, 96; 293, 218].

K.Paydaşın fikrincə, Ağqoyunlu hökmdarları beynəlxalq ticarətə böyük əhəmiyyət verərək, ticarətin inkişafı üçün mühüm önəm daşıyan keçid yollarını öz nəzarətləri altına almağa çalışırdılar. Bu baxımdan Trabzon şəhəri Ağqoyunlular üçün böyük əhəmiyyət daşıyırdı. Bu şəhər Ağqoyunlu tacirlərinin Qara dənizə başlıca çıxış məntəqəsi idi. Ağqoyunlu tacirlər buraya ipək və digər şərq məhsullarını almağa gələn Venesiya, Genuya və digər Avropa tacirləri ilə görüşürdülər. Ağqoyunlu tacirlər Trabzon ticarətindən böyük qazanc əldə edərək bu şəhər vasitəsi ilə Krımdakı ticarət mərkəzləri ilə əlaqə saxlayırdılar [293, 217-218].

Trabzonun ticarətdəki önəmini nəzərə alan Ağqoyunlular Trabzon yunan imperatorları ilə qohumluluq əlaqəsi yaradaraq onları nəzarət altında saxlayırdı. Buna görə də, Fatehin Trabzonu fəth etməsinə mane olmağa çalışmışdı. Onun bu istəyində, Trabzon imperatorunu müdafiə etməkdən daha çox, bu önəmli ticarət yolunun Sultan Mehmedin əlinə keçməsinin qarşısını almaq mühüm yer tuturdu [293, 219; 327, 282]. Sultan Mehmedin

Trabzonu ələ keçirməsindən sonra Ağqoyunlular üçün Qara dənizdə genuyalılarla rəqabət aparan önəmli ticarət mərkəzi süqut etdi. Bununla da onlar Trabzonun Osmanlılar tərəfindən işğalından sonra Qara dənizə mühüm çıxışdan məhrum oldu.

Bu dövrdə, Azərbaycan, Osmanlı və İtaliya şəhər dövlətləri ipək ticarətinin iqtisadi və maliyə baxımından mühüm əhəmiyyətinin fərqində olduğu üçün ona üstünlük verirdilər. Təbriz ilə Bursa arasındakı ipək yoluna nəzarəti ələ keçirmək uğrunda başlanan mübarizə, XV əsrin ikinci yarısında Osmanlı dövləti ilə Ağqoyunlu dövləti arasında davam etməkdə idi [238, 281; 293, 219]. Sürəyya Faroqinin verdiyi məlumata görə, Azərbaycandan daşınan xam ipək İstanbulun Qalata adlanın hissəsində möhkəmlənən Genuya kolonistlərinə təhvil verilirdi. Bursalı tacirlər bu malı genuyalıların vasitəçiliyi ilə əldə edə bilirdilər. Bursalı tacirlər xam ipəyi Təbriz və Trabzondan da tədarük edə bilirdilər [221, 102; 195, 106]. Bu vəziyyət XV əsrin II yarısında kəskin şəkildə dəyişdi. Sultan II Mehmedin öncə İstanbulu, 1461-ci ildə isə Trabzonu fəth etməsi ilə Qara dəniz ticarəti tamamilə Osmanlı dövlətinin nəzarətinə keçdi. Bununla da Şərq və Qərb tranzit ticarəti Osmanlı dövlətinin əlinə keçdi.

XV əsrin II yarısındakı iqtisadi inkişaf beynəlxalq ticarət mərkəzi kimi Bursanın rolunu artırdı. Bursanı Təbriz və Şam üzərindən Şərqlə bağlayan ticarət yolları əvvəlki dövrlərə nisbətən fəaliyyətini xeyli artırdı. X.İnalcığın verdiyi məlumata görə, məhz XV əsrin 60-cı illərində tranzit ticarətdə Azərbaycanlı tacirlərin fəaliyyəti xeyli artmışdı [236, 196-197; 195, 106]. Məhz bu dövrdə Bursanı Azərbaycanla bağlayan karvan yollarından biri Bursa – Bolu – Toqat – Sivas və Ərzincan, digəri də Orta Anadoludan keçən Bursa – Kütahya – Konya – Kayseri – Sivas – Ərzincan yolu idi. Buraya gələn karvanlar Azərbaycanın içərilərinə doğru yönələrək Təbrizə, oradan da Ərdəbil üzərindən digər ticarət mərkəzi olan Şamaxıya gedirdi. Tacirlərin Azərbaycandan İstanbula həm quru, həm də dəniz yolu ilə çatması mümkün idi. Dəniz yolu ilə tacirlər İstanbul –

Sinop – Trabzon üzərindən Ərzincana yetişirdi [195, 107].

Göründüyü kimi, XV əsrdə Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisindən Asiya ilə Avropanı əlaqələndirən çox mühüm beynəlxalq karvan yolları keçirdi. Avropa ölkələrinin müxtəlif cür Şərq malları ilə, xüsusən ipək, ədviyyat, daş-qaş, habelə başqa məhsullarla təmin olunmasında bu ticarət yollarının böyük rolu var idi. Uzun müddət geniş ərazili feodal dövlətlərinin paytaxtı olmuş Azərbaycan şəhəri Təbriz isə, demək olar ki, bu beynəlxalq karvan yollarının hamısının qovşağında yerləşməklə, sanki Avropa – Asiya ticarətini tənzim edirdi [112, 59-60].

K.Paydaşın qeyd etdiyi kimi, Osmanlılarla Ağqoyunlular arasındakı mübarizənin başlıca səbəblərdən biri məhz bu ticarət rəqabəti idi. Azərbaycan ipəyindən Osmanlılar ilk gömrüyü Toqatda, ikincisini də Bursada alırdılar. Ağqoyunlular Toqatda ikinci bir gömrük alınmasından çox narazı idilər. Uzun Həsən bunu Fateh Sultan Mehmedin çıxardığı haqsız bir bidət sayaraq pisləyirdi. Bu səbəbdən, o, 1472-ci ildə Sultan II Mehmedin yeni bir gömrükxana yaratdığı Toqata Ağqoyunlu ordusunu göndərərək tranzit ipəyin saxlandığı anbarlar daxil olmaqla şəhəri talan etdirdi [293, 219; 356, 194].

Fateh Sultan Mehmed də Azərbaycan və Avropa ölkələri arasındakı tranzit ticarətə mane olaraq ölkəsindən keçirilən mallardan böyük həcmdə gömrük haqqı alırdı. Osmanlı sultanının bu gömrük siyasəti Avropa – Asiya tranzit ticarətinə mənfi təsir göstərirdi. Bu vəziyyət daha çox Ağqoyunlu dövlətində hiss edilirdi. Buna görə də, Avropa dövlətləri Ağqoyunlularla Osmanlılar arasındakı düşmənçiliyi öz məqsədləri üçün qızışdırırdılar. Buna görə də, Uzun Həsən Osmanlılara qarşı Avropa ölkələri ilə bilavasitə ticarət əlaqələri yaratmağa çalışırdı [293, 219-220].

XV əsrdə Azərbaycanın xarici ticarətinin əsasını xam ipək təşkil edirdi. X.İnalcığın verdiyi məlumata görə, məhz bu dövrdə Azərbaycandan Bursaya gələn ipək tacirləri arasında azərbaycanlılar üstünlük təşkil edirdilər. Əksəriyyəti Təbriz, Şamaxı,

Çuxursəd, Gilan və Şirvandan olan tacirlərlə yanaşı, onlar arasında Yəzd, Şiraz, Qəzvin, Kazerun, İsfahan və Səbzəvardan da tacirlər olurdu. Onların bəziləri Bursada yerləşirdilər. Təbriz kimi Bursa da Azərbaycanda və İrandakı ortaqlarının agenti kimi fəaliyyət göstərən azərbaycanlı tacirlərin və sərrafların qərargahına çevrilmişdi. Bunlar ya italiyanlar ilə Bursada əlaqə yaradaraq iş qurur, ya da öz təmsilçilərini Balkan ölkələrinə və İtaliyaya yollayırdılar. 1467-ci ildə Şamaxılı tacir Bursaya 200 min axça dəyərində 4400 librə (1408 kq) xam ipək gətirmişdi [238, 279; 293, 219]. X.İnalcık Bursa şeriyyə reyestirində öz əksini tapmış rəsmi sənədlərə dayanaraq göstərir ki, azərbaycanlı və iranlı tacirlər Bursada hüquqi cəhətdən sərbəst fəaliyyət göstərmək imkanına sahib idilər. 1490-cı ildə Sultan II Bayəzid tərəfindən inşa etdirilən Bursanın ən böyük Koza karvansarayı o dövrdə Əcəm karvansarayı kimi tanınmışdı [232, 52; 293, 219].

Azərbaycan Ağqoyunlu dövləti Avropanın əksər ölkələri ilə sıx ticarət əlaqələri yaratmışdı. Bu əlaqələr heç şübhə yoxdur ki, Şərq ölkələri ilə də qurulmuşdur. Ağqoyunluların ticarət əlaqələrinin genişlənməsi Hindistanda fəaliyyət göstərən Bəhməni xanədanlığı* ilə əlaqələrin yaranmasına gətirib çıxarmışdır. K.Paydaş yazır ki, Ağqoyunlularla Bəhmənilər arasındakı iqtisadi yaxınlaşma məşhur tacir Mahmud Gavanın Bəhməni dövlətinin vəziri seçilməsi sayəsində mümkün olmuşdur. Bu əlaqələr, XV əsrin II yarısında hindlilərin mal mübadiləsi ehtiyacını təmin etmək məqsədilə Ağqoyunlu və Bəhmən sarayları arasında əldə olunan razılıq nəticəsində mümkün olmuşdur. Mahmud Gavanın Uzun Həsənə göndərdiyi məktublarda ticarət əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı müəyyən təkliflər öz əksini tapmışdır [175, 12; 293, 219].

---

* Bəhmənilər dövləti 1347-1527-ci illər arasında Hindistanda Dekanda fəaliyyət göstərmişdir. Bu dövlət Dehli sultanı Məhəmməd Tuğlaginin yanında fəaliyyət göstərmiş Həsən Qanqu tərəfindən yaradılmışdır [Bax: Konukçu E. Hindistandakı türk devletleri. //Doğuşundan günümüze böyük islam tarihi, c. IX, Konya, 1994, s. 443; 293, 221].

Qeyd etmək lazımdır ki, Uzun Həsənin xarici ticarətə xüsusi önəm verməsi, onun ölkənin iqtisadi inkişafı üçün mühüm əmək sərf etdiyini göstərir. Lakin onun Otluqbeli döyüşündə Osmanlı Sultanı II Mehmedə məğlub olması iri feodalların, xüsusən də köçəri hərbi əyanların mərkəzi hakimiyyətə qarşı mübarizəsinə səbəb oldu. İri əmirlərin mərkəzi hakimiyyətə tabe olmaması, Ağqoyunlu dövləti üçün ciddi təhlükə yaratmağa başladı. Ağqoyulu sarayına elçi kimi göndərilən Katerino Zeno 1473-cü il iyulun 27-də Venesiyaya göndərdiyi məktubunda Ağqoyunlu ərazisində 20-yə qədər qalaya sahib olan Bidlis əmirlərinin mövcud olduğunu qeyd edir. Kirmanşahdan Təbrizə qədər fəaliyyət göstərən bu əmirlər Ağqoyunlu dövlətinin siyasi hakimiyyəti üçün təhlükə yaratdığı kimi, Ağqoyunlu dövlətinin ticarət həyatına da mənfi təsir göstərdi. Çünki, Azərbaycan Ağqoyunlu dövlətinin mərkəzi Təbriz şəhərini Hələb, Şam, Beyrut və Bəsrə kimi ticarət mərkəzləri ilə birləşdirən karvan yollarının çoxu Bidlis hakimlərinin yerləşdiyi dar keçidlərdən keçirdi. Yerli tayfalara məxsus soyğunçu dəstələr ticarət karvanlarını soyurdular. Buna görə də, Uzun Həsən Qaraqoyunlu Cahanşah və Teymuri Əbu Səid üzərindəki qələbədən sonra bir müddət mərkəzi hakimiyyətə tabe olmayan bu tayfaların müqavimətini qırmağa çalışaraq ticarət yollarının əmin-amanlığını təmin etməyə çalışmışdır. Ağqoyunlu sərkərdələri Sufi Xəlil, Süleyman bəy Bicənoğlu və Bayandur bəy ayrı-ayrı tayfalara məxsus qalaları ələ keçirmişdilər. Bidlis hakimi İbrahim bəy anasını çoxlu hədiyyələrlə Uzun Həsənin yanına göndərərək aman istədi və Ağqoyunlu hökmdarına tabe oldu [59, 428-430; 43, 492; 293, 219].

K.Paydaşın fikrincə, Uzun Həsənin ticarətin inkişafı üçün həyata keçirdiyi bütün tədbirlər apardığı müharibələr nəticəsində xeyli zəifləmiş və iqtisadiyyatı sarsıtmışdır. Ağqoyunlu hökmdarının apardığı müharibələrdən ən çox sənətkarlar, kiçik tacirlər və kəndlilər zərər görmüşdülər. 1474-cü ilin yayında baş qaldıran üsyanları yatırmaq üçün Uzun Həsənin oğlu Maqsud Mirzə Təbriz əhalisindən zorla pul toplamaq istəmiş, ancaq xalq onun istəyini yerinə yetirməkdən imtina etmişdi. Sənətkar və

tacirlər emalatxana və dükanlarını bağlayaraq evlərinə çəkilmişdilər [293, 221-222].

XV əsrin sonunda Azərbaycanın şəhər və kəndlərində məhsuldar qüvvələrin inkişafına əngəl olan feodal dağınıqlığı mövcud idi. Ayrı-ayrı Ağqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda gedən mübarizə şəhər əhalisinin vəziyyətini də ağırlaşdırdı. Feodal ara müharibələri zamanı şəhər bazarları bağlanır, ərzağın qiyməti artırılır, şəhərlərdən fövqəladə vergilər alınırdı ki, bu da onların vəziyyətini daha da ağırlaşdırdı. Bu zaman Azərbaycanda bir çox ictimai təbəqələr ölkəni böhran vəziyyətindən çıxarmaq, vergi sistemində qayda yaratmağa qabil olan güclü dövlət qurmağa tərəfdar idilər.

### *V. 4. Maarif və elm*

Müasir Türkiyə tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı tədqiqatlarda başlıca diqqət onların siyasi tarixinin araşdırılmasına yönəldilmişdir. Buna görə də, bu tədqiqatlarda elm və mədəniyyətin inkişafı ilə bağlı məsələlərə az diqqət yetirilmişdir. İlk dəfə İ.H.Uzunçarşılı “Anadolu bəylikləri və Ağqoyunlu, Qaraqoyunlu dövlətləri” adlı əsərində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində elm və mədəniyyətin inkişafı ilə bağlı müxtəsər məlumat vermişdir [Bax: 346, 224-227]. F.Sümer Qaraqoyunlu dövlətinin tarixini Cahanşahın hakimiyyətinə kimi tədqiq etsə də, burada elm və mədəniyyət məsələlərinə toxunulmamışdır. Lakin elm və mədəniyyətin inkişafına dair müstəqil araşdırmaların olmamasına baxmayaraq, Qaraqoyunlu dövlətinin siyasi tarixi tədqiq edilən zaman Qaraqoyunlu Cahanşah və oğlu Pirbudağın sənətkarları himayə etdikləri və şeir yazdıqları qeyd edilmişdir [358, 274; 273, 696-697].

İ.H.Uzunçarşılı yazır ki, XV əsrin ilk yarısında Şərqi Anadolu və İranda (o cümlədən Azərbaycanda-T.N.) yarım əsrdən çox baş verən siyasi hadisələr nəticəsində sönük yanan işığın yenidən parladığını görürük. Təbrizi paytaxt seçən Qaraqoyunlu və Ağqoyunlu dövlətləri inkişaf edərkən, əvvəllər

Elxanilər dövründə mühüm elmi mərkəz olan Təbriz öz əski ənənələrini bərpa etməkdə idi. Qaraqoyunlu hökmdarı Qara Yusif bir tərəfdən ordusunu möhkəmləndirir, ölkəsində təsərrüfatın və ticarətin inkişafına çalışır, digər tərəfdən də elmin və maarifin inkişaf etməsinə fikir verirdi [358, 224].

Muhsin Məcidin fikrincə, Qaraqoyunlu türkmanları dövlət təşkilatları və idarə sistemlərində olduğu kimi, mədəniyyət və sənət sahəsində də Cəlairilərin mirasına sahib olmuşdular. Cəlairi hökmdarları elm və sənət adamlarını himayə etməklə kifayətlənməmiş, özləri də yazmış olduqları əsərlərlə bu fəaliyyətə qatılmışdılar. Xüsusən də, Cəlairi Sultan Əhməd böyük şair, xəttat və musiqişünas olmuşdur. O, türk musiqi tarixinin ən tanınmış simalarından olan Əbdülqadir Marağayinin müəllimi olmuşdur. Əbdülqadir müəllimi Cəlairi Əhməddən bəhs edərkən onun müsiqi elmini yaxşı bildiyini, telli sazları çaldığını, çox yaxşı bəstələr hazırladığını, Səfiyəddin Urməvinin "Kitab əl-ədvar" və "Şərəfiyyə" adlı ərəbcə yazılmış əsərlərini ona oxutdurduğunu qeyd edir [177, 31; 273, 696]. Cəlairi Əhmədin şeirləri və Əbdülqadir Marağayinin musiqiyə dair əsərləri Qaraqoyunluların hakimiyyəti dövründə elm və sənətin hansı səviyyədə inkişaf etdiyini göstərir.

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri elmin və maarifin inkişafına xüsusi diqqət yetirirdilər. Bu dövrdə Azərbaycan Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Maarif sahəsində xeyli inkişaf nəzərə çarpırdı. Yeni məktəblər və mədrəsələr təsis olunurdu. İbtidai təhsil müəssisələri "məktəb", orta təhsil müəssisələri isə "mədrəsə" adlanırdı. Şagird məktəbdə müxtəlif fənlər haqqında ilkin məlumat əldə edirdi. Məktəb mədrəsə üçün hazırlıq mərhələsi sayılırdı. Mədrəsələrdə dini təlim əsas yer tuturdu. Lakin bununla yanaşı, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, nücum, məntiq və fəlsəfə dərsləri keçilirdi [74, 123].

Qeyd etdiyimiz kimi məktəb və mədrəsə başlıca təhsil müəssisələri idi. S.Ərşahin yazır ki, təhsil müəssisələri içərisində ən geniş yayılanı əsasən came və məscidlərin nəzdində

fəaliyyət göstərən məhəllə məktəbləri idi. Burada təhsil imam və ya müəzzin tərəfindən verilirdi. Onlar göstərdikləri xidmətlərin əvəzinə şagirdlərin ailələrindən müəyyən yardım alırdılar. Əgər məktəb hər hansı bir vəqfə bağlı idisə onun gəlirindən müəllimə də verilirdi. Məhəllə məktəblərinin başlıca məqsədi şagirdlərə əsas dini bilikləri vermək və daha çalışqan şagirdləri mədrəsələrə hazırlamaq idi [215, 214].

Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Qaraqoyunlu və Ağqoyunlu hökmdarları adlı-sanlı alimləri və sənətkarları himayə etməklə siyasi hakimiyyətlərini möhkəmləndirməyə çalışırdılar. Cahanşah mərkəzi hakimiyyəti gücləndirmək üçün mühüm addımlar atmışdı. O, təhsilin inkişafına xüsusi diqqət yetirmişdi. 1465-ci ildə Təbrizdə Müzəffəriyyə mədrəsəsini açdırmışdı. Bu mədrəsədə dərs verən mədəniyyət və sənət adamları sonralar Ağqoyunlular dövründə, xüsusən də alim və sənətkarları himayə edən Sultan Yaqub dövründə də bu təhsil mərkəzində çalışmışdılar. Müzəffəriyyə mədrəsəsinin müdərrislərindən olan Cəlaləddin Dəvvani Ağqoyunlular dövründə də himayə edilmişdi [273, 699; 174[b], 381]. Qaraqoyunlu Cahanşah elmin, mədəniyyətin inkişafına xüsusi diqqət yetirirdi. Cahanşahın sarayı Azərbaycan mədəniyyətinin mərkəzinə çevrilmişdi. Sarayda təşkil olunmuş ədəbi məclisdə şairlər öz şeirlərini oxuyurdular. Bu şairlər qrupuna daxil olan Cahanşah "Həqiqi" təxəllüsü ilə Azərbaycan və fars dillərində qiymətli əsərlər yazmışdır [99, 175-176].

Qaraqoyunlu hökmdarı Cahanşah hakimiyyəti dövründə elmə və alimlərə hörmət göstərmiş, elm adamlarını və sənətkarları qorumuş, Təbrizdə və digər böyük şəhərlərdə mədrəsə, kitabxana və camelər tikdirmişdir. Onun Təbrizdə tikdirdiyi Müzəffəriyyə mədrəsəsi dövrünün elmi mərkəzlərindən biri olmuşdur. Bura tanınmış mədəniyyət və sənət adamlarının yetişməsində mühüm rol oynamış, Azərbaycan, Herat, İraq və İranın tanınmış şair, alim və ədiblərini ətrafına toplamışdır. O, bu tədbirləri ilə himayə etdiyi sənətkarların əsərlərində dönə-dönə xatırlanmışdır. Cahanşahın ədəbi görüşlərində xüsusi önəm ver-

diyi ən tanınmış şəxsiyyətlərdən biri Əbdürrəhman Camidir [174, 245; 174[b], 381]. Cahanşah fars-tacik ədəbiyyatının görkəmli nümayəndəsi olan Əbdürrəhman Cami ilə yaxşı əlaqələr yaratmış və bu əlaqələr dostluq səviyyəsinə yüksəlmişdir. Cahanşahın Ə.Cami ilə dostluğuna və ədəbi əlaqələrinə son dərəcə önəm verməsi, əslində hökmdar - sənətkar əlaqəsindəki həssas məqamları anlamaq üçün olduqca əhəmiyyətlidir [247, 67-68; 174, 245]. Cahanşah yazdığı divanını Camiyə göndərərək onun fikrini öyrənməyə çalışmışdı. O, göndərdiyi məktubla birlikdə Camiyə 2 min dinar pul və dəri kürk hədiyyə yollamışdı. Cahanşahın divanını oxuyan Ə.Cami mənzum bir məktubunda ona "Şah Həqiqi" deyə xitab etmişdi. O, bu mənzum məktubunda Cahanşahın divanını bir gülə bənzədərək qiymətli daşlarla bəzədilmiş inciyə oxşatmış, üslubunu və dəyərini anlatmaq üçün onu Mövlananın "Məsnəvisi"nə və Mahmud Şəbüstərinin "Gülşəni-raz"ına bənzətmişdir [174, 246]. Əbdürrəhman Cami özünün "Risalei-münşəat" adlı əlyazmasında Cahanşahın şeirlərindən parçalar gətirərək, onun şeirlərinə böyük qiymət verir [99, 176]. Cahanşah Həqiqi şeirə, musiqiyə, folklora böyük həvəs göstərmiş, dövrünün mütərəqqi şəxsləri ilə yaxın əlaqə saxlamış, elmə və maarifə rəğbət bəsləmişdir.

Təsəvvüf, ədəbiyyat, memarlıq və musiqiyə böyük önəm verən Cahanşah yalnız Şərq ədəbiyyatı ilə deyil, Qərb ədəbiyyatına da maraq göstərmiş və o dövrün əsərlərindən xəbərdar olmuşdur. Dante və Petranayı tanıması onun Qərb şeiri ilə nə qədər məlumatlı olduğunu göstərir. XV əsrdə Qaraqoyunlu dövləti Venesiya ilə sıx əlaqələr saxladığı üçün Cahanşah Dante və Etrarkane ilə bağlı məlumatlar əldə etmişdi. Cahanşah Qaraqoyunlu dövləti ilə Venesiya arasında ticarət əlaqələri saxladığı üçün bütün İtaliyanın o dövrdəki böyük şairləri ilə tanış olmuş və əsərlərini oxumuş olması mümkündür [100, 9; 174, 246; 174[b], 378].

Ə.Təmizəl yazır ki, Azərbaycan klassik şeirinin ən gözəl nümunələrini yaradan və Azərbaycan türk ədəbiyyatında ikinci Mövlana kimi tanınan Cahanşah Həqiqi Qazi Bürhanəddin və

Şah İsmayıl Xətai kimi öndə gələn şairlərdən biridir. Onun divanı orta çağ Azərbaycan türk dilinin inkişaf xəttini izləməyə imkan yaradır. Şeirləri məzmun baxımından axıcıdır və dövrün danışıq dilini öyrənmək baxımından əhəmiyyətlidir. Şeirlərində şahmat oyununa bələd olduğu, Azərbaycan türk musiqisini yaxından tanıdığı anlaşılır. Türkcə şeirlərində dil və məzmun baxımından Nəsiminin təsiri hiss edilir [267, 167; 331, 58].

J.Dəmirçinin fikrincə, hələ vaxtı ilə V.Minorski tərəfindən Cahanşahın türkcə şeirləri ilə bağlı yazılmış məqalə bu mövzuda növbəti araşdırmalar üçün zəmin yaratdı. V.Minorski Cahanşahın divanının London nüsxəsinə əsaslanaraq onun farsca-türkcə divanı barədə yazdığı məqaləsində Cahanşahın 105 farsca, 87 türkcə qəzəlləri və 32 türkcə rübaisi barədə məlumat vermişdi [198, 127-138].

Qaraqoyunlu Cahanşahın ədəbi fəaliyyəti ilə bağlı Türkiyədə mühüm tədqiqatlar aparılmışdır. Jalə Dəmirçi "Cahanşah (Həqiqi) divanının iki yeni nüsxəsi" adlı məqaləsində İstanbul Süleymaniyyə kitabxanasında və Ankara Universiteti DTCF kitabxanasında saxlanılan Cahanşahın türkcə divanları barədə məlumat verərək türkcə 5 qəzəlini və 15 rübaisini çap etdirmişdir [198, 127-138]. Türk tədqiqatçılarından Muhsin Məcid Cahanşah Həqiqinin həyat və fəaliyyəti, şeirləri ilə bağlı mühüm araşdırmalar aparmışdır [Bax: 274, 9-19; 272, 53-72; 273, 696-701]. Veyis Dəyirmançay isə "Qaraqoyunlu Cahanşah və farca şeirləri (Divan-i Həqiqi)" adlı əsərində Cahanşah Həqiqinin London, İstanbul, Ankara və İrəvandakı divanlarının müqayisəli təhlilini vermişdir [199]. O, eyni zamanda Cahanşahın farsca divanının tərcüməsini də çap etdirmişdir. Əli Təmizəl "Mirzə Cahanşah Həqiqi və Mövlana, ney və Mövlananın məzarı haqqında şeirləri" adlı məqaləsində Cahanşahın türkcə və farsca 5 nüsxəsi bəlli olan divanları barədə məlumat vermiş və onun ney, Mövlananın məzarı barədə şeirlərinin təhlilini təqdim etmişdir [331, 55-72]. A.A.Arayancan isə "Ağqoyunlu və Qaraqoyunlularda ədəbiyyat və sənət" adlı məqaləsində Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ədəbiyyatın və sənətin

inkişafında Teymurilərin təsirinə xüsusi diqqət yetirmişdir [174, 239-250]. Onun fikrincə, Qaraqoyunlu və Ağqoyunlular dövründə siyasi mübarizənin davam etməsinə baxmayaraq, Teymurilər dövləti ilə mədəni əlaqələr davam etmişdir. Bu dövlətlərin təsəvvüf ədəbiyyatına qayğı göstərməsi Herat-Təbriz-İstanbul xəttində türk mədəniyyətinin və ədəbiyyatının inkişafına böyük təsir göstərmişdir [174, 249-250].

Muhsin Məcidin fikrincə, Cahanşah dövründə mədəni fəaliyyət mərkəzinə çevrilən Qaraqoyunlu sarayı ətrafında türkcə yazan bir çox şairlərin toplanması onun ədəbiyyata və türk dilindən istifadə olunmasına nə qədər böyük önəm verdiyini göstərir [274, 54; 174, 244].

Qaraqoyunlu Cahanşahın yazdığı şeirlər XV əsr ədəbiyyatında türk və fars dillərinin birgə istifadə olunmasına gözəl örnəkdir. Alimlərə, ədiblərə və sənət adamlarına hörmətlə yanaşan Qaraqoyunlu xanədanlığında Cahanşahdan başqa oğlu Pirbudaq, İsgəndərin qızları Arayiş və Şah Saray da şair olmuşdu. Pirbudaq şeirlərini "Budaq" təxəllüsü ilə yazmışdır [274, 14; 174, 247]. A.A.Arayancanın fikrincə, Cahanşahın əmirlərindən olan Əbülfəth bəyin oğlu Mahmud bəy Salim dövrün tanınmış şairlərindən biri olmuşdur. O, "Şahnamey-i Təhmasib" məsnəvisinin müəllifidir. Dövrün şairləri arasında Şeyx Şücaəddin bin Kəmaləddin Kirmani də önəmli yer tutur. 1462-ci ildə o, "Hədiqətül-Maarif"əsərini tamamlamışdır [174b, 385]. V.Dəyirmançayın fikrincə, Cahanşah dövrünün tanınmış şairlərindən biri də Tüfeyli Azərbaycanidir. O, çox zaman elm və fiqhlə məşğul olmuşdur [199, 78]. A.A.Arayancanın qənaətinə görə, bir dövlətin inkişafı və siyasi mübarizədə hökmdarın nəzarəti öz əllərində saxlaması tanınmış sənatkarların və alimlərin dövlət tərəfindən qorunması və onlara qayğı göstərilməsi nəticəsində mümkündür. Cahanşah bu məsələdə çox diqqətli olmuş, mədəniyyətin və incəsənətin inkişaf etməsi üçün sarayını şairlərə, nədimlərə, elm adamlarına açmış, onları himayə edərək siyasi gücünü inkişaf etdirmyə çalışmışdır. O, Təbrizdə mərkəzi hakimiyyəti qoruyub saxlamaq, türk mədəniyyətini və incəsənətini daha da inkişaf

etdirmək üçün dövrünün ən məşhur sənətkarlarını, ədəbiyyatçıları ilə yaxşı əlaqələr yaradaraq onları himayəsi altına almışdır [174$^b$, 385]. Əbubəkr Tehraninin bu məsələ ilə bağlı “Daim seyidlərin və üləmaların ehtiyaclarını təmin etməklə, məzlumları qəddarların əlindən qurtarmaqla məşğul olurdum. Mən həm də, buyruq əsasında Sultanın tarixini yazmala məşğul olur, hərdən bir səhifə yazırdım” deməsi xüsusi önəm daşıyır [13, 188; 174$^b$, 385].

Cahanşah Həqiqinin mütərəqqi və müstəqil siyasəti dövrünün mühafizəkar din xadimlərini narazı salmışdı. O, fars və Azərbaycan (türk) dilində məsnəvi, qəzəl və rübailər yazmış, şeirlər divanının müəllifi kimi tanınmışdır. Azərbaycan ədəbiyyatında doğma dilin tədricən ön mövqelərə çıxması və milli ədəbi dilin saflaşması prosesində Cahanşah Həqiqinin nəzərəçarpacaq rolu olmuşdur [104, 218]. A.A.Arayancanın fikrincə, Cahanşah şeirlə yanaşı, musiqi və folklora böyük əhəmiyyət vermiş, dövrünün önəmli şəxsləri ilə yaxın əlaqə yaratmış, elmə və təhsilə xüsusi diqqət yetirmişdir [174$^b$, 381].

Qaraqoyunlu sarayında yaşamış Azərbaycan şairləri içərisində Ziyayi Ordubadi görkəmli yer tutur. O, ədəbi təhsilini böyük özbək şairi Əlişir Nəvainin rəhbərliyi altında Xorasanda almış və Azərbaycana qayıtdıqdan sonra xalqının mədəni inkişafına xidmət etmişdir. XV əsrdə Azərbaycanın ən mübariz şairlərindən biri Şah Qasım Ənvər olmuşdur. O, Sərab şəhərində anadan olmuş[*], sonra ailəsi ilə Ərdəbilə köçərək təhsilini burada başa çatdırmışdır. O, gənc ikən Şeyx Sədrəddin Ərdəbilinin müridlərindən olmuş, sufi ideyalarına ömrünün sonunadək sadiq qalmışdır. O, öz zahiri və daxili fəzilətlərini təkmilləşdirdikdən sonra Azərbaycandan Gilana, Xorasana və daha sonra Herata gəlmiş və orada yaşamışdır. O, yüksək mənəvi qürura malik olaraq, Şahrux Mirzədən və onun övladından asılı olmadığını və onlara etinasızlığını göstərdiyinə görə, 1426-cı ildə hürufilərə

[*] Muhsin Məcid Şah Qasım Ənvərin Təbrizin Sürhab məhəlləsində doğulduğunu yazır [Bax: 274, 28].

yaxınlıqda təqsirləndirildi və Səmərqəndə qovuldu. O, burada bir müddət məşhur dövlət xadimi, alim Uluqbəyin himayəsində yaşadı, sonra isə Xorasana qayıdaraq Əbdürrəhman Caminin vətəni olan Cam vilayətinin Cacrud kəndində məskən saldı. O, ömrünün sonunadək burada yaşadı, sufi ideyalarının təbliği ilə məşğul oldu. Onun türk və fars dillərində yazılmış qiymətli əsərləri arasında "Divanı", "Məqamatül-arifin", "Ənisül-arifin" əsərləri xüsusi yer tutur [274, 28; 155, 62; 104, 217].

A.A.Arayancanın qeyd etdiyi kimi, Ağqoyunlular hakimiyyəti Qaraqoyunlulardan alan zaman Təbrizdə fəaliyyət göstərən elm və sənət mərkəzlərini öz himayələrinə alaraq onların inkişafına təkan verdilər. Ağqoyunlu sultanları Qaraqoyunlular dövründə fəaliyyət göstərən Müzəffəriyyə mədrəsəsində çalışan alimləri və sənət adamlarını himayə etdilər. Məşhur alimlərdən Cəlaləddin Dəvvani Ağqoyunluların xidmətinə keçməzdən əvvəl Təbrizdə Cahanşahın tikdirdiyi Müzəffəriyyə mədrəsəsində dərs vermiş və farsca yazdığı "Risale-i huruf" adlı əsərini ona həsr etmişdir [274, 30; 174, 243].

Azərbaycan Ağqoyunlu hökmdarı Uzun Həsənin dövrünün tanınmış alimlərini, din xadimlərini, sənətkarlarını himayə etməsini dövrün mənbələri təsdiq edir. 1471-ci il iyunun 20-də Uzun Həsənin Təbrizə daxil olduğu zaman gördüyü işləri təsvir edən Əbubəkr Tehrani yazır: "Sahibqran ... uğurlu bir saatda Təbriz şəhərinə daxil oldu və Azərbaycan diyarını öz qədəmləri ilə şərəfləndirdi. O diyarın fəqir və miskinlərinin üzünə xeyrat və ehsan qapılarını açdı. Bir neçə gün ardıcıl şəkildə etibarlı adamlara böyük məbləğdə vəsait verdi ki, ölkənin alimlərindən, möminlərindən, dərvişlərindən kimin nə qədər ehtiyacı varsa, onlara paylasın. Hər gün ariflərin başçısı Baba Əbdürrəhmanın dərvişləri üçün təşkil olunmuş yerdə halal süfrələr açıldı və dərvişlər tam asudəliyə çıxdılar. Hər cümə günü axşamlar ətraf yerlərdən öz ehtiyaclarını bildirmək üçün gələn alim və əyanlar Sahibqranın məclisinə dəvət olunurdu. Sahibqran öz söhbətləri ilə hamını feyzyab edir, təam və ənam veririrdi" [13, 296].

S.Ərşahinin qeyd etdiyi kimi, Ağqoyunlu hökmdarlarından

Uzun Həsən və Sultan Yaqub elmi mübahisələrə qatılacaq qədər dərin elmi biliklərə malik olmuşdular. Onlar həmişə elm, din və sənət adamlarını himayə etmiş, onlara qayğı göstərmişdilər. XV əsrdə İslam dünyasının mühüm mərkəzlərindən biri olan Təbriz şəhərində Uzun Həsənin açdırdığı Nəsriyyə mədrəsəsi onun elm və mədəniyyət mərkəzi kimi inkişaf etməsində mühüm rol oynamışdır [215, 227].

Ağqoyunlular dövründə Təbrizdə Nəsriyyə mədrəsəsi ilə yanaşı "Dəməşqiyyə", "Məqsudiyyə", "Müzəffəriyyə", "Şəfaiyyə" və "Hənəfiyyə", Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdində "Darül-irşad" fəaliyyət göstərmişdir [74, 124]. Ağqoyunlu hökmdarı Uzun Həsənin Əbunəsr adını daşıyan Nəsriyyə mədrəsəsinə verdiyi yüksək qiymətin nəticəsi idi ki, o, 1478-ci ildə vəfat edərkən məhz bu mədrəsənin həyətində dəfn olunmuşdur [215, 229]. Ağqoyunlular dövründə Şərqi Anadolu və Azərbaycanda Şeyx Səfa, Şah Sultan Xatun, Sultan Qasım, Həsən Padşah, Fərhadşah, Peyğəmbər mədrəsələri fəaliyyət göstərmişdir [215, 215-216; 174, 248]. H.Gündoğdunun fikrincə, Şərqi Anadoludakı Ağqoyunlu mədrəsələri arasında Mardindəki Sultan Qasım mədrəsəsi, İbrahim bəyin tikdirdiyi Şah Sultan mədrəsələri mühüm yer tuturdu. Ağqoyunlu Cahangirin oğlu Sultan Qasım tərəfindən 1487-1502-ci illər arasında tikilmiş bu mədrəsə zəngin vəqflərə malik olmuşdu. İki mərtəbədən ibarət olan mədrəsə kompleksinə tək minarəli məscid və iki türbə daxil olmuşdur [226, 161].

Türkiyə tarixçilərinin qənaətinə görə, Ağqoyunlu hökmdarı Uzun Həsənin Azərbaycana və daha sonra da İran və İraqa sahib olması mənəvi həyata yeni bir can vermişdi. Dövlətini qüvvətli əsaslara bağlamaq istəyən Uzun Həsən çox mükəmməl idarə və hərbi təşkilat yaratdığı kimi, ölkəsində elmin və mədəniyyətin inkişafına da böyük önəm verdiyindən, hər tərəfdə mədrəsə, imarət və sair müəssisələr yaratmışdı [346, 224; 204, 208]. İ.Ərdəm və K.Paydaşın aşağıdakı fikrinə biz də qatılırıq ki, «Ağqoyunlu dövləti türk siyasi, hərbi, maliyyə, sosial və mədəniyyət tarixində önəmli iz qoymuşdur. Onların yaratmış

olduqları memarlıq və sənət əsərləri Anadoludan Azərbaycana, İraqdan Xorasana qədər geniş bir ərazidə günümüzə kimi gəlib çatmışdır» [204, 212].

İ.H.Uzunçarşılının fikrincə, məclislərində elmi mübahisələrə geniş yer verən, yüksək dünyagörüşə sahib olan Uzun Həsənin şəxsi kitabxanasında çalışan vəzifə sahiblərinin 58 nəfər olduğunu nəzərə alsaq, bu böyük Şərq hökmdarının elmə necə böyük hörmət bəslədiyinin şahidi oluruq. Uzun Həsən musiqiyə də böyük qayğı göstərirdi və hərbi səfərlərində "Əhli tarab" adını verdiyi və 98 nəfərdən ibarət olan saz heyətini həmişə yanında aparırdı [346, 225].

XV əsrin II yarısında, xüsusilə Azərbaycan Ağqoyunlu hökmdarı Sultan Yaqubun hakimiyyəti dövründə Təbriz yenidən bütün İslam Şərqinin mühüm siyasi və mədəni mərkəzinə çevrildi. Bu zaman Azərbaycanda elm və mədəniyyətin inkişafı üçün daha əlverişli şərait yaradıldı. Tarixçilər Ağqoyunlu hökmdarı Sultan Yaqubun elmə, mədəniyyətə xüsusi diqqət yetirməsini, poeziyaya olan hüsn-rəğbətini qeyd edirlər. Ağqoyunlu padşahları içərisində Yaqub Mirzə özünün yaxşı savadı ilə seçilirdi. Yaqub Mirzənin yaxın məsləhətçiləri – Səfiyyəddin Qazi İsa, Şeyx Nəcməddin Yaqubi və başqalarının fəaliyyətləri nəticəsində Ağqoyunlu Yaqub Mirzənin sarayında şairlər məclisi öz işini davam etdirirdi. Yaqub Mirzənin özü də sarayda keçirilən şairlər məclisində bir şair kimi iştirak edirdi [99, 180]. Z.V.Toğanın verdiyi məlumata görə, Sultan Yaqub farsca divanı ilə yanaşı, türkcə şeirlər də yazmışdır [335, 381-382].

İ.H.Uzunçarşılı qeyd edir ki, Uzun Həsənin oğlu Sultan Yaqub dövrü də elm və mədəniyyətin yüksək inkişaf etdiyi bir dövr olmuşdu. Gözəl yazısı, türkcə və farsca şeirləri olan, ədibləri, şairləri, musiqişünasları himayə edən və adına çoxlu qəsidələr yazılan Sultan Yaqub dövrü bu ailənin elmə verdiyi ən parlaq dövr olmuşdur [346, 226; 215, 228].

Sultan Yaqub alimləri, şairləri öz sarayına toplamaqla bərabər, Təbrizdə və dövlətin başqa mərkəzi şəhərlərində atası Uzun Həsənin vaxtilə təşkil etmiş olduğu mədrəsələrin işləməsi

üçün də əlverişli şərait yaradırdı. O, mədrəsə işlərinin yaxşılaşması üçün bir sıra tədbirlər həyata keçirdi. Onun 1487-ci ildə verdiyi fərman xüsusi olaraq diqqəti cəlb edir. Bu fərmanda deyilirdi: " ...hakimlər, vəzirlər, divan əhli, mustofilər, Şirazın bütün bələdiyyə idarəsinin xidmətçiləri bilsinlər ki, elm və maarifin, hikmət və fəzilətin yüksəldilməsi məqsədilə, cəmiyyəti-xeyriyyə təşkil olunur. O cümlədən mən, Sultan Yaqubun əmrilə, bu müqəddəs xəlifəlik dövründə anamın adına olan Şiraz mülkündə yüksək bir mədrəsə təsis edilsin. Bu mədrəsə üçün onun yanında müəyyən əkin yeri ayrılsın və bu yeni müəssisənin xərci üçün 242.582 dinar miqdarında pul məbləği müəyyən edilsin. Həmin bu qərar mocibincə lazımdır ki, bu ali fərmanın məzmunu təhrif edilməsin, fərmanda heç bir dəyişiklik əmələ gətirilməsin. Mədrəsə üçün heç bir vergi alınmasın" [99, 180-181].

Ağqoyunlu hökmdarı Uzun Həsən və oğlu Sultan Yaqub dövründə tanınmış alimlər, ədiblər, musiqiçilər və sənətkarlar himayə olunur, onların fəaliyyəti üçün geniş imkan yaradılırdı. S.Ərşahinin fikrincə, Uzun Həsənin yardımını almış alimlər arasında Məhəmməd bin Mənsur xüsusi yer tutur. O, sultanın əmri və dəstəyi ilə həyata keçirdiyi çalışmalarda iyirmi dənə maddənin tərkibi, xassələri və istifadə qaydasını nəzərdə tutan "Cəvahirnamə" əsərini yazmışdı [346, 225; 215, 230]. İslam dünyasının tanınmış astronomu və riyaziyatçısı Əli Quşçu 1449-cu ildə Uluq bəyin öldürülməsindən sonra başlıca himayəçisini itirdiyi üçün Səmərqənd rəsədxanasını bağlamaq məcburiyyətində qalmışdı. O, 1470-ci ildə Həcc ziyarətinə gedən zaman Təbrizdə Uzun Həsəndən böyük qayğı və hörmət görmüşdü. İlk görüşü zamanı Uzun Həsəndən 20 min təngə pul və bir top qumaş hədiyyə alan Əli Quşçu 1470-1472-ci illərdə Təbrizdə öz fəaliyyətini davam etdirmişdi. Onunla Ağqoyunlu hökmdarı arasında yaxşı əlaqələr yaranmışdı. Məhz bunun nəticəsində Uzun Həsən onu 1471-ci ildə böyük bir elçi heyətinin başında İstanbula göndərmişdir. Osmanlı sultanı yaranmış fürsətdən istifadə edərək tanınmış alimin İstanbulda qalmasına nail olmuşdu. Əli Quşçu 1473-cü ildə Sultan II Mehmedin Ağqoyunlular üzərinə

yürüşünə qatılmış, İstanbula qayıtdıqdan sonra isə Ayasofya mədrəsəsinə müdərris təyin olunmuşdur [346, 225; 231, 98-99; 215, 230].

Uzun Həsənin böyük iltifat göstərdiyi tanınmış alimlərən biri də Cəlaləddin Dəvvani olmuşdur. Ağqoyunluların Təbrizi almasından sonra bu dövlətin himayəsində çalışmağı davam etdirən Dəvvani Sultan Yaqub dövründə Fars vilayətinə sədr təyin olunmuşdur. O, mühüm əsərlərini, xüsusən də siyasətlə bağlı olanlarını Ağqoyunlu hökmdarının himayəsi altında yazmış və onlara həsr etmişdir. O, islam siyasət fəlsəfəsinə aid "Əxlaqi Cəlali" əsərini Uzun Həsənə, "Haşiye-i kadime" və "Ərznamə" əsərlərini Sultan Xəlilə və siyasətə dair "Risaleyi ədalət" əsərini də Sultan Yaquba həsr etmişdir [346, 225; 231, 98; 215, 231; 356, 383-384].

Dövrünün tanınmış alimlərindən biri də Xoylu Mirzə Nəsrullah olmuşdur. O, XV əsrdə ictimai və dəqiq elmlər sahəsində böyük şöhrət qazanmışdı. Mirzə Nəsrullah uzun müddət Azərbaycan şəhərlərini, İranı və başqa Şərq ölkələrini gəzərək, Şərqin böyük alimləri, şairləri ilə tanış olmuşdur. O, İsfahanda yaşayarkən dinsizlikdə ittiham edilib təqiblərə məruz qaldığından orada çox qala bilmədi. Təbrizə gəlib ömrünün sonuna qədər bu şəhərdə yaşadı [99, 182]. İ.H.Uzunçarşılının fikrincə, Uzun Həsən dövründə himayə edilən tanınmış alimlərdən biri də riyaziyatçı Mahmud Can idi [346, 225; 215, 231].

Ağqoyunlu hökmdarlarının himayəsində fəaliyyət göstərən alimlər arasında Əbubəkr Tehrani və Fəzlullah Ruzbihan Xunci mühüm yer tutur. Əbubəkr Tehrani görkəmli alim-tarixçi olmaqla yanaşı, dövrünün tanınmış münşisi, müdərrisi və dövlət adamı kimi şöhrət qazanmışdı. O, Azərbaycan Qaraqoyunlu hökmdarı Cahanşahla Teymuri sultanı Əbu Səid arasında bağlanmış sülh müqaviləsinin, bir sıra dövlət sənədlərinin, dövlətlərarası yazışmaların ("məktubların") mətnlərinin müəllifi olmuşdur. 1469-cu ildə Uzun Həsənin dəvətini qəbul edərək Təbrizə gələn Əbubəkr Tehrani Ağqoyunlu sarayında münşi ("katib") vəzifəsində çalışmışdı. Uzun Həsənin göstərişilə o, rəsmi

Ağqoyunlu tarixi olan "Kitabi-Diyarbəkriyyə" əsərini yazmışdır [346, 225; 231, 99; 215, 230].

Sultan Yaqubun sarayında çalışan alimlər arasında Fəzlullah ibn Ruzbihan Xunci mühüm yer tutur. Onun dayısı Xoca İsmayıl Sədi Bağdadda Qaraqoyunlu Pirbudağın yanında sədr vəzifəsini tutmuşdur. Uzun Həsənin Qaraqoyunlular üzərindəki qələbəsindən sonra o, Şirazda Uğurlu Məhəmmədin divan əmiri təyin olunmuşdur. Fəzlullah gəncliyində Məkkəni ziyarət etmiş, Mədinədə elm adamları ilə görüşmüşdü. O, 1472-ci ildə Bağdadda Uzun Həsənin oğlu Maqsud Mirzənin qonağı olmuşdur. Əcəm İraqına döndükdən sonra o, Şiraz mədrəsəsində oxumuş, ərəb və fars dillərində bir neçə əsər yazmışdır. 1486-cı ildə Azərbaycana səyahət edən Fəzlullah iyul ayında Səhənd yaylağında Sultan Yaqubun hüzuruna çıxaraq farsca yazdığı kitabını ona təqdim etdi. Ağqoyunlu hökmdarı kitabı bəyəndi və dövrünün tarixini yazmağı Fəzlullaha tapşırdı. O, rəsmi dövlət tarixçisi təyin olunmaqla yanaşı, divanın münşisi vəzifəsini də həyata keçirdi. 1487-ci ildə Teymuri hökmdarı Hüseyn Bayqaranın göndərdiyi məktuba cavabın yazılmasını Sultan Yaqub məhz ona həvalə etmişdir. Əbubəkt Tehraninin "Tarixi-Diyarbəkriyyə" əsəri ilə başlayan Ağqoyunlu saray tarixçiliyi Fəzlullahın Sultan Yaqub dövrünü işıqlandıran "Tarixi aləmarayi Əmini" əsəri ilə daha da yüksəldi [346, 225; 231, 100-101; 215, 232; 273, 699].

Qeyd etmək lazımdır ki, "son zamanlaradək elm xüsusi olaraq Qaraqoyunlu və Ağqoyunlu sülaləsinin hakimiyyətinə həsr olunmuş sülalə salnaməsinə malik deyildi ... Bu cür salnamələr çox azdır və nisbətən yaxın zamanlarda aşkara çıxarılmışdır. Biz Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" və Fəzlullh ibn Ruzbehan Xuncinin "Tarixi-aləmarayi Əmini" əsərlərini nəzərdə tuturuq, özü də Fəzlullahın əsəri zamanca Əbubəkr Tehraninin əsərinin bilavasitə davamıdır" [68, 3; 104, 223].

Ağqoyunlu sarayında xidmət göstərən tanınmış alimlərdən biri də İdris Bidlisidir. O, Sultan Yaqub dövründə atası Hüsa-

məddin Əlinin yerinə münşi vəzifəsinə təyin olunmuşdur. İdris Bidlisi Sultan Yaqubun Arrana səyahəti zamanı onu müşayiət etmiş və bu barədə özünün "Risaleyi Xəzaniyə" əsərini yazaraq ona təqdim etmişdir. O, Rüstəm Padşah və Sultan Əlvənd dövründə də Ağqoyunlu sarayının himayəsində fəaliyyət göstərmişdi. İdris Bidlisi 1501-ci ildə Ağqoyunlu dövlətinə son qoyulmasına kimi nişançı və divan katibliyini həyata keçirmişdir [346, 226; 231 102; 215, 231-232].

XV əsrin böyük alimlərindən biri olan Bədrəddin Əmir Seyid Əhməd təhsilini Şamaxıda və Təbrizdə başa vurmuşdu. O, Şirvan alimi Bədəxşidən sərf-nəhv və fəlsəfə elmlərini, Təbrizli Seyid Şərif Cürcanidən isə məntiq, ədəbiyyat və riyaziyyat elmlərini öyrənmişdi. Seyid Əhməd 1467-ci ildən Təbrizə gəlir və şəhərin cənub-qərb hissəsində yerləşərək özünün əsərlərini yazmağa başlayır. O, "Risaleyi-Lətif", "Risaleyi-Miratül-Həzrət" və "Adabüssalinin" əsərlərini mənzum şəkildə yazmışdır. Məşhur İran şairi Əbdürrəhman Cami Seyid Əhmədin təsəvvüf haqqındakı kitabını nəzərdən keçirdikdən sonra ona müsbət rəyini yazmışdır [99, 178].

Ağqoyunlu sarayının xüsusi qayğısı dövrün tanınmış din xadimləri, mütəsəvvifləri, təriqət rəhbərlərinin də üzərində olmuşdu. S.Ərşahinin qeyd etdiyi kimi, Ağqoyunlu sultanları hakimiyyəti möhkəmləndirməyin müəyyən vasitəsi kimi təsəvvüfi zümrələrə xüsusi diqqət yetirmişdilər. Ağqoyunlu hakimiyyəti təsəvvüfü bir zövq və tərbiyə metodu kimi qəbul edərək hakimiyyətlərini xalqın gözündə yüksəltməyin əsas vasitəsi hesab edirdilər [215, 162].

Ağqoyunlu hökmdarları elm adamları və din xadimlərinə böyük hörmət bəsləyərək təsəvvüf zümrələri ilə yaxşı əlaqələr qurmuşlar. Ağqoyunlu sarayının təsəvvüf zümrələri və təriqətlərlə əlaqələri Uzun Həsən dövründə başlanmışdır. Onun təsəvvüfə olan yaxınlığını ölkədə 4 min təkkə və zaviyəni tikdirdiyi və ya açdırdığı təsdiq edir [231, 104; 215, 162]. Uzun Həsən həyatı boyunca fərq qoymadan hər məsləkdən və məzhəbdən olan təriqət rəhbərlərinə hörmət göstərmişdir. Bunlar arasında

Səfəviyyə, Gülşəniyyə, Xəlvətiyyə, Nəqşbəndiyyə, Nurbəxşiyyə və Bayramiyyə təriqətləri önəmli yer tuturdu.

Uzun Həsənin böyük hörmət bəslədiyi təsəvvüf rəhbərlərindən biri Baba Əbdürrəhman Şami idi. O, Uzun Həsənə ilahi yardım vəd etməklə, gələcəkdə qazanacağı qələbələr barədə xəbər verməklə mühüm şöhrət qazanmışdır. Əbubəkr Tehrani yazır ki, Qaraqoyunlu Rüstəm Ağqoyunlulara məğlub olaraq əsir alındığı zaman hamı toplaşdı və cəllad onun qanını tökmək üçün gəldi. Rüstəm qılıncın iti olub-olmadığını soruşdu ki, əziyyət çəkməsin. Qılıncı ona göstərdilər, o həmin qılıncı qəbul etmədi. Arıq Məhəmməd Tuşmalın qılıncını istəyib dedi: “Məni bu qılıncla öldürün!” Bu həmin qılınc idi ki, aşiqlərin başçısı və ariflərin rəhbəri Baba Əbdürrəhman vaxtilə Uzun Həsənin məclisində onu çıxarıb kasaya vurmuş və demişdi: “Bu ibn Tərxanın başıdır”. Bu, onun kəramətinin təzahürü idi və bütün Ağqoyunlular onun bu kəramətinin şahidi oldular [13, 151; 215, 163]. S.Ərşahinin fikrincə, Baba Əbdürrəhman Uzun Həsənin Teymuri hökmdarı Əbu Səidə qarşı apardığı mübarizədə qalib gələcəyini öncədən söyləyərək “İran və Turan sənindir” demişdir [13, 254; 215, 164].

Uzun Həsənin xüsusi hörmət bəslədiyi təriqət şeyxləri arasında Dədə Ömər Rövşəni və xəlifəsi İbrahim Gülşəni önəmli yer tutur. Seyid Yəhya Bakıda irşadla məşğul olduğu zaman Azərbaycanın müxtəlif yerlərinə xəlifələr göndərmişdir. Bunlar arasında Ömər Rövşəni də var idi. O, Bərdə, Gəncə, Qarabağ və ətrafına göndərildi. Ömər Rövşəninin Qarabağda uzun müddət qalması İbrahim Gülşəni, Şah Qubad kimi önəmli xəlifələrin burada görüşüb ona bağlanmasından məlum olur [149, 156; 215, 170].

Ömər Rövşəni on ilə yaxın Qarabağda yaşamışdı. Qarabağda olduğu zaman Uzun Həsənin qardaşı Üveys, İbrahim Gülşəni və Şah Qubad Şirvani kimi mühüm davamçıları Ömər Rövşəni ilə burada görüşüb ona bağlanmışdılar. Ömər Rövşəninin Qarabağdakı səmərəli fəaliyyəti onun Ağqoyunlular tərəfindən tanınmasını təmin etmiş, nəticədə Təbrizə dəvət ol-

unmuşdur [149, 160; 215, 170-171]. Mühyi Gülşəni Uzun Həsənin qardaşı və Ömər Rövşəninin müridi olan Üveysin dərviş qiyafəsi ilə Təbrizə gəldiyini, sultanın qardaşından başındakı tacın hansı təriqətə aid olduğunu soruşanda: "Ömər Rövşənindir"- deyib bu şeyxi tərifləyərək ondan bəhs etdiyini, Uzun Həsənin onu görmək istədiyini və onu dəvət etmək üçün İbrahim Gülşənini Qarabağa göndərdiyini bildirir. Qarabağa gedib Ömər Rövşəni ilə görüşən İbrahim Gülşəni bu zaman şeyxdən təsirlənərək ona bağlanmışdır. 1475-ci ildə o, Uzun Həsənin dəvəti ilə Təbrizə gəlmişdir. Uzun Həsənin vəfatından sonra oğulları Sultan Xəlil, alim və sənətkarların qoruyucusu Sultan Yaqub ilə Ömər Rövşəni arasında həmişə qarşılıqlı məhəbbət və hörmət olmuşdur. Hökmdar müxtəlif ehsanlarla həmişə Ömər Rövşəninin xətrini əziz tutmuş və Cahanşah xanəgahını ona vermişdi [254, 108-109; 149, 160; 215, 172]. 1487-ci ildə Ömər Rövşəninin vəfatından sonra səccadəsinə İbrahim Gülşəni keçmişdir. Bərdədə doğulan İbrahim Gülşəninin fəaliyyəti haqqında ən mühüm məlumatı Mühyi Gülşəni "Mənaqibi-İbrahim Gülşəni" adlı əsərində vermişdir [35, 13].

M.Gülşəninin verdiyi məlumata görə, İbrahim Gülşəni Təbrizə gedən zaman Uzun Həsənin qazıəsgəri Molla Həsən ilə rastlaşmış, onun qabiliyyətini görən Molla Həsən təhsil üçün Mavərənnəhrə getməsinin lazım gəlmədiyini söyləyərək onu Təbrizdə qalmağa inandırmışdı. Molla Həsənin yardımı ilə Təbrizdə mədrəsə təhsili alan İbrahim Gülşəni burada Molla İbrahim adı ilə tanınmışdır [35, 25; 215, 171; 149, 160-161].

Təbrizdə olduğu illərdə getdikcə etibarı artan İbrahim Gülşəni Təbriz qazısı Şərafəddin ilə aralarında olan bir hadisəyə görə Uzun Həsənlə tanış olmaq imkanı tapdı. S.Ərşahin yazır ki, Qazi Əli üləma və əmirlərin yığıncağında üzərində Uzun Həsənin möhürü olan və Təbriz qazısı Şərafəddin tərəfindən divanda hazırlanmış, xalqa zülm edilməsini nəzərdə tutan bir fərmanı nümayiş etdirmişdi. İbrahim Gülşəni fərmanı alaraq toplantıda oxumuş və "Belə bir zülmə Sultan Həsən razı olarmı?" deyə soruşmuşdur. Təbii ki, hamı ədalətli olan Uzun Həsənin belə bir

zülmə razı olmayacağını bildirmişdir. Bu zaman İbrahim Gülşəni: “Mənim tanrıdan başqa heç kimdən qorxum yoxdur. Sultanın möhürünün belə bir zülmnamədə olması uyğun deyildir” deyərək onun möhür qismini qoparıb öpərək çalmasına taxmışdı. Cırılmış fərmanı alan Şərafəddin sultana şikayət etmişdi. Şikayətə baxmaq üçün toplanan divan üzvləri İbrahimdən sultanın fərmanını deşməsinin səbəbini soruşduqda, o, bu cavabı vermişdi: “Mən sultanın fərmanını cırmadım, əksinə onun möhürü zülm hökmünün üzərinə vurulmuşdu, onu ayırdım. Sultanın adı budur” deyərək onu çıxarıb vermişdi. Buna görə, Uzun Həsən ona “tərxan” adını vermişdir [35, 26-28; 215, 171-172]. O, bir müddət sonra Hüseyn Bayqara ilə əldə edilən sülh danışıqlarında iştirak etmək üçün Herata göndərildi. Bundan əlavə, Uzun Həsən Şiraza vali təyin etdiyi oğlu Xəlil Mirzənin xalqa etdiyi zülmün qarşısını almaq üçün onu Şiraza da göndərmişdi [35, 30; 215, 172; 149, 161]. Bu məlumatlardan aydın olur ki, İbrahim Gülşəni Uzun Həsənin yanında böyük etibar qazanmışdır.

Mürşidinin ölümündən sonra irşad fəaliyyətinə başlayan İbrahim Gülşənini Sultan Yaqub da çox dəyərləndirir və əsgərlərinin mənəviyyatını yüksəltmək üçün bəzi döyüşlərdə onu da yanında götürürdü. O, Təbrizdə mürşidi Dədə Ömər Rövşənin tövsiyyəsi ilə əvvəlki “Heybəti” təxəllüsünü “Gülşəni” ilə əvəz etmişdir. Sultan Yaqubun ölümündən sonra Ağqoyunlu taxt-tacı uğrunda mübarizə zamanı sıxıntılı bir dövr keçirən İbrahim Gülşəni 1495-ci ildə çoxsaylı müridi ilə Həcc ziyarətinə getmişdir. 1501-ci ildə İsmayıl Səfəvi Təbrizə daxil olaraq şah seçilən zaman İbrahim Gülşəni şəhəri tərk edərək Diyarbəkrə çəkilmişdir [155, 187; 149, 161-162; 215, 173-174].

Ağqoyunlu hökmdaralarından Uzun Həsənin və Sultan Yaqubun sarayında Baba Füqni, Dərviş Dəhki, Molla Şəhidi, Hümayun, Mövlana Ənisi, Cəmili, Hidayət, Kişvəri, Əhli Şirazi, Şeyx Əhməd Albardaklı, Həbibi və Ağqoyunlu Əhmədi kimi şairlər də fəaliyyət göstərmişdir [346, 226; 215, 232-234; 273, 698]. S.Ərşahin Həbibinin fəaliyyəti barədə yazır ki, Göyçayın Bərgüşad kəndində doğulan Həbibi Sultan Yaqubun diqqətini

çəkmişdi. Sultan onu himayəsinə alaraq saraya dəvət etmişdi. O, ilk şeirlərini Sultan Yaqub dövründə yazmışdır. Bir müddət Şah İsmayılın himayəsinə girən Həbibi sonralar II Bayəzid və Sultan Səlimin sarayında da qayğı görmüşdür. O, məliküş-şüara və sultanüs-şüara adına layiq görülmüşdür. Ağqoyunlu Əhmədi də Sultan Yaqub dövründə Ağqoyunlu dövlət adamlarının himayəsi altında fəaliyyət göstərmişdir. Sufi Xəlil Anadolu səfəri zamanı onu çadırına dəvət edərək Qıssei-Yusifi yazmasını xahiş etmişdi. Əhmədi Təbrizə qayıtdığı zaman əlli yeddi günə özünün "Yusif və Züleyxa" məsnəvisini yazmışdır. O, həmçinin Fəriddəddin Əttarın "Əsrarnamə" adlı əsərini 1478-ci ildə Azərbaycan türkcəsinə tərcümə edərək Təbrizdə Sufi Xəlilə təqdim etmişdir [215, 233, 234; 155, 381; 99, 178].

XV əsrin görkəmli ədiblərindən biri də Şərafəddin Rami Təbrizidir. Tarixçilər onu "şeir sənətinin mahir ustası" adlandırırlar. Şərafəddin Rami bir sıra qiymətli elmi əsərlər yazmışdır. Onun elmi əsərləri içərisində gözəlliyi əks etdirən "Ənisülüşşaq" ("Aşiqlərin munisi") xüsusi olaraq diqqəti cəlb edir [155, 427; 99, 182].

XV əsrdə ana dilli ədəbiyyatımızın inkişafında Əfsəhəddin Hidayətullahın (Hidayət) da mühüm xidməti olmuşdur. O, Təbrizdə yaşamış, Azərbaycan Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin himayəsinə girmiş, onun oğlu Sultan Xəlilin sarayında böyük əmir rütbəsinə qədər yüksəlmiş, bir qədər sonra isə onun qardaşı Sultan Yaqubun sarayında yaşamış və fəaliyyət göstərmişdir. Hidayətin şeirlər divanı vardır. O, zəmanəsinə görə sadə Azərbaycan (türk) dilində şeirlər yazmışdır. O, dövrünün tanınmış elm adamlarının da diqqətini cəlb etmişdi. Şairin türkcə divanının nüsxələri dövrümüzədək gəlib çatmışdır [215, 232; 104, 220]. Azərbaycan (türk) ədəbi dilinin formalaşmasına Nemətulla Kişvərinin böyük təsiri olmuşdur. Azərbaycan şeirində ərəb və fars tərkiblərinin azaldılması prosesində bu şairin nəzərəçarpacaq rolu vardır. O, Sultan Yaqubun sarayında xüsusi qayğı görmüşdü. Kişvəri Əlişir Nəvai ilə əlaqə saxlamışdı. Türkcə və farsca gözəl şeirlər yazan Kişvəri Füzulinin ən önəmli sələflərin-

dən biri kimi tanınır [215, 233; 104, 222].

XV əsrdə türk mədəniyyətinin ümumi yüksəlişi ilə türk dili islam aləmində ərəbcənin "inhisarında" olan dini sahəyə də sirayət etməyə başlamışdı. Yaxın Şərqdə siyasi hakimiyyəti əllərində tutan türklərə din və şəriət qayda-qanunları, islami idarəçilik prinsipləri və fiqh elmi haqqında dolğun məlumat vermək məqsədilə dini mahiyyətli əsərlər türkcəyə çevrilməyə başlanmışdı. Azərbaycan türkman mühitində Qaraqoyunluların, xüsusilə Ağqoyunluların dövründə dini məzmunlu əsərlərin türk dilində qələmə alındığının şahidi oluruq. Bir qayda olaraq, ərəb, çox zaman həm də fars dillərini bilməyən Azərbaycanın türkman bəyləri Quran və dini mövzulara müraciət edərkən tərcüməçilərin xidmətindən istifadə edirdilər. Ağqoyunlu dönəmində türk dilində dini ədəbiyyatın geniş yayılması, hətta dini təhsilin belə ərəbcə ilə yanaşı, türkcə təfsirlər və hədislər əsasında verilməsi barədə bəzi məlumatlara rast gəlmək mümkündür. Belə ki, Şeyx İbrahim Gülşəninin gənclik illərini təsvir edən "Mənaqib"də onun Quranı oxuyub bitirdikdən sonra "türki kitablardan təfsir və hədis" oxuduğu məlum olur [35, 23; 118, 285].

XV əsrdə türk dilinin inkişafı ilə əlaqədar bir mühüm məqamı da xüsusi vurğulamaq gərəkdir. Bu dövrdə yaranan istər ədəbi, istərsə də elmi və dini əsərlərin böyük əksəriyyəti olduqca təmiz, sadə, xalqın danışdığı və anladığı türk dilində qələmə alınmışdı. Məhz bu dövrdə saray qapıları türk dili və ədəbiyyatının üzünə geniş açılmış və nəticədə türkdilli ədəbiyyatın inkişaf və çiçəklənmə dövrü başlamışdır [118, 285]. XV əsrdə Azərbaycan hökmdarları Səlcuq sultanlarından fərqli olaraq, yalnız farsca deyil, türk dilində də gözəl bədii əsərlər yaratmaqdan zövq alırdılar. XIV əsrdə Qazi Bürhanəddinlə başlayan bu ənənə bir müddət sonra Sultan Əhməd Cəlair, Qaraqoyunlu Cahanşah Həqiqi, Ağqoyunlu Sultan Yaqub yaradıcılığında davam etmişdi. Hətta ədəbiyyatla məşğul olması barədə heç bir məlumatımız olmayan Ağqoyunlu Uzun Həsənin zaman-zaman türkcə beytlər söylədiyini mənbələrdən öyrənirik. Hər halda, Əbubəkr Tehraniyə görə, Teymuri sultanı Əbu Səidə qəzəbli bir

məktub yazdıran Uzun Həsən farsca mətnə özündən "türkcə iki-üç beyt" əlavə etmişdi [13, 255-256; 118, 285].

Beləliklə, XV əsrdə Azərbaycan ədəbiyyatının inkişafında daha çox diqqəti cəlb edən cəhət, xalqa doğma olan dilin ədəbi prosesdə ön mövqelərə çıxması, türk dilinin potensialının daha çox sürətlə gerçəkləşməyə başlaması olmuşdur.

### *V. 5. Memarlıq və incəsənət*

Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mədəni həyatında diqqəti cəlb edən sahələrdən biri də xəttatlıq və müniatür rəssamlığı olmuşdur. Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının saray kitabxanalarında elmi, bədii, fəlsəfi, dini və tarixi məzmunlu əsərlərin üzü köçürülür, əlyazmalarına miniatürlər çəkilirdi. Bu dövrdə Azərbaycanın müxtəlif şəhərlərində Mirəli Təbrizi, Mirabdulla Təbrizi, Süleyman Əli Yaqubi, Nizaməddin Əli Ərdəbili, Cəfər Təbrizi, Əzhər Təbrizi, Əbdürrəhim əl-Yəqubi kimi mahir xəttatlar fəaliyyət göstərirdi [104, 224]. Türkiyə tarixçilərinin qeyd etdiyi kimi, Uzun Həsənin kitabxanasında 58 nəfər mahir xəttat və müniatürçü rəssam fəaliyyət göstərmişdir [346, 225; 215, 228; 74, 127; 104, 224]. Orta əsrlərdə saray kitabxanaları yalnız kitabların mühafizə olunduğu, istifadə edildiyi mədəni məkan deyildi. Həmin kitabxanalar, eyni zamanda kitabların ustalıqla, məharətlə hazırlandığı emalatxanalar idi. Azərbaycan xəttatları ərəb qrafikası əsasında yazı örnəkləri yaratmaqla yanaşı, həmin qrafikanın təkmilləşdirilməsi sahəsində də xeyli uğurlar qazanmışdılar [104, 224].

S.Ərşahinin fikrincə, Ağqoyunlu sarayında islam xətt sənəti növlərindən təliq xətti geniş yayılmışdır. Bu xəttin hər hərfi yuvarlaq olduğu üçün təliq adını almışdır. Mirəli Təbrizi təliq və nəsih xətlərini birləşdirməklə nəstəliq xəttini yaratmışdır [215, 235]. Mahir Azərbaycan xəttatlarının əksəriyyətinin Təbriz şəhərindən olması sübut edir ki, bu şəhər nəinki ölkənin, habelə İslam Şərqinin aparıcı kalliqrafiya ocaqlarındandır. Cəfər Təbrizi Ağqoyunlu Baysunqurun saray kitabxanasına rəhbərlik etmişdi. Həmin kitabxanada 45 xəttat çalışırdı [104, 224]. Xəttat Mirzə

Cəfər Təbrizi dövrün sənət aləmində daha yüksək mövqe qazanmışdı. O, Teymuri sultanları Şahruxun, Baysunqur Mirzənin və Əlaüddövlənin saraylarında çalışmış, "nəstəliq" xəttinin xüsusi növü olan "Herati" xəttini yaratmışdır. Baysunqur Mirzənin hakimiyyəti dövründə saray kitabxanasının müdiri olmuş, "Xətt və xəttatlıq" əsərini yazmış, poetik əsərlər yaratmış bu xəttat "Mövlana" ləqəbini almışdı [155, 409-410; 104, 227-228].

Bu dövrün görkəmli xəttatı Əzhər Təbrizi yaradıcılığının ilk dövründə Herat sarayında çalışmışdır. Teymuri şahzadəsi Baysunqur Mirzənin kitabxana ustaları arasında Azərbaycandan gəlmiş bir neçə mahir xəttat vardı: Aini, İbrahim və Şəffar Təbriz rəssamlıq və xəttatlıq mühitinin yetirmələri idi [104, 227].

Xəttatla miniatürçü rəssamın birgə fəaliyyəti bu dövrdə də Azərbaycan mədəni mühitinin əlamətdar hallarından olmuşdur. Azərbaycanda Təbriz və Şirvan miniatür məktəblərində xeyli rəssam çalışırdı. XV əsrdə ölkədə baş vermiş bir sıra hərbi-siyasi hadisələr miniatür rəssamlığının inkişafına müəyyən dərəcədə mənfi təsir göstərdi. Bu dövrdə Azərbaycanın bir çox görkəmli rəssamları və kitab sənətinin bir çox mahir ustaları Teymurilərin başlıca mərkəzinə çevrilmiş Herata dəvət edilirdilər. Ustaların bir qismi Herata zorla aparılırdı. Saray kitabxanasında məsul vəzifə daşıyan Cəfər Təbrizi (Sultan Baysunqurun kitabxana rəisi) və xüsusi sifarişlər yerinə yetirən Azərbaycan ustaları – Pir Seyid Əhməd Nəqqaş, Xacə Əli Müsəvvər, Qəvaməddin və Qiyasəddinin XV əsr Herat rəssamlıq məktəbinin inkişafında mühüm rolu olmuşdur [104, 225].

Türkiyə tarixçilərinin qənaətinə görə, Qaraqoyunlu Cahanşahla Pirbudağın və Ağqoyunlu Xəlillə Yaqubun himayəsi altında yüksək inkişaf dövrünü yaşayan Azərbaycan miniatür sənəti Herat məktəbi ilə rəqabət aparacaq səviyyəyə çatmışdır [274, 12-13; 174, 240]. M.Məcit yazır ki, Qaraqoyunlular dövründə, xüsusən də Pirbudağın himayəsində miniatür sənəti xeyli inkişaf etmişdi. 1458-ci ildə o, atasının çağırışı ilə Herata gələn zaman burada tanınmış şair və nəqqaşlardan Kəmaləddin Binai və

atasının da daxil olduğu bir qrup sənətkarı özü ilə aparmışdır. Onun himayəsi altında hazırlanan, 1454-cü ildə Şirazda və 1462-ci ildə Bağdadda tamamlanan miniatürlər dövrümüzə kimi gəlib çatmışdır. [274, 12; 273, 697].

Qeyd etmək lazımdır ki, Əmir Teymurun Yaxın və Orta Şərqdə hərbi-siyasi fəaliyyəti dövründə işğal olunmuş ölkələrin mədəni-mənəvi qüvvələrinin əksəriyyəti əsasən zorla Səmərqənddə cəmləşdirilirmişdi. Teymurun ölümündən sonra onun varisləri həmin yaradıcı potensialı yenə də zorakı vasitələrlə yeni paytaxt Heratda toplamağa çalışırdılar. Həmin dövrdə Herat şəhəri, Teymurilərin sarayı Orta Şərqin başlıca rəssamlıq mərkəzinə çevrilmişdi. Buna görə də, Azərbaycanın tanınmış miniatür rəssamları Herata aparılmışdır. Bununla belə, Təbriz miniatür məktəbi təqribən 200 il ərzində mürəkkəb təkamül yolu keçmiş, yad sənət təsirlərinin tədricən aradan qaldırılması özəl və bənzərsiz üslubun təşəkkülü prosesini yaşamışdır [104, 226]. “Təbriz miniatürünün səciyyəvi cəhəti onun həyatla əlaqəsi, məzmun və mövzu məcmusunun genişlənməsi idi. Təbriz rəssamlarının miniatürləri Renessans dövrü Avropa rəssamlarının əsərlərini xatırladır” [103, 14; 104, 226].

İsmayıl Aka yazır ki, Teymurilər dövründə miniatür sənətinin ən mühüm mərkəzləri Cəlairilərin Bağdad, Təbriz və Şiraz məktəbləri hesab olunurdu. Teymur bu əraziləri ələ keçirdikdən sonra bu şəhərlərdəki sənətkarların bir hissəsini Səmərqəndə köçürmüşdü. Onun ölümündən sonra onların bir hissəsi Baysunqur Mirzə tərəfindən Heratda toplanmışdır. Özü məşhur xəttat olan Baysunqur Mirzənin kitabxanasına xəttat Cəfər Təbrizi rəhbərlik etmişdir. Onun rəhbərliyi altında 75 nəqqaş çalışırdı [167, 213, 214].

Təbriz miniatür məktəbinə məxsus, 1410-1420-ci illərə aid olan, Nizaminin “Xosrov və Şirin” və XV əsrin sonuna aid olan “Xəmsə” nüsxələri diqqəti cəlb edir. A.A.Arayancan yazır ki, Pirbudağın himayəsində çalışan Abdulhay Neybasurinin “Nizami Xəmsəsi” adı altında başladığı miniatür çalışmaları bu dövrün önəmli əsərləri arasındadır. Pirbudaq dövründə yarımçıq

qalmış bu əsər, 1478-ci ildə Ağqoyunlu Sultan Xəlil tərəfindən başa çatdırılmışdır [189, 24; 174, 241]. Nəfis xətlə tərtib olunmuş bu əlyazma nüsxəsi türk (Azərbaycan) dilindədir. S.Ərşahinin fikrincə, bu əsər hazırda Topqapı Sarayı Muzeyində 761 nömrə altında saxlanılır. Burada, həmçinin 762 nömrə altında vaxtı ilə Sultan Xəlil dövründə sifariş verilən, lakin 1481-ci ildə Sultan Yaqub dövründə başa çatdırılmış "Nizami Xəmsə"si də vardır. Bu əsərdəki 19 miniatürü Əbdürrəhim Dərviş, Dərviş Məhəmməd və Şeyxi çəkmişdir [215, 236-237]. Qeyd etmək lazımdır ki, bu dövr Təbriz məktəbinin, Yaxın və Orta Şərqin incilərindən biri saray xəttatı Əbdürrəhim əl-Yaqubinin tərtib etdiyi "Nizami Xəmsə"sidir. Buradakı miniatürləri Şeyxi və Dərviş Məhəmməd çəkmişdir. Özünün quruluşu və kolorit həllinə görə bu rəsmlər XIV əsrin əvvəllərinin miniatürlərindən tamamilə seçilirlər [74, 147-148].

Təbriz miniatür məktəbi incəsənətdə dünyəvi mövzuların əsas yer tutması ilə səciyyəvi olan rəssamlıq mərkəzlərindən biri kimi tanınırdı. Orta əsr Azərbaycan təsviri sənətinə dünya şöhrəti qazandıran miniatür sənətimiz olmuşdur. Əsrlər boyu İslam dini ehkamlarının dini məfkurə və fanatizmin canlı məxluqatı, xüsusən insan təsvirini qadağan etməsinə baxmayaraq, Azərbaycan rəssamları dünya incəsənətinin qızıl fonduna daxil olan dəyərli əsərlər yaratmışlar [103, 6; 104, 291].

Ağqoyunlu sarayında islam miniatürü və xəttatlıq sənəti geniş himayə olunmuşdur. S.Ərşahinin fikrincə, Xacə Tac Səlmani İsfahani tərəfindən inkişaf etdirilən təliq xətti Ağqoyunlu sarayında Xacə Əbulhay Astrabadi tərəfindən bir sənət səviyyəsinə çatdırılmışdı. Ağqoyunlu xətt sənətinin inkişaf etdirilməsində Əbdürrahim və Əbdülkərim qardaşlarının böyük xidməti olmuşdur. Əbdürrahim Sultan Xəlil Şiraz valisi olarkən onun sarayında çalışmışdı. O, daha sonra Təbrizdə Sultan Yaqubun saray xəttatı olmuşdu. Sultan Yaqub onun sənətindən razı qalaraq ona can dostum mənasını verən Ənisi ləqəbini vermişdir. Əbdürrahim yazılarını Yaqubi, şeirlərini isə Ənisi ləqəbi ilə yazmışdır. O, Rüstəm Padşah dövründə də Rüstəmi ləqəbindən istifadə et-

mişdi [215, 237; 204, 209].

A.A.Arayancanın qeyd etdiyi kimi, xəttatlıq sənətinin ən gözəl örnəkləri Qaraqoyunlu Cahanşahın Təbrizdə tikdirdiyi Göy məscid üzərindəki nəst və kufi xəttlə yazılmış kitabələrdir [174, 249]. Bu kitabələr bir daha təsdiq edir ki, xəttatlar kitab tərtibatı ilə yanaşı, monumental binaların bəzədilməsi işini də yerinə yetirmişlər. Ümumiyyətlə, orta çağlarda İslam Şərqində olduğu kimi, Azərbaycanda da xəttatlar və miniatürçü rəssamlar bir çox hökmdarların saraylarında böyük hörmət qazanmış və qayğı görmüşlər.

X.Qasımovun fikrincə, XV əsr Azərbaycan memarlığının təkamülündə klassik yetkinlik çağıdır. Bu zaman ölkənin tikinti sənətində XIII və XIV əsrlərə xas olan axtarış və eksperment vüsəti duyulmurdu. Bu dövrün Azərbaycan memarlıq obyektləri artıq sabitliyi və bitkinliyi ilə seçilirdi. Bu əsrdə xatirə tikililəri nisbətən az idi. Dini tikililərin inşasında isə çox böyük irəliləyiş vardı [104, 230].

R.Q.Klavixonun Təbrizə dair müşahidələrində möhtəşəm memarlıq abidələrindən bəhs olunur. O, yazırdı: “Bu şəhərdə heyrət olunacaq oymalar və şəbəkələr, yunan ustalarının işlədiyi mina və qızıl, habelə çoxlu gözəl şüşələrlə bəzədilmiş çox böyük binalar və məscidlər var. Söyləyirlər ki, bu gözəl işləri mötəbər və varı ilə tanınmış adamlar gördürürmüşlər, onlar bir-biri ilə bəhs etdiklərindən, kimin daha yaxşı iş görəcəyini bilmək istəmiş və beləliklə, bütün varını xərcləmişlər. Bu binaların və tikililərin arasında gözəl və zəngin işlənmiş, divarla əhatə olunmuş böyük ev olmuşdur, bu evdə iyirmi min hücrə və ayrı-ayrı otaqlar var imiş” [1, 178].

Qaraqoyunlu dövrünün memarlıq abidələri içərisində 1413-cü ildə İrəvan yaxınlığında Cəfərabad kəndində Əmir Sədin oğlu Pir Hüseyn tərəfindən tikdirilmiş türbə mühüm yer tutur. Türbənin ərəbcə yazılmış kitabəsində “Şərqin və qərbin şahlar şahı dövlətin və dinin dayağı Pirbudaq xan və Noyan Yusifin hakimiyyətini əbədi etsin” ifadəsi vardır [174[b], 402]. Cahanşah dövründə Kaşanın Meydan məscidi, Van gölünün

cənubunda Gevaşda Üç günbəz, Ərciş-Van yolu üzərində Qədəm Paşa Xatun günbəzi tikilmişdir [Bax: 174[b], 403-405].

1465-ci ildə Təbrizdə tikilmiş "Göy məscid (yaxud Cahanşah məscidi) orta əsr Azərbaycan memarlıq dekorunun az qala bütün nailiyyətlərini özündə toplamışdır" [107, 12; 104, 230]. Onun inşasında bişmiş və şirəli kərpiclərin naxışlı hörgüsündən, mərmər və kəc üzərində oymadan, yığma kaşı mozaikasından istifadə edilmişdir. Göy məscidin diqqəti cəlb edən başlıca cəhəti inkişaf etmiş kaşı bəzəyidir. Məscidin bəzəyində göy və mavi rəngli kaşılardan daha çox istifadə olunmuşdur. Məhz buna görə də həmin memarlıq abidəsi Göy məscid adlanır [104, 230]. A.A.Arayancan yazır ki, Qaraqoyunlular dövründə kaşı sənətinin ən yaxşı örnəkləri Cahanşah tərəfindən Təbrizdə tikilən Göy məsciddir. Məscidin içi və giriş qapısı mavi firuzə rəngli kaşılarla bəzədilmişdir. Mavi kaşılar qızılı rəngli çiçək fiqurlarla süslənmişdir. Kaşı sənətindəki incəlik, rənglərin uyuşması onun "İslamın füruzəsi" kimi tanınmasına səbəb olmuşdur [174, 249; 174[b], 398-399]. Təbriz şəhərinin Xiyaban adlanan şərq qapısı səmtində tikilən Göy məscidin mühüm özəlliyi tikilinin qübbəli olması, kəmər şəklində bağlanmasıdır. Sahəsi 16.75 metr olan böyük qübbə səkkiz dirək üzərində səkkiz kəmərlə bağlanmışdır. Bu möhtəşəm tikilinin həyətində came, mədrəsə və kitabxana yerləşirdi. Üzərindəki kitabəsində Cahanşah və arvadı Can Bəyim Xatun tərəfindən tikdirildiyi qeyd olunmuşdur [174[b], 399]. Bu məscid və mədrəsənin gözəlliyi, zərifliyi dövrünün tanınmış tarixçilərinin və səyyahların diqqətini cəlb etmişdir. Həsən bəy Rumlu Cahanşah dövrünün memarlıq abidələrindən bəhs edərək yazır: "Əsərlərindən biri Təbriz şəhərindəki cənnətə bənzəyən camedir. Heç kimsə bu qədər zəngin əmək sərf olunmuş bir bina göstərə bilməz. Yüksək tağın önündə atlas göyün çardağı alçaq, eyvanının naxışlarının qarşısında fələyin günəşi altda yerləşir. Cameyə bitişik halda son dərəcə gözəl və yüksək gümbəzi tikilmişdir. Bacarıqlı mühəndislər və diqqətli nəqqaşlar gümbəzi görülməmiş rəsimlər və qızılla bəzəmişlər" [43, 448; 174[b], 399].

1539-cu ildə Təbrizdə olan İtaliya səyyahı Mikele Menbrenin Göy məscid barədə fikirləri xüsusi maraq doğurur. O, yazır: "Təbriz şəhərinə Anadolu tərəfdən girişin hər yanı bağlar və mavi günbəzli məscidlər, Xorasana – şərqə gedən yolun üstündə nağara çalınan meydan yerləşir ... Meydanı keçib birbaş şərqə tərəf getdikdə, qarşımıza Bəyim bazarı çıxır və bazarın axırına qədər düz getdikdə hündür zəng qüllələrinə oxşar iki minarəli məscid yerləşir. Bu məscid elə gözəl tikilmişdir ki, mən nə türklərin torpaqlarında, nə də gördüyüm digər yerlərdə belə bir tikiliyə rast gəlməmişəm. Onun xarici tərəfi tamamilə çini qablar kimi yarpaqvari naxışlar və gözəl rənglənmiş mərmərdəndir" [14[a], 73-74; 174[b], 400].

A.A.Arayancan J.Şardenin Göy məscidlə bağlı verdiyi məlumata əsaslanaraq yazır: "Göy məscid Cahanşah tərəfindən tikdilmişdir. Məscidin iki kiçik minarəsi xüsusi sənətkarlıqla inşa edilmişdiir. Hər bir minarə digərinin üzərinə uzadılmışdır. Yuxarıdakı minarə aşağıdakından böyük və yüksəkdir" [174[b], 399]. Göründüyü kimi, XVI-XVII əsrlərdə Təbrizdə olan və Göy məscidi görən səyyahları bənzəri olmayan bu möhtəşəm memarlıq incisi valeh etmişdir.

1714-cü ildə Təbrizdə baş vermiş zəlzələ nəticəsində tamamilə xarab olan məscidin salamat qalan əsas hissəsi 6 metr yüksəkliyində olan giriş qapısıdır. Bu qapı çox yaxşı, incə və gözəl kaşılarla bəzənmişdir və üzərində yazılar vardır. Bu yazıları Təbrizin məşhur xəttatı Mirəlinin şagirdlərindən Nemətulla Bəvvab yazmışdır. Göy məscid öz gözəlliyi, zərifliyi və əzəməti etibarilə dünya memarlığının ən gözəl abidələri ilə yanaşı dura bilər [99, 193-194].

A.A.Arayancanın fikrincə, Qaraqoyunlular dövründə Təbrizdə tikilən memarlıq abidələri arasında Cahanşahın xanımının tikdirdiyi böyük məscid və mədrəsə mühüm yer tutur. Bu dövrün tikililəri arasında Təbrizdəki Cahanşah karvansarayı, Can Bəyim Xatunun Dədəumraniyyə zaviyyəsi və xanəgahı xüsusilə seçilir [174[b], 402].

Müstəqil və bənzərsiz üslubu olan orta əsr Azərbaycan

memarlığı Ağqoyunlular dövründə daha da inkişaf etdirildi. Uzun zaman ərzində Təbrizin paytaxt olması onun hərtərəfli inkişafına təkan vermişdir. Buna görə də Azərbaycan memarlıq obyektlərinin bir çoxunun bu şəhərdə cəmləşməsi təsadüfi deyildir. Memarlıq obyektlərinin və bitki örtüyünün uzlaşdırılması Təbrizin memarlıq inkişafında önəmli yer tutmuşdur. Təbrizdə böyük bağlar var idi. Uzun Həsən tərəfindən əsası qoyulmuş "Bağı-nəsriyyə" və Sultan Yaqubun tikdirdiyi "Baği-şimal" ("Şimal bağı") bu dövrün şəhərsalma mədəniyyətinin nadir incilərindəndir [104, 232].

Uzun Həsən dövründə Təbrizdə tikilmiş memarlıq abidələri içərisində üstüörtülü "Qeysəriyyə" bazarı xüsusi yer tutur. "Şərq ölkələrində ən gözəl və geniş bazar kimi şöhrət tapmış və əsası Uzun Həsən tərəfindən qoyulmuş "Qeysəriyyə" üstüörtülü və səkkizbucaqlı idi. Onun üstü künbəz və tağla örtülmüşdü" [145, 75; 104, 232]. S.Ərşahin qeyd edir ki, Ağqoyunlular dövründə memarlığın inkişafına Uzun Həsən, Sultan Xəlil və Sultan Yaqub böyük qayğı göstərmişdi. Bu dövrdə başlıca memarlıq əsərləri Təbrizdə və Diyarbəkrdə toplansa da, digər ərazilərdə də onun inkişafına xüsusi qayğı göstərilmişdir. Şərqi Anadoludakı Ağqoyunlu memarlığı Mətin Sözən tərəfindən tədqiq olunmuşdur [215, 228]. M.Sözən "Anadoluda Ağqoyunlu memarlığı" adlı əsərində bu bölgədə Ağqoyunlular dövründə tikilmiş camelər, məscidlər, zaviyyə və təkkələr, türbələr, kərvansaraylar, hamamlar, körpülər və qalalar barədə ətraflı məlumat vermişdir [Bax: 304].

Uzun Həsənin dövründə tikilmiş memarlıq abidələri içərisində Təbriz cümə məscidi önəmli yer tutur. Cümə məscidi ilə bağlı Övliya Çələbi mühüm məlumat verir. O, yazır: "Sultan Həsən cümə məscidinin əsası Azərbaycan hökmdarlarından Sultan Uzun Həsən tərəfindən qoyulmuşdur. O, vəfat edən zaman bu məscidin həyətində dəfn olunmuşdur. Binanın daxili və xarici hissəsində dörd çevrəsi və günbəzləri tamamilə minalanmış kaşı ilə örtülmüşdür. Mehrab və minbəri, azanverən yeri incə əl işinin misilsiz bir nümunəsi olub, heç kəs oraya əl vurmağa cürət

etmir. Dörd çevrəsində olan pəncərələr dəmirçi əli, Nəcəf daşları ilə başdan-başa bəzədilmiş və parıldadılmışdır. Cənub qapısının dörd tərəfində cürbəcür gözəl xətlərlə yazılmış kitabələri, yonma naxışları, şəbəkələri və Rum üslubundakı naxışlarının hər biri insanı məftun edir. İncə naxışlar çəkən ustalar bu sahədə öz yüksək məharətlərini göstərmişlər. Bütün qapı və pəncərələrin üzərində yaraşıqlı, biçimli kitabələr vardır. Onların hamısı Yaqut Müstəsimin xəttilə yazılmışdır. Mehrabın iki tərəfində sarı rəngdə iki gözəl daş parçası vardır ki, hər biri İran və Turan xəracına dəyər, onlar sanki kəhrəbadır. Başqa ölkələrdə bu sütunların bənzəri yoxdur" [2, 22; 231, 94].

1478-1484-cü illərdə Təbrizin mərkəzində bir dərə ilə ayrılan Sahibabad meydanında möhtəşəm saray kompleksi tikdirilmişdir. Saray kompleksinin fərqli xüsusiyyəti onun ərazi baxımından böyük olan bağ daxilində yerləşməsidir. Saray kompleksi "Həştbehişt" ("Səkkiz cənnət") adlanırdı [145, 199; 104, 232]. Böyük meydanın qərb tərəfindəki kəmərli ağ qapıdan keçərək baxça içərisində olan saraya girilirdi. Birmərtəbəli yuvarlaq şəklində olan bu tikilinin üstünü möhtəşəm qübbə örtürdü. Bina dörd salon və bir çox kiçik otaqlardan ibarət idi [231, 94; 215, 228]. 1478-ci ildə Uzun Həsən dövründə sarayın tikintisinə başlanılmış, Sultan Yaqub dövründə başa çatdırılmışdır. Fəzlullah ibn Ruzbihan Xuncinin verdiyi məlumata görə, Sahibabad bağının mərkəzində səkkizbucaqlı formasında olan füruzəyi rəngli bu saray kompleksinin tikintisi 1486-cı ildə başa çatdırılmışdı. Onun yüksək itiuclu qülləsi piramidalarla rəqabət apara bilər [68, 69].

Həştbehişt saray kompleksi barədə ən mühüm məlumatı Venesiyalı tacir öz səyahətnaməsində verir. Venesiyalı tacir sarayın Uzun Həsən tərəfindən tikdirildiyini söyləsə də, yuxarıda qeyd etdiyimiz kimi onun tikintisi Sultan Yaqub dövründə başa çatdırılmışdı. Həştbehişt saray kompleksi barədə Venesiya taciri yazır: "Saray şəhərin yaxınlığındakı böyük və gözəl bir bağın ortasında inşa edilmişdir. Burada divarla əhatə olunan cümə məscidi tikilmişdi. Ona da zəngin və faydalı şəfa evi bir-

ləşdirmişdi. Bu saraya bizim dilimizdə səkkiz bölüm mənasını verən farsca "Həşt behişt" deyirlər. Çünki səkkiz bölümə ayrılmışdır. Yüksəkliyi otuz addım, ətrafı yetmiş və ya səksən metrdir. Hər biri dörd otaqdan ibarət olan saray səkkiz hissəyə bölünmüşdü. Sarayın digər hissəsi yuvarlaq və gözəl bir günbəzin altındadır. Bu saray bir tavanın altında inşa edilmişdir. Günbəzə və otaqlara girmək üçün bir nərdivan düzəldilmişdir. Otaqlara giriş yolu günbəzin ətrafındakı divardadır. Bu binanın digər çoxlu otaqlarına dörd giriş qapısı vardır. Bütün otaqlar kaşı və qızıldan istifadə edilməklə hazırlanmışdır. O qədər gözəl işlənmişdir ki, onu təsvir etməyə söz tapmaq çətindir.

Daha əvvəl də söylədiyim kimi, bu sarayı sanki bir bağın ortasındakı taxt üzərində inşa etmişlər ... Mənzərəni göstərmək üçün səkini yüksəltmişlər. Onun yüksəkliyi bir metr yarım, eni beş metr olan meydana bənzəyir. Sarayın qapılarının hər birinin önünə taxta kimi uzanan mərmər döşəmişlər. Sarayın əsas qapısının önünə ən yaxşı mərmərlərdən kiçik piləkənlər düzəltmişlər. Buradan taxta keçilir. Taxtın ortasında mərmərlər üzərində ustalıqla su kanalı oymuşlar. Onun eni və dərinliyi dörd barmaq həcmindədir. Su kəmər və ya ilan kimi qıvrılmış şəkildə oyduqları bu kanaldan axır. Su bir nöqtədən qaynayır kanalda axaraq qıvrımlı yolu keçdikdən sonra yenidən mənbəyinə qayıdır və başqa bir məcraya tökülərək digər yerə axırdı. Taxtdan üç metrə qədər yüksəkliyi saf mərmərdən inşa etmişlər. Aşağı hissələr isə gipsdən tikilmiş və müxtəlif rənglərlə bəzədilmişdi. Bu mənzərə uzaqdan ayna kimi görünürdü.

Sarayın çardağının hərküncündə su tökülməsi üçün borular var idi. Onlar olduqca böyük idi və əjdaha formasında bürüncdən hazırlanmışdı. Onların hər birindən bir top tökmək mümkündür. Əjdaha naxışlarını o qədər gözəl düzəltmiş və parlatmışlar ki, canlıya bənzəyir. Sarayın içindəki böyük salonun tavanını Ağqoyunluların illər öncə apardıqları döyüşləri əks etdirən qızıl, gümüş və laciverd təsvirlərlə bəzəmişlər. Eyni şəkildə Osmanlıların Təbrizə göndərdikləri və Həsən bəyin hüzuruna qəbul edilən bir qrup elçini təsvir edən rəsmlər də görünür. Uzun

Həsənin onlara verdiyi cavabları və istəklərini əks etdirən mətn farsca yazılmışdır. Ov səhnəsinin təsvirində Həsən bəyin bir çox əmirlərlə birlikdə hamısı ata minmiş halda, yanlarında şahin və tazılar olduğu görünür. Hər biri bir hadisəni əks etdirən fil və kərgədan kimi heyvanlar da bu rəsmə yerləşdirilmişdi. Böyük salonun tavanı qızıl suyu və laciverdlə olduqca gözəl bəzədilmişdi. Naxışları o qədər gözəl bəzəmişlər ki, insan təsvirləri canlı kimi görünür.

Salonun döşəməsinə çox gözəl naxışları olan ipək xalılar döşəmişlər. Bu xalı yuvarlaq olub, tamamilə salonun döşəməsini örtmüşdür. Digər otaqlar da bəzədilmişdi. Bu salonun işığı yoxdur. Ona ancaq digər otaqlardan işıq düşür. Orta salonun otaqlarını və dəhlizləri işıqlandıran çoxlu pəncərələri var. Hər dəhlizin bir pəncərəsi vardır. Amma bu pəncərə otağın divarı ölçüsündə və gözəl şəkildə yerləşdirilmişdi. Qapılar açıq olduqda saray, daha döğrusu salon, bu naxışlar və şəkillərlə o qədər gözəl parlayır, işıq saçır ki, onu görmək insanı həyacanlandırır.

... Saraydan bir öx atımlıq məsafədə birmərtəbəli hərəmxana binası gözə dəyir. Bura kifayət qədər böyük idi. Min qadın müxtəlif otaqlarda rahatlıqla qala bilirdi. Otaqlardan biri salon şəklində idi, divarlarının hər yanı qızılı rənglərlə bəzədilmişdi. Bu hərəmin tavanı qızıl və laciverdlə bəzədilmişdi. Bu salonun hər tərəfdən otaqların çoxuna açılan qapıları vardı. Qapıların hamısı qızıl və laciverdlə işlənmiş, üzərlərinə olduqca gözəl şəkillər, mirvaridən çoxlu işarələr və hərflər işlənmişdi. Bu salonun ortasında genişliyi bir zira* və dərinliyi də o qədər olan təmiz su axırdı. Bu hərəmxananın bir tərəfində böyüklüyü dörd metr olan bir hovuz vardır. Onu qızıl və laciverdlə bəzəmişdilər. Bağın içində olan hərəmxananın biri cənuba, digərləri də şimala və şərqə baxan üç qapısı vardı. Cənubdakı qapını kərpiçdən aypara şəklində tikmişlər. Bu qapıdan keçdikdə on beş addım məsafədə, sol tərəfdə uzunluğu bir ox atımı, genişliyi altı addım

* Qolun dirsəyindən orta barmağın ucuna qədər olan uzunluq vahidi zira adlanır.

olan bir dəhliz uzanır. Bu başdan o başa müxtəlif rəngli kirəçlərlə məharətlə işlənmiş, diqqəti cəlb edən müqəvvalar və mərmərdən kürsülər düzəldilmişdi. Tavanı kirəclə və qızılla bəzədilmişdi. Dəhlizə bu başdan o başa kimi xalis mərmərdən sütunlar qoymuşlar. Bunun qarşısında rəsimli yer boyunca mərmərdən oyduqları, su ilə dolu və eni 25 addım olan bir çərhovuz görünürdü. Bu çərhovuzda dörd və ya beş cüt qu-quşu üzürdü. Çərhovuzun ətrafına gül və yasəmən ağacı əkilmişdi, oradan səltənət sarayına qədər düz bir yol uzanırdı.

Şimal tərəfə gedən yol yeri kərpic döşənmiş və ətrafına mərmərdən kürsülər yerləşdirilən namazxana adlanan yerdən keçilirdi. Bu ərazi o qədər geniş idi ki, üç yüz at yerləşə bilirdi. Burada padşahın sarayına qədər uzanan yola açılan bir qapı vardı. O, hündürlüyü onbeş, eni dörd metr olan kəmər şəklində olub, yuxarıdan aşağıya doğru nəfis şəkildə kirəclə bəzədilmişdi. Bu qapını eni bir metr yarım, boyu yenə bu ölçüdə olan mərmər daşından inşa etmişdilər. Günəş işığı düşən zaman o billur kimi gözəl parlayırdı ... Bu qapıdan səltənt sarayına qədər uzanan yaxşı daş yol çəkmişlər.

Şərq tərəfdəki başqa bir qapı böyük meydanda yer alır, bağa açılırdı. Bu qapının boyu üç, eni iki metr olan kərpicdən kəmər formasında divarı vardır. O, bəzədilməsə də, ağ kirəclə boyanmışdır. Bu qapının önündə çoxlu otağı, üstüqapalı bir salonu olan bina inşa etmişlər. Meydana baxan tərəfdə ağ daşdan yuvarlaq bir eyvan tikmişlər. O qədər bəyazdır ki, ömrüm boyu ondan daha bəyazını görməmişəm. Bayram mərasimləri hər zaman bu meydanda təşkil olunurdu. Bu qapının səltənət sarayına məsafəsi digər qapılardan daha uzaqdır. Bu nöqtədən daha öncə söz açdığım cümə məscidi və şəfa evi ilə birlikdə meydanın gözəl mənzərəsi görünür. Həsən bəyin inşa etdirdiyi bu cümə məscidi olduqca böyük olub, qızıl suyu və kirəclə bəzədilmiş çoxlu otaqları vardır.

Şəfa evi böyük olub, çoxlu binası vardır. İçi cümə məscidindən daha çox bəzədilmişdir. Hər birinin uzunluğu on, eni dörd metr olan çoxlu salonu vardır. Hər birinə salonların ölçüsü

böyüklüyündə xalı döşənmişdir. Cümə məscidi ilə şəfa evi arasına divar çəkilmişdi. Şəfa evindən bayırda hündürlüyü bir zira və eni iki metr olan səki çəkilmişdi. Su səkiyə, cümə məscidinə və şəfa evinə girməsin deyə səkinin ətrafına dəmir zəncir çəkmişdilər. Həmin zənciri Sultan Yaqubun vəfatına kimi qorumuşdular. Həsən bəy və Sultan Yaqub dövründə şəfa evində mindən çox xəstə müalicə olunmuşdur" [45, 161-165; 231, 94-95; 215, 228-229].

Venesiyalı tacirin verdiyi məlumatlara görə, Təbrizin Sahibabad meydanında inşa edilmiş saray kompleksinə möhtəşəm, əzəmətli "Həştbehişt" sarayı, Uzun Həsən cümə məscidi, Nəsriyyə mədrəsəsi, Şəfa evi və cıdır meydanı daxil idi. Maraqlıdır ki, Uzun Həsən tərəfindən Təbrizdə tikdirilən üstüörtülü "Qeysəriyyə" bazarı kimi "Həştbehişt" saray kompleksi də səkkizbucaqlı formada inşa edilmişdir.

S.Ərşahinin fikrincə, Əbdürrəhman Cami də "Hatimətul-Həyat" adlı üçüncü divanında Həştbehişt sarayı ilə bağlı yazmışdır: "Bu saray deyil, başqa bir cənnətdir. Səfa ərbabına açılmış səkkiz qapıdır. Ona yerində səkiz cənnət demişlər. Çünki içindəki hər naxışda bir huri çöhrəsi cilvələnməkdədir" [215, 229].

Beləliklə, XV əsr Azərbaycan memarlığının və şəhərsalma sənətinin ən gözəl nümunələri Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin paytaxtı olan Təbrizdə və Şirvanşahlar dövlətinin paytaxtı Bakıda yaradılmışdı. Yaradılmış müxtəlif təyinatlı memarlıq obyektləri özünün kamilliyi, gözəlliyi ilə seçilir və Azərbaycan memarlığının çoxəsrlik ənənələrini yaşadırdı.

Azərbaycanın orta əsr incəsənət ustaları, memar, xəttat və rəssamları dünya mədəniyyəti xəzinəsinə möhtəşəm memarlıq abidələri, kamil sənət nümunələri bəxş etmişlər. Yuxarıda adlarını qeyd etdiyimiz zərif işlənmiş orta əsr abidələri Azərbaycan memarlığının ölməz əsərləridir.

XV əsrdə təkcə Azərbaycan torpaqlarını deyil, eyni zamanda qonşu ölkələrin ərazilərini də əhatə edən qüdrətli Azərbaycan-türk imperiyalarının, o cümlədən Qaraqoyunlu və Ağqo-

yunlu dövlətlərinin yaranması ilə ictimai-iqtisadi və siyasi sahədə olduğu kimi, mədəni həyatda da böyük canlanma müşahidə olunurdu. XV əsradə Azərbaycan xalqı Yaxın və Orta Şərqin mədəni həyatında önəmli rol oynayaraq ədəbiyyat və incəsənət, müxtəlif elm sahələrində parlaq nümunələr yaratmışdı. Bu dövrdə Azərbaycan mədəniyyəti sərhəd tanımamış, böyük bir regionda mükəmməl, "əsrləri adlayıb keçəcək" izlər qoymuşdur.

# NƏTİCƏ

Azərbaycan coğrafi və iqtisadi vahiddir, müxtəlifliyə əsaslanan mədəni tamdır, bir-biri ilə üzvi surətdə bağlı olan ziddiyyətlərin kompleksidir. Azərbaycanın bu tarixi, coğrafı, iqtisadi və ictimaı-siyasi tamlığı çoxəsrlik, ziddiyyətli inkişafın nəticəsidir. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixı bu tamın mühüm hissələrindən biridir.

Tarixi prosesin dərinliklərinə varmaq müasir dövrün öyrənilməsi və dərk olunmasının əsasını təşkil edir. Tarixin dərslərini başa düşmədən ictimai münasibətlərin mürəkkəb labirintindən çıxmaq mümkün deyildir. İctimai quruluşun strukturu nə qədər mürəkkəbdirsə, onun başlıca qanunlarının və dəyişən formalarının, onun meydana gəlməsi və ölüb getməsinin konkret tarixi tədqiqi bir o qədər vacibdir. Buna görə də, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin tədqiqi həm Azərbaycan, həm də Türkiyə tarixşünaslığında öz aktuallığı ilə diqqəti cəlb edir. Problemin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsinin öyrənilməsi bir sıra cəhətləri aşkara çıxarmışdır. Öncə qeyd olunmalıdır ki, Türkiyə tarixçilərinin əksəriyyəti problemin müxtəlif tərəflərini tədqiq edərkən qarşıya qoyulan məsələyə daha obyektiv yanaşmağa səy göstərirlər. Ayrı-ayrı əsərlərdə tarixi hadisələr araşdırılarkən çox zaman mühüm faktlara istinad edilir, lakin bu hadisələrin geniş təhlili deyil, xülasəsi öz əksini tapır. Türkiyə tarixçiləri Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-siyasi tarixini tədqiq edərkən Azərbaycan tarixçilərinin problemlə bağlı olan əsərlərindən kifayət dərəcədə faydalanmırlar.

Bu çatışmamazlıqlarına baxmayraq, Türkiyə tarixçiləri problemin daha dərindən tədqiqinə müəyyən dərəcədə nail olmağa çalışmışlar. Bunu şərtləndirən başlıca amillərdən biri problemin hərtərəfli tədqiqinə imkan yaradan ilk mənbələrin

Türkiyə arxivlərində kifayət dərəcədə olmasıdır.

Türkiyə tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarxinin tədqiqinə XX əsrin 20-ci illərin sonu, 30-cu illərində başlanılmışdır. Əvvəllər Türkiyə tarixçiləri (C.Zeynaloğlu, Rza Nur, Z.V.Toğan və b.) ümumtürk tarixini araşdırarkən onun tərkib hissəsi kimi Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə müraciət etmişlər. Məhz ötən əsrin 30-cu illərində Türkiyə tarixşünaslığında İ.H.Uzunçarşılının "Anadolu bəylikləri və Ağqoyunlu, Qaraqoyunlu dövlətləri" monoqrafiyasının nəşr olunması ilə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tədqiqinə başlanıldı. O, çoxcildlik "Osmanlı tarixi" və digər əsərlərində də Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-siyasi və mədəni tarixi ilə bağlı məsələləri tədqiq etmişdir. Bu dövrdə M.X.Yınancın Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı iri həcmli məqalələri çap olunmuşdur. Qarqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı ilk mənbələr, o cümlədən Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsəri məhz M.X.Yınanc tərəfindən ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

XX əsrin 50-ci illərində A.S.Ərzinin "Akkoyunlu ve Karakoyunlu tarihi hakkında araşdırmalar"ı, B.S.Baykalın Ağqoyunlu-Osmanlı münasibətləri ilə bağlı məqalələri nəşr olundu. Məhz bu dövrdə F.Sümerin Qaraqoyunlu dövlətinin tarixi ilə bağlı əsəri də çapdan çıxdı. Burada Qaraqoyunlu tayfalarının mənşəyi məsələsi aydınlaşdırılmış, əsasən Qaraqoyunlu dövlətinin Cahanşah dövrünə kimi siyasi tarixi məsələləri araşdırılmışdır. F.Sümer və Necati Luğal tərəfindən Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərinin çap olunması Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin tarixini daha dərindən tədqiq etmək üçün tarixçilər qarşısında geniş imkanlar yaratdı. Məhz bu dövrdə Şərafəddin Turanın "Fatih Mehmet-Uzun Həsən mübarizəsi və Venesiya" adlı geniş həcmli elmi məqaləsi çap olundu.

Zaman keçdikcə bu dövrə aid yeni mənbələrin işıq üzü görməsi ilə Türkiyə tədqiqatçılarının da XV əsr Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinə maraqları artmış, bu tarixi

yenidən nəzərdən keçirmək və dəyərləndirmək ehtiyacı ortaya çıxmışdır. Bunun nəticəsində Qaraqoyunlu və Ağqoyunlu dövlətinin tarixinə aid yeni önəmli akademik tədqiqatlar nəşr edilmişdir. Bunlara İsmayıl Akanın Teymuri-Qaraqoyunlu münasibətlərindən bəhs edən "Teymur və dövləti", "Şahrux və zamanı", "İranda Türkmən hakimiyyəti (Qaraqoyunlular dövrü)", S.Ərşahinin "Ağqoyunlular. Siyasi, kültürəl, iqtisadi və sosial tarix" və İlhan Erdem, Kazım Paydaşın "Ağqoyunlu dövləti tarixi. Siyasət-təşkilat-kültür" əsərlərini göstərmək olar.

Türkiyə tarixşünaslığında problemin müxtəlif tərəfləri, o cümlədən Qaraqoyunluların və Ağqoyunluların mənşəyi məsələsi, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi, siyasi və mədəni tarixi, Qaraqoyunlu-Teymuri, Qaraqoyunlu-Gürcüstan, Qaraqoyunlu-Məmlük, Ağqoyunlu-Səfəvi, Ağqoyunlu-Teymuri, Ağqoyunlu-Məmlük, Ağqoyunlu-Gürcüstan, Qaraqoyunlu-Ağqoyunlu-Osmanlı münasibətlərinin tədqiqinə səy göstərilmişdir. Lakin Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətinin iqtisadi tarixi ilə bağlı olan məsələlər Türkiyə tarixşünaslığında xüsusi tədqiqat obyektinə çevrilməsə də, bu sahədə müəyyən nailiyyətlər əldə olunmuşdur.

Qaraqoyunlu və Ağqoyunlu tayfalarının mənşəyi məsələsi, həmin tayfaların Azərbaycanın etnik və siyasi tarixində tutduğu yer və oynadığı tarixi rol Azərbaycan tarixşünaslığında hərtərəfli, lazımi səviyyədə öyrənilmədiyi üçün bu problemin Türkiyə tarixşünaslığında tədqiqi xüsusi maraq doğurur. Lakin qeyd etmək lazımdır ki, bu məsələ Türkiyə tarixşünaslığında da özünün tam həllini tapmamışdır. Müasir Türkiyə tarixçilərinin əsərlərində əsasən Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin təşəkkülü prosesində mühüm rol oynayan Qaraqoyunlu və Ağqoyunlu tayfalarının dövlətin yaranmasına qədərki tarixinə xüsusi diqqət yetirilmişdir. Bu, eyni zamanda dövlətin yaranmasında da həmin tayfaların oynadığı rolu tam şəkildə anlamağa imkan verir.

Lakin xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanda yaranmış Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixini

araşdıran Faruq Sümer Qaraqoyunlu dövlətinin təşəkkülü prosesində iştirak etmiş Qaraqoyunlu tayfalarının ilkin Vətəninin Şərqi Anadolu olduğunu göstərmiş, Qaraqoyunlu dövlətinin əsas yaradıcılarının Şərqi Anadoludan köçmüş tayfalar olduğunu qeyd edərək onların tarixi rolunu mütləqləşdirmişdir. Lakin onun mülahizəsi heç də möhkəm tarixi dəlillərə əsaslanmadığı üçün inandırıcı deyildir. Çünki Faruq Sümer öz əsərində Qaraqoyunlu tayfalarının məskunlaşma yerini qeyd edərkən onların əksəriyyətinin Azərbaycanda olduğunu qeyd etmişdir. Digər tərəfdən isə nəzərə alınmalıdır ki, Azərbaycan ərazisi tarix boyu müxtəlif türk tayfalarının Şərqdən-Qərbə miqrasiyası prosesində körpü rolu oynamış, onların bu ərazidə məskunlaşma tarixi Şərqi Anadoluya nisbətən daha erkən olmuşdur.

Bəzi Türkiyə tarixçilərinin etiraf etdiyi kimi, Qaraqoyunlu tayfalarının bir hissəsinin Şərqi Anadoluda məskunlaşması tarixi monqolların Azərbaycanı istilasından sonra başlanmışdır. Buna görə də, şübhəsizdir ki, Qaraqoyunlu tayfa birliyi Cənub-Qərbi Azərbaycanda və Şərqi Anadoluda məskunlaşmış tayfaları özündə birləşdirərək dövrün siyasi hadisələrində fəal rol oynamış və dövlətin təşəkkülü prosesində Şərqi Anadoluda qərarlaşmış Qaraqoyunlu tayfaları da iştirak etmişdilər. Onların tarixı rolunu nə danmağa, nə də şişirtməyə heç bir ehtiyac duyulmur.

Türkiyə tarixçiləri (İ.H.Uzunçarşılı, M.X. Yınanç, F.Sümer, İ.Aka və b.) öz əsərlərində ərəb, fars və türk dilində yazılmış ilk mənbələrdən geniş istifadə edərək Qaraqoyunlu dövlətinin siyasi tarixinin tam mənzərəsini yaratmışlar. Lakin bu əsərlərdə Qaraqoyunlu dövləti ilə Osmanlı Türkiyəsi arasında qismən sabit dostluq əlaqələrinin olmasına baxmayaraq, bu dövlətlər arasındakı münasibətlərin geniş tədqiqata cəlb olunmamasını izah etmək çətindir. Halbuki, Ağqoyunlu dövlətinin siyasi tarixi tədqiq olunarkən Ağqoyunlu-Osmanlı münasibətlərinə daha geniş yer verilmişdir. Türkiyə tarixçiləri Ağqoyunlu-Osmanlı münasibətlərində qərarlaşmış düşmənçilik münasibətlərini daha qabarıq şəkildə göstərmiş, lakin düşmənçiliyin kökləri hərtərəfli izah olunmamışdır. Bu dövlətlər arasındakı münasibət-

lərin kəskinləşməsində və müharibə vəziyyətinin yaranmasında bütün günahlar Ağqoyunluların üzərinə atılmış, hadisələrin düzgün və obyektiv izahından çəkinmişlər. Onların bu mövqeyi Osmanlı imperiyasının Ağqoyunlulara qarşı və bütövlükdə Şərqdə yeritdiyi istilaçılıq siyasətinə haqq qazandırmaq cəhdi kimi qiymətləndirilə bilər.

Müasir Türkiyə tarixçiləri Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin siyasi tarixini tədqiq edərkən, ilk mənbələrdən geniş şəkildə istifadə etsə də, həmin dövlətlərin siyasi tarixi ilə bağlı olan müxtəlif hadisələr arasındakı qarşılıqlı əlaqə ətraflı elmi izahını tapmamışdır. Buna görə də, bu dövlətlərin siyasi tarixi sanki sıyasi hadisələrin məcmusu kimi təqdim edilmişdir.

Türkiyə tarixşünaslığında problemin tədqıqı səviyyəsi öyrənilərkən son 90 ildə Türkiyə tarixçiləri tərəfindən yazılmış 250-yə yaxın monoqrafıyaya və elmi məqalələrə müraciət edilmişdir. Bu əsərlər elmi dəyər və obyektivlik baxımından qruplaşdırılmış, ilk mənbələrə istinad edilərək təhlıl edilmişdir.

Monoqrafiyada Türkiyə tarixçilərinin elmi araşdırmalarından geniş istifadə olunaraq Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-iqtisadi və siyasi tarixinin müxtəlif məsələləri ilə bağlı tarixı həqiqətlər bərpa edilmişdir. Digər tərəfdən Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qonşu dövlətlərlə əlaqələrinin Türkiyə tarixşünaslığında tədqiqi səviyyəsi aydınlaşdırılmışdır. Türkiyə tarixçilərinin tədqiqatlarında bu məsələlərə xüsusi diqqət yetirilmişdir. Tarixşünaslığımızda Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin qonşu Gürcüstan və Məmlük dövləti ilə əlaqələri araşdırılmadığı üçün Türkiyə tarixçilərinin bu sahədə əldə etdiyi nəticələrdən istifadə olunmaqla həmin məsələlərin aydınlaşdırılmasına çalışılmşdır. Bununla yanaşı, Azərbaycan Qaraqoyunlu dövlətinin Osmanlı dövləti ilə siyasi əlaqələrinin Türkiyə tarixşünaslığında zəif tədqiqi nəzərə alınaraq bu məsələlər ilk mənbələr əsasında araşdırılmışdır.

Monaqrafiyada Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin idarə sistemi və dövlət quruluşu məsələlərinin Türkiyə tarixşünaslığında tədqiqi məsələlərinə aydınlıq gətiril-

mişdir. Qaraqoyunlu və Ağqoyunluların hakimiyyət sistemi, xanədan və hökmdarlar arasındakı əlaqə, hökmdarlarının daşımış olduğu ünvanlar (sultan, padşah və b.) təhlil olunmuşdur. Burada mərkəzi idarə sistemi, saray təşkilatı, vilayətlərin idarə edilməsi, ədliyyə təşkilatı, qazi-əsgər, qazı, müfti, mühtəsib qurumlarının izahı verilmişdir. Həmçinin burada Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hərbi təşkilatı, əsgəri birliklər, xassə ordusu, əyalət qoşunu, dövlətə bağlı olan qüvvələr, ordu quruluşu, silahlar və döyüş taktikası haqqında mühüm məlumatlara aydınlıq gətirilmişdir.

Monaqrafiyada həmçinin, Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mənəvi həyat məsələlərinin Türkiyə tarixşünaslığında tədqiqi məsələlərinə də xüsusi diqqət yetirilmişdir. Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının elmin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirmələri nəzərə çatdırılmışdır. Ağqoyunlu hökmdarlarının bu sahədəki siyasəti, eləcə də Ağqoyunlu sarayından dəstək alan elm və mədəniyyət xadimləri haqqında dəyərli məlumatlar qeyd edilmiş, Uzün Həsənin Quranı türk dilinə tərcümə etdirməsi, eləcə də Ağqoyunlular dövründə Azərbaycanda xəttatlıq və miniatür sənətinin inkişafı, onun görkəmli nümayəndələri barədə mühüm məlumat verilmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin Azərbaycana və daha sonra da İran və İraqa sahib olması mənəvi həyata yeni bir can vermişdi. Mərkəzləşdirilmiş dövlət yaratmağa çalışan Uzun Həsən çox mükəmməl idarə və hərbi təşkilat yaratdığı kimi, ölkəsində elmin və mədəniyyətin inkişafına da böyük önəm verdiyindən hər tərəfdə mədrəsələr və digər müəssisələr yaratmışdı. Ağqoyunlu dövləti türk siyasi, hərbi, maliyyə, sosial və mədəniyyət tarixində önəmli iz qoymuşdur. Onların yaratmış olduqları memarlıq və sənət əsərləri Anadoludan Azərbaycana, İraqdan Xorasana qədər geniş bir ərazidə günümüzə kimi gəlib çatmışdır.

Türkiyə tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixinin tədqiqi səviyyəsinin öyrənilməsi göstərir ki, onlar bizim üçün əlçatmaz olan qiymətli ilk mənbələrdən,

arxiv sənədlərindən, xüsusən də əlyazma nüsxələri Türkiyə arxivlərində və kitabxanalarında saxlanılan Məmlük tarixçilərinin əsərlərindən hərtərəfli istifadə etməklə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ictimai-siyasi tarixini, qonşu dövlətlərlə qarşılıqlı əlaqələrini işıqlandırmağa nail olmuşlar. Türkiyə tarixçilərinin Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi ilə bağlı araşdırmalarında öz əksini tapmış olan qiymətli faktik materialın tarixşünaslığımıza gətirilməsinin mühüm əhəmiyyəti vardır.

## “Azerbaijan Garagoyunlu and Aghgoyunlu states”

## Summary

A number of important problems have remained for our history science from the viewpoint of studying the Middle Ages history of the Azerbaijani people. One ofsuch issues is the research of important political, socio-economic and ethnic changes occurred in the XV century in Azerbaijan. Generally speaking, the XV century known in Azerbaijan as the period of the Garagoyunlu and Aghgoyunlu may be considered for its historical and philosophical nature as a turning point in our history. This period has a special place in the history of national development of Azerbaijani Turks. Just in the beginning of the XV century was put an end to the foreign domination and was restored the ancient Oghuz-Turkic statehood traditions. With the creation of the Garagoyunlu and replaced by the Aghgoyunlu states Ogouzes (Turkmans) had gained not only from the ethnic viewpoint, but also a politically dominant position in the territory of Azerbaijan.

As in the West medieval history, also in Turkish historiography the Garagoyunlu-Aghgoyunlu period has been considered for a long time as merely an interim or transitional period between two great periods – Elkhani-Mongol and Safavi-Gizilbash periods in the history of “the central Muslim territories”. According to supporters of this concept, in the XVI century the Safavi state was the period of restoration of Iran national statehood. The Garagoyunlu and Aghgoyunlu period was considered a preparatory period just on the eve of the restoration of national statehood in Iran. Naturally, within the framework of this conception to understand the real essence of Azerbaijan’s XV century history is not possible.

